شمائل النَّبي

للإِمَام الحَافِظ أَبِي عِيسَى

مُحَمَّدِ بْنِ عِيسَى بْنِ سَوْرَةَ التِّرْمِذِي

(٢٠٩-٢٧٩ هـ)



قَالَ الله تَعالى:

﴿ لَّقَدۡ كَانَ لَكُمۡ فِي رَسُولِ ٱللَّهِ أُسۡوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرۡجُواْ ٱللَّهَ وَٱلۡيَوۡمَ ٱلۡأٓخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرٗا ﴾

Uca Allah ﷻ buyurur:
“Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.”

Peyğəmbərin ﷺ xislətləri

İmam hafiz Əbu İsa
Muhəmməd ibn İsa ibn Sovrə
ət-Tirmizi (209-279 h)



Tərcümə edən:
Əlixan Musayev

Redaksiya heyəti

M. N. Qarayev
A. X. Salehli
S. Z. Səfərbəyov
R. M. Ağayev
G. İ. Musayeva

Bu kitab Azərbaycan Respublikası
Dini Qurumlarla İş üzrə
Dövlət Komitəsinin
razılığı ilə çap edilmişdir.
(DK-760/B - 11.03.2013)

Mərhəmətli və Rəhmli Allahın adı ilə!

Müqəddimə

Həqiqətən şükür və tərif yalnız Allaha məxsusdur! Biz Ona həmd edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma və bizi doğru yola yönəltməyi diləyirik, nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Allah kimə hidayət verərsə onu azdıran tapılmaz, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir.

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ حَقَّ تُقَاتِهِۦ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم مُّسۡلِمُونَ﴾

“Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!”[1]

﴿يَٰٓأَيُّهَا ٱلنَّاسُ ٱتَّقُواْ رَبَّكُمُ ٱلَّذِي خَلَقَكُم مِّن نَّفۡسٖ وَٰحِدَةٖ وَخَلَقَ مِنۡهَا زَوۡجَهَا وَبَثَّ مِنۡهُمَا رِجَالٗا كَثِيرٗا وَنِسَآءٗۚ وَٱتَّقُواْ ٱللَّهَ ٱلَّذِي تَسَآءَلُونَ بِهِۦ وَٱلۡأَرۡحَامَۚ إِنَّ ٱللَّهَ كَانَ عَلَيۡكُمۡ رَقِيبٗا﴾

“Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın *törədib yer üzünə* yayan Rəbbinizdən qorxun! Adı ilə birbirinizdən *cürbəcür şeylər* istədiyiniz

[1] “Ali-İmran” surəsi, 102.

Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir".[1]

﴿يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ ٱتَّقُواْ ٱللَّهَ وَقُولُواْ قَوۡلٗا سَدِيدٗا ٧٠ يُصۡلِحۡ لَكُمۡ أَعۡمَٰلَكُمۡ وَيَغۡفِرۡ لَكُمۡ ذُنُوبَكُمۡۗ وَمَن يُطِعِ ٱللَّهَ وَرَسُولَهُۥ فَقَدۡ فَازَ فَوۡزًا عَظِيمًا ٧١﴾

"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar".[2]

Bizi müsəlman kimi yaradan, doğru yola yönəldərək hidayət verən, Peyğəmbərimizin ﷺ sünnəsini yaşamağa kömək edən, aləmlərin Rəbbi, haqq-hesab gününün Hökmdarı olan Uca Allaha şükürlər və həmd-sənalar olsun!

Əlimizdə olan bu kitab, Peyğəmbərimizi ﷺ vəsf edən, onun gözəl əxlaqı və mənəvi dəyərləri barədə danışan möhtəşəm bir kitabdır. Bu, İslam aləmində tanınmış mühəddis, imam hafiz Əbu İsa Muhəmməd ibn İsa ibn Sovrə ət-Tirmizinin "Şəmailun-Nəbi" adlı kitabıdır. Ərəbcə "Şəmail"– şimal kəlməsinin cəmidir. Şimal kəlməsinin hərfi tərcüməsi xislət, insanın təbiətinə məxsus sifət və xasiyyət deməkdir. Bu kitabın ünvanında şəmail deyildikdə isə, Muhəmməd Peyğəmbərin ﷺ həm zahiri, həm də batini sifətləri – zahiri görünüşü və özünəməxsus

[1] "ən-Nisa" surəsi, 1.

[2] "əl-Əhzab" surəsi, 70-71.

mənəvi dəyərləri nəzərdə tutulur. Bu kitab Peyğəmbərin ﷺ vəsfi, onun səciyyəvi xisləti, ali əxlaqı və insanlarla gözəl davranışı barədə indiyədək yazılmış kitabların ən dəyərlisidir. Biz bu kitabı öyrənməklə insanların ən fəzilətlisini, Allahın ən sevimli qulunu, Onun bütün bəşəriyyətə peyğəmbər olaraq göndərdiyi adamı tanımış olacağıq. Rəsulullah ﷺ Allahın ən sevimli dostu, Onun sonuncu peyğəmbəri və bütün bəşəriyyətə göndərdiyi elçisi, habelə ən abid, ən əxlaqlı, ən həlim, Allahı ən yaxşı tanıyan və Ondan ən çox qorxan bir insan olmuşdur. Allah sübhanəhu və təalə onu ən gözəl əxlaq sahibi etmişdir. Uca Allah buyurur:

﴿ لَّقَدۡ كَانَ لَكُمۡ فِي رَسُولِ ٱللَّهِ أُسۡوَةٌ حَسَنَةٞ لِّمَن كَانَ يَرۡجُواْ ٱللَّهَ وَٱلۡيَوۡمَ ٱلۡأٓخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرٗا ﴾

“Allahın rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir.”[1]

İbn Kəsir bu ayənin təfsirində demişdir: “Bu möhtəşəm ayə, Peyğəmbərin ﷺ sözlərində, hərəkətlərində və davranışında onun yolunu tutub getmək mövzusunda, ən çox etimad olunası ayədir.”

Peyğəmbərin ﷺ layiqli davamçısı olmaq üçün isə biz onun həyat tərzinə nəzər salmalı, onun necə insan olduğunu oxuyub öyrənməliyik. Bu kitab da Peyğəmbəri ﷺ vəsf edən bir kitabdır. Bu kitabı və ümumiyyətlə, bu

[1] “əl-Əhzab” surəsi, 21.

mövzuda yazılmış kitabları oxuyub-öyrənməyin faydaları çoxdur. Bu faydalardan bəzisini qeyd edək:

Birincisi; bilirik ki, Peyğəmbərə ﷺ iman gətirmək vacibdir. Ona iman gətirmək üçün isə onu tanımaq gərəkdir. Onu tanımadan ona iman gətirmək qeyri-mümkündür. Və onu nə qədər çox tanısaq, ona olan imanımız bir o qədər də artacaqdır;

İkincisi; məlumdur ki, Peyğəmbəri ﷺ sevmək hər bir möminə vacibdir. Özünü mömin sayan kimsə onu bütün insanlardan, hətta, özündən də çox sevməlidir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Canım Əlində olan Allaha and olsun ki, sizdən biriniz məni valideynindən, övladından və bütün insanlardan çox istəməyincə, iman gətirmiş olmaz."**[1] Şübhəsiz ki, Peyğəmbəri ﷺ yaxından tanımaq hər bir möminin qəlbində ona olan məhəbbətini artırır;

Üçüncüsü; Allah onu insanlara bir nümunə etmiş və onun yolunu tutub getməyi əmr etmişdir. Uca Allah buyurur:

﴿وَمَآ ءَاتَىٰكُمُ ٱلرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَىٰكُمْ عَنْهُ فَٱنتَهُوا۟﴾

"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi qadağan edirsə, ondan çəkinin."[2] Allah sübhanəhu və təalə həmçinin buyurur:

---

[1] "Səhih əl-Buxari", 14.

[2] "əl-Həşr" surəsi, 7.

﴿ قُلْ إِن كُنتُمْ تُحِبُّونَ ٱللَّهَ فَٱتَّبِعُونِى يُحْبِبْكُمُ ٱللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ ﴾

“De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir.”[1]

Dördüncüsü; Peyğəmbəri ﷺ tanımaq, ona iman gətirmək üçün ən gözəl vasitələrdən və ən mühim səbəblərdən biridir. Tarix boyu neçə-neçə insanlar olub ki, Peyğəmbəri ﷺ tanıdıqdan sonra İslamı qəbul ediblər. Belələri, haqqında yalanlar və böhtanlar eşidib araşdırmadan uzun müddət nifrət etdiyi bir adamın əxlaqını gördükdən sonra onu ən çox sevən, onu müdafiə etmək üçün Allah yolunda ölməyə hazır olan insanlar olmuşlar. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Əzdu-Şənuə qəbiləsindən olan və dəliləri ovsunla müalicə edən Dimad Məkkəyə gəldi. Məkkə əhlinin səfehlərinin: “Muhəmməd dəli olub!”– söylədiklərini eşitdi və öz-özünə dedi: “Kaş bu adamı görəydim! Bəlkə Allah ona mənim əlimlə şəfa verdi!” Nəhayət, Rəsulullaha ﷺ rast gəldi və *ona*: “Ey Muhəmməd, mən ovsunla cin vurmuş adamları müalicə edirəm. Allah, həqiqətən də, mənim əlimlə dilədiyinə şəfa verir. İstəyirsənsə, sənin üçün də *ovsun oxuyum*”– dedi. Onda Rəsulullah ﷺ belə buyurdu:

[1] “Ali-İmran” surəsi, 31.

﴿إِنَّ الْحَمْدَ لِلَّهِ نَحْمَدُهُ وَنَسْتَعِينُهُ مَنْ يَهْدِهِ اللَّهُ فَلاَ مُضِلَّ لَهُ وَمَنْ يُضْلِلْ فَلاَ هَادِيَ لَهُ وَأَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ وَأَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ، أَمَّا بَعْدُ﴾

"Həqiqətən bütün həmdlər Allaha məxsusdur! Biz Ona həmd edirik və Onu köməyə çağırırıq. Allah kimə hidayət verərsə, onu azdıran tapılmaz, kimi azdırarsa, onu doğru yola yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Təkdir, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd Onun qulu və elçisidir. Sonra isə..." Onda Dimad dedi: "Bu kəlmələrini mənə təkrar söylə!" Rəsulullah ﷺ bu sözləri üç dəfə təkrar etdi. *Axırda* Dimad dedi: "Mən, kahinlərin, cadugərlərin və şairlərin sözlərini *çox* eşitmişəm. Amma sənin bu sözlərinə bənzər heç bir söz eşitməmişəm. Sənin bu sözlərin dənizin ən əngin yerinə yetişdi.[1]" Sonra o: "Ver əlini, müsəlman olacağıma dair sənə beyət edim!"– dedi. Rəsulullah ﷺ ondan beyət aldıqdan sonra soruşdu: "Bu beyət qövmün üçün də olsunmu?" Dimad: "Qövmüm üçün də olsun!"– dedi..."[2]

Habelə, Hudeybiyə sülhünə nəzər salsaq görərik ki, müşriklərin, müsəlmanların yanına göndərdiyi Urva adlı nümayəndələri geri qayıtdıqdan sonra Rəsulullahın ﷺ necə insan olduğunu vəsf edib deyir: "Ay camaat! Allaha

[1] Yəni, qəlbimin dərinliyinə yol tapdı (Mufhim limə Əşkələ min Təlxis Kitab Muslim).

[2] "Səhih Muslim", 2045.

and olsun ki, mən bir nümayəndə kimi çox padşahların – Qeysərin, Xosrovun, Nəcaşinin və başqalarının – hüzurunda olmuşam, padşahların tərəfdarlarının onlara necə təzim etdiklərini də görmüşəm. Lakin Muhəmmədin səhabələrinin ona təzim etdikləri kimi heç bir padşaha təzim olunduğunu görməmişəm. Allaha and olsun ki, Peyğəmbərin ağzından çıxan tüpürcək onlardan birinin ovucuna düşsə, bu tüpürcəyi vücuduna sürtür. Onlara bir şey əmr etdikdə dərhal onu yerinə yetirirlər. Dəstəmaz aldığı suyun artığını əldə etmək üçün öz aralarında çəkişirlər. Onun yanında danışarkən səslərini qaldırmır və hörmət əlaməti olaraq onun üzünə baxmırlar! Həqiqətən də, o sizə xeyir, əmin-amanlıq və islah olunmağınızı təklif edir. Onun təklifini qəbul edin!”[1]

Əziz müsəlmanlar! Bir deyin görək, nə üçün insanlar Muhəmmədi ﷺ tanıdıqdan sonra İslam dininə rəğbət bəsləyirlər?! Ancaq onun gözəl rəftarına, əvəzolunmaz əxlaqına görə. Bunu da ona, hər şeyə qadir olan Qüdrətli Allah bəxş etmişdir. Bu xüsusda Uca Allah belə buyurur:

﴿ فَبِمَا رَحْمَةٍ مِّنَ ٱللَّهِ لِنتَ لَهُمْ ۖ وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ ٱلْقَلْبِ لَٱنفَضُّوا۟ مِنْ حَوْلِكَ ۖ فَٱعْفُ عَنْهُمْ وَٱسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِى ٱلْأَمْرِ ۖ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى ٱللَّهِ ۚ إِنَّ ٱللَّهَ يُحِبُّ ٱلْمُتَوَكِّلِينَ ﴾

[1] “Səhih əl-Buxari”, 2731.

“Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, *Allahdan* onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir.”[1]

Beşincisi, budur ki, Allah sübhanəhu və təalə Qurani Kərimdə Rəsulullahın ﷺ böyük əxlaq sahibi olduğunu xəbər verir:

﴿ وَإِنَّكَ لَعَلَىٰ خُلُقٍ عَظِيمٍ ﴾

“Həqiqətən də, sən böyük əxlaq sahibisən!”[2]

Aişədən رضي الله عنها Rəsulullahın ﷺ əxlaqı barədə soruşulduqda o demişdir: “Onun əxlaqı Quran idi.”[3]

Odur ki, hər kim gözəl əxlaq sahibi olmaq istəyirsə, Peyğəmbərin ﷺ həyat tərzinə nəzər salmalı, onun necə insan olduğunu oxuyub öyrənməli və öyrəndiklərinə əməl etməlidir.

Gəlin, iki böyük alimin bu xüsusda dediklərinə nəzər salaq:

- Sufyan ibn Uyeynə demişdir: “Rəsulullah ﷺ *bəşəriyyət üçün* ən böyük meyardır. Bütün işlər onunla – onun

[1] “Ali-İmran” surəsi, 159.

[2] “əl-Qələm” surəsi, 4.

[3] “Musnəd İmam Əhməd,” 25855.

əxlaqı, həyat tərzi və tutduğu yolla – müqaisə edilir. Bu meyara müvafiq olan işlər haqq, ona müxalif olanlar isə batil sayılır."[1]

- İbn Qeyyim öz kitabında peyğəmbərlər haqqında danışarkən demişdir: "Onlar ən düzgün meyardır. O meyar ki, deyilən sözlər, görülən işlər və hər cür əxlaq, onların dedikləri sözlərlə, etdikləri əməllərlə və əxlaqları ilə müqaisə edilməlidir. Onların yolunu tutub getdikdə, doğru yolda olanlarla zəlalətə düşənləri ayırd etmək olur. *Hər bir kəsin* onlardan asılılığı, bədənin öz ruhuna, gözün öz nuruna və ruhun öz həyatına olan asılılığından daha böyükdür. Asılılıq və ehtiyac hər nə cür olursa olsun, insanın peyğəmbərlərdən asılılığı və onlara olan ehtiyacı daha çoxdur... Və əgər insanın bu dünyada və axirətdəki səadəti, Peyğəmbərin ﷺ yolunu tutub getməkdən asılıdırsa, onda özünə yazığı gələn, habelə uğur qazanmaq və səadətə qovuşmaq istəyən hər kəs, Peyğəmbərin ﷺ tutduğu yolu, yaşadığı həyat tərzini və digər işlərini araşdırıb öyrənməlidir ki, bunun sayəsində cahillərdən uzaq olsun, Peyğəmbərin ﷺ ardıcıllarının, onun tərəfdarlarının və onun firqəsinin[2] cərgəsinə qoşulsun."[3]

---

[1] "əl-Cami li Əxlaq ər-Ravi və Ədab əs-Sami", 1/9.

[2] Burada firqə deyildikdə, haqq yolda olan firqə nəzərdə tutulur. Bu xüsusda "əl-Maidə" surəsinin 56-cı ayəsində deyilir: **"Kim Allahı, Onun Elçisini və iman gətirənləri *özünə* dost tutarsa, *bilsin ki*, qələbə çalanlar da məhz Allahın firqəsidir."**

[3] "Zadul-Məad", 1/69.

Biləsiniz, Allah kimə, Peyğəmbərin ﷺ yolunu tutub getməyi və hər cəhətdən ona oxşamağı nəsib etmişsə, demək, o kimsəyə böyük nemət bəxş etmişdir. Odur ki, bizə, bu kitabı açıqlamağı müvəffəq edən Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirəm ki, bizi, Peyğəmbərin ﷺ yolunu tutub gedənlərdən və ona sadiq qalanlardan etsin, habelə Qiyamət günü bizlərə Peyğəmbərlə ﷺ birlikdə onun hovuzunun başında və Allahın kölgəsi altında həşr olunmağı və nəhayət, onunla birlikdə Cənnətdə olmağı nəsib etsin!

Əlimizdəki bu kitab söhbət açdığımız mövzuda yazılmış ən əzəmətli və ən faydalı kitabdır. İmam Tirmizi bu kitabda mövzuya aid əsas hədisləri varid etmiş və onları yüksək səviyyədə tərtib etmişdir. Bu kitab nə uzun və yorucu, nə də ki, qısa və faydasızdır. Əksinə, orta həcmli və əhatəli bir kitabdır.

İmam İbn Kəsir bu kitab barədə demişdir: "Alimlər Peyğəmbərin ﷺ xislətləri mövzusunda istər qədimdə, istərsə də indiki zamanda neçə-neçə əsərlər yazmışlar. Lakin bu xüsusda yazılmış ən əhatəli və ən faydalı kitab, İmam Əbu İsa Muhəmməd ibn İsa ibn Sovrə ət-Tirmizinin kitabıdır. Allah ona rəhmət eləsin! O, bu mövzuda məşhur "əş-Şəmail" kitabını yazmışdır."[1]

Muhəmməd ibn Abdur-Rauf əl-Munavi Tirmizinin "Şəmail" kitabını şərh edərkən demişdir: "Rəvayətləri və

[1] "Bidayə vən-Nihayə", 6/13.

hədis elmini dərindən bilən imam Tirmizinin (Allah onun qəbrini cənnət bağçası etsin, ona ən gözəl müşk nəsib etsin!) "Şəmail" kitabı, tərtibinə və əhatəliyinə görə bu mövzuda yazılmış yeganə kitabdır. İndiyədək heç bir kəs bunun bənzərini yazmamışdır. İmam Tirmizi bu kitabı heyrətamiz bir üslubla tərtib etmiş və onu ən əsas rəvayətlərlə bəzəmişdir. Nəhayət, bu kitab (müsəlmanlar üçün böyük) bir nemət hesab edilmiş, üstəlik məşriqdən məğribədək hər tərəfə yayılmışdır."[1]

İndiyədək neçə-neçə alimlər bu kitabın üzərində çalışmış, kimisi onu şərh etmiş, kimisi içindəki hədisləri təhqiq etmiş, kimisi də bu hədisləri ixtisar etmişdir.

İmam Tirmizi bu kitabı fəsillərə bölmüş və bu fəsillərin hər birində fəslin ünvanına aid kifayət qədər hədislər rəvayət etmişdir. O, bu kitabı əlli altı fəsilə bölmüş və bu fəsillərdə dörd yüz on beş hədis rəvayət etmişdir. İlk əvvəl, Peyğəmbərin ﷺ xilqətinə aid – onun boyu, bədəninin rəngi, saçları və s. barədə, sonra Peyğəmbərə ﷺ aid əşyalar – onun qılıncı, ayaqqabısı, libası, üzüyü və s. barədə, sonra onun davranışı, əxlaqı, yemək-içmək ədəbi, ibadəti, adları, yaşı, vəfatı və nəhayət, onu yuxuda görmək barədə hədislər rəvayət etmişdir.

Ola bilsin ki, müəllifin bu fəsilləri Peyğəmbəri ﷺ yuxuda görməklə xətm etməsinin səbəbi o hədisdir ki, Peyğəmbər ﷺ həmin hədisdə demişdir: "Hər kim məni

[1] "Əhadis fi Cami ət-Tirmizi", 9/29.

yuxuda görsə, məni görmüş olar. Çünki şeytan mənim qiyafəmə girə bilmir."[1]

İbn Həcər demişdir: "Əyyub *əs-Sixtiyani* rəvayət etmişdir ki, kimsə Muhəmməd ibn Sirinə, Peyğəmbəri ﷺ yuxuda gördüyünü xəbər versəydi, İbn Sirin həmin adama: "Gördüyün adamı mənə vəsf et"– deyərdi. Və əgər adam Peyğəmbərə ﷺ xas olmayan bir xüsusiyyəti qeyd edərdisə, ona: "Sən Peyğəmbəri ﷺ görməmisən"– deyərdi."[2] Neçə-neçə insanlar olub ki, yuxuda şeytanı görüb və ona elə gəlib ki, Peyğəmbəri ﷺ görüb. Və nə qədər insanlar olub ki, bu səbəbdən zəlalətə düşüb. Kimisi özünə vergi verildiyini, kimisi Peyğəmbərin ﷺ ona yuxuda şəriət qayda-qanunu öyrətdiyini və başqa bu kimi xurafatları iddia etməklə yolunu azmış və Peyğəmbərə ﷺ iftiralar yaxmışdır.

Allahdan istəyirəm ki, bizlərə, Peyğəmbəri ﷺ doğru-düzgün tanımağı, onun yolunu tutub getməyi, onu hamıdan çox sevməyi, onunla birlikdə həşr olunmağı və Cənnətdə onun yanında olmağı nəsib etsin! Bunun üçün onu səmimi-qəlbdən sevmək gərəkdir. Bu xüsusda İbn Qeyyim gözəl sözlər söyləmişdir: "İnsan sevdiyi kimsəni nə qədər çox yada salarsa, xatirələrində onu nə qədər çox canlandırarsa, onu sevməyə təhrik edən yaxşı əməllərini və göstərdiyi qayğını nə qədər çox xatırlayarsa, ona olan

[1] "Səhih əl-Buxari", 110.

[2] İsnadı səhihdir. Bax: "Fəth əl-Bari", 12/384.

sevgisi qat-qat artar, onun üçün bir az da çox darıxar və tam qəlbi ilə ona bağlanar. Onu yad etməkdən vaz keçəcəyi və yaxşı işlərini yada salmayacağı təqdirdə isə, qəlbində ona olan sevgisi azalar. Və heç bir kimsə üçün məhbubunu görməkdən daha əziz və onun yaxşılıqlarını yada salmaqdan daha sevimli bir şey yoxdur. Bütün bunlar onun qəlbində artdığı zaman dili ilə məhbubunu mədh edib tərifləyər və onun yaxşı əməllərini yad edər. Beləliklə də, bu, qəlbində olan məhəbbətin ya artmasına, ya da azalmasına səbəb olar."[1]

Ənəs ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərdən ﷺ soruşdu ki: "Qiyamət nə zaman qopacaq?" Peyğəmbər ﷺ dedi: "Sən Qiyamətə nə hazırlamısan?" Adam dedi: "Heç bir şey hazırlamamışam. Mən sadəcə Allahı və Onun rəsulunu sevirəm." Peyğəmbər ﷺ buyurdu: "Sən sevdiyin kəslə bir yerdə olacaqsan!" Ənəs dedi: "Biz Peyğəmbərin ﷺ: "Sən sevdiyin kəslə bir yerdə olacaqsan!" sözünə sevindiyimiz qədər heç bir şeyə sevinməmişdik".[2]

Səhabələrdən biri Peyğəmbərin ﷺ yanına gəlib deyir: "Ya Rəsulullah! Mən səni özümdən də, ailəmdən də, övladımdan da, var-dövlətimdən də çox sevirəm. Mən evdə olanda səni xatırlayır və səni görənə qədər rahatlıq tapa bilmirəm. Lakin hər ikimizin öləcəyini xatırlayanda,

[1] "Cəla əl-Əfham fi Fədlis-Səlati alə Muhəmmədin Xeyril-Ənam", 1/447.

[2] "Səhih əl-Buxari", 3688.

düşünürəm ki, sən Cənnətə girəcəksən və peyğəmbərlərə xas olan ən yüksək mərtəbədə olacaqsan. Mən isə, Allah bilir, hara düşəcəyəm, qorxuram bir daha səni görməyim.” Onda Uca Allah bu ayəni nazil etdi:

﴿وَمَن يُطِعِ ٱللَّهَ وَٱلرَّسُولَ فَأُوْلَٰٓئِكَ مَعَ ٱلَّذِينَ أَنۡعَمَ ٱللَّهُ عَلَيۡهِم مِّنَ ٱلنَّبِيِّـۧنَ وَٱلصِّدِّيقِينَ وَٱلشُّهَدَآءِ وَٱلصَّٰلِحِينَۚ وَحَسُنَ أُوْلَٰٓئِكَ رَفِيقٗا﴾

“Kim Allaha və *Onun* Elçisinə itaət etsə, Allahın özlərinə nemət bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaq. Onlar necə də gözəl dostlardır.”[1]

Hər kəs Peyğəmbəri ﷺ sevdiyini iddia edə bilər, lakin hər kəsə onu həqiqi mənada sevmək və onunla birlikdə Cənnətdə olmaq nəsib ediləcəkmi?! Peyğəmbərə ﷺ olan sevginin həqiqi olduğunu sübuta yetirmək üçün isə, bu nəsihətlərə əməl etmək gərəkdir:

- Peyğəmbərin ﷺ yolunu tutub getmək;
- onun verdiyi hökmləri tərəddüdsüz qəbul etmək;
- onu tez-tez yad etmək, adı çəkiləndə salavat gətirmək;
- onun gətirdiyi dini hər tərəfə yaymaq;
- onunla görüşməyi arzulamaq;
- onun sevdiyi kimsələri sevmək;
- onun nifrət etdiyi kimsələrə nifrət etmək.

[1] “Şuəbul-İman”, 1317.

Sonda, sizə bir müjdə vermək istəyirəm. Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Ümmətim içində məni ən çox sevən kimsələr o kəslərdir ki, onlar məndən sonra yaşayacaq və *hər* biri ailəsinin və mal-dövlətinin müqabilində *məni görmək mümkün olsa,* məni görməyi *mənimlə bir yerdə olmağı* təmənna edəcək".[1]

Digər bir hədisdə Əbu Hureyrə ﷺ rəvayət etmişdir ki, *bir dəfə* Peyğəmbər ﷺ qəbiristanlığa gəlib dedi: "Salam olsun sizlərə, ey *bu* diyarın mömin sakinləri! Allah istəsə, biz də sizə qovuşacağıq. Qardaşlarımızı görməyimizə ümid edirəm!" *Səhabələr* soruşdular: "Biz sənin qardaşların deyilikmi, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "Siz mənim səhabələrimsiniz. Qardaşlarımız isə hələ *dünyaya* gəlməmiş kimsələrdir."[2] *Səhabələr* soruşdular: "Hələ *dünyaya* gəlməmiş kimsələrin sənin ümmətindən olduğunu necə tanıyacaqsan, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "Bir deyin görək, əgər bir adamın, alnında və ayaqlarında ağ ləkə olan atları olsa və bu atlar, rənginə başqa rəng qarışmamış qapqara atların arasında olarsa, o adam öz atını tanımazmı?" *Səhabələr*: "Bəli, *tanıyar*, ya Rəsulullah!"– deyə cavab verdilər. Peyğəmbər ﷺ buyurdu: "Heç şübhəsiz ki, onlar da *Qiyamət günü* dəstəmaz

[1] "Səhih Muslim", 2832.

[2] Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Qardaşlarım isə, məni görməyib mənə iman gətirən kimsələrdir" ("Silsilətul-Əhadisis-Səhihə", 2888-ci hədis).

almaqdan dolayı üzləri parlaq, əlləri və ayaqları nurlu halda *məhşərə* gələcəklər. Hamıdan əvvəl hovuzun başına gələn kimsə mən olacağam. Biləsiniz, itmiş dəvə qovulduğu kimi, bir çox insanlar da mənim hovuzumun yanından qovulacaqlar. Mən: "Haydı, bura gəlin!"– deyə onları səsləyəcəyəm. *Cavabında* mənə: "Onlar səndən sonra *dində* dəyişikliklər etmişlər"– deyiləcək. Onda mən deyəcəyəm: "Allah *onları məndən* uzaq eləsin, uzaq!"[1]

Hədisdən açıq-aydın görünür ki, onu sevənlərdən və onunla bir yerdə olanlardan olmaq üçün namaz qılmaq gərəkdir. Bu xüsusda varid olmuş hədisdə Rəbiə ibn Kəb əl-Əsləmi ﷺ rəvayət edir ki, bir gecə mən Peyğəmbərlə ﷺ bir yerdə qaldım. Həmin vaxt mən ona dəstəmaz almaq üçün su və digər ehtiyacı olan şeyləri gətirdim. Onda, o mənə: "İstə!"– deyə buyurdu. Dedim: "Cənnətdə sənin yanında olmaq istəyirəm." Dedi: "Yoxsa, başqa bir şey istəyirsən?" Dedim: "İstədiyim elə budur, *ya Rəsulullah*!" Buyurdu ki: "Elə isə çoxlu səcdə etməklə (yəni, namaz qılmaqla) öz muradına çatmağına kömək ol!"[2]

Bəs, namaz qılmayanların axırı nə olacaq?! Uca Allah bu xüsusda belə buyurur: **"Möminlər Cənnət bağlarında bir-birlərindən günahkarlar barədə soruşacaqlar. Sizi Səqərə salan nədir? Günahkarlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik. Kasıbı da yedirtməzdik. *Batil***

[1] "Səhih Muslim", 584.

[2] "Sunən ət-Tirmizi", 2884; "Ədəbul-Mufrəd", 242.

***sözlər* danışanlarla birlikdə biz də danışardıq və *ölüm* yəqinliyi bizə gələnə qədər Haqq-hesab gününü yalan hesab edərdik."**[1]

Əziz müsəlmanlar! Bu kitabı tərcümə etməkdə məqsədim, hamıdan çox sevdiyimiz Peyğəmbərimizi ﷺ bu xalqa tanıtmaq və onun kamil əxlaq sahibi olduğunu bir daha sübuta yetirməkdir. Siz də bu kitabı oxuyub başa düşdükdən sonra, öyrəndiklərinizi insanlara təbliğ edin ki, Peyğəmbərin ﷺ dediyi "Kim xeyirxah bir iş görməyə yol göstərərsə, ona həmin əməli edənin savabının misli *qədər savab* yazılar!"[2] – kimsələrdən olasınız.

İmam Əbu İsa ət-Tirmizinin tərtib etdiyi bu möhtəşəm kitab yalnız hədis mətnlərindən ibarətdir. Bu hədisləri başa düşmək üçün onların şərhinə ehtiyac duyulduğundan, onları şərh etmək qərarına gəldim və bu işdə, hədisləri şərh edən bir çox kitablara, ələlxüsus "Şərh ən-Nəvəvi", "Umdətul-Qari Şərh Səhih əl-Buxari", "Fəthul-Bari bi Şərh Səhih əl-Buxari", "Tohvətul-Əhvəzi bi Şərhi Camiut-Tirmizi", "Zadul-Məad fi Hədyi Xeyril-İbad", "Camul-Vəsail fi Şərhiş-Şəmail", "Şərh Riyadus-Salihin" adlı kitablara, habelə, Abdur-Rəzzaq əl-Bədrin bu xüsusda oxuduğu mühazirələrə müraciət etdim, sonra da bu kitaba etdiyim əlavələri aşağıdakı üslubda tərtib etdim:

---

[1] "əl-Muddəssir", 40-47.

[2] "Səhih Muslim", 1094.

– Haşiyələrdə İmam Əbu İsa ət-Tirmizinin bu kitabda nəql etdiyi hədislərin hər birinin hansı hədis kitablarında – xüsusəndə məşhur "yeddi kitab"ın[1] hansı birində – varid olduğunu qeyd etmişəm. Habelə, İmam Buxari və Muslimin "Səhih"lərindən başqa, digər hədis kitablarında varid olmuş bu hədislərin hökmünü, yəni onların "səhih", "həsən" və ya "zəif" olduğunu da qeyd etmişəm və həmin qeydləri "bu əsrin mühəddisi" sayılan şeyx Muhəmməd Nasirəddin əl-Albaninin hədis kitablarından əldə etmişəm. Üstəlik, bu kitabda varid olmuş, lakin isnadı zəif olan hədislərin bir çoxunun mətninin səhih olduğunu digər səhih hədislərlə isbat etmişəm. Və bir də, hansı hədisdə İmam Tirmizi: "Bu, uzun bir hədisin bir hissəsidir"– deyib, lakin həmin hədisi tam şəkildə varid etməyib, fayda üçün haşiyədə həmin hədisin mətnini tam olaraq nəql etmişəm.

– həmçinin, bu kitabdakı hədisləri rəvayət etmiş səhabələr barədə qısa da olsa, məlumat vermişəm və onların fəzilətinə dair bir çox hədislər nəql etmişəm ki, insanlar onların nə cür şəxsiyyətlər olduqlarını bilsinlər.

– haşiyələrdə hədislərin mənbəsini qeyd edərkən "bu hədisi Buxari və ya Muslim rəvayət etmişdir" dedikdə,

[1] Burada "yeddi kitab" deyildikdə, Buxari və Muslimin "Səhih"ləri, Əbu Davudun, Tirmizinin, Nəsainin və İbn Macənin "Sunən" əsərləri və nəhayət, İmam Əmədin "Musnəd" əsəri nəzərdə tutulur.

onların məşhur "Səhih"ləri, "bu hədisi Əbu Davud, yaxud Nəsai, yaxud Tirmizi, yaxud İbn Macə rəvayət etmişdir" dedikdə, onların məşhur "Sunən" əsərləri və nəhayət, "bu hədisi Əhməd rəvayət etmişdir" dedikdə, İmam Əhməd ibn Hənbəlin məşhur "Musnəd" əsərini qəsd etmişəm.

– bu kitaba şərhdən əlavə, İmam Tirmizinin tərcümeyi-halını, habelə bəzi hədis terminlərinin izahlı lüğətini, bir də, kitabda keçən hədislərdəki xislətlərin xülasəsini "Peyğəmbərin ﷺ vəsfi" adlı ünvanla əlavə etmişəm. Ayrı-ayrı hədislərdə varid olmuş bu vəsfləri bir yerə cəm edib onların xülasəsini qeyd etməkdə məqsədim, oxucunun işini asanlaşdırmaqdır. Üstəlik kitabı dualarla xətm etmişəm ki, duaları qəbul edən Allah bu kitabı uğurlu və bərəkətli etsin.

Əzəmətli Ərşin Rəbbi olan Qüdrətli Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirəm ki, bizləri Özünün sevdiyi və razı qaldığı saleh əməlləri yerinə yetirməyə və haqqı deməyə müvəffəq etsin!

Tərcüməçidən
01.08.2012

İmam Tirmizinin tərcümeyi-halı

❁ Adı və kunyəsi[1]:

İmam, Hafiz Əbu İsa Muhəmməd ibn İsa ibn Musa ibn Sovrə ibn Musa ibn Dəhhak əs-Suləmi ət-Tirmizi əl-Buği.[2]

❁ Mənsubiyyəti:

İmam Muhəmməd ibn İsa məşhur Tirmizin Buğ kəndindəndir. Bu kənd, Tirmizin altı fərsəxliyində[3] yerləşir.[4]

❁ Elm öyrənmək üçün getdiyi məmləkətlər:

İmam Əbu İsa ət-Tirmizi biliyini artırmaq və hədis toplamaq məqsədilə Xorasana, İraqa, Hicaza və digər məmləkətlərə səyahət etmiş, Əbu Abdullah Muhəmməd ibn İsmail əl-Buxari, Yəhya ibn Yəhya, İshaq ibn Rahuyə,

---

[1] Kunyə: ismin əvvəlinə "əbu (ata)", yaxud "ummu (ana)", yaxud "ibn (oğul)", yaxud da "bint (qız)" sözlərindən birini qoşmaqla əmələ gələn ayamadır.

[2] "Siyər Əlam ən-Nubələ", 132-ci tərcümeyi-hal; "Vəfəyatul-Əyan", 633-cü tərcümeyi-hal; "Təhzib ət-Təhzib", 638-ci tərcümeyi-hal; "Vafi vəl-Vəfəyat" 2/54-58.

[3] Bir fərsəx 5760 metrə bərabərdir.

[4] "Vəfəyatul-Əyan", 633-cü tərcümeyi-hal.

Quteybə ibn Səid, Məhmud ibn Ğeylan, İsmail ibn Musa əl-Fəzari və digər alimlərdən elm almışdır.[1]

❁ Ustadları:

Tirmizinin elm öyrəndiyi alimlərin sayı yüzdən çoxdur. Onlardan ən tanınmışları isə bunlardır:

Muhəmmməd ibn İsmail əl-Buxari;
Quteybə ibn Səid;
İshaq ibn Rahuyə;
İbrahim ibn Abdullah əl-Hərəvi;
Muhəmməd ibn Amr əl-Bəlxi;
Məhmud ibn Ğeylan;
İsmail ibn Musa əl-Fəzari;
Əhməd ibn Məni;
Əbu Musab əz-Zuhri;
Bişr ibn Muaz əl-Əqədi;
Abdullah ibn Muaviyə əl-Cuməhi;
Əbu Kureyb;
Ali ibn Hucr;
İmran ibn Musa əl-Qəzzaz;
Muhəmməd ibn Əban əl-Mustəmli;
Muhəmməd ibn Humeyd ər-Razi;
Muhəmməd ibn Rafi;

[1] "Siyər Əlam ən-Nubələ", 132-ci tərcümeyi-hal; "Təhzib ət-Təhzib", 638-ci tərcümeyi-hal.

Muhəmməd ibn Yəhya əl-Ədəni;
Nəsr ibn Əli;
Hənnad ibn Səri;
Yəhya ibn Həbib ibn Ərəbi;
Yusuf ibn Həmmad əl-Məni;
İshaq ibn Musa əl-Həzmi;
Suveyd ibn Nəsr əl-Mərvəzi.[1]

❁ Tələbələri:

Tirmizidən hədis öyrənmiş və bu hədisləri rəvayət etmiş bir çox ravilər vardır ki, onlardan ən tanınmışları bunlardır:

Əbu Bəkr Əhməd ibn İsmail əs-Səmərqəndi;
Əhməd ibn Abdullah ibn Davud əl-Mərvəzi;
Əhməd ibn Yusuf ən-Nəsəfi;
Əbu Cəfər Muhəmməd ibn Sufyan;
Həmmad ibn Şakir əl-Vərraq;
Rəbi ibn Heyyan əl-Bahili;
Fədl ibn Əmmar əs-Sərram;
Muhəmməd ibn Əhməd ibn Məhbub;[2]
Əbu Cəfər Muhəmməd ibn Əhməd ən-Nəsəfi;
Əli ibn Ömər ibn Kulsum əs-Səmərqəndi;
Muhəmməd ibn Məkki ibn Nuh ən-Nəsəfi;

---

[1] "Siyər Əlam ən-Nubələ", 132-ci tərcümeyi-hal.

[2] Muhəmməd ibn Əhməd, Tirmizinin "Sunən" əsərini rəvayət etmiş ravidir (Bidayə vən-Nihayə).

Heysəm ibn Kuleyb əş-Şaşi;[1]

Nəsr ibn Muhəmməd ibn Səbrə.[2]

❁ İmam Tirmizinin alimlər arasında məqamı və alimlərin onu tərif etməsi:

Alimlər Əbu İsa ət-Tirmizinin hörmətli şəxsiyyət və möhtərəm imam, habelə hədis elmində yüksək bacarıq və ali məqam sahibi olmasında ittifaq etmişlər. Gəlin onların Əbu İsa ət-Tirmizi haqqında dediklərinə nəzər salaq:

Əbu Səd Muhəmməd əl-İdrisi demişdir: "Tirmizi hədis elmində nümunə olan imamlardan olmuşdur. O, hafizlikdə məsəl çəkilən bir adam idi."[3]

Xəlili demişdir: "Tirmizi hamının inandığı, ən etibarlı mühəddislərdəndir."[4]

İbn Əsir demişdir: "Əbu İsa Muhəmməd ibn İsa ibn Sovrə ibn Musa məşhur hafizlərdən, hədis elmində etimad edilən imamlardan və rəbbani alimlərdəndir. "[5]

---

[1] Heysəm ibn Kuleyb əş-Şaşi, Tirmizinin "Şəmail" əsərini rəvayət etmiş ravidir (Bidayə vən-Nihayə).

[2] "Siyər Əlam ən-Nubələ", 132-ci tərcümeyi-hal; "Təhzib ət-Təhzib", 638-ci tərcümeyi-hal.

[3] Əvvəlki mənbələr.

[4] "Təhzib ət-Təhzib", 638-ci tərcümeyi-hal.

[5] "Camiul-Usul", 1/193.

İbn Həcər demişdir: "Əbu İsa bir çox məmləkətlərdə olmuş, xorasanlılardan, iraqlılardan və hicazlılardan hədislər eşitmişdir."[1]

❁ Vəfatı:

İmam Əbu İsa ət-Tirmizi hicrətin 279-cu il rəcəb ayının 13-ündə Tirmizdə vəfat etmişdir.[2]

❁ Bəzi İslam alimlərinin Tirmizinin "Şəmailun-Nəbi" əsəri barəsində dedikləri təriflər:

İmam İbn Kəsir bu kitab barədə demişdir: "Alimlər Peyğəmbərin ﷺ xislətləri mövzusunda istər qədimdə, istərsə də indiki zamanda neçə-neçə əsərlər yazmışlar. Lakin bu xüsusda yazılmış ən əhatəli və ən faydalı kitab, İmam Əbu İsa Muhəmməd ibn İsa ibn Sovrə ət-Tirmizinin kitabıdır. Allah ona rəhmət eləsin! O, bu mövzuda məşhur "Şəmail" kitabını yazmışdır".[3]

Muhəmməd ibn Abdur-Rauf əl-Munavi isə Tirmizinin "Şəmail" kitabını şərh edərkən belə demişdir: "Rəvayətləri və hədis elmini dərindən bilən imam Tirmizinin (Allah onun qəbrini cənnət bağçası etsin, ona ən gözəl müşk

---

[1] "Təhzib ət-Təhzib", 638-ci tərcümeyi-hal.

[2] "Siyər Əlam ən-Nubələ", 132-ci tərcümeyi-hal; "Vəfəyatul-Əyan", 633-cü tərcümeyi-hal; "Təhzib ət-Təhzib", 638-ci tərcümeyi-hal; "Təhzib əl-Kəmal", 5531-ci tərcümeyi-hal; "Mizan əl-İtidal", 8035-ci tərcümeyi-hal; "Bidayə vən-Nihayə"; "Vafi vəl-Vəfəyat" 2/54-58.

[3] "Bidayə vən-Nihayə", 6/13.

nəsib etsin!) "Şəmail" kitabı, tərtibinə və əhatəliyinə görə bu mövzuda yazılmış yeganə kitabdır. İndiyədək, heç kəs bunun bənzərini yazmamışdır. İmam Tirmizi bu kitabı heyrətamiz bir üslubla tərtib etmiş və onu ən əsas rəvayətlərlə bəzəmişdir. Nəhayət, bu kitab (müsəlmanlar üçün böyük) bir nemət hesab edilmiş, üstəlik, məşriqdən məğribədək hər tərəfə yayılmışdır."[1]

❁ Tirmizinin yazdığı əsərlər:

Tirmizinin hədislər xüsusunda təlif etdiyi əsərlərin ən məşhuru, ən əsaslısı və ən dəyərlisi, heç şübhəsiz, "Sunən" adlı hədislər məcmuəsidir ki, imam Buxari və Muslimin "Səhih" əsərlərindən sonra, istinad edilən hədis kitablarından sayılır. Qeyd edək ki, imam Tirmizi bundan başqa neçə-neçə başqa kitablar da yazmışdır. Həmin kitablardan bəziləri bunlardır: "Şəmail", "İləl", "Əsma vəl-Kunə", "Əsmaus-Səhabə", "Zuhd" və s.[2]

❁ Tirmizinin "Şəmail" əsərinə yazılan şərh:

"Camul-Vəsail fi Şərhiş-Şəmail", Nuruddin Əbul-Həsən Əli ibn Sultan Muhəmməd əl-Hərəvi əl-Qari, 1014 h.

❁ Tirmizinin "Şəmail" əsərinin ixtisar edilmiş variantı:

---

[1] "Əhadis fi Cami ət-Tirmizi", 9/29.

[2] "Təhzib ət-Təhzib", 638-ci tərcümeyi-hal; "Bidayə vən-Nihayə".

"Muxtəsər əş-Şəmail əl-Muhəmmədiyyə"; təhqiq və ixtisar: Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-İslamiyyə.

❁ Ən mötəbər hədislər:

Alimlərin yekdil qərarına görə ən mötəbər hədislər, mutəvatir[1] isnadla rəvayət edilmiş hədislərdir. Bundan sonra isə, hədislər mötəbərlik etibarı baxımından aşağıdakı dərəcələrə bölünürlər:

– Buxari və Muslimin, üzərində ittifaq etdiyi hədislər;

– Yalnız Buxarinin rəvayət etdiyi hədislər;

– Yalnız Muslimin rəvayət etdiyi hədislər;

– Buxari və Muslimin "Səhih" əsərlərində olmayan, lakin onların şərtlərinə uyğun gələn hədislər;

– Yalnız Buxarinin şərtlərinə uyğun gələn hədislər;

– Yalnız Muslimin şərtlərinə uyğun gələn hədislər;

---

[1] Bu, yalan danışacaqları təsəvvür olunmayan, isnadın əvvəlindən axırınadək bir toplumun digərindən rəvayət etdiyi hədisdir.

Mutəvatir hədisin şərtləri aşağıdakılardır:

– isnadındakı ravilərin sayının kifayət qədər çox olması;

– ravilərin yalan üzərində ittifaq etməsinin qeyri-mümkünlüyü;

– isnadın hər təbəqəsində olan ravilərin sayının kifayət qədər çox olması;

– isnadın Peyğəmbərə ﷺ qədər yüksəlməsi ("İhtimam əl-Muhəddisin", 1/141-142).

– Buxari və Muslimin rəvayət etmədiyi, habelə onların şərtlərinə uyğun gəlməyən, digər mühəddislərin rəvayət etdiyi səhih hədislər.[1]

[1] "Muqəddimətu İbn əs-Səlah", səh. 11-12.

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

Mərhəmətli və Rəhmli Allahın adı ilə!

قال الحافظ أبو عيسى مُحَمَّد بن عيسى بن سورة الترمذي:

١– باب صِفة النَّبِيّ ﷺ

Hafiz Əbu İsa Muhəmməd ibn İsa ibn Sovrə ət-Tirmizi demişdir:

1–ci fəsil. Peyğəmbərin ﷺ vəsfi

١– أَخْبَرَنَا أَبُو رَجَاءٍ قُتَيْبَةُ بْنُ سَعِيدٍ، عَنْ مَالِكِ بْنِ أَنَسٍ، عَنْ رَبِيعَةَ بْنِ أَبِي عَبْدِ الرَّحْمَنِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّهُ سَمِعَهُ، يَقُولُ: ((كَانَ رَسُولُ اللهِ ﷺ لَيْسَ بِالطَّوِيلِ الْبَائِنِ، وَلاَ بِالْقَصِيرِ، وَلاَ بِالأَبْيَضِ الأَمْهَقِ، وَلاَ بِالآدَمِ، وَلاَ بِالْجَعْدِ الْقَطَطِ، وَلاَ بِالسَّبْطِ، بَعَثَهُ اللَّهُ تَعَالَى عَلَى رَأْسِ أَرْبَعِينَ سَنَةً، فَأَقَامَ بِمَكَّةَ عَشْرَ سِنِينَ، وَبِالْمَدِينَةِ عَشْرَ سِنِينَ، وَتَوَفَّاهُ اللَّهُ تَعَالَى عَلَى رَأْسِ سِتِّينَ سَنَةً، وَلَيْسَ فِي رَأْسِهِ وَلِحْيَتِهِ عِشْرُونَ شَعَرَةً بَيْضَاءَ)).

(1) ..... Ənəs ibn Malik[1] ﷺ demişdir: "Peyğəmbər ﷺ nə çox hündürboy,[2] nə də bəstəboy idi, nə dümağ dərili,[3] nə də qarayanız idi, saçları da nə tamamilə qıvrım, nə də dümdüz idi. Onun qırx yaşı tamam olduqda Allah onu peyğəmbər göndərdi. (Bundan sonra) o, on il Məkkədə, on il də Mədinədə yaşadı. Uca Allah Peyğəmbərin ﷺ, altmış yaşında ikən[4] ruhunu aldıqda, onun saç-saqqalında heç iyirmi ədəd ağ tük yox idi.[5]"[1]

---

[1] Əbu Həmzə Ənəs ibn Malik ibn ən-Nədr əl-Ənsari əl-Xəzrəci ən-Nəccari əl-Mədəni ﷺ Peyğəmbərin ﷺ həm xidmətçisi, həm qadın tərəfdən onun qohumu, həm də ən çox hədis rəvayət edən səhabələrindəndir. Dəfələrlə Peyğəmbərlə ﷺ birlikdə döyüşlərdə iştirak etmiş və xüsusən də ağac altında ona beyət gətirənlərdən olmuşdur. Hicrətdən on il əvvəl dünyaya gəlmiş, uşaq ikən İslamı qəbul etmiş və düz on il Peyğəmbərə ﷺ xidmət etmişdir. Nəhayət, hicrətin 93-cü ilində yüz üç yaşında vəfat etmişdir. Peyğəmbərdən ﷺ iki min iki yüz səksən altı hədis rəvayət etmişdir. Buxari və Muslim – birlikdə ondan yüz səksən hədis, ayrı-ayrılıqda Buxari səksən, Muslim isə doxsan hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 62-ci tərcümeyi-hal).

[2] Burada "çox" deməsi onu göstərir ki, Peyğəmbər ﷺ lap hündür olmasa da, azacıq hündür idi. Bu da, digər rəvayətdə öz təsdiqini tapmışdır.

[3] Peyğəmbərin ﷺ rəngi ağ idi, lakin qırmızıya çalırdı.

[4] Səhih rəvayətlərdə Peyğəmbərin ﷺ on üç il Məkkədə qaldığı və altmış üç yaşında vəfat etdiyi bildirilir (378-ci hədisə bax.) Ola bilsin ki, burada ravi onluqları yuvarlaqlaşdırmaq məqsədilə belə rəvayət etmişdir.

[5] Cərir ibn Osman ﷺ rəvayət etmişdir ki, o, Peyğəmbərin ﷺ səhabəsi Abdullah ibn Busrdan soruşdu: "Bir de görək, sən Peyğəmbəri ﷺ qocalığında görmüsənmi?" Dedi: "Onun alt dodaq şı-

٢- حَدَّثَنَا حُمَيْدُ بْنُ مَسْعَدَةَ الْبَصْرِيُّ، قَالَ حَدَّثَنَا عَبْدُ الْوَهَّابِ الثَّقَفِيُّ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ رَبْعَةً، وَلَيْسَ بِالطَّوِيلِ وَلا بِالْقَصِيرِ، حَسَنَ الْجِسْمِ، وَكَانَ شَعَرُهُ لَيْسَ بِجَعْدٍ، وَلا سَبْطٍ أَسْمَرَ اللَّوْنِ، إِذَا مَشَى يَتَكَفَّأُ)).

(2) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ ortaboy – nə hündürboy, nə də bəstəboy, – gözəl vücudu olan bir zat idi. Saçları nə tam qıvrım, nə də dümdüz idi. Rəngi əsmər[2] idi. Yeridikdə də ləngərlənirdi.[3]"[4]

٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ العبد، قَالَ حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ قَالَ: سَمِعْتُ الْبَرَاءَ بْنَ عَازِبٍ، يَقُولُ: ((كَانَ

---

rımında bir neçə ağ tük var idi" (Səhih əl-Buxari, 3546); Rəvayət edilir ki, *bir dəfə* Ənəsdən ﷺ soruşdular: "Peyğəmbər ﷺ *saçlarını* boyayardımı?" O dedi: "Xeyr, onun hər iki gicgahında *cəmi* bir neçə ağ tük var idi" (Səhih əl-Buxari, 3550).

[1] Bu hədisi Buxari (3547) və Muslim (2347) rəvayət etmişdir.

[2] Burada "əsmər" deyildikdə, lüğətlərdə keçən qarabuğdayı, qarayanız mənaları nəzərdə tutulmur. Belə ki, başqa bir rəvayətdə onun dərisinin qızıla çaldığı xəbər verilir.

[3] Burada "ləngərlənmək" deyildikdə, irəliyə meyil edərək, həm də ayaqları zərblə yerə vurararaq yerimək nəzərdə tutulur.

[4] Hədisi Tirmizi "Sunən" əsərində (1858) rəvayət etmiş və axırında "həsən səhih qəribdir"– demişdir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

رَسُولُ اللهِ ﷺ، رَجُلا مَرْبُوعًا، بَعِيدَ مَا بَيْنَ الْمَنْكِبَيْنِ، عَظِيمَ الْجُمَّةِ إِلَى شَحْمَةِ أُذُنَيْهِ، عَلَيْهِ حُلَّةٌ حَمْرَاءُ مَا رَأَيْتُ شَيْئًا قَطُّ أَحْسَنَ مِنْهُ)).

(3) ..... Bəra ibn Azib[1] ﷺ demişdir: "Peyğəmbər ﷺ ortaboy, enlikürək bir adam idi. Onun saçları qulağının mərcəyinə[2] çatırdı. Mən onu qırmızı libasda[3] gördüm. Doğrusu, mən heç vaxt ondan yaraşıqlı insan görməmişəm."[4]

٤- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ حَدَّثَنَا وَكِيعٌ، قَالَ حَدَّثَنَا سُفْيَانُ الثَّوْرِي، عَنْ أَبِي إِسْحَاقَ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ، قَالَ: ((مَا رَأَيْتُ مِنْ ذِي لِمَّةٍ

---

[1] Əbu Umarə Bəra ibn Azib ibn Haris əl-Ənsari əl-Harisi əl-Mədəni ﷺ Peyğəmbərin ﷺ məşhur səhabələrindəndir. Peyğəmbərlə ﷺ birlikdə bir çox döyüşlərdə iştirak etmişdir. Hicrətin 72-ci ilində səksən neçəsə yaşında vəfat etmişdir. Peyğəmbərdən ﷺ üç yüz beş hədis rəvayət etmişdir. Buxari və Muslim – birlikdə ondan iyirmi iki hədis, ayrı-ayrılıqda Buxari on beş, Muslim isə altı hədis rəvayət etmişdir. (Siyər Əlam ən-Nubələ, 39-cu tərcümeyi-hal).

[2] Mərcək – qulağın aşağı ətli hissəsidir.

[3] Bəzi alimlər, ümumiyyətlə, qırmızı libas geyməyin qadağan edildiyini, bəziləri xalis qırmızı rəngdə olan libası geyməyin qadağan, üzərində ayrı rəngdə xətlər və s. olan libası geyməyin isə icazəli olduğunu, bəziləri də bu rəvayətə və bu mənada olan hədislərə əsaslanaraq, istənilən qırmızı libasın geyinilməsinin caiz olduğunu bildirmişlər.

[4] Bu hədisi Buxari (3551), Muslim (2337), Əbu Davud (4072), Nəsai (9328), Tirmizi (3639) və İbn Macə (3599) rəvayət etmişdir.

فِي حُلَّةٍ حَمْرَاءَ أَحْسَنَ مِنْ رَسُولِ اللهِ ﷺ، لَهُ شَعَرٌ يَضْرِبُ مَنْكِبَيْهِ، بَعِيدُ مَا بَيْنَ الْمَنْكِبَيْنِ، لَمْ يَكُنْ بِالْقَصِيرِ، وَلا بِالطَّوِيلِ)).

(4) ..... Bəra ibn Azib ﷺ demişdir: "Mən saçları uzun, əynində də qırmızı libası olan Rəsulullahdan ﷺ daha yaraşıqlısını görmədim. Onun saçları çiyinlərinə çatırdı. O, enlikürək, həmçinin nə bəstəboy, nə də hündürboy bir adam idi."[1]

٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْمَاعِيلَ، قَالَ حَدَّثَنَا أَبُو نُعَيْمٍ، قَالَ حَدَّثَنَا الْمَسْعُودِيُّ، عَنْ عُثْمَانَ بْنِ مُسْلِمِ بْنِ هُرْمُزَ، عَنْ نَافِعِ بْنِ جُبَيْرِ بْنِ مُطْعِمٍ، عَنْ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ، قَالَ: ((لَمْ يَكُنِ النَّبِيُّ ﷺ بِالطَّوِيلِ، وَلا بِالْقَصِيرِ، شَثْنُ الْكَفَّيْنِ وَالْقَدَمَيْنِ، ضَخْمُ الرَّأْسِ، ضَخْمُ الْكَرَادِيسِ، طَوِيلُ الْمَسْرُبَةِ، إِذَا مَشَى تَكَفَّأَ تَكَفُّؤًا، كَأَنَّمَا يَنْحَطُّ مِنْ صَبَبٍ، لَمْ أَرَ قَبْلَهُ، وَلا بَعْدَهُ مِثْلَهُ)).

(5) ..... Əli ibn Əbu Talib[2] ﷺ demişdir: "Peyğəmbər ﷺ nə (çox) hündürboy, nə də bəstəboy (yəni ortaboy), əlləri

---

[1] Bu hədisi Muslim (2337), Əbu Davud (4183), Nəsai (5250) və Tirmizi (3995) rəvayət etmişdir.

[2] Əbu Turab, yaxud Əbu Sibteyn, yaxud da Əbul-Həsən, Əli ibn Əbu Talib ibn Abdul-Müttəlib ﷺ fil ilindən otuz il sonra – yəni, Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən on il əvvəl dünyaya gəlmiş, İslam dinini ilk əvvəl qəbul etmiş səhabələrdəndir. O, Peyğəmbərin ﷺ həm əmisi oğlu, həm kürəkəni, həm də ən əziz və reyhan qoxulu nəvələri – Həsən və Hüseynin ﷺ atalarıdır. Əli ibn Əbu Talib ﷺ, Təbuk döyüşü istisna olmaqla, Peyğəmbərlə ﷺ birlikdə bütün döyüşlərdə iştirak etmiş və ələlxüsus da, ağac altında ona beyət gətirənlərdən olmuşdur. Təbuk döyüşündə isə Peyğəmbər ﷺ onu öz

və ayaqları sərt,[1] başı iri, məfsəlləri[1] böyük və sinəsinin tükü uzunsov[2] olan bir adam idi. Yeridikdə sanki hündür

---

yerinə – Mədinəyə xəlifə – təyin etmişdir. Səd ibn Əbu Vəqqas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Təbuka yola düşərkən, Əlini öz yerinə başçı təyin etdi. Onda Əli dedi: "Doğrudanmı, sən məni uşaqların və qadınların yanında qoyub getmək istəyirsən?!" Peyğəmbər ﷺ buyurdu: "İstəmirsən ki, Harun Musaya yaxın olduğu kimi, sən də mənə yaxın olasan?! Fəqət məndən sonra peyğəmbər gəlməyəcək" (Səhih əl-Buxari, 4416). Əli ibn Əbu Talib ﷺ sağlığında ikən Cənnətlə müjdələnmiş on nəfərdən biri, habelə Cənnətin səbirsizliklə gözlədiyi üç nəfərdən biridir. Əli ibn Əbu Talib ﷺ Rəsulullahın ﷺ dördüncü xəlifəsi olmuşdur. Hicrətin 35-ci ilində, zilhiccə ayının 18-i, cümə günü xilafətə gəlmiş, 4 il 9 ay möminlərə layiqincə əmirlik etmiş və nəhayət, hicrətin 40-cı ilində, ramazan ayının 17-si, cümə günü, Kufə şəhərində Abdur-Rəhman ibn Mülcim əl-Muradi tərəfindən vurulmuş və üç gündən sonra altmış üç yaşında şəhid olmuşdur. Oğlanları Həsən və Hüseyn, habelə Cəfərin oğlu Abdullah onu yuyub kəfənləmiş, Həsən onun cənazə namazını qıldırmış və bundan sonra onu dəfn etmişlər.

[1] Burada "sərt" deyildikdə, onun əllərinin və ayaqlarının kobud və cod olduğu deyil, möhkəm və iri olduğu nəzərdə tutulur. Bu xüsusda Buxarinin "Səhih"indən (5907) rəvayət olunan hədisdə Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ əlləri və ayaqları iri, üzü gözəl bir insan idi. Mən nə ondan əvvəl, nə də ondan sonra onun kimisini görməmişdim. Əlləri də olduqca zərif idi." Yenə Buxarinin "Səhih"indən (3561) və Tirmizinin "Sunən"indən (2015) rəvayət olunan hədisdə Ənəs ibn Malik ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ əlindən daha yumşaq nə bir ipəyə, nə də bir zərxaraya toxunmuşam." Mübarəkfuri bu hədisi izah edərkən demişdir: "Olsun ki, buradakı yumşaqlıq onun dərisinə, sərtlik və möhkəmlik isə onun əl və ayaq sümüklərinə aiddir. Beləliklə, aydın olur ki, Peyğəmbərin ﷺ əlləri və ayaqları qüvvətli və çox möhkəm olmuşdur" (Tohvətul-Əhvəzi). Yeri gəlmişkən bir hədisi də qeyd edək. Əbu Cuheyfə ﷺ demişdir: "Mən

bir yerdən enirmiş kimi ləngərlənirdi. Mən nə ondan əvvəl, nə də ondan sonra onun kimisini görməmişəm.”[3]

٦– حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ حَدَّثَنَا أَبِي، عَنِ الْمَسْعُودِيِّ، بِهَذَا الإِسْنَادِ، نَحْوَهُ، بِمَعْنَاهُ.

(6) Bizə Sufyan ibn Vəki belə rəvayət etmişdir: “Bizə atam Məs'udidən bu isnadla öncəki hədisi, buna yaxın mənada rəvayət etmişdir.”[4]

Peyğəmbərin ﷺ əlini tutub üzümə qoydum və onun əlinin qardan soyuq olduğunu, həm də müşkdən daha gözəl iy verdiyini duydum” (Səhih əl-Buxari, 3553).

[1] Burada “məfsəl” deyildikdə, sümüklərin tərəfləri, yaxud onların uclarının bir-birinə birləşdiyi yer, bilək, dirsək, çiyin, diz və başqa oynaqlar və buğumlar qəsd edilir. Bu da Peyğəmbərin ﷺ bədəncə çox möhkəm bir adam olduğundan xəbər verir.

[2] Yəni, sinəsindən göbəyinədək bitən tüklər nazik və uzunsov şəkildə idi.

[3] Hədisi imam Əhməd "Musnəd" əsərində (1/89; 96; 101; 116; 117; 127; 134; 151) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani də “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[4] Adətən mühəddislər hədisin bir və daha çox isnadla varid olduğuna rast gəldikdə, həmin hədisi əvvəlcə tam şəkildə nəql edər, sonra bu hədisin digər isnadını və ya bir neçə isnadını zikr edər və hər isnadın axırında müxtəsər olaraq: “buna yaxın mənada”, yaxud “buna bənzər”, “bunun eynisini” və s. deyərək istinad edər və hədisin mətnini zikr etməzdilər. Bunu etməkdə məqsəd isə öncəki hədisin mötəbərliyini təsdiq etmək və ya hökmünü qüvvətləndirməklə onu

٧- حَدَّثَنَا أَحْمَدُ بْنُ عَبْدَةَ الضَّبِّيُّ الْبَصْرِيُّ وَعَلِيُّ بْنُ حُجْرٍ، وَأَبُو جَعْفَرٍ مُحَمَّدُ بْنُ الْحُسَيْنِ وَهُوَ ابْنُ أَبِي حَلِيمَةَ، الْمَعْنَى وَاحِدٌ، قَالُوا: حَدَّثَنَا عِيسَى بْنُ يُونُسَ، عَنْ عُمَرَ بْنِ عَبْدِ اللهِ مَوْلَى غُفْرَةَ، قَالَ: حَدَّثَنِي إِبْرَاهِيمُ بْنُ مُحَمَّدٍ مِنْ وَلَدِ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ إِنَّهُ قَالَ: كَانَ عَلِيٌّ إِذَا وَصَفَ رَسُولَ اللهِ ﷺ، قَالَ: ((لَمْ يَكُنْ رَسُولُ اللهِ ﷺ بِالطَّوِيلِ الْمُمَّغِطِ، وَلا بِالْقَصِيرِ الْمُتَرَدِّدِ، كَانَ رَبْعَةً مِنَ الْقَوْمِ، لَمْ يَكُنْ بِالْجَعْدِ الْقَطَطِ، وَلا بِالسَّبْطِ، كَانَ جَعْدًا رَجِلا، وَلَمْ يَكُنْ بِالْمُطَهَّمِ، وَلا بِالْمُكَلْثَمِ، وَكَانَ فِي وَجْهِهِ تَدْوِيرٌ، أَبْيَضُ مُشْرَبٌ، أَدْعَجُ الْعَيْنَيْنِ، أَهْدَبُ الأَشْفَارِ، جَلِيلُ الْمُشَاشِ وَالْكَتِدِ، أَجْرَدُ ذُو مَسْرُبَةٍ، شَثْنُ الْكَفَّيْنِ وَالْقَدَمَيْنِ، إِذَا مَشَى تَقَلَّعَ كَأَنَّمَا يَنْحَطُّ فِي صَبَبٍ، وَإِذَا الْتَفَتَ الْتَفَتَ مَعًا، بَيْنَ كَتِفَيْهِ خَاتَمُ النُّبُوَّةِ، وَهُوَ خَاتَمُ النَّبِيِّينَ، أَجْوَدُ النَّاسِ صَدْرًا، وَأَصْدَقُ النَّاسِ لَهْجَةً، وَأَلْيَنُهُمْ عَرِيكَةً، وَأَكْرَمُهُمْ عِشْرَةً، مَنْ رَآهُ بَدِيهَةً هَابَهُ، وَمَنْ خَالَطَهُ مَعْرِفَةً أَحَبَّهُ، يَقُولُ نَاعِتُهُ: لَمْ أَرَ قَبْلَهُ، وَلا بَعْدَهُ مِثْلَهُ ﷺ)).

قَالَ أَبُو عِيسَى: سَمِعْتُ أَبَا جَعْفَرٍ مُحَمَّدَ بْنَ الْحُسَيْنِ، يَقُولُ: سَمِعْتُ الأَصْمَعِيَّ يَقُولُ فِي تَفْسِيرِ صِفَةِ النَّبِيِّ ﷺ: الْمُمَّغِطُ: الذَّاهِبُ طُولا، وَقَالَ: سَمِعْتُ أَعْرَابِيًّا يَقُولُ فِي كَلامِهِ: تَمَغَّطَ فِي نَشَّابَتِهِ، أَيْ مَدَّهَا مَدًّا شَدِيدًا وَالْمُتَرَدِّدُ: الدَّاخِلُ بَعْضُهُ فِي بَعْضٍ قِصَرًا، وَأَمَّا الْقَطَطُ: فَشَدِيدُ الْجُعُودَةِ، وَالرَّجِلُ الَّذِي فِي شَعَرِهِ هُجُونَةٌ: أَيْ تَثَنٍّ قَلِيلٌ، وَأَمَّا الْمُطَهَّمُ: فَالْبَادِنُ، الْكَثِيرُ اللَّحْمِ، وَالْمُكَلْثَمُ: الْمُدَوَّرُ الْوَجْهِ، وَالْمُشْرَبُ: الَّذِي فِي بَيَاضِهِ حُمْرَةٌ، وَالأَدْعَجُ:

---

bir dərəcə, yəni, “zəif” dərəcəsindən “həsən”, yaxud “həsən” dərəcəsindən “səhih” dərəcəsinə yüksəltmək olmuşdur.

الشَّدِيدُ سَوَادِ الْعَيْنِ، وَالأَهْدَبُ: الطَّوِيلُ الأَشْفَارِ، وَالْكَتَدُ: مُجْمَعُ الْكَتِفَيْنِ وَهُوَ الْكَاهِلُ، وَالْمَسْرُبَةُ: هُوَ الشَّعْرُ الدَّقِيقُ الَّذِي كَأَنَّهُ قَضِيبٌ مِنَ الصَّدْرِ إِلَى السُّرَّةِ، وَالشَّثْنُ: الْغَلِيظُ الأَصَابِعِ مِنَ الْكَفَّيْنِ وَالْقَدَمَيْنِ، وَالتَّقَلُّعُ: أَنْ يَمْشِيَ بِقُوَّةٍ، وَالصَّبَبُ: الْحُدُورُ، يُقَالُ: انْحَدَرْنَا فِى صَبُوبٍ، وَصَبَبٍ، وَقَوْلُهُ: جَلِيلُ الْمُشَاشِ: يُرِيدُ رُؤُوسَ الْمَنَاكِبِ، وَالْعِشْرَةُ: الصُّحْبَةُ، وَالْبَدِيهَةُ: الْمُفَاجَأَةُ، يُقَالُ: بَدَهْتُهُ بِأَمْرٍ: أَيْ فَاجَأْتُهُ.

(7) ..... Əli ibn Əbu Talibin ﷺ nəvələrindən biri İbrahim ibn Muhəmməd,[1] demişdir: "Əli (ibn Əbu Talib) Rəsulullahı ﷺ vəsf edərkən deyərdi: "Rəsulullah ﷺ nə lap hündürboy, nə də olduqca bəstəboy – ortaboylu – bir adam idi.[2] Saçları nə tam qıvrım, nə də dümdüz – azacıq dalğavarı – idi.[3] Nə şişmansifət, *yaxud uzunsifət*, nə də girdəsifət idi.[4] Üzündə bir qədər girdəlik var idi. (Rəngi) qatışıq

---

[1] Bu Muhəmməd, Əli ibn Əbu Talibin ﷺ Həsən və Hüseyndən ﷺ sonra ən fəzilətli oğlu sayılır. Muhəmməd ibn əl-Hənəfiyyə kimi tanınmışdır. Hənəfiyyə onun anasıdır. Adı Xovlə bint Cəfərdir. Bu qadın Əbu Bəkrin xilafəti dövründə Bəni-Hənifə qəbiləsindən cariyə götürülmüş və Əli ibn Əbu Talibə ﷺ nəsib olmuşdur (Siyər Əlam ən-Nubələ, 36-cı tərcümeyi-hal).

[2] 2-ci hədisə bax.

[3] Buxarinin "Səhih"ində (5905) rəvayət edilir ki, Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbərin ﷺ saçları nə dümdüz, nə də qıvrım idi. *Onun saçları* dalğavarı idi və qulağı ilə çiyni arasına düşürdü."

[4] Əbu Hureyrə ﷺ Peyğəmbəri ﷺ vəsf edib demişdir: "(Peyğəmbər ﷺ) ortaboy, bir qədər uzun, ağbəniz idi, saqqalının tükləri qara, qabaq dişləri gözəl idi, gözlərinin kirpikləri sıx və uzun idi, özü də

ağ,[1] qaragözlü,[2] uzun kirpikli,[3] habelə məfsəlləri və çiyin sümüyü iri olan bir adam idi.[4] Bədəni də çox tüklü deyildi. Sinəsinin tükü uzunsov, əlləri və ayaqları isə olduqca sərt idi. Yeridikdə, sanki hündür bir yerdən enirmiş kimi ləngər vurardı.[5] (Birinə tərəf) döndüyü zaman tam vücudu ilə dönərdi. [6] Peyğəmbərlik möhürü onun kürəkləri arasında idi.[7] O, peyğəmbərlərin sonuncusu,[8] üstəlik insan-

---

enlikürək idi, yanaqları nə şiş, nə də batıq idi...” (Ədəbul-Mufrəd, 1155. Albani bu hədisin “həsən li-ğeyrihi” olduğunu demişdir).

[1] Beyhəqinin “Dəlail” əsərində (1/161) rəvayət edilir ki, Əli ibn Əbu Talib ﷺ demişdir: “(Peyğəmbərin ﷺ dərisinin) ağlığı qırmızıya çalırdı.” Bu hədisi Albani “həsən” hesab etmişdir. (Səhih əl-Cami, 4620) Buxarinin “Səhih”ində (3547) isə Ənəs ibn Malik ﷺ belə rəvayət etmişdir: “Peyğəmbərin ﷺ dərisi qırmızıya çalırdı.”

[2] Beyhəqinin “Dəlail” əsərində (1/161) rəvayət edilir ki, Əli ibn Əbu Talib ﷺ demişdir: “(Peyğəmbər ﷺ) qaragöz bir adam idi.” Bu hədisi Muhəmməd Nasirəddin əl-Albani “səhih” hesab etmişdir (Səhih əl-Cami, 4621).

[3] Beyhəqinin “Dəlail” əsərində (1/212) rəvayət edilir ki, Əbu Hureyrə ﷺ demişdir: “(Peyğəmbər ﷺ) uzunkirpik bir adam idi.” Bu hədisi Muhəmməd Nasirəddin əl-Albani “həsən” hesab etmişdir (Səhih əl-Cami, 4633).

[4] 5-ci hədisə bax.

[5] Sinəsinin tükünün, əllərinin və ayaqlarının, habelə yerişinin vəsfi 2-ci və 5- ci hədislərdə öz təsdiqini tapmışdır.

[6] Əbu Hureyrə رضي الله عنه Peyğəmbəri ﷺ vəsf edib demişdir: “yönəldikdə tam yönələr, çevrildikdə tam çevrilərdi” (Ədəbul-Mufrəd, 1155. Hədis “həsən li-ğeyrihi”dir).

[7] 2-ci fəsildəki hədislərə bax.

[8] Bu xüsusda Uca Allah belə buyurur: **“Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və**

ların ən genişürəklisi,[1] ən düzdanışanı, ən mülayimi[2] və dostluqda onların ən comərdi[1] idi. Adam onu birinci dəfə

---

peyğəmbərlərin sonuncusudur" (əl-Əhzab, 40). Peyğəmbər ﷺ isə demişdir: "Mənim və əvvəlki peyğəmbərlərin məsəli, gözəl və heyrətamiz bir ev tikmiş, lakin kərpicinin birini qoymamış bir kimsənin məsəlinə bənzəyir. Camaat bu evin yan-yörəsindən keçir, ona heyrət edir və deyirlər: "Nə üçün bura bir kərpic qoyulmayıb?" *Sonra* Peyğəmbər ﷺ davam edib dedi: "O kərpic mənəm və mən peyğəmbərlərin sonuncusuyam" (Səhih əl-Buxari, 3535).

[1] İbn Abbas رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ insanların ən səxavətlisi idi. Ramazan ayında Cəbrail ilə görüşdüyü zaman isə daha səxavətli olardı. Cəbrail Ramazan ayının hər gecəsində Rəsulullah ﷺ ilə görüşər, onunla birgə Quranı oxuyub təkrar edərdi. Odur ki, *bu günlərdə* Rəsulullah ﷺ xeyirxah işlər görməkdə sərbəst əsən küləkdən daha comərd olardı" (Səhih əl-Buxari, 6).

[2] Rəsulullah ﷺ heç vaxt yalan danışmayıb. Hətta zarafat etdikdə belə, düz söz danışaraq zarafat edərdi. Abdullah ibn Məsud رضي الله عنه, Əbu Hureyrə رضي الله عنه və digərləri Rəsulullahdan ﷺ hədis rəvayət edərkən deyərdilər: "Doğru danışan və doğruluğu təsdiq edilmiş Rəsulullah ﷺ bizə belə rəvayət etmişdir..." Həmçinin, Rum imperatoru Herakl, Əbu Sufyandan: "*Peyğəmbərlik iddia edən bu adam* söylədiklərini deməzdən, *bu dinə dəvət etməzdən* əvvəl heç onu yalan danışmaqda ittiham etmişdinizmi?"– deyə soruşduqda, Əbu Sufyan ona: "Xeyr!"– deyə cavab vermişdir" (Səhih əl-Buxari, 7). İbn Məsud رضي الله عنه demişdir: "Səd ibn Muaz ümrə ziyarətinə yola düşdü və *gedib* Umeyyə ibn Xələfin (evində) qonaq qaldı. Umeyyə də Şama gedərkən Mədinədən keçər və Sədin *evində* qonaq qalardı. Umeyyə Sədə dedi: "Günortayadək gözlə, insanlar yuxuya dalsın, sonra get ümrəni yerinə yetir." Səd *Kəbəni* təvaf edərkən, Əbu Cəhl ona rast gəldi və soruşdu: "Bu kimdir, Kəbəni təvaf edir?" Səd: "Mənəm Səd!"– deyə cavab verdi. Əbu Cəhl dedi: "Muhəmmədə və onun səhabələrinə sığınacaq verirsiniz, *sonra da gəlib* arxayın Kəbəni təvaf edirsən?!" Səd: "Bəli!"– dedi və onlar mübahisə etməyə başladılar. Bu vaxt Umeyyə Sədə dedi: "Səsini Əbul

görəndə, heybətindən[2] canına vəlvələ düşərdi. Və kim onunla yaxından ünsiyyət tutardısa, onu sevərdi. Onu vəsf etmək istəyən kimsə isə belə deyərdi: "Mən nə ondan əvvəl, nə də ondan sonra onun kimisini görmədim."[3]

Həkəmin səsindən yuxarı qaldırma. O, bu vadidə yaşayan adamların ağsaqqalıdır." Səd dedi: "Vallahi, əgər sən mənə Kəbəni təvaf etməyə mane olsan, mən də sənə Şamda ticarət etməyə imkan verməyəcəyəm." Umeyyə onun yaxasından yapışıb: "Səsini qaldırma!"– dedi. Səd qəzəblənib dedi: "Əl çək bizdən! Mən Muhəmmədin ﷺ səni öldürəcəyini dediyini eşitmişəm." Umeyyə: "Məni?"– deyə soruşdu. Səd: "Bəli!"– deyə cavab verdi. Umeyyə dedi: "Vallahi, Muhəmməd ﷺ bir xəbər verərsə, yalan danışmaz." Sonra o, arvadının yanına gəlib dedi: "Bilirsən, yəsribli qardaşım mənə nə dedi?" Qadın soruşdu: "Nə dedi?" Dedi: "İddia etdi ki, o, Muhəmmədin məni öldürəcəyini dediyini eşitmişdir." Qadın dedi: "Vallahi, Muhəmməd yalan danışmaz." *Müşriklər* Bədr döyüşünə çıxdıqda carçı gəlib onu çağırdı. Bu zaman arvadı ona dedi: "Yoxsa, yəsribli qardaşının sənə dedikləri yadından çıxıb?!" Umeyyə döyüşə çıxmaq istəmədi, lakin Əbu Cəhl ona dedi: "Axı sən bu vadidə yaşayanların ağsaqqallarındansan. Bir-iki günlük *bizimlə* səfərə çıx!" Beləliklə, *Umeyyə* onlarla birlikdə səfərə çıxdı və nəhayət, *Bədr döyüşündə* Allah onu məhv etdi" (Səhih əl-Buxari, 3632). Qaldı ki, Peyğəmbərin ﷺ mülayim olmasına, bu xüsusda varid olmuş hədisdə Malik ibn Huveyris ﷺ demişdir: "Peyğəmbər ﷺ mülayim və rəhmli adam idi" (Ədəbul-Mufrəd, 213).

[1] Uca Allah buyurur: **"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O, sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir"** (ət-Tovbə, 128).

[2] Burada "heybət" deyildikdə, qorxu, həm də hörmət hissi oyandıran görkəm nəzərdə tutulur. Belə ki, Allah onun üzündə özünəməxsus bir heybət yaratmışdı. 127-ci hədisə bax.

[3] 4-cü hədisə bax.

Əbu İsa (ət-Tirmizi) demişdir: "Mən Əbu Cəfər Muhəmməd ibn Hüseynin belə dediyini eşitdim: "Mən Əsməinin Peyğəmbərin ﷺ vəsflərini belə izah etdiyini eşitdim:

– **lap (hündürboy):** olduqca uzun. Mən bir bədəvinin danışarkən belə dediyini eşitmişəm: "Oxunu[1] lap uzun etdi, yəni, olduqca uzatdı."

– **olduqca (bəstəboy):** bədən əzaları (sanki) bir-birinin içinə girmiş.

– **tam qıvrım:** olduqca buruq-buruq.

– **dalğavarı:** saçında buruq, yəni, azacıq qıvrımlıq olan kimsə.

– **şişmansifət:** iribədənli, çox kök.

– **girdəsifət:** yumrusifət.

– **qatışıq:** ağlığı qırmızıya çalan.

– **qaragöz:** gözləri zil qara.

– **uzun kirpik:** kirpikləri uzun.

– **çiyin sümüyü:** kürəklərin yuxarı tərəfi.

– **uzunsov:** sinəsindən göbəyinədək nazik və uzunsov şəkildə bitən tüklər.

– **sərt:** əl və ayaq barmaqları möhkəm.

– **ləngər vurmaq:** *irəliyə meyil edərək* möhkəm addımlarla yerimək.

– **hündür bir yer:** sərt eniş; yəni, hündür bir yerdən endik.

---

[1] Yayla atılan itiuclu və ya ucuna iti dəmir keçirilmiş mil (qədim silah növü).

– **məfsəlləri iri:** sümüklərinin oynaqlara birləşən tərəfləri.

– **dostluqda:** yoldaşlıqda (və ya qəbiləsinə olan münasibətdə).

– **birinci dəfə:** qəfildən.”[1]

٨– حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ: حَدَّثَنَا جُمَيْعُ بْنُ عُمَرَ بْنِ عَبْدِ الرَّحْمَنِ الْعِجْلِيُّ، (إِمْلاءً عَلَيْهِ مِنْ كِتَابِهِ)، قَالَ: أَخْبَرَنِي رَجُلٌ مِنْ بَنِي تَمِيمٍ، مِنْ وَلَدِ أَبِي هَالَةَ زَوْجِ خَدِيجَةَ، يُكْنَى أَبَا عَبْدِ اللهِ، عَنِ ابْنٍ لأَبِي هَالَةَ، عَنِ الْحَسَنِ بْنِ عَلِيٍّ، قَالَ: سَأَلْتُ خَالِي هِنْدَ بْنَ أَبِي هَالَةَ، وَكَانَ وَصَّافًا، عَنْ حِلْيَةِ النَّبِيِّ ﷺ، وَأَنَا أَشْتَهِي أَنْ يَصِفَ لِي مِنْهَا شَيْئًا أَتَعَلَّقُ بِهِ، فَقَالَ: ((كَانَ النَّبِيِّ ﷺ فَخْمًا مُفَخَّمًا، يَتَلأْلأُ وَجْهُهُ، تَلأْلُؤَ الْقَمَرِ لَيْلَةَ الْبَدْرِ، أَطْوَلُ مِنَ الْمَرْبُوعِ، وَأَقْصَرُ مِنَ الْمُشَذَّبِ، عَظِيمُ الْهَامَةِ، رَجِلُ الشَّعْرِ، إِنِ انْفَرَقَتْ عَقِيقَتُهُ فَرَقَ، وَإِلا فَلا يُجَاوِزُ شَعَرُهُ شَحْمَةَ أُذُنَيْهِ، إِذَا هُوَ وَفَّرَهُ، أَزْهَرُ اللَّوْنِ، وَاسِعُ الْجَبِينِ، أَزَجُّ الْحَوَاجِبِ، سَوَابِغَ فِي غَيْرِ قَرَنٍ، بَيْنَهُمَا عِرْقٌ، يُدِرُّهُ الْغَضَبُ، أَقْنَى الْعِرْنَيْنِ، لَهُ نُورٌ يَعْلُوهُ،

[1] Tirmizi bu hədisi “Sunən” əsərində (3642) rəvayət etmiş və: “Bu, isnadında bağlılıq olmayan bir hədisdir”– demişdir. Belə ki, İbrahim ibn Muhəmməd bu hədisi bilavasitə babası Əlidən eşitməmişdir. Üstəlik, hədisin isnadında keçən, Ğufranın azad etdiyi köləsi, Ömər ibn Abdullah əl-Mədəni, etibarsız ravidir. Odur ki, imam Əhməd ibn Hənbəl, İbn Məin, Nəsai, İbn Hibban və başqaları onu etibarsız ravi hesab etmişlər. Muhəmməd Nasirəddin əl-Albani də “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin isnadının “zəif” olduğunu demişdir. Lakin qeyd etmək lazımdır ki, bu hədis “zəif” olsa da, onun mətnindəki vəsflərin əksəriyyəti digər səhih hədislərdə öz təsdiqini tapmışdır.

يَحْسَبُهُ مَنْ لَمْ يَتَأَمَّلْهُ أَشَمَّ، كَثُّ اللِّحْيَةِ، سَهْلُ الْخَدَّيْنِ، ضَلِيعُ الْفَمِ، مُفْلَجُ الأَسْنَانِ، دَقِيقُ الْمَسْرُبَةِ، كَأَنَّ عُنُقَهُ جِيدُ دُمْيَةٍ، فِي صَفَاءِ الْفِضَّةِ، مُعْتَدِلُ الْخَلْقِ، بَادِنٌ مُتَمَاسِكٌ، سَوَاءُ الْبَطْنِ وَالصَّدْرِ، عَرِيضُ الصَّدْرِ، بَعِيدُ مَا بَيْنَ الْمَنْكِبَيْنِ، ضَخْمُ الْكَرَادِيسِ، أَنْوَرُ الْمُتَجَرَّدِ، مَوْصُولُ مَا بَيْنَ اللَّبَّةِ وَالسُّرَّةِ بِشَعَرٍ يَجْرِي كَالْخَطِّ، عَارِي الثَّدْيَيْنِ وَالْبَطْنِ مِمَّا سِوَى ذَلِكَ، أَشْعَرُ الذِّرَاعَيْنِ، وَالْمَنْكِبَيْنِ، وَأَعَالِي الصَّدْرِ، طَوِيلُ الزَّنْدَيْنِ، رَحْبُ الرَّاحَةِ، شَثْنُ الْكَفَّيْنِ وَالْقَدَمَيْنِ، سَائِلُ الأَطْرَافِ أَوْ قَالَ: شَائِلُ الأَطْرَافِ خَمْصَانُ الأَخْمَصَيْنِ، مَسِيحُ الْقَدَمَيْنِ، يَنْبُو عَنْهُمَا الْمَاءُ، إِذَا زَالَ، زَالَ قَلِعًا، يَخْطُو تَكَفِّيًا، وَيَمْشِي هَوْنًا، ذَرِيعُ الْمِشْيَةِ، إِذَا مَشَى كَأَنَّمَا يَنْحَطُّ مِنْ صَبَبٍ، وَإِذَا الْتَفَتَ الْتَفَتَ جَمِيعًا، خَافِضُ الطَّرْفِ، نَظَرُهُ إِلَى الأَرْضِ، أَطْوَلُ مِنْ نَظَرِهِ إِلَى السَّمَاءِ، جُلُّ نَظَرِهِ الْمُلاحَظَةُ، يَسُوقُ أَصْحَابَهُ، وَيَبْدَأُ مَنْ لَقِيَ بِالسَّلامِ)).

(8) ..... Həsən ibn Əli[1] رضي الله عنهما demişdir: "Mən (gördüyü

[1] Əbu Muhəmməd Həsən ibn Əli ibn Əbu Talib əl-Haşimi əl-Mədəni رضي الله عنهما Peyğəmbərin ﷺ nəvəsi, qızı Fatimənin رضي الله عنها oğlu, Cənnətlə müjdələnmiş, malı və canı ilə İslam dininə xidmət etmiş ən məşhur səhabələrdəndir. Hicrətin üçüncü ilində ramazan ayının ortalarında Mədinə şəhərində dünyaya gəlmişdir. Muhəmməd ibn əl-Hənəfiyyə rəvayət edir ki, Əli ibn Əbu Talib رضي الله عنه demişdir: "Həsən dünyaya gəldikdə, mən ona Həmzə adını, Hüseyn doğulduqda isə ona əmisinin adını – Cəfər adını qoymuşdum. Sonra Peyğəmbər ﷺ məni çağırıb dedi: "Mənə bunların adlarını dəyişdirmək əmr olundu!" Mən dedim: "Allah və Onun rəsulu daha yaxşı bilir!" Onda Peyğəmbər ﷺ onlara Həsən və Hüseyn adını qoydu" (Musnəd imam Əhməd 1/159, 1370-ci hədis; Musnəd Əbu Yələ, 1/147; Mocəm əl-Kəbir, 2780; Müstədrək, 4/277; Məcməuz-Zəvaid, 8/52; Silsilətul Əhadisis-Səhihə, 2709). Bəra ibn Azib رضي الله عنه belə rəvayət etmişdir: "Mən Peyğəmbərin ﷺ Həsəni çiynində apararkən, belə dediyini eşitdim: "Allahım, mən onu sevirəm, Sən də onu sev!" (Səhih əl-Buxari, 3749). Digər rəvayətdə deyilir ki, Peyğəmbər ﷺ onu qucaqlayıb öpdü və dua edib dedi: "Allahım, onu sev və onu sevən kimsələri də sev!" (Səhih əl-Buxari, 2122). Həsən رضي الله عنه Peyğəmbərə ﷺ ən çox oxşayan səhabədir. Əbu Cuheyfə رضي الله عنه demişdir: "Mən Peyğəmbəri ﷺ görmüşəm. Həsən ibn Əli رضي الله عنه ona oxşayırdı" (Səhih əl-Buxari, 3544). Başqa bir rəvayətdə Ənəs ibn Malik رضي الله عنه demişdir: "Peyğəmbərə ﷺ Həsən ibn Əli qədər çox oxşayan bir kimsə yox idi" (Səhih əl-Buxari, 3752). Bir başqa rəvayətdə Uqbə ibn Haris رضي الله عنه demişdir: "*Bir dəfə* Əbu Bəkr əsr namazını qıldıqdan sonra *məsciddən* bayıra çıxdı. *Bu vaxt* o, Həsənin uşaqlarla oynadığını gördü və onu çiyninə otuzdurub dedi: "Atam sənə qurban, sən Əlidən çox Peyğəmbərə ﷺ oxşayırsan" Əli *bu sözü eşidəndə* güldü" (Səhih əl-Buxari, 3542).

Həsənin رضي الله عنه müsəlman ümməti üçün etdiyi ən böyük xeyirxahlıq onların arasında baş verə biləcək böyük bir qırğının qabağını almaq olmuşdur ki, bunun barəsində də Peyğəmbər ﷺ əvvəlcədən xəbər verib belə buyurmuşdur: "Mənim bu oğlum çox hörmətli şəxsiyyət-

kimsəni) vəsf etməyi bacaran dayım Hind ibn Əbu Halədən[1] Rəsulullahın ﷺ gözəl xislətləri barədə soruşdum. Mən çox istəyirdim ki, o, Rəsulullahın ﷺ xislətlərindən bəzisini mənə vəsf etsin, mən də bunu yadda saxlayım. Dayım dedi: "Rəsulullah ﷺ çox möhtərəm (və insanların) sayğı göstərdiyi bir adam idi. Onun üzü bədr[2] gecəsindəki ay kimi parlayırdı.[3] O, ortaboy adamdan (bir qədər) hündür, hündürboy adamdan isə (bir qədər) alçaq idi. Başı iri, saçları da dalğavarı idi.[4] Saçları ayrılmağa meyilli olardısa, onları ortadan ayırar,[5] əks halda, onlara dəymədiyi təqdirdə isə saçları qulaqlarının mərcəyinə çatardı.

---

dir. *Vaxt gələcək,* o, müsəlmanlardan iki böyük dəstənin arasını düzəldəcəkdir" (Səhih əl-Buxari, 2704).

[1] Hind ibn Əbu Halə, Fatimənin رضي الله عنها ögey qardaşı, Xədicənin رضي الله عنها Əbu Halədən olan oğludur. Xədicə رضي الله عنها əvvəlcə Əbu Halə ibn Zurarə ət-Təmiminin zövcəsi olmuş, ondan boşandıqdan sonra Ətiq ibn Abidə ərə getmiş və nəhayət, ondan boşandıqdan sonra Rəsulullahın ﷺ zövcəsi və möminlərin anası olmuşdur.

[2] Burada bədr deyildikdə qəməri aylarda ayın on dördüncü gecəsi qəsd edilir. Elə buna görə də on dörd gecəlik, yəni, tam dairə şəklinə düşmüş aya bədrlənmiş ay deyilir.

[3] 11-ci hədisə bax.

[4] Onun boyunun, başının və saçlarının vəsfi öncəki hədislərdə, habelə onların şərhindəki rəvayətlərdə öz təsdiqini tapmışdır.

[5] İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ saçlarını alnına tökərdi, müşriklər isə saçlarını tağ ayırardılar. Kitab əhli də saçlarını alınlarına tökərdi. Peyğəmbər ﷺ *Allahın* ona buyurduqları istisna olmaqla, digər işlərdə Kitab əhlinə uyğun hərəkət etməyi xoşlayardı. Sonralar isə o, saçlarını tağ ayırmağa başladı" (Səhih əl-Buxari, 3558).

Rəngi qırmızıya çalırdı.[1] Alnı geniş idi.[2] Qaşları azacıq qövsvari[3] və kamil şəkildə[4] idi, burnunun üst tərəfinədək uzanır, lakın bir-birinə bitişmirdi. Qaşlarının arasında xırda damar var idi və qəzəbləndikdə bu damar şişərdi. Burnu uzun idi, ortası da bir az qabağa çıxırdı, özü də[5] parlayırdı. (Peyğəmbərin ﷺ üzünə) diqqətlə baxmayan adam onun qartalburunlu olduğunu güman edərdi.[6] Saqqalı sıx idi.[7] Şişmansifət deyildi.[1] Ağzı iri,[2] ön dişlərinin

---

[1] Ənəs ﷺ demişdir: "Onun *dərisinin* rəngi qırmızıya çalırdı" (Səhih əl-Buxari, 3547).

[2] Burada onun alnının həm eninə, həm də uzununa geniş olduğu nəzərdə tutulur.

[3] Yəni, qövsə oxşar, qövs şəklində. Qövs: yəni, yay, kaman.

[4] Nöqsansız, qüsursuz, bitkin, tam, mükəmməl.

[5] Burada "özü" deyildikdə, ya Peyğəmbərin ﷺ özü, ya da onun burnu nəzərdə tutulur.

[6] Lakin onun burnu belə deyildi. Çünki bu, Peyğəmbərə ﷺ yaraşmayan bir sifətdir.

[7] Peyğəmbər ﷺ bir çox hədislərdə ümmətinin kişilərinə saqqal saxlamağı əmr etmişdir. Əbu Hureyrə rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bığları qısaldın və saqqal buraxın, *beləliklə də*, atəşpərəstlərə müxalif olun!" (Səhih Muslim, 603). İbn Ömər ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Müşriklərə müxalif olun – saqqal buraxın və bığları qısaldın" (Səhih əl-Buxari, 5892). Aişə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "On şey fitrətdəndir: bığları qısaltmaq, saqqal buraxmaq, misvaklanmaq, buruna su çəkib *içini təmizləmək*, dırnaqları kəsmək, barmaq buğumlarını yumaq, qoltuqaltı tükləri qopartmaq, qasığı qırxmaq və *ayaqyolunda* su ilə yuyunmaq." Ravi Musab demişdir: "Onuncusunu unutmuşam. Yəqin ki, bu, ağzı yaxalamaqdır" (Səhih Muslim, 604). Peyğəmbərin ﷺ əmrinə itaətsizlik xüsusunda Uca Allah belə buyurur: **"Qoy onun əmrinə qarşı çıxanlar**

arası azacıq aralı və sinəsinin tükü nazik uzunsov idi.[3] Boynu sanki cilalanmış heykəltək, gümüş kimi parlayırdı.[4] Əzaları ortaölçülü[5] (və gözəl biçimdə) idi. Özü də cüssəli idi. Qarnı sinəsi ilə bərabər,[6] sinəsi və kürəyi enli, məfsəlləri iri idi.[7] Libasını çıxaranda bədəni nur saçırdı,[8] sinəsinin yuxarı tərəfindən göbəyinədək nazik xətt şəklində uzanan tüklər də habelə. Sinəsində və qarnında bu tüklərdən başqa tük yox idi. Dirsəkləri,[9] çiyinləri və sinəsinin üst tərəfi tüklü idi. Bazuları uzun, əl pəncəsi də iri idi. Əlləri və ayaqları sərt idi, yaxud əl və ayaq barmaqlarının ucları bir qədər uzun idi. Ayaqlarının altı batıq, ayaq pəncəsi isə hamar idi. Elə hamar idi ki, üzərində su qalmırdı. Yeridikdə ayaqlarını yerə möhkəm basaraq, lən-

---

başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar" (ən-Nur, 63).

[1] Öncəki hədisin şərhindəki Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisə bax.

[2] 9-cu hədisə bax.

[3] Əvvəlki səhih hədislərə bax.

[4] 12-ci hədisə bax.

[5] 14-cü hədisə bax.

[6] Yəni, nə yekə qarın, nə də lap arıq deyildi. 14-cü hədisdə Əbu Tufeylin ﷺ: "Peyğəmbər ﷺ ortaxilqətli bir adam idi" sözü buna dəlalət edə bilər.

[7] Əvvəlki səhih hədislərə bax.

[8] Əbu Hureyrə ﷺ demişdir**:** "Rəsulullah ﷺ libasını çıxaranda bədəni gümüş külçəsitək nur saçardı" (Dəlail, 1/212, hədis "həsən"dir, Səhih əl-Cami, 4633)

[9] Burada onun qolunun biləkdən dirsəyə qədər olan hissəsi nəzərdə tutulur.

gər vuraraq, vüqarla[1] və iri addımlarla yeriyərdi. Sanki hündür bir yerdən enirmiş kimi yol gedərdi. (Birinə tərəf) döndüyü zaman, tam vücudu ilə dönərdi. Adətən başı aşağı olar və çox vaxt nəzərlərini göyə deyil, yerə yönəldərdi. Baxışları çox vaxt ötəri olardı.[2] Yola çıxarkən səhabələrinə irəlidə getməyi buyurar (özü isə onların arxasında gedərdi). Qarşısına çıxan hər kəsə də salam verərdi.[3]"[4]

---

[1] Bu xüsusda, Uca Allah belə buyurur: **"Mərhəmətli *Allahın* qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara *xoşagəlməz* bir söz dedikdə: "Salam!"– deyərlər"** (əl-Furqan, 63).

[2] Heç vaxt gözlərini baxdığı adama zilləməzdi.

[3] Abdullah ibn Amr رضي الله عنهما rəvayət edir ki, bir nəfər Peyğəmbərdən ﷺ soruşdu: "İslam *xislətlərindən* ən xeyirlisi hansıdır?" Peyğəmbər ﷺ buyurdu: "*Ehtiyacı olanlara* yemək yedirtməyin, tanıdığına və tanımadığına salam verməyin" (Səhih əl-Buxari, 12).

[4] Bu hədis, əslində, uzun hədisdir. İmam Tirmizi burada bu hədisin bir qismini, digər fəsillərdə də qalan hissəsini rəvayət etmişdir. Hədisi həmçinin, Beyhəqi "Dəlail ən-Nubuvvə" (1/286), Təbərani "Mocəm əl-Kəbir" (22/155) və Heysəmi "Məcməuz-Zəvaid" (1426-cı hədis) əsərində rəvayət etmişdir. Bu hədisin isnadı "daif ciddən" yəni, olduqca zəifdir. Çünki isnadında keçən ravilərdən Cumey ibn Umeyr ibn Abdur-Rəhman əl-İcli zəif və etibarsız, Əbu Abdullah ət-Təmimi isə "məchul", yəni, necə ravi olduğu və ya kim olduğu bəlli olmayan bir ravidir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin isnadının "olduqca zəif" olduğunu demişdir. Lakin qeyd etmək lazımdır ki, bu hədis "zəif" olsa da, onun mətnindəki vəsflərin bir çoxu digər səhih hədislərdə öz təsdiqini tapmışdır.

٩- حَدَّثَنَا أَبُو مُوسَى مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ سَمُرَةَ، يَقُولُ: ((كَانَ رَسُولُ اللهِ ﷺ ضَلِيعَ الْفَمِ، أَشْكَلَ الْعَيْنِ، مَنْهُوسَ الْعَقِبِ)).

قَالَ شُعْبَةُ: قُلْتُ لِسِمَاكٍ: مَا ضَلِيعُ الْفَمِ؟ قَالَ: عَظِيمُ الْفَمِ. قُلْتُ: مَا أَشْكَلُ الْعَيْنِ؟ قَالَ: طَوِيلُ شِقِّ الْعَيْنِ، قُلْتُ: مَا مَنْهُوسُ الْعَقِبِ؟ قَالَ: قَلِيلُ لَحْمِ الْعَقِبِ.

(9) ..... Şobə rəvayət edir ki, Simak ibn Hərb demişdir: "Mən Cabir ibn Səmurənin[1] ﷺ belə dediyini eşitdim: "Rəsulullah ﷺ ağzı daliy', gözləri əşkəl və dabanları mənhus bir adam idi."

Şobə dedi: "Mən Simakdan: "Ağzı daliy' nədir?"– deyə soruşdum. (Simak): "Ağzı iri[2] deməkdir"– dedi. Mən: "Gözləri əşkəl nədir?"– deyə soruşdum. (Simak): "Göz yarığı uzun[3] deməkdir"– dedi. Mən: "Dabanları mənhus

---

[1] Əbu Xalid Cabir ibn Səmurə ibn Cunadə ibn Cundəb əs-Suvai ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 76-cı ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 36-cı tərcümeyi-hal).

[2] Ərəbcə "daliyul-fəm" ağzı böyük, yaxud geniş, yaxud dişləri iri deməkdir. Ərəblər ağzı iri olan adamdan xoşları gələr, ağzı balaca adamı isə bəyənməzdilər (Şərh-Nəvəvi).

[3] Qazı İyad demişdir: "Alimlərin yekdil rəyinə əsasən Simakın bu kəlməyə verdiyi izah yanlış və aşkar bir səhvdir. Düzgün izahı isə alimlərin üzərində ittifaq etdiyi izahdır. Əbu Ubeyd və qərib (kəlmələrin izahına dair yazılmış kitabların) müəllifləri nəql etmişlər ki, "şəklə" gözün ağlığında olan qırmızılıqdır və bu, tərifəlayiq bir xislətdir, "şəhlə" isə göz bəbəyində olan qırmızılıqdır" (Şərh ən-Nəvəvi).

nədir?"– deyə soruşdum. (Simak): "Dabanının az ətli olması deməkdir"– dedi."[1]

١٠- حَدَّثَنَا هَنَّادُ بْنُ السَّرِيِّ، قَالَ: حَدَّثَنَا عَبْثَرُ بْنُ الْقَاسِمِ، عَنْ أَشْعَثَ بْنَ سَوَّارٍ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ جَابِرِ بْنِ سَمُرَةَ، قَالَ: ((رَأَيْتُ رَسُولَ اللهِ ﷺ، فِي لَيْلَةٍ إِضْحِيَانٍ، وَعَلَيْهِ حُلَّةٌ حَمْرَاءُ، فَجَعَلْتُ أَنْظُرُ إِلَيْهِ وَإِلَى الْقَمَرِ، فَلَهُوَ عِنْدِي أَحْسَنُ مِنَ الْقَمَرِ)).

(10) ..... Cabir ibn Səmurə ﷺ demişdir: "Mən aylı bir gecədə Rəsulullahı ﷺ gördüm. Əynində qırmızı libas var idi. Mən bir ona baxdım, bir də aya. Məncə, o, aydan daha gözəl idi."[2]

١١- حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ:حَدَّثَنَا حُمَيْدُ بْنُ عَبْدِ الرَّحْمَنِ الرُّؤَاسِيُّ، عَنْ زُهَيْرٍ، عَنْ أَبِي إِسْحَاقَ، قَالَ: سَأَلَ رَجُلٌ الْبَرَاءَ بْنَ عَازِبٍ: ((أَكَانَ وَجْهُ رَسُولِ اللهِ ﷺ مِثْلَ السَّيْفِ؟)) قَالَ: ((لا، بَلْ مِثْلَ الْقَمَرِ)).

---

[1] Bu hədisi Muslim (2339), Tirmizi (3649) və Əhməd (5/88) rəvayət etmişdir.

[2] Bu hədisi Tirmizi "Sunən" əsərində (2812) rəvayət etmişdir və: "Bu, həsən, qərib hədisdir. Bu hədisin yalnız Əşəs tərəfindən istinad edildiyini bilirik"– demişdir. Muhəmməd Nasirəddin əl-Albani bu hədisi "zəif" hesab etmişdir. (Daif Sunən ət-Tirmizi). Çünki hədisin isnadında keçən Əşəs ibn Səvvar əl-Kindi "zəif" ravidir.

(11) ..... Əbu İshaq demişdir: "Bir nəfər Bəra (ibn Azibdən): "Peyğəmbərin ﷺ üzü qılınc kimi idimi?[1]"– deyə soruşdu. O: "Xeyr, onun üzü (on dörd gecəlik) ay kimi (gözəl) idi.[2]"– deyə cavab verdi."[1]

---

[1] İbn Həcər demişdir: "Sanki sual verən adam, Bəra ibn Azibdən ﷺ Peyğəmbərin ﷺ üzünün qılınc kimi uzun olub-olmadığını soruşmuş, Bəra da ona: "Xeyr, ay kimi"– deyə daha ətraflı cavab verərək, onun üzünün ay kimi, həm girdə, həm də nurlu, olduğunu bildirmişdir. Yaxud sual verən adam, onun üzünün qılınctək parlaq olub-olmadığını soruşmuş, Bəra da ona "Xeyr, ay kimi"– deməklə onun aydan da gözəl olduğunu xəbər vermişdir" (Fəthul-Bari, 6/573). Qeyd etmək lazımdır ki, əvvəlki hədislərə əsasən Peyğəmbərin ﷺ üzü tam girdə deyildi.

[2] Qiyamət günü bu ümmətdən Cənnətə daxil olacaq yetmiş min möminin vəsfi də belədir. Səhl ibn Səd ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən yetmiş min nəfər hamısı birdən *Cənnətə daxil olacaq*. Onların üzü on dörd gecəlik ay kimi *gözəl və parlaq* olacaq" (Səhih əl-Buxari, 3247). Digər bir hədisdə isə Rəsulullah ﷺ belə buyurmuşdur: "Cənnətə girəcək ilk zümrədə olan kimsələrin siması on dörd gecəlik ay kimi *gözəl və parlaq* olacaq. Cənnətdə onlar nə tüpürəcək, nə *burunlarından* selik ifraz edəcək, nə də təbii ehtiyaclarını rəf edəcəklər. *İşlətdikləri* qabları qızıldan, daraqları isə həm qızıldan, həm də gümüşdən olacaq. Buxurdanlarında ud *yandırılacaq*. Onların tərindən müşk qoxusu gələcək. Onlardan hər birinin iki zövcəsi olacaq. Bu qızlar elə gözəl və elə zərif olacaqlar ki, dərilərinin altından ayaq sümüyünün iliyi görünəcək. *Cənnət əhlinin* arasında nə bir ixtilaf, nə də kin-küdurət olacaq. Özləri də canbir qəlb olacaqlar. Onlar səhər-axşam Allahın şəninə təriflər deyəcəklər" (Səhih əl-Buxari, 3245). Buxur: yandırıldıqda ətir saçan qatran, ağac qabığı və s. Buxurdan isə içində buxur yandırılan kiçik qabdır. Ud isə – vətəni Hindistan sayılan, yandırılanda xoş iy verən ağacdır. Əlbəttə, Cənnət udu bizim bildiyimiz uddan fərqli olacaq.

١٢- حَدَّثَنَا أَبُو دَاوُدَ الْمَصَاحِفِيُّ (سُلَيْمَانُ بْنُ سَلْمٍ)، قَالَ: حَدَّثَنَا النَّضْرُ بْنُ شُمَيْلٍ، عَنْ صَالِحِ بْنِ أَبِي الأَخْضَرِ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ أَبْيَضَ كَأَنَّمَا صِيغَ مِنْ فِضَّةٍ، رَجِلَ الشَّعْرِ)).

(12) ..... Əbu Hureyrə[2] ﷺ demişdir: "Rəsulullah ﷺ ağbəniz idi, sanki (dərisinə) gümüş örtük çəkilmişdir.[1] Saçları da dalğavarı idi."[2]

---

[1] Bu hədisi Buxari (3552), Tirmizi (3640) və Əhməd (4/281) rəvayət etmişdir.

[2] Əbu Hureyrə Abdur-Rəhman ibn Səxr əd-Dovsi əl-Yəmani ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. Əbu Hureyrə "pişikcığaz atası" deməkdir. Əgər biz onun adı ilə ləqəbini müqayisə etsək, görərik ki, Abdur-Rəhman yəni, ər-Rəhmanın qulu, Allahın ən çox sevdiyi adlardan biridir, Əbu Hureyrə isə əcaib-qəraib bir ləqəbdir. Lakin buna rəğmən Allah subhanəhu və təalə onu insanlara məhz bu ləqəblə tanıtmış və onu insanlara sevdirmişdir. Peyğəmbər ﷺ onun üçün belə dua etmişdir: "Allahım, bu iki qulunu: Əbu Hureyrəni və onun anasını insanlara sevdir!" (Ədəbul-Mufrəd, 34). Əbu Hureyrə hicrətin 7-ci ilində, Muhərrəm ayında, Xeybərin fəthindən əvvəl İslam dinini qəbul etmiş və müsəlman olduğu gündən Peyğəmbərin ﷺ vəfat etdiyi günədək – yəni, hicrətin 11-ci ilinin rəbiyəl-əvvəl ayınadək onun yanından ayrılmamışdır. Bu səhabə Peyğəmbərdən ﷺ 5374 hədis rəvayət etmişdir. Cəmi üç il iki ay Peyğəmbərin ﷺ yanında dərs almış səhabə hamıdan çox hədis rəvayət etməsi, əlbəttə, möcüzədir, özü də, Peyğəmbərin ﷺ möcüzəsi. Əbu Hureyrə ﷺ rəvayət etmişdir ki, *bir dəfə* o Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah! Mən səndən çoxlu hədislər eşidirəm, lakin onları yadda saxlaya bilmirəm." Peyğəmbər ﷺ: "Paltarının ətəyini aç!"– deyə buyurdu. Mən paltarımın

١٣- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: أَخْبَرَنِي اللَّيْثُ بْنُ سَعْدٍ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ، أَنَّ رَسُولَ اللهِ ﷺ، قَالَ: ((عُرِضَ عَلَيَّ الأَنْبِيَاءُ ، فَإِذَا مُوسَى عَلَيْهِ السَّلامُ، ضَرْبٌ مِنَ الرِّجَالِ، كَأَنَّهُ مِنْ رِجَالِ شَنُوءَةَ، وَرَأَيْتُ عِيسَى بْنَ مَرْيَمَ عَلَيْهِ السَّلامُ، فَإِذَا أَقْرَبُ مَنْ رَأَيْتُ بِهِ شَبَهًا عُرْوَةُ بْنُ مَسْعُودٍ، وَرَأَيْتُ إِبْرَاهِيمَ عَلَيْهِ السَّلامُ، فَإِذَا أَقْرَبُ مَنْ رَأَيْتُ بِهِ شَبَهًا صَاحِبُكُمْ - يَعْنِي نَفْسَهُ، وَرَأَيْتُ جِبْرِيلَ عَلَيْهِ السَّلامُ، فَإِذَا أَقْرَبُ مَنْ رَأَيْتُ بِهِ شَبَهًا دِحْيَةُ)).

ətəyini açdıqda Peyğəmbər ﷺ əlləri ilə *sanki nəsə* ovuclayıb *paltarımın ətəyinə* atdı və: "Ətəyini yığ"– dedi. Mən onu yığdım və bundan sonra heç bir şey unutmadım" (Səhih əl-Buxari, 119). Əbu Hureyrə ﷺ hicrətin 59-cu ilində vəfat etmişdir.

[1] Yəni, onun dərisinin ağlığı gümüş tək bərq vururdu. Burada Əbu Hureyrə ﷺ "ağlığı" deyəndə, Peyğəmbərin ﷺ dərisinin dümağ olduğunu qəsd etmir, sadəcə, bu ağlığın gümüş tək parıldadığını nəzərdə tutur.

[2] Bu hədisin isnadında keçən Saleh ibn Əbul-Əxdər adlı ravi "zəif" ravidir. Elə bu səbəbdən də, bu isnad "zəif" hesab edilir. Lakin bu hədisin dərəcəsini qüvvətləndirən digər hədislər vardır ki, onun sayəsində bu hədisin mətni "səhih" dərəcəsinə yüksəlir (Bax: Silsilətul-Əhadisis-Səhihə, 2053-cü hədis).

(13) ..... Cabir ibn Abdullah[1] رضي الله عنهما rəvayət edir ki,[2] Rəsulullah ﷺ demişdir: "Peyğəmbərlər mənə göstərildi.[3] Baxdım ki, Musa عليه السلام Şənuə qəbiləsinin[4] kişiləri kimi nə çox kök, nə də arıqdir. Məryəm oğlu İsanı عليه السلام da gördüm.[5] Baxdım ki, o, hamıdan çox Urva ibn Məsuda[6] oxşayır. İbra-

---

[1] Əbu Abdur-Rəhman Cabir ibn Abdullah ibn Amr ibn Həram əl-Ənsari əl-Xəzrəci əl-Mədəni رضي الله عنه Peyğəmbərin ﷺ ən nümunəvi səhabələrindəndir. İkinci Əqəbə beyətində, habelə, ağac altında Peyğəmbərə ﷺ beyət gətirənlərdən olmuşdur. Peyğəmbərlə ﷺ birlikdə on doqquz döyüşdə iştirak etmişdir. Həmçinin, öz zamanında Mədinənin müftisi olmuşdur. Nəhayət, hicrətin 78-ci ilində doxsan dörd yaşında vəfat etmişdir. Peyğəmbərdən ﷺ min beş yüz qırx hədis rəvayət etmişdir. Ən çox hədis rəvayət edən yeddi səhabədən biridir. Buxari və Muslim – birlikdə ondan əlli səkkiz hədis, ayrı-ayrılıqda Buxari iyirmi altı, Muslim isə yüz iyirmi altı hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 38-ci tərcümeyi-hal).

[2] Bu hədisi Muslim (167) və Tirmizi (3651) rəvayət etmişdir.

[3] Bu Peyğəmbərə ﷺ İsra gecəsində göstərilmiş, ya da o, bunu yuxusunda görmüşdür.

[4] Bu, Yəməndə Şənuə ləqəbi ilə tanınmış Abdullah ibn Kəb ibn Abdullah ibn Malik ibn Nasr ibn əl-Əzdə mənsub bir kənddir.

[5] Digər hədislərdə Musa عليه السلام və İsa عليه السلام belə vəsf edilir: Peyğəmbər ﷺ demişdir: "Mən isra gecəsində Musanı gördüm. Qarabuğdayı, hündürboylu və qıvrımsaçlı bir adam idi, lap Şənuə qəbiləsinin kişiləri kimi. (Məryəm oğlu) İsanı da gördüm. Ortaboylu, alyanaq, ağbəniz və naziksaçlı bir adam idi..." (Səhih əl-Buxari, 3239); Başqa bir hədisdə demişdir: "İsa dolubədənli, ortaboylu bir adam idi" (Səhih Muslim, 418). Digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Musa isə qarayanız, cüssəli və dalğavarı saçları olan birisi idi..." (Səhih əl-Buxari, 3438).

[6] Urva ibn Məsud ibn Muəttəb əs-Səqəfi رضي الله عنه Məkkənin fəthindən sonra, hicrətin doqquzuncu ilində, müsəlmanlar həcc ziyarətinə gəldikləri zaman İslam dinini qəbul etmişdir. Muğira ibn Şobənin əmisidir. Bu, həmin Urvadır ki, müşriklər Hüdeybiyyə sülhündə onu nümayəndə olaraq Peyğəmbərin ﷺ yanına göndərmiş və nəhayət, o,

himi ﷺ də gördüm. Ona ən çox oxşayan isə dostunuzdur. (Burada Peyğəmbər ﷺ özünü nəzərdə tuturdu.) Cəbraili ﷺ də gördüm. Baxdım ki, o, ən çox Dihyəyə oxşayır.[1]"

١٤- حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، وَمُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالا: أَخْبَرَنَا يَزِيدُ بْنُ هَارُون، عَنْ سَعِيدٍ الْجُرَيْرِيِّ، قَالَ: سَمِعْتُ أَبَا الطُّفَيْلِ، يَقُولُ: ((رَأَيْتُ النَّبِيَّ ﷺ وَمَا بَقِيَ عَلَى وَجْهِ الأَرْضِ أَحَدٌ رَآهُ غَيْرِي، قُلْتُ: صِفْهُ لِي، قَالَ: كَانَ أَبْيَضَ، مَلِيحًا، مُقَصَّدًا)).

(14) ..... Səid əl-Cureyri demişdir: "Mən Əbu Tufeylin[2] ﷺ belə dediyini eşitdim: "Mən Peyğəmbəri ﷺ görmüşəm.

---

geri qayıtdıqdan sonra onlara demişdir: "Muhəmməd, həqiqətən də, sizə xeyir, əmin-amanlıq və islah olunmağınızı təklif edir. Onun təklifini qəbul edin!" (əl-İsabə fi Təmyizis-Səhabə, 5530-cu tərcümeyi-hal).

[1] Dihyə ibn Xəlifə ibn Fərva ibn Fədalə əl-Kəlbi ﷺ Peyğəmbərin ﷺ səhabəsi, hicrətin 6-cı ilində Heraklın yanına göndərdiyi elçisidir. Ən yaraşıqlı səhabələrdən biridir. Bədr döyüşündən əvvəl müsəlman olmuşdur. Cəbrail əleyhissəlam çox vaxt Peyğəmbərin ﷺ yanına Dihyənin qiyafəsində gələrmiş (Siyər Əlam ən-Nubələ, 116-cı tərcümeyi-hal). Usamə ibn Zeyd rəvayət edir ki, *bir dəfə* Ummu Sələmə Peyğəmbərin ﷺ yanında ikən Cəbrail onun yanına gəlib onunla söhbət etdi. O, çıxıb getdikdən sonra Peyğəmbər ﷺ Ummu Sələmədən soruşdu: "(Bilirsən) o kim idi?" Ummu Sələmə: "Bu, Dihyə idi"- dedi. *Sonralar* Ummu Sələmə deyirdi: "Vallahi, Allahın peyğəmbərinin ﷺ xütbəsini eşidənədək, xütbədə onun Cəbrail olduğunu bildirənədək, mən onun Dihyə olduğunu güman edirdim" (Səhih əl-Buxari, 3634).

[2] Əbu Tufeyl Amir ibn Vasilə ibn Abdullah əl-Leysi əl-Kinani ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Peyğəmbər ﷺ Mədinəyə hicrət etdikdən sonra dünyaya gəlmiş və mömin ikən Vida həccində Peyğəmbəri ﷺ görmüşdür (Siyər Əlam ən-Nubələ, 97-ci tərcümeyi-hal).

(Bu gün) artıq məndən başqa yer üzündə onu görən bir kimsə qalmamışdır.[1]" Mən (ona): "(Peyğəmbəri ﷺ) mənə vəsf et!"– dedim. Dedi: "O, ağ (dərili), olduqca yaraşıqlı və ortaxilqətli[2] bir adam idi."[3]

١٥ – حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُنْذِرِ الْحِزَامِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي ثَابِتٍ الزُّهْرِيُّ، قَالَ: حَدَّثَنِي إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ بْنُ أَخِي مُوسَى بْنِ عُقْبَةَ، عَنْ مُوسَى بْنِ عُقْبَةَ، عَنْ كُرَيْبٍ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ أَفْلَجَ الثَّنِيَّتَيْنِ، إِذَا تَكَلَّمَ رُئِيَ كَالنُّورِ يَخْرُجُ مِنْ بَيْنِ ثَنَايَاهُ)).

(15) ..... İbn Abbas[4] رضي الله عنهما demişdir: "Rəsulullahın ﷺ ön dişlərinin arası azacıq aralı idi. O danışdığı zaman ön dişləri arasından nur kimi (bir işıq) saçdığı görünərdi.[1]"[2]

---

[1] Hicrətin 110-cu ilində vəfat etmişdir. Bu dünyadan ən axırıncı köçmüş səhabədir. İbn Ömər رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ ömrünün axırında (hicrətin 10-cu ilində) bizə işa namazını qıldırdı və salam verdikdən sonra ayağa qalxıb dedi: "Bilirsinizmi bu gecə hansı gecədir?! Həqiqətən, yüz ilin tamamında bu gün yer üzündə olanlardan heç bir kimsə qalmayacaq." Bunu deyəndə o, həmin gecədən etibarən yüz ilin tamamını qəsd edirdi" (Səhih əl-Buxari, 601). Bu da, Peyğəmbərin ﷺ, həqiqətən də, Allahın rəsulu olduğunu, həmçinin, dediyi hər bir sözün haqq olduğunu və gec-tez gerçəyə çevrildiyini bir daha sübuta yetirir.

[2] Yəni, o, nə çox hündürboy, nə də bəstəboy, nə çox kök, nə də arıq, nə dümağ, nə də qarayanız idi.

[3] Bu hədisi Muslim (2340) və Əbu Davud (2864) rəvayət etmişdir.

[4] Əbul-Abbas Abdullah ibn Abbas ibn Abdul-Müttəlib əl-Haşimi رضي الله عنهما hicrətdən az əvvəl dünyaya gəlmiş və nəhayət, Məkkənin fəthindən sonra ata-anası ilə birgə Mədinəyə hicrət etmişdir. Təqribən otuz ay Peyğəmbərin ﷺ səhabəsi olmuşdur. Hicrətin 68-ci ilində

yetmiş bir yaşında vəfat etmişdir. O, müfəssirlərin imamı və ən çox hədis rəvayət etmiş yeddi səhabədən biridir. Peyğəmbərdən ﷺ min altı yüz altmış hədis rəvayət etmişdir. Buxari və Muslim – birlikdə ondan yetmiş beş hədis, ayrı-ayrılıqda, Buxari yüz iyirmi, Muslim isə doqquz hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 51-ci tərcümeyi-hal). Peyğəmbər ﷺ onu bağrına basıb: "Allahım, ona hikmət öyrət!", digər rəvayətdə "Allahım, ona Quranı öyrət!"– demişdir (Səhih əl-Buxari, 3756). Bir başqa rəvayətdə İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ ayaqyoluna girdi və mən onun üçün su qoydum. *Ayaqyolundan çıxdıqdan sonra* Peyğəmbər ﷺ: "Bunu kim qoydu?"– deyə soruşdu. Ona *bu haqda* xəbər verildikdə o dedi: "Allahım, dini başa düşməyi ona müyəssər et!" (Səhih əl-Buxari, 143).

[1] Bəziləri belə hədislərə əsaslanaraq Rəsulullahın ﷺ həqiqi mənada nur saçdığını, bəziləri də hətta onun kölgəsinin olmadığını iddia edirlər. Lakin bu, yalnış fikirdir. Aişə رضي الله عنها rəvayət edir ki, *bir gecə mən oyanıb* Rəsulullahı ﷺ yataqda görmədim. Qalxıb onu axtardığım zaman əlim onun ayaqlarına dəydi. O, məsciddə səcdəyə qapılmış vəziyyətdə dua edirdi: "Allahummə, inni əuzu birıdakə min səxatikə və bimu'afatikə min uqubətikə və əuzu bikə minkə, lə uhsi sənaən aleykə əntə kəmə əsneytə alə nəfsikə! (Allahım! Sənin qəzəbindən razılığına, cəzandan əfvinə sığınıram. Səndən Sənə pənah aparıram. Mən Səni *layiqincə* tərif edə bilmərəm. Sən Özün Özünü tərif etdiyin kimisən!)" (Səhih Muslim, 486). Əgər həqiqi mənada nur saçsaydı, Aişənin qaranlıqda onu əli ilə axtarmasına lüzum olmazdı.

[2] Bu hədisi Təbərani "Mocəm əl-Kəbir" (12181) və Beyhəqi "Dəlail ən-Nubuvvə" (1/163) əsərində rəvayət etmişdir. Hədisin isnadında keçən, Abdul-Əziz ibn Əbu Sabit əz-Zuhri "mətruk" (tərk olunmuş) ravidir. Muhəmməd Nasirəddin əl-Albani də "Daif əl-Cami" (4463) əsərində bu hədisin "olduqca zəif" hədis olduğunu demişdir.

٢- بَاب ما جاء في خاتَم النبوة

2-ci fəsil. Peyğəmbərlik möhürü barədə varid olanlar[1]

١٦- حَدَّثَنَا أَبُو رَجَاءٍ قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا حَاتِمُ بْنُ إِسْمَاعِيلَ، عَنِ الْجَعْدِ بْنِ عَبْدِ الرَّحْمَنِ، قَالَ: سَمِعْتُ السَّائِبَ بْنَ يَزِيدَ، يَقُولُ: ((ذَهَبَتْ بِي خَالَتِي إِلَى رَسُولِ اللهِ ﷺ، فَقَالَتْ: يَا رَسُولَ اللهِ، إِنَّ ابْنَ أُخْتِي وَجِعٌ فَمَسَحَ

---

[1] Bu fəsil, əslində, əvvəlki fəslə – Peyğəmbərin ﷺ xilqətinə aiddir. Belə ki, Uca Allah bu möhürü onun üçün peyğəmbərlik əlaməti etmişdir. İslam alimlərindən bəziləri onun bu möhürlə dünyaya gəldiyini, bəziləri də sonradan qəlbinin çıxarılması və zəmzəm suyu ilə yuyulması hadisəsində meydana gəldiyini söyləmişlər. Qazı İyad ikinci rəyin daha doğru rəy olduğunu demişdir. Peyğəmbərlik möhürü Rəsulullahın ﷺ kürəkləri arasında, daha dəqiq desək, sol kürəyinə yaxın yerdə yerləşən, ət rəngində olan domba ət parçasıdır. Həcmi də müxtəlif rəvayətlərdə vəsf edildiyi kimi – kəklik və ya göyərçin yumurtası boydadır. Peyğəmbərlik möhürü əvvəlki ümmətlərə də öz Kitablarında agah edilmişdir. Odur ki, Kitab əhli sonuncu peyğəmbərin bu vəsflə gələcəyini bilirdi. Uca Allah Quranda buyurur: **"Kitab verdiyimiz şəxslər onu öz oğullarını tanıdıqları kimi tanıyırlar. Həqiqətən də, onlardan bir dəstə haqqı bilə-bilə gizlədir"** (əl-Bəqərə, 146). Həmçinin, O, buyurur: **"Onlara tanıdıqları *peyğəmbər* gəldikdə isə, onu inkar etdilər. Allah kafirlərə lənət etsin!"** (əl-Bəqərə, 89). Salman Farisinin ؓ əhvalatını da buna dəlil göstərmək olar. Belə ki, İsa peyğəmbərin ؑ həqiqi davamçılardan olmuş alimlərdən biri ölüm ayağında ikən Salmana Peyğəmbərin ﷺ əlamətlərini bildirmiş və ona Peyğəmbərin ﷺ hicrət edəcəyi yerə – Hərraya, xurmalıqlar olan bir yerə, getməyi tövsiyə etmişdir. 21-ci hədisdə və onun şərhində həmin əhvalat barədə ətraflı xəbər verilir.

رَأْسِي وَدَعَا لِي بِالْبَرَكَةِ، وَتَوَضَّأَ ، فَشَرِبْتُ مِنْ وَضُوئِهِ، وَقُمْتُ خَلْفَ ظَهْرِهِ، فَنَظَرْتُ إِلَى الْخَاتَمِ بَيْنَ كَتِفَيْهِ، فَإِذَا هُوَ مِثْلُ زِرِّ الْحَجَلَةِ)).

(16) ..... Saib ibn Yezid[1] ﷺ rəvayət edir ki, xalam məni Peyğəmbərin ﷺ yanına gətirib: "Ya Rəsulullah! Bacım oğlu xəstələnib, *ayaqları bərk ağrıyır*"– dedi. Peyğəmbər ﷺ əlini başıma çəkib, Allahdan mənim üçün bərəkət dilədi.[2] Sonra

---

[1] Əbu Abdullah Saib ibn Yezid ibn Səid ibn Sümamə əl-Kindi əl-Mədəni ﷺ Peyğəmbərin ﷺ azyaşlı səhabələrindəndir. Hicrətin ikinci ilində dünyaya gəlmişdir. Saib ibn Yezid ﷺ demişdir: "Mən Peyğəmbərlə ﷺ birlikdə həcc ziyarətinə getdikdə, mənim yeddi yaşım var idi" (Səhih əl-Buxari, 1858). Bir çox tarixçilər onun hicrətin 80-ci ilində vəfat etdiyini demişlər (Siyər Əlam ən-Nubələ, 80-ci tərcümeyi-hal).

[2] Peyğəmbər ﷺ uşaqları əzizləyərkən, onların başını sığallayardı. Yusuf ibn Abdullah ibn Səlam ﷺ demişdir: "Peyğəmbər ﷺ mənə Yusuf adını verdi, məni dizinin üstünə oturtdu və mənim başımı sığalladı" (Ədəbul-Mufrəd, 367). Amr ibn Hureys ﷺ demişdir: "Anam məni Peyğəmbərin ﷺ yanına apardı. O, mənim başımı sığalladı və ruzimin artması üçün dua etdi" (Ədəbul-Mufrəd, 632). Bu hədisdən o da aydın olur ki, əlini xəstənin başına qoyub dua etmək sünnədir. Burada "bərəkət dilədi" deyildikdə, iki şey: xeyirə nail olması və bu xeyirin artması nəzərdə tutulur. Cueyd ibn Abdur-Rəhman demişdir: "Mən Saib ibn Yezidi doxsan dörd yaşında ikən gördüm, çox gümrah qalmışdı, bədənini də şax tuturdu. O deyirdi: "Mən yəqin bilirəm ki, indiyədək yaxşı eşitməyimin və görməyimin yeganə səbəbi, ancaq Peyğəmbərin ﷺ duasıdır. Bir dəfə xalam məni onun yanına apardı və: "Ya Rəsulullah, bacım oğlu xəstədir, (onun üçün) Allaha dua et!"– dedi, o da mənim üçün dua etdi" (Səhih əl-Buxari, 3540).

dəstəmaz aldı və mən onun dəstəmaz aldığı sudan içdim.[1] Sonra onun arxasında durdum[2] və kürəkləri arasında kəklik yumurtası boyda *peyğəmbərlik* möhürünü gördüm.”[3]

١٧- حَدَّثَنَا سَعِيدُ بْنُ يَعْقُوبَ الطَّالْقَانِيُّ، قَالَ: حدَّثَنَا أَيُّوبُ بْنُ جَابِرٍ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، عَنْ جَابِرِ بْنِ سَمُرَةَ، قَالَ: ((رَأَيْتُ الْخَاتَمَ بَيْنَ كَتِفَيْ رَسُولِ اللهِ ﷺ، غُدَّةً حَمْرَاءَ، مِثْلَ بَيْضَةِ الْحَمَامَةِ)).

(17) ..... Cabir ibn Səmurə ﷺ demişdir: “Mən Rəsulullahın ﷺ kürəkləri arasında qırmızıya çalan, düyünvarı vəzi[4] kimi, həm də göyərçin yumurtası boyda (peyğəmbərlik) möhürünü gördüm.”[5]

---

[1] Yəni, dəstəmaz aldığı suyun artığını. Bu da, Rəsulullahın ﷺ vücudu ilə təbərruk etməyin bir növüdür. Belə ki, səhabələr Rəsulullahın ﷺ saçı, ağız suyu, təri və s. ona aid olan şeylərlə Allahdan bərəkət diləyərdilər. Bu da yalnız Rəsulullaha ﷺ xasdır. Demək, ondan başqa, kimliyindən asılı olmayaraq heç bir kimsənin vasitəsilə təbərruk etmək olmaz.

[2] Ola bilsin ki, Saib ﷺ əvvəllər bu möhür barədə eşitmiş və onu görmək üçün onun arxa tərəfinə keçmişdir.

[3] Bu hədisi Buxari (190), Muslim (2345) Tirmizi (3646) və Nəsai (7518) rəvayət etmişdir.

[4] Əslində vəzi – insanda bədənə lazım olan maddələri hazırlayan və qana verən yaxud dışarıya ifraz edən üzvdür. Burada qəsd edilən vəzi isə digər hədislərdə öz təsdiqini tapmış domba ət parçasıdır.

[5] Bu hədisin isnadı zəifdir. Çünki isnadda keçən Əyyub ibn Cabir ibn Səyyar “zəif” ravidir. Lakin hədisin mətni “səhih”dir. Belə ki, Muslim bu hədisi öz “Səhih”ində (2344) Cabir ibn Səmurədən ﷺ belə rəvayət etmişdir: “Mən Rəsulullahın ﷺ kürəyində göyərçin yumurtası

١٨- حَدَّثَنَا أَبُو مُصْعَبٍ الْمَدِينِيُّ، قَالَ: حَدَّثَنَا يُوسُفُ بْنُ الْمَاجِشُونِ، عَنْ أَبِيهِ، عَنْ عَاصِمِ ابْنِ عُمَرَ بْنِ قَتَادَةَ، عَنْ جَدَّتِهِ رُمَيْثَةَ، قَالَتْ: ((سَمِعْتُ رَسُولَ اللهِ ﷺ، - وَلَوْ أَشَاءُ أَنْ أُقَبِّلَ الْخَاتَمَ الَّذِي بَيْنَ كَتِفَيْهِ مِنْ قُرْبِهِ لَفَعَلْتُ - يَقُولُ لِسَعْدِ بْنِ مُعَاذٍ يَوْمَ مَاتَ: اهْتَزَّ لَهُ عَرْشُ الرَّحْمَنِ)).

(18) ..... Rumeysə[1] رضي الله عنها demişdir: "Səd ibn Muazın[2] vəfat etdiyi gün mən Rəsulullahın ﷺ belə dediyini eşitdim

---

boyda və dərisinin rəngində olan (peyğəmbərlik) möhürünü gördüm." Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu ət parçasının qara və ya tünd yaşıl rəngli olması barədə nəql edilmiş hədislərin hamısı "zəif"dir.

[1] Ummu Suleym Rumeysə bint Milhan ibn Xalid əl-Ənsariyyə رضي الله عنها. Bu qadın Rəsulullahın ﷺ xidməçisi Ənəs ibn Malikin رضي الله عنه anasıdır. Ənsarın ən fəzilətli qadınlarındandır. Uhud və Huneyn döyüşlərində iştirak etmişdir. Yoldaşı Malik ibn Nədr vəfat etdikdən sonra, İslamı qəbul etmək şərtilə, Əbu Talhə Zeyd ibn Səhl əl-Ənsariyə رضي الله عنه ərə getmişdir. Yəni, mehr olaraq Əbu Talhədən müsəlman olmağı tələb etmişdir. İmam Zəhəbi bu qadının başqa adlarının: Ğumeysa, Rumeysa, Uneyfə və Səhlə olduğunu da nəql etmişdir. Peyğəmbər ﷺ onu məhz Ğumeysa adı ilə müjdələmişdir. Ənəs ibn Malik رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ belə demişdir: "Cənnətə daxil oldum və qarşımda ayaq səsləri eşitdim. Mən: "Bu, nə ayaq səsidir?"– deyə soruşdum. *Məna*: "Bu, Ğumeysa bint Milhandır"– deyildi" (Əhməd, 3/125; "Səhih əl-Cami", 3368). Peyğəmbərdən ﷺ on dörd hədis rəvayət etmişdir. Buxari və Muslim – birlikdə ondan bir hədis, ayrı-ayrılıqda Buxari bir, Muslim isə iki hədis rəvayət etmişdir. (Siyər Əlam ən-Nubələ, 55-ci tərcümeyi-hal).

[2] Əbu Amr Səd ibn Muaz ibn Nomən əl-Ovsi əl-Əşhəli əl-Ənsari رضي الله عنه Peyğəmbərin ﷺ məşhur səhabəsidir. Ovs qəbiləsinin başçısı olmuş,

(həmin vaxt mən ona o qədər yaxın məsafədə durmuşdum ki, istəsəydim, onun kürəkləri arasındakı (peyğəmbərlik) möhürünü öpə bilərdim):[1] "Mərhəmətli *Allahın* Ərşi[2] onun *ölümünə görə* titrədi."[1]

Musab ibn Umeyrin ﷺ dəvəti ilə İslam dinini qəbul etmiş, sonra da öz qəbilə üzvlərinin hamısının birdən müsəlman olmasına səbəb olmuşdur. Fəzilətinə dair bir çox hədislər rəvayət olunmuşdur. Cabir ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "(Allahın) Ərşi Səd ibn Muazın ölümünə görə titrədi" (Səhih əl-Buxari, 3803). Digər bir hədisdə Aişə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə demişdir: "Hər bir kəsi qəbir sıxacaqdır. Əgər kimsə qəbir sıxılmasından qurtulmuş olsaydı, bu, Səd ibn Muaz olardı" (Silsilətul-Əhadisis-Səhihə, 1695). Ənəs ﷺ demişdir: "*Bir dəfə* Peyğəmbərə ﷺ ipək cübbə hədiyyə etdilər. Halbuki o, *kişilərə* ipək geyməyi qadağan etmişdir. Camaat bu cübbənin zərifliyinə heyran qaldı. Peyğəmbər ﷺ *onların təəccüblə baxdığını görüb* dedi: "Muhəmmədin canı Əlində olan Allaha and olsun ki, Səd ibn Muazın Cənnətdəki dəsmalları bundan da gözəldir (bundan da zərif, bundan da xeyirlidir)" (Səhih əl-Buxari, 3248; Səhih Tirmizi, 3847; Səhih ibn Hibban 6997; Siyər Əlam ən-Nubələ, 56-cı tərcümeyi-hal). Səd ibn Muaz ﷺ Xəndək döyüşündən bir ay sonra 37 yaşında vəfat etmişdir (Tarix əz-Zəhəbi, 2/327). Ənəs ibn Malik rəvayət edir ki, Səd ibn Muazın cənazəsi aparılarkən münafiqlər: "Bunun cənazəsi necə də yüngüldür!"– dedilər. Bu da, onun Bəni-Qureyzə barəsində verdiyi qərara görə idi. Bu söz Peyğəmbərə ﷺ yetişdikdə, o dedi: "Onun cənazəsini mələklər aparırdılar" (Sunən ət-Tirmizi, 3849; Səhih ət-Tirmizi, 3024; Mişkatul-Məsabih, 6228).

[1] Mötərizələrin arasındakılar Rumeysənin ﷺ sözləridir.

[2] Ərş: Allahın yaratdığı məxluqatın ən əzəmətlisi, ən böyüyü və ən genişidir. Bu xüsusda Qurani Kərimdə belə buyurulur: **"O, böyük Ərşin Rəbbidir!"** (ət-Tovbə, 129); **"Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?"** (əl-Muminun, 86). Peyğəmbər ﷺ demişdir:

١٩ – حَدَّثَنَا أَحْمَدُ بْنُ عَبْدَةَ الضَّبِّيُّ، وَعَلِيُّ بْنُ حُجْرٍ، وَغَيْرُ وَاحِدٍ، قَالُوا: حَدَّثَنَا عِيسَى بْنُ يُونُسَ، عَنْ عُمَرَ بْنِ عَبْدِ اللهِ مَوْلَى غُفْرَةَ، قَالَ: حَدَّثَنِي إِبْرَاهِيمُ بْنُ مُحَمَّدٍ مِنْ وَلَدِ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ، قَالَ: ((كَانَ عَلِيٌّ، إِذَا وَصَفَ رَسُولَ اللهِ ﷺ ...)) فَذَكَرَ الْحَدِيثَ بِطُولِهِ، وَقَالَ : ((بَيْنَ كَتِفَيْهِ خَاتَمُ النُّبُوَّةِ، وَهُوَ خَاتَمُ النَّبِيِّينَ)).

(19) ..... Əli ibn Əbu Talibin ﷺ nəvələrindən biri İbrahim ibn Muhəmməd: "Əli (ibn Əbu Talib) Rəsulullahı ﷺ vəsf edərkən deyərdi..."– deyə bu uzun hədisi axıradək rəvayət etmiş və demişdir: "Peyğəmbərlik möhürü onun kürəkləri arasında idi. O, peyğəmbərlərin sonuncusudur..."[2]

"Cənnətdə Allahın, Onun yolunda cihad edənlər üçün hazırladığı yüz mərtəbə vardır. *Bu mərtəbələrdən* hər iki mərtəbə arasındakı məsafə yerlə göy arasında olan məsafəyə bərabərdir. Allahdan *nə isə* dilədiyiniz zaman Firdovs cənnətini diləyin! Çünki Firdovs, Cənnətin tam ortası və ən yüksək mərtəbəsidir. Onun üstündə isə ər-Rəhmanın Ərşi yerləşir. Cənnət çayları da oradan qaynayıb axır" ("Səhih əl-Buxari", 2790). Digər bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Yeddi göy Kürsünün yanında, səhraya atılmış bir həlqəyə bənzəyir. Habelə Ərşin Kürsüdən böyüklüyü, o səhranın o həlqədən böyüklüyü kimidir" ("Silsilətul-Əhadisis-Səhihə", 109). Belə bir əzəmətli məxluqun, Sədin ölümünə görə titrəməsi onun nə dərəcədə fəzilətli səhabə olduğunu bir daha sübuta yetirir.

[1] Bu hədisi Buxari (3592), Muslim (2466) Tirmizi (3847) və Əhməd (6/329) rəvayət etmişdir.

[2] Bu hədis 7-ci hədisin bir hissəsidir.

٢٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا أَبُو عَاصِمٍ، قَالَ: حَدَّثَنَا عَزْرَةُ بْنُ ثَابِتٍ، قَالَ: حَدَّثَنِي عِلْبَاءُ بْنُ أَحْمَرَ الْيَشْكُرِيُّ، قَالَ: حَدَّثَنِي أَبُو زَيْدٍ عَمْرُو بْنُ أَخْطَبَ الأَنْصَارِيُّ، قَالَ: قَالَ لِي رَسُولُ اللهِ ﷺ: ((يَا أَبَا زَيْدٍ، ادْنُ مِنِّي فَامْسَحْ ظَهْرِي))، فَمَسَحْتُ ظَهْرَهُ، فَوَقَعَتْ أَصَابِعِي عَلَى الْخَاتَمِ. قُلْتُ: وَمَا الْخَاتَمُ؟ قَالَ: شَعَرَاتٌ مُجْتَمِعَاتٌ.

(20) ..... Əbu Zeyd Amr ibn Əxtab əl-Ənsari[1] ﷺ demişdir: "(Bir dəfə) Rəsulullah ﷺ mənə: "Ey Əbu Zeyd, yaxın gəl, əlini kürəyimə çək!"– deyə buyurdu. Mən əlimi onun kürəyinə çəkdim. *Onda* barmaqlarım *onun peyğəmbərlik* möhürünə toxundu."

(İlba ibn Əhmər dedi:) Mən: "*Peyğəmbərlik* möhürü nədir?"– deyə soruşdum. (Əbu Zeyd): "Tüklərin məcmusudur[2]"– deyə cavab verdi."[1]

---

[1] Əbu Zeyd Amr ibn Əxtab əl-Xəzrəci əl-Mədəni əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Peyğəmbərlə ﷺ birlikdə on üç döyüşdə iştirak etmiş, Abdul-Məlik ibn Mərvanın xilafəti dövründə vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 100-cü tərcümeyi-hal). Əbu Zeyd əl-Ənsari demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ mənə: "Yanıma gəl!"– deyə buyurdu. *Ravi deyir ki,* sonra Rəsulullah ﷺ əlini onun saçına və saqqalına çəkdi və belə dua etdi: "Allahım, ona yaraşıq ver və bu yaraşığı uzunömürlü et!" *Ravi* dedi: "Əbu Zeyd yüz neçə yaşına çatmışdı. Saç-saqqalında tək-tək ağ tüklər var idi. Üzünün dərisi təravətli qalmışdı. Beləcə, ölənədək üzünə qırış düşmədi" (Musnəd imam Əhməd, 20752; Şueyb Arnavut bu hədisin isnadının "səhih" olduğunu demişdir).

[2] Səhabə demək istəmişdir ki, onun peyğəmbərlik möhürünün üzərində tüklər var idi.

٢١- حَدَّثَنَا أَبُو عَمَّارٍ الْحُسَيْنُ بْنُ حُرَيْثٍ الْخُزَاعِيُّ، قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ حُسَيْنِ بْنِ وَاقِدٍ، قَالَ: حَدَّثَنِي أَبِي، قَالَ: حَدَّثَنِي عَبْدُ اللهِ بْنُ بُرَيْدَةَ، قَالَ: سَمِعْتُ أَبِي بُرَيْدَةَ، يَقُولُ: ((جَاءَ سَلْمَانُ الْفَارِسِيُّ إِلَى رَسُولِ اللهِ ﷺ، حِينَ قَدِمَ الْمَدِينَةَ بِمَائِدَةٍ عَلَيْهَا رُطَبٌ، فَوَضَعَهَا بَيْنَ يَدَيْ رَسُولِ اللهِ ﷺ، فَقَالَ: ((يَا سَلْمَانُ مَا هَذَا؟)) فَقَالَ: صَدَقَةٌ عَلَيْكَ، وَعَلَى أَصْحَابِكَ، فَقَالَ: ((ارْفَعْهَا، فَإِنَّا لا نَأْكُلُ الصَّدَقَةَ))، قَالَ: فَرَفَعَهَا، فَجَاءَ الْغَدَ بِمِثْلِهِ، فَوَضَعَهُ بَيْنَ يَدَيْ رَسُولِ اللهِ ﷺ، فَقَالَ: ((مَا هَذَا يَا سَلْمَانُ؟)) فَقَالَ: هَدِيَّةٌ لَكَ، فَقَالَ رَسُولُ اللهِ ﷺ لأَصْحَابِهِ: ((ابْسُطُوا)) ثُمَّ نَظَرَ إِلَى الْخَاتَمِ عَلَى ظَهْرِ رَسُولِ اللهِ ﷺ، فَآمَنَ بِهِ، وَكَانَ لِلْيَهُودِ فَاشْتَرَاهُ رَسُولُ اللهِ ﷺ، بِكَذَا وَكَذَا دِرْهَمًا عَلَى أَنْ يَغْرِسَ لَهُمْ نَخْلا، فَيَعْمَلَ سَلْمَانُ فِيهِ، حَتَّى تُطْعِمَ، فَغَرَسَ رَسُولُ اللهِ ﷺ، النَّخلَ إِلا نَخْلَةً وَاحِدَةً، غَرَسَهَا عُمَرُ فَحَمَلَتِ النَّخْلُ مِنْ عَامِهَا، وَلَمْ تَحْمِلْ نَخْلَةٌ، فَقَالَ رَسُولُ اللهِ ﷺ: ((مَا شَأْنُ هَذِهِ النَّخْلَةِ؟)) فَقَالَ عُمَرُ: يَا رَسُولَ اللهِ، أَنَا غَرَسْتُهَا، فَنَزَعَهَا رَسُولُ اللهِ ﷺ، فَغَرَسَهَا فَحَمَلَتْ مِنْ عَامِهَا)).

---

[1] Bu hədisi Əhməd (5/77), İbn Hibban (6300), Hakim (2/606) və Heysəmi (1401) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

(21) ..... Bureydə[1] رضي الله عنه demişdir: "Rəsulullah ﷺ Mədinəyə gəldiyi zaman[2] Salman Farisi[3] bir boxça xurma gö-

[1] Əbu Abdullah Bureydə ibn Husayb ibn Abdullah əl-Əsləmi رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir. O, İslam dinini Peyğəmbər ﷺ hicrət etdiyi il qəbul etmişdir. Xeybər döyüşündə və Məkkənin fəthində iştirak etmiş, habelə, Peyğəmbərin ﷺ ölümqabağı Bəlqa diyarına göndərdiyi, Usamənin başçılıq etdiyi orduda bayraqdar olmuşdur. Hicrətin 62-ci ilində vəfat etmişdir. Peyğəmbərdən ﷺ yüz əlliyə yaxın hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 91-ci tərcümeyi-hal).

[2] Burada söhbət hicrətin 1-ci ilindən gedir.

[3] Salman Farisi رضي الله عنه Peyğəmbərin ﷺ məşhur səhabəsi, ikiqat savab qazanan möminlərdəndir. Uca Allah bələləri barədə buyurur: **"*Qurandan* əvvəl özlərinə Kitab verdiyimiz kəslər ona iman gətirirlər. Onlara *Quran* oxunduğu zaman: "Biz ona iman gətirdik. O, həqiqətən də, Rəbbimizdən olan haqdır. Biz ondan əvvəl də müsəlman idik!"– deyirlər. Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edir və özlərinə verdiyimiz ruzidən *Allah yolunda* xərcləyirlər"** (əl-Qəsəs, 52-54). Peyğəmbər ﷺ demişdir: "Üç sinif insan vardır ki, onlar ikiqat savab qazanır: Əvvəlcə öz peyğəmbərinə, sonra da Muhəmmədə ﷺ iman gətirmiş Kitab əhli ikiqat savab qazanır. Həm Allahın, həm də ağasının haqqını ödəyən kölə (ikiqat savab qazanır). Kənizinə yaxşı təlim-tərbiyə keçən, sonra onu azad edib, onunla evlənən kişi ikiqat savab qazanır" (Ədəbul-Mufrəd, 203). Salmandan kimin oğlu olduğunu soruşduqda, atasının adını deməz, sadəcə "mən Salman ibn İslamam"– deyərək özünün İslam dininə mənsub olduğunu bildirərdi (Siyər Əlam ən-Nubələ, 1/495). Salman Farisinin fəzilətinə dair ikicə hədis qeyd etsək, kifayət edər: Əbu Hureyrə رضي الله عنه demişdir: "(Bir dəfə) biz Peyğəmbərin ﷺ yanında ikən ona "əl-Cumuə" surəsi nazil oldu: **"*Allah səni* hələ *müsəlmanlara* qoşulmamış, başqalarına da *elçi göndərmişdir*..."** Mən soruşdum: "Kimdir onlar, ya Rəsulullah?" O, mənə cavab vermədi. Mən sualımı üç dəfə təkrar etdim. Həmin vaxt

türüb onun yanına gəldi və xurmaları Rəsulullahın ﷺ önünə qoydu. Rəsulullah ﷺ (ondan): "Bu nədir, ey Salman?"– deyə soruşdu. Salman: "Sənə və sənin səhabələrinə sədəqədir"– deyə cavab verdi. Rəsulullah ﷺ (ona): "Götür bunları. Biz[1] sədəqə yemirik!"– deyə buyurdu. Salman xurmaları (Rəsulullahın ﷺ önündən) götürdü. Ertəsi gün yenə bir boğça xurma gətirib Rəsulullahın ﷺ önünə qoydu. Rəsulullah ﷺ (ondan): "Bu nədir, ey Salman?"– deyə soruşdu. Salman: "Sənin üçün hədiyyədir"– deyə cavab verdi. Onda Rəsulullah ﷺ səhabələrinə: "Qonaq olun!"– deyə buyurdu. Sonra Salman Rəsulullahın ﷺ kürəyindəki *peyğəmbərlik* möhürünə nəzər saldı və Rəsulullaha ﷺ iman gətirdi. O zaman Salman bir yəhudinin (köləsi) idi. Rəsulullah ﷺ (həmin yəhudiyə) filan qədər dirhəm ödəmək, üstəlik (üç yüz) xurma zoğu[2] əkmək müqabilində onu alıb azad etdi. Bu xurma zoğları böyüyüb kök atanadək, Salman işinə davam etdi. Rəsulullah ﷺ

Salman Farisi bizim aramızda idi. Peyğəmbər ﷺ əlini Salmanın *ayağının üstünə* qoyub dedi: "Hərgah iman Sürəyya ulduzunun yanında olsaydı, bu adamlar ora da gedib çıxardılar" (Səhih əl-Buxari, 4897). Digər hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Cənnət üç nəfər üçün darıxır: "Əli *ibn Əbi Talib*, Ammar *ibn Yasir* və Salman *Farisi*" (Müstədrək, 3/148; "Səhih əl-Cami", 1/331).

[1] Burada Rəsulullah ﷺ özünü və əhli-beytini qəsd edirdi. Başqa rəvayətdə deyilir ki, Rəsulullah ﷺ səhabələrinə bu xurmalardan yeməyi buyurdu.

[2] Ağacda və başqa bitkilərdə yenicə cücərən göy qabıqlı incə budaqların hər biri.

bir zoğdan başqa, bütün zoğları (öz əlləri ilə) əkdi. O bir dənəni isə Ömər əkdi. Növbəti il bu zoğların hamısı (böyüyüb ağac oldu və) kök atdı. Yalnız bir zoğdan başqa. Rəsulullah ﷺ: "Bu zoğ niyə kök salmayıb?"– deyə soruşdu. Ömər dedi: "Ya Rəsulullah! Onu mən əkmişəm." Onda Rəsulullah ﷺ onu yerindən çıxardıb yenidən (öz əlləri ilə) əkdi və sonrakı il bu zoğ da (böyüyüb) kök atdı."[1]

---

[1] Bu hədisi Əhməd (5/354) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "həsən" olduğunu demişdir. Digər bir hədisdə Salman Farisinin ﷺ başına gələnlər daha geniş verilmişdir: Salman Farisi belə rəvayət etmişdir: "Mən İsfahanda – Cey deyilən bir məmləkətdə yaşayırdım. Atam da həmin məmləkətin böyüyü, həm də ən zəngin adamlarından biri idi. O, məni hamıdan çox sevirdi, günü-gündən də mənə olan məhəbbəti artırdı. O məni heç yerə buraxmır, cariyə kimi evdə saxlayırdı. Getdikcə mən əqidəli bir atəşpərəstə çevrilirdim. İş o yerə gəlib çatmışdı ki, mən bircə saat belə oddan ayrı qala bilmirdim. O vaxtlar atamın ağalıq yerləri var idi. Bir gün onun başı işə bərk qarışmışdı deyə, məni yanına çağırıb: "Oğlum, mənim evdə bir az işlərim var, bəlkə bu gün gedib çöldəki yerlərimizə bir baş çəkəsən"– dedi və orada bəzi işləri görməyi mənə tapşırdı. Mən oraya gedərkən, yolda nəsranilərin kilsəsinin yanından keçdim və onların səslərini eşitdim, içəri daxil olub onların namaz qıldıqlarını gördüm. Atam məni ev dustağı etmişdi deyə, mənim belə şeylərdən xəbərim yox idi. Onların namazı mənim xoşuma gəldi, məndə bu dinə rəğbət oyandı və mən öz-özümə dedim: "Vallahi, bu din bizim sitayiş etdiyimiz oddan daha xeyirlidir." Mən çöldəki yerlərimizə getməyib gün batanadək nəsranilərin yanında qaldım. Sonra onlardan: "Bu dinin əsli haradadır?"– deyə soruşdum. Onlar: "Şamdadır"– dedilər. Beləcə, mən atamın tapşırdığı işi yerinə yetirməyib, onun yanına qayıtdım. Mən evə gəldikdə atam dedi: "Oğlum, harada idin? Məgər mən səni iş dalınca

göndərməmişdim?" Dedim: "Atacan! Mən kilsədə namaz qılan insanlara rast gəldim və onların dini mənim xoşuma gəldi. Mən belə bir din görməmişdim. Odur ki, axşamadək onların yanında idim." Atam dedi: "Oğlum, o dində heç bir xeyir yoxdur. Sənin və atababalarının dini bundan daha xeyirlidir." Mən dedim: "Xeyr, vallahi ki, bu din bizim dinimizdən daha xeyirlidir." Onda atamın canına qorxu düşdü, (atəşpərəstlikdən üz döndərəcəyimdən qorxdu) və elə buna görə də məni ev dustağı edib, əl-ayağımı bağladı ki, heç yerə qaçıb gedə bilməyim. Mən (fürsət tapıb) nəsranilərə xəbər göndərdim ki, əgər Şama bir karvan getsə, mənə xəbər versinlər. Çox keçmədi ki, nəsranilər Şam karvanının gəldiyini mənə bildirdilər. Mən onlara xəbər göndərdim ki, Şam tacirləri alış-verişlərini qurtarıb Şama qayıtmaq istədikdə, mənə xəbər versinlər. Nəhayət, onlar mənə tacirlərin yola düşmək istədiyini bildirdilər. Mən ayağımdakı qandalları açıb evdən qaçdım və özümü həmin karvana yetirib onlarla bərabər Şama yollandım. Şama çatdıqda dedim: "Bu dini bilən ən savadlı adamı mənə göstərin." Mənə kilsədəki baş keşişi göstərdilər. Mən onun yanına gedib dedim: "Mən bu dini qəbul etmişəm, qəlbimi ona bağlamışam və istəyirəm ki, sənin yanında qalıb sənə xidmət edim, səndən savad alım və sənin birgə namaz qılım." Baş keşiş mənə yanında qalmağa izin verdi. O, çox yaramaz adam idi. Öz havadarlarına Allah yolunda sədəqə verməyi əmr edir, lakin yığılan sədəqəni özünə götürürdü, kasıblara heç nə vermirdi. İş o yerə gəlib çatmışdı ki, bu yaramaz adam yeddi küp qızıl-gümüş yığmışdı. Bu əməlinə görə mən ona nifrət edirdim. Nəhayət, baş keşiş öldükdən sonra, nəsranilər onu dəfn etmək üçün onun başına yığışdılar. Onda mən onlara dedim: "Sizin bu keşişiniz çox dələduz adam idi. O, sizi sədəqə verməyə təhrik edir, sonra da verdiyiniz sədəqələri özünə götürür və kasıblara heç nə vermirdi." Onlar soruşdular: "Nə bilirsən ki, o belə edirdi?" Dedim: "İstəyirsinizsə, onun yığdığı pulların yerini sizə göstərim?" Onlar: "Göstər!"– dedilər. Mən onun xəzinəsinin yerini onlara göstərdim və onlar oradan yeddi küp qızıl-gümüş çıxartdılar. Həqiqət bəlli olduqdan sonra onlar: "Allaha and olsun ki, biz bunu basdırmayacağıq"– dedilər və çarmıxa çəkib daş-qalaq etdilər. Bundan sonra onun yerinə başqa birisini seçdilər və mən uzun

müddət onun yanında qaldım. Mən, namazlarını vaxtlı-vaxtında qılan, dünyaya könül bağlamayıb, Axirətə can atan, gecə-gündüz Allahın itaətində duran onun tək dindar birisini görməmişdim. Mən onu çox sevirdim. Nəhayət, ölüm onu haqladıqda, mən dedim: "Ey filankəs! Mən uzun müddət sənin yanında qaldım, səni səmimi-qəlbdən sevdim, heç kəsi sənin qədər sevməmişdim. Budur, Allahın əmri ilə ölüm səni haqlayıb. Mənə nə nəsihət edirsən? De görüm, (sən öləndən sonra) kimin yanına gedim?" O dedi: "Oğlum, əsl dindarlar ölüb getmiş və insanlar bu dini təhrif etmiş, həqiqəti gizlətmişlər. Vallahi, mən bu əqidədə olan yalnız bir nəfəri tanıyıram, o da Mosul şəhərində yaşayan filankəsdir. Gedərsən onun yanına!" O vəfat etdikdən sonra, mən Mosulda yaşayan adamın yanına gəlib dedim: "Ey filankəs! Filankəs ölüm ayağında ikən mənə sənin tövhid dinində olduğunu xəbər vermiş və mənə sənin yanına gəlməyi tövsiyə etmişdir." O mənə yanında qalmağa izin verdi və mən (bir müddət) onun yanında qaldım. Mən onun çox mehriban, xeyirxah bir insan olduğunu gördüm. Nəhayət, ona da ölüm yetişdikdə mən dedim: "Ey filankəs! Filankəs mənə sənin yanında qalmağı nəsihət etmişdi. Budur, Allahın əmri ilə ölüm səni haqlayıb. İndi mən nə edim, (sən öləndən sonra) kimin yanına gedim?" O dedi: "Oğlum, vallahi, mən bizim əqidədə olan yalnız bir nəfəri tanıyıram, o da Nəsibin şəhərində yaşayan filankəsdir. Gedərsən onun yanına!" O vəfat etdikdən sonra mən Nəsibində yaşayan adamın yanına gəlib, dostumun dediklərini ona xəbər verdim. O, mənə yanında qalmağa izin verdi və mən (bir müddət) onun yanında qaldım. Mən onun əvvəlki iki kişi kimi tövhid əhli olduğunu, çox mehriban və xeyirxah bir insan olduğunu gördüm. Çox keçmədi ki, onun da əcəli çatdı. Ölüm ayağında ikən mən ona dedim: "Ey filankəs! Filankəs mənə filankəsin yanına getməyi, o da, mənə sənin yanına gəlməyi nəsihət etmişdi. Sən mənə nə əmr edirsən, (sən öləndən sonra) mən kimin yanına gedim?" O dedi: "Oğlum! Vallahi ki, mən bizim əqidədə olan yalnız bir nəfəri tanıyıram, o da Əmmuriyyə şəhərində yaşayır. İstəyirsənsə, onun yanına get!" O vəfat etdikdən sonra, mən Əmmuriyyədə yaşayan adamın yanına gəlib dostumun dediklərini ona xəbər verdim. O mənə yanında qalmağa izin verdi və mən (bir müddət) onun yanında qaldım. Onun

yanında qaldığım müddətdə *Allah* mənə çoxlu mal-qara və qoyun-quzu nəsib etdi. Çox keçmədi ki, bu kişinin də əcəli yetişdi. Ölüm ayağında ikən mən ona dedim: "Ey filankəs! Mən filankəsin yanında idim. O, mənə filankəsin yanına getməyi, filankəs də mənə filankəsin yanına getməyi, o da mənə sənin yanına gəlməyi nəsihət etmişdi. Bəs, sən mənə nə buyurursan, (sən öləndən sonra) mən kimin yanına gedim?" O dedi: "Oğlum! Vallahi, mən bizim əqidəmizdə olan elə bir adam tanımıram ki, səni onun yanına göndərim. Lakin (ümidini üzmə) İbrahimin dinində olan peyğəmbərin göndəriləcəyi vaxt artıq yaxınlaşıb. O, ərəblərin arasından çıxacaq, (qövmü onu qovub yurdundan çıxartdıqdan sonra) Hərraya (Mədinə yaxınlığında yerləşən, qaralmış daş-kəsəklərlə dolu bir sahəyə) xurmalıqlar olan bir yerə hicrət edəcək. Onun hamıya bəlli olan peyğəmbərlik əlamətləri vardır: hədiyyəni yeyər, sədəqəni isə yeməz və bir də çiyinləri arasında peyğəmbərlik möhürü vardır. O yerlərə gedə bilərsənsə, get!"

O, vəfat etdikdən sonra mən Allahın qədərimə yazdığı qədər Əmmuriyyədə qaldım. Nəhayət, bir gün mən Kəlb qəbiləsindən olan tacirlərə rast gəldim və onlara: "Məni ərəblərin diyarına aparmağa razılıq versəniz, mal-qaramı və qoyunlarımı sizə verərəm"– dedim. Onlar mənim təklifimlə razılaşdılar və mən bütün varidatımı onlara verdim. Tacirlər məni (Mədinə) yaxınlığındakı bir vadiyə gətirdilər və haqsızlıq edib, məni kölə olaraq bir yəhudiyə satdılar. Mən onun yaşadığı yerə gəlib çatdıqda xurma ağaclarını gördüm və ürəyimə damdı ki, bu, dostumun mənə vəsf etdiyi yerlərdir. Mən içimdə rahatlıq tapa bilmirdim. Elə bu dəm ağamın mədinəli – bəni-qureyzəli əmisi oğlu onun yanına gəldi və məni satın alıb Mədinəyə apardı. Vallahi, mən Mədinəni görəndə, keşişin sözləri yadıma düşdü və axtardığım yeri tapdığımı güman etdim. Həmin ərəfədə artıq Allah Öz peyğəmbərini ﷺ insanlara göndərmişdi. Peyğəmbər ﷺ bir müddət Məkkədə dəvət apardı. Mən kölə idim deyə, onun haqqında heç bir məlumatım yox idi. Sonra Peyğəmbər ﷺ Mədinəyə hicrət etdi. Bu ərəfədə mən ağam üçün ağacdan xurma yığırdım. Həmin vaxt ağamın əmisi oğlu onun yanına gəldi və onlar ağacın altında durub söhbət etməyə başladılar. Biri o birinə dedi: "Allah Bəni-Qaylə qəbiləsini məhv etsin! Bu dəqiqə onlar Qubada, Məkkədən gəlmiş o kişinin başına

toplaşıb, onun peyğəmbər olduğunu iddia edirlər." Mən bu sözləri eşidəndə bədənimdən isti bir üşütmə keçdi və az qaldım ki, ağacdan ağamın üstünə düşüm. Mən dərhal yerə enib ağamın əmisi oğluna yaxınlaşdım və ondan: "Sən nə dedin, nə dedin?"– deyə soruşdum. Bunu eşidəndə ağam qəzəbləndi və məni əməllicə kötəklədi. Sonra üstümə qışqırıb dedi: "Bunun sənə dəxli yoxdur, get işinlə məşğul ol!" Mən ona: "Sadəcə, onun dediyini bilmək istəyirdim"– dedim, (sonra da gedib işimlə məşğul oldum). Axşam düşdükdə mən bir qədər xurma götürüb Peyğəmbərin ﷺ yanına getdim. Həmin vaxt Peyğəmbər ﷺ Qubada idi. Mən onun yanına gəlib dedim: "Sənin əməlisaleh insan, ətrafındakı səhabələrin də ehtiyac içində olduğunu eşitmişəm. Odur ki, sədəqə vermək üçün saxladığım bu xurmaları sizə gətirmişəm. Sizin buna daha çox haqqınız çatır." Bunu deyəndən sonra mən xurmaları Peyğəmbərə ﷺ uzatdım. Peyğəmbər ﷺ səhabələrinə: "Yeyin!"– dedi, özü isə bundan yemədi. Onda mən öz-özümə: "Bu, birincisi!"– dedim və çıxıb getdim, Peyğəmbər ﷺ də Mədinəyə getdi. Sonra mən yenə bir qədər xurma götürüb onun yanına gəldim və dedim: "Görürəm, siz sədəqə yemirsiniz. Odur ki, bu xurmaları sizə hədiyyə edirəm." Onda Peyğəmbər ﷺ xurmadan yedi və səhabələrinə də ondan yeməyi buyurdu. Mən yenə öz-özümə dedim: "Bu da, ikincisi" Bir müddətdən sonra mən yenə onun yanına gəldim. Həmin vaxt o, Bəqi qəbiristanlığında səhabələrindən birinin dəfnində idi. O, səhabələri ilə birlikdə yerdə oturmuşdu, əbasını da çiyninə atmışdı. Bu vaxt mən onun arxa tərəfinə keçdim ki, bəlkə keşişin mənə vəsf etdiyi peyğəmbərlik möhürünü görəm. Mən Peyğəmbərin ﷺ arxa tərəfinə keçdikdə o, mənim nə istədiyimi başa düşdü və əbasını çiynindən aşağı saldı. Mən onun çiyinləri arasındakı peyğəmbərlik möhürünü görən kimi onu qucaqlayıb öpdüm və hönkür-hönkür ağlamağa başladım. Peyğəmbər ﷺ mənə: "Gəl, otur!"- dedi, mən də oturub əvvəldən axıradək başıma gələnləri ona danışdım. Bu əhvalat Peyğəmbərə ﷺ çox təsir etdi və o məndən başıma gələnləri səhabələrə də danışmağı xahiş etdi."

İbn Abbas demişdir: "Salman Uhud döyüşünədək, kölə olaraq qaldı."

٢٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْوَضَّاحِ، قَالَ: حَدَّثَنَا أَبُو عَقِيلٍ الدَّوْرَقِيُّ، عَنْ أَبِي نَضْرَةَ الْعَوَقِيِّ، قَالَ: سَأَلْتُ أَبَا سَعِيدٍ الْخُدْرِيَّ، عَنْ خَاتَمِ رَسُولِ اللهِ ﷺ يَعْنِي خَاتَمَ النُّبُوَّةِ، فَقَالَ: ((كَانَ فِي ظَهْرِهِ بَضْعَةٌ نَاشِزَةٌ)).

Sonra Salman rəvayətinə davam edib dedi: “Bir gün Peyğəmbər ﷺ mənə dedi: “Ey Salman, ağanla *müəyyən miqdar pul müqabilində* azad olunmağına dair razılaş.” Mən gedib ağamdan üç yüz xurma zoğu əkmək və min altı yüz dirhəm ödəmə şərtilə azad ediləcəyimə dair razılıq aldım. Onda Peyğəmbər ﷺ səhabələrinə: “Qardaşınıza yardım edin!”- deyə buyurdu, səhabələr də mənə yardım etdilər. Kimisi otuz, kimisi iyirmi, kimisi on beş, kimisi on, kimisi də imkanı daxilində bir neçə zoğ verdi. Beləliklə, üç yüz zoğ yığıldı. Sonra Peyğəmbər ﷺ mənə dedi: “Ey Salman, get bu zoğların yerini qaz, işini qurtardıqdan sonra, gəl mənə xəbər ver ki, bu zoğları mən öz əllərimlə əkim.” Mən səhabələrlə birlikdə zoğların yerini qazıb qurtardıqdan sonra Peyğəmbərin ﷺ yanına gəlib *işimizi qurtardığımızı* ona xəbər verdim. Peyğəmbər ﷺ qalxıb mənimlə getdi. Biz zoğları bir-bir ona uzadır, o da, zoğu yerə sancırdı. Beləcə, Peyğəmbər ﷺ zoğların hamısını öz əlləri ilə yerə basdırdı. Salmanın canı Əlində olan Allaha and olsun ki, o zoğlardan heç biri tələf olmadı. Beləliklə də, mən ağama xurma ağaclarını ödədim. Lakin min altı yüz dirhəmi ödəmək sonraya qaldı. Döyüşlərin birindən sonra Peyğəmbər ﷺ məni yanına çağırtdırıb mənə yumurta boyda qızıl külçə verdi və dedi: “Al bunu, borcunu ödə, ey Salman!” Dedim: “Bu bəs edəcəkmi, ya Rəsulullah?” Peyğəmbər ﷺ dedi: “Götür bunu, qüdrət və qüvvət sahibi olan Allah sənin borcunu ödəyəcək.” Mən bu qızıl külçəni götürüb tərəzidə çəkdirdim. Salmanın canı Əlində olan Allaha and olsun ki, düz qırx övqiyə gəldi. Beləcə, mən borcumu ödəyib azad olundum” (İmam Əhməd, 5/441-444; Silsilətul-Əhadisis-Səhihə, 894-cü hədis).

(22) ..... Əbu Nədrə əl-Əvəqiy demişdir: "Mən Əbu Səid əl-Xudridən[1] Peyğəmbərin ﷺ möhürü yəni, peyğəmbərlik möhürü,[2] barədə soruşdum. O dedi: "(Bu) onun kürəyində olan domba ət parçası idi."[3]

٢٣- حَدَّثَنَا أَحْمَدُ بْنُ الْمِقْدَامِ أَبُو الأَشْعَثِ الْعِجْلِيُّ الْبَصْرِيُّ، قَالَ: أَخْبَرَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ عَاصِمٍ الأَحْوَلِ، عَنْ عَبْدِ اللهِ بْنِ سَرْجِسَ، قَالَ: ((أَتَيْتُ رَسُولَ اللهِ ﷺ وَهُوَ فِي نَاسٍ مِنْ أَصْحَابِهِ، فَدُرْتُ هَكَذَا مِنْ خَلْفِهِ، فَعَرَفَ الَّذِي أُرِيدُ، فَأَلْقَى الرِّدَاءَ عَنْ ظَهْرِهِ، فَرَأَيْتُ مَوْضِعَ الْخَاتَمِ عَلَى كَتِفَيْهِ، مِثْلَ الْجُمْعِ حَوْلَهَا خِيلانٌ، كَأَنَّهَا ثَآلِيلُ، فَرَجَعْتُ حَتَّى اسْتَقْبَلْتُهُ، فَقُلْتُ: غَفَرَ اللَّهُ لَكَ، يَا رَسُولَ اللهِ، فَقَالَ: ((وَلَكَ)) فَقَالَ الْقَوْمُ: أَسْتَغْفَرَ لَكَ رَسُولُ اللهِ ﷺ؟ فَقَالَ: نَعَمْ، وَلَكُمْ، ثُمَّ تَلا هَذِهِ الآيَةَ: ﴿وَاسْتَغْفِرْ لِذَنْبِكَ وَلِلْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ﴾.

---

[1] Əbu Səid Səd ibn Malik ibn Sinan əl-Xudri ﷺ ən çox hədis rəvayət etmiş yeddi səhabədən biridir. Min yüz yetmiş hədis rəvayət etmişdir. Böyük fəqihlərdən və ələlxüsus də Mədinənin müftisi olmuşdur. Xəndək döyüşündə və Rizvan beyətində (yəni, ağac altında olan beyətdə) iştirak etmişdir. Hicrətin 74-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 28-ci tərcümeyi-hal).

[2] Əbu Nədrənin bu möhürü açıqlamaqda məqsədi o idi ki, hədisi eşidən kimsə həmin möhürün Peyğəmbərin ﷺ üzüyü olduğunu güman etməsin.

[3] Bu hədisi Əhməd (3/69) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

(23) ..... Abdullah ibn Sərcis[1] ﷺ demişdir: "Rəsulullah ﷺ səhabələrindən bir qisminin əhatəsində ikən mən onun yanına gəldim və belə[2] hərlənib onun arxa tərəfinə keçdim. O, mənim nə istədiyimi başa düşdü[3] və ridasını[4] çiynindən aşağı saldı. Onda mən onun kürəkləri arasında[5] yumruğa bənzər[6] *peyğəmbərlik* möhürünü gördüm. Üzərində xırda xallar var idi, sanki o, ziyillərdən[7] (ibarət bir ət parçası) idi. (İstədiyimi gördükdən) sonra qayıdıb onunla üzbəüz durdum və dedim: "Allah səni bağışlasın,[8] ya Rəsulullah!" O da (mənə): "Səni də (bağışlasın)!"– dedi."

---

[1] Abdullah ibn Sərcis əl-Müzəni ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Abdul-Malik ibn Mərvanın xilafəti dövründə Bəsrədə vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 74-cü tərcümeyi-hal).

[2] Burada Abdullah ibn Sərcis ﷺ nə cür hərləndiyini vəsf edir.

[3] Abdullah ibn Sərcis ﷺ Rəsulullahın ﷺ peyğəmbərlik möhürünü görmək istəyirdi.

[4] Bədənin qurşaqdan yuxarı hissəsini örtmək üçün istifadə edilən örtük; bürüncək.

[5] Bu, təqribi təyin etmədir. Daha dəqiq yeri isə Muslimin "Səhih" əsərində (6234) Abdullah ibn Sərcisin ﷺ vəsf etdiyi hədisdə rəvayət edilmişdir. O demişdir: "Mən Rəsulullahın ﷺ arxa tərəfinə keçdim və kürəklərinin arasında – sol kürəyinin qığırdağına yaxın yerdə peyğəmbərlik möhürünü gördüm."

[6] Bu möhür yumruğa bənzəsə də, həcmi yumruqdan kiçik – digər rəvayətlərdə xəbər verildiyi kimi – təqribən kəklik və ya göyərçin yumurtası boyda idi.

[7] Ziyil: dərinin üstündə əmələ gələn müxtəlif böyüklükdə tumurcuq şəklində çıxıntı.

[8] Əli ibn Muhəmməd əl-Hərəvi demişdir: "Burada "səni bağışlasın" sözü ya cümlənin xəbəri olaraq, Quranda buyurulana müvafiq: **"Həqiqətən, Biz sənə aydın bir zəfər bəxş etdik ki, Allah sənin əv-**

(Bundan xəbər tutan) adamlar (ondan): "Allahın rəsulu ﷺ sənin üçün məğfirət dilədimi?"[1]– deyə soruşdular. Abdullah

---

vəlki və sonrakı günahlarını bağışlasın, sənə olan nemətini tamamlasın, səni düz yola yönəltsin və Allah sənə böyük bir qələbə ilə kömək etsin" (əl-Fəth, 1-3) mənada işlənmiş, yaxud səhabə belə dua etməklə Allahdan Peyğəmbər ﷺ üçün daha çox məğfirət diləmiş, yaxud da bu məğfirəti onun ümməti üçün istəmişdir" (Cəmul-Vəsail fi Şərhiş-Şəmail).

[1] Səhabələr Rəsulullahın ﷺ onlar üçün Allahdan bağışlanma diləmələrinə sevinərdilər. Onlar yəqin bilirdilər ki, Rəsulullah ﷺ onlar üçün yalnız həyatda ikən dua edə bilər. Rəsulullahın ﷺ vəfatından sonra Allah ilə möminlər arasında vasitəçi olub onlar üçün məğfirət diləyəcəyinin qeyri-mümkün olması barədə isə Buxarinin "Səhih"ində (5665) rəvayət edilmiş bir hədisdə deyilir ki, *bir dəfə* Aişə رضي الله عنها *başı bərk ağrıdığından*: "Vay başım!"– dedi. Onda Rəsulullah ﷺ ona belə buyurdu: "Əgər mən həyatda ikən sənə bir şey olsa, mən sənin üçün bağışlanma diləyər və sənin üçün dua edərəm." Hədisdən açıq-aydın görünür ki, Allahın rəsulu ﷺ yalnız sağ ikən vasitəçilik edə bilər. Rəsulullah ﷺ vəfat etdikdən sonra isə heç bir səhabə ona müraciət etməmişdir. Diqqət edin! Yenə Buxarinin "Səhih"ində (1010) rəvayət edilir ki, qıtlıq və quraqlıq üz verdikdə Ömər ibn Xəttab رضي الله عنه Abbas ibn Abdul-Muttəlibin رضي الله عنه vasitəsilə *Allahdan* yağmur diləyib: "Allahım, biz Peyğəmbərimizin ﷺ vasitəsilə Səndən yağmur diləyərdik, Sən də bizə yağmur endirərdin. İndi isə biz Peyğəmbərimizin ﷺ əmisinin vasitəsilə Səndən yağmur diləyirik, bizə yağmur endir!"– deyər, *Allah da* onlara yağmur nazil edərdi." Bu əqidə Qurani Kəqimdə də öz təsdiqini tapmışdır: **"Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən və Rəhmli olduğunu görərdilər"** (ən-Nisa, 64). Ayədəki (إِذْ) zaman zərfliyi keçmiş zamana aiddir. Və bunu (إِذَا) kimi qəbul etmək, yəni, gələcək zamana yozmaq yanlış fikirdir (əl-Qovl əl-Mufid, 2/516). Rəsulullah ﷺ mömin kişilər və mömin qadınlar üçün dua etmiş və səhabələrinə də belə etməyi buyurmuşdur. Həmçinin, onlardan son-

(onlara): "Bəli, sizin üçün də[1]"– dedi, sonra da bu ayəni[2] oxudu: **"Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə."**[3]

---

rakı nəsillər də həm özləri, həm də bu dünyadan köçüb getmiş möminlər üçün dua etmiş və edəcəklər də. Uca Allah Quranda belə buyurur: **"*Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!"** (əl-Həşr, 10). Rəsulullah ﷺ isə bu xüsusda belə buyurmuşdur: "Kim mömin kişilər və mömin qadınlar üçün *Allahdan* bağışlanma diləyərsə, hər bir möminə görə ona bir savab yazılar" (Mocəm ət-Təbərani, 10970; Səhih əl-Cami, 6026). Demək, biz hər dəfə: "Allahım, mömin kişiləri və mömin qadınları bağışla!"– deyəndə, bu dünyadan köçmüş, habelə həyatda olan möminlərin sayı qədər bizə savab yazılır. Odur ki, yadınıza düşdükcə deyin: "**Allahummə-ğfir lil-musliminə vəl muslimat, vəl-mumininə vəl-muminat, əl-əhyaə minhum vəl-əmvat** (Allahım, müsəlman kişiləri və müsəlman qadınları, mömin kişiləri və mömin qadınları, onlardan həyatda olanları və ölüb gedənləri bağışla!)" Bəzən Rəsulullah ﷺ bir adam üçün cənazə namazı qılar, lakin cəm şəklində dua edib deyərdi: "**Allahummağfir liheyyinə və meyyitinə və şahidinə və ğaibinə və səğirinə və kəbirinə və zəkərinə və unsanə. Allahummə, mən əhyəytəhu minnə fə əhyihi aləl-islam və mən təvəffəytəhu minnə fətəvəffəhu aləl-iman** (Allahım! Dirimizi və ölümüzü, burada olanımızı və olmayanımızı, kiçiyimizi və böyüyümüzü, kişimizi və qadınımızı bağışla! Allahım! Bizdən kimi yaşatsan, müsəlman kimi yaşat və kimi öldürsən, mömin kimi öldür!)" (Sunən İbn Macə 1/480; Səhih İbn Macə, 1/251).

[1] Beləliklə Abdullah ﷺ ona sual verən adamlara Rəsulullahın ﷺ onlar üçün də Allahdan bağışlanma dilədiyini xəbər vermiş və oxuduğu ayə ilə bunu təsdiqləmişdir.

[2] "Muhəmməd" surəsi, 19.

[3] Bu hədisi Muslim (2346) və Nəsai (11496) rəvayət etmişdir.

٣- بَاب ما جاء في شَعْر رسول الله ﷺ

3-cü fəsil. Rəsulullahın ﷺ saçı barədə varid olanlar[1]

٢٤- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: أَخْبَرَنَا إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسِ بْنِ مَالِك، قَالَ: ((كَانَ شَعَرُ رَسُولِ اللهِ ﷺ إِلَى نِصْفِ أُذُنَيْهِ)).

[1] İmam Əbu İsa ət-Tirmizi bu fəsli ayrıca zikr etmiş və burada Peyğəmbərin ﷺ saçlarının nə cür olduğunu, onun bu saçlara necə baxdığını, onları hansı vaxtlarda daradığını xəbər verən hədisləri varid etmişdir. Bu hədislərdə səhabələr xəbər vermişlər ki, Peyğəmbərin ﷺ saçları bəzən qulaqlarının yarısına, bəzən qulağının mərcəyinə, bəzən də çiyninin üstünə çatardı. Bütün bunlar onu bildirir ki, Peyğəmbər ﷺ səbəbsiz olaraq saçlarını qırxmazdı. Bu xüsusda İbn Qeyyim "Zadul-Məad fi Hədyi Xayril-İbad" (1/174) əsərində demişdir: "Rəsulullah ﷺ saçlarını ya buraxar, ya da tam qırxardı. O, heç vaxt saçının bir qismini qırxıb digər qismini saxlamazdı. Və yalnız həcc və ümrə ziyarətləri əsnasında saçlarını tam qırxardı." Demək, Rəsulullah ﷺ saçlarını çiyninə qədər uzadar və arabir, uclarından alıb onları qısaldardı. Rəsulullah ﷺ Musanı ﷺ və İsanı ﷺ vəsf edərkən onların da saçlarının uzun olduğunu, bəzi rəvayətlərdə çiyinlərinə çatdığını xəbər vermişdir. Quranda xəbər verilir ki, bir zaman Harun ﷺ qardaşı Musaya ﷺ demişdir: **"Ey anamın oğlu! Saqqalımdan, saçımdan tutma"** (Ta ha, 94). Ayədən və hədislərdən açıq-aydın görünür ki, peyğəmbərlər saç saxlamışlar. Yeri gəlmişkən, qeyd edək ki, insan saçını dörd haldan birində qırxır: həcc və ümrə ziyarətləri əsnasında; saçlara bit-sirkə və s. düşdükdə; sərinlənmək üçün; və bir də batil əqidəyə qulluq edən kimsələrə oxşamaq məqsədilə qırxır. Bunlardan birincisi vacib, ikinisi caiz, üçüncüsü mübah, sonuncusu isə haram sayılır.

(24) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullahın ﷺ saçları qulaqlarının yarısına çatırdı.[1]"[2]

٢٥- حَدَّثَنَا هَنَّادُ بْنُ السَّرِيِّ، قَالَ: أَخْبَرَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي الزِّنَادِ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كُنْتُ أَغْتَسِلُ أَنَا وَرَسُولُ اللهِ ﷺ مِنْ إِنَاءٍ وَاحِدٍ، وَكَانَ لَهُ شَعَرٌ فَوْقَ الْجُمَّةِ، وَدُونَ الْوَفْرَةِ)).

(25) ..... Aişə[3] رضي الله عنها demişdir: "Mən Peyğəmbərlə ﷺ birlikdə bir qabdan[1] su götürüb qüsl edərdim. Onun saçları çiynindən yuxarı və mərcəyindən aşağı idi."[2]

---

[1] Digər hədislərdə isə onun saçlarının qulağının mərcəyinə və ya çiyninə çatdığı bildirilir. İmam İbn Kəsir "Bidayə vən-Nihayə" (6/23) əsərində bu hədislərdən bəzisini zikr etdikdən sonra demişdir: "Bu hallar arasında heç bir ziddiyyət yoxdur. Belə ki, onun saçları bəzən uzun, bəzən də qısa olmuşdur. Odur ki, onun saçlarını vəsf edən səhabələrin hər biri gördüyünü xəbər vermişdir."

[2] Bu hədisi Muslim (2238), Əbu Davud (4185), Nəsai (9322), İbn Macə (3134) və Əhməd (3/113) rəvayət etmişdir.

[3] Aişə رضي الله عنها bint Əbu Bəkr Abdullah ibn Əbu Quhafə Osman ibn Amir ət-Teymiyyə, Rəsulullahın ﷺ zövcəsi, möminlərin anası, bu ümmətin qadınları arasında İslam dinini ən yaxşı bilən qadın və ən çox hədis rəvayət edən səhabələrdəndir. Peyğəmbərdən ﷺ 2210 hədis rəvayət etmişdir. Buxari və Muslim – birlikdə ondan yüz yetmiş dörd hədis, ayrı-ayrılıqda Buxari əlli dörd, Muslim isə altmış doqquz hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 19-cu tərcümeyi-hal). Onun fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur. Bunlardan bir neçəsini qeyd edək; (bir dəfə) Peyğəmbər ﷺ Aişədən: "Sən həm bu dünyada, həm də Axirətdə mənim zövcəm olmağa razısanmı?"– deyə soruşdu. Aişə: "Əlbəttə, *razıyam*!"– deyə cavab verdi. Onda Peyğəmbər ﷺ buyurdu: "Dünyada da, Axirətdə də sən mənim zövcəmsən!"

(Mustədrək, 4/10; Silsilətul-Əhadisis-Səhihə, 1142); digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kişilərdən bir çoxları kamilliyə çatmışdır. Qadınlardan isə yalnız Fironun həyat yoldaşı Asiya və İmranın qızı Məryəm kamilliyə çatmışdır. Aişənin digər qadınlardan üstünlüyü isə, ətli şorbanın başqa yeməklərdən üstünlüyü kimidir" (Səhih əl-Buxari, 3411). Həmçinin onun barəsində nazil olmuş bəraət ayələri (ən-Nur surəsi, 11-22) onun nə dərəcədə fəzilətli qadın olduğuna dəlalət edir.

[1] Buxarinin "Səhih"ində (250) bu qabın "fərəq" adlandırıldığı xəbər verilir. Muslimin "Səhih"ində (727) isə: "Bir fərəq üç saaya bərabərdir"– deyilir." Saa – ölçü vahididir və dörd mudda bərabərdir. Bir mudd isə insanın iki ovucuna bərabərdir. Demək, Rəsulullah ﷺ və zövcəsi cəmi on iki ovuc su ilə qüsl edərdi. Əlbəttə ki, suyun qədrini bilən kimsələrə az miqdarda su da kifayət edir. Buxarinin "Səhih"ində (252) rəvayət edilir ki, bir nəfər Cabir ibn Abdullahdan ﷺ qüsl barəsində soruşdu. Cabir: "Sənə bir saa *su* kifayət edər"– deyə cavab verdi. *Oradakılardan* birisi: "Mənə bəs eləmir"– deyə etirazını bildirdikdə, Cabir dedi: "Saçı sənin *saçından* daha gur, özü də səndən daha xeyirli olan birisinə bəs edərdi." Bunu deyəndə, Cabir Rəsulullahı ﷺ qəsd edirdi. Bu hədisdə Aişənin ﷺ: "qüsl edərdim" sözü, onun bir dəfə yox, dəfələrlə Rəsulullahla ﷺ birlikdə qüsl etdiyindən xəbər verir. Bu da, kişinin öz zövcəsilə bir yerdə, bir vaxtda və bir qabdan su götürüb qüsl etməsinin caiz olduğuna dəlalət edir.

[2] Bu hədisi Əbu Davud (4187), Tirmizi (1755), İbn Macə (376) və Əhməd (6/108) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "həsən-səhih" olduğunu demişdir. İmam Tirmizi bu hədisi "Sunən" əsərində nəql etdikdən sonra demişdir: "Bu hədis "həsən-səhih"dir və yalnız bu yöndən rəvayət edilmiş bir hədisdir. Bu hədis Aişədən ﷺ başqa isnadlarla rəvayət olunmuş və həmin rəvayətlərdə: "onun saçları çiynindən yuxarı və mərcəyindən aşağı idi" sözü zikr edilməmişdir. Və Abdur-Rəhman ibn Əbu Zinad "siqa" (etibarlı) ravidir. Malik ibn Ənəs onun

٢٦- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا أَبُو قَطَنٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ مَرْبُوعًا، بَعِيدَ مَا بَيْنَ الْمِنْكَبَيْنِ، وَكَانَتْ جُمَّتُهُ تَضْرِبُ شَحْمَةَ أُذُنَيْهِ)).

(26) ..... Bəra ibn Azib ﷺ demişdir: "Peyğəmbər ﷺ ortaboy, enlikürək bir adam idi. Saçları da qulaqlarının mərcəyinə çatırdı."[1]

٢٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا وَهْبُ بْنُ جَرِيرِ بْنِ حَازِمٍ، قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ قَتَادَةَ، قَالَ: قُلْتُ لأَنَسٍ: كَيْفَ كَانَ شَعَرُ رَسُولِ اللهِ ﷺ؟ قَالَ: ((لَمْ يَكُنْ بِالْجَعْدِ، وَلا بِالسَّبْطِ، كَانَ يَبْلُغُ شَعَرُهُ شَحْمَةَ أُذُنَيْهِ)).

(27) ..... Qətadə demişdir: "Mən Ənəsdən: "Rəsulullahın ﷺ saçları nə cür idi?"– deyə soruşdum. Dedi: "Onun

---

etibarlı ravi olduğunu söyləmiş və onun rəvayət etdiyi hədisləri yazmağı buyurmuşdur." Tirmizi demək istəmişdir ki, Abdur-Rəhmanın bu əlavəsi mötəbər sayılır. Habelə, İbn Məin, Abdur-Rəhman ibn Əbu Zinadın mötəbər ravi olduğunu bildirib demişdir: "O, Hişam ibn Urvadan hədis rəvayət edən insanların ən etibarlısıdır" (Siyər Əlam ən-Nubələ, 8/168). Bu rəvayəti də Abdur-Rəhman ibn Əbu Zinad Hişam ibn Urvadan, o da, atası Urva ibn Zubeyrdən o da Aişədən rəvayət etmişdir.

[1] Bu hədisi Buxari (3358) və Muslim (2337) rəvayət etmişdir. 3-cü və 4-cü hədisə bax.

saçları nə qıvrım, nə də dümdüz idi. Həm də qulaqlarının mərcəyinə çatırdı.”[1]

٢٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يَحْيَى بْنِ أَبِي عُمَرَ الْمَكِّيُّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنِ ابْنِ أَبِي نَجِيحٍ، عَنْ مُجَاهِدٍ، عَنْ أُمِّ هَانِئٍ بِنْتِ أَبِي طَالِبٍ، قَالَتْ: ((قَدِمَ رَسُولُ اللهِ ﷺ مَكَّةَ قَدْمَةً، وَلَهُ أَرْبَعُ غَدَائِرَ)).

(28) ..... Ummu Hani bint Əbu Talib[2] رضي الله عنها demişdir: “Bir dəfə Rəsulullah ﷺ Məkkəyə gəldikdə,[3] saçlarında dörd hörük[1] var idi.”[2]

---

[1] Bu hədisi Buxari (5565), Muslim (2338), Nəsai (5053) və İbn Macə (3634) rəvayət etmişdir. 1-ci və 2-ci hədisə bax.

[2] Ummu Hani bint Əbu Talib ibn Abdul-Muttəlib əl-Haşimiyyə əl-Məkkiyyə رضي الله عنها Peyğəmbərin ﷺ əmisi qızı, həm də Əli və Cəfərin رضي الله عنهما doğma bacılarıdır. Ummu Hani onun kunyəsidir (yəni, Haninin anası). Hani də onun dörd övladından birinin adıdır. Adı isə Faxitə və ya Hinddir. Ummu Hani رضي الله عنها İslam dinini Məkkənin fəthi günü qəbul etmişdir. Peyğəmbərdən ﷺ qırx altı hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 56-cı tərcümeyi-hal).

[3] Peyğəmbər ﷺ hicrət etdikdən sonra cəmi dörd dəfə Məkkəyə gəlmişdir: qəza ümrəsini *yəni, müşriklər Hudeybiyədə müsəlmanlara ümrə ziyarətini yerinə yetirməyə mane olduqdan sonra növbəti il həmin ümrənin qəzasını,* yerinə yetirdikdə, Məkkənin fəthində, Ciranə ümrəsində və Vida həccində. (Tohfətul-Əhvəzi, 4/480). Rəvayət edilir ki, Ənəsdən رضي الله عنه: “Peyğəmbər ﷺ neçə dəfə ümrə ziyarəti etmişdir?”– deyə soruşdular. O dedi: “Dörd dəfə: zülqədə ayında müşriklər onun yolunu kəsdikləri vaxt (Məkkəyə girmədən dayandığı yerdə) yerinə yetirdiyi Hudeybiyə ümrəsi; müşriklərlə sülh bağladıqdan sonra növbəti il zülqədə ayında yerinə yetirdiyi (qəza) ümrəsi; qənimətləri bölüşdürdüyü vaxt yerinə yetirdiyi Ciranə ümrəsi.” (Ravi deyir ki,) mən: “Bəs neçə dəfə həcc ziyarətini yerinə yetirmişdir?”– deyə soruşdum. Ənəs: “Bir dəfə”– deyə cavab verdi” (Səhih əl-Buxari, 1778). Bu rəvayətdə

٢٩- حَدَّثَنَا سُوَيْدُ بْنُ نَصْرٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ الْمُبَارَكِ، عَنْ مَعْمَرٍ، عَنْ ثَابِتٍ الْبُنَانِيِّ، عَنْ أَنَسٍ، أَنَّ شَعَرَ رَسُولِ اللهِ ﷺ، كَانَ إِلَى أَنْصَافِ أُذُنَيْهِ.

Peyğəmbərin ﷺ iki dəfə ümrə ziyarəti və nəhayət, hicrətin 10-cu ilində həm ümrə, həm də həcc ziyarətini yerinə yetirmək üçün Məkkəyə gəldiyi xəbər verilir.

[1] İbn Həcər demişdir: "Peyğəmbərin ﷺ səfər əsnasında saçları uzanıb burulmuş və elə bu səbəbdən də onları hörükləmişdi." (Fəthul-Bari, 10/360). Əli ibn Muhəmməd əl-Hərəvi bunu belə izah etmişdir: "Bir çox ölkələrdə hörmətli şəxsiyyətlər saçlarını hörməyi özlərinə adət etmişlər. Lakin onlar saçlarını ön tərəfdən hörür və beləliklə də, qadınlara bənzəmirlər. Belə ki, qadınlar saçlarını arxa tərəfdən hörürlər. Saçları ön tərəfdən hörmək qadınlara bənzəməmək üçün kifayət edir" (Cəmul-Vəsail fi Şərhiş-Şəmail).

[2] Bu hədisi Əbu Davud (4191), İbn Macə (3631) və Əhməd (6/341) rəvayət etmişdir. İmam Tirmizi bu hədisi "Sunən" əsərində (1892) rəvayət etmiş və belə demişdir: "Bu, "həsən-qərib" hədisdir. Muhəmməd (yəni, ibn İsmail əl-Buxari) demişdir: "Mən, Mücahidin Ummu Hanidən رضي الله عنها hədis eşitdiyini bilmirəm." Lakin bir çox alimlər bu hədisin "səhih" olduğunu söyləmişlər. O cümlədən, Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Qeyd edək ki, Mücahid ibn Cəbr əl-Məxzumi hicrətin 21-ci ilində dünyaya gəlmiş, Ummu Hani رضي الله عنها isə Əli ibn Talibin رضي الله عنه vəfatından az bir müddət sonra, təqribən hicrətin 40-cı və ya 41-ci ilində vəfat etmişdir. Üstəlik, Mücahid də Ummu Hani kimi məkkəlidir. Demək, ehtimal edilir ki, Mücahid bu hədisi Ummu Hanidən eşitmiş olsun. Elə bu səbəbdən də, bir çox alimlər bu hədisin "səhih" olduğunu söyləmişlər.

(29) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbərin ﷺ saçları qulaqlarının yarısına çatırdı.[1]"[2]

٣٠- حَدَّثَنَا سُوَيْدُ بْنُ نَصْرٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللَّهِ بْنُ الْمُبَارَكِ عَنْ يُونُسَ بْنِ يَزِيدَ عَنِ الزُّهْرِيِّ، قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللَّهِ بْنُ عَبْدِ اللَّهِ بْنِ عُتْبَةَ عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يُسْدِلُ شَعَرَهُ وَكَانَ الْمُشْرِكُونَ يَفْرِقُونَ رُؤُوسَهُمْ وَكَانَ أَهْلُ الْكِتَابِ يُسْدِلُونَ رُؤُوسَهُمْ وَكَانَ يُحِبُّ مُوَافَقَةَ أَهْلِ الْكِتَابِ فِيمَا لَمْ يُؤْمَرْ فِيهِ بِشَيْءٍ ثُمَّ فَرَقَ رَسُولُ اللَّهِ ﷺ رَأْسَهُ.

(30) ..... İbn Abbas رضي الله عنهما demişdir:[3] "Peyğəmbər ﷺ saçlarını alnına tökərdi, müşriklər isə saçlarını tağ ayırardılar.

---

[1] Ənəsdən rəvayət edilmiş bu hədis 24-cü hədisə bənzəsə də, 29-cu hədisdəki bu isnadla varid olmuş hədisin mətnində ərəbcə (نِصْف) yox, (أَنْصَاف) deyilir. Bu da, ərəb dilinin nə dərəcədə zəngin olduğunu bir daha sübuta yetirir. Belə ki, ərəbcə (نِصْف) yarısı, (أَنْصَاف) isə bunun cəmi, yəni, "yarıları" deməkdir. Belə olduğu təqdirdə hədis: "qulaqlarının yarılarına" kimi tərcümə edilir. Bu da, ərəb dilinin incəliyidir ki, iki sayda ismi, cəm şəklində olan vəsflə vəsf etmək olar. Bu məsələyə dair bu ayəni dəlil gətirmək olar: **"Etdikləri əməlin əvəzində Allahın cəzası olaraq oğru kişinin və oğru qadının əllərini kəsin!"** (əl-Maidə, 38). Diqqət edin: Oğru kişinin və oğru qadının əlləri kəsilsin deyildikdə, onlardan hər birinin bir əli kəsilməsi, yəni, cəmi iki əlin kəsilməsi buyurulur. Lakin Uca Allah bu ayədə ərəbcə "يَدَيْكُمَا" (iki əlini) yox, "أَيْدِيَكُمَا" (əllərini) deyir. Bu da, ərəbcə bu cür ifadə etməyin caiz olduğunu göstərir.

[2] Bu hədisi Əbu Davud (4186) və Nəsai (5061) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Bu hədisi Buxari (3365), Muslim (2336) və Əbu Davud (4188) rəvayət etmişdir.

Habelə, Kitab əhli də saçlarını alınlarına tökərdi. Peyğəmbər ﷺ *Allahın* ona buyurduqları istisna olmaqla, digər işlərdə Kitab əhlinə uyğun hərəkət etməyi xoşlayardı.[1] Sonralar isə o, saçlarını tağ ayırmağa başladı."

[1] Rəsulullah ﷺ ya peyğəmbərlərin hamısının hənif dinində və tövhid əqidəsində olduğundan, ya da Kitab əhlinin haqqa bütpərəstlərdən daha yaxın olduğundan onların etdiyi əməlləri etməyi xoşlayardı. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ Mədinəyə gəldikdə yəhudilərin aşura günü oruc tutduqlarını görüb soruşdu ki: "Bu nədir?" Onlar dedilər: "Bu, gözəl bir gündür! Bu, Allahın İsrail oğullarını onların düşmənlərindən xilas etdiyi gündür! *Elə bu səbəbdən də* Musa həmin günü oruc tutmuşdur." Peyğəmbər ﷺ buyurdu: "Mən Musaya (onun etdiyini davam etməyə) sizdən daha haqlıyam." Sonra o, həmin günü oruc tutdu və səhabələrinə də oruc tutmağı əmr etdi" (Səhih əl-Buxari, 2004). Lakin qeyd etmək lazımdır ki, bu, yalnız Peyğəmbərin ﷺ həyatda olduğu dövrə aiddir. İslam dini kamil olduqdan sonra isə Kitab əhlinin etdiyi bir əməli ibadət məqsədi ilə etmək caiz deyildir. Peyğəmbər ﷺ hədislərin birində özlərini kafirlərə oxşadacaq müsəlmanları qınayıb demişdir: "Siz özünüzdən əvvəlkilərin yolunu tutub qarış-qarış, ərəş-ərəş gedəcəksiniz. Hətta onlar kərtənkələ yuvasına girsələr belə, siz də ora girəcəksiniz" Biz dedik: "Ya Rəsulullah, yəhudiləri və xristianlarımı *qəsd edirsən*?" Dedi: "Başqa kim *ola bilər ki*?!" (Səhih əl-Buxari, 3456). Təəssüf ki, indiki müsəlmanlar istər saç düzümlərində, istər geyimlərində, istərsə başqa işlərdə kafirlərə oxşamağa can atır və bununla da onları razı salacaqlarını güman edirlər. Halbuki Uca Allah Quranda onların müsəlmanlardan heç vaxt razı qalmayacaqlarını xəbər verir: **"Sən yəhudilərin və xaçpərəstlərin dininə tabe olmayınca, onlar səndən razı qalmayacaqlar. De: "Yalnız Allahın haqq yolu doğru yoldur!" Əgər sənə gələn elmdən sonra onların istəklərinə uysan, səni Allahdan nə bir qoruyan, nə də bir xilas edən olar"** (əl-Bəqərə, 120).

٣١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، عَنْ إِبْرَاهِيمَ بْنِ نَافِعٍ الْمَكِّيِّ، عَنِ ابْنِ أَبِي نَجِيحٍ، عَنْ مُجَاهِدٍ، عَنْ أُمِّ هَانِئٍ، قَالَتْ: ((رَأَيْتُ رَسُولَ اللهِ ﷺ ذَا ضَفَائِرَ أَرْبَعٍ)).

(31) ..... Ummu Hani رضي الله عنها demişdir: “Mən Peyğəmbərin ﷺ saçlarında dörd hörük olduğunu görmüşəm.”[1]

[1] Bu hədisi Tirmizi (1893) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani də “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin "səhih" olduğunu demişdir. Bu hədislə 28-ci hədisin arasındakı fərq bunların mənasında yox, ancaq ləfzindədir. Belə ki, bu hədislərin birində hörüyə ərəbcə "غَدَائِر" digərində isə "ضَفَائِر" deyilir. Bu fəsildəki hədislərdən aydın olur ki, Rəsulullahın ﷺ saçları bəzən qulaqlarının yarısına, bəzən qulağının mərcəyinə, bəzən qulaqları ilə çiyninin arasına, bəzən çiyninə yaxın, bəzən də çiyninin üstünə çatardı. Sual vermək olar ki, bu cür saç saxlamaq sünnədirmi? Cavab belədir ki, hər kəs yaşadığı ölkəyə uyğun şəkildə və cəmiyyətə müxalif olmamaq şərtilə, istədiyi şəkildə saç saxlaya bilər. Bir şərtlə ki, bu saç düzümü nə qadınların, nə də kafirlərin saçına bənzəməsin. Bu xüsusda rəvayət edilən hədisdə İbn Abbas رضي الله عنهما demişdir: “Peyğəmbər ﷺ, özlərini qadınlara oxşadan kişiləri və özlərini kişilərə oxşadan qadınları lənətləmişdir” (Səhih əl-Buxari, 5435). Digər hədisdə Peyğəmbər ﷺ demişdir: “Hər kim özünü bir qövmə oxşadarsa, o kimsə onlardan sayılar” (Sunən Əbu Davud, 4031; Səhih əl-Cami, 2831).

٤- بَاب ما جاء في ترَجُّل رسول الله ﷺ

4-cü fəsil. Rəsulullahın ﷺ saçlarını daramasına[1] dair varid olanlar

٣٢- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى الأَنْصَارِيُّ قَالَ: حَدَّثَنَا مَعْنُ بْنُ عِيسَى قَالَ: حَدَّثَنَا مَالِكُ بْنُ أَنَسٍ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كُنْتُ أُرَجِّلُ رَأْسَ رَسُولِ اللَّهِ ﷺ وَأَنَا حَائِضٌ)).

(32) ..... Aişə رضي الله عنها demişdir: "Mən heyzli ikən[2] Peyğəmbərin ﷺ saçlarını darayardım."[1]

---

[1] Burada daramaq deyildikdə, həm saçların daranması, həm təmizlənməsi, həm də gözəl şəklə salınması nəzərdə tutulur. Rəsulullah ﷺ saçlarını ya özü darayar, ya da bunu onun üçün zövcələrindən biri edərdi. Saçlarını daramaq xüsusunda Rəsulullah ﷺ nə həddi aşar, nə də buna səhlənkar yanaşardı, (yəni, nə dəqiqəbaşı saçını düzəldər, nə də onları baxımsız qoyar), əksinə, vaxtdan-vaxta onları darayıb, gözəl şəklə salardı. Saçlarına və əyin-başına fikir verməyən kimsələri isə qınayardı. Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, (bir dəfə) Rəsulullah ﷺ bizə (baş çəkməyə) gəldi və orada saçları dağınıq bir kişi görüb dedi: "Məgər bu adam daraq tapa bilmir ki, onunla saçlarını səliqəyə salsın?!" Sonra o, üst-başı çirkli olan bir kişini görüb dedi: "Məgər bu adam su tapa bilmir ki, paltarını təmizləsin?!" (Sunən Əbu Davud, 4062; Silsilətul-Əhadisis-Səhihə, 394).

[2] Bu hədis qadının heyzli halda öz ərinin başını yumasının və saçlarını daramasının caiz olduğuna, habelə heyzli qadının övrət yerindən başqa digər əzalarının təmiz olduğuna dəlalət edir. Muslimin "Səhih"ində (689) rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir:

٣٣- حَدَّثَنَا يُوسُفُ بْنُ عِيسَى، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، قَالَ: حَدَّثَنَا الرَّبِيعُ بْنُ صَبِيحٍ، عَنْ يَزِيدَ بْنِ أَبَانَ هُوَ الرَّقَاشِيُّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ يُكْثِرُ دَهْنَ رَأْسِهِ وَتَسْرِيحَ لِحْيَتِهِ، وَيُكْثِرُ الْقِنَاعَ حَتَّى كَأَنَّ ثَوْبَهُ، ثَوْبُ زَيَّاتٍ)).

(33) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ vaxtaşırı başına yağ sürtər,[2] saqqalını da tez-tez darayardı.

"Rəsulullah ﷺ məsciddə ikən məni çağırıb: "Səccadəni mənə uzat"– deyə buyurdu. "Mən heyzliyəm"– dedim. Peyğəmbər ﷺ dedi: "Şübhəsiz ki, sənin heyzin əlində deyildir." Yəni, heyz qanı sənin əlinə bulaşmamışdır və bu halda əlini məscidə uzatmağının heç bir günahı yoxdur. Digər bir hədisdə Aişə ﵂ demişdir: "Mən heyzli ikən *su* içər, sonra da qabı Peyğəmbərə ﷺ uzadardım. O da, ağzını mənim ağzımın dəydiyi yerə qoyub *su* içərdi. Yenə heyzli olduğum halda sümüklü soyutma ətdən dişləyər, sonra da onu Peyğəmbərə ﷺ uzadardım. O da, ağzını mənim ağzımın dəydiyi yerə qoyub *ətdən dişləyərdi*" (Səhih Muslim, 692). Bu hədis heyzli qadının ağzının murdar olmadığına dəlalət edir. Bir başqa hədisdə Aişə ﵂ demişdir: "Mən heyzli ikən Peyğəmbər ﷺ başını qucağıma söykəyər, sonra da Quran oxuyardı" (Səhih Muslim, 693).

[1] Bu hədisi Buxari (5581), Muslim (297) və Nəsai (389) rəvayət etmişdir.

[2] Başı yağlamaq digər "səhih" hədislərdə öz təsdiqini tapıb. Salman Farisi ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Hər kim cümə günü qüsl edib bacardığı qədər təmizlənər, *saçlarını* yağlayar və ya evində olan ətirlə ətirlənər, sonra *cümə namazına* gedər və camaatın başının üstündən keçmədən *bir tərəfə çəkilib Allahın* ona buyurduğu namazı qılar və bundan sonra imam xütbə verərkən susub dinləyərsə, həmin cümə ilə ötən cümə arasında olan *kiçik günahları* bağışlanar"

Çox vaxt başına xirqə[1] qoyar və onun libası sanki yağ satan adamın libası kimi *yağlı* olardı.[2]"[3]

٣٤- حَدَّثَنَا هَنَّادُ بْنُ السَّرِيِّ، قَالَ: أَخْبَرَنَا أَبُو الأَحْوَصِ، عَنِ الأَشْعَثِ بْنِ أَبِي الشَّعْثَاءِ، عَنْ أَبِيهِ، عَنْ مَسْرُوقٍ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((إِنْ كَانَ رَسُولُ اللهِ ﷺ لَيُحِبُّ التَّيَمُّنَ فِي طُهُورِهِ إِذَا تَطَهَّرَ، وَفِي تَرَجُّلِهِ إِذَا تَرَجَّلَ، وَفِي انْتِعَالِهِ إِذَا انْتَعَلَ)).

(34) ..... Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ yuyunduqda, saçını daradıqda və ayaqqabılarını geyindikdə sağdan başlamağı[4] sevərdi."[1]

(Səhih əl-Buxari, 883); digər bir hədisdə İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ *saçlarını* darayıb yağladıqdan, izarını və ridasını geydikdən sonra səhabələri ilə birlikdə Mədinədən (Məkkəyə) yola düşdü" (Səhih əl-Buxari, 1545).

[1] Əmmamənin və ya araxçının altından qoyulan parça. Xirqəni başa yağ çəkildikdən sonra qoyurlar ki, baş geyimi yağa bulaşmasın.

[2] Bu cümlə "münkər"dir, yəni, səhih rəvayətlərə ziddir. Belə ki, Rəsulullahın ﷺ libası daim təmiz olmuş və səhabələrinə də libaslarını təmiz saxlamağı buyurmuşdur.

[3] Bu hədisi Bəğəvi "Şərh əs-Sunnə" (3164) və Beyhəqi "Şuəbul-İman" (6463) əsərində rəvayət etmişdir. Hədisin isnadı zəifdir. Belə ki, isnadında keçən Rəbi ibn Səbih – hafizəsi zəif olan səduq, Yezid ibn Əban ər-Rəqqaşi isə zəif və etibarsız ravidir (Daif əl-Cami, 4601).

[4] Buxarinin rəvayətində bu hədis daha geniş verilir. Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ ayaqqabılarını geyindikdə, saçını daradıqda, yuyunduqda və bütün işlərində sağdan başlamağı sevərdi. (Səhih əl-Buxari, 168). Burada "bütün işlərində" deyildikdə, ancaq

٣٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّار، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ، عَنْ هِشَامِ بْنِ حَسَّانَ، عَنِ الْحَسَنِ، عَنْ عَبْدِ اللهِ بْنِ مُغَفَّلٍ، قَالَ: ((نَهَى رَسُولُ اللهِ ﷺ عنِ التَّرَجُّلِ، إلا غِبًّا)).

(35) ..... Abdullah ibn Muğəffəl[2] ﷺ demişdir: "Rəsulullah ﷺ saçları vaxtbavaxt daramaq[3] istisna olmaqla, onları (dəqiqəbaşı) daramağı qadağan etmişdir."[4]

---

ehtirama layiq işlər nəzərdə tutulur. Bu xüsusda İbn Qeyyim demişdir: "Peyğəmbər ﷺ ayaqqabısını geydikdə, saçlarını daradıqda, dəstəmaz aldıqda, sağdan başlamağı, habelə yemək yedikdə, su içdikdə, bir şey aldıqda və ya verdikdə bunu sağ əli ilə yerinə yetirməyi sevərdi. Ayaqyolunda təmizləndiyi və s. (ehtiram edilməyən işləri gördüyü zaman) isə bunu sol əli ilə edər (və ya sol tərəfdən başlayardı)" (Zadul-Məad, 1/174).

[1] Bu hədisi Buxari (168, 5065), Muslim (268), Əbu Davud (4140), Tirmizi (608), Nəsai (112), İbn Macə (401) və Əhməd (6/94) rəvayət etmişdir.

[2] Əbu Səid Abdullah ibn Muğəffəl əl-Müzəni ﷺ Peyğəmbərin səhabəsidir. Mədinədə yaşamış, sonra Bəsrəyə köçmüşdür. Hicrətin 60-cı ilində vəfat etmişdir. (Siyər Əlam ən-Nubələ, 99-cu tərcümeyi-hal).

[3] Bu hədisdən belə nəticə çıxır ki, saçları vaxtaşırı daramaq sünnədir.

[4] Bu hədisi Əbu Davud (4159), Tirmizi (1756), Nəsai (5055) və Əhməd (4/86) rəvayət etmişdir. Hədis "səhih"dir (Silsilətul-Əhadisis-Səhihə, 501-ci hədis).

٣٦- حَدَّثَنَا الْحَسَنُ بْنُ عَرَفَةَ، قَالَ: حَدَّثَنَا عَبْدُ السَّلامِ بْنُ حَرْبٍ، عَنْ يَزِيدَ بْنِ أَبِي خَالِدٍ، عَنْ أَبِي الْعَلاءِ الأَوْدِيِّ، عَنْ حُمَيْدِ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ رَجُلٍ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَتَرَجَّلُ غِبًّا.

(36) ..... Peyğəmbərin ﷺ səhabələrindən biri rəvayət etmişdir ki, Peyğəmbər ﷺ saçlarını vaxtdan-vaxta darayardı.[1]

[1] Hədisin isnadında keçən Yezid ibn Əbu Xalid etibarsız ravidir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Hədisin isnadı zəif olsa da, mənası səhihdir.

٥- بَاب ما جاء في شَيْب رسول الله ﷺ

5-ci fəsil. Rəsulullahın ﷺ (saç-saqqalındakı) ağ tüklər[1] barədə varid olanlar

٣٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: أَخْبَرَنَا أَبُو دَاوُدَ، قَالَ: أَخْبَرَنَا هَمَّامٌ، عَنْ قَتَادَةَ، قَالَ: قُلْتُ لأَنَسِ بْنِ مَالِكٍ: هَلْ خَضَبَ رَسُولُ اللهِ ﷺ؟ قَالَ: ((لَمْ يَبْلُغْ ذَلِكَ، إِنَّمَا كَانَ شَيْبًا فِي صُدْغَيْهِ وَلَكِنْ أَبُو بَكْرٍ، خَضَبَ بِالْحِنَّاءِ وَالْكَتَمِ)).

(37) ..... Qətadə demişdir: "Mən Ənəs ibn Malikdən soruşdum: "Peyğəmbər ﷺ (saçlarını) boyayardımı?" Dedi: "*Xeyr,* boyamazdı. Onun gicgahlarında bir neçə ağ tük var idi. Lakin Əbu Bəkr isə saçlarını xına[2] və kətəm[3] ilə boyayardı.[4]"[5]

---

[1] Bu fəsil də əvvəlki fəslə – Peyğəmbərin ﷺ xilqətinə aiddir. Müəllif bu fəsildə Peyğəmbərin ﷺ saç-saqqalındakı ağ tüklərin harada və nə qədər sayda olduğunu bəyan edir.

[2] Saçı boyamaq üçün işlədilən, həmin bitkinin yarpaqlarından hazırlanan toz halında sarımtraq-qırmızıyaçalar maddə.

[3] Saçı boyamaq üçün işlədilən, həmin bitkinin yarpaqlarından hazırlanan toz halında qarayaçalar maddə.

[4] Muslimin "Səhih"indəki (2341) rəvayətdə isə deyilir: "Lakin Əbu Bəkr və Ömər isə saçlarını xına və kətəm ilə boyayardı." Burada Ənəs ibn Malik ﷺ Rəsulullahın ﷺ saçlarını boyamadığını xəbər verir. Bu məsələdə səhabələr arasında olan fikir ayrılığı barədə növbəti fəsildə xəbər verilir.

[5] Bu hədisi Muslim (2341) və Əbu Davud (4209) rəvayət etmişdir.

٣٨- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، وَيَحْيَى بْنُ مُوسَى، قَالا: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، عَنْ مَعْمَرٍ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ، قَالَ: ((مَا عَدَدْتُ فِي رَأْسِ رَسُولِ اللهِ ﷺ وَلِحْيَتِهِ، إِلا أَرْبَعَ عَشْرَةَ شَعَرَةً بَيْضَاءَ)).

(38) ..... Ənəs ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ saçında və saqqalında (cəmi) on dörd ağ tük[1] saymışdım."[2]

٣٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: أَخْبَرَنَا أَبُو دَاوُدَ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ سَمُرَةَ، وَقَدْ سُئِلَ عَنْ شَيْبِ رَسُولِ اللهِ ﷺ، فَقَالَ: ((كَانَ إِذَا دَهَنَ رَأْسَهُ لَمْ يُرَ مِنْهُ شَيْبٌ، وَإِذَا لَمْ يَدْهِنْ رُئِيَ مِنْه)).

(39) ..... Simak ibn Hərb demişdir: "Cabir ibn Səmurədən Rəsulullahın ﷺ (saçındakı) ağ tüklər barədə soruşduqda, o demişdir: "Rəsulullah ﷺ başına yağ sürtdükdə, başındakı ağ tüklər görünməz,[3] yağ sürtmədikdə isə, bir neçə ağ tük görünərdi."[4]

---

[1] Bu ağ tüklər üç yerdə: onun hər iki gicgahında, alt dodaq şırımında və bir də başında idi.

[2] Bu hədisi Buxari (3355) və Muslim (2347) rəvayət etmişdir.

[3] Rəsulullahın ﷺ başındakı ağ tüklər o qədər az idi ki, saçlarına yağ vurduqda bu ağ tüklər görünməzdi.

[4] Bu hədisi Muslim (2344), Nəsai (9405) və Əhməd (5/86) rəvayət etmişdir.

٤٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَمْرِو بْنِ الْوَلِيدِ الْكِنْدِيُّ الْكُوفِيُّ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ آدَمَ، عَنْ شَرِيكٍ، عَنْ عُبَيْدِ اللهِ ابْنِ عُمَرَ، عَنْ نَافِعٍ، عَنْ عَبْدِ اللهِ بْنِ عُمَرَ، قَالَ: ((إِنَّمَا كَانَ شَيْبُ رَسُولِ اللهِ ﷺ نَحْوًا مِنْ عِشْرِينَ شَعَرَةً بَيْضَاءَ)).

(40) ..... Abdullah ibn Ömər[1] رضي الله عنهما demişdir: "Peyğəmbərin ﷺ (saç-saqqalında) iyirmiyə yaxın ağ tük var idi."[2]

٤١- حَدَّثَنَا أَبُو كُرَيْبٍ مُحَمَّدُ بْنُ الْعَلاءِ، قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ بْنُ هِشَامٍ، عَنْ شَيْبَانَ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: قَالَ أَبُو بَكْرٍ: ((يَا رَسُولَ اللهِ، قَدْ شِبْتَ))، قَالَ: ((شَيَّبَتْنِي هُودٌ، وَالْوَاقِعَةُ، وَالْمُرْسَلاتُ، وَعَمَّ يَتَسَاءَلُونَ، وَإِذَا الشَّمْسُ كُوِّرَتْ)).

---

[1] Əbu Abdur-Rəhman Abdullah ibn Ömər ibn Xəttab əl-Ədəvi əl-Qurəşi رضي الله عنهما Rəsulullahın ﷺ azyaşlı səhabələrindəndir. Uşaq ikən İslamı qəbul etmiş, sonra da atası ilə birgə Mədinəyə hicrət etmişdir. Xəndək döyüşündə iştirak etmiş və ağac altında beyət edənlərdən olmuşdur. Ən çox hədis rəvayət edən yeddi səhabədən biridir. Rəsulullahdan ﷺ 2630 hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 45-ci tərcümeyi-hal). İbn Ömər رضي الله عنهما bacısı Həfsədən rəvayət etmişdir ki, Peyğəmbər ﷺ ona belə demişdir: "Həqiqətən, Abdullah əməlisaleh bir adamdır" (Səhih əl-Buxari, 3740-3741).

[2] Bu hədisi İbn Macə (3630) və Əhməd (2/90) rəvayət etmişdir. Hədisin isnadında keçən Şərik ibn Abdullah ən-Nəxəi çoxlu xətalara yol vermiş səduq ravidir. Lakin hədisin mətni "səhih"dir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

(41) ..... İbn Abbas رضي الله عنهما demişdir: "(Bir dəfə) Əbu Bəkr (Peyğəmbərə ﷺ): "Saçların ağarıb,[1] ya Rəsulullah!"– dedi. Peyğəmbər ﷺ də (ona): "Saçlarımı "Hud", "əl-Vaqiə", "əl-Mursəlat", "Ammə yətəsaəlun"[2] və "İzəş-şəmsu kuvvirat"[3] (surələri) ağartdı"[4]– deyə cavab verdi."[5]

---

[1] Yəni: "saçlarına dən düşüb".

[2] Yəni: "ən-Nəbə" surəsi.

[3] Yəni: "ət-Təkvir" surəsi.

[4] Burada Rəsulullah demək istəyir ki, saçlarımı dünya işləri, dünyadakı çətinliklər yox, məhz Qiyamət günü baş verəcək hadisələr ağartmışdır. Çünki bu surələr Qiyaməti xatırladır. Qiyamət günü barədə isə Uca Allah buyurur: **"Əgər küfr etsəniz, uşaqların saçlarının ağaracağı gündən necə yaxa qurtaracaqsınız?"** (əl-Muzzəmmil, 17). Rəsulullah ﷺ isə bu xüsusda belə buyurur: "Kim Qiyamət gününü əyani şəkildə görmək istəyirsə, qoy "İzəş-şəmsu kuvvirat" "İzəs-səmaun-fətərat" və "İzəs-səmaun-şəqqat" (yəni, "ət-Təkvir", "əl-İnfitar" və "əl-İnşiqaq" surələrini) oxusun" (Sunən ət-Tirmizi, 3653, Səhih əl-Cami, 6293). Bu hədis Qurani Kərimin müsəlmanın həyatı üçün nə dərəcədə faydalı olduğunu xatırladır. Belə ki, bu surələri oxumaqla adamın həyatı tamamilə xeyrə doğru dəyişir, Allaha olan təqvası artır. Bir çox insanların saçlarını isə dünyaya bağlılıq ağardır. Bu da, böyük qüsurdur. Bələləri barədə Rəsulullah ﷺ demişdir: "Dinarın qulu, dirhəmin qulu və zər-zibalı paltarın qulu bədbəxt olsun! (Beləsinə bir şey) verilsə, razı qalar, verilməsə, qəzəblənər. Beləsi bədbəxt olsun, azar canından çıxmasın və bədəninə batan tikanı çıxardacaq bir kimsə tapılmasın!" (Səhih əl-Buxari, 2887). Odur ki, qəlblərə şəfa verən Quranı oxumaq gərəkdir. Bir çox müfəssirlərin rəyinə görə Rəsulullaha ﷺ nazil olmuş son ayədə – "əl-Bəqərə" surəsinin, 281-ci ayəsində Uca Allah buyurur: **"Allahın hüzuruna qaytarılacağınız gündən qorxun! Sonra hər kəsə qazandığının əvəzi büsbütün veriləcək və onlara zülm olunmayacaqdır."**

[5] Bu hədisi Tirmizi (3293) və Hakim (2/476) rəvayət etmişdir. Hədis "səhih"dir. ("Silsilətul-Əhadisis-Səhihə", 955-ci hədis).

٤٢- حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ بِشْرٍ، عَنْ عَلِيِّ بْنِ صَالِحٍ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي جُحَيْفَةَ، قَالَ: ((قَالُوا: يَا رَسُولَ اللهِ، نَرَاكَ قَدْ شِبْتَ))، قَالَ: ((قَدْ شَيَّبَتْنِي هُودٌ وَأَخَوَاتُهَا)).

(42) ..... Əbu Cuheyfə[1] ﷺ demişdir: "Səhabələr (Peyğəmbərə ﷺ): "Görürük, saçların ağarıb, ya Rəsulullah!"– dedilər. Peyğəmbər ﷺ də (onlara): "Saçlarımı "Hud" və onun bənzərləri ağartdı"– deyə cavab verdi."[2]

٤٣- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: أَخْبَرَنَا شُعَيْبُ بْنُ صَفْوَانَ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ عُمَيْرٍ، عَنِ إِيَادِ بْنِ لَقِيطٍ الْعِجْلِيِّ، عَنْ أَبِي رِمْثَةَ التَّيْمِيِّ، تَيْمِ الرِّبَابِ، قَالَ: ((أَتَيْتُ النَّبِيَّ ﷺ، وَمَعِي ابْنٌ لِي، قَالَ: فَأُرِيتُهُ، فَقُلْتُ لَمَّا رَأَيْتُهُ: ((هَذَا نَبِيُّ اللهِ ﷺ وَعَلَيْهِ ثَوْبَانِ أَخْضَرَانِ، وَلَهُ شَعَرٌ قَدْ عَلاهُ الشَّيْبُ، وَشَيْبُهُ أَحْمَرُ)).

(43) ..... Əbu Rimsə ət-Teymi[3] ﷺ – teymur-ribab[4] – demişdir:[5] "(Bir dəfə) mən oğlumla birlikdə Peyğəmbərin

---

[1] Əbu Cuheyfə Vəhb ibn Abdullah əs-Suvai ﷺ Rəsulullahın ﷺ azyaşlı səhabələrindən, İbn Abbasın yaşıdlarındandır (Siyər Əlam ən-Nubələ, 44-cü tərccümeyi-hal).

[2] Bu hədisi Təbərani "Mocəm əl-Kəbir" əsərində (5672) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[3] Adı: Rifaə ibn Yəsribidir.

[4] Burada "teymur-ribab" deyildikdə, beş qəbilə: Dabbə, Sövr, Ukl, Teym və Adiy nəzərdə tutulur. Vaxtı ilə bu qəbilələr bir araya gəlib, özlərinin Rəbbinə sadiq qalacaqlarına dair beyət etmiş və bir bütöv qəbiləyə çevrilmişlər.

[5] Bu hədisi Əbu Davud (4206), Nəsai (5083), Tirmizi (2813) və Əhməd (2/226-227) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-

ﷺ yanına gəldik. Mən onu gördükdə (öz-özümə): "Bu, Allahın peyğəmbəridir ﷺ"– dedim. Əynində yaşıl rəngli iki libas[1] var idi. Saçlarında ağ tüklər var idi və bu tüklər qırmızıya çalırdı."

٤٤- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا سُرَيْجُ بْنُ النُّعْمَانِ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، قَالَ: قِيلَ لِجَابِرِ بْنِ سَمُرَةَ: أَكَانَ فِي رَأْسِ رَسُولِ اللهِ ﷺ شَيْبٌ؟ قَالَ: ((لَمْ يَكُنْ فِي رَأْسِ رَسُولِ اللهِ ﷺ شَيْبٌ إلا شَعَرَاتٌ فِي مَفْرِقِ رَأْسِهِ، إِذَا ادَّهَنَ وَارَاهُنَّ الدُّهْنُ)).

(44) ..... Simak ibn Hərb demişdir: "Cabir ibn Səmurədən: "Rəsulullahın ﷺ saçlarında ağ tük var idimi?"– deyə soruşdular. Dedi: "Rəsulullahın ﷺ başında (elə də çox) ağ tük yox idi. Yalnız tağındakı[2] bir neçə ağ tükdən başqa. (Başını) yağladıqda isə yağ o ağ tükləri gizlədər (sanki görünməz olardılar)."[3]

Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[1] Burada iki libas deyildikdə, izar və rida (fitə və büründcək) nəzərdə tutulur. Yaşıl libas barədə Quranda xəbər verilir ki: **"İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik. Məhz onlar üçün *ağacları* altından çaylar axan Ədn bağları hazırlanmışdır. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dirsəklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir!"** (əl-Kəhf, 30-31).

[2] Tağ – saçın iki yerə ayrılan yeri.

[3] Bu hədisi Əhməd (5/95) və Hakim (4202) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

٦- بَاب ما جاء في خِضاب رسول الله ﷺ

6-cı fəsil. Rəsulullahın ﷺ (saçlarını) boyaması[1] barədə varid olanlar

٤٥- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا هُشَيْمٌ، قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ عُمَيْرٍ، عَنِ إِيَادِ بْنِ لَقِيطٍ، قَالَ: أَخْبَرَنِي أَبُو رِمْثَةَ، قَالَ: أَتَيْتُ رَسُولَ اللَّهِ ﷺ مَعَ ابْنٍ لِي، فَقَالَ: ((ابْنُكَ هَذَا؟)) فَقُلْتُ: ((نَعَمْ، أَشْهَدُ بِهِ))، قَالَ: ((لاَ يَجْنِي عَلَيْكَ، وَلا تَجْنِي عَلَيْهِ))، قَالَ: وَرَأَيْتُ الشَّيْبَ أَحْمَرَ.

قَالَ أَبُو عِيسَى: هَذَا أَحْسَنُ شَيْءٍ رُوِيَ فِي هَذَا الْبَابِ، وَأَفْسَرُ لأَنَّ الرُّوَايَاتِ الصَّحِيحَةَ أَنَّ النَّبِيَّ ﷺ لَمْ يَبْلُغِ الشَّيْبَ، وَأَبُو رِمْثَةَ اسْمُهُ: رِفَاعَةُ بْنُ يَثْرِبِيٍّ التَّيْمِيُّ.

(45) ..... Əbu Rimsə ﷺ demişdir: "(Bir dəfə) mən oğlumla birgə Rəsulullahın ﷺ yanına gəldim. O: "Bu, sənin

[1] Səhabələr bu məsələdə ixtilaf etmişlər. Bəziləri Rəsulullahın ﷺ saçlarını boyadığını, bəziləri boyamadığını, bəziləri də onun saçlarına yağ sürtdüyündən, onların boyanmış kimi göründüyünü söyləmişlər. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Rəsulullah ﷺ saçları xalis qara rənglə boyamağı qadağan etmişdir. Bu həm kişilərə, həm də qadınlara aiddir. Rəsulullah ﷺ demişdir: "Axır zamanda, saçlarını göyərçin sinəsi kimi qara rəngə boyayan adamlar meydana gələcək. Onlar Cənnətin iyini (belə) duymayacaqlar" (Sunən Əbu Davud, 4212; Sunən ən-Nəsai, 4988; Səhih əl-Cami, 8153; Səhih ət-Tərğib vət-Tərhib, 2097).

oğlundurmu?"– deyə soruşdu. Dedim: "Bəli (oğlumdur) və mən buna şahidlik edirəm.[1]" Rəsulullah ﷺ buyurdu: "Nə sən onun etdiyi cinayətə görə cavabdehsən, nə də o, sənin etdiyin cinayətə görə."[2]

---

[1] Yəni, mənim oğlum olduğunu təsdiq edirəm.

[2] Bu xüsusda Uca Allah buyurur: **"Heç bir günahkar başqasının günah yükünü daşımaz. Yükü ağır olan kimsə öz yükünü daşımaq üçün *başqasını köməyə* çağırsa və çağırdığı kimsə yaxın qohumu olsa belə, o yükdən heç nə daşınmaz. Sən ancaq Rəbbindən *Onu* görmədikləri halda qorxanları və namaz qılanları xəbərdar edirsən. Kim *günahlardan* təmizlənirsə, öz xeyrinə təmizlənmiş olur. Qayıdış də ancaq Allahadır"** (Fatir, 18). Cahiliyyə dövründə ərəblər arasında bir adam başqa birisini öldürdükdə, ölənin yaxınları gəlib onun qardaşını və ya oğlunu, ya da atasını öldürərdilər. Nəhayət, İslam dini gəldikdən sonra bu batil əqidəyə son qoyuldu və insanlar arasında əmin-amanlıq olsun deyə, qisas hökmü vacib edildi. Bu xüsusda Uca Allah buyurur: **"Qisasda sizin üçün həyat (əmin-amanlıq) vardır, ey ağıl sahibləri! Bəlkə *Allahdan* qorxasınız"** (əl-Bəqərə, 179). Bu hədisdən aydın olur ki, övladı xeyirli məclislərə, xüsusən də, elm məclisinə aparmağın böyük faydası vardır. Bu əhval-ruhiyyədə böyüyən uşağın həm özü uğur qazanar, həm də valideynlərinin savabını artırar. Valideynlərinin savab qazanmasına gəlincə, bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: "İnsan öldükdən sonra onun bütün əməlləri kəsilir. Yalnız üç şeydən başqa: davamlı sədəqə, yaxud fayda verən elm, yaxud da onun üçün dua edən əməlisaleh övlad" (Ədəbul-Mufrəd, 38). Gəncliyini Allah yolunda sərf edən kimsəni isə, Rəsulullah ﷺ belə müjdələmişdir: "Yeddi qisim insan vardır ki, Allah onları Öz kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə Öz kölgəsi altında kölgələndirəcəkdir: (bunlar) ədalətli rəhbər, Rəbbinə ibadət etməklə böyüyüb boya-başa çatmış gənc, qəlbi məscidlərə bağlı olan kişi, bir-birini Allah xatirinə sevən, Onun yolunda birləşib, Onun yolunda ayrılan iki nəfər, gözəl və zadəgan bir qadın tərəfindən zinaya

çağırıldıqda: "mən Allahdan qorxuram!"– deyən kişi, sağ əli ilə verdiyi sədəqəni sol əlindən gizlədən adam və xəlvətə çəkilib Allahı yad etdikdən sonra gözləri yaşla dolan kimsə" (Səhih əl-Buxari, 660). Elm məclisində iştirak etməyin nə dərəcədə faydalı olduğuna dair ikicə hədis qeyd etmək kifayət edər: Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Cənnət bağlarının yanından keçdiyiniz zaman oradan zövq alın." Səhabələr: "Cənnət bağları haradadır?"– deyə soruşdular. Rəsulullah ﷺ: "(Allah) zikr (olunan) məclislərdir"– deyə buyurdu" (Sunən ət-Tirmizi, 3852; Silsilətul-Əhadisis-Səhihə, 2562); digər hədisdə demişdir: "Allahın, yollarda dolaşıb (Allahı) yad edən insanları axtaran, mələkləri vardır. Onlar Allahı yad edən bir camaat gördükləri zaman bir-birilərini çağırıb: "Axtardığınızın yanına gəlin!"– deyirlər. Sonra onlar bu camaatı öz qanadları ilə dünya səmasınadək əhatəyə alırlar. Elə həmin vaxt Rəbbi mələklərdən – (hər şeyi) onlardan daha yaxşı bildiyi halda – soruşur: "Qullarım nə deyirlər?" (Mələklər): "Onlar Sənin şəninə təriflər deyir, Səni uca tutur, Səni həmd-səna ilə təqdis edir və Səni həddən artıq tərifləyirlər"– deyə cavab verirlər. (Allah) soruşur: "Məgər onlar Məni görüblərmi?" (Mələklər): "Xeyr, vallahi ki, onlar Səni görməyiblər"– deyirlər. (Allah) soruşur: "Bəs Məni görsəydilər, necə (olardı)?" (Mələklər) deyirlər: "Əgər onlar Səni görsəydilər, Sənə bundan da çox ibadət edər, Səni tərifləyər, Səni həmd-səna ilə təqdis edər və Sənin şənini uca tutardılar." (Allah) soruşur: "Onlar Məndən nə istəyirlər?" (Mələklər) deyirlər: "Onlar Səndən Cənnəti istəyirlər." (Allah) soruşur: "Məgər onlar Cənnəti görüblərmi?" (Mələklər) deyirlər: "Xeyr, ya Rəbb, vallahi ki, onlar Cənnəti görməyiblər." (Allah) soruşur: "Bəs onu görsəydilər, necə (olardı)?" (Mələklər) deyirlər: "Əgər onu görsəydilər, daha əzmlə ona can atar, daha inadla onu diləyər və daha çox rəğbətlə onu arzulayardılar." (Allah) soruşur: "Onlar nədən (Mənə) sığınırlar?" (Mələklər): "Cəhənnəm odundan"– deyirlər. (Allah) soruşur: "Məgər onlar Cəhənnəmi görüblərmi?" (Mələklər) deyirlər: "Xeyr, ya Rəbb, vallahi ki, onlar Cəhənnəmi görməyiblər." (Allah) soruşur: "Bəs onu görsəydilər, necə (olardı)?" (Mələklər) deyirlər: "Əgər onu görsəydilər, ondan daha uzağa qaçmağa çalışar və

Əbu Rimsə ﷺ dedi: "Mən onun başındakı ağ tüklərin qırmızıya çaldığını gördüm."

Əbu İsa (ət-Tirmizi) demişdir: "Bu *hədis* bu fəsilə dair rəvayət edilmiş hədislərin ən yaxşısı və ən anlaşılanıdır. Çünki "səhih" rəvayətlər Peyğəmbərin ﷺ saç-saqqalının tam ağarmadığını xəbər verir.[1] Əbu Rimsənin adı isə Rifaə ibn Yəsribi ət-Temidir."[2]

---

ondan daha çox çəkinərdilər." (Allah) buyurur: "Şahid olun ki, Mən onları bağışladım!" Bu vaxt mələklərdən biri deyir: "Bu camaatın arasında olan filankəs onlarla (yoldaşlıq edən kimsələrdən) deyildir, sadəcə olaraq, öz ehtiyacı üzündən ora gəlmişdir." (Onda Allah) buyurur: "Bunlar elə insanlardır ki, onlarla oturub-duran adam bədbəxt olmaz" (Səhih əl-Buxari, 6408).

[1] İmam Tirmizi sanki demək istəmişdir ki, Peyğəmbərin ﷺ saç-saqqalında tək-tək ağ tüklər olmuş və o, bunları boyamağa lüzum görməmişdir. İbn Həcər bu xüsusda varid olan bəzi hədisləri qeyd etdikdən sonra demişdir: "Bu məsələyə dair varid olmuş hədisləri cəm edib demək olar ki: Ənəs ﷺ Rəsulullahın ﷺ saçlarındakı ağ tüklərin sayı az olduğundan, onların boyanmasına lüzum olmadığını və ümumiyyətlə, bu ağ tüklərin boyanmış olduğunu görmədiyini söyləmişdir. Digər rəvayətlərdə Rəsulullahın ﷺ saçlarını boyamasına gəlincə, o, bunu sadəcə olaraq saçları boyanmağın caiz olduğunu göstərmək üçün etmiş və bunu adət halına salmamışdır" (Fəthul-Bari, 6/572).

[2] Bu hədisi Əbu Davud (4208; 4495), Nəsai (4832) və Əhməd (2/226; 227; 228) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu bildirmişdir.

٤٦- حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ شَرِيكٍ، عَنْ عُثْمَانَ بْنِ مَوْهَبٍ، قَالَ: سُئِلَ أَبُو هُرَيْرَةَ: ((هَلْ خَضَبَ رَسُولُ اللهِ ﷺ؟)) قَالَ: ((نَعَمْ)).

قَالَ أَبُو عِيسَى: وَرَوَى أَبُو عَوَانَةَ هَذَا الْحَدِيثَ عَنْ عُثْمَانَ بْنِ عَبْدِ اللهِ بْنِ مَوْهَبٍ، فَقَالَ: عَنْ أُمِّ سَلَمَةَ.

(46) ..... Osman ibn Movhəb demişdir: "Əbu Hureyrədən: "Rəsulullah ﷺ saçlarını boyayardımı?"– deyə soruşdular. O: "Bəli!"– deyə cavab verdi."

Əbu İsa (Tirmizi) demişdir: "Əbu Əvanə bu hədisi, Osman ibn Abdullah ibn Movhəbdən rəvayət etmiş və demişdir: "(Bu hədisi) Ummu Sələmə رضي الله عنها rəvayət etmişdir."[1]

---

[1] İsnadında keçən Şərik ibn Abdullah ən-Nəxəi "çoxlu xətalara yol vermiş səduq" ravidir və bu rəvayətdə daha etibarlı ravilər ona müxalif olmuş, bu hədisin Ummu Sələmədən رضي الله عنها rəvayət edildiyini söyləmişlər. Elə buna görə də, imam Tirmizi bu hədisi nəql etdikdən sonra demişdir: "Əbu Əvanə bu hədisi Osman ibn Abdullah ibn Movhəbdən rəvayət etmiş və demişdir: "(Bu hədisi) Ummu Sələmə rəvayət etmişdir." Və ola bilsin ki, Tirmizi bu isnadı qeyd etməklə, hədisin Əbu Hureyrədən رضي الله عنه rəvayət edildiyinin zəif olduğunu bildirmək istəmişdir. Sələm ibn Əbu Mutiy rəvayət etmişdir ki, Osman ibn Abdullah ibn Movhəb demişdir: "(Bir dəfə) mən Ummu Sələmənin رضي الله عنها yanına gəldim və o bizə Peyğəmbərin ﷺ boyanmış saçlarından birini göstərdi" (Səhih əl-Buxari, 5897). Başqa bir hədisdə İsrail ibn Yunus rəvayət etmişdir ki, Osman ibn Abdullah ibn Movhəb demişdir: "Ailəm mənə bir qədəh su verib Ummu Sələmənin yanına göndərdi. Ummu Sələmə içində Peyğəmbərin ﷺ tükü olan gümüş

٤٧- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ هَارُونَ، قَالَ: أَخْبَرَنَ النَّضْرُ بْنُ زُرَارَةَ، عَنْ أَبِي جَنَابٍ، عَنْ إِيَادِ بْنِ لَقِيطٍ، عَنِ الْجَهْدَمَةِ، امْرَأَةِ بِشْرِ ابْنِ الْخَصَاصِيَّةِ، قَالَتْ: ((أَنَا رَأَيْتُ رَسُولَ اللهِ ﷺ يَخْرُجُ مِنْ بَيْتِهِ يَنْفُضُ رَأْسَهُ وَقَدِ اغْتَسَلَ، وَبِرَأْسِهِ رَدْغٌ مِنْ حِنَّاءٍ أَوْ قَالَ: رَدْغٌ)) شَكَّ فِي هَذَا الشَّيْخُ.

(47) ..... Bişr ibn Xəsasiyyənin zövcəsi Cəhdəmə[1] رضي الله عنها demişdir: "Rəsulullah ﷺ qüsl etdikdən sonra əlləri ilə saçlarını ovxalaya-ovxalaya evindən çıxarkən mən onu gördüm. Başında bir lopa xına (yaxud zəfəran) var idi."

Bu, (Tirmizinin) şeyxi (İbrahim ibn Harunun) şəkkidir.[2]

---

zınqırov gətirdi. O vaxtlar bir adama göz dəydikdə və ya başqa bir xəstəlik üz verdikdə Ummu Sələmənin yanına bir qab su göndərər, (o da Peyğəmbərin ﷺ tükünü həmin qabın içinə salıb bir qədər qarışdırar, sonra qabı yiyəsinə qaytarar və nəhayət, xəstə adam o sudan içər, yaxud o su ilə yuyunar və Allahın izni ilə şəfa tapardı). Mən o zınqırovun içinə baxdım və orada qırmızı rəngdə tüklər gördüm" (Səhih əl-Buxari, 5898). Əbu Bəkr əl-İsmaili demişdir: "Bu hədis heç də Peyğəmbərin ﷺ saçlarını boyadığına dəlalət etmir. Ehtimal edilir ki, sonradan bu saçın rəngi dəyişmiş olsun və ya ətirin içinə qoyulduğundan qırmızıya çalırmış" (Şoəbul-İman, 5983).

[1] Cəhdəmə رضي الله عنها Peyğəmbərin ﷺ səhabəsidir. Deyilənə görə, əvvəl bu qadının adı Cəhdəmə olmuş, sonra Rəsulullah ﷺ onun adını dəyişdirib ona Leyla adını vermişdir (Təhzib ət-Təhzib, 8909-cu tərcümeyi-hal).

[2] Bu hədisin isnadında keçən Nədr ibn Zurarə "məstur" ravidir. Yəni, o ravi ki, ondan iki və daha artıq şəxs hədis rəvayət etmiş, lakin onun etibarlı olub-olmadığı bəlli olmamışdır. Bu isnadda keçən digər ravi – Əbu Cənab Yəhya ibn Əbu Heyyə zəif ravidir.

٤٨- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ عَاصِمٍ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، قَالَ: حَدَّثَنَا حُمَيْدٌ، عَنْ أَنَسٍ، قَالَ: ((رَأَيْتُ شَعَرَ رَسُولِ اللهِ ﷺ مَخْضُوبًا)).

قَالَ حَمَّادٌ، وَأَخْبَرَنَا عَبْدُ اللَّهِ بْنُ مُحَمَّدِ بْنِ عَقِيلٍ، قَالَ: ((رَأَيْتُ شَعْرَ رَسُولِ اللَّهِ ﷺ عِنْدَ أَنَسِ بْنِ مَالِكٍ مَخْضُوبًا)).

(48) ..... Ənəs ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ saçlarının boyanmış olduğunu görmüşəm."[1]

Həmmad demişdir: "Abdullah ibn Muhəmməd ibn Əqil bizə belə rəvayət etmişdir: "Mən Ənəs ibn Malikdə Rəsulullahın ﷺ boyanmış saçını görmüşəm."[2]

[1] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu cümlənin "səhih" olduğunu demişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu cümlənin "həsən" olduğunu demişdir.

٧- بَاب ما جاء في كُحْل رسول الله ﷺ

7-ci fəsil. Rəsulullahın ﷺ (gözlərinə) sürmə çəkməsi[1] barədə varid olanlar

[1] Sürmə: qara-qırmızıyaçalar daş növüdür. Bu daşların bir qismi daha çox qaraya, bir qismi isə qırmızıya çalır. Sürmə çəkmək deyildikdə isə, şəfa tapmaq və ya gözəl görünmək məqsədilə həmin daşın tozunu milçə ilə kirpiklərin dibinə sürtmək nəzərdə tutulur. İmam Tirmizi bu fəsildə varid etidiyi hədislərlə Peyğəmbərin ﷺ nə qədər və nə vaxt gözlərinə sürmə çəkdiyini, habelə ümmətini də buna rəğbətləndirdiyini, üstəlik sürmənin gözə nə dərəcədə faydalı olduğunu xəbər verir. Peyğəmbər ﷺ yatmazdan əvvəl hər gözünə üç kərə sürmə çəkər və ümumiyyətlə, bunu tək sayda etməyi məsləhət görərdi. Əbu Hureyrə ؓ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizdən biriniz (gözlərinə) sürmə çəkdiyi zaman bunu tək sayda etsin" (Musnəd imam Əhməd, 2/351; Silsilətul-Əhadisis-Səhihə, 1260). Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah Vitrdir (yəni, Təkdir) və tək sayı sevir" (Səhih əl-Buxari, 5931). İslam alimləri sünnəyə uyğun gözə sürmə çəkməyin iki yolu olduğunu söyləmişlər: birincisi, əvvəlcə sağ gözə üç kərə, sonra da sol gözə üç kərə sürmə çəkmək; bu da, üç dəfə-üç dəfə yuyulan dəstəmaz əzalarına bənzəyir; ikincisi isə sağ gözdən başlayıb elə sağ gözdə də qurtarmaqla və bir-bir növbə ilə çəkməklə sağa üç, sola isə iki kərə sürmə çəkmək. Beləliklə də, hər iki gözə cəmi beş kərə, yəni, iki gözə birlikdə tək sayda sürmə çəkmiş oluruq (Tohfətul-Əhvəzi, 4/455). Birincisinə, bu fəsildə zəif isnadla rəvayət edilmiş hədislər dəlalət edir. İkincisini isə İbn Səd "Təbəqat" (1/484) əsərində rəvayət etmiş və Muhəmməd Nasiрəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" (633) əsərində "səhih" olduğunu söyləmişdir. Həmin hədisdə Ənəs ibn Malik ؓ xəbər vermişdir ki: "Peyğəmbər ﷺ sağ gözünə üç kərə, sol gözünə isə iki kərə sürmə çəkərdi." Gözə sürmə çəkməyin nə dərəcədə faydalı olduğu barədə

٤٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ حُمَيْدٍ الرَّازِيُّ: قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ الطَّيَالِسِيُّ، عَنْ عَبَّادِ بْنِ مَنْصُورٍ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ النَّبِيَّ ﷺ، قَالَ: ((اكْتَحِلُوا بِالإِثْمِدِ، فَإِنَّهُ يَجْلُو الْبَصَرَ، وَيُنْبِتُ الشَّعْرَ)) وَزَعَمَ أَنَّ النَّبِيَّ ﷺ، كَانَتْ لَهُ مُكْحُلَةٌ يَكْتَحِلُ مِنْهَا كُلَّ لَيْلَةٍ، ثَلاثَةً فِي هَذِهِ، وَثَلاثَةً فِي هَذِهِ.

(49) ..... İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "(Gözünüzə) ismid[1] çəkin![2] Çünki o, gözə parlaqlıq verir[3] və kirpikləri bitirir.[4]"

---

isə İbn Qeyyim demişdir: "Sürmə çəkmək, gözün sağlamlığını qoruyur, onun nurunu artırır, onu zərərli şeylərdən hifz edir, gözdəki çirki təmizləyir, üstəlik gözlərə gözəl görünüş verir" (Zadul-Məad fi Hədyi Xeyril İbad, 4/257).

[1] Sürmə növüdür.

[2] Yəni, vaxtdan-vaxta gözünüzə sürmə çəkin. Əli ibn Muhəmməd əl-Hərəvi demişdir: "Burada Peyğəmbərin ﷺ "ismid çəkin" sözü əmr kimi başa düşülmür. Belə ki, alimlərin əksəriyyətinin rəyinə görə, gözə sürmə çəkmək vacib yox, müstəhəb sayılır. Peyğəmbərin ﷺ gözlərinə ismid çəkməsi, səhabələrini də buna rəğbətləndirməsi, bu əməlin sünnə olduğundan xəbər verir" (Cəmul-Vəsail fi Şərhiş-Şəmail).

[3] Yəni, görmə qabiliyyətini yaxşılaşdırır, gözün nurunu artırır, çirkdən təmizləyir və ziyan verən şeylərdən qoruyur. Əli ibn Əbu Talib رضي الله عنه rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "(Gözünüzə) ismid çəkin! Çünki o, kirpikləri bitirir, çirki təmizləyir və gözləri saflaşdırır" (Buxarinin "Tarix" əsəri, 4/2/412; Silsilətul-Əhadisis-Səhihə, 665).

[4] Yəni, kirpiklərin dibini möhkəmləndirir və onları uzadır.

İbn Abbas demişdir ki, Peyğəmbərin ﷺ sürmədanı var idi və o, hər gecə ondan üç kərə bu gözünə, üç kərə də bu (biri) gözünə sürmə çəkərdi.[1]

---

[1] Bu hədisi Tirmizi (1757), İbn Macə (3499) və Əhməd (1/354) rəvayət etmişdir. İsnadında keçən Abbad ibn Mənsur "mudəllis" ravidir. İsnadda olan "tədlis" isə, ravinin başqa bir ravidən eşitmədiyi rəvayəti elə bir formada rəvayət etməsidir ki, həm eşitməsi, həm də eşitməməsi ehtimal edilir. Yəni, "mudəllis" ravi ərəbcə (عَنْ) – "filankəsdən" deməklə, isnadda keçən bir və ya bir neçə zəif ravinin adını gizlədir ki, isnadın tərkibi yalnız etibarlı ravilərdən ibarət olsun və hədis "səhih" hesab edilsin. ("Ulum əl-Hədis", səh. 167; "Nukət", 2/261; "Fəth əl-Muğis", 1/190; "Dəvabitu əl-Cərh vət-Tədil", səh. 120-121). Bu isnadda da Abbad ibn Mənsur hədisi İkrimədən "ananə" ilə rəvayət etmiş və aradakı iki ravinin adını vurğulamamışdır. İbn Kəsir "Siraən-Nəbəviyyə" əsərində (4/712) bu hədisin isnadını belə rəvayət etmişdir: Əli ibnul-Mədini rəvayət edir ki, mən Yəhya ibn Səidin belə dediyini eşitmişəm: "Mən Abbad ibn Mənsurdan: "Sən bu hədisi İkrimədən eşitmisənmi?"– deyə soruşdum. Dedi: "Bu hədisi mənə İbn Əbu Yəhya, Davud ibn Husayndan, o da, İkrimədən rəvayət etmişdir." Bu isnadda keçən İbrahim ibn Muhəmməd ibn Əbu Yəhya əl-Əsləmi "mətruk" (tərk olunmuş) ravi sayılır. Davud ibn Husayn barədə isə Əli ibnul-Mədini demişdir: "İkrimədən rəvayət etdiyi hədisləri "münkər"dir (yəni, inkar edilir)" (Təhzib ət-Təhzib, 284-cü və 345-ci tərcümeyi-hal; Silsilətul-Əhadisis-Səhihə, 2/132). Lakin qeyd etmək lazımdır ki, bu hədisin mətni tam olaraq zəif deyildir. Belə ki, Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin əvvəlinin "səhih", axırının – yəni: "İbn Abbas demişdir ki, Peyğəmbərin ﷺ sürmədanı var idi..." cümləsinin isə – "zəif" olduğunu demişdir. Hədisin əvvəlinin səhih olması isə bu fəsildə varid olmuş digər hədislərdə öz təsdiqini tapmışdır.

٥٠- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ الصَّبَّاحِ الْهَاشِمِيُّ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللهِ بْنُ مُوسَى، قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ عَبَّادِ بْنِ مَنْصُورٍ، ح: قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا يَزِيدُ بْنُ هَارُونَ، قَالَ: حَدَّثَنَا عَبَّادُ بْنُ مَنْصُورٍ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّهُ قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ يَكْتَحِلُ قَبْلَ أَنْ يَنَامَ بِالإِثْمِدِ، ثَلاثًا فِي كُلِّ عَيْنٍ))، وَقَالَ يَزِيدُ بْنُ هَارُونَ، فِي حَدِيثِهِ: ((إِنَّ النَّبِيَّ ﷺ، كَانَتْ لَهُ مُكْحُلَةٌ يَكْتَحِلُ مِنْهَا عِنْدَ النَّوْمِ، ثَلاثًا فِي كُلِّ عَيْنٍ)).

(50) ..... İbn Abbas رضي الله عنهما demişdir: “Rəsulullah ﷺ yatmazdan əvvəl hər gözünə üç kərə ismid çəkərdi.”

Yezid ibn Harun demişdir: “Peyğəmbərin ﷺ sürmədanı var idi və o, yatmazdan əvvəl ondan hər gözünə üç kərə sürmə çəkərdi”[1]

٥١- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ يَزِيدَ، عَنْ مُحَمَّدِ بْنِ إِسْحَاقَ، عَنْ مُحَمَّدِ بْنِ الْمُنْكَدِرِ، عَنْ جَابِرٍ هُوَ ابْنُ عَبْدِ اللهِ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((عَلَيْكُمْ بِالإِثْمِدِ عِنْدَ النَّوْمِ، فَإِنَّهُ يَجْلُو الْبَصَرَ، وَيُنْبِتُ الشَّعْرَ)).

(51) ..... Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Yatmazdan qabaq (gözünüzə) ismid çəkin. Çünki o, gözə parlaqlıq verir və kirpikləri bitirir.”[2]

---

[1] Bu hədisi Abbad ibn Mənsur İkrimədən rəvayət etmişdir. Bu hədisin isnadı da əvvəlki isnad kimi “zəif”dir.

[2] Bu hədisi Bəğəvi "Şərhis-Sünnə" əsərində (3202) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun “səhih” olduğunu demişdir. Bu hədis 49-cu hədisin ilk cümləsinin “səhih” olduğuna dəlalət edir.

٥٢- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْمُفَضَّلِ، عَنْ عَبْدِ اللهِ بْنِ عُثْمَانَ بْنِ خُثَيْمٍ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((إِنَّ خَيْرَ أَكْحَالِكُمُ الإِثْمِدُ، يَجْلُو الْبَصَرَ، وَيُنْبِتُ الشَّعْرَ)).

(52) ..... İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Sürmələrinizin ən xeyirlisi ismiddir.[1] O, gözə parlaqlıq verir və kirpikləri bitirir."[2]

٥٣- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُسْتَمِرِّ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنْ عُثْمَانَ بْنِ عَبْدِ الْمَلِكِ، عَنْ سَالِمٍ، عَنِ ابْنِ عُمَرَ أَنَّهُ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((عَلَيْكُمْ بِالإِثْمِدِ، فَإِنَّهُ يَجْلُو الْبَصَرَ، وَيُنْبِتُ الشَّعْرَ)).

(53) ..... İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "(Gözünüzə) ismid çəkin. Çünki o, gözə parlaqlıq verir və kirpikləri bitirir."[3]

---

[1] Bu, o deməkdir ki, gözə çəkiləsi şeylər çoxdur, lakin bunların ən faydalısı ismiddir.

[2] Bu hədisi Əbu Davud (3878), Nəsai (5113), İbn Macə (3497), Əhməd (1/231) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində onun səhih olduğunu demişdir. İmam Əhməd "Musnəd" əsərində (1/274) bu hədisi daha geniş rəvayət etmişdir. İbn Abbas رضي الله عنهما rəvayət etmişdir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Sürmələrinizin ən xeyirlisi yatmazdan əvvəl (çəkdiyiniz) ismiddir. O, kirpikləri bitirir və gözə parlaqlıq verir..." Şueyb əl-Arnavut bu hədisin isnadının səhih olduğunu bildirmişdir.

[3] Bu hədisi İbn Macə (3495) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində onun səhih olduğunu demişdir. Tirmizinin eyni mətnli bu hədisləri rəvayət etməkdə məqsədi, bu hədislərin hər bir ilə digərini qüvvətləndirmək olmuşdur.

٨– بَاب ما جاء في لِباس رسول الله ﷺ

8-ci fəsil. Rəsulullahın ﷺ libası[1] barədə varid olanlar

[1] İmam Əbu İsa ət-Tirmizi bu fəsildə Peyğəmbərin ﷺ libasının nə cür olduğunu, onun növlərini, hansı libası və nə rəngdə olan geyimi sevdiyini xəbər verən hədisləri varid etmişdir. Libasa gəlincə, qeyd etmək lazımdır ki, bunun da hökmü saç düzümünün hökmü kimidir. Yəni, adam istədiyi paltarı geyinə bilər. Demək, libasın əsli halaldır. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: "İsrafa yol vermədən (həddi aşmadan) və təkəbbürlük göstərmədən yeyin, için, sədəqə verin və (istədiyiniz geyimi) geyinin" (Sunən İbn Macə, 23; Səhih əl-Cami, 8634; hədis "həsən"dir). Hər bir məmləkətin özünəməxsus, adət-ənənəsinə uyğun geyimi vardır ki, o yerlərdə yaşayanlara oradakılar kimi geyinmək daha məqsədəuyğundur. Onu da qeyd edək ki, yad bir ölkənin geyimini geyib: "bu sünnədir"– demək, İslam şəriətinə müvafiq rəy deyildir. Yalnız İslam şəriətinin qadağan etdiyi geyimlərdən başqa. Bunlara da aşağıdakıları misal göstərmək olar:

– Libasının ətəyini topuqdan aşağı uzatmaq; Əbu Zərr ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Üç qisim insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Üstəlik, onları üzücü bir əzab gözləyir." Əbu Zərr dedi: "Peyğəmbər ﷺ (buna dəlalət edən) ayəni ("Ali-İmran" surəsinin 77-ci ayəsini) üç dəfə oxudu. Mən dedim: "Onların ümidləri boşa çıxdı, özləri də ziyana uğradılar. Kimlərdir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: "*Libasının* ətəyini topuqdan aşağı uzadan, verdiyini başa qaxan və yalandan and içməklə malını satan *kimsələrdir*" (Səhih Muslim, 293); başqa bir hədisdə isə o demişdir: "Paltarın topuqdan aşağı düşən hissəsinə *görə bu topuqlar* Cəhənnəm odunda yanacaqdır" (Səhih əl-Buxari, 5787).

– İpək, zərxara, ipək qatışığı olan libas və atlas parça; Bəra ibn Azib ﷺ demişdir: "Peyğəmbər ﷺ bizə yeddi şeyi əmr etdi və yeddi

şeyi qadağan etdi. O, bizə cənazənin ardınca getməyi, xəstəni ziyarət etməyi, *məclisə* dəvət edənin dəvətini qəbul etməyi, məzluma yardım etməyi, andı yerinə yetirməyi, verilən salamı almağı və asqırıb ("Əlhəmdulilləh"– deyən) adama rəhmət diləməyi ("Yərhəmukəllah"– deməyi) əmr etdi. Və bizə gümüş qabda (yemək-içməyi), qızıl üzük, ipək, zərxara, ipək qatışığı olan libas və atlas parça *geyməyi* qadağan etdi" (Səhih əl-Buxari, 1239); Hədisdə olan qadağalardan yalnız altısı sadalanmışdır. Lakin imam Buxarinin "Libas" kitabında rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ ipəkdən olan yəhəri də onlara qadağan etmişdir. Qeyd etmək lazımdır ki, hədisdə qadağan olunmuş yeddi şey bu ümmətin kişilərinə aiddir. Qızıl və gümüş qablardan istifadə etmək isə həm kişilərə, həm də qadınlara aiddir. Yeri gəlmişkən qeyd edək ki, ipək geyməyi halal saymaq Qiyamətin əlamətlərindəndir. Əbu Amir əl-Əşari رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Ümmətimdən elə adamlar meydana çıxacaq ki, onlar zina etməyi, *kişilərə* ipək *geyməyi*, şərab içməyi və musiqi alətlərindən istifadə etməyi halal sayacaqlar. Bəziləri də dağa yaxın *yerlərdə* yaşayacaqlar. *Çobanlar* bu adamların sürülərini sürüb onların yanına gətirəcək, sonra fağır-füqəra gəlib onlardan yardım istəyəcək və onlar: "Sabah gələrsən"– deyəcəklər. Gecə ikən Allah dağı onlardan bəzilərinin başına uçurdacaq, bəzilərini də meymunlara və donuzlara döndərəcək və onlar Qiyamət gününə qədər bu görkəmdə qalacaqlar" (Səhih əl-Buxari, 5590).

– Kişilərə qadın paltarı, qadınlara da kişi paltarı və bir də kafirlərə məxsus olan geyimi geymək. 31-ci hədisin izahına bax.

– Həcc və ya ümrə niyyətini edib ihrama girdikdən sonra izar və ridadan başqa bir şey: alt paltarı, şalvar, corab və s. geymək.

– Övrət yerini bildirən dar şalvar geymək. Qadınlara isə, ümumiyyətlə, ancaq şalvar geyib naməhrəm qarşısına çıxması haramdır.

– Ölmüş heyvanın aşılanmamış dərisindən tikilmiş libas geymək.

٥٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ حُمَيْدٍ الرَّازِيُّ، قَالَ: حَدَّثَنَا الْفَضْلُ بْنُ مُوسَى، وَأَبُو تُمَيْلَةَ، وَزَيْدُ بْنُ حُبَابٍ، عَنْ عَبْدِ الْمُؤْمِنِ بْنِ خَالِدٍ، عَنْ عَبْدِ اللهِ بْنِ بُرَيْدَةَ، عَنْ أُمِّ سَلَمَةَ، قَالَتْ: ((كَانَ أَحَبَّ الثِّيَابِ إِلَى رَسُولِ اللهِ ﷺ الْقَمِيصُ)).

(54) ..... Ummu Sələmə[1] رضي الله عنها demişdir: "Rəsulullahın ﷺ ən çox sevdiyi paltar köynək[2] idi."

– Qəsb edilmiş və ya oğurlanmış paltarı geymək.

– Üzərində hər hansı bir canlının rəsmi, yaxud batil bir dini təbliğ edən şəkillər, yaxud da batil mənalar ifadə edən yazılar olan paltarı geymək.

[1] Ummu Sələmə Hind bint Əbu Umeyyə əl-Məxzumiyyə رضي الله عنها Peyğəmbərin ﷺ zövcəsi, möminlərin anası, Həbəşistana hicrət etmiş səhabələrin birincilərindən olmuş, həm də, Allahın qılıncı ləqəbi ilə tanınmış Xalid ibn Vəlidin رضي الله عنه əmisi qızıdır. Ummu Sələmə رضي الله عنها qadın səhabələr arasında fəqih, yəni, dini yaxşı bilən ən savadlı qadınlardan hesab olunur. O, Peyğəmbərdən ﷺ 378 hədis rəvayət etmişdir. Buxari və Muslim – birlikdə ondan on üç hədis, ayrı-ayrılıqda Buxari üç, Muslim isə on üç hədis rəvayət etmişdir. Peyğəmbərə ﷺ ərə getməmişdən əvvəl Əbu Sələmə ibn Abdul-Əsəd əl-Məxzuminin رضي الله عنه zövcəsi olmuş və ondan dünyaya üç övlad gətirmişdir. Onların üçü də: Ömər, Sələmə və Zeynəb səhabə olmuşlar. Peyğəmbər ﷺ isə onunla hicrətin dördüncü ilində evlənmişdir. Ummu Sələmə رضي الله عنها təqribən doxsan yaşına kimi yaşamışdır. Möminlərin anaları arasında bu dünyadan ən son köçmüş qadındır. Hüseyn ibn Əli ibn Əbu Talibin رضي الله عنه şəhid olduğu vaxta qədər yaşamış, onun qətlə yetirildiyini eşitdikdə olduqca çox kədərlənmiş, hətta özündən getmiş və o, şəhid olduqdan az bir müddət sonra Ummu Sələmə də vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 20-ci tərcümeyi-hal).

[2] Burada "köynək" deyildikdə, baş və ayaqlar istisna olmaqla, bədənin hər yerini örtən, iki qoldan və yaxalıqdan ibarət, pambıqdan və ya buna bənzər bədəni narahat etməyən parçadan hazırlanmış geyim nəzərdə tutulur. Başqa cür desək, hazırda ərəblərin əksə-

٥٥- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا الْفَضْلُ بْنُ مُوسَى، عَنْ عَبْدِ الْمُؤْمِنِ بْنِ خَالِدٍ، عَنْ عَبْدِ اللهِ بْنِ بُرَيْدَةَ، عَنْ أُمِّ سَلَمَةَ، قَالَتْ: ((كَانَ أَحَبَّ الثِّيَابِ إِلَى رَسُولِ اللهِ ﷺ الْقَمِيصُ)).

(55) ..... Ummu Sələmə رضي الله عنها demişdir: "Rəsulullahın ﷺ ən çox sevdiyi paltar köynək idi."

٥٦- حَدَّثَنَا زِيَادُ بْنُ أَيُّوبَ الْبَغْدَادِيُّ، قَالَ: حَدَّثَنَا أَبُو تُمَيْلَةَ، عَنْ عَبْدِ الْمُؤْمِنِ بْنِ خَالِدٍ، عَنْ عَبْدِ اللهِ بْنِ بُرَيْدَةَ، عَنْ أَمِّهِ، عَنْ أُمِّ سَلَمَةَ، قَالَتْ: ((كَانَ أَحَبَّ الثِّيَابِ إِلَى رَسُولِ اللهِ ﷺ يَلْبَسُهُ، الْقَمِيصُ)).

هَكَذَا قَالَ زِيَادُ بْنُ أَيُّوبَ فِي حَدِيثِهِ، عَنْ عَبْدِ اللهِ بْنِ بُرَيْدَةَ، عَنْ أَمِّهِ، عَنْ أُمِّ سَلَمَةَ، وَهَكَذَا رَوَى غَيْرُ وَاحِدٍ عَنْ أَبِي تُمَيْلَةَ مِثْلَ رِوَايَةِ زِيَادِ بْنِ أَيُّوبَ، وَأَبُو تُمَيْلَةَ يَزِيدُ فِي هَذَا الْحَدِيثِ: عَنْ أَمِّهِ، وَهُوَ أَصَحُّ.

(56) ..... Ummu Sələmə رضي الله عنها demişdir: "Rəsulullahın ﷺ geydiyi paltarlar arasında ən çox sevdiyi paltar köynək idi."[1]

---

riyyətinin geydiyi geyim. Alimlər Peyğəmbərin ﷺ köynək geyinməyi daha çox sevdiyini belə izah etmişlər ki, digər geyimlərdən fərqli olaraq bu köynəyi həm geyinmək, həm soyunmaq, həm də onunla hərəkət etmək daha rahat və daha asandır.

[1] 54-cü, 55-ci və 56-cı hədisləri Əbu Davud (4025, 4026), Tirmizi (1762, 1763, 1764), Nəsai (9668), İbn Macə (3575) və Əhməd (6/317) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" və "Səhih ət-Tərğib vət-Tərhib" (2028) əsərində bu hədislərin

Ziyad ibn Əyyub da öz rəvayətində Abdullah ibn Bureydədən, o da, anasından, o da, Ummu Sələmədən belə nəql etmişdir. Həmçinin, başqa neçə-neçə ravilər də Əbu Tumeylədən, Ziyad ibn Əyyubun rəvayətinə bənzər hədislər rəvayət etmişlər. Əbu Tumeylə bu rəvayətdə: "anasından" sözünü əlavə etmişdir ki, bu da, daha səhih (isnad) sayılır.[1]

٥٧- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ مُحَمَّدِ بْنِ الْحَجَّاجِ، قَالَ: حَدَّثَنَا مُعَاذُ بْنُ هِشَامٍ، قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ بُدَيْلٍ (يَعْنِي ابْنَ مَيْسَرَةَ) الْعُقَيْلِيَّ، عَنْ شَهْرِ بْنِ حَوْشَبٍ، عَنْ أَسْمَاءَ بِنْتِ يَزِيدَ، قَالَتْ: ((كَانَ كُمُّ رَسُولِ اللهِ ﷺ إِلَى الرُّسْغِ)).

(57) ..... Əsma bint Yezid[2] رضي الله عنها demişdir: "Rəsulullahın ﷺ köynəyinin qolu bilək oynağına çatırdı."[3]

"səhih" olduğunu demişdir. İmam Tirmizinin müxtəlif isnadlarla eyni mətni rəvayət etməsinin səbəbi, bu hədisin mənasını təkid etməkdir.

[1] Bu, o deməkdir ki, digər isnadlarda Abdullah ibn Bureydə bu hədisi bilavasitə Ummu Sələmədən رضي الله عنها Əbu Tumeylənin rəvayət etdiyi 56-cı hədisi Abdullah ibn Bureydə öz anasından, o da, Ummu Sələmədən رضي الله عنها rəvayət etmişdir.

[2] Ummu Amir Əsma bint Yezid ibn əs-Səkən əl-Əşhəliyyə رضي الله عنها Peyğəmbərin ﷺ səhabəsi, həm də Muaz ibn Cəbəlin رضي الله عنه bibisi qızıdır (Siyər Əlam ən-Nubələ, 53-cü tərcümeyi-hal).

[3] Bu hədisi Əbu Davud (4027), Tirmizi (1765) və Nəsai (9666) rəvayət etmişdir. Hədisin isnadında keçən ravi – Şəhr ibn Hovşəb "çoxlu xətalara yol vermiş səduq" ravidir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

٥٨- حَدَّثَنَا أَبُو عَمَّارٍ (الْحُسَيْنُ بْنُ حُرَيْثٍ)، قَالَ: حَدَّثَنَا أَبُو نُعَيْمٍ، قَالَ: حَدَّثَنَا زُهَيْرٌ، عَنْ عُرْوَةَ بْنِ عَبْدِ اللهِ بْنِ قُشَيْرٍ، عَنْ مُعَاوِيَةَ بْنِ قُرَّةَ، عَنْ أَبِيهِ، قَالَ: ((أَتَيْتُ رَسُولَ اللهِ ﷺ فِي رَهْطٍ مِنْ مُزَيْنَةَ لِنُبَايِعَهُ، وَإِنَّ قَمِيصَهُ لَمُطْلَقٌ، - أَوْ قَالَ: زِرُّ قَمِيصِهِ مُطْلَقٌ - قَالَ: فَأَدْخَلْتُ يَدِي فِي جَيْبِ قَمِيصِهِ، فَمَسَسْتُ الْخَاتَمَ)).

(58) ..... Qurra[1] ﷺ demişdir: "Mən və Muzeynədən[2] olan bir dəstə adam[3] Peyğəmbərin ﷺ yanına gəldik ki, ona beyət edək. Onun köynəyi ilməklənməmişdi, (yaxud köynəyinin düyməsi ilməyə keçirilməmişdi).[4] Sonra mən

[1] Əbu Müaviyə Qurra ibn İyas ibn Hilal əl-Muzəni ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Təhzib ət-Təhzib, 8/370).

[2] Muzeynə, əslində, qadın adıdır. Muzeynə bint Kəlb ibn Bərətə. Burada Muzeynə deyildikdə, həmin qadına mənsub edilən qəbilə qəsd edilir.

[3] Burada, "bir dəstə adamla" deyildikdə, ya onun həmqəbilələri, ya da üç nəfərdən on nəfərədək toplum nəzərdə tutulur.

[4] Qeyd etmək lazımdır ki, köynəyin düymələrinin ilməklənməsinin və ya ilməklənməməsinin sünnəyə heç bir aidiyyəti yoxdur. Yəni, bu hədisə əsaslanıb köynəyin qabağını həmişə açıq saxlamaq və bunu sünnə hesab etmək doğru sayılmır. Şəriətə görə, bu, mübah sayılan əməllərdəndir. Yəni, istənilən vaxt köynəyin yaxasını açmaq və ya onu bağlı saxlamaq caizdir.

əlimi onun köynəyinin boynundan salıb onun *peyğəmbərlik* möhürünə sürtdüm.[1]"[2]

٥٩- حَدَّثَنَا عَبْدُ بْنُ حُمَيْدٍ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْفَضْلِ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ حَبِيبِ بْنِ الشَّهِيدِ، عَنِ الْحَسَنِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ النَّبِيَّ ﷺ خَرَجَ وَهُوَ مُتَّكِئٌ عَلَى أُسَامَةَ بْنِ زَيْدٍ عَلَيْهِ ثَوْبٌ قِطْرِيٌّ، قَدْ تَوَشَّحَ بِهِ ، فَصَلَّى بِهِمْ.

وَقَالَ عَبْدُ بْنُ حُمَيْدٍ: قَالَ مُحَمَّدُ بْنُ الْفَضْلِ: سَأَلَنِي يَحْيَى بْنُ مَعِينٍ عَنْ هَذَا الْحَدِيثِ، أَوَّلَ مَا جَلَسَ إِلَيَّ، فَقُلْتُ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، فَقَالَ: لَوْ كَانَ مِنْ كِتَابِكَ، فَقُمْتُ لأُخْرِجَ كِتَابِي فَقَبَضَ عَلَى ثَوْبِي ثُمَّ، قَالَ: أَمْلِهِ عَلَيَّ فَإِنِّي أَخَافُ أَنْ لا أَلْقَاكَ، قَالَ: فَأَمْلَيْتُهُ عَلَيْهِ، ثُمَّ أَخْرَجْتُ كِتَابِي فَقَرَأْتُ عَلَيْهِ.

(59) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ Usamə ibn Zeydə [3] söykənmiş halda [1] (evindən) çıxdı.

---

[1] Belə etməkdə səhabənin məqsədi Peyğəmbərin ﷺ bədəni ilə təbərruk etmək olmuşdur.

[2] Bu hədisi Əbu Davud (4082), İbn Macə (3578), Əhməd (3/343) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Əbu Zeyd, yaxud Əbu Muhəmməd yaxud Əbu Harisə yaxud da Əbu Yezid Usamə ibn Zeyd ibn Harisə رضي الله عنهما Peyğəmbərin ﷺ səhabəsi, Bəlqa diyarına göndərdiyi orduya başçı təyin etdiyi sərkərdəsi və oğulluğa götürdüyü Zeyd ibn Harisənin ﷺ oğludur. Neçə-neçə döyüşlərdə, xüsusən də atasının şəhid olduğu Mutə döyüşündə iştirak etmişdir. Deyilənə görə, bir müddət Mizzədə qalmış, sonra

Peyğəmbər ﷺ əynindəki qitr bürüncəyinə bürünmüşdü.[2] Sonra (Peyğəmbər ﷺ) gəlib (camaata) namaz qıldırdı."[3]

Abd ibn Humeyd rəvayət edir ki, Muhəmməd ibn Fədl belə demişdir: "Yəhya ibn Məin [4] ilk dəfə mənim

---

Mədinəyə qayıtmış və Müaviyənin ﷺ xilafətinin sonunda vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 104-cü tərcümeyi-hal). Onun fəzilətinə dair rəvayət edilmiş bir hədisdə Abdullah ibn Ömər ﷺ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ Usamə ibn Zeydi bir qoşuna başçı təyin edib, onları *döyüşə* göndərdi. Bəziləri onun əmir olmasına dil uzatdılar." Onda Peyğəmbər ﷺ buyurdu: "Sizin onun əmir olmasına dil uzatmağınız *təbiidir. Çünki* siz əvvəllər onun atasının əmir olmasına da dil uzatmışdınız. Vallahi ki, *onun atası* əmir olmağa layiq idi, üstəlik, o, mənim ən çox sevdiyim adamlardan biri idi. Heç şübhəsiz ki, oğlu da ondan sonra mənim ən çox sevdiyim adamlardan biridir" (Səhih əl-Buxari, 3730); digər bir hədisdə Usamə ibn Zeyd ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ onu Həsənlə birlikdə qucağına alıb deyərdi: "Allahım, onları sev, çünki mən onları sevirəm!" (Səhih əl-Buxari, 3735); yenə bir hədisdə Usamə ﷺ demişdir: "Peyğəmbər ﷺ məni bir ayağının üstündə, Həsəni də digər ayağının üstündə oturdub bizi qucaqlayar və *dua edib* deyərdi: "Allahım, mən bunlara rəhm edirəm, Sən də onlara rəhm et!" (Səhih əl-Buxari, 6003).

[1] Peyğəmbər ﷺ ölümqabağı yatağa düşdüyü zaman ağrıları şiddətləndiyi və taqətsiz olduğu üçün Usaməyə ﷺ söykənmiş halda məscidə getmişdir.

[2] Burada "qitr bürüncəyi" deyildikdə, Yəməndə hazırlanmış, üzərində də millər olan bürüncək nəzərdə tutulur.

[3] Bu hədisi imam Əhməd müxtəlif isnadlarla (3/239; 3/257, 281; 3/262) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Əli ibn Muhəmməd əl-Hərəvi, İbn Məinin barəsində danışarkən demişdir: "Allah ona Rəsulullahın ﷺ qüsl edildiyi yerdə, qüsl

məclisimdə ikən məndən bu hədis barədə soruşdu. Dedim: "Həmmad ibn Sələmə bizə rəvayət edib demişdir." İbn Məin dedi: "Nə olaydı, sən bunu öz kitabından nəql edəydin." Mən kitabımı gətirmək üçün ayağa qalxdım. Onda o, mənim ətəyimdən tutub dedi: "Hədisi de, yazım. Ola bilər ki, sonra sənin lə qarşılaşmayım." Beləcə, mən hədisi ona diktə etdim. (Bir qədər sonra isə) kitabımı gətirib hədisi (olduğu kimi) ona oxudum."

---

edilməsini və Rəsulullahın ﷺ cənazəsinin götürüldüyü yerdən cənazəsinin götürülməsini nəsib etmişdir. Xoş onun halına, xoş onun halına. Bu, həmin İbn Məindir ki, ölüm ayağında ikən tələbələri onun başına toplaşmış, ona "Lə ilahə illəllah"ı dedirtməyə çalışmış, nəhayət, son nəfəsində o, Peyğəmbərin ﷺ bu xüsusda buyurduğu: "Kimin axır kəlməsi "Lə ilahə illəllah" olarsa, Cənnətə daxil olar" hədisini rəvayət etmiş və rəvayəti əsnasında "Lə ilahə illəllah" kəlməsini deyəndən sonra vəfat etmişdir. İmam Səxavi *onu tərif edərkən* demişdir: "Yəhya ibn Məin vəfat etdiyi gün *müsəlmanlardan* biri yuxuda Peyğəmbərin ﷺ və onun səhabələrinin bir yerə toplandığını görmüş, onlardan nəyə görə toplandıqlarını soruşmuş, Peyğəmbər ﷺ də ona belə cavab vermişdir: "Gəlmişəm ki, bu kişiyə cənazə namazı qılam. Çünki o, mənim hədislərimə əlavə edilmiş yalanları məndən uzaq edərdi." Səxavi davam edib demişdir: "Başqa birisi də İbn Məini öz yuxusunda görmüş və ondan: "Uca Allah sənə nə əta etdi?"– deyə soruşmuş, İbn Məin də ona belə cavab vermişdir: "Allah mənim günahlarımı bağışladı, mənə çoxlu nemətlər əta etdi, mənə xoş güzəran bəxş etdi, məni huri ilə evləndirdi və bunu mənə iki dəfə daddırdı." Əhməd ibn Hənbəl isə İbn Məin haqqında belə demişdir: "Yəhya ibn Məindən hədis eşitmək, qəlblərdə olanlar üçün bir şəfadır" (Şərh Nuxbətul-Fikər, 1/736; Cəmul-Vəsail fi Şərhiş-Şəmail, 59-cu hədisin şərhi).

٦٠- حَدَّثَنَا سُوَيْدُ بْنُ نَصْرٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ الْمُبَارَكِ، عَنْ سَعِيدِ بْنِ إِيَاسٍ الْجُرَيْرِيِّ، عَنْ أَبِي نَضْرَةَ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ، إِذَا اسْتَجَدَّ ثَوْبًا سَمَّاهُ بِاسْمِهِ عِمَامَةً أَوْ قَمِيصًا أَوْ رِدَاءً، ثُمَّ يَقُولُ: ((اللَّهُمَّ لَكَ الْحَمْدُ كَمَا كَسَوْتَنِيهِ، أَسْأَلُكَ خَيْرَهُ وَخَيْرَ مَا صُنِعَ لَهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهِ وَشَرِّ مَا صُنِعَ لَهُ)).

(60) ..... Əbu Səid əl-Xudri ﷺ demişdir:[1] "Rəsulullah ﷺ təzə libas geydikdə onun adını çəkər, "bu əmmaməni, yaxud bu köynəyi, yaxud bu ridanı[2] (Allah mənə bəxş

[1] Bu hədisi imam Əbu Davud (4020; 4021; 4022), Tirmizi (1767), Əhməd (3/30) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Həmçinin, izar, şalvar, məst və s. libaslar da buna aiddir. Demək, hər bir müsəlman yeni bir libas geydikdə, beləcə dua edib Allaha şükür etməlidir. Əbu Davudun "Sunən" əsərində (4020) bu hədisin tamamında deyilir ki, Əbu Nədrə belə demişdir: "Peyğəmbərin ﷺ səhabələrindən biri təzə libas geydikdə, (digərləri) ona: "Tubli və yuxlifullahu təalə! (Köhnələnədək, bunu geyəsən, sonra Allah sənə yenisini versin)"– deyərdilər." Əbu Nədrənin bu sözü Buxarinin "Səhih"ində öz təsdiqini tapmışdır. Ummu Xalid bint Xalid ibn Səd ﷺ demişdir: "*Bir dəfə* mən atamla birlikdə Peyğəmbərin ﷺ yanına gəldim. Əynimdə sarı rəngli bir paltar var idi. Peyğəmbər ﷺ *paltarı görəndə*: "Sənəh, sənəh!"– dedi. Bu da həbəş dilində: "Qəşəngdir, qəşəng!"– deməkdir. Sonra mən *əlimlə* onun peyğəmbərlik möhürünü qurdalamağa başladım. Atam üstümə qışqırıb məni kənara çəkdi. Peyğəmbər: "Dəymə uşağa!"– deyə buyurdu, sonra da dua edib dedi: "*Bu paltarı* köhnələnədək və *Allah sənə* yenisini verənədək,

etdi”– deyər), sonra da belə dua edərdi: “Allahummə, ləkəl-həmdu kəmə kəsəvtənihi, əs'ələukə xayrahu və xayra mə suniə ləh, və əuzu bikə min şərrihi və şərri mə suniə ləh.[1]”

---

köhnələnədək və *Allah sənə* yenisini verənədək, köhnələnədək və *Allah sənə* yenisini verənədək geyəsən!” (Səhih əl-Buxari, 3071). Allahın bizə bəxş etdiyi libas bizim üçün böyük nemətdir. Quranda bu xüsusda belə buyurulur: **“Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və bəzək-düzək nazil etdik. Təqva libası isə daha xeyirlidir. Bu, Allahın dəlillərindəndir. Bəlkə, düşünüb *bunlardan* ibrət alasınız”** (əl-Əraf, 26); Qüdsi hədisdə isə Uca Allah belə buyurur: “Ey qullarım! Özlərinə libas əta etdiyim kimsələrdən başqa hamınız çılpaqsınız. Elə isə, Məndən geyim istəyin, sizə geyim bəxş edim” (Ədəbul-Mufrəd, 490).

[1] Duanın tərcüməsi: “Allahım, bunu mənə geyindirdiyinə görə, Sənə həmd olsun. Onun hər cür xeyrini və onun istifadəsinin xeyrini Səndən diləyir, həmçinin, onun hər cür şərindən və onun istifadəsinin şərindən Sənə sığınıram!” Yəni, bu libas vasitəsilə savab qazanmaq, soyuqdan qorunmaq, ayıb yerləri örtmək və s. xeyirləri əldə etməyi Səndən diləyir, habelə, onunla təkəbbürlük etməkdən, həddimi aşmaqdan, günaha batmaqdan və s. haram işlərdən Sənə sığınıram. Demək, bu dua, müsəlmanı bu xüsusda, şəriətə müxalif olmaqdan qoruyan ən gözəl səbəblərdən biridir. Təzə libas geydikdə, dua etmək xüsusunda rəvayət edilmiş digər bir hədisdə Peyğəmbər ﷺ bunun keçmiş günahlar üçün kəffarə olduğunu xəbər verib belə byurmuş-dur: “Hər kim təzə paltar geydikdə: “Əlhəmdulilləhil-ləzi kəsani həzə və rəzəqənihi min ğeyri haulin minni və lə quvvətin (bu paltarı mənə geyindirən və özüm heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!)”– desə, onun bütün keçmiş və gələcək xətaları bağışlanar” (Sunən Əbu Davud, 4023; Səhih əl-Cami, 6086). Əlbəttə ki, bu duaların mənasını başa düşən müsəlman öz geyimi ilə

٦١- حَدَّثَنَا هِشَامُ بْنُ يُونُسَ الْكُوفِيُّ، قَالَ: حَدَّثَنَا الْقَاسِمُ بْنُ مَالِكٍ الْمُزَنِيُّ، عَنِ الْجُرَيْرِيِّ، عَنْ أَبِي نَضْرَةَ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، عَنِ النَّبِيِّ ﷺ، نَحْوَهُ.

(61) Bizə Hişam ibn Yunus əl-Kufi belə rəvayət etmişdir: "Bizə Qasim ibn Malik əl-Muzəni Cureyridən, o da, Əbu Nədrədən, o da Əbu Səid əl-Xudridən, o da, Peyğəmbərdən ﷺ bu hədisin bənzərini rəvayət etmişdir."[1]

٦٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا مُعَاذُ بْنُ هِشَامٍ، حَدَّثَنِي أَبِي، عَنْ قَتَادَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ أَحَبَّ الثِّيَابِ إِلَى رَسُولِ اللهِ ﷺ، يَلْبَسُهُ الْحِبَرَةُ)).

(62) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullahın ﷺ geydiyi paltarlar arasında ən çox sevdiyi paltar hibərə[2] idi."[3]

---

yalnız Allahı razı salmağa çalışar. Təəssüf ki, bəzi müsəlmanlar öz xoşları ilə, şəriətin qadağan etdiyi geyimləri geyir, hətta belə geyimdə məscidə gəlməkdən və bu mənfur görkəmdə Allahın hüzurunda durmaqdan utanmır və bunun nə dərəcədə günah olduğunu dərk etmirlər. Dərk etsəydilər, Allaha və Onun rəsuluna asi olmazdılar.

[1] 6-cı hədisin izahına bax.

[2] Hibərə: Pambıqdan və ya bəzəkli kətandan hazırlanan Yəmən bürüncəyidir.

[3] Bu hədisi imam Buxari (5813), Muslim (2079), Əbu Davud (4060), Nəsai (5315), Tirmizi (1788) və Əhməd (3/134) rəvayət etmişdir.

٦٣- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَوْنِ بْنِ أَبِي جُحَيْفَةَ، عَنْ أَبِيهِ، قَالَ: ((رَأَيْتُ النَّبِيَّ ﷺ، وَعَلَيْهِ حُلَّةٌ حَمْرَاءُ، كَأَنِّي أَنْظُرُ إِلَى بَرِيقِ سَاقَيْهِ)).

وَقَالَ سُفْيَانُ: ((أُرَاهَا حِبَرَةً)).

(63) ..... Əbu Cuheyfə ﷺ demişdir: "Mən Rəsulullahı ﷺ, əynində qırmızı hüllə[1] (çadırdan çıxarkən) gördüm. Onun baldırlarının ağlığı hələ də gözümün qabağındadır.[2]"

Sufyan[3] demişdir: "Mən bunun hibərə olduğunu güman edirəm[4]"[1]

---

[1] Burada "qırmızı hüllə" deyildikdə, izar və rida kimi iki parçadan ibarət, üzərində başqa rəngdə bəzəklər olan yəmən libası nəzərdə tutulur.

[2] Bu, o deməkdir ki, Peyğəmbərin izarı və ya fitəsi baldırının yarısına çatdırdı. Bu isə, baldırın övrət yerindən sayılmadığına dəlalət edir. Əlbəttə ki, bu, yalnız kişilərə aiddir. Qadının isə üzü və əlləri istisna olmaqla, bütün bədəni örtülü olmalıdır.

[3] Yəni, Sufyan ibn Səid.

[4] Digər rəvayətdə deyilir: "Biz bunun hibərə olduğunu güman edirik." Bu da, ona dəlalət edir ki, hədisdə keçən libas xalis qırmızı rəngdə deyildi. Bu xüsusda İbn Qeyyim ﷺ "Zadul-Məad fi Hədyi Xayril-İbad" (1/137) əsərində demişdir: "Qırmızı hüllənin xalis qırmızı rəngdə olduğunu, rənginə başqa rəng qarışmadığını güman edən kimsələr yanlış düşünürlər. Çünki "qırmızı hüllə"– yəməndə hazırlanmış, digər yəmən bürüncəkləri kimi qara rəngli xətlərlə bəzədilmiş iki parçadan ibarət libasdır. Elə üzərində qara xətlər olduğu üçün bu qırmızı libas "hüllə" adlanır. Xalis qırmızı rəngdə olan libası geymək isə qəti şəkildə qadağan edilmişdir."

٦٤- حَدَّثَنَا عَلِيُّ بْنُ خَشْرَمٍ، قَالَ: حَدَّثَنَا عِيسَى بْنُ يُونُسَ، عَنْ إِسْرَائِيلَ، عَنْ أَبِي إِسْحَاقَ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ، قَالَ: ((مَا رَأَيْتُ أَحَدًا مِنَ النَّاسِ أَحْسَنَ فِي حُلَّةٍ حَمْرَاءَ، مِنْ رَسُولِ اللهِ ﷺ، إِنْ كَانَتْ جُمَّتُهُ لَتَضْرِبُ قَرِيبًا مِنْ مَنْكِبَيْهِ)).

(64) ..... Bəra ibn Azib ﷺ demişdir: "Mən əynində qırmızı libası olan insanlar arasında Rəsulullahdan ﷺ daha yaraşıqlısını görmədim. Onun saçları az qala çiyinlərinə çatırdı."[2]

٦٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللهِ بْنُ إِيَادٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي رِمْثَةَ، قَالَ: ((رَأَيْتُ النَّبِيَّ ﷺ، وَعَلَيْهِ بُرْدَانِ أَخْضَرَانِ)).

(65) ..... Əbu Rimsə demişdir: "Mən Peyğəmbəri ﷺ gördüm. Əynində yaşıl rəngli iki libas[3] var idi."[1]

---

[1] Bu hədisi Muslim (1119), Əbu Davud (520), Nəsai (5378), Tirmizi (197) və Əhməd (4/308) rəvayət etmişdir.

[2] Bu hədisi Buxari (3358, 5510), Muslim (2377), Əbu Davud (4183), Tirmizi (1724; 3639), Nəsai (5232; 5233) və İbn Macə (5399) rəvayət etmişdir.

[3] Burada iki libas deyildikdə, üzərində xətlər olan, yaşıl rəngə çalan izar və rida (fitə və bürüncək) nəzərdə tutulur. Yaşıl libas barədə Quranda xəbər verilir ki: **"İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik. Məhz onlar üçün *ağacları* altından çaylar axan Ədn bağları hazırlanmışdır. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dir-**

٦٦- حَدَّثَنَا عَبْدُ بْنُ حُمَيْدٍ، قَالَ: حَدَّثَنَا عَفَّانُ بْنُ مُسْلِمٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ حَسَّانَ الْعَنْبَرِيُّ، عَنْ جَدَّتَيْهِ دُحَيْبَةَ، وَعُلَيْبَةَ، عَنْ قَيْلَةَ بِنْتِ مَخْرَمَةَ، قَالَتْ: ((رَأَيْتُ النَّبِيَّ ﷺ وَعَلَيْهِ أَسْمَالُ مُلَيَّتَيْنِ، كَانَتَا بِزَعْفَرَانٍ، وَقَدْ نَفَضَتْهُ)) وَفِي الْحَدِيثِ قِصَّةٌ طَوِيلَةٌ.

(66) ..... Abdullah ibn Həssan əl-Ənbəri hər iki nənəsindən: Duheybədən və Uleybədən[2] rəvayət etmişdir ki, Qaylə bint Məxrəmə رضي الله عنها demişdir: "Mən Peyğəmbəri ﷺ gördüm. Əynində zəfərana boyanmış, ayrı-ayrı parçalardan ibarət iki nimdaş geyim (izar və rida) var idi. Bunların köhnəliyi zəfəranın rəngini görünməz hala salmışdır."[3]

(Əbu İsa ət-Tirmizi demişdir): "Bu, uzun bir hədisin bir hissəsidir."

---

səklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir!" (əl-Kəhf, 30-31).

[1] 43-cü hədisə bax.

[2] Bu isnaddakı yanlışlıq ondan ibarətdir ki, Həssanın digər nənəsinin adı Uleybə yox, Səfiyyə bint Uleybədir. Bu da, Tirmizinin "Sunən" əsərində (2814) rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır. Həmin isnadda deyilir ki, Abdullah ibn Həssan bu hədisi iki nənəsindən – Səfiyyə bint Uleybədən və Duheybədən rəvayət etmişdir ki, Qaylə bint Məxrəmə رضي الله عنها demişdir.

[3] Bu hədisi Əbu Davud (3070) və Tirmizi (2815) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun zəif olduğunu demişdir. Lakin Tirmizinin "Sunən" əsərindəki 2814 nömrəli hədisi təhqiq edərkən, bu hədisin "həsən" olduğunu söyləmiş, beləliklə də, hədisin dərəcəsinə dair daha dəqiq hökm vermişdir (Səhih və Daif Sunən ət-Tirmizi, 6/314).

٦٧- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْمُفَضَّلِ، عَنْ عَبْدِ اللهِ بْنِ عُثْمَانَ بْنِ خُثَيْمٍ، عَنْ سَعِيدِ بْنِ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((عَلَيْكُمْ بِالْبَيَاضِ مِنَ الثِّيَابِ، لِيَلْبِسْهَا أَحْيَاؤُكُمْ، وَكَفِّنُوا فِيهَا مَوْتَاكُمْ، فَإِنَّهَا مِنْ خِيَارِ ثِيَابِكُمْ)).

(67) ..... İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Ağ rəngdə libas geyinin![1] Sağlığınızda ağ libas geyinin. Həmçinin, ölülərinizi də ağ kəfənə bürüyün. Çünki ağ geyim libaslarınızın ən xeyirlisindəndir."[2]

٦٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ حَبِيبِ بْنِ أَبِي ثَابِتٍ، عَنْ مَيْمُونِ بْنِ أَبِي شَبِيبٍ، عَنْ سَمُرَةَ بْنِ جُنْدُبٍ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((الْبَسُوا الْبَيَاضَ، فَإِنَّهَا أَطْهَرُ وَأَطْيَبُ، وَكَفِّنُوا فِيهَا مَوْتَاكُمْ)).

(68) ..... Səmurə ibn Cundub رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Ağ (libas) geyinin! Çünki

---

[1] Peyğəmbər ﷺ bunu deməklə, ümmətini ağ rəngdə libas geyinməyə rəğbətləndirər, özü də ağ rəngdə libas geyərdi. Əbu Zərr رضي الله عنه deyir ki: "(Bir dəfə) mən Peyğəmbərin ﷺ yanına gəldim. Onun əynində ağ libas var idi" (Səhih əl-Buxari, 5827).

[2] Bu hədisi imam Əbu Davud (4061), Tirmizi (994; 3566), Əhməd (1/247) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

o, daha təmiz və daha gözəldir.[1] Həmçinin, ölülərinizi də ağ kəfənə bürüyün.”[2]

٦٩- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ زَكَرِيَّا بْنِ أَبِي زَائِدَةَ، قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ مُصْعَبِ بْنِ شَيْبَةَ عَنْ صَفِيَّةَ بِنْتِ شَيْبَةَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((خَرَجَ رَسُولُ اللهِ ﷺ ذَاتَ غَدَاةٍ، وَعَلَيْهِ مِرْطٌ مِنْ شَعَرٍ أَسْوَدَ)).

(69) ..... Aişə رضي الله عنها demişdir: “Bir səhər Rəsulullah ﷺ (evindən çıxarkən) onun əynində qara yundan bürüncək[3] var idi.”[4]

٧٠- حَدَّثَنَا يُوسُفُ بْنُ عِيسَى، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، قَالَ: حَدَّثَنَا يُونُسُ بْنُ أَبِي إِسْحَاقَ، عَنْ أَبِيهِ، عَنِ الشَّعْبِيِّ، عَنْ عُرْوَةَ بْنِ الْمُغِيرَةِ بْنِ شُعْبَةَ، عَنْ أَبِيهِ، أَنَّ النَّبِيَّ ﷺ، لَبِسَ جُبَّةً رُومِيَّةً، ضَيِّقَةَ الْكُمَّيْنِ.

(70) ..... Muğira ibn Şobə[1] رضي الله عنه demişdir: “Peyğəmbərin ﷺ əynində qolları dar olan bir Rum cübbəsi[2] var idi.”[3]

---

[1] Digər rənglərə nisbətən ağ geyimdə çirk daha tez gözə çarpır və bu çirki təmizlədikdə, libas daha təmiz və daha gözəl görünür.

[2] Bu hədisi imam Tirmizi (2811), Nəsai (5322), Əhməd (5/13) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

[3] Muslimin “Səhih”ində (2081) Aişədən رضي الله عنها rəvayət edilmiş bu hədisdə Peyğəmbərin ﷺ bürüncəyi daha geniş vəsf edilir. Həmin hədisdə Aişə رضي الله عنها demişdir: “Bir səhər Rəsulullah ﷺ *evindən çıxarkən*, onun əynində qara yundan, üzərində də bəzək olan bir bürüncək var idi.” Bu hədis dəlalət edir ki, həm qara rəngdə olan, həm yundan hazırlanmış, həm də üzərinə bəzək salınmış libası geymək caizdir.

[4] Bu hədisi Muslim (2081; 2424), Əbu Davud (4032), Tirmizi (2814) və Əhməd (6/162) rəvayət etmişdir.

[1] Əbu İsa Muğira ibn Şobə ibn Əbu Amir ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 50-ci ilində yetmiş yaşında vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 7).

[2] Cübbə: paltarın üstündən geyilən uzunətəkli, enli, düyməsiz geyim. Buxarinin (363) və Muslim rəvayətlərində (629): "Şam cübbəsi" – deyilir. O dövrdə Şam diyarı Rum imperiyasının tərkibinə aid edildiyindən, bu cübbəyə Rum yaxud Şam cübbəsi deyərdilər. Buxarinin "Səhih"ində bu hədis daha geniş rəvayət edilmişdir. Muğira ibn Şobə ﷺ rəvayət edir ki, (bir dəfə) mən Peyğəmbərlə ﷺ birlikdə səfərdə olarkən, o, mənə: "Ey Muğira, götür bu qabı"– deyə buyurdu. Mən də onu götürdüm. Peyğəmbər ﷺ gözdən itənədək uzağa gedib, təbii ehtiyacını rəf etdi. Onun əynində Şam cübbəsi var idi. O, əlini cübbənin qolundan çıxarmaq istədikdə, onun çox dar olduğunu gördü və buna görə də əlini cübbənin aşağı tərəfindən çıxartdı. Mən onun əlinə su tökdüm və o, namaz üçün dəstəmaz aldığı qaydada dəstəmaz alıb, məstlərinə məsh çəkdi, sonra da namaz qıldı" (Səhih əl-Buxari, 363).

[3] Bu hədisi Buxari (180), Muslim (629), Əbu Davud (149; 151), Tirmizi (1768) və Nəsai (82) rəvayət etmişdir.

٩- بَاب ما جاء في عَيْش رسول الله ﷺ

9-cu fəsil. Rəsulullahın ﷺ dolanışığı[1] barədə varid olanlar

٧١- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ أَيُّوبَ، عَنْ مُحَمَّدِ بْنِ سِيرِينَ قَالَ: ((كُنَّا عِنْدَ أَبِي هُرَيْرَةَ وَعَلَيْهِ ثَوْبَانِ مُمَشَّقَانِ مِنْ كِتَّان فَتَمَخَّطَ فِي أحدهما. فَقَالَ أَبُو هُرَيْرَةَ: ((بَخْ بَخْ، يَتَمَخَّطُ أَبُو هُرَيْرَةَ فِي الْكِتَّانِ. لَقَدْ رَأَيْتُنِي وَإِنِّي لأَخِرُّ فِيمَا بَيْنَ مِنْبَرِ رَسُولِ اللهِ ﷺ وحُجْرَةِ عَائِشَةَ مَغْشِيًّا عَلَيَّ، فَيَجِيءُ الْجَائِي فَيَضَعُ رِجْلَهُ عَلَى عُنُقِي، يُرَى أَنّ بِي جُنُونًا، وَمَا بِي جُنُونٍ، ومَا هو إِلاَّ الْجُوعُ)).

(71) ..... Muhəmməd ibn Sirin demişdir:[2] "(Bir dəfə) biz Əbu Hureyrə ilə (bir yerdə) idik. Onun əynində qırmızı rəngə boyanmış kətan parçadan iki paltar var idi. O, bu parçalardan biri ilə burnunu silib dedi: "Bəh-bəh, Əbu Hureyrə burnunu kətan parçaya silir! Yadımdadır ki, mən

---

[1] Müəllif bu fəsli, eyni adla 52-ci fəsildə təkrar varid etmiş və orada fəslin ünvanına aid daha çox hədislər zikr etmişdir. Burada "dolanışıq" deyildikdə, gündəlik yemək nəzərdə tutulur. Bu xüsusda Peyğəmbər ﷺ dua edib demişdir: "Allahım, Muhəmmədin ailəsinə gündəlik yemək nəsib et!" (Səhih əl-Buxari, 6460); digər hədisdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim, qəlbi arxayınlıq içində, canı sağlam, yanında da həmin günün yeməyi olduğu halda, səhərə çıxmışsa, ona sanki bu dünya bəxş edilmişdir" (Ədəbul-Mufrəd, 300).

[2] Bu hədisi Tirmizi (2367) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

Rəsulullahın ﷺ minbəri ilə Aişənin رضي الله عنها hücrəsi arasında[1] bayılıb yerə yıxılardım. (Həmin vaxt) oradan gəlib keçən adam ayağını mənim boynumun üstünə qoyar və mənim dəli olduğumu güman edərdi. Halbuki, mən dəli deyildim, məni taqətdən salan ancaq aclıq idi.[2]"

---

[1] Bu yer "rovdə", yəni, bağça adlanır. Bu bağça barədə Peyğəmbər ﷺ demişdir: "Cənnət bağlarından biri mənim evimlə minbərim arasında yerləşir" (Səhih əl-Buxari, 1196).

[2] Keçmişdəki çətin günləri, hazırkı xoş güzəranla müqayisə etmək, Allahın bəxş etdiyi nemətlərə şükür etmək üçün ən gözəl vasitələrdən biridir. Müəllifin Əbu Hureyrənin رضي الله عنه dolanışığı ilə bağlı bu hədisi bu fəsildə varid etməsi, Peyğəmbərin ﷺ dolanışığının da çətin olduğunu bəyan etməkdir. Çünki əgər Peyğəmbərin ﷺ yemək-içməyi bol olsaydı, Əbu Hureyrənin رضي الله عنه və digərlərinin aclıqdan əziyyət çəkməsinə yol verməzdi. Peyğəmbərin ﷺ ancaq gündəlik yeməyi olardı. Buxarinin rəvayət etdiyi hədisdə (6453) Əbu Hureyrə رضي الله عنه demişdir: "Özündən başqa məbud olmayan Allaha and olsun ki, mən bəzən aclıqdan qarnımı yerə dayayardım, bəzən də aclığı hiss etməyim deyə, qarnıma daş bağlayardım. Bir gün mən *müsəlmanların* gedib-gəldiyi yolun üstündə oturdum..... Bu vaxt Əbul Qasım ﷺ gəlib oradan keçdi və məni gördükdə gülümsədi, ürəyimdən nələr keçdiyini üzümdən oxudu və dedi: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" Rəsulullah ﷺ: "Gəl dalımca!"– deyib getdi, mən də qalxıb onun dalınca getdim. O gedib, evə daxil oldu. Mən *içəri girmək* üçün izin istədim və mənə izin verildi. Peyğəmbər ﷺ evdə bir cam süd gördü və: "Bu süd hardandır?"– deyə soruşdu. *Ona*: "Filankəs hədiyyə edib"– dedilər. Peyğəmbər ﷺ buyurdu: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" Dedi: "Süffə əhlinin yanına get və onları mənim yanıma çağır!" Əbu Hureyrə deyir ki: "Süffə əhli İslam dininin qonaqları idi və onların Mədinədə nə ailəsi, nə mal-dövləti, nə də yaxın bir adamı var idi. Peyğəmbərə ﷺ sədəqə gətirildikdə, bunu onlara göndərər və ondan özünə heç bir şey götürməzdi. Ona hədiyyə verildikdə isə ondan bir qədər özünə

٧٢– حَدَّثَنَا قُتَيْبَةُ قَالَ: حَدَّثَنَا جَعْفَرُ بْنُ سُلَيْمَانَ الضُّبَعِيُّ، عَنْ مَالِكِ بْنِ دِينَارٍ قَالَ: ((مَا شَبِعَ رَسُولِ اللهِ ﷺ مِنْ خُبْزٍ قَط، وَلَحم إِلاَّ عَلى ضفَفَ)).

قَالَ مَالِكٌ: سَأَلْتُ رَجُلاً مِنْ أَهْلِ الْبَادِيَةِ: ((مَا الضَّفَفُ؟)) قَالَ: ((أَنْ يَتَنَاوَلَ مَعَ النَّاسِ)).

---

götürər, qalanını isə onlara göndərər, onları da yeməyə şərik edərdi. Peyğəmbərin ﷺ onları evə dəvət etməsi məni pərişan etdi və mən *öz-özümə* dedim: "Süffə əhli üçün bu bir cam süd nədir ki? Həm də bu süddən içib güc toplamağa mən daha çox layiqəm. Əgər onlar gəlsələr, Peyğəmbər ﷺ mənə südü əvvəlcə onlara verməyi əmr edəcək. Belə olduğu təqdirdə isə çətin ki, mənə bu süddən nəsə çatsın." Lakin Allaha və Onun rəsuluna itaət etməkdən başqa çarəm qalmadığından gedib onları çağırdım. Onlar gəlib içəri keçmək üçün izin istədilər və onlara izin verildi. Onlar içəri daxil olub yerbəyer olduqdan sonra Peyğəmbər ﷺ dedi: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" Dedi: "Götür *bu südü*, onlara ver!" Mən camı götürüb onlara birər-birər verməyə başladım. Onlardan hər biri camı götürüb doyunca süd içdikdən sonra onu mənə qaytarır, mən də onu alıb növbəti adama uzadırdım. Nəhayət, oradakıların hamısı *bu süddən* içib doyandan sonra mən camı Peyğəmbərə ﷺ uzatdım. Peyğəmbər ﷺ camı götürüb əlinin içinə qoydu, sonra mənə baxıb gülümsədi və dedi: "Ey Əbu Hirr!" Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" Dedi: "Mən, bir də sən qaldın!" Dedim: "Elədir, ya Rəsulullah!" Dedi: "Otur, iç!" Mən oturub *süddən* içdim. Bir daha: "İç!"– dedi və mən *yenə süddən* içdim. Peyğəmbər ﷺ bunu o vaxta qədər təkrar etdi ki, axırda mən dedim: "Yox, səni haqq ilə göndərən Allaha and olsun ki, içməyə yerim yoxdur." Dedi: "Elə isə onu mənə ver!" Mən camı ona verdim və o, Allaha həmd edib, "bismilləh" dedikdən sonra südün artıq qalanını içdi."

(72) ..... Malik ibn Dinar[1] demişdir: "Rəsulullah ﷺ nadir hallar istisna olmaqla, çörəkdən və ətdən doyunca yeməmişdir.[2]"

Malik ibn Dinar dedi: "Mən bədəvilərdən birindən: "Nadir hal nədir?"– deyə soruşdum. O: "Camaatla bir yerdə yemək yeməsidir[3]"– deyə cavab verdi."[4]

---

[1] Malik ibn Dinar tabiindir. Hicrətin 127-ci ilində vəfat etmişdir. (Siyər Əlam ən-Nubələ, 164-cü tərcümeyi-hal).

[2] Buxarinin "Səhih"ində (5385) rəvayət edirlir ki, Ənəs ibn Malik ؓ demişdir: "Peyğəmbər ﷺ Rəbbinə qovuşanadək nə bir yumşaq çörək, nə də bütöv qızardılmış bir quzu yemişdir." Başqa bir rəvayətdə isə Aişə ؓ demişdir: "Muhəmmədin ﷺ ailəsi Mədinəyə gəldiyi gündən onun vəfat etdiyi günədək *heç vaxt* üç gün dalbadal buğda çörəyindən doyunca yeməmişdir" (Səhih əl-Buxari, 5416).

[3] 376-cı hədisdə "nadir hal" sözü, "yeməyə uzanan əllərin çox olması" kimi izah edilmişdir. Bu da, o deməkdir ki, Peyğəmbər ﷺ yalnız qonaqlıqlarda doyunca yeyərdi. Burada "doyunca yeyərdi" deyildikdə, qarnını yeməklə doldurmaq qəsd edilmir, ancaq onun üçdə biri qədər yemək nəzərdə tutulur. Bu hədisdən belə nəticə çıxır ki, camaatla bir yerdə yeməyin bərəkəti çox olur. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "İki nəfərin yeməyi üç nəfərə, üç nəfərin yeməyi də dörd nəfərə bəs edər" (Səhih əl-Buxari, 5392).

[4] Bu hədis "mursəl"dir. Yəni, tabiin, özü ilə Peyğəmbərin ﷺ arasında olan ravinin adını çəkmədən hədisi bilavasitə Peyğəmbərdən ﷺ rəvayət etmişdir. Lakin müəllif bu hədisi 52-ci fəsildə Ənəs ibn Malikdən ؓ "movsul" isnadla, yəni, səhabədən, o da, Peyğəmbərdən ﷺ rəvayət etdiyini nəql etmişdir. Bu hədisi Əhməd (3/270) rəvayət etmiş və Muhəmməd Nasiрəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

١٠ – بَاب ما جاء في خُفِّ رسول الله ﷺ

10-cu fəsil. Rəsulullahın ﷺ məstləri[1] barədə varid olanlar

٧٣– حَدَّثَنَا هَنَّادُ بْنُ السَّرِيِّ، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، عَنْ دَهْثَمِ بْنِ صَالِحٍ، عَنْ حُجَيْرِ بْنِ عَبْدِ اللهِ، عَنِ ابْنِ بُرَيْدَةَ، عَنْ أَبِيهِ، أَنَّ النَّجَاشِيَّ أَهْدَى لِلنَّبِيِّ ﷺ، خُفَّيْنِ، أَسْوَدَيْنِ، سَاذَجَيْنِ، فَلَبِسَهُمَا ثُمَّ تَوَضَّأَ وَمَسَحَ عَلَيْهِمَا.

(73) ..... Bureydə ﷺ rəvayət etmişdir ki, Nəcaşi[2] Peyğəmbərə ﷺ qara rəngli bir cüt sadə məst[3] hədiyyə göndərdi. Peyğəmbər ﷺ də onları dərhal (ayağına) geyindi. (Dəstəmazı pozulduqdan) sonra dəstəmaz aldı və məstləri üzərinə məsh çəkdi.”[4]

---

[1] Məst: dəridən və ya başqa yumşaq materialdan tikilən yüngül ayaqqabı.

[2] Nəcaşi: Həbəşistan krallarının ləqəbidir. Necə ki, Fars hökmdarlarına Xosrov, Rum hökmdarlarına Qeysər, Şam hökmdarlarına Herakl, Misir hökmdarlarına Firon, Yəmən hökmdarlarına Tubbə, Yunan hökmdarlarına Bətlimus, Türk hökmdarlarına Xaqan, İskəndəriyyə hökmdarlarına Muqəvqis deyilirdi. Bütün bunlar cahiliyyət dövrünün ləqəbləridir. Bu Nəcaşinin adı Əshəmədir. Peyğəmbər ﷺ hicrətin 6-cı ilində Amr ibn Umeyyə əd-Damrini onun yanına göndərmiş və onu müsəlman olmağa çağırmış, o da, İslam dinini qəbul etmişdir. Nəhayət, hicrətin 9-cu ilində vəfat etmiş və Peyğəmbər ﷺ ona cənazə namazı qılmışdır.

[3] Burada “sadə məst” deyildikdə, üzərində heç bir naxış və ya bəzək-düzək olmayan məstlər nəzərdə tutulur.

[4] Bu hədisi Əbu Davud (155), Tirmizi (2821), İbn Macə (549) və Əhməd (5/352) rəvayət etmişdir. Hədisin isnadında keçən Dəlhəm ibn

٧٤- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ زَكَرِيَّا بْنِ أَبِي زَائِدَةَ، عَنِ الْحَسَنِ بْنِ عَيَّاشٍ، عَنْ أَبِي إِسْحَاقَ، عَنِ الشَّعْبِيِّ، قَالَ: قَالَ الْمُغِيرَةُ بْنُ شُعْبَةَ: ((أَهْدَى دِحْيَةُ لِلنَّبِيِّ ﷺ خُفَّيْنِ، فَلَبِسَهُمَا)).

وَقَالَ إِسْرَائِيلُ عَنْ جَابِرٍ، عَنْ عَامِرٍ: ((وَجُبَّةً فَلَبِسَهُمَا حَتَّى تَخَرَّقَا لا يَدْرِي النَّبِيُّ ﷺ، أَذَكِيٌّ هُمَا أَمْ لا)).

قَالَ أَبُو عِيسَى: و أَبُو إِسْحَاقَ هَذَا هُوَ أَبُو إِسْحَاقَ الشَّيْبَانِي وَاسْمُهُ سُلَيْمَان.

(74) ..... Muğira ibn Şobə ﷺ demişdir: "Dihyə Peyğəmbərə ﷺ bir cüt məst göndərdi və o, bu məstləri (ayağına) geyindi."

İsrail Cabirdən, o da, Amirdən rəvayət etmişdir ki, (Dihyə ona məstlə bərabər) bir cübbə də göndərdi. Bu məstlər cırılanadək Peyğəmbər ﷺ onları geyindi. Peyğəmbər ﷺ bu məstlərin şəriətə müvafiq qaydada kəsilib-kəsilmədiyini[1] bilmirdi.

Əbu İsa demişdir: "Bu Əbu İshaq, Əbu İshaq əş-Şeybanidir, adı da Süleymandır."[2]

Saleh əl-Kindi "zəif" ravi olduğundan bu hədis bu isnadla zəif sayılır. Lakin hədis digər isnadlarla rəvayət edildiyindən, şeyx Albani onu "həsən" hesab etmişdir.

[1] Yəni, dərisindən məst hazırlanmış heyvanın şəriət qayda-qanunu ilə kəsilib-kəsilmədiyini və dərinin aşılanıb-aşılanmadığını bilmirdi.

[2] Bu hədisi Tirmizi "Sunən" əsərində (1769) rəvayət etmişdir. Hədisin birinci isnadı səhih, ikincisi isə "zəif"dir (Bax: Muxtəsər əş-Şəmail). İkinci isnaddakı Cabir ibn Yezid əl-Cufi "zəif" ravidir (Tarix əl-Kəbir, 2223-cü tərcümeyi-hal).

١١- بَاب ما جاء في نَعْل رسول الله ﷺ

11-ci fəsil. Rəsulullahın ﷺ səndəli[1] barədə varid olanlar

٧٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ الطَّيَالِسِيُّ، قَالَ: حَدَّثَنَا هَمَّامٌ، عَنْ قَتَادَةَ، قَالَ: قُلْتُ لأَنَسِ بْنِ مَالِكٍ: ((كَيْفَ كَانَ نَعْلُ رَسُولِ اللهِ ﷺ؟)) قَالَ: ((لَهُمَا قِبَالانِ)).

(75) ..... Qətadə demişdir: "Mən Ənəs ibn Malikdən soruşdum: "Peyğəmbərin ﷺ səndəli nə cür idi?" Dedi: "Hər bir səndəlinin iki bağı[2] var idi."[3]

٧٦- حَدَّثَنَا أَبُو كُرَيْبٍ مُحَمَّدُ بْنُ الْعَلاءِ، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، عَنْ سُفْيَانَ، عَنْ خَالِدٍ الْحَذَّاءِ، عَنْ عَبْدِ اللهِ بْنِ الْحَارِثِ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: ((كَانَ لِنَعْلِ رَسُولِ اللهِ ﷺ قِبَالانِ، مَثْنِيٌّ شِرَاكُهُمَا)).

---

[1] İmam Əbu İsa ət-Tirmizi bu fəsildə Peyğəmbərin ﷺ səndəllərinin nə cür olduğunu və ona dair hökmləri xəbər verən hədisləri varid etmişdir. Səndələ gəlincə, qeyd etmək lazımdır ki, bunun da hökmü libasın hökmü kimidir. Yəni, adam istədiyi səndəli, istədiyi ayaqqabını geyinə bilər. Bir şərtlə ki, bu geyim kafirlərə məxsus olmasın, yaxud murdar dəridən hazırlanmış olmasın və s. şəriətə müxalif olan geyim olmasın.

[2] Cəzəri demişdir: "Rəsulullahın ﷺ səndəlinin iki bağı var idi. Onlardan birini baş barmağı ilə onun yanındakı barmağın arasına, digərini isə orta barmağı ilə onun yanındakı barmağın arasına keçirərdi" (Tohfətul-Əhvəzi, 1695-ci hədisin şərhi).

[3] Bu hədisi Buxari (5519), Əbu Davud (4134), Nəsai (5367), Tirmizi (1773) və İbn Macə (3614) rəvayət etmişdir.

(76) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Rəsulullahın ﷺ səndəlinin (hər bir tayının) iki bağı var idi. Bu səndəllərin qaytanları isə cütləşdirilmişdi.[1]"[2]

٧٧- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا أَبُو أَحْمَدَ الزُّبَيْرِيُّ، قَالَ: حَدَّثَنَا عِيسَى بْنُ طَهْمَانَ، قَالَ: ((أَخْرَجَ إِلَيْنَا أَنَسُ بْنُ مَالِكٍ نَعْلَيْنِ جَرْدَاوَيْنِ، لَهُمَا قِبَالانِ)).

قَالَ: فَحَدَّثَنِي ثَابِتٌ بَعْدُ عَنْ أَنَسٍ، أَنَّهُمَا كَانَتَا نَعْلَيِ النَّبِيِّ ﷺ.

(77) ..... İsa ibn Tahman demişdir: "Ənəs ibn Malik, (aşılandıqdan sonra) üzərində tük qalmamış dəridən tikilmiş, (hər tayının) iki bağı olan bir cüt səndəl çıxardıb, bizə göstərdi.[3]"

---

[1] Yəni, bu qaytanların hər biri, cütləşdirilmiş iki nazik qayışdan ibarət idi.

[2] Bu hədisi İbn Macə (3614) rəvayət etmişdir və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Səhabələr təbərruk etmək məqsədilə Peyğəmbərə ﷺ xas olan bu kimi əşyaları saxlayardı. Kimisi onun tükünü, kimisi cübbəsini, kimisi səndəlini və kimisi də başqa bu kimi ona məxsus şeyləri saxlayardılar. Uca Allah məxsusi olaraq Peyğəmbərin ﷺ vücudunu mübarək etmişdir. İmam Buxari öz "Səhih"ində, Xums kitabında ayrıca fəsildə bu xüsusda varid olan hədisləri nəql etmiş və bu fəsilə belə bir ad qoymuşdur: "Peyğəmbərin ﷺ zirehi, əsası, qılıncı, qədəhi və üzüyü barəsində, habelə, ondan sonra gələn xəlifələrin bu bölüşdürülməmiş əşyalardan istifadə etməsi barədə, həmçinin Peyğəmbərin ﷺ vəfatından sonra səhabələrinin və başqalarının onun saçı, səndəli və

Daha sonra Sabit (əl-Bunani) mənə xəbər verdi ki, Ənəs demişdir: "Bu, Peyğəmbərin ﷺ səndəlləri idi."[1]

٧٨- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى الأَنْصَارِيُّ، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكٌ، قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ أَبِي سَعِيدٍ الْمَقْبُرِيُّ، عَنْ عُبَيْدِ بْنِ جُرَيْجٍ، أَنَّهُ قَالَ لابْنِ عُمَرَ: ((رَأَيْتُكَ تَلْبَسُ النِّعَالَ السِّبْتِيَّةَ))، قَالَ: ((إِنِّي رَأَيْتُ رَسُولَ اللهِ ﷺ يَلْبَسُ النِّعَالَ الَّتِي لَيْسَ فِيهَا شَعَرٌ، وَيَتَوَضَّأُ فِيهَا، فَأَنَا أُحِبُّ أَنْ أَلْبَسَهَا)).

---

qabları vasitəsilə bərəkət diləməsi haqqında deyilənlər." Demək, səhabələr dəstəmaz suyu, saçı, tüpürcəyi, cübbəsi, bürüncəyi, köynəyi, izarı, ridası, zirehi, əsası, qılıncı, qədəhi, üzüyü və s. Peyğəmbərə ﷺ xas olan şeylərlə Allahdan bərəkət diləyərdilər. Tabiinlər də, həmçinin Peyğəmbərə ﷺ məxsus olan şeylərlə təbərruk edərdilər. Asim rəvayət edir ki, İbn Sirin demişdir: "*Bir dəfə* mən Abidəyə dedim: "Bizdə Peyğəmbərin ﷺ tükü var. Onu bizə Ənəs (yaxud Ənəsin ailəsi) verib." Abidə dedi: "Peyğəmbərin ﷺ bir tükünün məndə olması mənim üçün dünya və onun üzərindəkilərdən daha sevimlidir" (Səhih əl-Buxari, 165). Bu da, ona dəlalət edir ki, səhabələr və onlardan sonra gələnlər Peyğəmbərə ﷺ xas olan şeylərlə təbərruk edərdilər. Onu da qeyd etmək lazımdır ki, Peyğəmbərdən ﷺ savayı, kimliyindən asılı olmayaraq, heç bir kəsin nə vücudu ilə, nə də ona xas olan əşyalarla təbərruk etmək olmaz. Əgər buna izin verilmiş olsaydı, səhabələr raşidi xəlifələrin, Cənnətlə müjdələnmişlərin, habelə, tabiinlər də səhabələrin vücudu ilə təbərruk edərdilər. Bu dini ən yaxşı bilən insanların bunu etməməsi, Peyğəmbərdən ﷺ savayı, kimsənin vücudu ilə təbərruk etməyin qadağan olunmasına dəlalət edir.

[1] Bu hədisi Buxari (2940) rəvayət etmişdir.

(78) ..... Səid ibn Əbu Səid əl-Məqburi[1] rəvayət edir ki, (bir dəfə) Ubeyd ibn Cureyc İbn Ömərə: "Mən sənin aşılanmış və üzərində tük qalmamış dəridən səndəl geydiyini gördüm." İbn Ömər də ona belə cavab verdi: "Mən Rəsulullahın ﷺ (aşılandıqdan sonra) üzərində tük qalmamış dəridən səndəl geydiyini və bu səndəllərdə dəstəmaz aldığını[2] gördüm. Elə buna görə, mən də səndəl geyməyi xoşlayıram."[3]

٧٩- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، عَنْ مَعْمَرٍ، عَنِ ابْنِ أَبِي ذِئْبٍ، عَنْ صَالِحٍ مَوْلَى التَّوْءَمَةِ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: ((كَانَ لِنَعْلِ رَسُولِ اللهِ ﷺ قِبَالانِ)).

(79) ..... Əbu Hureyrə ؓ demişdir: "Rəsulullahın ﷺ səndəlinin (hər tayının) iki bağı var idi."[4]

٨٠- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا أَبُو أَحْمَدَ، حَدَّثَنَا سُفْيَانُ، عَنِ السُّدِّيِّ، قَالَ: حَدَّثَنِي مَنْ سَمِعَ عَمْرَو بْنَ حُرَيْثٍ، يَقُولُ: ((رَأَيْتُ رَسُولَ اللهِ ﷺ، يُصَلِّي فِي نَعْلَيْنِ مَخْصُوفَتَيْنِ)).

---

[1] Adı: Keysan ibn Səiddir.

[2] Yəni, bu səndəllər ayağında ikən dəstəmaz alar, ayaqlarını tam şəkildə yuyardı, yaxud dəstəmaz aldıqdan sonra ayaqları yaş-yaş bu səndəlləri ayağına geyinərdi.

[3] Bu hədisi Buxari (5513), Muslim (1187), Əbu Davud (1772), Nəsai (5244) və Əhməd (2/17) rəvayət etmişdir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

(80) ..... Amr ibn Hureys[1] ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ, altlığı [2] olan səndəllərdə namaz qıldığını [3] görmüşəm."[4]

٨١- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى الأَنْصَارِيُّ، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنْ أَبِي الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ رَسُولَ اللهِ ﷺ قَالَ: ((لا يَمْشِيَنَّ أَحَدُكُمْ فِي نَعْلٍ وَاحِدَةٍ، لِيُنْعِلْهُمَا جَمِيعًا، أَوْ لِيُحْفِهِمَا جَمِيعًا)).

---

[1] Amr ibn Hureys ibn Amr ibn Osman əl-Məxzumi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Peyğəmbər ﷺ vəfat etdiyi zaman onun on iki yaşı var idi. Hicrətin 85-ci ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 70-ci tərcümeyi-hal).

[2] Ayaqqabının altına vurulan və ya tikilən dəri, rezin və s. İmam Əhmədin rəvayət etdiyi hədisdə Peyğəmbərin ﷺ bu altlığı, səndəllərinə öz əli ilə bərkitdiyi xəbər verilir. Urva ibn Zubeyr rəvayət etmişdir ki, Aişədən ﷺ: "Peyğəmbər ﷺ evdə nə iş görərdi?"– deyə soruşulduqda, o, belə cavab vermişdir: "Peyğəmbər ﷺ paltarını özü tikər, səndəllərinə altlıq vurar və kişinin öz evində gördüyü işləri görərdi" (Musnəd imam Əhməd, 6/260; Şueyb əl-Arnavut bu hədisin "səhih" olduğunu demişdir).

[3] Döşəməsi xalça, palaz və s. bu kimi döşəmələr olan yerlərdə ayaqqabı ilə namaz qılmaq bəyənilmir. Lakin imkan daxilində, münasib yerlərdə bu sünnəni tətbiq etmək Peyğəmbərin ﷺ sünnəsinə riayət etmək deməkdir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Ayaqqabılarınızda namaz qılın" (Mocəm əl-Kəbir, 7018; Səhih əl-Cami, 3790).

[4] Bu hədisi Əhməd (4/307) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

(81) ..... Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Heç biriniz səndəlinin[1] ancaq bir tayını geyib gəzməsin. Ya ikisini də geyinsin, ya da ikisini də çıxartsın."[2]

٨٢- حَدَّثَنَا قُتَيْبَةُ، عَنْ مَالِكٍ، عَنْ أَبِي الزِّنَادِ نَحْوَهُ.

(82) Bizə Quteybə Malik (ibn Ənəsdən), o da, Əbu Zinaddan (öncəki) hədisin bənzərini rəvayət etmişdir.[3]

٨٣- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرٍ، أَنَّ النَّبِيَّ ﷺ نَهَى أَنْ يَأْكُلَ، يَعْنِي الرَّجُلَ، بِشِمَالِهِ، أَوْ يَمْشِيَ فِي نَعْلٍ وَاحِدَةٍ.

(83) ..... Cabir ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ kişiyə[4] sol əl ilə yeməyi,[5] habelə, səndəlin bir tayını geyib gəzməyi[1] qadağan etmişdir.[2]

---

[1] Burada "səndəl" deyildikdə, hər növ ayaqqabı buna aid edilir.

[2] Bu hədisi Buxari (5518), Muslim (2097), Əbu Davud (4136), Tirmizi (1775), Nəsai (5369), İbn Macə (3617) və Əhməd (2/245) rəvayət etmişdir.

[3] 6-cı hədisin izahına bax.

[4] Burada "kişi" deyildikdə, bu qadağa qadınlara da şamil edilir. Belə ki, şəriətin kişilərə buyurduğu əmr və qadağalar qadınlara da aiddir. Yalnız ikisindən birinə aid edilmiş xüsusi əmr və qadağalardan başqa.

[5] Digər hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizdən heç biriniz sol əli ilə yeməsin və sol əli ilə içməsin. Çünki şeytan sol əli ilə yeyər və sol əli ilə içər." Nafi əlavə edib deyərdi: "Sol əli ilə almasın

٨٤- حَدَّثَنَا قُتَيْبَةُ، عَنْ مَالِكٍ ح: قَالَ: وَحَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنْ أَبِي الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي

---

və sol əli ilə verməsin" (Ədəbul-Mufrəd, 1189); başqa bir hədisdə Sələmə ibn Əkva ﷺ rəvayət edir ki, bir kişi Peyğəmbərin ﷺ yanında sol əli ilə yemək yeyərkən, Peyğəmbər ﷺ ona: "Sağ əlinlə ye!"– deyə buyurdu. Adam *istehza ilə*: "Bacarmıram"– dedi. Peyğəmbər ﷺ də: "Heç bacarmayasan!"– deyə ona bəddua etdikdən sonra dedi: "Bu adama sağ əli ilə yeməyə ancaq təkəbbürlüyü mane oldu." (Sələmə ibn Əkva ﷺ rəvayət edir ki,) bundan sonra həmin adam sağ əlini ağzına apara bilmədi (həmin əli iflic oldu)" (Səhih Muslim, 5387).

[1] Bunun hikməti belə izah edilmişdir: birincisi, belə etməmək lazımdır ki, müsəlman şeytana oxşamasın. Əbu Hureyrənin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Şeytan bir tay ayaqqabıda gəzir" (Muşkilul-Əsar, 2/142; Silsilətul-Əhadisis-Səhihə, 348). İkincisi, belə etməmək lazımdır ki, bədənə zülm olmasın. Belə ki, bir tay ayaqqabıda yeridikdə, çılpaq ayağa əziyyət vermiş oluruq. İslam şəriəti bədənə əziyyət verməyi qadağan etmişdir. Bu xüsusda İbn Qeyyim qeyd edir ki, şeyximiz (İbn Teymiyyə) demişdir: "Bu, Allahın və Onun rəsulunun ﷺ adillik baxımından məhəbbətinin kamilliyindəndir. Belə ki, Allah insana (hər bir işdə), hətta öz vücudu ilə belə ədalətli rəftar etməyi əmr etmişdir. Peyğəmbər ﷺ başın bir hissəsini qırxıb bir hissəsini saxlamağı qadağan etmişdir. Belə ki, başın bir hissəsində tük saxlayıb digər hissəni qırxmaq başa zülm etməkdir. Bunun bənzəri: yarı günəşdə, yarı kölgədə oturmaqdır ki, bu da, bədənə zülm etməkdir. Habelə, bir tay ayaqqabıda gəzmək də, ayağa əziyyətdir. Odur ki, ayaqqabıların ya ikisini də geyinmək, ya da ikisini də soyunmaq gərəkdir" (Tohfətul-Movdud bi Əhkamil-Movlud, 1/100).

[2] Bu hədisi Muslim (299), Əbu Davud (4137), Nəsai (9798) və Əhməd (3/293) rəvayət etmişdir.

هُرَيْرَةَ، أَنَّ النَّبِيَّ ﷺ، قَالَ: ((إِذَا انْتَعَلَ أَحَدُكُمْ فَلْيَبْدَأْ بِالْيَمِينِ، وَإِذَا نَزَعَ فَلْيَبْدَأْ بِالشِّمَالِ، فَلْتَكُنِ الْيُمْنَى أَوَّلَهُمَا تُنْعَلُ، وَآخِرَهُمَا تُنْزَعُ)).

(84) ..... Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən biriniz ayaqqabılarını geyindikdə sağ tayından,[1] çıxartdıqda isə sol tayından başlasın. Qoy sağ tayı geyinəndə birinci, çıxaranda isə sonuncu olsun."[2]

٨٥- حَدَّثَنَا أَبُو مُوسَى مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، قَالَ: حَدَّثَنَا أَشْعَثُ هُوَ ابْنُ أَبِي الشَّعْثَاءِ، عَنْ أَبِيهِ، عَنْ مَسْرُوقٍ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كَانَ رَسُولُ اللهِ ﷺ يُحِبُّ التَّيَمُّنَ مَا اسْتَطَاعَ فِي تَنَعُّلِهِ، وَتَرَجُّلِهِ وَطُهُورِهِ)).

(85) ..... Aişə ﷺ demişdir: "Rəsulullah ﷺ ayaqqabılarını geyindikdə, saçını daradıqda və yuyunduqda bacardığı qədər sağdan başlamağı xoşlayardı.[3]"[4]

---

[1] Başqa bir hədisdə Ənəs ibn Malik ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ ayaq üstə durub ayaqqabı geyinməyi qadağan etmişdir (Sunən ət-Tirmizi, 1887; Səhih əl-Cami, 6848). Qeyd etmək lazımdır ki, bu, ayaq üstə geyinilməsi çətin olan ayaqqabılara aiddir (Tohfətul-Əhvəzi, 4/474; Şərh Riyad əs-Salihin, 1651-ci hədisin şərhi).

[2] Bu hədisi Buxari (5517), Əbu Davud (4139), Tirmizi (1780), İbn Macə (3616) və Əhməd (2/233) rəvayət etmişdir.

[3] 34-cü hədisin şərhinə bax.

[4] Bu hədisi Buxari (5516), Muslim (268), Əbu Davud (4140), Tirmizi (608), Nəsai (112) və İbn Macə (401) rəvayət etmişdir.

٨٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ مَرْزُوقٍ أَبُو عَبْدِ اللهِ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ قَيْسٍ أَبُو مُعَاوِيَةَ، قَالَ: حَدَّثَنَا هِشَامٌ، عَنْ مُحَمَّدٍ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: ((كَانَ لِنَعْلِ رَسُولِ اللهِ ﷺ قِبَالانِ وَأَبِي بَكْرٍ وَعُمَرَ، وَأَوَّلُ مَنْ عَقَدَ عَقْدًا وَاحِدًا عُثْمَانُ رضي الله عنه)).

(86) ..... Əbu Hureyrə رضي الله عنه demişdir: "Rəsulullahın ﷺ səndəlinin (hər tayının) iki bağı var idi. Əbu Bəkrin və Ömərin (səndəlləri) də habelə.[1] İlk dəfə *səndəlinə* bir bağ vuran Osman رضي الله عنه olmuşdur."[2]

[1] Yəni, onların da səndəllərinin hər tayının iki bağı var idi.

[2] Bu hədisin isnadında keçən Abdur-Rəhman ibn Qeys "mətruk" ravidir (Təqib ət-Təhzib). Elə bu səbəbdən də bu hədis "zəif" hesab edilir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

١٢- بَاب ما جاء في ذِكْر خَاتم رسول الله ﷺ

12-ci fəsil. Rəsulullahın ﷺ üzüyü barədə varid olanlar

٨٧- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، وَغَيْرُ وَاحِدٍ، عَنْ عَبْدِ اللهِ بْنِ وَهْبٍ، عَنْ يُونُسَ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ ، قَالَ: ((كَانَ خَاتَمُ النَّبِيِّ ﷺ مِنْ وَرِقٍ، وَكَانَ فَصُّهُ حَبَشِيًّا)).

(87) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbərin ﷺ üzüyü gümüşdən idi.[1] Onun qaşı həbəş (əqiqindən[2]) idi."[3]

٨٨- حَدَّثَنَا قُتَيْبَةُ قَالَ حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ أَبِي بِشْرٍ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، أَنَّ النَّبِيَّ ﷺ اتَّخَذَ خَاتَمًا مِنْ فِضَّةٍ، فَكَانَ يَخْتِمُ بِهِ وَلا يَلْبَسُهُ.

قَالَ أَبُو عِيسَى : أَبُو بِشْرٍ اسْمُهُ جَعْفَرُ بْنُ أَبِي وَحْشِيَّةَ.

---

[1] Bu hədis gümüş üzük geyməyin mübah olduğuna dəlalət edir. Yeri gəlmişkən, qeyd edək ki, kişilərə qızıl üzük taxmaq haramdır.

[2] Əqiq: müxtəlif rənglərə çalan laylardan ibarət olan, qiymətli daş kimi müxtəlif bəzək əşyaların hazırlanmasında istifadə edilən bərk mineral. Ehtimal olunur ki, üzüyün qaşı yox, özü həbəş üzüklərinə bənzəyirdi.

[3] Bu hədisi Buxari (5532), Muslim (2094), Əbu Davud (4216), Tirmizi (1739), Nəsai (5196), İbn Macə (3641) və Əhməd (3/209) rəvayət etmişdir.

(88) ..... İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ (özü üçün) gümüşdən üzük düzəltdirdi. O, bu üzüklə (məktubları) möhürləyər və onu (barmağına) taxmazdı.

Əbu İsa (ət-Tirmizi) demişdir: Əbu Bişrin adı – Cəfər ibn Əbu Vəhşiyyədir.[1]

٨٩- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلاَنَ، قَالَ حَدَّثَنَا حَفْصُ بْنُ عُمَرَ بْنِ عُبَيْدٍ هُوَ الطَّنَافِسِيُّ، قَالَ حَدَّثَنَا زُهَيْرٌ أَبُو خَيْثَمَةَ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ خَاتَمُ رَسُولِ اللهِ ﷺ، مِنْ فِضَّةٍ، فَصُّهُ مِنْهُ)).

(89) ..... Ənəs ibn Malik رضي الله عنه demişdir: Peyğəmbərin ﷺ üzüyü gümüşdən idi. Həmçinin, qaşı da gümüşdən idi.[2"3]

٩٠- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ حَدَّثَنَا مُعَاذُ بْنُ هِشَامٍ، قَالَ حَدَّثَنِي أَبِي، عَنْ قَتَادَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((لَمَّا أَرَادَ رَسُولُ اللهِ ﷺ أَنْ

---

[1] Bu hədisi Əhməd (2/68) rəvayət etmişdir. Muhəmməd Nasiruddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində demişdir: "Bu hədisin mətnindəki "və onu (barmağına) taxmazdı" sözü "zəif", qalan hissəsi isə "səhih"dir.

[2] İbn Həcər bu hədisi izah edərkən demişdir: "Bu rəvayət digər rəvayətə: "qaşı həbəş *əqiqindən* idi" hədisinə zidd deyildir. Ehtimal edilir ki, Peyğəmbərin iki üzüyü var imiş. Biri qaşı həbəş əqiqindən, yaxud daşından, yaxud da ağac parçasından olan üzük. Çünki bütün bu qaşlar Həbəşistan diyarından gətirilirdi. Və ehtimal edilir ki, bu üzüyün zahiri görünüşü, yaxud üzərindəki nəqşləri görünüşcə həbəş üzüyünə bənzəyirdi" (Fəthul-Bari, 5532-ci hədisin şərhi).

[3] Bu hədisi Buxari (5532), Əbu Davud (4217), Tirmizi (1740) Nəsai (5198) və Əhməd (3/266) rəvayət etmişdir.

يَكْتُبَ إِلَى الْعَجَمِ قِيلَ لَهُ: ((إِنَّ الْعَجَمَ لا يَقْبَلُونَ إِلا كِتَابًا عَلَيْهِ خَاتَمٌ))، فَاصْطَنَعَ خَاتَمًا، فَكَأَنِّي أَنْظُرُ إِلَى بَيَاضِهِ فِي كَفِّهِ)).

(90) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ əcəmlərə[1] məktub yazmaq istədikdə,[2] ona: "Əcəm (hökmdarları) yalnız üzərində möhür olan məktubları qəbul edirlər"– deyildi. Beləliklə də, Rəsulullah ﷺ üçün gümüşdən üzük düzəltdilər.[3] Bu üzüyün Peyğəmbərin ﷺ əlində iz qoymuş ağlığı[4] hələ də gözlərimin önündədir."[5]

---

[1] Keçmişdə ərəb olmayan xalqlara və onların nümayəndələrinə verilən ad. Burada "əcəmlər" deyildikdə, onların hökmdarları nəzərdə tutulur.

[2] Mubarakfuri qeyd edir ki, İbn Həcər demişdir: "Əbul-Fəth əl-Yəmuri rəvayət edir ki, bəziləri Rəsulullahın ﷺ bu üzüyü hicrətin yeddinci ilində, bəziləri altıncı ilində, bəziləri də altıncı ilin axırında və yeddinci ilin əvvəlində düzəltdirdiyini demişlər. Belə ki, o, bu üzüyü əcəm hökmdarlarına məktub yazmaq istədiyi zaman düzəltdirmişdir. Bu məktubları da o, hicrətin altıncı ilinin zilqidə ayında Məkkə müşrikləri ilə sülh bağladıqdan sonra, hicrətin yeddinci ilinin zilhiccə ayında Mədinəyə qayıtdıqdan sonra yazmış və hicrətin yeddinci ilində muhərrəm ayında öz elçilərini həmin hökmdarların yanına göndərmişdir. O, üzüyü də həmin vaxt o məktubları yazmamışdan əvvəl düzəltdirmişdir" (Tohfətul-Əhvəzi, 2642-ci hədisin şərhi).

[3] Bu hədisdən Peyğəmbərin ﷺ nə üçün gümüş üzük düzəltdirməyinin səbəbi aydın olur.

[4] Bu dəlildir ki, Peyğəmbər ﷺ həmin üzüyü barmağına taxarmış. Lakin qeyd etmək lazımdır ki, o, bunu sünnə olduğunu bəyan etmək üçün deyil, sadəcə, möhür vurmaq üçün gəzdirərdi.

[5] Bu hədisi Buxari (5537), Muslim (2092), Əbu Davud (4214), Tirmizi (2719), Nəsai (5201) və Əhməd (3/168) rəvayət etmişdir.

٩١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يَحْيَى، قَالَ حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ اللهِ الأَنْصَارِيّ، قَالَ حَدَّثَنِي أَبِي، عَنْ ثُمَامَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ نَقْشُ خَاتَمِ رَسُولِ اللهِ ﷺ: ((مُحَمَّدٌ سَطْرٌ، وَرَسُولٌ سَطْرٌ، وَاللَّهُ سَطْرٌ)).

(91) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullahın ﷺ üzüyünün nəqşi[1] belə idi: "(Bir) sətirdə "Muhəmməd", (digər) sətirdə "Rəsul" və (o biri) sətirdə "Allah"[2] (sözü həkk edilmişdi)."[3]

٩٢- حَدَّثَنَا نَصْرُ بْنُ عَلِيٍّ الْجَهْضَمِيُّ أَبُو عَمْرٍو، قَالَ حَدَّثَنَا نُوحُ بْنُ قَيْسٍ، عَنْ خَالِدِ بْنِ قَيْسٍ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ النَّبِيَّ ﷺ كَتَبَ

---

[1] Yəni, Peyğəmbərin ﷺ üzüyünün üstündəki qaşa və ya gümüşə: "Muhəmməd, Rəsul və Allah" kəlmələri alt-alta həkk edilmişdi. İbn Həcər demişdir: "Bəzi şeyxlərin: "bu kəlmələr aşağıdan yuxarıya doğru yazılmışdı"– yəni, "Allah" kəlməsi birinci sətirdə, Muhəmməd kəlməsi axırıncı sətirdə yazılmışdı" sözünü sübuta yetirən tutarlı bir dəlil görmürəm. Əksinə, İsmailinin rəvayətində deyilir ki, üzüyün üstündə bir sətirdə "Muhəmməd", ikinci sətirdə "Rəsul" və üçüncü sətirdə "Allah" sözü həkk edilmişdi" (Fəthul-Bari).

[2] Başqa rəvayətdə Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ (özünə) gümüşdən üzük düzəltdirdi və üstünə: "Muhəmmədun Rəsulullah" sözünü yazdırdı, sonra da belə buyurdu: "Mən gümüşdən üzük düzəltdirib üstünə: "Muhəmmədun Rəsulullah" sözünü yazdırmışam. Odur ki, heç kəs öz üzüyünün üstünə belə bir yazı yazdırmasın" (Səhih əl-Buxari, 5877).

[3] Bu hədisi Buxari (5540) və Tirmizi (1747) rəvayət etmişdir.

إِلَى كِسْرَى وَقَيْصَرَ وَالنَّجَاشِيِّ، فَقِيلَ لَهُ: ((إِنَّهُمْ لا يَقْبَلُونَ كِتَابًا، إِلا بِخَاتَمٍ))، فَصَاغَ رَسُولُ اللهِ ﷺ، خَاتَمًا حَلْقَتُهُ فِضَّةٌ، وَنُقِشَ فِيهِ: ((مُحَمَّدٌ رَسُولُ اللهِ)).

(92) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Xosrova, Qeysərə və Nəcaşiyə məktub yazmaq istədikdə, ona: "Onlar yalnız üzərində möhür olan məktubları qəbul edirlər"– deyildi. Beləliklə də, Rəsulullah ﷺ üçün qaşı da gümüşdən olan bir üzük hazırlandı. Onun üzərinə: "Muhəmmədun Rəsulullah" (sözü) həkk edilmişdi."[1]

٩٣– حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ حَدَّثَنَا سَعِيدُ بْنُ عَامِرٍ، وَالْحَجَّاجُ بْنُ مِنْهَالٍ، عَنْ هَمَّامٍ، عَنِ ابْنِ جُرَيْجٍ، عَنِ الزُّهْرِيِّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا دَخَلَ الْخَلاءَ نَزَعَ خَاتَمَهُ.

(93) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ ayaqyoluna girdikdə üzüyünü (barmağından) çıxarardı.[2]

٩٤– حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ نُمَيْرٍ، قَالَ حَدَّثَنَا عُبَيْدُ اللهِ بْنُ عُمَرَ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، قَالَ: ((اتَّخَذَ رَسُولُ اللهِ ﷺ، خَاتَمًا مِنْ وَرِقٍ، فَكَانَ فِي يَدِهِ ثُمَّ كَانَ فِي يَدِ أَبِي بَكْرٍ، وَيَدِ عُمَرَ، ثُمَّ كَانَ فِي يَدِ عُثْمَانَ، حَتَّى وَقَعَ فِي بِئْرِ أَرِيسٍ، نَقْشُهُ: مُحَمَّدٌ رَسُولُ اللهِ)).

---

[1] Bu hədisi Muslim (2092) rəvayət etmişdir.

[2] Əbu Davud bu hədisin "munkər" hədis olduğunu, Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində onun "zəif" olduğunu demişdir.

(94) ..... İbn Ömər رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ özünə gümüş üzük düzəltdirdi və (vəfat edənədək) bu üzükdən istifadə etdi.[1] Ondan sonra Əbu Bəkr, sonra Ömər, sonra da Osman bu üzükdən istifadə etdilər. Nəhayət, bu üzük Əris quyusuna[2] düşdü.[3] Onun üzərinə: "Muhəmmədun Rəsulullah" (sözü) həkk edilmişdi."[4]

[1] Burada "istifadə etdi" deyildikdə, həmin üzüyü barmağına taxmaq və məktublara onunla möhür vurmaq nəzərdə tutulur.

[2] Bu quyu Mədinədə, Quba məscidinin yaxınlığında yerləşirdi.

[3] Ənəs ibn Malik demişdir: "Peyğəmbərin ﷺ üzüyü *əvvəlcə* özündə idi. *O vəfat etdikdən* sonra Əbu Bəkr, Əbu Bəkrdən sonra da Ömər bu üzüyü geydilər. Nəhayət, bu üzük Osmanda ikən o gəlib Əris quyusunun başında oturdu və üzüyü barmağından çıxardıb, o üz-bu üzə çevirərkən üzük quyuya düşdü. Biz Osmanla birgə üç gün üzüyü quyuda axtardıq, lakin onu tapa bilmədik" (Səhih əl-Buxari, 5879).

[4] Bu hədisi Buxari (5535), Muslim (2091), Əbu Davud (4218), Nəsai (5293) və Əhməd (2/22) rəvayət etmişdir.

١٣– بَاب ما جاء في أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَتَخَتَّم فِي يَمِينه

13-cü fəsil. Peyğəmbərin ﷺ üzüyü sağ əlinə taxması[1] barədə varid olanlar

[1] İmam Əbu İsa ət-Tirmizi bu fəslə belə ünvan qoymaqla Peyğəmbərin ﷺ üzüyü sağ əlinin barmağına geydiyini bildirir. İmam Əbu Davud isə bu hədisləri öz kitabında varid etmiş və Peyğəmbərin ﷺ üzüyü həm sağ əlinin, həm də sol əlinin barmağına geydiyini xəbər vermişdir. Rəvayətlərə nəzər salan adam Peyğəmbərin ﷺ hər iki əlinə üzük geydiyini görə bilər. Demək, istər sağ, istərsə də sol əlin barmağına üzük taxmaq olar. Hansı barmağa üzük taxmaq məsələsinə gəlincə, qeyd etmək lazımdır ki, Peyğəmbər ﷺ orta və işarə barmaqlarına üzük geyməyi qadağan etmişdir. Rəvayət edilir ki, Əli ibn Əbu Talib ؓ orta və işarə barmağını göstərib demişdir: "Rəsulullah ﷺ mənə bu və bu barmağıma üzük geyməyi qadağan etmişdir" (Səhih Muslim, 2095). Onu da qeyd edək ki, mötəbər hədislərdə Peyğəmbərin ﷺ üzüyü çeçələ barmağına geydiyi varid olmuşdur. Rəvayət edilir ki, Ənəs ibn Malik ؓ: "Peyğəmbərin ﷺ üzüyü bu barmağında idi"– demiş və sol əlinin çeçələ barmağına işarə etmişdir" (Səhih Muslim, 2095). İslam alimləri bu xüsusda rəvayət edilmiş hədislərə əsaslanaraq barmağa üzük geyməyin hökmünü üç qismə bölmüşlər: üzüyü çeçələ barmağa taxmaq müstəhəb, orta və işarə barmaqlarına taxmaq qadağan, adsız barmağa taxmaq mübah və nəhayət baş barmağa taxmaq bəzilərinin rəyinə görə mübah, bəzilərininkinə görə isə qadağan hesab edilir. İmam Nəvəvi bu xüsusda demişdir: "Müsəlmanlar yekdil rəydədirlər ki, kişilər üçün üzüyü çeçələ barmağına taxmaq sünnədir. Qadın isə üzüyü istədiyi barmağına taxa bilər" (3908-ci hədisin şərhi).

٩٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَهْلِ بْنِ عَسْكَرٍ الْبَغْدَادِيُّ، وَعَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالا: أَخْبَرَنَا يَحْيَى بْنُ حَسَّانَ، قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلالٍ، عَنْ شَرِيكِ بْنِ عَبْدِ اللهِ بْنِ أَبِي نَمِرٍ، عَنِ إِبْرَاهِيمَ بْنِ عَبْدِ اللهِ بْنِ حُنَيْنٍ، عَنِ أَبِيهِ، عَنْ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ: ((أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَلْبَسُ خَاتَمَهُ فِي يَمِينِهِ)).

(95) ..... Əli ibn Əbu Talib ﷺ demişdir: "Peyğəmbər ﷺ üzüyü sağ əlinin barmağına taxardı."[1]

٩٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يَحْيَى، قَالَ حَدَّثَنَا أَحْمَدُ بْنُ صَالِحٍ، قَالَ حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ وَهْبٍ، عَنْ سُلَيْمَانَ بْنِ بِلالٍ، عَنْ شَرِيكِ بْنِ عَبْدِ اللهِ بْنِ أَبِي نَمِرٍ، نَحْوَهُ.

(96) Muhəmməd ibn Yəhya bizə demişdir ki, Əhməd ibn Saleh bizə belə rəvayət etmişdir: "Bizə, Abdullah ibn Vəhb Süleyman ibn Bilaldan, o da, Şərik ibn Abdullah ibn Əbu Nəmirdən bu hədisin bənzərini rəvayət etmişdir."

٩٧- حدثنا أحمد بن منيع، قَالَ حدثنا يزيد بن هارون، عن حماد بن سلمة، قَالَ: رَأَيْتُ اِبْنَ أَبِي رَافِعٍ يَتَخَتَّمُ فِي يَمِينِهِ، فَسَأَلْتُهُ عَنْ ذَلِكَ فَقَالَ: رَأَيْتُ عَبْدَ اللهِ بْنِ جَعْفَرٍ يَتَخَتَّمُ فِي يَمِينِهِ وقَالَ عَبْدُ اللهِ بْنِ جَعْفَرٍ: ((كان النَّبِيُّ ﷺ يتختم فِي يَمِينِهِ)).

---

[1] Bu hədisi Əbu Davud (4226), Nəsai (5203) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

(97) ..... Həmmad ibn Sələmə demişdir: "Mən İbn Əbu Rafinin üzüyü sağ əlinin barmağına geydiyini gördüm və ondan bunun səbəbini soruşdum. O dedi: "Mən Abdullah ibn Cəfərin [1] üzüyü sağ əlinin barmağına geydiyini görmüşəm. Abdullah ibn Cəfər deyərdi: "Rəsulullah ﷺ üzüyü sağ əlinin barmağına taxardı."[2]

٩٨- حَدَّثَنَا يَحْيَى بْنُ مُوسَى، قَالَ حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ نُمَيْرٍ، قَالَ حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْفَضْلِ، عَنْ عَبْدِ اللهِ بْنِ مُحَمَّدِ بْنِ عَقِيلٍ، عَنْ عَبْدِ اللهِ بْنِ جَعْفَرٍ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَتَخَتَّمُ فِي يَمِينِهِ.

(98) ..... Abdullah ibn Cəfər رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ üzüyü sağ əlinin barmağına taxardı."[3]

٩٩- حَدَّثَنَا أَبُو الْخَطَّابِ زِيَادُ بْنُ يَحْيَى، قَالَ حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ مَيْمُونٍ، عَنْ جَعْفَرِ بْنِ مُحَمَّدٍ، عَنْ أَبِيهِ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَتَخَتَّمُ فِي يَمِينِهِ.

---

[1] Əbu Cəfər Abdullah ibn Cəfər ibn Əbu Talib əl-Haşimi əl-Qurəşi رضي الله عنهما Peyğəmbərin ﷺ əmisi nəvəsi və azyaşlı səhabələrindəndir. Atası Mutə döyüşündə şəhid olduqdan sonra Peyğəmbər ﷺ onu öz himayəsinə götürmüşdür (Siyər Əlam ən-Nubələ, 93-cü tərcümeyi-hal).

[2] Bu hədisi Tirmizi (1744), Nəsai (5204) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Bu hədisi İbn Macə (3647) rəvayət etmişdir. Hədisin isnadında keçən İbrahim ibn Fədl əl-Məxzumi "mətruk" ravidir (Təqrib ət-Təhzib). Lakin hədisin mətni "səhih"dir.

(99) ..... Cabir ibn Abdullah رضي الله عنهما rəvayət etmişdir ki, Peyğəmbər ﷺ üzüyü sağ əlinin barmağına taxardı.[1]

١٠٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ حُمَيْدٍ الرَّازِيُّ، قَالَ حَدَّثَنَا جَرِيرٌ، عَنْ مُحَمَّدِ بْنِ إِسْحَاقَ، عَنِ الصَّلْتِ بْنِ عَبْدِ اللهِ، قَالَ: ((كَانَ ابْنُ عَبَّاسٍ، يَتَخَتَّمُ فِي يَمِينِهِ، وَلا إِخَالُهُ إِلا قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ يَتَخَتَّمُ فِي يَمِينِهِ)).

(100) ..... Səlt ibn Abdullah demişdir: "Abdullah ibn Abbas üzüyü sağ əlinin barmağına taxardı. Yadıma gəlir ki, o, belə deyərdi: "Rəsulullah ﷺ üzüyü sağ əlinin barmağına taxardı."[2]

١٠١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ أَبِي عُمَرَ، قَالَ حَدَّثَنَا سُفْيان، عَنْ أَيُّوبَ بْنِ مُوسَى، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، أَنَّ النَّبِيَّ ﷺ اتَّخَذَ خَاتَمًا مِنْ فِضَّةٍ، وَجَعَلَ فَصَّهُ مِمَّا يَلِي كَفَّهُ، وَنَقَشَ فِيهِ مُحَمَّدٌ رَسُولُ اللهِ، وَنَهَى أَنْ يَنْقُشَ أَحَدٌ عَلَيْهِ وَهُوَ الَّذِي سَقَطَ مِنْ مُعَيْقِيبٍ فِي بِئْرِ أَرِيسٍ.

(101) ..... İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ özünə gümüş üzük düzəltdirmişdi. Qaşını da barmağının

---

[1] Bu hədisin isnadında keçən Abdullah ibn Məymun ibn Davud əl-Qəddah "mətruk" ravidir (Təqrib ət-Təhzib). Lakin hədisin mətni səhihdir.

[2] Bu hədisi Əbu Davud (4229), Tirmizi (1742) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "həsən" olduğunu demişdir. Bu hədislərin hamısı bir-birini qüvvətləndirir.

alt tərəfinə keçirmiş [1] və üzərinə: "Muhəmmədun Rəsulullah" sözünü həkk etdirmişdi. Sonra o, kimsənin öz üzüyü üzərinə belə bir yazı həkk etdirməsini qadağan etdi. Bu həmin üzükdür ki, Mueyqibin[2] əlindən Əris quyusuna düşmüşdür."[3]

١٠٢- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ قَالَ: حَدَّثَنَا حَاتِمُ بْنُ إِسْمَاعِيلَ، عَنْ جَعْفَرِ بْنِ مُحَمَّدٍ، عَنْ أَبِيهِ قَالَ: ((كَانَ الْحَسَنُ وَالْحُسَيْنُ يَتَخَتَّمَانِ فِي يَسَارِهِمَا)).

(102) ..... Cəfər ibn Muhəmməd[4] öz atasından[1] belə rəvayət etmişdir: "Həsən və Hüseyn sol əllərinin barmağında üzük gəzdirərdilər."[2]

---

[1] Əli ibn Muhəmməd əl-Hərəvi demişdir: "Alimlər demişlər ki, Peyğəmbər ﷺ bu xüsusda heç bir şey buyurmamışdır. Odur ki, üzüyün qaşını barmağın istər üst tərəfinə, istərsə də alt tərəfinə salmaq olar. Sələflər bunun hər ikisini etmişlər. İbn Abbasdan رضي الله عنهما üzüyün qaşını barmağının üst tərəfinə saldığı varid olmuşdur. Lakin daha əfzəli Peyğəmbərin ﷺ etdiyini etməkdir" (Cəmul-Vəsail fi Şərhiş-Şəmail). Bu da dəlildir ki, Peyğəmbər ﷺ həmin üzüyü gözəl görünmək üçün geyinmirdi, ancaq öz ehtiyacını ödəmək, yəni, onunla möhür vurmaq üçün ondan istifadə etmişdir.

[2] Mueyqib ibn Əbu Fatimə əd-Dovsi رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir. Həbəşistana hicrət edənlərdəndir (Siyər Əlam ən-Nubələ, 102-ci tərcümeyi-hal).

[3] Bu hədisi Buxari (5528), Muslim (2091), Əbu Davud (4218), Nəsai (5216) və İbn Macə (3645) rəvayət etmişdir.

[4] Cəfər ibn Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib əl-Haşimi رحمه الله Cəfər əs-Sadiq kimi tanınır. Hicrətin 80-ci ilində

١٠٣- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عِيسَى وَهُوَ ابْنُ الطَّبَّاعِ، قَالَ: حَدَّثَنَا عَبَّادُ بْنُ الْعَوَّامِ، عَنْ سَعِيدِ بْنِ أَبِي عَرُوبَةَ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّهُ ﷺ كَانَ يَتَخَتَّمُ فِي يَمِينِهِ.

وَقَالَ أَبُو عِيسَى: هَذَا حَدِيثٌ غَرِيبٌ لاَ نَعْرِفُهُ مِنْ حَدِيثِ سَعِيدِ بْنِ أَبِي عَرُوبَةَ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسٍ، عَنِ النَّبِيِّ ﷺ نَحْوَ هَذَا إِلاَّ مِنْ هَذَا الْوَجْهِ. وَرَوَى بَعْضُ أَصْحَابِ قَتَادَةَ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ كَانَ يَتَخَتَّمُ فِي يَسَارِهِ وَهُوَ حَدِيثٌ لاَ يَصِحُّ أَيْضًا.

(103) ..... Ənəs ibn Malik ﷺ demişdir: “Peyğəmbər ﷺ üzüyü sağ əlinin barmağına taxardı.”[3]

Əbu İsa (ət-Tirmizi) demişdir: “Bu, qərib hədisdir. Biz Səid ibn Əbu Arubənin bu hədisi Qətadədən, o da,

---

dünyaya gəlmişdir. Ənəs ibn Malik və Səhl ibn Səd kimi səhabələri görmüşdür. Cəfərin anası – Ummu Fərvə bint əl-Qasim ibn Muhəmməd ibn Əbu Bəkr əs-Siddiqdir ﷺ. Ummu Fərvənin anası isə – Əsma bint Abdur-Rəhman ibn Əbu Bəkr əs-Siddiqdir ﷺ. Ona görə də Cəfər əs-Sadiq demişdir: “Əbu Bəkr əs-Siddiq ﷺ məni iki dəfə dünyaya gətirmişdir” (Siyər Əlam ən-Nubələ, 117-ci tərcümeyi-hal).

[1] Əbu Cəfər əl-Baqir Muhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib əl-Haşimi ﷺ. Hicrətin 56-cı ilində dünyaya gəlmişdir (Siyər Əlam ən-Nubələ, 158-ci tərcümeyi-hal).

[2] Bu hədisi Tirmizi (1734) rəvayət etmiş və və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

[3] Bu hədisi Nəsai (5283) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

Ənəsdən, o da, Peyğəmbərdən ﷺ yalnız bu ləfz ilə rəvayət etdiyini bilirik. Hərçənd, Qətadədən hədis rəvayət etmiş ravilərdən bəziləri Qətadədən, o da, Ənəsdən, Peyğəmbərin ﷺ üzüyü sol əlinin barmağına geydiyini rəvayət etmişlər, lakin bu hədis "səhih" deyildir."

١٠٤ – حَدَّثَنَا مُحَمَّدُ بْنُ عُبَيْدِ اللهِ الْمُحَارِبِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ أَبِي حَازِمٍ، عَنْ مُوسَى بْنِ عُقْبَةَ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، قَالَ: ((اتَّخَذَ رَسُولُ اللهِ ﷺ خَاتَمًا مِنْ ذَهَبٍ، فَكَانَ يَلْبَسُهُ فِي يَمِينِهِ، فَاتَّخَذَ النَّاسُ خَوَاتِيمَ مِنْ ذَهَبٍ فَطَرَحَهُ ﷺ، وَقَالَ: ((لا أَلْبَسُهُ أَبَدًا)) فَطَرَحَ النَّاسُ خَوَاتِيمَهُمْ.

(104) ..... İbn Ömər رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ özünə qızıl üzük düzəltdirmişdi və o, bu üzüyü sağ əlinin barmağına taxardı. Sonra (bəzi) adamlar özləri üçün qızıl üzüklər düzəltdilər. Peyğəmbər ﷺ bunu görəndə (barmağındakı) üzüyü çıxardıb kənara atdı və: "Mən heç vaxt bu üzüyü geyməyəcəyəm"– dedi.[1] Onda həmin adamlar da öz üzüklərini çıxardıb atdılar."[2]

---

[1] Bu hadisə kişilərə qızıl üzük qadağan edilməmişdən əvvəl olmuşdur. Demək, kişilərə qızıl üzük taxmaq əvvəl caiz olmuş, sonra isə onun hökmü nəsx edilmişdir. Bəra ibn Azibdən رضي الله عنه rəvayət edilmişdir ki, Peyğəmbər ﷺ səhabələrinə qızıl üzük geyməyi qadağan etmişdir" (Səhih əl-Buxari, 1239).

[2] Bu hədisi Buxari (5527), Muslim 2091, Əbu Davud (4218), Tirmizi (1741), Nəsai (5214) və Əhməd (2/153) rəvayət etmişdir.

١٤- بَاب سَيْف رسول الله ﷺ

14-cü fəsil. Rəsulullahın ﷺ qılıncı[1]

١٠٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا وَهْبُ بْنُ جَرِيرٍ، قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ قَتَادَةَ، عَنْ أَنَسٍ، قَالَ: ((كَانَتْ قَبِيعَةُ سَيْفِ رَسُولِ اللهِ ﷺ مِنْ فِضَّةٍ)).

(105) ..... Ənəs (ibn Malik) ﷺ demişdir: "Rəsulullahın ﷺ qılıncının qəbzəsinin küpəsi[2] gümüşdən[3] idi."[1]

---

[1] Əli ibn Muhəmməd əl-Hərəvi demişdir: "Müəllif bu fəsildə döyüş sursatlarından sayılan qılınc barədə söz açır. Bu da, döyüşdə daha çox istifadə edilən və daha çox fayda verən silahlardan sayılır. Müəllifin bu fəsli Peyğəmbərin ﷺ üzüyü barədə varid olanlardan sonra gətirməsi o deməkdir ki, Peyğəmbər ﷺ həmişə əvvəlcə hökmdarlara məktub yazıb onları İslam dininə dəvət edər, (əks halda isə qılınca əl atar və) Allaha qarşı çıxdıqlarına görə onlarla vuruşardı" (Cəmul-Vəsail fi Şərhiş-Şəmail). Demək, qələm və dil ilə dəvət etmək, qılıncla vuruşmaqdan öndə durur. Bu fəslin ünvanında "Rəsulullahın ﷺ qılıncı" deyildikdə, sadəcə tək bir qılınc deyil, onun neçə-neçə qılıncları nəzərdə tutulur. İbn Qeyyim ﷺ "Zadul-Məad fi Hədyi Xayril-İbad" əsərində Rəsulullahın ﷺ doqquz qılıncı olduğunu xəbər vermişdir. Bunların adları belə idi: Məsur, Adb, zul-Fiqar, Quləiy, Hətf, Rəsub, Mixzəm, Qədib və Bəttar.

[2] Burada "küpə" deyildikdə, qılıncın dəstəyi ilə tiyəsinin arasındakı, qayıq şəkilli dibcik nəzərdə tututur.

[3] Bu hədisdən belə nəticə çıxır ki, qılınc və başqa bu kimi silahları az miqdarda gümüşlə bəzəmək caizdir.

١٠٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، حَدَّثَنَا مُعَاذُ بْنُ هِشَامٍ، حَدَّثَنِي أَبِي، عَنْ قَتَادَةَ، عَنْ سَعِيدِ بْنِ أَبِي الْحَسَنِ، قَالَ: ((كَانَتْ قَبِيعَةُ سَيْفِ رَسُولِ اللهِ ﷺ مِنْ فِضَّةٍ)).

(106) ..... Səid ibn Əbu əl-Həsən[2] demişdir: "Rəsulullahın ﷺ qılıncının qəbzəsinin küpəsi gümüşdən idi."[3]

١٠٧- حَدَّثَنَا أَبُو جَعْفَرٍ مُحَمَّدُ بْنُ صُدْرَانَ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا طَالِبُ بْنُ حُجَيْرٍ، عَنْ هُودٍ وَهُوَ ابْنُ عَبْدِ اللهِ بْنِ سَعْدٍ، عَنْ جَدِّهِ، قَالَ: ((دَخَلَ رَسُولُ اللهِ ﷺ مَكَّةَ يَوْمَ الْفَتْحِ وَعَلَى سَيْفِهِ ذَهَبٌ، وَفِضَّةٌ)).

قَالَ طَالِبٌ: فَسَأَلْتُهُ عَنِ الْفِضَّةِ، فَقَالَ: ((كَانَتْ قَبِيعَةُ السَّيْفِ فِضَّةً)).

(107) ..... Hud ibn Abdullah ibn Səd öz babasının[4] belə dediyini rəvayət etmişdir: "Rəsulullah ﷺ Fəth günü

---

[1] Bu hədisi Əbu Davud (2583), Tirmizi (1691) və Nəsai (5374) rəvayət etmişdir. Hədisin isnadında keçən Cərir ibn Hazim əl-Əzdi etibarlı ravi olsa da, Qətadədən rəvayət etdiyi hədislərdə xətalara yol vermişdir. Lakin növbəti hədislər bu hədisin dərəcəsini qüvvətləndirir. Elə bu səbəbdən də Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Bu, Həsən əl-Bəsrinin qardaşıdır.

[3] Bu hədisi Əbu Davud (2584), Nəsai (5375) rəvayət etmişdir. Bu, "mursəl" hədisdir, habelə isnadında keçən Muaz ibn Hişam adlı ravi "zəif" ravidir. Hədisin isnadı "zəif" olsa da mətni "səhih"dir.

[4] Adı: Məzidə ibn Malik və ya Məzidə ibn Cabirdir.

Məkkəyə daxil olduqda, onun qılıncının (qəbzəsinin küpəsi) qızıldan və gümüşdən idi.”

Talib (ibn Huceyr) demişdir: “Mən Huddan gümüş barədə soruşdum. Dedi: “Onun qılıncının qəbzəsinin küpəsi gümüşdən idi.”[1]

١٠٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ شُجَاعٍ الْبَغْدَادِيُّ، قَالَ: حَدَّثَنَا أَبُو عُبَيْدَةَ الْحَدَّادُ، عَنْ عُثْمَانَ بْنِ سَعْدٍ، عَنِ ابْنِ سِيرِينَ، قَالَ: صَنَعْتُ سَيْفِي عَلَى سَيْفِ سَمُرَةَ بْنِ جُنْدَبٍ، وَزَعَمَ سَمُرَةُ أَنَّهُ صَنَعَ سَيْفَهُ عَلَى سَيْفِ رَسُولِ اللَّهِ ﷺ وَكَانَ حَنَفِيًّا.

(108) ..... İbn Sirin demişdir: “Mən özüm üçün Səmurə ibn Cundəbin qılıncına bənzər bir qılınc düzəltdirdim. Səmurə ibn Cundəb də özü üçün Peyğəmbərin ﷺ qılıncına bənzər bir qılınc düzəltdirdiyini demişdir. Bu da, Bəni-Hənifə qəbiləsinin (düzəltdiyi qılınclardan idi yaxud o qılınclara bənzəyirdi).”[2]

---

[1] Bu hədisi Tirmizi (1690) rəvayət etmişdir. Hədisin isnadında keçən Hud ibn Abdullah ibn Səd “məchul” ravidir. Elə buna görə, bu hədis “zəif” sayılır (Muxtəsər əş-Şəmail).

[2] Bu hədisi Tirmizi (1683) rəvayət etmişdir. Əbu İsa ət-Tirmizi demişdir: “Bu, qərib hədisdir. Biz bu hədisin yalnız bu yöndən rəvayət edildiyini bilirik.” Yəhya ibn Səid əl-Qəttan, bu hədisin isnadında keçən Osman ibn Səd barədə danışmış və onun hafizəsinin zəif olduğunu bildirmişdir. Habelə İbn Həcər də “Təqrib ət-Təhzib” əsərində onun “zəif” olduğunu demişdir. Muhəmməd Nasirəddin əl-Albani də “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “zəif” olduğunu demişdir.

١٠٩- حَدَّثَنَا عُقْبَةُ بْنُ مُكْرَمٍ الْبَصْرِيُّ قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَكْرٍ، عَنْ عُثْمَانَ بْنِ سَعْدٍ، بِهَذَا الإِسْنَادِ نَحْوِهِ.

(109) Bizə Uqbə ibn Mukrəm əl-Bəsri rəvayət etmişdir: “Bizə, Muhəmməd ibn Bəkr Osman ibn Səddən bu isnadla (öncəki) hədisin bənzərini rəvayət etmişdir.

١٥- بَاب ما جاء في دِرْعِ رسول الله ﷺ

15-ci fəsil. Rəsulullahın ﷺ zirehi[1] barədə varid olanlar

١١٠- حَدَّثَنَا أَبُو سَعِيدٍ عَبْدُ اللهِ بْنُ سَعِيدٍ الأَشَجُّ، قَالَ: حَدَّثَنَا يُونُسُ بْنُ بُكَيْرٍ، عَنْ مُحَمَّدِ بْنِ إِسْحَاقَ، عَنْ يَحْيَى بْنِ عَبَّادِ بْنِ عَبْدِ اللهِ بْنِ الزُّبَيْرِ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ عَبْدِ اللهِ بْنِ الزُّبَيْرِ، عَنِ الزُّبَيْرِ بْنِ الْعَوَّامِ، قَالَ: ((كَانَ عَلَى النَّبِيِّ ﷺ يَوْمَ أُحُدٍ دِرْعَانِ، فَنَهَضَ إِلَى الصَّخْرَةِ فَلَمْ يَسْتَطِعْ، فَأَقْعَدَ طَلْحَةَ تَحْتَهُ، وَصَعِدَ النَّبِيُّ ﷺ حَتَّى اسْتَوَى عَلَى الصَّخْرَةِ، قَالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ، يَقُولُ: ((أَوْجَبَ طَلْحَةُ)).

[1] Zireh: Ox və s. yaralayıcı silahlardan qorunmaq üçün döyüşçülərin üstdən geyindikləri dəmir tordan, yaxud qalın dəridən geyim. Bu fəsildə də həmçinin "Rəsulullahın ﷺ zirehi" deyildikdə, sadəcə tək bir zireh deyil, onun neçə-neçə zirehləri nəzərdə tutulur. İbn Qeyyim "Zadul-Məad fi Hədyi Xayril-İbad" əsərində Rəsulullahın ﷺ yeddi zirehi olduğunu xəbər vermişdir. Bunların adları belə idi: zatul-Fudul, zatul-Vişah, zatul-Həvaşi, Sidiyyə, Fidda, Bətra və Xirnəq.

(110) ..... Zubeyr ibn Əvvam[1] ﷺ demişdir: "Uhud günü[2] Peyğəmbərin ﷺ iki zirehi var idi. (Döyüş əsnasında)

---

[1] Əbu Abdullah Zubeyr ibn Əvvam ibn Xuveylid ﷺ Peyğəmbərin ﷺ səhabəsi və həvarisi, yəni, ən yaxın köməkçisi: onun bibisi Səfiyyə bint Abdul-Muttəlibin ﷺ oğlu, Cənnətlə müjdələnmiş on nəfərdən biri, habelə iki dəfə: əvvəlcə Həbəşistana, sonra da Mədinəyə hicrət edənlərdən olmuşdur (Siyər Əlam ən-Nubələ, 3-cü tərcümeyi-hal). Onun fəzilətinə dair varid olan hədisdə deyilir ki, Əhzab günü Peyğəmbər ﷺ soruşdu: "Kim gedib mənə bu adamlardan xəbər gətirər?" Zubeyr: "Mən *gedərəm*!"– dedi. Peyğəmbər ﷺ *bir də* soruşdu: "Kim gedib mənə bu adamlardan xəbər gətirər?" *Yenə* Zubeyr: "Mən *gedərəm*!"– dedi. Onda Peyğəmbər ﷺ buyurdu: "Hər bir peyğəmbərin həvarisi, *ən yaxın köməkçisi* olmuşdur. Mənim də həvarim, Zubeyrdir!" (Səhih əl-Buxari, 2846); başqa bir hədisdə rəvayət edilir ki, Abdullah ibn Zubeyr ﷺ demişdir: "Əhzab günü mən Ömər ibn Əbu Sələmə ilə birlikdə qadınların yanında idim. Bir də baxıb gördüm ki, *atam* Zubeyr atını iki və ya üç kərə Bəni-Qureyzə qəbiləsinə tərəf çapdı. *Mədinəyə* qayıtdıqda mən dedim: "Atacan, mən sənin *bir neçə dəfə Bəni-Qureyzə qəbiləsinə* gedib-gəldiyini gördüm." *Atam* soruşdu: "Doğru-danmı gördün, oğul bala?" Mən: "Bəli!"– deyə cavab verdim. *Atam* dedi: "Peyğəmbər ﷺ *səhabələrinə*: "Kim Bəni-Qureyzəyə gedib onlar barədə mənə xəbər gətirər?"– deyə müraciət etdi. Mən də ora elə buna görə getdim. Mən oradan qayıtdıqdan sonra Peyğəmbər ﷺ ata-anasını yad edib mənə: "Atam-anam sənə qurban"- dedi" (Səhih əl-Buxari, 3720).

[2] Yəni, Uhud döyüşündə. Başqa bir rəvayətdə İbn Abbas ﷺ rəvayət edir ki, Bədr döyüşündən bir az əvvəl Peyğəmbər ﷺ çadırda ikən *dua edib* dedi: "Allahım, Səndən *kafirlərə qalib gələcəyimizə dair* verdiyin sözü və vədi gerçəkləşdirməyi diləyirəm! Allahım, əgər Sən *möminlərin həlak olmağını* istəsən, bu gündən sonra artıq Sənə ibadət edən qalmayacaq!" Bu vaxt Əbu Bəkr Peyğəmbərin ﷺ əlindən tutub dedi: "Özünü üzmə, ya Rəsulullah! Sən artıq Rəbbinə təkidlə dua

o, bir qayanın üstünə qalxmaq istədi, lakin bunu bacarmadı.[1] Bu vaxt Talhə[2] onun önündə yerə oturdu və Peyğəmbər ﷺ (onun köməyi ilə) qalxıb qayanın üstündə qərar tutdu.[3] Onda mən Peyğəmbərin ﷺ belə dediyini eşitdim: "Talhəyə (Cənnət) vacib oldu![4]"[5]

---

etdin!" Sonra Peyğəmbər ﷺ əynində zireh bayıra çıxdı və *bu ayələri* oxudu: "Bu dəstə mütləq məğlub olacaq və arxaya dönüb qaçacaqdır. Xeyr! Onlara vəd edilmiş vaxt, o saatdır. O saat isə daha ağır, daha acıdır" (Səhih əl-Buxari, 2915). Hər iki hədis dəlildir ki, Allaha təvəkkül etdikdə səbəbləri də götürmək gərəkdir.

[1] Ehtimal edilir ki, bu qaya hündür olduğundan, yaxud Peyğəmbərin ﷺ zirehi ağır olduğundan, yaxud da Uhud döyüşündə yaralandığından Peyğəmbər ﷺ o qayanın üstünə qalxa bilməmişdir.

[2] Əbu Muhəmməd Talhə ibn Ubeydullah ibn Osman ibn Amr ət-Teymi əl-Qurəşi ؓ Peyğəmbərin ﷺ səhabəsi və Cənnətlə müjdələnmiş on nəfərdən biridir (Siyər Əlam ən-Nubələ, 2-ci tərcümeyi-hal).

[3] Belə etdi ki, həm səhabələrinin halını görə bilsin, həm səhabələri onu görüb onun ölmədiyini yəqin etsinlər və buna sevinsinlər, həm də bir yerə, yəni onun başına, yığışsınlar.

[4] Talhə ؓ həmin döyüşdə Peyğəmbərin ﷺ yanında durub onu qoruyurdu. Düşmənin atdığı oxlar ona dəyirdi və hətta o, bu yolda şəhid olmağa hazır idi.

[5] Bu hədisi Tirmizi (1692), Əhməd (1/165), Hakim (3/25) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

١١١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ أَبِي عُمَرَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنْ يَزِيدَ بْنِ خُصَيْفَةَ، عَنِ السَّائِبِ بْنِ يَزِيدَ، أَنَّ رَسُولَ اللهِ ﷺ، كَانَ عَلَيْهِ يَوْمَ أُحُدٍ دِرْعَانِ، قَدْ ظَاهَرَ بَيْنَهُمَا.

(111) ..... Saib ibn Yezid[1] ﷺ rəvayət edir ki, Uhud günü Peyğəmbərin ﷺ əynində biri o birinin üstündə olan iki zireh var idi.”[2]

[1] Bu hədis “mursəl” hədisdir. Belə ki, Saib ibn Yezid ﷺ Uhud döyüşündə iştirak etməmişdir.

[2] Bu hədisi Əbu Davud (2090), İbn Macə (2806), Əhməd (3/449) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “həsən” olduğunu demişdir.

١٦- بَاب ما جاء في مِغْفَر رسول الله ﷺ

16-cı fəsil. Rəsulullahın ﷺ dəbilqəsi[1] barədə varid olanlar

١١٢- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا مَالِكُ بْنُ أَنَسٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ النَّبِيَّ ﷺ دَخَلَ مَكَّةَ وَعَلَيْهِ مِغْفَرٌ، فَقِيلَ لَهُ: هَذَا ابْنُ خَطَلٍ مُتَعَلِّقٌ بِأَسْتَارِ الْكَعْبَةِ، فَقَالَ: ((اقْتُلُوهُ)).

(112) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ Məkkəyə daxil olduqda, başında dəbilqə var idi.[2] (Həmin vaxt) ona: "İbn Xətəl Kəbənin örtüyündən yapışıb[3] (aman diləyir)"– dedilər. Peyğəmbər ﷺ: "Öldürün onu!"– deyə buyurdu.[4]

---

[1] Dəbilqə: Döyüşçülərin başlarına qoyduqları metaldan tökülmüş papaq; taşkülah.

[2] Növbəti fəsildəki hədisdə xəbər verilir ki, zəfər ilində Peyğəmbər ﷺ Məkkəyə daxil olduqda, onun başında qara əmmamə var idi. Bu iki hədis arasında ziddiyət yoxdur. Ehtimal edilir ki, hər ikisini – birini digərinin üstündən geymiş olsun, yaxud Məkkəyə daxil olduqda, başındakı dəbilqəni çıxardıb əmmaməni geymişdir.

[3] Bu adam bir zamanlar İslam dinini qəbul etmiş, sonra da Peyğəmbər ﷺ onu ənsardan olan səhabə ilə birlikdə zəkat yığmağa göndərmişdir. Lakin o, xainlik edib həmin səhabəni öldürmüş və dinindən dönərək küfrə qayıtmışdır. Bundan əlavə, onun oxuyan iki kənizi var imiş ki, bu kənizlər öz mahnıları ilə Peyğəmbəri ﷺ ələ salırlarmış. Elə bu səbəbdən də, Peyğəmbər ﷺ onu və onun kənizlərini öldürməyi əmr etmişdir (Sira İbn Hişam, 4/28-29; Tohfətul-Əhvəzi, 4/376).

[4] Bu hədisi Buxari (4035), Muslim (1357), Əbu Davud (2685), Tirmizi (1693) və Əhməd (3/109) rəvayət etmişdir.

١١٣- حَدَّثَنَا عِيسَى بْنُ أَحْمَدَ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ وَهْبٍ، قَالَ: حَدَّثَنِي مَالِكُ بْنُ أَنَسٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ رَسُولَ اللهِ ﷺ، دَخَلَ مَكَّةَ عَامَ الْفَتْحِ، وَعَلَى رَأْسِهِ الْمِغْفَرُ، فَلَمَّا نَزَعَهُ جَاءَهُ رَجُلٌ، فَقَالَ لَهُ: ((ابْنُ خَطَلٍ مُتَعَلِّقٌ بِأَسْتَارِ الْكَعْبَةِ))، فَقَالَ: ((اقْتُلُوهُ)).

قَالَ ابْنُ شِهَابٍ: وَبَلَغَنِي أَنَّ رَسُولَ اللهِ ﷺ، لَمْ يَكُنْ يَوْمَئِذٍ مُحْرِمًا.

(113) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ zəfər ilində[1] Məkkəyə daxil olduqda, onun başında dəbilqə var idi. O, dəbilqəni başından çıxartdıqda bir nəfər gəlib ona dedi: "İbn Xətəl Kəbənin örtüyündən yapışıb (aman diləyir)." Peyğəmbər ﷺ: "Öldürün onu![2]"– deyə buyurdu.[1]

---

[1] Burada hicrətin səkkizinci ili – Məkkənin fəth edildiyi il nəzərdə tutulur.

[2] Səd ﷺ demişdir: "Məkkənin fəthi günü Rəsulullah ﷺ Məkkədəkilərin hamısına aman verdi. Yalnız dörd kişi və iki qadından başqa. Rəsulullah ﷺ *səhabələrinə* belə buyurdu: "*Bu adamlar* Kəbənin örtüyündən yapışmış olsalar belə, onları öldürün! İkrimə ibn Əbu Cəhli, Abdullah ibn Xətəli, Məqis ibn Subabəni və Abdullah ibn Səd ibn Əbu Sərhi." Abdullah ibn Xətələ gəlincə, o, Kəbənin örtüyündən yapışmış ikən Səid ibn Hureys və Əmmar ibn Yasir onun üstünə şığıdılar. Səid Əmmardan daha gənc olduğundan, onu ötdü və İbn Xətəli o öldürdü. O ki qaldı Məqis ibn Subabəyə, camaat onu bazarda yaxalayıb öldürdü. İkrimə ibn Əbu Cəhl isə qaçıb *canını qurtardı və* gəmiyə minib *başqa bir diyara* yollandı. *Gəmi dənizdə ikən* birdən fırtına qopdu. *Bu vaxt* gəmidəkilər dedilər: "İxlasla Allaha dua edin! Çünki tanrılarınız sizə burada əsla kömək edə bilməzlər." Onda, İkrimə

İbn Şihab demişdir: "Mənə xəbər vermişlər ki, həmin gün Peyğəmbər ﷺ ihrama girməmişdi.[2]"

---

dedi: "Vallahi, əgər dənizdə məni ancaq ixlasla dua etmək xilas edə bilərsə, demək, quruda da məni yalnız ixlasla dua etmək xilas edər. Allahım! Həqiqətən də, Sənin mənim üzərimdə haqqın var. Əgər Sən məni düşdüyüm bu bəladan qurtarsan, mən Muhəmmədin ﷺ yanına gedər, əlimi onun əlinin içinə qoyub *beyət edər* və yəqin ki, onun bağışlayan və səxavətli olduğunu görərəm." Sonra İkrimə Peyğəmbərin ﷺ yanına qayıdıb İslam dinini qəbul etdi. Abdullah ibn Səd ibn Əbu Sərh isə Osman ibn Əffanın evində gizlənmişdi. Rəsulullah ﷺ Məkkədəkiləri beyət etməyə çağırdıqda, Osman onu Rəsulullahın ﷺ yanına gətirib dedi: "Ya Rəsulullah, Abdullahın beyətini də qəbul et!" Rəsulullah ﷺ üç kərə dalbadal başını qaldırıb ona baxdı və əvvəlcə qəbul etmək istəmədi. Sonra isə onun da beyətini qəbul etdi. Bundan sonra üzünü səhabələrinə tərəf tutub buyurdu: "Aranızda fərasətli bir kişi tapılmadı ki, mənim bu adama əlimi uzatmadığımı və onun beyətini qəbul etmək istəmədiyimi gördükdə, qalxıb onu öldürsün?!" Səhabələr dedilər: "Sənin nə istədiyini biz nə biləydik ki, ya Rəsulullah?! Heç olmasa, gözünlə bizə işarə edərdin." Onda Rəsulullah ﷺ belə buyurdu: "Heç bir peyğəmbərə yaraşmaz ki, onun xain gözləri olsun!" (Sunən ən-Nəsai, 4067; Silsilətul-Əhadisis-Səhihə, 1723).

[1] Bu hədisi Buxari (1739) rəvayət etmişdir.

[2] Bu dəlildir ki, ihrama girmədən Məkkəyə daxil olmaq caizdir.

١٧- بَاب ما جاء في عِمامة رسول الله ﷺ

17-ci fəsil. Rəsulullahın ﷺ əmmaməsi[1] barədə varid olanlar

١١٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، عَنْ حَمَّادِ بْنِ سَلَمَةَ؛ ح: وَحَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، حَدَّثَنَا وَكِيعٌ، عَنْ حَمَّادِ بْنِ سَلَمَةَ، عَنْ أَبِي الزُّبَيْرِ، عَنْ جَابِرٍ، قَالَ: ((دَخَلَ النَّبِيُّ ﷺ، مَكَّةَ يَوْمَ الْفَتْحِ، وَعَلَيْهِ عِمَامَةٌ سَوْدَاءُ)).

(114) ..... Cabir ﷺ demişdir: “Peyğəmbər ﷺ zəfər günü Məkkəyə daxil olduqda, onun başında qara əmmamə[2] var idi.”[1]

---

[1] Əmmamə: sarınmış uzun parça, yaxud tirmə zolağından ibarət baş geyimi; sarğı; çalma. Baş geyimində də, digər libaslarda olduğu kimi insan azaddır, yəni, adam şəriətə müxalif olmayan, istənilən baş geyimini geyə bilər və yaxşı olar ki, bu geyim xalqın adətinə uyğun olsun, zahiri görünüşcə başqalarından seçilməsin. Peyğəmbərin ﷺ əmmaməsi xüsusunda İbn Qeyyim demişdir: “Peyğəmbər ﷺ bəzən bu əmmamənin altından araqçın geyər, bəzən əmmaməsiz ancaq araqçın geyər, bəzən də araqçınsız, yalnız əmmamə geyərdi” (Zadul-Məad fi Hədyi Xeyril İbad, 1/130).

[2] İbn Qeyyim demişdir: “Bu əmmamə, Peyğəmbərin ﷺ davamlı geydiyi libaslardan olmamışdır. Həmçinin, o, bu əmmaməni nə bayramlarda, nə cümələrdə, nə də digər yığıncaqlarda bir şüar olaraq geyməmişdir. Sadəcə olaraq, Məkkənin fəthi günü Peyğəmbər ﷺ səhabələrindən fərqli olaraq qara əmmamə geymişdir. Bir də ki, həmin gün onun digər geyimləri qara rəngdə deyildi” (Zadul-Məad fi Hədyi Xeyril İbad, 3/398).

١١٥- حَدَّثَنَا ابْنُ أَبِي عُمَرَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مُسَاوِرٍ الْوَرَّاقِ، عَنْ جَعْفَرِ بْنِ عَمْرِو بْنِ حُرَيْثٍ، عَنْ أَبِيهِ، قَالَ: ((رَأَيْتُ عَلَى رَسُولِ اللهِ ﷺ عِمَامَةً سَوْدَاءَ)).

(115) ..... Amr ibn Hureys ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ başında qara əmmamə[2] olduğunu görmüşəm."[3]

١١٦- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، وَيُوسُفُ بْنُ عِيسَى، قَالا: حَدَّثَنَا وَكِيعٌ، عَنْ مُسَاوِرٍ الْوَرَّاقِ، عَنْ جَعْفَرِ بْنِ عَمْرُو بْنِ حُرَيْثٍ، عَنْ أَبِيهِ، أَنَّ النَّبِيَّ ﷺ، خَطَبَ النَّاسَ، وَعَلَيْهِ عِمَامَةٌ سَوْدَاءُ.

(116) ..... Amr ibn Hureys ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ (Məkkəyə daxil olduqdan sonra Kəbənin yanına gəlib orada[4]) camaata xütbə verdi. Onun başında qara əmmamə vardı.[5]

١١٧- حَدَّثَنَا هَارُونُ بْنُ إِسْحَاقَ الْهَمْدَانِيُّ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ مُحَمَّدٍ الْمَدَنِيُّ، عَنْ عَبْدِ الْعَزِيزِ بْنِ مُحَمَّدٍ، عَنْ عُبَيْدِ اللهِ بْنِ عُمَرَ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ، إِذَا اعْتَمَّ، سَدَلَ عِمَامَتَهُ بَيْنَ كَتِفَيْهِ)).

---

[1] Bu hədisi Muslim (1358), Əbu Davud (4076), Nəsai (5344), Tirmizi (1735), İbn Macə (3585) və Əhməd (3/363) rəvayət etmişdir.

[2] Bəzi şərhçilər Amr ibn Hureysin ﷺ bunu Məkkənin fəthi günü gördüyünü söyləmişlər.

[3] Növbəti hədis bu hədisin "səhih" olduğunu təsdiqləyir.

[4] Bax: "Fəthul-Bari", 4/61.

[5] Bu hədisi Muslim (1359), Əbu Davud (4077), Nəsai (5346), İbn Macə (1104) və Əhməd (4/307) rəvayət etmişdir.

قَالَ نَافِعٌ: وَكَانَ ابْنُ عُمَرَ، يَفْعَلُ ذَلِكَ.

قَالَ عُبَيْدُ اللهِ: وَرَأَيْتُ الْقَاسِمَ بْنَ مُحَمَّدٍ، وَسَالِمًا يَفْعَلانِ ذَلِكَ.

(117) ..... İbn Ömər رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ əmmaməsini başına sarıdıqda, onun bir ucunu kürəyinin arasına buraxardı."[1]

Nafi demişdir: "İbn Ömər də belə edərdi."

Ubeydullah demişdir: "Mən Qasim ibn Muhəmmədin və Salimin belə etdiklərini görmüşəm."

١١٨- حَدَّثَنَا يُوسُفُ بْنُ عِيسَى، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، قَالَ: حَدَّثَنَا أَبُو سُلَيْمَانَ وَهُوَ عَبْدُ الرَّحْمَنِ بْنُ الْغَسِيلِ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ النَّبِيَّ ﷺ خَطَبَ النَّاسَ، وَعَلَيْهِ عِصَابَةٌ دَسْمَاءُ.

(118) ..... İbn Abbas رضي الله عنهما demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ camaata xütbə verdi. Başında qara rəngli sarıq var idi."[2]

---

[1] Bu hədisi Tirmizi (1736) rəvayət etmiş və Muhəmməd Nasiroddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Bu hədisi Buxari (3800) rəvayət etmişdir.

١٨- بَاب ما جاء في إِزار رسول الله ﷺ

18-ci fəsil. Rəsulullahın ﷺ izarı[1] barədə varid olanlar

١١٩- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ، قَالَ: حَدَّثَنَا أَيُّوبُ، عَنْ حُمَيْدِ بْنِ هِلالٍ، عَنْ أَبِي بُرْدَةَ، قَالَ: أَخْرَجَتْ إِلَيْنَا عَائِشَةُ، كِسَاءً مُلَبَّدًا، وَإِزَارًا غَلِيظًا، فَقَالَتْ: ((قُبِضَ رُوحُ رَسُولِ اللهِ ﷺ، فِي هَذَيْنِ)).

(119) ..... Əbu Burdə demişdir:[2] "(Bir dəfə) Aişə bizə cod parçadan bir bürüncək və qalın parçadan bir izar

[1] İzar: qurşaqdan aşağı bədən əzalarını örtmək üçün belə bağlanan parça; fitə. Rida isə qurşaqdan yuxarı bədən əzalarını örtmək üçün çiyinə atılan parça. Muhəmməd əl-Hərəvi demişdir: "İzar və rida – ikisi bir yerdə bir geyim hesab edildiyindən, müəllif bu ünvanda bunlardan birinin ismini çəkməklə kifayətlənmişdir. Necə ki, Quranda buyurulur: **"Allah, yaratdıqları şeylərdən sizin üçün kölgələr əmələ gətirdi, dağlarda sizin üçün mağaralar saldı, sizi istidən qoruyacaq paltarlar və döyüşdə mühafizə edəcək zirehli geyimlər düzəltdi. Beləcə, *Allah* Öz nemətini sizə tamamlayır ki, bəlkə müsəlman olasınız"** (ən-Nəhl, 81). Belə ki, bu ayədə **"sizi istidən qoruyacaq paltarlar"** deyildikdə, bura soyuqdan qoruyacaq paltarlar da aid edilir (Cəmul-Vəsail fi Şərhiş-Şəmail).

[2] Bu hədisi Buxari (5480), Muslim (2080), Əbu Davud (4036), Tirmizi (1733), İbn Macə (3551) və Əhməd (6/32) rəvayət etmişdir.

göstərib dedi: “Peyğəmbərin ﷺ ruhu bədənindən çıxarkən bu bürüncək və izar onun əynində idi.[1]”

١٢٠- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ، عَنْ شُعْبَةَ، عَنِ الأَشْعَثِ بْنِ سُلَيْمٍ، قَالَ: ((سَمِعْتُ عَمَّتِي، تُحَدِّثُ عَنْ عَمِّهَا، قَالَ: ((بَيْنَا أَنَا أَمشِي بِالْمَدِينَةِ، إِذَا إِنْسَانٌ خَلْفِي يَقُولُ: ((ارْفَعْ إِزَارَكَ، فَإِنَّهُ أَتْقَى وَأَبْقَى)) فَإِذَا هُوَ رَسُولُ اللهِ ﷺ، فَقُلْتُ: ((يَا رَسُولَ اللهِ إِنَّمَا هِيَ بُرْدَةٌ مَلْحَاءُ))، قَالَ: ((أَمَا لَكَ فِيَّ أُسْوَةٌ؟)) فَنَظَرْتُ فَإِذَا إِزَارُهُ إِلَى نِصْفِ سَاقَيْهِ)).

---

[1] Digər hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ *ölümündən qabaq* xəstələndiyi zaman *Aişənin yanında qalmağı* çox istədiyindən tez-tez: “Bu gün mən harada qalacağam? Sabah mən harada qalacağam?”– deyə Aişənin yanında qalacağı günü səbirsizliklə gözləyirdi. Aişə deyir ki: “*Nəhayət*, o, mənim yanımda qaldığı gün başı mənim qucağımda ikən vəfat etdi və mənim hücrəmdə dəfn edildi” (Səhih əl-Buxari, 1389). Başqa bir hədisdə rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: “Allahın mənə bəxş etdiyi nemətlərdən *biri də o idi ki*, Peyğəmbər ﷺ mənim evimdə, mənim *növbəm çatdığı* gün və başı mənim sinəmin üstündə ikən vəfat etdi. O, ölüm ayağında ikən Allahın izni ilə mənim ağız suyum onun ağız suyuna qarışdı...” (Səhih əl-Buxari, 4449). Bu hədislər Aişənin رضي الله عنها nə dərəcədə fəzilətli insan olduğunu bir daha sübuta yetirir. Bu hədisdə diqqət çəkən məqamlardan biri də budur ki, Rəsulullah ﷺ vəfat edərkən əynində bahalı geyim yox, kasıbların geydiyi geyim var imiş. Yəni, o, Allaha möhtac olan, təvazökar bir qul kimi bu dünyadan köçmüşdür.

(120) ..... Əşəs ibn Suleym demişdir:[1] "Mən bibimin[2] öz əmisindən belə rəvayət etdiyini eşitmişəm: "(Bir dəfə) mən Mədinənin (küçələrindən biri ilə) gedərkən, birdən arxamdan bir adamın mənə: "İzarının (ətəyini) yuxarı qaldır. Çünki bu, təqvaya daha yaxın[3] və (libasının) sürəkliliyi[4] üçün daha münasibdir"– dediyini eşitdim. Baxdım ki, bu, Rəsulullahdır ﷺ. Dedim: "Ya Rəsulullah! Bu, sadəcə ağlı-qaralı bir bürüncəkdir.[5]" Rəsulullah ﷺ

---

[1] Bu hədisi Nəsai (9682), Əhməd (5/364) rəvayət etmişdir. Hədisin isnadında keçən Əşəs ibn Suleymin bibisi "məchul" ravidir. Elə bu səbəbdən də hədisin bu isnadı "zəif"dir. Lakin Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Belə ki, imam Əhmədin (4/390) rəvayət etdiyi hədis bu hədisin dərəcəsini qüvvətləndirir. Həmin hədisdə deyilir ki, Şərid belə rəvayət etmişdir: "*Bir dəfə* Rəsulullah ﷺ uzaqdan bir kişinin izarının ətəyinin yerlə süründüyünü gördü və tələsik ona yaxınlaşıb dedi: "İzarının ətəyini yuxarı qaldır və Allahdan qorx!" Adam dedi: "Ayaqlarım əyridir, dizlərim də çox əsir." Onda Rəsulullah ﷺ ona belə buyurdu: "İzarının ətəyini yuxarı qaldır. Şübhəsiz ki, Allahın yaratdığı hər bir məxluq gözəldir." Bundan sonra həmin adamın izarı heç vaxt baldırının yarısından aşağı düşmədi" (Silsilətul-Əhadisis-Səhihə, 1141).

[2] Deyilənə görə, bu qadının adı – Ruhm bint Əsvəd ibn Xaliddir.

[3] Yəni, bu zahiri görünüş insanı təkəbbürlükdən və yekəxanalıqdan qoruyur.

[4] Burada "sürəkliliyi" deyildikdə, libasın uzun müddət korlanmayacağı nəzərdə tutulur.

[5] Bəzi şərhçilər burada səhabənin belə bir sadə geyimdə təkəbbürlük olmayacağını güman etdiyini demişlər. Daha doğrusunu isə Allah bilir.

dedi: "Məgər, sən məndən nümunə götürmək istəmirsən?!"[1] Baxdım ki, onun izarı baldırının yarısına çatır."

[1] Bu xüsusda Uca Allah buyurur: **"Allahın rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə – gözəl nümunədir"** (əl-Əhzab, 21). Bu hədis dəlildir ki, libasın ətəyini topuqdan yuxarı qaldırmaq, Peyğəmbərə ﷺ oxşamaq deməkdir. Libasının ətəyini topuqdan aşağı salan kimsələri isə böyük bir əzab gözləyir. Odur ki, alimlər bunu böyük günahlardan hesab etmişlər. Belələrinin ayaqlarının topuqdan aşağı hissəsi Cəhənnəm odunda yanacaq, habelə Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Üstəlik, onları üzücü bir əzab gözləyir. İbn Ömərin رضي الله عنهما rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Bir nəfər təkəbbürlüyündən izarının ətəyini yerlə sürüyərkən, qəfildən yerə girdi. Bu adam Qiyamət gününədək yerin *ən aşağı* təbəqəsinə doğru girməyə davam edəcəkdir" (Səhih əl-Buxari 3485). Bəziləri həm bu hədisi, həm Əbu Bəkrin رضي الله عنه hədisini, həm də bu mənada varid oloan hədisləri dəlil göstərərək bu hökmü təkəbbürlüklə əlaqələndirir və Əbu Bəkrin رضي الله عنه libasının ətəyinin uzun olduğunu əsas gətirirlər. Bunu iddia edənlərə belə cavab verilir:

Birincisi, hədisdə Əbu Bəkrin رضي الله عنه: "İzarımın balağı aşağı düşdükcə mən onu yuxarı qaldırıram..."– deməsi onu göstərir ki, Əbu Bəkr رضي الله عنه libasının ətəyini öz ixtiyarı ilə topuqdan aşağı salmırdı, əksinə o, özözünə aşağı düşürdü. Buna baxmayaraq, Əbu Bəkr رضي الله عنه onu yuxarı qaldırırdı. Lakin indiki vaxtda libaslarının ətəyini topuqdan aşağı salanlar bunu öz ixtiyarları ilə edir və: "biz bunu özümüzü dartmaq üçün etmirik"– deyirlər. Onlara belə cavab vermək lazımdır: "Əgər təkəbbürlük etmək məqsədiniz olmadan libasınızın ətəyini topuqdan aşağı salsanız, onu aşağı saldığınıza görə Odda yanacaqsınız və əgər bununla yanaşı, təkəbbürlük də göstərsəniz, onda daha böyük əzaba düçar olacaqsınız. Qiyamət günü Allah sizi danışdırmayacaq, üzünüzə baxmayacaq və sizi təmizə çıxarmayacaq. Üstəlik, sizi üzücü bir əzab gözləyir.

١٢١- حَدَّثَنَا سُوَيْدُ بْنُ نَصْرٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ الْمُبَارَكِ، عَنْ مُوسَى بْنِ عُبَيْدَةَ، عَنِ إِيَاسِ بْنِ سَلَمَةَ بْنِ الأَكْوَعِ، عَنْ أَبِيهِ، قَالَ: ((كَانَ عُثْمَانُ بْنُ عَفَّانَ، يَأْتَزِرُ إِلَى أَنْصَافِ سَاقَيْهِ، وَقَالَ: ((هَكَذَا كَانَتْ إِزْرَةُ صَاحِبِي، يَعْنِي النَّبِيَّ ﷺ)).

(121) ..... Sələmə ibn Əkva[1] ﷺ demişdir: "Osman ibn Əffanın izarı baldırının yarısına çatardı. O deyərdi: "Dostumun (yəni, Peyğəmbərin ﷺ) izarı da (baldırının yarısına) çatardı."[2]

١٢٢- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا أَبُو الأَحْوَصِ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ مُسْلِمِ بْنِ نَذِيرٍ، عَنْ حُذَيْفَةَ بْنِ الْيَمَانِ، قَالَ: ((أَخَذَ رَسُولُ اللهِ

İkincisi, Həmin hədisdə Peyğəmbər ﷺ Əbu Bəkrə: "Sən bunu təkəbbürlük üçün etmirsən"– deməklə, onu təmizə çıxarmış və onun topuqlarının Cəhənnəm odunda yanmayacağına şahidlik etmişdir. Hazırki zamanda, libasını topuqdan aşağı salan kimsələrdən hansı birini təmizə çıxarmaq və onun Cəhənnəmdə yanmayacağına əminliklə şahidlik etmək olar?! Lakin şeytan (qəlblərində əyrilik olan) bu kimsələrə, Quran və Sünnədən mənası özlərinə aydın olmayan ayə və hədislərin ardınca düşməyi təlqin etməklə pis əməllərini onlara yaxşı göstərmişdir. Allah isə istədiyi kimsəni doğru yola yönəldir" (Məcmuə Fətavə, 12/254).

[1] Sələmə ibn Əkva Sinan ibn Abdullah əl-Əsləmi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Mutə döyüşündə iştirak etmiş və ağac altında beyət edənlərdən olmuşdur. Hicrətin 74-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 50-ci tərcümeyi-hal).

[2] Hədisin isnadında keçən Musa ibn Ubeydə "zəif" ravidir (Təqrib ət-Təhzib). Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

ﷺ، بِعَضَلَةِ سَاقِي أَوْ سَاقِهِ، فَقَالَ: ((هَذَا مَوْضِعُ الإِزَارِ، فَإِنْ أَبَيْتَ فَأَسْفَلَ، فَإِنْ أَبَيْتَ فَلا حَقَّ لِلإِزَارِ فِي الْكَعْبَيْنِ)).

(122) ..... Huzeyfə ibn Yəmən[1] ﷺ demişdir: "(Bir dəfə) Rəsulullah ﷺ mənim baldırımın, yaxud[2] öz baldırını əzələsindən tutub belə buyurdu: "Bu, izarın (ətəyinin)

[1] Huzeyfə ibn Yəmən ibn Cabir əl-Əbsi ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. "Sirrin sahibi" ləqəbi ilə tanınmışdır. Peyğəmbər ﷺ münafiqlərin adlarını yalnız ona bildirmişdi. Hicrətin 36-cı ilində, Osman ibn Əffanın ﷺ vəfatından qırx gecə sonra vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 76-cı tərcümeyi-hal). Huzeyfənin fəzilətinə dair rəvayət edilir ki, İbrahim demişdir: "(Bir dəfə) Əlqəmə Şama getdi və məscidə daxil olub: "Allahım, mənə əməlisaleh bir həmsöhbət yetir!"– dedi, sonra da gedib Əbu Dərdanın yanında oturdu. Əbu Dərda *ondan*: "Kimlərdənsən?"– deyə soruşdu. *Əlqəmə*: "Kufəliyəm"– deyə cavab verdi. *Əbu Dərda* soruşdu: "Məgər, özündən başqa heç kəsin bilmədiyi sirrin sahibi sizin aranızda deyilmi?" *Bunu deyəndə* o, Huzeyfəni qəsd edirdi. *Əlqəmə*: "Elədir!"– dedi. *Əbu Dərda* soruşdu: "Məgər, Allahın Öz peyğəmbərinin ﷺ xahişi ilə *şeytandan* qoruduğu kimsə sizin aranızda deyilmi?!" *Bunu deyəndə* o, Əmmarı nəzərdə tuturdu. *Əlqəmə*: "Elədir!"– dedi. *Əbu Dərda* soruşdu: "Məgər, misvak daşıyan kimsə *və etibarlı olan birisi* sizin aranızda deyilmi?!" *Bunu deyəndə, o, Abdullah ibn Məsudu nəzərdə tuturdu.* O: "Elədir!"– dedi..." (Səhih əl-Buxari, 3743). Bu səhabənin fəzilətinə dair onu da qeyd etmək olar ki, məhz onun təklifindən sonra Osman ibn Əffan ﷺ Qurani Kərimi kitab şəklinə salmışdır.

[2] Bu, ya hədisi Huzeyfədən eşitmiş Muslim ibn Nəzirin, ya da isnadındakı digər ravilərdən birinin şəkkidir.

yeridir.[1] Bunu istəmirsənsə, (onda onun ətəyini) bir qədər aşağı sala bilərsən.[2] Və əgər bunu da istəməsən, *bil ki*, izarın (ətəyi) topuqdan aşağı düşməməlidir.[3]"[4]

[1] Yəni, izarın ətəyinin baldırın ortasına çatması həm müstəhəb və həm də daha əfzəldir.

[2] Yəni, izarın ətəyini baldırın ortasından topuğa qədər uzatmaq caizdir.

[3] Səhabələr Peyğəmbərin ﷺ buyuruqlarını yerinə yetirmək xüsusunda olduqca məsuliyyətli idilər. Buna imam Buxarinin öz "Səhih"indən (3700) rəvayət etdiyi hadisəni misal çəkmək olar: Amr ibn Məymun ﷺ rəvayət edir ki, Ömər ibn Xəttab ölüm ayağında ikən bir gənc onun yanına gəlib dedi: "Allahın sənə nəsib etdiyi müjdəyə görə: həm Rəsulullahın ﷺ səhabəsi, həm də İslam dinini ilk qəbul etmiş kimsələrdən olduğuna, sonra ədalətli əmir, ondan sonra da şəhid olduğuna görə sevin, ey möminlərin əmiri!..." O gənc dönüb getdikdə, Ömər onun izarının yerlə süründüyünü gördü və yanındakılara: "Onu yanıma çağırın"– deyə buyurdu. Sonra da ona: "Qardaş oğlu, libasının ətəyini yuxarı qaldır. Çünki bu, (libasının) sürəkliliyi üçün daha münasib və təqvaya daha yaxındır...."

[4] Bu hədisi Tirmizi (1784), Nəsai (5329), İbn Macə (3572), Əhməd (5/382) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

١٩- بَاب ما جاء في مِشْية رسول الله ﷺ

19-cu fəsil. Rəsulullahın ﷺ yerişi barədə varid olanlar

١٢٣- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: قَالَ: حَدَّثَنَا ابْنُ لَهِيعَةَ، عَنْ أَبِي يُونُسَ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: ((مَا رَأَيْتُ شَيْئًا أَحْسَنَ مِنْ رَسُولِ اللهِ ﷺ كَأَنَّ الشَّمْسَ تَجْرِي فِي وَجْهِهِ، وَمَا رَأَيْتُ أَحَدًا أَسْرَعَ فِي مِشْيَتِهِ مِنْ رَسُولِ اللهِ ﷺ كَأَنَّمَا الأَرْضُ تُطْوَى لَهُ إِنَّا لَنُجْهِدُ أَنْفُسَنَا وَإِنَّهُ لَغَيْرُ مُكْتَرِثٍ)).

(123) ..... Əbu Hureyrə ﷺ demişdir: "Mən Rəsulullahdan ﷺ daha yaraşıqlı insan görmədim. Günəş sanki onun üzündən nur saçırdı. Habelə, yerişində Rəsulullahdan ﷺ daha tez yeriyən bir kimsə də görmədim. Sanki yer onun ayaqları altında (kağız tək) bükülərdü. (Bir az öncə yanımızda olar, sonra bir də baxardıq ki, artıq xeyli irəliləmiş, bizi geridə qoymuşdur.) Bizə onunla ayaqlaşmaq çox çətin gəlirdi. O isə, adi addımlarla addımlayardı."[1]

١٢٤- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، وَغَيْرُ وَاحِدٍ ،قَالُوا: حَدَّثَنَا عِيسَى بْنُ يُونُسَ، عَنْ عُمَرَ بْنِ عَبْدِ اللهِ مَوْلَى غُفْرَةَ، قَالَ: أَخْبَرَنِي إِبْرَاهِيمُ بْنُ مُحَمَّدٍ مِنْ

[1] Bu hədisi Tirmizi (3650), Əhməd (2/350), İbn Hibban (6309) rəvayət etmiş və Şueyb Arnavut onun "həsən" olduğunu demişdir.

وَلَدِ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ، قَالَ: ((كَانَ عَلِيٌّ إِذَا وَصَفَ النَّبِيَّ ﷺ، قَالَ: ((كَانَ إِذَا مَشَى تَقَلَّعَ كَأَنَّمَا يَنْحَطُّ مِنْ صَبَبٍ)).

(124) ..... Əli ibn Əbu Talibin ﷺ nəvələrindən biri İbrahim ibn Muhəmməd demişdir: "Əli (ibn Əbu Talib) Peyğəmbəri ﷺ vəsf edərkən deyərdi: "Yeridikdə, sanki hündür bir yerdən enirmiş kimi ləngər vurardı."[1]

١٢٥- حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ: حَدَّثَنَا أَبِي، عَنِ الْمَسْعُودِيِّ، عَنْ عُثْمَانَ بْنِ مُسْلِمِ بْنِ هُرْمُزَ، عَنْ نَافِعِ بْنِ جُبَيْرِ بْنِ مُطْعِمٍ، عَنْ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ إِذَا مَشَى، تَكَفَّأَ تَكَفُّؤًا، كَأَنَّمَا يَنْحَطُّ مِنْ صَبَبٍ)).

(125) ..... Əli ibn Əbu Talib ﷺ demişdir: "Peyğəmbər ﷺ yeridikdə, sanki hündür bir yerdən enirmiş kimi ləngərlənirdi."[2]

[1] 7-ci hədisin şərhinə bax.

[2] 5-ci hədisin şərhinə bax.

٢٠- بَاب ما جاء في تَقَنُّع رسول الله ﷺ

20-ci fəsil. Rəsulullahın ﷺ başını örtməsi[1] barədə varid olanlar

١٢٦- حَدَّثَنَا يُوسُفُ بْنُ عِيسَى، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، قَالَ: حَدَّثَنَا الرَّبِيعُ بْنُ صَبِيحٍ، عَنْ يَزِيدَ بْنِ أَبَانَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ يُكْثِرُ الْقِنَاعَ، كَأَنَّ ثَوْبَهُ ثَوْبُ زَيَّاتٍ)).

(126) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ çox vaxt başına xirqə qoyar və onun libası sanki yağsatan adamın libası kimi (yağlı) olardı."[2]

[1] İmam Buxarinin rəvayət etdiyi uzun hədisdə Aişə ﷺ demişdir: "Bir dəfə günortaüstü biz Əbu Bəkrin evində oturduğumuz zaman bir nəfər ona dedi: "Budur, Rəsulullah ﷺ (bürüncəyinin ətəyi ilə) başını örtmüş halda gəlir" (Səhih əl-Buxari, 3906).

[2] 33-cü hədisin şərhinə bax.

٢١- بَاب ما جاء في جِلْسَته ﷺ

21-ci fəsil. Rəsulullahın ﷺ oturuşu barədə varid olanlar

١٢٧- حَدَّثَنَا عَبْدُ بْنُ حُمَيْدٍ، قَالَ: حَدَّثَنَا عَفَّانُ بْنُ مُسْلِمٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ حَسَّانَ، عَنْ جَدَّتَيْهِ، عَنْ قَيْلَةَ بِنْتِ مَخْرَمَةَ، أَنَّهَا رَأَتْ رَسُولَ اللهِ ﷺ فِي الْمَسْجِدِ، وَهُوَ قَاعِدٌ الْقُرْفُصَاءَ، قَالَتْ: ((فَلَمَّا رَأَيْتُ رَسُولَ اللهِ ﷺ، الْمُتَخَشِّعَ فِي الْجِلْسَةِ، أُرْعِدْتُ مِنَ الْفَرَقِ)).

(127) ..... Rəvayət edilir ki, Qaylə bint Məxrəmə رضي الله عنها Rəsulullahın ﷺ məsciddə dizlərini qucaqlayıb oturduğunu görmüşdür. Qaylə demişdir: "Mən Rəsulullahın ﷺ beləcə dinməz oturduğunu gördükdə qorxudan titrədim."[1]

١٢٨- حَدَّثَنَا سَعِيدُ بْنُ عَبْدِ الرَّحْمَنِ الْمَخْزُومِيُّ، وَغَيْرُ وَاحِدٍ، قَالُوا: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الزُّهْرِيِّ، عَنْ عَبَّادِ بْنِ تَمِيمٍ، عَنْ عَمِّهِ، أَنَّهُ رَأَى النَّبِيَّ ﷺ مُسْتَلْقِيًا فِي الْمَسْجِدِ وَاضِعًا إِحْدَى رِجْلَيْهِ عَلَى الأُخْرَى.

(128) ..... Abbad ibn Təmim rəvayət etmişdir ki,[2] əmisi (Abdullah ibn Zeyd əl-Ənsari[1]) Peyğəmbərin ﷺ arxası üstə

---

[1] Bu hədisi Buxari "Ədəbul-Mufrəd" əsərində (1178) rəvayət etmiş və şeyx Albani onun "həsən" olduğunu demişdir.

[2] Bu hədisi Buxari (5724), Muslim (2100), Əbu Davud (4866), Nəsai (721), Tirmizi (2766) və Əhməd (4/38) rəvayət etmişdir.

uzanıb bir ayağını o biri ayağının üstünə qoyduğunu[2] görmüşdür.

١٢٩- حَدَّثَنَا سَلَمَةُ بْنُ شَبِيبٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ إِبْرَاهِيمَ الْمَدَنِيُّ، قَالَ: حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُحَمَّدٍ الأَنْصَارِيُّ، عَنْ رُبَيْحِ بْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي سَعِيدٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ إِذَا جَلَسَ فِي الْمَسْجِدِ، احْتَبَى بِيَدَيْهِ)).

---

[1] Əbu Muhəmməd Abdullah ibn Zeyd ibn Asim ibn Kəb əl-Mazini ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Yalançı Museyləmini bu səhabə öldürmüşdür. Hicrətin 33-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 80-ci tərcümeyi-hal).

[2] Bu hədis arxası üstə uzanıb, bir ayağı o biri ayağın üstünə qoymağın caiz olduğuna dəlalət edir. Lakin Cabir ibn Abdullahdan ﷺ rəvayət olunan hədisdə deyilir ki, Rəsulullah ﷺ arxası üstə uzanıb bir ayağı o biri ayağın üstünə qoymağı qadağan etmişdir (Sunən ət-Tirmizi, 2993). Mubarəkfuri bu hədisləri izah edərkən demişdir: "Bu iki hədisi belə cəm etmək olar ki, bir ayaq digərinin üstünə iki cür şəkildə qoyula bilər: birincisi, ayaqlar uzadılmış şəkildə bir ayağı digərinin üstünə qoymaqdır ki, bu halda övrət yeri görünmədiyindən, ayaqları bu şəkildə birini digərinin üstünə qoymaq caizdir. İkincisi, bir ayağı digərinin üstünə qoyaraq dizləri qatlayıb dik tutmaq və əllər ilə onları qucaqlamaq. Övrət yeri görünməyəcəksə, belə oturmaq caiz, əks halda isə, bu cür oturmaq qadağandır" (Tohfətul-Əhvəzi). Yeri gəlmişkən, qeyd edək ki, bardaş qurub oturmaq da caizdir. Rəvayət edilir ki, Hənzələ ibn Huzeym ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ yanına gəldim və onun bardaş qurub oturduğunu gördüm" (Ədəbul-Mufrəd, 1179).

(129) ..... Əbu Səid əl-Xudri ﷺ demişdir: "Rəsulullah ﷺ məsciddə oturduğu zaman dizlərini qatlayıb əlləri ilə onları qucaqlayardı."[1]

[1] Bu hədisi Əbu Davud (4846) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Silsilətul-Əhadisis-Səhihə" əsərində (827) onun "səhih" olduğunu demişdir.

٢٢- بَاب ما جاء في تُكْأة رسول الله ﷺ

22-ci fəsil. Rəsulullahın ﷺ söykəyi[1] barədə varid olanlar

١٣٠- حَدَّثَنَا عَبَّاسُ بْنُ مُحَمَّدٍ الدُّورِيُّ الْبَغْدَادِيُّ، قَالَ: حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، عَنِ إِسْرَائِيلَ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، عَنْ جَابِرِ بْنِ سَمُرَةَ، قَالَ: ((رَأَيْتُ رَسُولَ اللهِ ﷺ، مُتَّكِئًا عَلَى وِسَادَةٍ عَلَى يَسَارِهِ)).

(130) ..... Cabir ibn Səmurə ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ sol böyrü üstə yastığa dirsəkləndiyini görmüşəm."[2]

١٣١- حَدَّثَنَا حُمَيْدُ بْنُ مَسْعَدَةَ، قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْمُفَضَّلِ، قَالَ: حَدَّثَنَا الْجُرَيْرِيُّ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي بَكْرَةَ، عَنْ أَبِيهِ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((أَلا أُخْبِرُكُمْ بِأَكْبَرِ الْكَبَائِرِ؟)) قَالُوا: ((بَلَى، يَا رَسُولَ اللهِ))، قَالَ: ((الإِشْرَاكُ بِاللهِ، وَعُقُوقُ الْوَالِدَيْنِ)) قَالَ: وَجَلَسَ رَسُولُ اللهِ ﷺ، وَكَانَ مُتَّكِئًا، قَالَ: ((وَشَهَادَةُ الزُّورِ، أَوْ قَوْلُ الزُّورِ))، قَالَ: فَمَا زَالَ رَسُولُ اللهِ ﷺ يَقُولُهَا حَتَّى قُلْنَا: ((لَيْتَهُ سَكَتَ)).

---

[1] Dayaq, söykənəcək, söykənmək üçün hər cür şey: yastıq, döşəkcə, mütəkkə və s.

[2] Bu hədisi Əbu Davud (4143), Tirmizi (2771) və Əhməd (5/86) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

(131) ..... Əbu Bəkrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ (səhabələrindən): "Sizə günahların ən böyüyü barədə xəbər verimmi?"[1]– deyə soruşdu. *Səhabələr:* "Bəli, ya Rəsulallah!"– deyə cavab verdilər. Rəsulullah ﷺ dedi: "Allaha şərik qoşmaq[2] və valideynlərin üzünə ağ olmaqdır[3]"– dedi.

---

[1] Hər bir müsəlman böyük günahları bilməlidir ki, onlardan çəkinə bilsin. Yoxsa, özü də bilmədən, böyük bir günaha batır, hətta bəziləri küfrə yol verir və bu əməlin ona savab qazandıracağını güman edir. Lakin özü də hiss etmədən əməllərini puç edir. Bu xüsusda Uca Allah buyurur: **"De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər. Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik"** (əl-Kəhf, 103-105). İndiyədək İslam alimləri böyük günahlardan bəhs edən neçə-neçə əsərlər yazmışlar ki, bunların ən dəyərlisi İmam Zəhəbinin "Böyük Günahlar" kitabıdır.

[2] Allaha şərik qoşmaq ən böyük günahdır. Bu xüsusda Quranda deyilir: **"Şübhəsiz ki, Allah Ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan *günahları* isə istədiyi kimsəyə bağışlayacaqdır. Allaha şərik qoşan şəxs, əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür"** (ən-Nisa, 116); **"Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmişdir və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır"** (əl-Maidə, 72). Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim Allaha şərik qoşub ölərsə, Cəhənnəmə girər" (Səhih əl-Buxari, 1238).

[3] Burada Allaha şərik qoşmağın ardınca valideynin üzünə ağ olmağın böyük günah olduğu, xüsusilə vurğulanır. Quranda da həmçinin bu iki günah bu üslubla zikr edilir. **"Allaha ibadət edin və**

(Bunu deyəndə) o dirsəklənmişdi; sonra qalxıb oturdu və: "yalandan şahidlik etmək və ya yalan söz danışmaqdır"[1]– dedi. O bunu dalbadal o qədər təkrar etdi ki, biz (bir-birimizə): "Nə olaydı, susaydı!"[2]– dedik."[1]

---

heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə yaxşılıq edin!" (ən-Nisa, 36); **"Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir"** (Loğman, 14). Əbu Hureyrənin رضي الله عنه rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: "Zəlil oldu! Zəlil oldu! Zəlil oldu!" *Səhabələr*: "Kim, ya Rəsulallah?"– deyə soruşduqda, o demişdir: "Valideynləri, yaxud valideynlərindən biri qocalanadək onlarla yaşayıb, sonra da *üzlərinə ağ olub,* Cəhənnəmə girən kimsə" (Ədəbul-Mufrəd, 21). Valideynin qayğısına qalmaq mövzusunda Əbu Hureyrəni رضي الله عنه misal çəkmək olar. Rəvayət edilir ki, Əbu Murra demişdir: "Mən Əbu Hureyrə ilə birgə onun yaşadığı yerə zül-Huleyfəyə gəldim. O, yaşadığı yerə gəlib çatdıqda, uca səslə çağırıb dedi: "Sənə salam olsun, ay ana! Allahın mərhəməti və Onun bərəkəti *sənə yetişsin*!" Anası da ona belə cavab verdi: "Sənə də salam olsun! Allahın mərhəməti və Onun bərəkəti *sənə də yetişsin*!" O dedi: "Məni körpəliyimdən tərbiyə edib bəslədiyin kimi, Allah da sənə rəhm etsin!" Anası da ona belə cavab verdi: "Oğlum! Sən mənə qocalığın ən düşkün çağında qayğı göstərdiyin kimi, Allah da səni xeyirlə mükafatlandırsın və səndən razı qalsın!" (Ədəbul-Mufrəd, 14).

[1] Digər bir hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Doğruluq *adamı* yaxşı işlər görməyə yönəldir. Yaxşı işlər isə *adamı* Cənnətə aparır. Həqiqətən, adam o qədər doğru danışır ki, nəhayət, *Allah yanında* doğru danışan sayılır. Yalan isə *adamı* günah işlərə yönəldir. Günah işlər də *adamı* Cəhənnəmə aparır. Həqiqətən, adam o qədər yalan danışır ki, axırda Allah yanında yalançı sayılır" (Səhih əl-Buxari, 6094).

[2] Onlar Peyğəmbərin ﷺ halına acıdıqlarından, o həyəcanlanmasın deyə, belə dedilər.

١٣٢- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنْ عَلِيِّ بْنِ الأَقْمَرِ، عَنْ أَبِي جُحَيْفَةَ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((أَمَّا أَنَا، فَلا آكُلُ مُتَّكِئًا)).

(132) ..... Əbu Cuheyfə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə demişdir: "O ki, qaldı mənə, mən söykənmiş halda (yemək) yemirəm."[2]

١٣٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَلِيِّ بْنِ الأَقْمَرِ، قَالَ: سَمِعْتُ أَبَا جُحَيْفَةَ، يَقُولُ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((لا آكُلُ مُتَّكِئًا)).

(133) ..... Əbu Cuheyfə ﷺ rəvayət edir ki,[3] Rəsulullah ﷺ belə demişdir: "Mən söykənmiş halda (yemək) yemirəm.[4]"

---

[1] Bu hədisi Buxari (6521), Muslim (87), Tirmizi (1902) və Əhməd (5/36) rəvayət etmişdir.

[2] Bu hədisi Buxari (5083), Əbu Davud (3769), Tirmizi (1831), Nəsai (6742), İbn Macə (3262) və Əhməd (4/308) rəvayət etmişdir.

[3] Bu hədisi Buxari (5084) rəvayət etmişdir.

[4] Bu hədis dəlildir ki, söykənmiş və ya dirsəklənmiş halda yemək yemək bəyənilmir. İslam alimləri yemək əsnasında bu oturuşun təkəbbürlükdən sayıldığını demiş və bunu Beyhəqinin "Sunən" əsərində (7/283) rəvayət etdiyi hədislə əsaslandırmışlar. Həmin hədisdə Abdullah ibn Busr ﷺ demişdir: "Yeməyin qıt olduğu bir gündə Peyğəmbərə ﷺ bir qoç gətirdilər. Peyğəmbər ﷺ əhli-əyalına: "Bu qoçu bişirin. Bu undan da çörək hazırlayın"– deyə buyurdu.

١٣٤- حَدَّثَنَا يُوسُفُ بْنُ عِيسَى، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، عَنْ جَابِرِ بْنِ سَمُرَةَ، قَالَ: ((رَأَيْتُ النَّبِيَّ ﷺ مُتَّكِئًا عَلَى وِسَادَةٍ)).

قَالَ أَبُو عِيسَى: لَمْ يَذْكُرْ وَكِيعٌ عَلَى يَسَارِهِ، وَهَكَذَا رَوَى غَيْرُ وَاحِدٍ عَنِ إِسْرَائِيلَ، نَحْوَ رِوَايَةِ وَكِيعٍ، وَلا نَعْلَمُ أَحَدًا ذَكَرَ فِيهِ عَلَى يَسَارِهِ، إِلا مَا رَوَاهُ إِسْحَاقُ بْنُ مَنْصُورٍ، عَنِ إِسْرَائِيلَ.

(134) ..... Cabir ibn Səmurə ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ yastığa dirsəkləndiyini görmüşəm."[1]

Əbu İsa (ət-Tirmizi) demişdir: "Vəki onun sol tərəfə dirsəkləndiyini zikr etməmişdir. Həmçinin, digərləri də İsraildən bu hədisi Vəkiyin rəvayətinə bənzər şəkildə

Peyğəmbərin ﷺ Ğarra deyilən və dörd kişinin qaldıra biləcəyi böyük bir sinisi var idi. Nəhayət, səhər açıldıqda bu sinini gətirib yeməyi onun içinə qoydular. Camaat bu yeməyin başına yığışdığı zaman Peyğəmbər ﷺ dizi üstə (yeməyə) oturdu. Onda bədəvilərdən biri ondan: "Bu nə oturuşdur?"– deyə soruşdu. Peyğəmbər ﷺ buyurdu: "Allah məni inadkar və dikbaş yox, ehtirama layiq bir qul etmişdir." Sonra davam edib dedi: "Yeməyin qırağından yeyin! Ortasını (axıra) saxlayın ki, bu yemək sizin üçün bərəkətli olsun. Götürün, yeyin! Muhəmmədin canı Əlində olan Allaha and olsun ki, siz Fars və Rum diyarlarını fəth edəcəksiniz. İş o yerə gəlib çatacaq ki, yemək çoxalacaq, lakin üzərində Allahın adı çəkilməyəcəkdir (yəni, bəziləri o dərəcədə harınlayacaqlar ki, yemək yedikdə "bismilləh" deməyəcəklər)" (Bax: Silsilətul-Əhadisis-Səhihə, 393-cü hədis).

[1] 130-cu hədisə bax.

rəvayət etmişlər. Biz kimsənin öz hədisində Peyğəmbərin ﷺ sol tərəfə dirsəkləndiyini zikr etdiyini bilmirik. Yalnız İshaq ibn Mənsurun İsraildən rəvayət etdiyi hədisdən başqa.”

٢٣- بَاب اتِّكاء رسول الله ﷺ

23-cü fəsil. Rəsulullahın ﷺ söykənməsi[1]

١٣٥- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ عَاصِمٍ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ شَاكِيًا، فَخَرَجَ يَتَوَكَّأُ عَلَى أُسَامَةَ بْنِ زَيْدٍ وَعَلَيْهِ ثَوْبٌ قِطْرِيٌّ، قَدْ تَوَشَّحَ بِهِ فَصَلَّى بِهِمْ.

(135) ..... Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ ağrıları şiddətləndiyi (və taqətsiz olduğu) üçün Usamə ibn Zeydə söykənmiş halda (evindən) çıxdı. Peyğəmbər ﷺ əynindəki qitr bürüncəyinə bürünmüşdü. Sonra (Peyğəmbər ﷺ) gəlib, camaata namaz qıldırdı."[2]

١٣٦- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُبَارَكِ، قَالَ: حَدَّثَنَا عَطَاءُ بْنُ مُسْلِمٍ الْخَفَّافُ الْحَلَبِيُّ، قَالَ: حَدَّثَنَا جَعْفَرُ بْنُ بُرْقَانَ، عَنْ عَطَاءِ بْنِ أَبِي رَبَاحٍ، عَنِ الْفَضْلِ بْنِ عَبَّاسٍ، قَالَ: ((دَخَلْتُ عَلَى رَسُولِ اللهِ ﷺ، فِي مَرَضِهِ الَّذِي تُوُفِّيَ فِيهِ، وَعَلَى رَأْسِهِ عِصَابَةٌ صَفْرَاءُ، فَسَلَّمْتُ عَلَيْهِ))، فَقَالَ: ((يَا فَضْلُ))، قُلْتُ: ((لَبَّيْكَ، يَا رَسُولَ اللهِ))، قَالَ: ((اشْدُدْ بِهَذِهِ

[1] Burada, ayaq üstə başqa birisinə söykənmək nəzərdə tutulur.

[2] 59-cu hədisə bax.

الْعِصَابَةِ رَأْسِي)) قَالَ: ((فَفَعَلْتُ، ثُمَّ قَعَدَ فَوَضَعَ كَفَّهُ عَلَى مَنْكِبِي، ثُمَّ قَامَ فَدَخَلَ فِي الْمَسْجِدِ)).

وَفِي الْحَدِيثِ قِصَّةٌ.

(136) ..... Fədl ibn Abbas[1] ﷺ demişdir: "Rəsulullah ﷺ vəfatı ilə nəticələnən xəstəliyə tutulduğu zaman mən onun yanına gəldim. Onun başında sarı rəngli sarıq var idi. Mən ona salam verdikdən sonra o: "Ey Fədl!"– deyə məni çağırdı. Dedim: "Əmrinə müntəzirəm, ya Rəsulullah!" O dedi: "Bu sarığı mənim başıma sarı." Mən (onun buyuruğunu) yerinə yetirdim. Sonra o, (qalxıb) oturdu və əlini mənim çiynimə qoydu. Sonra ayağa qalxdı və (mənə söykənmiş halda) gedib məscidə daxil oldu."[2]

(Əbu İsa ət-Tirmizi demişdir): "Bu, uzun bir hədisin bir hissəsidir."

---

[1] Fədl ibn Abbas ibn Abdul-Muttəlib ﷺ Peyğəmbərin ﷺ səhabəsidir.

[2] Bu hədisin isnadında keçən Əta ibn Muslim "çox xətalara yol vermiş səduq" ravidir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

٢٤- بَاب صفة أَكْل رسول الله ﷺ

24-cü fəsil. Rəsulullahın ﷺ yemək yeməyinin vəsfi[1]

١٣٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، عَنْ سُفْيَانَ، عَنْ سَعْدِ بْنِ إِبْرَاهِيمَ، عَنِ ابْنٍ لِكَعْبِ بْنِ مَالِكٍ، عَنْ أَبِيهِ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَلْعَقُ أَصَابِعَهُ ثَلَاثًا.

قَالَ أَبُو عِيسَى: وَرَوَى غَيْرُ مُحَمَّدِ بْنِ بَشَّارٍ هَذَا الْحَدِيثَ، قَالَ: يَلْعَقُ أَصَابِعَهُ الثَّلَاثَ.

(137) ..... Kəb ibn Malik[2] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ (yeməyi yedikdən sonra) barmaqlarını üç kərə yalayardı.[3]

Əbu İsa (ət-Tirmizi) demişdir: "Muhəmməd ibn Bəşşərdən qeyrisi bu hədisi rəvayət etmiş və: "Üç barmağını yalayardı[1]"– demişdir.

---

[1] Burada Peyğəmbərin ﷺ nə cür yemək yediyi nəzərdə tutulur.

[2] Kəb ibn Malik ibn Əbu Kəb Amr əl-Ənsari əl-Xəzrəci ﷺ Peyğəmbərin ﷺ səhabəsi, onun şairi və ağac altında ona beyət edənlərdən olmuşdur. Tövbəsi qəbul olunmuş üç nəfərdən biridir (Siyər Əlam ən-Nubələ, 107-ci tərcümeyi-hal).

[3] Bu hədisin mətni səhih isnadla rəvayət edilmiş hədislərə zidd olduğundan "şəzz" (daha mötəbər rəvayətlərə müxalif) hesab edilir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

١٣٨- حَدَّثَنَا الْحَسَنُ بْنُ عَلِيٍّ الْخَلالُ، قَالَ: حَدَّثَنَا عَفَّانُ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ إِذَا أَكَلَ طَعَامًا لَعِقَ أَصَابِعَهُ الثَّلاثَ)).

---

[1] Bu hədis isə Muslimin "Səhih"ində (2032) və digər hədislərdə öz təsdiqini tapmışdır. Bu hədisdə Peyğəmbərin ﷺ yemək ədəbi xüsusunda iki gözəl xislət varid olmuşdur. Birincisi, yeməyi üç barmaqla: yəni, baş, işarə və orta barmaqlarla yemək. Qeyd etmək lazımdır ki, üç barmaqla yemək narahat olduğu təqdirdə, sağ əlin bütün barmaqları ilə yemək caizdir. İkincisi isə, yeməyi yedikdən sonra barmaqları yalamaq. Bunun hikməti digər hədisdə açıq-aydın bildirilir. Həmin hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Biriniz yemək yedikdən sonra barmaqlarını yalasın. Çünki o, bərəkətin yeməyin harasında olduğunu bilmir" (Səhih Muslim, 2035). Digər hədisdə İbn Abbas رضي الله عنهما rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Biriniz yemək yedikdə əlini yalamayınca və ya *əhli-əyalına* yalatdırmayınca onu *heç nəyə* silməsin" (Səhih əl-Buxari, 5456). Demək, yeməyi tam şəkildə yemək lazımdır ki, yeməyin bərəkətinə nail olasan. Bu xüsusda varid olmuş hədislərə nəzər salsaq görərik ki, bərəkət yeməyin istənilən yerində ola bilər. Ola bilər ki, yediyi tikədə olsun, yaxud barmaqlarda qalmış olsun, yaxud qabın dibində qalmış olsun, yaxud da yerə düşən tikədə olsun. Peyğəmbər ﷺ müsəlmanlara yeməyin bir tikəsini belə şeytana buraxmamağı buyurmuşdur: "Sizdən birinizin loxması əlindən yerə düşərsə, onu götürüb *təmizləyib* yesin və onu şeytana buraxmasın. Həmçinin, yemək qabını dibinə kimi sivirin. Belə ki, bərəkətin yeməyinizin harasında olduğu bilinmir" (Səhih İbn Hibban, 5249). Bu hədislərdən belə nəticə çıxır ki, Peyğəmbərin ﷺ sünnəsinə riayət etməklə, bu həyatda hər növ bərəkətə nail olmaq olar. Çünki onun Sünnəsi başdan-ayağadək bərəkətdən ibarətdir.

(138) ..... Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ yeməyi yedikdən sonra üç barmağını yalayardı."[1]

١٣٩- حَدَّثَنَا الْحُسَيْنُ بْنُ عَلِيِّ بْنِ يَزِيدَ الصُّدَائِيُّ الْبَغْدَادِيُّ، قال: حَدَّثَنَا يَعْقُوبُ بْنُ إِسْحَاقَ يَعْنِي الْحَضْرَمِيَّ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ سُفْيَانَ الثَّوْرِيِّ، عَنْ عَلِيِّ بْنِ الأَقْمَرِ، عَنْ أَبِي جُحَيْفَةَ، قَالَ: قَالَ النَّبِيُّ ﷺ: ((أَمَّا أَنَا فَلا آكُلُ مُتَّكِئًا)).

(139) ..... Əbu Cuheyfə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "O ki qaldı mənə, mən söykənmiş halda (yemək) yemirəm.[2]"[3]

١٤٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَلِيِّ بْنِ الأَقْمَرِ، نَحْوَهُ.

(140) Muhəmməd ibn Bəşşar bizə xəbər vermişdir ki, Abdur-Rəhman ibn Məhdi bizə belə rəvayət etmişdir; Sufyan bizə Əli ibn Əqmərdən bu hədisin bənzərini rəvayət etmişdir.

---

[1] Bu hədisi Muslim (2034), Əbu Davud (3845) və Tirmizi (1804) rəvayət etmişdir.

[2] Bu xüsusda İbn Qeyyim demişdir: "Söykənmək üç cürdür: birincisi, sağ və ya sol tərəfə dirsəklənmək, ikincisi, ayaqları uzadıb bir-birinin üstünə aşırtmaq, üçüncüsü, iki əldən birinə söykənib digəri ilə yemək. Bunların hər üçü sünnəyə ziddir" (Zadul-Məad fi Hədyi Xeyril İbad, 1/142). İmam ən-Nəxəi demişdir: "Səhabələr və onlardan sonra gələnlər dirsəkləndikləri halda yemək yeməzdilər."

[3] 132-ci hədisə bax.

١٤١- حَدَّثَنَا هَارُونُ بْنُ إِسْحَاقَ الْهَمْدَانِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدَةُ بْنُ سُلَيْمَانَ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنِ ابْنٍ لِكَعْبِ بْنِ مَالِكٍ، عَنْ أَبِيهِ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ يَأْكُلُ بِأَصَابِعِهِ الثَّلاثِ وَيَلْعَقُهُنَّ)).

(141) ..... Kəb ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ (yeməyi) üç barmağı ilə yeyər və (yeməkdən sonra) bu barmaqlarını yalayardı."[1]

١٤٢- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا الْفَضْلُ بْنُ دُكَيْنٍ، قَالَ: حَدَّثَنَا مُصْعَبُ بْنُ سُلَيْمٍ، قَالَ: سَمِعْتُ أَنَسَ بْنَ مَالِكٍ، يَقُولُ: ((أُتِيَ رَسُولُ اللهِ ﷺ بِتَمْرٍ فَرَأَيْتُهُ يَأْكُلُ وَهُوَ مُقْعٍ مِنَ الْجُوعِ)).

(142) ..... Ənəs ibn Malik ﷺ demişdir: "(Bir dəfə) Peyğəmbərə ﷺ xurma gətirdilər. O, ac olduğundan, mən onun ombası üstə narahat halda oturub, bu xurmalardan yediyini gördüm."[2]

---

[1] 138-ci hədisə bax.

[2] Bu hədisi Muslim (2044), Əbu Davud (3771), Nəsai (6744) və Əhməd (3/203) rəvayət etmişdir.

٢٥- بَاب صفة خُبْز رسول الله ﷺ

25-ci fəsil. Rəsulullahın ﷺ çörəyinin vəsfi

١٤٣- حدثني مُحَمَّدُ بْنُ الْمُثَنَّى، وَمُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالا: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ، قَالَ: سَمِعْتُ عَبْدَ الرَّحْمَنِ بْنَ يَزِيدَ، يُحَدِّثُ عَنِ الأَسْوَدِ بْنِ يَزِيدَ، عَنْ عَائِشَةَ، أَنَّهَا قَالَتْ: ((مَا شَبِعَ آلُ مُحَمَّدٍ ﷺ مِنْ خُبْزِ الشَّعِيرِ يَوْمَيْنِ مُتَتَابِعَيْنِ حَتَّى قُبِضَ رَسُولُ اللهِ ﷺ)).

(143) ..... Aişə ﵂ demişdir:[1] "Rəsulullah ﷺ vəfat edənədək Muhəmmədin ﷺ ailəsi iki gün dalbadal arpa çörəyindən doyunca yeməmişdir.[2]"

---

[1] Bu hədisi Muslim (2970), Tirmizi (2358), Nəsai (6638), İbn Macə (3344) və Əhməd (6/41) rəvayət etmişdir.

[2] Başqa rəvayətdə Aişə ﵂ demişdir: "Muhəmmədin ﷺ ailəsi Mədinəyə gəldiyi gündən onun vəfat etdiyi günədək, *heç vaxt* üç gün dalbadal buğda çörəyindən doyunca yeməmişdir" (Səhih əl-Buxari, 5416). Bu, dəlildir ki, Rəsulullah ﷺ evində nəinki bir illik, yaxud bir aylıq və ya bir həftəlik ərzaq ehtiyatı saxlayar, hətta bir neçə günlük belə evində ərzaq olmazdı. Əksinə, Rəsulullah ﷺ dua edib deyərdi: "Allahım, Muhəmmədin ailəsinə gündəlik yemək nəsib et!" (Səhih əl-Buxari, 6460). Ənəs ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ Mədinədə ikən öz zirehini bir yəhudinin yanında girov qoymuş və bunun əvəzinə ondan ailəsi üçün arpa çörəyi götürmüşdü (Səhih əl-Buxari, 2069); digər rəvayətdə Aişə ﵂ demişdir: "Peyğəmbər ﷺ vəfat etdiyi zaman onun zirehi, üç saa (yəni, iyirmi dörd ovuc) arpa müqabilində bir yəhudidə girov qalmışdı" (Səhih Tərğib vər-Tərhib, 3295). Yemək bol olduğu qonaqlıqlarda belə Peyğəmbər ﷺ ehtiyacını ödəyəcək qədər

١٤٤- حَدَّثَنَا عَبَّاسُ بْنُ مُحَمَّدٍ الدُّورِيُّ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ أَبِي بُكَيْرٍ، قَالَ: حَدَّثَنَا حَرِيزُ بْنُ عُثْمَانَ، عَنْ سُلَيْمِ بْنِ عَامِرٍ، قَالَ: سَمِعْتُ أَبَا أُمَامَةَ الْبَاهِلِيَّ، يَقُولُ: ((مَا كَانَ يَفْضُلُ عَنِ أَهْلِ بَيْتِ رَسُولِ اللهِ ﷺ خُبْزُ الشَّعِيرِ)).

---

yeyər və qarnını yeməklə doldurmazdı. Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: “İnsanın ən çox şər doldurduğu tuluq – onun qarnıdır. Adəm övladına belini dik tutacaq qədər *az miqdarda* loxmalar *yemək* bəs edər. Və əgər daha çox yemək istəyərsə, onda *mədəsinin* üçdə birini yemək üçün, üçdə birini su üçün, üçdə birini də hava üçün ayırsın” (Tirmizi, 2380; Nəsai, 6769; Əhməd 4/132, Silsilətul-Əhadisis-Səhihə, 2265). İbn Rəcəb demişdir: “Bu hədis tibbin bütün əsaslarını özündə cəm edən bir bünövrədir. Rəvayət edilir ki, (hicrətin 243-cü ilində vəfat etmiş, nəsrani) həkim İbn Əbu Masiveyh, Əbu Xeysəmənin kitabında bu hədisi oxuduqdan sonra demişdir: “Əgər insanlar bu hədisdə deyilənə əməl etsəydilər, sağlam olardılar, beləliklə də, nə bir xəstəxana qalardı, nə də bir əzcaxana.” Demək, bütün xəstəliklərin səbəbi həddən ziyadə yeməkdir (Camiul-Ulum vəl-Hikəm, 47-ci hədisin şərhi). Nafi rəvayət edir ki, *bir dəfə* bir nəfər ibn Ömərə “cəvariş” deyilən bir dərman gətirdi. İbn Ömər ondan: “Bu nədir?”– deyə soruşduqda, adam: “Bu, yeməyi həzm edən bir dərmandır”– deyə cavab verdi. Onda İbn Ömər dedi: “Bu dərman mənim nəyimə gərəkdir?! Elə bir ay olmayıb ki, həmin ayda mən doyunca yemək yeyim. Mən elə insanlar görmüşəm ki, onlar doyunca yeməkdən daha çox, ac qalardılar” (Hilyətul-Övliya, 1/300). Burada İbn Ömər رضي الله عنهما Peyğəmbəri ﷺ və onun səhabələrini qəsd edir.

(144) ..... Suleym ibn Amir demişdir: "Mən Əbu Umamə əl-Bahilinin belə dediyini eşitmişəm: "Rəsulullahın ﷺ əhli-beytinin heç vaxt artıq arpa çörəyi olmazdı."[1]

١٤٥- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ مُعَاوِيَةَ الْجُمَحِيُّ، قَالَ: حَدَّثَنَا ثَابِتُ بْنُ يَزِيدَ، عَنْ هِلاَلِ بْنِ خَبَّابٍ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ، يَبِيتُ اللَّيَالِيَ الْمُتَتَابِعَةَ طَاوِيًا هُوَ وَأَهْلُهُ، لا يَجِدُونَ عِشَاءً وَكَانَ أَكْثَرُ خُبْزِهِمْ ، خُبْزَ الشَّعِيرِ)).

(145) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Rəsulullahın ﷺ və onun ailəsinin ardıcıl neçə-neçə gecələr şam yeməyi olmaz və onlar (gecəni) ac keçirərdilər. Çörəkləri də çox vaxt arpa unundan olardı."[2]

١٤٦- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللهِ بْنُ عَبْدِ الْمَجِيدِ الْحَنَفِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ عَبْدِ اللهِ بْنِ دِينَارٍ، قَالَ: حَدَّثَنَا أَبُو حَازِمٍ، عَنْ سَهْلِ بْنِ سَعْدٍ، أَنَّهُ قِيلَ لَهُ: ((أَكَلَ رَسُولُ اللهِ ﷺ النَّقِيَّ؟)) يَعْنِي الْحُوَّارَى فَقَالَ سَهْلٌ: ((مَا رَأَى رَسُولُ اللهِ ﷺ النَّقِيَّ حَتَّى لَقِيَ اللَّهَ عَزَّ وَجَلَّ))، فَقِيلَ لَهُ: ((هَلْ كَانَتْ لَكُمْ مَنَاخِلُ عَلَى عَهْدِ رَسُولِ اللهِ ﷺ؟)) قَالَ:

---

[1] Bu hədisi Tirmizi (2360), Əhməd (5/253) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun səhih olduğunu demişdir.

[2] Bu hədisi Tirmizi (2361), İbn Macə (3347), Əhməd (1/255) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

((مَا كَانَتْ لَنَا مَنَاخِلُ)) قِيلَ: ((كَيْفَ كُنْتُمْ تَصْنَعُونَ بِالشَّعِيرِ؟)) قَالَ: ((كُنَّا نَنْفُخُهُ فَيَطِيرُ مِنْهُ مَا طَارَ، ثُمَّ نَعْجِنُهُ)).

(146) ..... Əbu Hazim rəvayət edir ki, (bir dəfə) Səhl ibn Səddən[1] ﷺ soruşdular: "Rəsulullah ﷺ ələnmiş ağ undan (bişirilmiş) çörək yemişdirmi?" O dedi: "Rəsulullah ﷺ Allaha qovuşanadək belə bir çörək görməmişdir.[2]" Yenə soruşdular: "Rəsulullahın ﷺ dövründə sizin (un ələmək üçün) ələyiniz var idimi?" Dedi: "Bizim (belə) bir ələyimiz yox idi." Ondan: "Bəs arpanı necə təmizləyirdiniz"– deyə soruşdular. Dedi: "Biz arpanı (götürüb) üfürər, içindəki (kəpəklərdən) uçanı uçar, sonra (yerdə qalanından) xəmir yoğurardıq."[3]

١٤٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا مُعَاذُ بْنُ هِشَامٍ، قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ يُونُسَ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((مَا أَكَلَ نَبِيُّ اللهِ ﷺ عَلَى خِوَانٍ، وَلا فِي سُكُرُّجَةٍ، وَلا خُبِزَ لَهُ مُرَقَّقٌ)).

---

[1] Əbul-Abbas Səhl ibn Səd ibn Malik əl-Ənsari əl-Xəzrəci əs-Saidi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Hicrətin 91-ci ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 72-ci tərcümeyi-hal).

[2] Qətadə rəvayət edir ki, biz tez-tez Ənəs ibn Malikin ﷺ yanına gələrdik. (O, həmişə bizim üçün süfrə açar və bizi də yeməyə dəvət edərdi.) Bir gün o, bizə dedi: "Yeyin! Mən Rəsulullahın ﷺ, Rəbbinə qovuşanadək, gözü ilə, ələnmiş undan bişirilmiş yumşaq çörək gördüyünü bilmirəm" (Sunən İbn Macə, 3339; Səhih İbn Macə, 2697).

[3] Bu hədisi Tirmizi (2365), İbn Macə (3335), Əhməd (5/332) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

قَالَ : فَقُلْتُ لِقَتَادَةَ: ((فَعَلامَ كَانُوا يَأْكُلُونَ؟)) قَالَ: ((عَلَى هَذِهِ السُّفَرِ)).

قَالَ مُحَمَّدُ بْنُ بَشَّارٍ: يُونُسُ الَّذِي رَوَى عَنْ قَتَادَةَ هُوَ يُونُسُ الإِسْكَافُ.

(147) ..... Qətadə rəvayət edir ki, Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ nə masa arxasında,[1] nə də (ayrıca) nimçədə yemək yemiş,[2] nə də ki onun üçün yumşaq kökə bişirilmişdi."

(Ravi Yunus) dedi: "Mən Qətadədən soruşdum: "Onlar yeməyi nəyin üzərində yeyərdilər?" O: "(Yerdən salınan) bu süfrələrin üzərində" –deyə cavab verdi."

Muhəmməd ibn Bəşşar demişdir: "(Yuxarıdakı hədisi) Qətadədən rəvayət edən Yunus – Yunus əl-İskafdır."[3]

١٤٨- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا عَبَّادُ بْنُ عَبَّادٍ الْمُهَلَّبِيُّ، عَنْ مُجَالِدٍ، عَنِ الشَّعْبِيِّ، عَنْ مَسْرُوقٍ، قَالَ: دَخَلْتُ عَلَى عَائِشَةَ، فَدَعَتْ لِي بِطَعَامٍ وَقَالَتْ: ((مَا أَشْبَعُ مِنْ طَعَامٍ فَأَشَاءُ أَنْ أَبْكِيَ إِلا بَكِيتُ)) قَالَ: ((قُلْتُ لِمَ؟))

---

[1] Bu xüsusda İbn Arabi demişdir: "Süfrədə yemək yemək təvazökarlıq, masa arxasında yemək özünü dartmaq, (süfrə salmadan birbaşa) yerdə yemək isə fəsaddır."

[2] Peyğəmbər ﷺ həmişə camaatla birlikdə bir qabdan yemək yemişdir.

[3] Bu hədisi Buxari (5099), Tirmizi (1789), İbn Macə (3292) və Əhməd (3/130) rəvayət etmişdir.

قَالَتْ: ((أَذْكُرُ الْحَالَ الَّتِي فَارَقَ عَلَيْهَا رَسُولُ اللهِ ﷺ الدُّنْيَا، وَاللهِ مَا شَبِعَ مِنْ خُبْزٍ وَلَحْمٍ مَرَّتَيْنِ فِي يَوْمٍ)).

(148) ..... Məsruq demişdir: "(Bir dəfə) mən Aişənin yanına gəldim və o, mənə yemək gətizdirib dedi: "Mən hər dəfə doyunca yemək yedikdə, məni ağlamaq tutur və mən ağlayıram." Soruşdum: "Niyə (ağlayırsan) ki?" Dedi: "Rəsulullahın ﷺ nə vəziyyətdə bu dünyadan köçdüyü yadıma düşür. Vallahi ki, Rəsulullah ﷺ heç vaxt bir gündə iki dəfə çörəkdən və ətdən doyunca yeməmişdir."[1]

١٤٩- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ، قَالَ: سَمِعْتُ عَبْدَ الرَّحْمَنِ بْنَ يَزِيدَ يُحَدِّثُ، عَنِ الأَسْوَدِ بْنِ يَزِيدَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((مَا شَبِعَ رَسُولُ اللهِ ﷺ مِنْ خُبْزِ الشَّعِيرِ يَوْمَيْنِ مُتَتَابِعَيْنِ حَتَّى قُبِضَ)).

(149) ..... Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ vəfat edənədək iki gün dalbadal arpa çörəyindən[2] doyunca yeməmişdir."[3]

---

[1] Bu hədisi Tirmizi (2357) rəvayət etmiş və Muhəmməd Nasiroddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "zəif" olduğunu demişdir.

[2] Bu hədis ona dəlalət edir ki, Peyğəmbər ﷺ çox vaxt yeməyə adi çörək belə tapa bilmirdi. Günlərlə ac qalar, yaxud evində su və xurmadan başqa bir şey olmazdı.

[3] 143-cü hədisə bax.

١٥٠- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَمْرٍو أَبُو مَعْمَرٍ، حَدَّثَنَا عَبْدُ الْوَارِثِ، عَنْ سَعِيدِ بْنِ أَبِي عَرُوبَةَ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسٍ، قَالَ: ((مَا أَكَلَ رَسُولُ اللهِ ﷺ عَلَى خِوَانٍ، وَلا أَكَلَ خُبْزًا مُرَقَّقًا حَتَّى مَاتَ)).

(150) ..... Ənəs ﷺ demişdir: "Rəsulullah ﷺ vəfat edənədək nə masa arxasında yemək yemiş, nə də yumşaq çörəkdən dadmışdır."[1]

[1] Bu hədisi Buxari (2364) və İbn Macə (3293) rəvayət etmişdir.

٢٦- بَاب صِفة إِدام رسول الله ﷺ

26-cı fəsil. Rəsulullahın ﷺ (istifadə etdiyi) qatışığın[1] vəsfi

١٥١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ سَهْلِ بْنِ عَسْكَرٍ، وَعَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالا: حَدَّثَنَا يَحْيَى بْنُ حَسَّانَ، قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ بِلالٍ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، أَنَّ رَسُولَ اللهِ ﷺ، قَالَ: ((نِعْمَ الإِدَامُ الْخَلُّ))، قَالَ عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، فِي حَدِيثِهِ: ((نِعْمَ الإِدَامُ أَوِ الأُدُمُ الْخَلُّ)).

(151) ..... Aişə رضي الله عنها rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Sirkə[2] nə gözəl qatışıqdır!”[1]

---

[1] Burada “qatışıq” deyildikdə, içinə çörək qatışdırıb yeyilən hər bir şey: sirkə, abqora, yağ, süd, ətli və ya ətsiz şorba və s. nəzərdə tutulur (Nəvəvinin Şərhi, 3823-cü hədisin şərhi; ən-Nihayə fi Ğəribil-Hədis, 1/62).

[2] Bu hədis heç də sirkənin ən gözəl qatışıq olduğuna dəlalət etmir. Belə ki, ondan da dadlı, zeytun yağı, ət şorbası və s. bu kimi qatışıqlar vardır. Sadəcə olaraq, Rəsulullah ﷺ bunu sirkədən başqa yeməyə bir şey olmadığı bir vaxtda demişdir. Cabir ibn Abdullahdan رضي الله عنهما rəvayət edilən hədisdə deyilir ki, *bir dəfə* Peyğəmbər ﷺ ailəsindən: “Yeməyə nə var?”– deyə soruşmuş, onlar: “Evdə sirkədən başqa bir şey yoxdur”– deyə cavab vermişlər. Sonra Peyğəmbər ﷺ sirkəni gətizdirib onu *çörəklə* yeyə-yeyə: “Nə gözəl qatışıqdır bu sirkə, nə gözəl qatışıqdır bu sirkə!”– demişdir” (Səhih Muslim, 2052). Bu xüsusda, İbn Qeyim demişdir: “Rəsulullah ﷺ: “Nə gözəl qatışıqdır bu sirkə”– deməklə, bəlli bir vaxtda və bəlli bir yerdə sadəcə sirkəni tərifləmişdir. Bəzi avamların güman etdiyi kimi bu tərif heç də sirkənin ən gözəl qatışıq olduğuna dəlalət etmir. Rəsulullahın ﷺ sirkəni belə tərif etməyinin

Abdullah ibn Abdur-Rəhman öz rəvayətində: "Sirkə nə gözəl qatışıqdır və ya qatışıqlardandır!"– demişdir.

١٥٢- حَدَّثَنَا قُتَيْبَةُ، قَالَ: حَدَّثَنَا أَبُو الأَحْوَصِ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، قَالَ: سَمِعْتُ النُّعْمَانَ بْنَ بَشِيرٍ، يَقُولُ: ((أَلَسْتُمْ فِي طَعَامٍ وَشَرَابٍ مَا شِئْتُمْ؟ لَقَدْ رَأَيْتُ نَبِيَّكُمْ ﷺ، وَمَا يَجِدُ مِنَ الدَّقَلِ مَا يَمْلأُ بَطْنَهُ)).

(152) ..... Simak ibn Hərb demişdir: "Mən Nomən ibn Bəşirin[2] belə dediyini eşitmişəm: "Məgər siz istədiyiniz *nemətlərdən* yeyib içmirsiniz?! Halbuki Peyğəmbərinizin ﷺ qarnını doyuracaq qədər köhnə xurması belə olmazdı."[3]

---

səbəbi budur ki, bir dəfə ailəsi onun qabağına *quru* çörək qoymuş, o da, onlardan: "Sizdə (çörəyi batırıb yemək üçün) bir qatışıq varmı?"– deyə soruşmuş və nəhayət, onlar ona: "Sirkədən başqa bir şey yoxdur"– dedikdə, o: "Nə gözəl qatışıqdır bu sirkə!"– demişdir" (Zadul-Məad fi Hədyi Xeyril İbad, 4/198).

[1] Bu hədisi Muslim (2051), Tirmizi (1841) və İbn Macə (3316) rəvayət etmişdir.

[2] Əbu Abdullah Nomən ibn Bəşir ibn Səd əl-Ənsari əl-Xəzrəci رضي الله عنهما Peyğəmbərin ﷺ azyaşlı səhabəsi, həm də Abdullah ibn Rəvahənin رضي الله عنه bacısı oğludur. Kufə, sonra Dəməşq, sonra da Homs şəhərlərinin valisi olmuşdur. Peyğəmbərdən ﷺ yüz on dörd hədis rəvayət etmişdir. Buxari və Muslim – birlikdə ondan beş hədis, ayrı-ayrılıqda Buxari bir, Muslim isə dörd hədis rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 66-cı tərcümeyi-hal).

[3] Muhəmməd Nasiрəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Olsun ki, müəllif bu hədisi bu fəsildə gətirməklə, Peyğəmbərin ﷺ çörəyi xurmaya qatıb yediyini bildirmək istəmişdir (183-cü hədisə bax).

١٥٣- حَدَّثَنَا عَبْدَةُ بْنُ عَبْدِ اللهِ الْخُزَاعِيُّ، قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ بْنُ هِشَامٍ، عَنْ سُفْيَانَ، عَنْ مُحَارِبِ بْنِ دِثَارٍ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((نِعْمَ الإِدَامُ الْخَلُّ)).

(153) ..... Cabir ibn Abdullah رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Sirkə nə gözəl qatışıqdır!"[1]

١٥٤- حَدَّثَنَا هَنَّادٌ، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، عَنْ سُفْيَانَ، عَنْ أَيُّوبَ، عَنْ أَبِي قِلابَةَ، عَنْ زَهْدَمٍ الْجَرْمِيِّ، قَالَ: كُنَّا عِنْدَ أَبِي مُوسَى الأَشْعَرِيِّ، فَأُتِيَ بِلَحْمِ دَجَاجٍ فَتَنَحَّى رَجُلٌ مِنَ الْقَوْمِ، فَقَالَ: ((مَا لَكَ؟)) فَقَالَ: ((إِنِّي رَأَيْتُهَا تَأْكُلُ نَتِنًا فَحَلَفْتُ أَنْ لا آكُلَهَا)). قَالَ: ((ادْنُ، فَإِنِّي رَأَيْتُ رَسُولَ اللهِ ﷺ، يَأْكُلُ لَحْمَ دَجَاجٍ)).

(154) ..... Zəhdəm əl-Cərmi demişdir: "Biz Əbu Musa əl-Əşarinin[2] yanında ikən ona toyuq əti gətirdilər. Bu vaxt

---

[1] Bu hədisi Əbu Davud (3820), Tirmizi (1840), Nəsai (3796), Əhməd (3/301) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Əbu Musa Abdullah ibn Qeys ibn Suleym əl-Əşari ət-Təmimi رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir. İslam dinini Məkkədə qəbul etmişdir, sonra Həbəşistana hicrət etmiş və nəhayət, Xeybərin fəthindən üç gün sonra Peyğəmbərin ﷺ yanına gəlmişdir. Peyğəmbər ﷺ onu Muaz ibn Cəbəl ilə birgə Yəmənə dəvətə göndərmişdir. Ömərin رضي الله عنه dövründə Bəsrənin, Osmanın رضي الله عنه dövründə isə Kufənin valisi olmuşdur. Əbu Musa hicrətin 42-ci ilində vəfat etmişdir. (Siyər Əlam ən-Nubələ, 82-ci tərcümeyi-hal). Əbu Musanın رضي الله عنه fəzilətinə dair neçə-neçə hədislər varid olmuşdur. Aşağıdakı hədislər də bu qəbildəndir:

Ənəs ibn Malik ؓ rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ (bizə): "Tezliklə sizin yanınıza elə adamlar gələcək ki, onlar İslam üçün (can yandıran) sizdən daha incə qəlbli insanlardır." Nəhayət, əşarilər bizim yanımıza gəldilər. Əbu Musa əl-Əşari də onların arasında idi. Onlar Mədinəyə yaxınlaşdıqları zaman bu sözləri deməyə başladılar: "Sabah biz çox sevdiyimiz insanlara: Muhəmmədə ﷺ və onun səhabələrinə qovuşacağıq...." (Musnəd İmam Əhməd, 3/223; Şueyb əl-Arnavut bu hədisin "həsən" olduğunu demişdir).

Digər bir hədisdə Peyğəmbər ﷺ ona belə demişdir: "Ey Əbu Musa, sənə Davudun məlahətli səsi kimi məlahətli bir səs bəxş edilmişdir!" (Səhih əl-Buxari, 5048).

Başqa bir hədisdə rəvayət edilir ki, Əbu Musa ؓ demişdir: "Peyğəmbər ﷺ Huneyn döyüşünü başa çatdırdıqdan sonra Əbu Amirin başçılığı altında Əvtasa qoşun göndərdi. Əbu Amir orada Dureyd ibn Simmə ilə qarşı-qarşıya gəldi. *Bu döyüşdə* Dureyd öldürüldü və Allah onun tərəfdarlarını məğlub etdi." Peyğəmbər ﷺ məni də Əbu Amirlə birgə göndərmişdi. *Döyüşdə* Cuşəmi *deyilən birisi* oxla Əbu Amiri dizindən yaraladı və ox onun dizində ilişib qaldı. Mən onun yanına gəlib dedim: "Əmi, kim vurdu səni?" O mənə həmin adamı göstərib dedi: "Budur məni vuran qatil." Mən onun üstünə şığıyıb ona çatdım. O, məni görəndə dönüb qaçmağa başladı. Mən də onun dalınca qaçdım və ona dedim: "Utanmırsan?! *Cürətin çatmır* dayanasan?" *Bunu eşidəndə* o dayandı, biz qılıncla biri-birimizə zərbə endirdik və mən onu öldürdüm. Sonra *gəlib* Əbu Amirə dedim: "Allah sənin düşmənini öldürdü." O dedi: "Bu oxu dart çıxsın." Mən oxu dartıb çıxartdıqda, yaradan çirkli qan axdı. O dedi: "Qardaş oğlu, mənim salamımı Peyğəmbərə ﷺ çatdırarsan və deyərsən ki, mənim üçün bağışlanma diləsin." Sonra Əbu Amir məni camaata başçı təyin etdi və az müddət keçdikdən sonra vəfat etdi. Mən geri qayıtdıqda, gəlib Peyğəmbərin ﷺ evinə daxil oldum. Peyğəmbər ﷺ üstü xurma liflərindən toxunmuş və üstünə nazik örtük sərilmiş bir çarpayıda uzanmışdı. İplər onun kürəyində və böyründə iz buraxmışdı. Mən həm bizim, həm də Əbu Amirin başına gələnləri ona danışdım. (Dedim: "Ya Rəsulullah, Əbu Amir) dedi: "Peyğəmbərə ﷺ deyərsən, mənim üçün bağışlanma diləsin." Onda Peyğəmbər ﷺ su gətizdirib

məclisdəkilərdən biri kənara çəkildi. Əbu Musa (ondan): "Nə oldu sənə?"– deyə soruşdu. Adam: "Mən bu toyuğun murdar şey [1] yediyini gördüm və buna görə də onu yeməyəcəyimə and içdim.[2]" Onda Əbu Musa (ona) dedi:

---

dəstəmaz aldı, sonra əllərini *göyə* qaldırıb dedi: "Allahım, qulun Əbu Amiri bağışla!" (Peyğəmbər ﷺ əllərini elə qaldırdı ki, hətta) mən onun qoltuğunun ağlığını gördüm. O, davam edib dedi: "Allahım, Qiyamət günü onu yaratdığın insanların bir çoxundan üstün et!" Mən dedim: "*Ya Rəsulullah,* mənim üçün də bağışlanma dilə." Peyğəmbər ﷺ *dua edib* dedi: "Allahım, Abdullah ibn Qeysin günahlarını bağışla və Qiyamət günü onu olduqca şərəfli bir məqama çatdır!" (Səhih əl-Buxari, 4323).

[1] Burada "murdar" deyildikdə nəcasət yox, sadəcə xoşagəlməz bir şey nəzərdə tutulur. Çünki İslam şəriətinə görə, nəcasət yemiş heyvanın yeyilməsinin caiz olması üçün həmin heyvan bir müddət ayrı bir yerdə saxlanılmalı və təmiz yemlə yemlənilməlidir ki, əti nəcasətdən təmizlənsin. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ nəcis yemiş heyvanın ətini yeməyi və südünü içməyi qadağan etmişdir" (Sunən ət-Tirmizi, 1939; Səhih əl-Cami, 6855). Əbu Musa رضي الله عنه da bu toyuq ətinin təmiz olduğunu bildiyindən, ona bu ətdən yeməyi məsləhət görmüşdür.

[2] Əslində bu adamın yeməkdə eyib tutması sünnəyə ziddir. Belə ki, Peyğəmbərin ﷺ yemək xoşuna gəlmədikdə, o sadəcə "iştaham yoxdur" və ya "nəfsim çəkmir" və s. deyər və heç vaxt yeməyi pisləməzdi. Çünki yeməyi pisləyib, başqalarında da bu yeməyə ikrah hissi oyatmaq İslam ədəbinə ziddir. Rəvayət edilir ki, Əbu Hureyrə رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ heç vaxt heç bir yeməyi pisləməzdi. Yemək xoşuna gəldikdə, onu yeyər, əks halda isə onu tərk edərdi" (Səhih əl-Buxari, 3563). Çox güman ki, bu adamın and içməsi vərdişdən dolayı dilucu olmuşdur. Çünki Əbu Musa əl-Əşari رضي الله عنه onun and içməsinə irad tutmamışdır. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, qəsdən and içdikdə, bunun kəffarəsini ödəmək vacibdir. Abdur-Rəhman ibn Səmura رضي الله عنه rəvayət etmişdir ki, *bir dəfə* Peyğəmbər ﷺ *ona* belə buyurmuşdur: "Ey Abdur-Rəhman ibn Səmura! Əgər and içdikdən

“Yaxın gəl, (ye). Mən Rəsulullahın ﷺ toyuq əti yediyini görmüşəm.”[1]

١٥٥- حَدَّثَنَا الْفَضْلُ بْنُ سَهْلٍ الأَعْرَجُ الْبَغْدَادِيُّ، قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ عَبْدِ الرَّحْمَنِ بْنِ مَهْدِيٍّ، عَنِ إِبْرَاهِيمَ بْنِ عُمَرَ بْنِ سَفِينَةَ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ، قَالَ: ((أَكَلْتُ مَعَ رَسُولِ اللهِ ﷺ لَحْمَ حُبَارَى)).

(155) ..... Səfinə[2] ﷺ demişdir: “Mən Rəsulullahla ﷺ birlikdə dovdaq[3] əti yemişəm.”[4]

---

sonra, başqa bir işin ondan daha xeyirli olduğunu görsən, daha xeyirli olanı yerinə yetir və andını pozduğuna görə kəffarə ver” (Səhih əl-Buxari, 6622).

[1] Bu hədisi Buxari (4124), Muslim (1649), Tirmizi (1827), Nəsai (4347) və Əhməd (4/394) rəvayət etmişdir.

[2] Əbu Abdur-Rəhman Səfinə ﷺ Peyğəmbərin ﷺ səhabədir. Ummu Sələmənin ﷺ köləsi olmuş, sonra Ummu Sələmə ﷺ onu Peyğəmbərə ﷺ xidmət etmək şərtilə azad etmişdir. Səfinə onun ləqəbidir. Deyilənə görə adı Mihran, yaxud, Ruman, yaxud Qeys olmuşdur. Hicrətin 70-ci ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 29-cu tərcümeyi-hal).

[3] Durnalar fəsiləsindən yeyilən iri çöl quşu. Yeri gəlmişkən qeyd edək ki, quşlar fəsiləsindən yalnız yırtıcı quşları yemək qadağan edilmişdir. Rəvayət edilir ki, İbn Abbas ﷺ demişdir: “Rəsulullah ﷺ vəhşi heyvanlardan yırtıcı dişləri olan heyvanları, quşlardan da caynağı olan quşları yeməyi qadağan etmişdir” (Səhih Muslim, 1934).

[4] Bu hədisi Əbu Davud (3797) və Tirmizi (1829) rəvayət etmişdir. Hədisin isnadında keçən İbrahim ibn Amr ibn Səfinə “məstur” ravidir. Yəni, o ravi ki, ondan iki və daha artıq şəxs hədis rəvayət etmiş, lakin onun etibarlı olub-olmadığı bəlli olmamışdır. Bu isnadda keçən digər ravi – Fədl ibn Səhl isə “səduq” ravidir (Təqrib ət-Təhzib). Şeyx Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “zəif” olduğunu demişdir.

١٥٦- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ، عَنْ أَيُّوبَ، عَنِ الْقَاسِمِ التَّمِيمِيِّ، عَنْ زَهْدَمٍ الْجَرْمِيِّ، قَالَ: كُنَّا عِنْدَ أَبِي مُوسَى الأَشْعَرِيِّ، قَالَ: فَقُدِّمَ طَعَامُهُ وَقَدَّمَ فِي طَعَامِهِ لَحْمَ دَجَاجٍ وَفِي الْقَوْمِ رَجُلٌ مِنْ بَنِي تَيْمِ اللهِ أَحْمَرُ كَأَنَّهُ مَوْلًى، قَالَ: فَلَمْ يَدْنُ، فَقَالَ لَهُ أَبُو مُوسَى: ((ادْنُ، فَإِنِّي قَدْ رَأَيْتُ رَسُولَ اللهِ ﷺ أَكَلَ مِنْهُ، فَقَالَ: إِنِّي رَأَيْتُهُ يَأْكُلُ شَيْئًا، فَقَذِرْتُهُ فَحَلَفْتُ أَنْ لا أَطْعَمَهُ أَبَدًا)).

(156) ..... Zəhdəm əl-Cərmi demişdir: "Biz Əbu Musa əl-Əşarinin yanında ikən ona yemək gətirdilər. Həmin yeməyin içində toyuq əti var idi. Bu vaxt məclisdəkilərdən Bəni-Teymullah [1] qəbiləsindən, qırmızıbəniz, sanki kölə olan birisi yeməyə yaxın gəlmədi. Onda Əbu Musa (ona) dedi: "Yaxın gəl, (ye). Mən Rəsulullahın ﷺ bundan yediyini görmüşəm." Adam: "Mən bu toyuğun (murdar bir) şey yediyini gördüm və ondan iyrəndim. Elə buna görə də and içdim ki, ondan heç vaxt yeməyəcəyəm."[2]

١٥٧- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو أَحْمَدَ الزُّبَيْرِيُّ، وَأَبُو نُعَيْمٍ، قَالا: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَبْدِ اللهِ بْنِ عِيسَى، عَنْ رَجُلٍ مِنْ أَهْلِ الشَّامِ،

---

[1] Muhəmməd Hərəvi demişdir: "Teymullah – Abdullah deməkdir. Bu qəbilə Teymullah ibn Sələbəyə mənsub edilir. Bu da, Bəkr oğullarından olan bir tayfadır ki, onlara hazimilər deyilir" (Cəmul-Vəsail fi Şərhiş-Şəmail).

[2] 154-cü hədisə bax. Hər iki hədis eyni hadisəni xəbər verir. Hədisdəki ləfzlərin cümlə quruluşlarının fərqli olması isə hədisin məna ilə rəvayət edilməsinin caiz olmasını göstərir. Belə ki, isnaddakı ravilər bu hadisəni öz sözləri ilə rəvayət etmişlər.

يُقَالُ: لَهُ عَطَاءٌ، عَنْ أَبِي أَسِيدٍ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((كُلُوا الزَّيْتَ، وَادَّهِنُوا بِهِ، فَإِنَّهُ مِنْ شَجَرَةٍ مُبَارَكَةٍ)).

(157) ..... Əbu Əsid[1] ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Zeytun yağından yeyin[2] və ondan (başınıza) sürtün.[3] Çünki o, mübarək[4] ağacdandır."[5]

١٥٨- حَدَّثَنَا يَحْيَى بْنُ مُوسَى، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، قَالَ: حَدَّثَنَا مَعْمَرٌ، عَنْ زَيْدِ بْنِ أَسْلَمَ، عَنْ أَبِيهِ، عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((كُلُوا الزَّيْتَ وَادَّهِنُوا بِهِ، فَإِنَّهُ مِنْ شَجَرَةٍ مُبَارَكَةٍ)).

قَالَ أَبُو عِيسَى: كَانَ عَبْدُ الرَّزَّاقِ يَضْطَرِبُ فِي هَذَا الْحَدِيثِ، فَرُبَّمَا أَسْنَدَهُ، وَرُبَّمَا أَرْسَلَهُ.

---

[1] Əbu Əsid ibn Sabit əl-Ənsari əl-Mədəni ﷺ Peyğəmbər ﷺ səhabəsidir (Təqrib ət-Təhzib, 7943-cü tərcümeyi-hal).

[2] Yəni, yeməyinizə zeytun yağı qatın.

[3] Burada Peyğəmbərin ﷺ "yeyin" və "sürtün" əmri vacib yox, müstəhəb deməkdir.

[4] Zeytun ağacının mübarək olması Quran ayəsi ilə sabitdir. Uca Allah bu xüsusda buyurur: **"Allah göylərin və yerin nurudur. Onun *möminlərin qəlbində olan* nuru, içində çıraq olan bir taxçaya bənzəyir; o çıraq şüşənin içindədir, şüşə isə, sanki inci kimi bir ulduzdur. O *çıraq* təkcə şərqə və ya təkcə qərbə aid edilməyən *daim günəş şüaları altında qalan* mübarək zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da, sanki işıq saçır. *Bu*, nur üstündə nurdur. Allah istədiyini Öz nuruna yönəldir. Allah insanlar üçün məsəllər çəkir. Allah hər şeyi Biləndir"** (ən-Nur, 35).

[5] Bu hədisi Tirmizi (1853), Nəsai (6701), Əhməd (3/497) rəvayət etmiş və şeyx Albani onun "həsən" olduğunu demişdir.

(158) ..... Ömər ibn Xəttab[1] ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Zeytun yağından yeyin və ondan (başınıza) sürtün. Çünki o, mübarək ağacdandır."[1]

---

[1] Əbu Həfs, Ömər ibn Xəttab ibn Nufeyl əl-Qurəşi əl-Faruq ﷺ fil ilindən on il sonra, yəni, Muhəmmədə ﷺ peyğəmbərlik verilməmişdən otuz il əvvəl dünyaya gəlmişdir. Cənnətlə müjdələnmiş on nəfərdən biridir. O, Peyğəmbərin ﷺ həm ən yaxın iki dostundan biri, həm də onun qayınatası, möminlərin anası – Həfsənin رضي الله عنها atasıdır. Ömər ibn Xəttab ﷺ demək olar ki, Peyğəmbərlə ﷺ birlikdə bütün döyüşlərdə iştirak etmiş və ələlxüsus də ağac altında ona beyət gətirənlərdən olmuşdur. Ömər ibn Xəttab ﷺ Rəsulullahın ﷺ ikinci xəlifəsi olmuş və məhz onun xilafəti dövründə o dövrün ən böyük imperiyaları, habelə Peyğəmbərimizin ﷺ arzuladığı Qüds fəth edilmişdir. Peyğəmbər ﷺ onu tərifləyib demişdir: "Əgər məndən sonra peyğəmbər göndərilmiş olsaydı, Ömər olardı" (Sunən ət-Tirmizi, 2/293; Silsilətul-Əhadisis-Səhihə, 327); digər hədisdə o, belə buyurmuşdur: "Ey Xəttabın oğlu! Canım Əlində olan Allaha and olsun ki, şeytan sənə rast gəldiyi zaman yolunu dəyişdirib, başqa yol ilə gedir" (Səhih əl-Buxari, 7683); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "*Yuxuda* gördüm ki, Cənnətdəyəm. Birdən qarşıma bir qəsr və bu qəsrin həyətində bir cavan qız çıxdı. Soruşdum: "Bu *qəsr* kimindir?" Dedilər: "Ömərindir!" Mən qəsrin içinə girib ora göz gəzdirmək istədim, lakin sənin qısqanclığın yadıma düşdü *və mən dönüb oradan uzaqlaşdım*." *Bunu eşidəndə* Ömər dedi: "Atam-anam sənə qurban, ya Rəsulullah, heç sənə qısqana bilərəmmi?!" (Səhih əl-Buxari, 3679). Abdullah ibn Məsud ﷺ demişdir: "Ömər İslamı qəbul edənədək, müşriklər bizə Kəbənin yanında namaz qılmağa imkan vermirdilər. Ömər müsəlman olduqdan sonra qureyşlilərin müqavimətini sındırıb, Kəbənin yanında namaz qıldı, biz də onunla birgə namaz qıldıq" (Səhih Sirə ən-Nəbəviyyə, 1/188). Ömər ibn Xəttab hicrətin 13-cü ilində xilafətə gəlmiş, 10 il 6 ay möminlərə layiqincə əmirlik etmiş və nəhayət, hicrətin 23-cü ilində, zilhiccə

Əbu İsa (ət-Tirmizi) demişdir: "Abdur-Rəzzaq bu hədisi gah belə, gah da belə – gah istinad edərək, gah da "mürsəl" isnadla rəvayət etmişdir."

١٥٩- حَدَّثَنَا السِّنْجِيُّ وَهُوَ أَبُو دَاوُدَ سُلَيْمَانُ بْنُ مَعْبَدٍ السِّنْجِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، عَنْ مَعْمَرٍ، عَنْ زَيْدِ بْنِ أَسْلَمَ، عَنْ أَبِيهِ ، عَنِ النَّبِيِّ ﷺ نَحْوَهُ، وَلَمْ يَذْكُرْ فِيهِ عَنْ عُمَرَ.

(159) Bizə Sinci, yəni, Əbu Davud Süleyman ibn Məbəd əs-Sinci belə rəvayət etmişdir: bizə Abdur-Rəzzaq Məmərdən, o da, Zeyd ibn Əsləmdən, o da, atasından, o da, Peyğəmbərdən ﷺ bu hədisin bənzərini rəvayət etmiş və bu rəvayətdə "Ömərdən" sözünü zikr etməmişdir.

١٦٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، وَعَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالا: حَدَّثَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ يُعْجِبُهُ الدُّبَّاءُ فَأُتِيَ بِطَعَامٍ، أَوْ دُعِيَ لَهُ فَجَعَلْتُ أَتَتَبَّعُهُ، فَأَضَعُهُ بَيْنَ يَدَيْهِ لِمَا أَعْلَمُ أَنَّهُ يُحِبُّهُ)).

(160) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ balqabaq xoşlayardı. Bir gün ona yemək gətirdilər və ya

---

ayının 23-ü, Mədinə şəhərində məcusi Əbu Lulu Firuz tərəfindən vurulmuş və üç gündən sonra altmış üç yaşında şəhid olmuşdur. Bundan sonra onu əziz iki dostunun: Peyğəmbərin ﷺ və Əbu Bəkrin ﷺ yanında dəfn etmişlər.

[1] Bu hədisi Tirmizi (1852) rəvayət etmiş və şeyx Albani onun "həsən" olduğunu demişdir.

gətizdirdilər. Mən Peyğəmbərin ﷺ balqabaq xoşladığını bildiyim üçün (yeməyin içindəki) balqabaq tikələrini seçib onun qabağına qoydum."[1]

١٦١- حَدَّثَنَا قُتَيْبَةُ، قَالَ: حَدَّثَنَا حَفْصُ بْنُ غِيَاثٍ، عَنْ إِسْمَاعِيلَ بْنُ أَبِي خَالِدٍ، عَنْ حَكِيمِ بْنِ جَابِرٍ، عَنْ أَبِيهِ، قَالَ: ((دَخَلْتُ عَلَى النَّبِيِّ ﷺ، فَرَأَيْتُ عِنْدَهُ دُبَّاءً يُقَطَّعُ، فَقُلْتُ: ((مَا هَذَا؟)) قَالَ: ((نُكَثِّرُ بِهِ طَعَامَنَا)).

قَالَ أَبُو عِيسَى: وَجَابِرٌ هَذَا هُو جَابِرُ بْنُ طَارِقٍ، وَيُقَالُ: ابْنُ أَبِي طَارِقٍ، وَهُو رَجُلٌ مِنْ أَصْحَابِ رَسُولِ الله ﷺ، وَلا يُعْرَفُ لَهُ إِلا هَذَا الْحَدِيثُ الْوَاحِدُ.

(161) ..... Cabir[2] ﷺ demişdir: "(Bir dəfə) mən Peyğəmbərin ﷺ (hücrəsinə) daxil oldum və orada balqabağın xırda-xırda doğranıldığını görüb (ondan): "Bu nədir?"– deyə soruşdum. O dedi: "Bunun sayəsində biz öz yeməyimizi artırırıq."[3]

Əbu İsa (ət-Tirmizi) demişdir: "Bu Cabir – Cabir ibn Tariqdir. Ona ibn Əbu Tariq də deyirlər. O, Peyğəmbərin

---

[1] Bu hədisi Nəsai (6664) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Əbu Həkim Cabir ibn Tariq ibn Auf əl-Əhməsi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Təqrib ət-Təhzib, 66-cı tərcümeyi-hal).

[3] Bu hədisi Nəsai (6665), İbn Macə (3304), Əhməd (4/352) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

ﷺ səhabələrindəndir. Biz onun yalnız bir hədis rəvayət etdiyini bilirik.”

١٦٢- حَدَّثَنَا قُتَيْبَةُ، عَنْ مَالِكِ بْنِ أَنَسٍ، عَنِ إِسْحَاقَ بْنِ عَبْدِ اللهِ بْنِ أَبِي طَلْحَةَ، أَنَّهُ سَمِعَ أَنَسَ بْنَ مَالِكٍ، يَقُولُ: ((إِنَّ خَيَّاطًا دَعَا رَسُولَ اللهِ ﷺ، لِطَعَامٍ صَنَعَهُ، قَالَ أَنَسٌ: فَذَهَبْتُ مَعَ رَسُولِ اللهِ ﷺ، إِلَى ذَلِكَ الطَّعَامِ، فَقَرَّبَ إِلَى رَسُولِ اللهِ ﷺ خُبْزًا مِنْ شَعِيرٍ، وَمَرَقًا فِيهِ دُبَّاءٌ وَقَدِيدٌ، قَالَ أَنَسٌ: فَرَأَيْتُ النَّبِيَّ ﷺ يَتَتَبَّعُ الدُّبَّاءَ حَوَالَيِ الْقَصْعَةِ فَلَمْ أَزَلْ أُحِبُّ الدُّبَّاءَ مِنْ يَوْمِئِذٍ)).

(162) ..... Ənəs ibn Malik ﷺ demişdir: “Bir dərzi yemək hazırlayıb Rəsulullahı ﷺ qonaq çağırdı. Mən də Rəsulullahla ﷺ birlikdə bu qonaqlığa getdim.[1] Adam Rəsulullahın ﷺ qabağına arpa çörəyi və bir də içində balqabaq və qurudulmuş ət tikələri olan şorba qoydu.[2] Onda mən Peyğəmbərin ﷺ boşqabın[3] qırağında olan balqa-

---

[1] Dəvəti qəbul edib qonaq çağırılan yerə getmək İslam ədəbindəndir. Ələlxüsus də müsəlmanın dəvətini qəbul etmək, müsəlmanın müsəlman üzərində olan haqlarındandır.

[2] Demək, balqabaq və qurudulmuş ət tikələrindən hazırlanmış şorba, içinə çörək qatışdırıb yeyilən qatışıqlara aiddir. Dərzinin bu hərəkətindən aydın olur ki, yeməyi qonağın qabağına gətirmək, qonağa ehtiram göstərmək deməkdir. Necə ki, İbrahim aleyhissəlam evinə təşrif buyurmuş mələklərin qabağına qızarmış bir buzov qoymuşdu. Qurani Kərim bu hadisəni bizə belə xəbər verir: **“Elçilərimiz İbrahimə *İshaqın doğulacağı barədə* müjdə gətirdilər və: “Salam!”– dedilər. O da: “Salam!”– dedi və dərhal *gedib*, qızardılmış bir buzov gətirdi”** (Hur, 69).

[3] Burada “boşqab” deyildikdə, on nəfəri doyuracaq qədər tutumu olan iri, girdə, taxta boşqab nəzərdə tutulur.

baq tikələrini seçib yediyini[1] gördüm. O gündən bəri mən də balqabağı xoşlayıram”[2]

١٦٣- حَدَّثَنَا أَحْمَدُ بْنُ إِبْرَاهِيمَ الدَّوْرَقِيُّ، وَسَلَمَةُ بْنُ شَبِيبٍ، وَمَحْمُودُ بْنُ غَيْلانَ، قَالُوا: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كَانَ النَّبِيُّ ﷺ يُحِبُّ الْحَلْوَاءَ وَالْعَسَلَ)).

(163) ..... Aişə ﵂ demişdir: “Peyğəmbər ﷺ şirniyyatı və balı xoşlayardı.”[3]

١٦٤- حَدَّثَنَا الْحَسَنُ بْنُ مُحَمَّدٍ الزَّعْفَرَانِيُّ، قَالَ: حَدَّثَنَا الْحَجَّاجُ بْنُ مُحَمَّدٍ، قَالَ: قَالَ ابْنُ جُرَيْجٍ: أَخْبَرَنِي مُحَمَّدُ بْنُ يُوسُفَ، أَنَّ عَطَاءَ بْنَ يَسَارٍ أَخْبَرَهُ، أَنَّ أُمَّ سَلَمَةَ أَخْبَرَتْهُ، أَنَّهَا قَرَّبَتْ إِلَى رَسُولِ اللهِ ﷺ، جَنْبًا مَشْوِيًّا، فَأَكَلَ مِنْهُ، ثُمَّ قَامَ إِلَى الصَّلاةِ، وَمَا تَوَضَّأَ.

(164) ..... Ummu Sələmə ﵂ demişdir:[1] “(Bir dəfə) mən Rəsulullahın ﷺ qabağına bir parça qızardılmış ət

---

[1] Burada qabın qırağı deyildikdə, ehtimal edilir ki, Peyğəmbər ﷺ bu balqabaq tikələrini qabın hər tərəfindən deyil, ancaq öz qabağından seçib yemişdir (Nəvəvinin Şərhi). Çünki bu, Peyğəmbərin ﷺ yemək ədəbi idi.

[2] Bu hədisi Buxari (5064), Muslim (2041), Əbu Davud (3782), Tirmizi (1851) və Nəsai (6662) rəvayət etmişdir.

[3] Bu hədisi Buxari (5291), Muslim (1474), Əbu davud (3715), Tirmizi (1832), Nəsai (6704), İbn Macə (3323) və Əhməd (6/59) rəvayət etmişdir. Demək, bal və digər şirniyyatlar da çörəklə yeyilən qatışıqlara aiddir.

qoydum. O, ətdən yedikdən sonra[2] qalxıb dəstəmaz almadan[3] namaz qıldı.”

١٦٥- حَدَّثَنَا قُتَيْبَةُ، قَالَ: حَدَّثَنَا ابْنُ لَهِيعَةَ، عَنْ سُلَيْمَانَ بْنِ زِيَادٍ، عَنْ عَبْدِ اللهِ بْنِ الْحَارِثِ، قَالَ: ((أَكَلْنَا مَعَ رَسُولِ اللهِ ﷺ شِوَاءً فِي الْمَسْجِدِ)).

---

[1] Bu hədisi Tirmizi (1830), Nəsai (4689), Əhməd (6/307) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

[2] Demək, qızarmış ət də həmçinin, çörəklə yeyilən qatışıqlara aiddir.

[3] Bu, dəlildir ki, odda bişmiş yeməyi yemək dəstəmazı pozan amillərdən deyildir. O ki qaldı, “Odda bişmiş şeylərdən y*edikdən sonra* dəstəmaz alın” hədisinə, bu hədisin hökmü ləğv edilmişdir. Bu da, alimlərin əksəriyyətinin rəyidir. Səhabələrdən Əbu Bəkr əs-Siddiq, Ömər ibn Xəttab, Osman ibn Əffan, Əli ibn Əbu Talib, Abdullah ibn Məsud, Əbu Dərda, İbn Abbas, Abdullah ibn Ömər, Ənəs ibn Malik, Cabir ibn Səmurə, Zeyd ibn Sabit, Əbu Musa, Əbu Hureyrə, Ubey ibn Kəb, Əbu Talhə Amir ibn Rəbi, Əbu Umamə, Aişə (Allah onların hamısından razı olsun!), habelə tabiinlərin əksəriyyəti, həmçinin, Əbu Hənifə, Malik, Şafii, Əhməd, İshaq ibn Rahuyə, Yəhya ibn Yəhya, Əbu Sövr, Əbu Xeysəmə (Allah onların hamısına rəhmət etsin!) bu rəyi dəstəkləmişlər. (Nəvəvinin Şərhi). Yalnız dəvə əti istisnadır. Çünki bu xüsusda səhih hədis varid olmuşdur. Cabir ibn Səmura ﷺ rəvayət etmişdir ki, bir nəfər Peyğəmbərdən ﷺ: “Qoyun əti yedikdən sonra dəstəmaz almalıyammı?”– deyə soruşdu. Peyğəmbər ﷺ: “İstərsən al, istərsən alma”– deyə buyurdu. Adam *yenə* soruşdu: “Bəs, dəvə əti yedikdən sonra necə, dəstəmaz almalıyammı?” Peyğəmbər ﷺ: “Bəli, dəvə ətindən sonra dəstəmaz almalısan”– deyə buyurdu...” (Səhih Muslim, 802).

(165) ..... Abdullah ibn Haris[1] ﷺ demişdir: "(Bir dəfə) biz məscidin içində Rəsulullahla ﷺ birlikdə qızardılmış ət yedik."[2]

١٦٦- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلاَنَ، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، قَالَ: حَدَّثَنَا مِسْعَرٌ، عَنْ أَبِي صَخْرَةَ جَامِعِ بْنِ شَدَّادٍ، عَنِ الْمُغِيرَةِ بْنِ عَبْدِ اللهِ، عَنِ الْمُغِيرَةِ بْنِ شُعْبَةَ، قَالَ: ضِفْتُ مَعَ رَسُولِ اللهِ ﷺ ذَاتَ لَيْلَةٍ، فَأُتِيَ بِجَنْبٍ مَشْوِيٍّ، ثُمَّ أَخَذَ الشَّفْرَةَ فَجَعَلَ يَحُزُّ، فَحَزَّ لِي بِهَا مِنْهُ، قَالَ: فَجَاءَ بِلاَلٌ يُؤْذِنُهُ بِالصَّلاَةِ فَأَلْقَى الشَّفْرَةَ، فَقَالَ: ((مَا لَهُ تَرِبَتْ يَدَاهُ؟)) قَالَ: ((وَكَانَ شَارِبُهُ قَدْ وَفَى))، فَقَالَ لَهُ: ((أَقُصُّهُ لَكَ عَلَى سِوَاكٍ أَوْ قُصَّهُ عَلَى سِوَاكٍ)).

(166) ..... Muğira ibn Şobə ﷺ demişdir: "Bir axşam mən Rəsulullahla ﷺ birlikdə bir kişinin evində qonaq olduq. (Bu əsnada qabağımıza) bir parça qızardılmış ət gətirdilər. Sonra Rəsulullah ﷺ bıçaq götürdü və bu bıçaqla

---

[1] Əbul-Haris Abdullah ibn Haris ibn Cəz əz-Zubeydi əl-Misri ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. Misirin fəthində iştirak etmiş, sonra orada məskunlaşmış və nəhayət, hicrətin 86-cı ilində Misirdə vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 58-ci tərcümeyi-hal).

[2] Bu hədisin isnadındakı İbn Ləhiyə zəif ravidir. Elə bu səbəbdən də, bu isnad "zəif" hesab edilir. Bu hədisi İbn Macə (3311) və Əhməd (4/190) başqa isnadlarla rəvayət etmişlər. Həmin rəvayətlərdə "qızardılmış ət" sözü zikr edilməmişdir. Muhəmməd Nasirəddin əl-Albani isə "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

həmin ətdən mənim üçün kəsib ayırdı.[1] Elə bu vaxt Bilal[2] gəlib onu namaza çağırdı. Onda Rəsulullah ﷺ əlindəki bıçağı yerə atdı və: "Əlləri torpağa bulaşsın bunun![3] Ona nə olub, (niyə bizi tələsdirir[4])?"– dedi. (Sonra da qalxıb namaza getdi.)

(Muğira davam edib) dedi: "Mənim bığlarım uzanmışdı." Odur ki, Rəsulullah ﷺ mənə belə buyurdu: "*Gəl*

---

[1] Burada Peyğəmbərin ﷺ öz səhabəsinə ehtiram göstərməsi onun ali əxlaq sahibi olduğunu bir daha sübuta yetirir.

[2] Əbu Abdullah Bilal ibn Rəbah əl-Həbəşi ؓ Peyğəmbərin ﷺ müəzzini, habelə İslamı ilk əvvəl qəbul etmiş və işgəncələrə məruz qalmış səhabəsidir. Hicrətin 20-ci ilində Şamda vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 76-cı tərcümeyi-hal). Peyğəmbər ﷺ hələ sağlığında ikən onu Cənnətlə müjdələmişdir. Cabir ibn Abdullah ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "*Yuxuda* gördüm ki, Cənnətdəyəm. Birdən qarşımda Əbu Talhənin zövcəsi Rumeysanı gördüm, habelə bir ayaq səsi də eşitdim. Soruşdum: "Bu kimdir?" Dedilər: "Bu Bilaldır!..." (Səhih əl-Buxari, 3679).

[3] Bu söz həqiqi mənası qəsd edilməyən, dilucu deyilən qınaqlara aiddir. Birisinə "vay sənin halına" yaxud "anan vayına otursun" və s. bu kimi həqiqi mənası qəsd edilməyərək deyilən sözlərə bənzəyir.

[4] Peyğəmbərin ﷺ bu sözündən belə nəticə çıxır ki, süfrəyə yemək qoyulduğu zaman əvvəlcə yeməyi yemək, sonra qalxıb namazı qılmaq sünnədir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "*Süfrəyə* şam yeməyi verilərsə, məğrib namazını qılmamışdan əvvəl şam yeməyinə başlayın və yeməyinizi yedikdə tələsməyin" (Səhih əl-Buxari, 672). Bu hədisdə Peyğəmbərin ﷺ yeməyi qoyub namaza getməsinin səbəbi isə onun imam olması və camaatın onu gözləmisi olmuşdur. Belə vəziyyətdə isə, əlbəttə ki, camaata namaz qıldırmaq daha münasibdir.

onları misvak üzərində qısaldım[1] (və ya sən özün onları misvak üzərində qısalt).”[2]

١٦٧- حَدَّثَنَا وَاصِلُ بْنُ عَبْدِ الأَعْلَى، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ فُضَيْلٍ، عَنْ أَبِي حَيَّانَ التَّيْمِيِّ، عَنْ أَبِي زُرْعَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: ((أُتِيَ النَّبِيُّ ﷺ بِلَحْمٍ، فَرُفِعَ إِلَيْهِ الذِّرَاعُ، وَكَانَتْ تُعْجِبُهُ، فَنَهَسَ مِنْهَا)).

(167) ..... Əbu Hureyrə ﷺ demişdir: “(Bir dəfə) Peyğəmbərə ﷺ (bişmiş qoç) əti gətirdilər. Sonra (bu qoçun) qol tərəfini (ayırıb) ona verdilər. Ətin bu yeri onun xoşuna gəlirdi. Daha sonra Peyğəmbər ﷺ ətdən dişləyib yedi.”[3]

١٦٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ، عَنْ زُهَيْرٍ يَعْنِي ابْنَ مُحَمَّدٍ، عَنِ أَبِي إِسْحَاقَ، عَنْ سَعْدِ بْنِ عِيَاضٍ، عَنِ ابْنِ مَسْعُودٍ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ يُعْجِبُهُ الذِّرَاعُ، قَالَ: وَسُمَّ فِي الذِّرَاعِ، وَكَانَ يَرَى أَنَّ الْيَهُودَ سَمُّوهُ)).

---

[1] Burada “misvak üzərində” deyildikdə, misvakı uzununa doğru dodağın üstünə və bığların altına qoyub bığların artığını götürmək nəzərdə tutulur. Bığları qısaltmaq isə fitrətə aiddir. 8-ci hədisin şərhinə bax.

[2] Bu hədisi Əbu Davud (188), Nəsai (6655), Əhməd (4/252) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

[3] Bu hədisi Buxari (3162), Muslim (194), Tirmizi (1838), İbn Macə (3307) və Əhməd (2/435) rəvayət etmişdir.

(168) ..... İbn Məsud[1] ﷺ demişdir:[2] "Peyğəmbər ﷺ (qoçun) qol hissəni xoşlayardı. Bir dəfə (onun üçün bişirilmiş) qol ətinə zəhər qatdılar." İbn Məsud ﷺ zəhərin bu ətə yəhudilər tərəfindən qatıldığını təxmin edirdi.[3]"

---

[1] Əbu Abdur-Rəhman Abdullah ibn Məsud ibn Ğafil ibn Həbib əl-Huzəli ﷺ Peyğəmbərin ﷺ səhabəsidir. İslamı ilk əvvəl qəbul edənlərdən, habelə iki dəfə: əvvəlcə Həbəşistana, sonra da Mədinəyə hicrət edənlərdən olmuşdur. İbn Məsud ﷺ hicrətin 32-ci ilində Mədinədə vəfat etmiş, Zubeyr ibn Əvvam onun cənazə namazını qıldırmış və nəhayət, Bəqi qəbiristanlığında dəfn edilmişdir (Siyər Əlam ən-Nubələ, 87-ci tərcümeyi-hal). Onun fəzilətinə dair rəvayət edilmiş hədisdə deyilir ki, *bir dəfə* Peyğəmbər ﷺ Əbu Bəkrin və Ömərin müşayiəti ilə məscidə daxil oldu və İbn Məsudun namaz qıldığını gördü. Namazda İbn Məsud ən-Nisa surəsini oxuyurdu. Nəhayət, yüz ayə oxuduqdan sonra ayaq üstə ikən dua etməyə başladı. Onda Peyğəmbər ﷺ *ona*: "İstə, istədiyin sənə verilsin! İstə, istədiyin sənə verilsin!"– dedi, sonra da belə buyurdu: "Hər kim Quranı nazil olduğu kimi səlist oxumaq istəyirsə, qoy İbn Ummu Abdın (yəni, İbn Məsudun) oxuduğu qiraətlə oxusun." Ertəsi gün səhər tezdən Əbu Bəkr İbn Məsudu müjdələmək üçün onun yanına gəlib dedi: "Dünən sən *dua etdiyin zaman* Allahdan nə istədin?" İbn Məsud dedi: "Dedim: "Allahım, Səndən, dəyişməyən iman, tükənməyən nemətlər və bir də, Muhəmmədlə ﷺ birlikdə ən uca, əbədi Cənnətdə olmağı diləyirəm!..." (Sunən İbn Macə 138; Musnəd imam Əhməd, 1/7, 445, 454; Silsilətul-Əhadisis-Səhihə, 2301).

[2] Bu hədisi Əbu Davud (3781) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[3] İmam Buxarinin rəvayət etdiyi hədisdə (3169) Əbu Hureyrə ﷺ demişdir: "Xeybər fəth edildikdə Peyğəmbərə ﷺ *qızardılmış və ətinə* zəhər qatılmış bir qoyun gətirdilər. *Peyğəmbər ﷺ ətdən yedikdən sonra səhabələrinə*: "Burada yaşayan yəhudilərin hamısını yanıma

toplayın!"– deyə buyurdu. Səhabələr yəhudiləri *Peyğəmbərin* ﷺ yanına cəm etdikdə, o dedi: "Mən sizdən söz soruşmaq istəyirəm. Mənə düzgün cavab verəcəksinizmi?" Onlar: "Bəli!"– dedilər. Peyğəmbər ﷺ onlardan: "Atanız kimdir?"– deyə soruşdu. Onlar: "Filankəsdir"– deyə cavab verdilər. *Peyğəmbər* ﷺ *onlara*: "Yalan danışdınız, sizin atanız filankəsdir"- dedi. Onlar: "Doğru söylədin"- dedilər. O, *yenə* dedi: "Mən sizdən bir söz soruşsam, mənə düzgün cavab verəcəksinizmi?" Onlar dedilər: "Bəli, ey Əbul Qasım! Hərgah yalan danışsaq, atamız barəsində yalan danışdığımız *sənə agah olduğu* kimi, bu da, sənə agah olacaq." *Peyğəmbər* ﷺ onlardan: "Kimlər Cəhənnəm oduna düşəcək?"– deyə soruşdu. Onlar dedilər: "Biz orada az bir müddət qalacaq, sonra isə siz bizim yerimizi tutacaqsınız." Peyğəmbər ﷺ dedi: "Orada zəlil və məyus halda durub qalın! Biz əsla sizin yerinizi tutmayacağıq!" Sonra *yenə* soruşdu: "Mən sizə bir sual versəm, mənə düzgün cavab verəcəksinizmi?" Onlar: "Bəli, ey Əbul Qasım!"– deyə cavab verdilər. *Peyğəmbər* ﷺ soruşdu: "Siz bu qoyunun ətinə zəhər qatmısınızmı?" Onlar: "Bəli!"– dedilər. *Peyğəmbər* ﷺ soruşdu: "Sizi bu işi görməyə nə vadar etdi?" Onlar dedilər: "*Yoxlamaq* istəyirdik, görək, əgər yalançısansa, səndən canımız qurtaracaq, yox əgər peyğəmbərsənsə, onda bu zəhərin sənə zərəri dəyməyəcək." Digər hədisdə Əbu Hureyrə رضي الله عنه rəvayət etmişdir ki, Xeybər fəth edildiyi zaman bir yəhudi qadın (Zeynəb bint Haris) qoyun əti bişirib ona zəhər qatdı və onu Peyğəmbərə ﷺ hədiyyə göndərdi. Peyğəmbər ﷺ bu ətdən *bir tikə* yedikdən sonra yanındakılara dedi: "Əlinizi *yeməkdən* çəkin! Çünki bu ət mənə zəhərli olduğunu bildirdi. *Bu ətdən yemiş səhabələrdən biri* Bişr ibn Bəra ibn Məmur əl-Ənsari vəfat etdi. Sonra Peyğəmbər ﷺ o qadını yanına çağırtdırıb ondan: "Səni bu işi görməyə nə vadar etdi?"– deyə soruşdu. Qadın dedi: "Əgər peyğəmbərsənsə, onda bu zəhərin sənə zərəri dəyməyəcək, yox əgər padşahsansa, *öləcəksən və* camaatın canı sənin əlindən dincələcək." Bundan sonra Peyğəmbərin ﷺ əmri ilə o qadını qətlə yetirdilər" (Sunən Əbu Davud, 4512). Tarix boyu peyğəmərlərə qarşı haqsızlıq etmiş bu adamları Uca Allah Quranda belə qınayır: **"Biz Musaya**

١٦٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا مُسْلِمُ بْنُ إِبْرَاهِيمَ، قَالَ: حَدَّثَنَا أَبَانُ بْنُ يَزِيدَ، عَنْ قَتَادَةَ، عَنْ شَهْرِ بْنِ حَوْشَبٍ، عَنْ أَبِي عُبَيْدٍ، قَالَ: ((طَبَخْتُ لِلنَّبِيِّ ﷺ، قِدْرًا، وَقَدْ كَانَ يُعْجِبُهُ الذِّرَاعُ، فَنَاوَلْتُهُ الذِّرَاعَ، ثُمَّ قَالَ: ((نَاوِلْنِي الذِّرَاعَ))، فَنَاوَلْتُهُ، ثُمَّ قَالَ: ((نَاوِلْنِي الذِّرَاعَ))، فَقُلْتُ: ((يَا رَسُولَ اللهِ، وَكَمْ لِلشَّاةِ مِنْ ذِرَاعٍ؟)) فَقَالَ: ((وَالَّذِي نَفْسِي بِيَدِهِ لَوْ سَكَتَّ لَنَاوَلْتَنِي الذِّرَاعَ مَا دَعَوْتُ)).

(169) ..... Əbu Ubeyd ﷺ demişdir: "(Bir dəfə) mən Peyğəmbər ﷺ üçün bir qazan (ət) bişirdim. (Qoyunun) qol tərəfi onun xoşuna gəlirdi (deyə), mən onu Peyğəmbərə ﷺ verdim. (O, bu qolu yedikdən) sonra: "Mənə (yenə) qolundan ver"– dedi. Mən (o biri) qolu da ona verdim. O (bu qolu da yedi və): "Mənə (yenə) qolundan ver"– dedi. Dedim: "Ya Rəsulullah! Qoyunun neçə qolu olur ki?"[1] Dedi: "Canım Əlində olan *Allaha* and olsun ki, əgər

---

Kitab verdik və ondan sonra bir-birinin ardınca elçilər göndərdik. Biz Məryəm oğlu İsaya da açıq-aydın dəlillər verdik və onu müqəddəs ruh *Cəbrail* ilə qüvvətləndirdik. Məgər hər dəfə sizə *göndərilən* elçi ürəyinizə yatmayan bir şey gətirəndə siz təkəbbür göstərmədinizmi? *Onların* bir qismini yalançı hesab edib, bir qismini də öldürmədinizmi?" (əl-Bəqərə, 87).

[1] Əbu Ubeydənin bu sözü inkar və etiraz mənasında yox, təəccüb və sual mənasındadır.

sussaydın, istədiyim qədər [1] mənə onun qolundan verərdin.”[2]

١٧٠- حَدَّثَنَا الْحَسَنُ بْنُ مُحَمَّدٍ الزَّعْفَرَانِيُّ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ عَبَّادٍ، عَنْ فُلَيْحِ بْنِ سُلَيْمَانَ، قَالَ: حَدَّثَنِي رَجُلٌ، مِنْ بَنِي عَبَّادٍ يُقَالُ لَهُ: عَبْدُ الْوَهَّابِ بْنُ يَحْيَى بْنُ عَبَّادٍ، عَنْ عَبْدِ اللهِ ابْنِ الزُّبَيْرِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((مَا كَانَتِ الذِّرَاعُ أَحَبَّ اللَّحْمِ إِلَى رَسُولِ اللهِ ﷺ، وَلَكِنَّهُ كَانَ لا يَجِدُ اللَّحْمَ إِلا غِبًّا، وَكَانَ يَعْجَلُ إِلَيْهَا، لأَنَّهَا أَعْجَلُهَا نُضْجًا)).

(170) ..... Abdullah ibn Zubeyr[3] رضي الله عنهما rəvayət edir ki, Aişə رضي الله عنها demişdir: “Peyğəmbərin ﷺ ən çox xoşuna gələn

---

[1] Peyğəmbər ﷺ bilirdi ki, o istədikcə Qüdrətli Allah onun üçün möcüzə olaraq bu qolları yaradacaq. Necə ki, Xəndək döyüşündən əvvəl Cabirin رضي الله عنه Peyğəmbər ﷺ üçün bişirdiyi bir keçi, Xəndəkdə iştirak edən mühacirlərin və ənsarın hamısını doyurmuş, hətta artıq da qalmış və axırda Peyğəmbər ﷺ Cabirin رضي الله عنه zövcəsinə belə buyurmuşdur: “*Götür* bunu, özün də ye, *ehtiyacı olanlara da* ver. Çünki insanlara aclıq üz vermişdir” (Səhih əl-Buxari, 4101).

[2] Bu hədisin isnadında keçən Şəhr ibn Hovşəb “çoxlu xətalara yol vermiş səduq” ravidir. Elə bu səbəbdən də bu isnad “zəif” hesab edilir. Lakin imam Əhmədin (2/517) və İbn Hibbanın (6484) ayrı isnadlarla rəvayət etdiyi bu mənada olan hədislər bu hədisi qüvvətləndirir. Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[3] Abdullah ibn Zubeyr ibn Əvvam əl-Əsədi رضي الله عنهما Peyğəmərin ﷺ səhabəsidir. Yezidin ölümündən sonra müsəlmanların bir qismi onu xəlifə seçmiş və beləliklə də, o, Hicaza, Yəmənə, Misirə, İraqa, Xorasana və Şamın bir hissəsinə hökmranlıq etmişdir. Nəhayət, hicrətin 73-cü ilində Həccac tərəfindən qətlə yetirilmişdir (Siyər Əlam ən-Nubələ, 53-cü tərcümeyi-hal).

ət, (qoyunun) qolu deyildi. Sadəcə olaraq o, hərdənbir ət tapar və (qoyunun) bu hissəsi tez bişdiyindən onu yeyərdi."[1]

١٧١- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو أَحْمَدَ، قَالَ: حَدَّثَنَا مِسْعَرٌ، قَالَ: سَمِعْتُ شَيْخًا، مِنْ فَهْمٍ، قَالَ: سَمِعْتُ عَبْدَ اللهِ بْنَ جَعْفَرٍ، يَقُولُ: سَمِعْتُ رَسُولَ اللهِ ﷺ، يَقُولُ: ((إِنَّ أَطْيَبَ اللَّحْمِ لَحْمُ الظَّهْرِ)).

(171) ..... Abdullah ibn Cəfər ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Ən dadlı ət, bel ətidir."[2]

١٧٢- حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ: حَدَّثَنَا زَيْدُ بْنُ الْحُبَابِ، عَنْ عَبْدِ اللهِ بْنِ الْمُؤَمَّلِ، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ، عَنْ عَائِشَةَ، أَنَّ النَّبِيَّ ﷺ، قَالَ: ((نِعْمَ الإِدَامُ الْخَلُّ)).

(172) ..... Aişə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sirkə nə gözəl qatışıqdır!"[3]

---

[1] Bu hədisin isnadında keçən Fuleyh ibn Süleyman "çoxlu xətalara yol vermiş səduq" ravi, Abdul-Vəhhab ibn Yəhya isə "məqbul" ravidir. Elə bu səbəbdən də bu isnad "zəif" hesab edilir. Üstəlik hədisin mətni də digər səhih hədislərə ziddir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[2] Bu hədisi İbn Macə (3308) rəvayət etmişdir. Hədisin isnadında adı keçən Fəhm "məqbul" ravidir. Elə bu səbəbdən də, bu isnad "zəif" hesab edilir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[3] Bu hədisin isnadında keçən Sufyan ibn Vəki etibarsız ravidir. Bu səbəbdən də, hədisin yalnız isnadı zəif hesab edilir. Mətni isə səhihdir.

١٧٣- حَدَّثَنَا أَبُو كُرَيْبٍ مُحَمَّدُ بْنُ الْعَلاءِ، قَالَ: حَدَّثَنَا أَبُو بَكْرِ بْنُ عَيَّاشٍ، عَنْ ثَابِتٍ أَبِي حَمْزَةَ الثُّمَالِيِّ، عَنِ الشَّعْبِيِّ، عَنْ أُمِّ هَانِئٍ، قَالَتْ: ((دَخَلَ عَلَيَّ النَّبِيُّ ﷺ، فَقَالَ: ((أَعِنْدَكِ شَيْءٌ؟)) فَقُلْتُ: ((لا، إِلا خُبْزٌ يَابِسٌ، وَخَلٌّ)) فَقَالَ: ((هَاتِي، مَا أَقْفَرَ بَيْتٌ مِنْ أُدُمٍ فِيهِ الخل)).

(173) ..... Ummu Hani رضي الله عنها demişdir: "(Məkkənin fəthi günü) Peyğəmbər ﷺ mənim evimə gəldi və (məndən): "Səndə (yeməyə) bir şey varmı?"– deyə soruşdu. Dedim: "Xeyr, (evdə) ancaq quru çörək və sirkə var." Dedi: "Gətir (onları). İçində sirkə olan ev, (çörəyi qatıb yemək üçün) qatışığı olmayan evlərdən deyil.[1]"[2]

١٧٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ عَمْرِو بْنِ مُرَّةَ، عَنْ مُرَّةَ الْهَمْدَانِيِّ، عَنْ أَبِي مُوسَى الأَشْعَرِيِّ، عَنِ النَّبِيِّ ﷺ، قَالَ: ((فَضْلُ عَائِشَةَ عَلَى النِّسَاءِ كَفَضْلِ الثَّرِيدِ عَلَى سَائِرِ الطَّعَامِ)).

---

[1] Yəni, o evdə ki sirkə var, demək, çörəyi yumşaldıb yemək üçün qatışıq var.

[2] Bu hədisin isnadında keçən Sabit əs-Sumali zəif ravidir (Təqrib ət-Təhzib). Elə bu səbəbdən də bu isnad "zəif" hesab edilir. Lakin bu hədisi qüvvətləndirən digər hədislər vardır. Bunlar Təbəraninin "Mocəm əl-Səğir" (931), Hakimin "Mustədrək" (4/54) və Heysəminin "Məcmuz-Zəvaid" (1051) əsərlərində rəvayət edilmişdir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

(174) ..... Əbu Musa əl-Əşari ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Aişənin digər qadınlardan üstünlüyü, şorbanın başqa yeməklərdən olan üstünlüyü kimidir."[1]

١٧٥- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ بْنِ مَعْمَرٍ الأَنْصَارِيُّ أَبُو طُوَالَةَ، أَنَّهُ سَمِعَ أَنَسَ بْنَ مَالِكٍ، يَقُولُ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((فَضْلُ عَائِشَةَ عَلَى النِّسَاءِ كَفَضْلِ الثَّرِيدِ عَلَى سَائِرِ الطَّعَامِ)).

(175) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Aişənin digər qadınlardan üstünlüyü, şorbanın başqa yeməklərdən olan üstünlüyü kimidir."[2]

١٧٦- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ مُحَمَّدٍ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنِ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّهُ رَأَى رَسُولَ اللهِ ﷺ، تَوَضَّأَ مِنْ أَكْلِ ثَوْرِ أَقِطٍ، ثُمَّ رَآهُ أَكَلَ مِنْ كَتِفِ شَاةٍ، ثُمَّ صَلَّى، وَلَمْ يَتَوَضَّأْ.

(176) ..... Rəvayət edilir ki, Əbu Hureyrə ﷺ Rəsulullahın ﷺ bir tikə qurut[3] yediyini və dəstəmaz aldığını

---

[1] Bu hədisi Buxari (3558), Muslim (2431), Tirmizi (1835), Nəsai (3947) İbn Macə (3280) və Əhməd (4/394) rəvayət etmişdir.

[2] Bu hədisi Buxari (3559), Muslim (2446), Tirmizi (3881), Nəsai (6692) İbn Macə (3281) və Əhməd (3/264) rəvayət etmişdir.

[3] Qurut: Yumru-yumru edilib qurudulmuş şor.

görmüşdür.[1] Daha sonra qoyunun kürəyini yediyini və dəstəmaz almadan namaz qıldığını da görmüşdür.”[2]

١٧٧- حَدَّثَنَا ابْنُ أَبِي عُمَرَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنْ وَائِلِ بْنِ دَاوُدَ، عَنِ ابْنِهِ، وَهُوَ بَكْرُ بْنُ وَائِلٍ، عَنِ الزُّهْرِيِّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((أَوْلَمَ رَسُولُ اللهِ ﷺ عَلَى صَفِيَّةَ بِتَمْرٍ وَسَوِيقٍ)).

(177) ..... Ənəs ibn Malik ﷺ demişdir: “Rəsulullah ﷺ Səfiyyə[3] ilə (evləndiyi zaman) toyunda (səhabələrinə) xurma və sıyıq[4] verdi.”[1]

---

[1] Burada Əbu Hureyrə ﷺ Peyğəmbərin ﷺ əvvəllər bişmiş şeylər yedikdən sonra dəstəmaz aldığını, sonra isə bu hökmün nəsx edildiyini bəyan etmək istəmişdir (Cəmul-Vəsail fi Şərhiş-Şəmail). Bəzi alimlər isə bu hədisi başqa cür izah edib demişlər ki, Peyğəmbər ﷺ sadəcə əllərini yumuşdur, yəni, hədisdə “dəstəmaz aldı” feli “əllərini yudu” mənasında işlənmişdir. Hər halda nəticə budur ki, odda bişmiş yeməyi yedikdən sonra dəstəmaz almağa gərək yoxdur.

[2] Bu hədisin isnadında keçən Abdul-Əziz ibn Muhəmməd əd-Dəravurdi “çoxlu xətalara yol vermiş zəif” ravidir (Təqrib ət-Təhzib) Lakin bu hədisi qüvvətləndirən digər hədislər vardır. Bunlar İbn Macənin “Sunən”ində (493), İbn Xuzeymənin “Səhih”ində (420), Bəzzarın “Musnəd”ində (1095) və İbn Hibbanın “Səhih”ində (1151) rəvayət edilmişdir. Muhəmməd Nasirəddin əl-Albani də “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

[3] Səfiyyə bint Huyey ﷺ Bəni Nədir qəbiləsinin başçılarından birinin – Kinanə ibn Əbu Huqeyqin arvadı olmuşdur. Bu qadın əsir düşdükdən sonra Peyğəmbər ﷺ onu azad etmiş, sonra da onunla evlənmişdir.

[4] Sıyıq: Südlə və ya su ilə bişirilən duru xörək. Sıyığın bərəkətli olması barədə hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur:

١٧٨- حَدَّثَنَا الْحُسَيْنُ بْنُ مُحَمَّدٍ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا الْفُضَيْلُ بْنُ سُلَيْمَانَ، قَالَ: حَدَّثَنِي فَائِدٌ، مَوْلَى عُبَيْدِ اللهِ بْنِ عَلِيِّ بْنِ أَبِي رَافِعٍ مَوْلَى رَسُولِ اللهِ ﷺ، قَالَ: حَدَّثَنِي عُبَيْدُ اللهِ بْنُ عَلِيٍّ، عَنْ جَدَّتِهِ سَلْمَى، أَنَّ الْحَسَنَ بْنَ عَلِيٍّ، وَابْنَ عَبَّاسٍ، وَابْنَ جَعْفَرٍ أَتَوْهَا فَقَالُوا: اصْنَعِي لَنَا طَعَامًا مِمَّا كَانَ يُعْجِبُ رَسُولَ اللهِ ﷺ، وَيُحْسِنُ أَكْلَهُ فَقَالَتْ: يَا بُنَيَّ لا تَشْتَهِيهِ الْيَوْمَ، قَالَ: بَلَى اصْنَعِيهِ لَنَا قَالَ: فَقَامَتْ فَأَخَذَتْ مِنْ شَعِيرٍ فَطَحَنَتْهُ، ثُمَّ جَعَلَتْهُ فِي قِدْرٍ، وَصَبَّتْ عَلَيْهِ شَيْئًا مِنْ زَيْتٍ، وَدَقَّتِ الْفُلْفُلَ، وَالتَّوَابِلَ، فَقَرَّبَتْهُ إِلَيْهِمْ، فَقَالَتْ: هَذَا مِمَّا كَانَ يُعْجِبُ رَسُولَ اللهِ ﷺ، وَيُحْسِنُ أَكْلَهُ.

(178) ..... Ubeydullah ibn Əli nənəsi Səlmadan rəvayət edir ki, (bir dəfə) Həsən ibn Əli, İbn Abbas və İbn

---

"Bərəkət üç şeydədir: camaatda, sıyıqda və səhur yeməyində" (əl-Cami əs-Səğir, 5193; Səhih əl-Cami, 2882). Bu fəsildəki hədisdən aydın olur ki, xurma və sıyıq da həmçinin, çörəklə yeyilən qatışıqlara aiddir. Digər bir hədisdə Ənəs ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Səfiyyə ilə evlənmək üçün üç gecə Xeybərlə Mədinə arasında qaldı. Həmin vaxt mən müsəlmanları onun toyuna çağırdım. *Ziyafət verməyə* nə çörək var idi, nə də ət. Peyğəmbərin ﷺ əmri ilə Bilal yerə süfrə sərdi və onun üzərinə *xeyli* xurma, qurut və yağ qoydu..." (Səhih əl-Buxari, 4213).

[1] Bu hədisi Əbu Davud (3744),Tirmizi (1095), Nəsai (6601), İbn Macə (1909), Əhməd (3/110) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

Cəfər, Səlmanın [1] yanına gəlib (ona): "Bizim üçün Peyğəmbərin ﷺ xoşladığı və zövq ala-ala yediyi yeməkdən hazırla"– deyə xahiş etdilər. Səlma dedi: "Oğlum, bu günkü gün o, sizin xoşunuza gəlməyəcək.[2]" (Onlardan biri): "Əksinə, (xoşumuza gələr). Sən onu bizim üçün hazırla"– deyə yenə xahiş etdi. Səlma ayağa qalxdı və bir qədər arpa götürüb üyütdü. Sonra üyüdülmüş bu arpa ununu bir qazana qoyub üzərinə az miqdarda zeytun yağı tökdü, sonra da bir az istiot və başqa ədvalardan əzib ona qatdı. Nəhayət, gətirib onların qabağına qoydu və dedi: "Bu, Peyğəmbərin ﷺ xoşladığı və zövq ala-ala yediyi yeməklərdəndir."[3]

١٧٩ – حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو أَحْمَدَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الأَسْوَدِ ابْنِ قَيْسٍ، عَنْ نُبَيْحٍ الْعَنَزِيِّ، عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ، قَالَ: أَتَانَا النَّبِيُّ ﷺ، فِي مَنْزِلِنَا، فَذَبَحْنَا لَهُ شَاةً، فَقَالَ: ((كَأَنَّهُمْ عَلِمُوا أَنَّا نُحِبُّ اللَّحْمَ)).

وَفِي الْحَدِيثِ قِصَّةٌ.

---

[1] Bu qadın Ubeydullahın nənəsi, həm də məşhur səhabə Əbu Rafinin ﷺ zövcəsidir.

[2] Yəni, bu yeməyi onlar ağır vaxtlarda yeyərdilər. Bu gün isə insanlar xoşlarına gələn daha ləziz təamlar yeyirlər.

[3] Bu hədisin isnadında keçən Fudeyl ibn Süleyman "çoxlu xətalara yol vermiş səduq" ravidir. Elə bu səbəbdən də, bu hədis "zəif" hesab edilir (Təqrib ət-Təhzib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

(179) ..... Cabir ibn Abdullah رضي الله عنهما demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ evimizə (qonaq) gəldi və biz (dərhal) qalxıb onun üçün bir qoyun kəsdik.[1] Onda o belə buyurdu: "Sanki bunlar bilirdilər ki, biz[2] ət (yeməyi) xoşlayırıq."[3]

(Əbu İsa ət-Tirmizi demişdir): "Bu, uzun bir hədisin bir hissəsidir."[4]

---

[1] Bu, Allahın adı ilə (yəni, "bismilləh" deyib), qonağa hörmət əlaməti olaraq heyvan kəsməkdir ki, buna da şəriətdə icazə verilir.

[2] Burada Peyğəmbər ﷺ "biz ət yeməyi xoşlayırıq" dedikdə, özünü və onunla gəlmiş səhabələrini qəsd edirdi. Peyğəmbər ﷺ çox vaxt belə sözlər işlədərdi ki, ev yiyəsini sevindirsin.

[3] Bu hədisi Nəsai (423), Əhməd (3/397) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Bu hadisə Buxarinin "Səhih"ində (4101) və digər hədis kitablarında varid olmuşdur: rəvayət edilir ki, Cabir رضي الله عنه demişdir: "Biz Xəndək döyüşündən *əvvəl* xəndək qazarkən qabağımıza olduqca sərt bir qaya parçası çıxdı. *Səhabələr qaya parçasını bölə bilmədiklərindən* Peyğəmbərin ﷺ yanına gəlib dedilər: "Xəndəkdən bir qaya parçası çıxıb." Peyğəmbər ﷺ: "Mən düşərəm *xəndəyə*"– deyib ayağa qalxdı. Həmin vaxt o, *aclığı hiss etməsin deyə,* qarnına *üç ədəd* daş bağlamışdı, çünki üç gün idi ki, bizim dilimizə bir şey dəymirdi. Peyğəmbər ﷺ külüngü götürüb *qaya parçasına* bir zərbə endirdi və o, dağılıb qum təpəsinə çevrildi. Mən *Peyğəmbərə* ﷺ dedim: "Ya Rəsulullah, evə getməyimə izin verərsənmi?" *Mən evə gəlib* zövcəmə dedim: "Mən Peyğəmbəri ﷺ elə bir halda gördüm ki, buna dözə bilmədim. *Yeməyə* bir şey varmı?" *Zövcəm* dedi: "Evdə bir qədər arpa və bir keçi var." Mən keçini kəsdim, *zövcəm də* arpanı üyütdü. Nəhayət, əti qazana qoyduq. Sonra mən Peyğəmbərin ﷺ yanına getdim. Artıq xəmir mayalanmışdı, qazandakı ət də bişib hazır olurdu. Mən *ona* dedim: "*Evdə* azacıq yeməyimiz var. Dur, ya Rəsulullah, bir-iki nəfər də götür *gedək bizə*."

١٨٠- حَدَّثَنَا ابْنُ أَبِي عُمَرَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ مُحَمَّدِ بْنِ عَقِيلٍ، أَنَّهُ سمعَ جَابِرًا؛ ح: قَالَ سُفْيَانُ: وَحَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُنْكَدِرِ، عَنْ جَابِرٍ، قَالَ: ((خَرَجَ رَسُولُ اللهِ ﷺ، وَأَنَا مَعَهُ فَدَخَلَ عَلَى امْرَأَةٍ مِنَ الأَنْصَارِ، فذَبَحَتْ لَهُ شَاةً، فَأَكَلَ مِنْهَا، وَأَتَتْهُ بِقِنَاعٍ مِنْ رُطَبٍ، فَأَكَلَ مِنْهُ، ثُمَّ تَوَضَّأَ لِلظُّهْرِ، وَصَلَّى ﷺ، ثُمَّ انْصَرَفَ، فَأَتَتْهُ بِعُلالَةٍ مِنْ عُلالَةِ الشَّاةِ، فَأَكَلَ ثُمَّ صَلَّى الْعَصْرَ، وَلَمْ يَتَوَضَّأْ)).

(180) ..... Cabir رضي الله عنهما demişdir: "(Bir dəfə) Rəsulullah ﷺ (məsciddən) çıxıb ənsardan olan bir qadının evinə gəldi. Mən də onun yanında idim. Qadın (dərhal gedib) onun

---

Peyğəmbər ﷺ soruşdu: "Nə qədər yemək var?" Mən ona *yeməyin qədərini* bildirəndə, o dedi: "*Nə* çox, *nə* gözəl!" *Sonra əlavə edib* buyurdu: "Zövcənə de ki, mən gələnədək nə qazanın qapağını açsın, nə də çörəyi təndirdən çıxartsın." Bundan sonra *Peyğəmbər ﷺ gəlib səhabələrinə*: "Qalxın!"– dedi və mühacirlərlə ənsar qalxıb *onunla getdi*."

Cabir zövcəsinin yanına daxil oldu və qadına: "Ay biçarə, Peyğəmbər ﷺ mühacirlərlə, ənsarla və onların yanında olan kimsələrlə birlikdə gəlir"– dedi. Zövcəsi *ona* dedi: "O səndən *bir söz* soruşdumu?" *Cabir dedi*: "Mən: "Bəli!"– deyə cavab verdim. Peyğəmbər ﷺ *səhabələrinə* dedi: "İçəri keçin, amma basabas salmayın." Peyğəmbər ﷺ çörəkdən qırıb ətdən də götürüb onun arasına qoyduqdan sonra qazanın və təndirin ağzını örtürdü. *O, hər dəfə yeməyi* səhabələrinə verdikdən sonra *qazanın və təndirin ağzını açıb onlar üçün* yemək hazırlayırdı. Səhabələrin hamısı yeyib doyana kimi o, çörəkdən qırıb yeməkdən götürməyə davam etdi. *Yeməyin* qalanı qaldı və Peyğəmbər ﷺ *qadına* buyurdu: "*Götür* bunu, özün də ye, *ehtiyacı olanlara da* ver. Çünki insanlara aclıq üz vermişdir."

üçün bir qoyun kəsdi.[1] Rəsulullah ﷺ bu ətdən yedi. Sonra qadın ona bir məcməyi[2] tər xurma gətirdi. Rəsulullah ﷺ xurmadan da yedikdən sonra qalxıb zöhr namazı üçün dəstəmaz aldı[3] və namazını qıldı. Namazını bitirdikdən sonra ona ətin qalanını gətirdilər və (yenə bu ətdən) yedi. Sonra (əsr namazının vaxtı yetişdikdə) qalxıb dəstəmaz almadan əsr namazını qıldı."[4]

١٨١- حَدَّثَنَا الْعَبَّاسُ بْنُ مُحَمَّدٍ الدُّورِيُّ، قَالَ: حَدَّثَنَا يُونُسُ بْنُ مُحَمَّدٍ، قَالَ: حَدَّثَنَا فُلَيْحُ بْنُ سُلَيْمَانَ، عَنْ عُثْمَانَ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ يَعْقُوبَ بْنِ أَبِي يَعْقُوبَ، عَنْ أُمِّ الْمُنْذِرِ، قَالَتْ: ((دَخَلَ عَلَيَّ رَسُولُ اللهِ ﷺ، وَمَعَهُ عَلِيٌّ، وَلَنَا دَوَالٍ مُعَلَّقَةٌ، قَالَتْ: فَجَعَلَ رَسُولُ اللهِ ﷺ يَأْكُلُ وَعَلِيٌّ مَعَهُ يَأْكُلُ، فَقَالَ رَسُولُ اللهِ ﷺ، لِعَلِيٍّ: ((مَهْ يَا عَلِيُّ، فَإِنَّكَ نَاقَةٌ))، قَالَتْ: فَجَلَسَ عَلِيٌّ، وَالنَّبِيُّ ﷺ يَأْكُلُ، قَالَتْ: فَجَعَلْتُ لَهُمْ سِلْقًا وَشَعِيرًا، فَقَالَ النَّبِيُّ ﷺ لِعَلِيٍّ: ((مِنْ هَذَا فَأَصِبْ فَإِنَّ هَذَا أَوْفَقُ لَكَ)).

---

[1] Məcməyi: mis və ya başqa metaldan, keçmişdə xurma yarpağından və lifindən düzəldilmiş dairəvi yastı iri qab.

[2] Bu dəlildir ki, qadın qoyun və başqa bu kimi heyvanları kəsə bilər.

[3] Bu heç də o demək deyil ki, Rəsulullah ﷺ dəstəmazı məhz odda bişmiş ətdən yediyinə görə almışdır. Sadəcə olaraq dəstəmazsız olduğu üçün dəstəmaz almışdır. Elə bu hədisin sonu buna dəlalət edir.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

(181) ..... Ummu Munzir[1] رضي الله عنها demişdir: "(Bir gün) Rəsulullah ﷺ mənə baş çəkməyə gəldi. Əli də onun yanında idi. Bizim xurma ağacımızın başında bir neçə salxım xurma var idi. Rəsulullah ﷺ (bu xurmalardan) yeməyə başladı. Əli də həmçinin, onunla birlikdə (onlardan) yedi. Onda Rəsulullah ﷺ Əliyə: "Sən yemə, ey Əli! Axı sən təzə sağalmısan"– dedi və Əli (çəkilib bir kənarda) oturdu. Peyğəmbər ﷺ isə yeməyinə davam etdi. Sonra mən onlar üçün şəkər çuğundurundan və arpadan yemək hazırladım.[2] Onda Peyğəmbər ﷺ Əliyə dedi: "(Ey Əli,) bundan ye, bu, sənin üçün daha məsləhətlidir."[3]

١٨٢- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ السَّرِيِّ، عَنْ سُفْيَانَ، عَنْ طَلْحَةَ بْنِ يَحْيَى، عَنْ عَائِشَةَ بِنْتِ طَلْحَةَ، عَنْ عَائِشَةَ، أُمِّ الْمُؤْمِنِينَ، قَالَتْ: ((كَانَ النَّبِيُّ ﷺ يَأْتِينِي فَيَقُولُ: ((أَعِنْدَكِ غَدَاءٌ؟)) فَأَقُولُ: لا، قَالَتْ: فَيَقُولُ: ((إِنِّي صَائِمٌ)) قَالَتْ: فَأَتَانِي يَوْمًا، فَقُلْتُ: يَا رَسُولَ اللهِ، إِنَّهُ أُهْدِيَتْ لَنَا هَدِيَّةٌ، قَالَ: ((وَمَا هِيَ؟)) قُلْتُ: حَيْسٌ، قَالَ: ((أَمَا إِنِّي أَصْبَحْتُ صَائِمًا))، قَالَتْ: ثُمَّ أَكَلَ)).

---

[1] Səlma bint Qeys ibn Amr əl-Ənsariyyə رضي الله عنها bu qadın Peyğəmbərin ﷺ həm səhabəsi, həm də onun xalasıdır.

[2] Demək, şəkər çuğundurundan və arpadan hazırlanmış yemək içinə çörək qatışdırıb yeyilən qatışıqlara aiddir.

[3] Bu hədisi Əbu Davud (3856), İbn Macə (3442) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "həsən" olduğunu demişdir.

(182) ..... Möminlərin anası[1] Aişə ﵂ demişdir: "Peyğəmbər ﷺ (hərdən) yanıma gəlib: "Səndə nahar yeməyi varmı?"– deyə soruşar,[2] mən ona: "Yox!"– deyə cavab verər, o da: "(Elə isə) mən orucam[3]"– deyərdi. Yenə bir gün o mənim yanıma gəldi (və məndən yemək istədi). Dedim: "Ya Rəsulullah, bizə hədiyyə göndəriblər." Soruşdu: "Nədir o?" Dedim: "Xurma halvası.[4]" Onda o: "Mən oruc tutmuşdum"– dedi, sonra (bu halvadan) yedi.[5]"[1]

---

[1] Uca Allah bu xüsusda buyurur: **"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri isə möminlərin analarıdır"** (əl-Əhzab, 6).

[2] Bundan aydın olur ki, Peyğəmbər ﷺ Aişənin ﵂ yanına günün birinci yarısında gələrmiş. O da aydın olur ki, Peyğəmbərin ﷺ evində adətən nahar yeməyi olmazdı.

[3] Bundan aydın olur ki, nafilə oruclarını tutmaq üçün gecədən niyyət etmək vacib deyil. Dan yeri sökülən vaxtdan heç bir şey yeyib-içməyən kimsə sonradan niyyət edib oruc tuta bilər. Onu da qeyd edək ki, bu halda adam yemək tapsa da, tapmasa da ona həmin vaxtdan niyyət edib oruc tutmaq caizdir. Bu da, imam Əbu Hənifənin, Şafiinin və İslam alimlərinin əksəriyyətinin rəyidir. O ki qaldı Peyğəmbərin ﷺ: "Gecədən niyyət etməyən kimsənin orucu məqbul deyildir" (Sunən İbn Macə, 1700, Səhih əl-Cami, 7516) sözünə, bu əmr yalnız fərz buyurulmuş oruca aiddir. Həmçinin, Peyğəmbərin ﷺ: "Elə isə mən orucam" sözü dəlildir ki, məsləhət bildikdə, öyrətmək məqsədilə oruc tutduğunu başqalarına bildirmək caizdir.

[4] Xurma halvası: xurmadan, yağdan və qurutdan, yaxud xurmadan, yağdan və undan, yaxud da xurmadan, yağdan və çörək qırıntılarından hazırlanmış Şərq şirniyyatı.

[5] Peyğəmbərin ﷺ belə etməsi dəlildir ki, nafilə orucunu günün istənilən vaxtı pozmaq olar. Başqa bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Nafilə orucu tutmuş kimsə nəfsinin əmiridir: istəsə

١٨٣- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا عُمَرُ بْنُ حَفْصِ بْنِ غِيَاثٍ، قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ مُحَمَّدِ بْنِ أَبِي يَحْيَى الأَسْلَمِيِّ، عَنْ يَزِيدَ بْنِ أَبِي أُمَيَّةَ الأَعْوَرِ، عَنْ يُوسُفَ بْنِ عَبْدِ اللهِ ابْنِ سَلامٍ، قَالَ: رَأَيْتُ النَّبِيَّ ﷺ أَخَذَ كِسْرَةً مِنْ خُبْزِ الشَّعِيرِ فَوَضَعَ عَلَيْهَا تَمْرَةً وَقَالَ: ((هَذِهِ إِدَامُ هَذِهِ))، وأكل.

(183) ..... Yusuf ibn Abdullah ibn Səlam[2] رضي الله عنهما demişdir: "Mən Peyğəmbərin ﷺ bir parça quru arpa çörəyi götürüb üzərinə xurma qoyduğunu və: "Bu, bunun qatışığıdır" deyib (onu) yediyini görmüşəm."[3]

١٨٤- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا سَعِيدُ بْنُ سُلَيْمَانَ، عَنْ عَبَّادِ بْنِ الْعَوَّامِ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ، أَنَّ رَسُولَ اللهِ ﷺ كَانَ يُعْجِبُهُ الثُّفْلُ.

---

orucu tutar, istəsə onu pozar" (Mocəm əs-Səğir, 7301, əl-Cami əs-Səhih, 3854).

[1] Bu hədisi Muslim (1154), Nəsai (2322), Tirmizi (734) və Əhməd (6/49) rəvayət etmişdir.

[2] Əbu Yəqub Yusuf ibn Abdullah ibn Səlam əl-İbrahimi əl-İsraili əl-Mədəni رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir. Peyğəmbər ﷺ onu dizinin üstünə oturtmuş, onun başını sığallamış və ona Yusuf adını vermişdir (Siyər Əlam ən-Nubələ, 119-cu tərcümeyi-hal).

[3] Bu hədisi, həmiçinin Əbu Davud (3259) rəvayət etmişdir. Hədisin isnadında keçən Yezid ibn Əbu Umeyyə "məchul" ravidir. Elə bu səbəbdən də, bu hədis "zəif" hesab edilir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "zəif" olduğunu demişdir.

قَالَ عَبْدُ اللهِ: يَعْنِي مَا بَقِيَ مِنَ الطَّعَامِ.

(184) ..... Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ qalıq xoşlayardı.[1]

Abdullah (ibn Abdur-Rəhman)[2] demişdir: "Yəni yeməyin qabın dibində qalmış qalığını (xoşlayardı)."

[1] Bu hədisi Əhməd (3/220) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Abdullah ibn Abdur-Rəhman Əbu İsa ət-Tirmizinin şeyxidir.

٢٧- بَاب صفة وضوء رسول الله ﷺ عند الطعم

27-ci fəsil. Rəsulullahın ﷺ yeməkdən əvvəl və sonra yuyunmasının[1] vəsfi

١٨٥- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ، عَنْ أَيُّوبَ، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ رَسُولَ اللهِ ﷺ خَرَجَ مِنَ الْخَلاءِ، فَقُرِّبَ إِلَيْهِ الطَّعَامُ، فَقَالُوا: ((أَلا نَأْتِيكَ بِوَضُوءٍ؟)) قَالَ: ((إِنَّمَا أُمِرْتُ بِالْوُضُوءِ، إِذَا قُمْتُ إِلَى الصَّلاةِ)).

(185) ..... İbn Abbas رضي الله عنهما rəvayət edir ki,[2] (bir dəfə) Rəsulullah ﷺ ayaqyolundan çıxdıqdan sonra, ona yemək

---

[1] Müəllifin bu fəsildə varid etdiyi hədislərdən aydın olur ki, yeməkdən nə əvvəl, nə də sonra dəstəmaz almaq, nə vacibdir, nə də ki, müstəhəb. Yeməkdən qabaq əlləri yumağa gəlincə, bu xüsusda alimlər ixtilaf etmişlər. Bəziləri əlləri yumağın müstəhəb olduğunu, digərləri isə müstəhəb olmadığını demişlər. Qeyd etmək lazımdır ki, yeməkdən əvvəl əlləri yumağın müstəhəb olmasına açıq-aydın dəlalət edən hədis olmasa da, çirkli əlləri yeməkdən qabaq yumaq, ümumi dəlillərə əsasən təmizlikdən hesab edilir. İmam Əhməd, İbn Məin və bir çoxları bu rəydə olmuşlar. Əllər təmiz olduğu təqdirdə isə, yeməkdən əvvəl onları yumaq nə vacib, nə də müstəhəb sayılır. Yeməkdən sonra əlləri yumağa gəlincə, əvvəlki hədislərdə bizə aydın olmuşdu ki, yeməyi yedikdən sonra əlləri yalamaq gərəkdir. Lakin qeyd etmək lazımdır ki, əgər barmaqları yaladıqdan sonra onların üzərində yağ və s. bu kimi yeməyə aid olan şeylər qalmışsa, o halda əlləri yumaq caizdir.

[2] Bu hədisi Əbu Davud (3760), Tirmizi (1848), Nəsai (132), Əhməd (1/282) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

gətirdilər və (ondan): "Sənə dəstəmaz almaq üçün su gətirəkmi?"– deyə soruşdular. O dedi: "Mənə yalnız namaz qılmaq üçün dəstəmaz almaq vacib buyurulmuşdur.[1]"

١٨٦- حَدَّثَنَا سَعِيدُ بْنُ عَبْدِ الرَّحْمَنِ الْمَخْزُومِيُّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنْ عَمْرِو بْنِ دِينَارٍ، عَنْ سَعِيدِ بْنِ الْحُوَيْرِثِ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: خَرَجَ رَسُولُ اللهِ ﷺ مِنَ الْغَائِطِ فَأُتِيَ بِطَعَامٍ، فَقِيلَ لَهُ: ((أَلَا تَتَوَضَّأُ؟)) فَقَالَ: ((أَأُصَلِّي، فَأَتَوَضَّأُ)).

(186) ..... İbn Abbas رضي الله عنهما demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ ayaqyolundan çıxdı və ona yemək gətirdilər. (Sonra) ondan: "Dəstəmaz almırsanmı?"– deyə soruşdular. Peyğəmbər ﷺ buyurdu: "Məgər mən namaz qılmaq istəyirəm ki, dəstəmaz alım?!"[2]

١٨٧- حَدَّثَنَا يَحْيَى بْنُ مُوسَى، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ نُمَيْرٍ، قَالَ: حَدَّثَنَا قَيْسُ بْنُ الرَّبِيعِ؛ ح: وَحَدَّثَنَا قُتَيْبَةُ، قَالَ: حَدَّثَنَا عَبْدُ الْكَرِيمِ الْجُرْجَانِيُّ،

---

[1] Bu hədisdən belə nəticə çıxır ki, istənilən halda yeməkdən əvvəl dəstəmaz almaq nə vacib, nə də müstəhəbdir. Yalnız cənabətli halda olmaq istisnadır. Belə olduqda, dəstəmaz almaq müstəhəbdir. Bu xüsusda varid olmuş hədisdə Cabir ibn Abdullah رضي الله عنهما demişdir: "(Bir dəfə) Rəsulullahdan ﷺ: "Cunub olan kimsənin (bu halda) yemək yeməsi, yaxud su içməsi, yaxud yatması caizdirmi?"– deyə soruşdular. Dedi: "Bəli, əgər namaz üçün dəstəmaz aldığı kimi dəstəmaz alarsa, (bunlardan istədiyini edə bilər)" (İbn Macə, 482; Səhih İbn Macə, 585).

[2] Bu hədisi Muslim (374), Nəsai (6736) və Əhməd (1/222) rəvayət etmişdir.

عَنْ قَيْسِ بْنِ الرَّبِيعِ، عَنْ أَبِي هَاشِمٍ، عَنْ زَاذَانَ، عَنْ سَلْمَانَ، قَالَ: قَرَأْتُ فِي التَّوْرَاةِ، أَنَّ بَرَكَةَ الطَّعَامِ الْوُضُوءُ بَعْدَهُ، فَذَكَرْتُ ذَلِكَ لِلنَّبِيِّ ﷺ، وَأَخْبَرْتُهُ بِمَا قَرَأْتُ فِي التَّوْرَاةِ، فَقَالَ رَسُولُ اللهِ ﷺ: ((بَرَكَةُ الطَّعَامِ الْوُضُوءُ قَبْلَهُ، وَالْوُضُوءُ بَعْدَهُ)).

(187) ..... Salman (əl-Farisi) ﷺ demişdir: “Mən Tövratdan oxumuşdum ki, yeməyin bərəkəti, yeməkdən sonra dəstəmaz almaqdadır. Sonra mən Tövratdan oxuduğumu Peyğəmbərə ﷺ xəbər verdim. Onda, Rəsulullah ﷺ dedi: “Yeməyin bərəkəti, həm yeməkdən əvvəl, həm də yeməkdən sonra dəstəmaz almaqdadır.”[1]

---

[1] Bu hədisi Əbu Davud (3761), Tirmizi (1847), Əhməd (5/441) rəvayət etmişdir. Hədisin isnadında keçən Qeys ibn Rəbi “zəif” ravidir. Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “zəif” olduğunu demişdir. Yeri gəlmişkən qeyd edək ki, heç bir müsəlmana Qurandan başqa hər hansı bir səmavi kitaba əsaslanmağa icazə verilmir. Peyğəmbər ﷺ Ömərin ﷺ əlində, üzərində Tövratdan bəzi sözlər yazılmış bir səhifə gördüyü zaman qəzəblənmiş və ona belə demişdir: “Olmaya şəkk edirsən, ey Xəttabın oğlu?! Məgər mən *sizə* ağappaq, tərtəmiz *bir din* gətirmədimmi?! Hərgah qardaşım Musa sağ olsaydı, o da, ancaq mənə *göndərilmiş şəriətə* tabe olardı” (Şoəbul-İman, 174; Mişkatul-Məsabih, 177). Həmçinin, İsa aleyhissəlamın Qiyamətə yaxın gələcəyi zaman məhz İslam şəriəti ilə hökm verəcəyi ona dəlalət edir ki, Allah yanında qəbul edilən din yalnız İslamdır. O ki qaldı, Peyğəmbərin ﷺ: “İsrail oğulları adından hekayətlər danışın *və bilin ki*, bunda heç bir qəbahət yoxdur” (Səhih əl-Buxari, 3461) hədisinə, bu, yalnız Quran və Sünnəyə müvafiq olan hekayətləri danışmağa və üstəlik, avamlara

yox, öz əqidəsini yaxşı bilən müsəlmanlara aiddir. Onlar bu kitabları şübhələri aradan qaldırmaq məqsədilə oxuya bilərlər. Bu xüsusda Uca Allah buyurur: **"De: "Əgər doğru danışanlarsınızsa, Tövratı gətirin və onu oxuyun!"** (Ali-İmran, 93). Necə ki, Tövratdan xəbəri olan Abdullah ibn Amr ibn As رضي الله عنهما Peyğəmbərin ﷺ bu Kitabdakı vəsfi barədə soruşulduqda, belə cavab vermişdir: "Bəli, vallahi ki, onun Quranda vəsf edilən *bəzi* sifətləri Tövratda da belə vəsf edilmişdir: "Ey Peyğəmbər! Həqiqətən, Biz səni şahid, müjdəçi, xəbərdar edən və ümmiləri müdafiə edən olaraq göndərdik. Sən Mənim qulum və rəsulumsan. Sənə "Mutəvəkkil (Təvəkkül edən)" adını verdim. O *Peyğəmbər* nə sərtürəkli, nə kobud, nə də bazarda qışqır-bağır salan birisi deyildir; pisliyi pisliklə dəf etməz, əksinə, əfv edər və bağışlayar. Onun vasitəsilə əyri yolda olan millət "Lə ilahə illəllah" deyib düzəlməyincə, Allah onu Öz yanına aparmaz; və bu *tövhid kəlməsi* sayəsində kor gözləri, kar qulaqları və bağlı qəlbləri açar" (Səhih əl-Buxari, 2125).

٢٨- بَاب قول رسول الله ﷺ قبل الطعام و عند الفراغ منه

28-ci fəsil. Rəsulullahın ﷺ yeməkdən əvvəl və sonra dediyi (dua)

١٨٨- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا ابْنُ لَهِيعَةَ، عَنْ يَزِيدَ بْنِ أَبِي حَبِيبٍ، عَنْ رَاشِدِ بْنِ جَنْدَلٍ الْيَافِعِيِّ، عَنْ حَبِيبِ بْنِ أَوْسٍ، عَنْ أَبِي أَيُّوبَ الأَنْصَارِيِّ، قَالَ: كُنَّا عِنْدَ النَّبِيِّ ﷺ، يَوْمًا، فَقَرَّبَ طَعَامًا، فَلَمْ أَرَ طَعَامًا كَانَ أَعْظَمَ بَرَكَةً مِنْهُ، أَوَّلَ مَا أَكَلْنَا، وَلا أَقَلَّ بَرَكَةً فِي آخِرِهِ، قُلْنَا: ((يَا رَسُولَ اللهِ، كَيْفَ هَذَا؟)) قَالَ: ((إِنَّا ذَكَرْنَا اسْمَ اللهِ حِينَ أَكَلْنَا، ثُمَّ قَعَدَ مَنْ أَكَلَ وَلَمْ يُسَمِّ اللَّهَ تَعَالَى فَأَكَلَ مَعَهُ الشَّيْطَانُ)).

(188) ..... Əbu Əyyub əl-Ənsari[1] ﷺ demişdir: “Bir gün biz Peyğəmbərin ﷺ yanında ikən ona yemək gətirdilər. Mən əvvəlində bərəkəti olduqca çox olan, axırında isə bərəkəti olduqca az olan belə bir yemək görməmişdim.

[1] Əbu Əyyub Xalid ibn Zeyd ibn Kuleyb əl-Xəzrəci ən-Nəccari ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. İkinci Əqəbə beyətində Peyğəmbərə ﷺ beyət etmiş, Bədrdə və digər döyüşlərdə, ələlxüsus də Konstantinopola olan yürüşdə iştirak etmişdir. Peyğəmbər ﷺ Mədinəyə gəldiyi zaman möminlərin anası Səudə üçün hücrə və bir də məscid tikilənədək, Əbu Əyyub əl-Ənsarinin ﷺ evində qalmışdır. Əbu Əyyub ﷺ hicrətin 52-ci ilində vəfat etmiş və Konstantinopol qalasının yanında dəfn edilmişdir (Siyər Əlam ən-Nubələ, 83-cü tərcümeyi-hal).

Biz: "Bu necə oldu, ya Rəsulullah?"– deyə (bunun səbəbini ondan) soruşduq. O dedi: "Biz Allahın adını çəkib ("Bismilləh"– deyib)[1] yeməyə başladıq. (Buna görə də yeməyin əvvəli bərəkətli oldu.) Sonra (bir nəfər gəlib) məclisə qoşuldu və Uca Allahın adını çəkmədən yeməyə başladı. Onda şeytan onunla bərabər bu yeməkdən yedi (və buna görə də yeməyin bərəkəti azaldı)."[2]

١٨٩– حَدَّثَنَا يَحْيَى بْنُ مُوسَى، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ، قَالَ: حَدَّثَنَا هِشَامٌ الدَّسْتُوائِيُّ، عَنْ بُدَيْلٍ الْعُقَيْلِيُّ، عَنْ عَبْدِ اللهِ بْنِ عُبَيْدِ بْنِ عُمَيْرٍ، عَنْ أُمِّ كُلْثُومٍ، عَنْ عَائِشَةَ، قَالَتْ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((إِذَا أَكَلَ أَحَدُكُمْ، فَنَسِيَ أَنْ يَذْكُرَ اللَّهَ تَعَالَى عَلَى طَعَامِهِ، فَلْيَقُلْ: بِسْمِ اللهِ أَوَّلَهُ وَآخِرَهُ)).

---

[1] Yeməyin əvvəlində "bismilləh" deyilərsə, o yemək bərəkətli olar, üstəlik şeytan bu yeməkdən məhrum olar. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Adam evinə girərkən və yeməyə başlayarkən Allahı zikr etsə, şeytan *yanındakılara* deyər: "*Burada* sizin üçün nə gecələməyə bir yer, nə də bir yemək var." Əgər evə daxil olduqda Allahı zikr etməzsə, şeytan: "Siz gecələməyə yer tapdınız"– deyər. Və əgər yeməyə başladıqda, Allahı zikr etməzsə, şeytan: "Siz həm gecələməyə yer, həm də yemək tapdınız"– deyər" (Səhih Muslim, 2018). Qeyd etmək lazımdır ki, "bismilləh" sözü yalnız yaxşı işlərin əvvəlində, şəriətin buyurduğu hallarda deyilməlidir.

[2] Bu hədisi imam Əhməd (5/415-416) rəvayət etmişdir. Hədisin isnadında keçən İbn Ləhiə "sonradan hədisləri qarışmış səduq" ravidir. Habelə Həbib ibn Ovs "məchul" ravidir. Elə bu səbəbdən də, bu hədis "zəif" hesab edilir. Muhəmməd Nasirəddin əl-Albani də "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

(189) ..... Aişə رضي الله عنها rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Sizdən biriniz yemək yediyi zaman yeməyin əvvəlində Uca Allahın adını çəkməyi[1] unutsa, qoy: "Bismilləhi əvvələhu və axirəhu[2]"– desin."[3]

١٩٠- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ الصَّبَّاحِ الْهَاشِمِيُّ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ الأَعْلَى، عَنْ مَعْمَرٍ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ، أَنَّهُ دَخَلَ عَلَى رَسُولِ اللهِ ﷺ، وَعِنْدَهُ طَعَامٌ، فَقَالَ: ((ادْنُ يَا بُنَيَّ، فَسَمِّ اللَّهَ تَعَالَى، وَكُلْ بِيَمِينِكَ، وَكُلْ مِمَّا يَلِيكَ)).

(190) ..... Rəvayət edilir ki, (bir dəfə) Rəsulullahın ﷺ qabağına yemək qoyulduğu zaman Ömər ibn Əbu Sələmə[4] onun yanına gəlmiş və Rəsulullah ﷺ ona belə buyurmuşdur: "Oğul bala, yaxın gəl, "bismilləh" de və sağ əlinlə öz qabağından ye![5]"[1]

---

[1] Yəni, "Bismilləh" deməyi.

[2] Tərcüməsi: Əvvəlində də, axırında da Allahın adı ilə!

[3] Bu hədisi Əbu Davud (3767), Tirmizi (1859), Nəsai (281), İbn Macə (3264), Əhməd (6/207) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Əbu Həfs Ömər ibn Əbu Sələmə ibn Abdul-Əsəd əl-Qureşi رضي الله عنه Peyğəmbərin ﷺ azyaşlı səhabələrindəndir (Siyər Əlam ən-Nubələ, 63-cü tərcümeyi-hal).

[5] Bu hədisdə yemək ədəbinin üçü qeyd edilmişdir. İmam Buxarinin rəvayət etdiyi hədisdə (5376) Ömər ibn Əbu Sələmə رضي الله عنه demişdir: "Mən Peyğəmbərin ﷺ himayəsi altında böyüyən bir uşaq idim. Yemək yeyəndə mən əlimi qabın hər tərəfinə uzadardım. *Bir dəfə* Peyğəmbər ﷺ mənə belə buyurdu: "Balaca, "bismillah" de, özün də sağ əllə və öz qabağından ye!" O gündən bəri mən yeməyi ancaq bu

١٩١- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو أَحْمَدَ الزُّبَيْرِيُّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ الثَّوْرِيُّ، عَنْ أَبِي هَاشِمٍ، عَنِ إِسْمَاعِيلَ بْنِ رِيَاحٍ، عَنْ أَبِيهِ رِيَاحِ بْنِ عَبِيدَةَ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، قَالَ: كَانَ رَسُولُ اللهِ ﷺ إِذَا فَرَغَ مِنْ طَعَامِهِ، قَالَ: ((الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنَا وَسَقَانَا وَجَعَلَنَا مُسْلِمِينَ)).

(191) ..... Əbu Səid əl-Xudri ﷺ demişdir:[2] "Rəsulullah ﷺ yeməyini bitirdikdən sonra deyərdi: "Əlhəmdulil-lahilləzi ət'amənə və səqanə və cəalənəl-muslimin.[3]"

---

qaydada yeyirəm." Hədisə diqqət etsək, başa düşərik ki, səhabə bu hadisədən sonra Peyğəmbərin ﷺ bu əmrini həmişə yerinə yetirib. Səhabələrin hamısı belə olmuşlar. Allahın rəsulu ﷺ onlara bir iş buyurduqda onu dərhal yerinə yetirər və bunu davamlı edərdilər. İmam Malik onların barəsində danışarkən demişdir: "Bu ümmətin əvvəlinciləri nəyin sayəsində islah olmuşlarsa, axırıncıları da yalnız onun sayəsində islah ola bilərlər" (Qaidətul-Cəliyyə, səh: 53-62). Yəni, insan yalnız Quran və Sünnəyə riayət etməklə – Allahın və Onun rəsulunun ﷺ buyuruqlarını yerinə yetirməklə – islah oluna bilər. Bu hədisdən həm də o nəticə çıxır ki, yemək yedikdə "bismilləh" demək və sağ əl ilə yemək vacibdir. Əks halda adam bu vacibləri tərk etdiyinə görə günah qazanır. Çünki belə olduğu təqdirdə şeytan onun yeməyinə şərik olur.

[1] Bu hədisi Buxari (5061), Muslim (2022), Əbu Davud (3777), Tirmizi (1858), Nəsai (274), İbn Macə (3267) və Əhməd (4/26-27) rəvayət etmişdir.

[2] Bu hədisi Əbu Davud (3850) və Əhməd (3/32) rəvayət etmişdir. Hədisin isnadında keçən İsmail ibn Riyah "məchul" ravidir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[3] Tərcüməsi: "Bizi yedirdən, bizi içirdən və bizi müsəlman edən Allaha həmd olsun!" Yeri gəlmişkən, qeyd edək ki, yeməkdən sonra

١٩٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا ثَوْرُ بْنُ يَزِيدَ، عَنْ خَالِدُ بْنُ مَعْدَانَ، عَنْ أَبِي أُمَامَةَ، قَالَ: كَانَ رَسُولُ اللهِ ﷺ إِذَا رُفِعَتِ الْمَائِدَةُ مِنْ بَيْنِ يَدَيْهِ، يَقُولُ: ((الْحَمْدُ لِلَّهِ حَمْدًا كَثِيرًا طَيِّبًا مُبَارَكًا فِيهِ، غَيْرَ مُوَدَّعٍ، وَلا مُسْتَغْنًى عَنْهُ رَبَّنَا)).

(192) ..... Əbu Umamə[1] ﷺ demişdir:[2] "Rəsulullah ﷺ (yeməyini bitirdiyi və) önündəki süfrə yığışdırıldığı zaman deyərdi: "Əlhəmdulillahi həmdən kəsiran tayyibən

---

edilən dua barədə neçə-neçə "səhih" hədislər varid olmuş və həmin hədislərdə bu duaların ayrı-ayrı ləfzləri zikr edilmişdir. Məsələn: "Əlhəmdulillahi həmdən kəsiran tayyibən mubarəkən fih, ğeyra məkfiyyin və lə muvəddəin və lə mustəğnən anhu Rabbənə. (Rəbbimiz Allaha həmd olsun, *özü də* çoxlu, xoş, mübarək, sonsuz, ardı-arası kəsilməyən, onsuz keçinmək mümkün olmayan bir həmd!)" (Səhih əl-Buxari, 5458), yaxud "Əlhəmdulillahil-ləzi kəfanə və ərvanə ğayra məkfiyyin və lə məkfurin. (Ehtiyacımızı ödəyən və susuzluğumuzu yatıran Allaha həmd olsun, *özü də* sonsuz və inkar olunmayan bir həmd!)" (Səhih əl-Buxari, 5459), yaxud "Əlhəmdulilləhil-ləzi ət'aməni həzə və rəzəqənihi min ğayri hovlin minni və lə quvvə (Bunu mənə yedirdən və özüm heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!)" (Səhih ət-Tirmizi, 3/159). Hərçənd, müsəlmana yeməyini bitirdikdən sonra sadəcə "əlhəmdulilləh" demək yetər, lakin yaxşı olar ki, bu xüsusda sünnədə varid olmuş duaların hamısını öyrənsin və vaxtaşırı bu duaları etsin.

[1] Əbu Umamə əl-Bahili ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 52-ci tərcümeyi-hal).

[2] Bu hədisi Buxari (5142), Əbu Davud (3849), Tirmizi (3452), Nəsai (283), İbn Macə (3284) və Əhməd (5/25) rəvayət etmişdir.

mubarəkən fih, ğeyra muvəddəin və lə mustəğnən anhu Rabbənə.[1]"

[1] Tərcüməsi: "Rəbbimiz Allaha həmd olsun, *özü də* çoxlu, xoş, mübarək, sonsuz, ardı-arası kəsilməyən, onsuz keçinmək mümkün olmayan bir həmd!" Burada "xoş" dedikdə, riyadan uzaq, Allah üçün olan bir həmd, "mübarək" dedikdə, bu həmdin savabının artması nəzərdə tutulur. Allahı bu cür həmd etmək mübaliğə – yəni, adi həmddən fərqli olaraq, həddən ziyadə tərif etmək sayılır. Bunun müqabilində qazanılan savabın həddi də yalnız Allaha bəllidir. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Bir nəfər: "Əlhəmdulillahi kəsiran (Allaha çoxlu həmdlər olsun!)"– dedi. (Bunu eşidən) mələk onun savabını yazmağa aciz qaldı və buna görə Rəbbinə müraciət etdi. Rəbbi də ona buyurdu: "Qulum necə deyibsə, elə də yaz: "Çoxlu!" (Mocəm əl-Əvsət, 2082; Silsilətul-Əhadisis-Səhihə, 3452); digər bir hədisdə Rifaa ibn Rafi ﷺ demişdir: "*Bir dəfə* biz Peyğəmbərin ﷺ arxasında namaz qılırdıq. O, rükudan başını qaldırıb: "Səmi Allahu limən həmidəh"– dedi. Arxasında duran bir nəfər isə: "Rabbənə və ləkəl-həmd, həmdən, kəsiran, tayyibən, mubarəkən fih"– dedi. Peyğəmbər ﷺ namazı bitirdikdən sonra soruşdu: "Bunu deyən kim idi?" *Səhabə*: "Mən"– deyə cavab vedi. Onda Peyğəmbər ﷺ buyurdu: "Mən otuzdan çox mələk gördüm ki, bu sözü hansı biri daha tez yazacaq deyə, bir-birini ötməyə çalışırdılar" (Səhih əl-Buxari, 799). Bu cür zikrlər "mudaaf (savabı qat-qat artan) zikr" adlanır. Yəni, bir neçə kəlmədən ibarət olmağına rəğmən, sahibinə həddən ziyadə savab qazandırır. Ən gözəl kəlmə isə "lə ilahə illəllah" kəlməsidir. Abdullah ibn Amr رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ümmətimdən olan bir kişi Qiyamət günü məxluqatın qarşısına çağırılacaq və ona (içində əməlləri yazılmış) doxsan doqquz ədəd kitab göstəriləcək. Hər bir kitabın ölçüsü gözün gördüyü son məsafəyə qədər olacaq. Sonra qüdrətli və qüvvətli Allah buyuracaq: "Bunlardan birini inkar edə bilərsənmi?" O: "Xeyr, ey Rəbbim!"– deyə cavab verəcək. Allah buyuracaq: "*Əməlləri* yazan gözətçi mələklərim sənə zülm ediblərmi?

١٩٣- حَدَّثَنَا أَبُو بَكْرٍ مُحَمَّدُ بْنُ أَبَانَ، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، عَنْ هِشَامٍ الدَّسْتُوائِيِّ، عَنْ بُدَيْلِ ابْنِ مَيْسَرَةَ الْعُقَيْلِيِّ، عَنْ عَبْدِ اللهِ بْنِ عُبَيْدِ بْنِ عُمَيْرٍ، عَنْ أُمِّ كُلْثُومٍ، عَنْ عَائِشَةَ، قَالَتْ: كَانَ النَّبِيُّ ﷺ يَأْكُلُ الطَّعَامَ فِي سِتَّةٍ مِنْ أَصْحَابِهِ، فَجَاءَ أَعْرَابِيٌّ، فَأَكَلَهُ بِلُقْمَتَيْنِ، فَقَالَ رَسُولُ اللهِ ﷺ: ((لَوْ سَمَّى لَكَفَاكُمْ)).

(193) ..... Aişə رضي الله عنها demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ səhabələrindən altısı ilə birlikdə yemək yeyərkən, bir bədəvi gəlib iki loxmaya bu yeməyin hamısını yedi. Onda Rəsulullah ﷺ belə buyurdu: "Əgər "bismilləh"deməsəydi, (bu yemək) sizə bəs edərdi.[1]"[1]

Bu qədər kitabın qabağında sənin savabın ola bilərmi?" O, qorxu içində: "Xeyr!"– deyə cavab verəcək. Allah buyuracaq: "Əksinə, dərgahımızda sənin üçün savab vardır. Odur ki, bu gün sənə zülm edilməyəcək." Bu vaxt onun qarşısına içində "Əşhədu ən lə iləhə illəllah və ənnə Muhəmmədən abduhu və rəsuluhu" yazılmış bir kağız parçası qoyulacaq. O deyəcək: "Ey Rəbbim! Bu qədər kitabın qabağında bu kağız parçası nə fayda verə bilər?" Allah buyuracaq: "Sənə zülm olunmayacaq!" Sonra kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və bu kağız parçasının ağırlığından o kitablar havaya qalxacaq" (Sunən ət-Tirmizi, 2850; Səhih Tərğib vət-Tərhib, 1533). Bu növ zikrə daha bir misal çəkmək olar: "Subhənəllahi və bihəmdihi, adədə xalqihi və rıda nəfsihi və zinətə arşihi və midadə kəlimətihi (yaratdıqlarının sayı, Özündən razı olduğu, Ərşinin ağırlığı və kəlmələrinin çoxluğu qədər Allaha həmd-sənalar və təriflər olsun)!" (Səhih Muslim, 2726).

[1] Demək, "bismilləh" deməmək yeməyin bərəkətini aparır.

١٩٤- حَدَّثَنَا هَنَّادٌ، وَمَحْمُودُ بْنُ غَيْلانَ، قَالا: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنْ زَكَرِيَّا بْنِ أَبِي زَائِدَةَ، عَنْ سَعِيدِ بْنِ أَبِي بُرْدَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((إِنَّ اللَّهَ لَيَرْضَى عَنِ الْعَبْدِ أَنْ يَأْكُلَ الأَكْلَةَ، أَوْ يَشْرَبَ الشَّرْبَةَ فَيَحْمَدَهُ عَلَيْهَا)).

(194) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Allah, yemək yedikdən və ya su içdikdən sonra Ona həmd edən bəndəsindən razı qalır.[2]"[3]

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Hədisdən belə nəticə çıxır ki, tələffüzü çox asan olan bir kəlmə ilə Allahın razılığını qazanmaq olar. Nə asan, nə gözəl! Bu şəriəti bizim üçün bu qədər asanlaşdıran və bu nemətləri bizə əta edən Rəbbimizə həmd-sənalar olsun! Bu xüsuda Uca Allah buyurur: **"Əgər şükür etsəniz, buna görə sizdən razı qalar"** (əz-Zumər, 7). Əgər biz Allahın bizə əta etdiyi nemətlərə şükür etsək, Allah bu nemətləri həm artırar, həm də bərəkətli edər. Uca Allah buyurur: **"Əgər şükür etsəniz, sizə *olan nemətimi* artıraram, yox əgər nankorluq etsəniz, *bilin ki*, Mənim əzabım şiddətlidir"** (İbrahim, 7); digər ayədə buyurur: **"Allaha şükür et! Kim şükür etsə, özü üçün şükür etmiş olar. Kim nankor olsa, *bilsin ki*, Allah *onun şükrünə* möhtac deyildir, Tərifəlayiqdir"** (Loğman, 12). Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, hər loxmanı yedikdən sonra "əlhəmdulillah" deməyə lüzum yoxdur. Hədislərdən açıq-aydın başa düşülür ki, bunu yeməyi bitirdikdə demək sünnədir.

[3] Bu hədisi Muslim (2734), Tirmizi (1817), Nəsai (6899) və Əhməd (3/100) rəvayət etmişdir.

٢٩- بَاب ما جاء في قَدَح رسول الله ﷺ

29-cu fəsil. Rəsulullahın ﷺ piyaləsi barədə varid olanlar

١٩٥- حَدَّثَنَا الْحُسَيْنُ بْنُ الأَسْوَدِ الْبَغْدَادِيُّ، قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ مُحَمَّدٍ، قَالَ: حَدَّثَنَا عِيسَى بْنُ طَهْمَانَ، عَنْ ثَابِتٍ، قَالَ: ((أَخْرَجَ إِلَيْنَا أَنَسُ بْنُ مَالِكٍ، قَدَحَ خَشَبٍ، غَلِيظًا، مُضَبَّبًا بِحَدِيدٍ، فَقَالَ: ((يَا ثَابِتُ، هَذَا قَدَحُ رَسُولِ اللهِ ﷺ)).

(195) ..... Sabit demişdir: "(Bir dəfə) Ənəs ibn Malik taxtadan (düzəldilmiş və) dəmir lehimlə[1] bərkidilmiş iri bir piyalə çıxardıb bizə göstərdi və: "Ey Sabit, bu, Rəsulullahın ﷺ piyaləsidir"– dedi."[2]

---

[1] Metal və başqa şeyləri yapışdırmaq üçün qalay və s. ərinti. Digər rəvayətdə Ənəs ؓ demişdir: "(Bir dəfə) Peyğəmbərin ﷺ piyaləsi sındı və o, bu qabın çatını gümüş lehimlə yapışdırdı" (Səhih əl-Buxari, 3109); başqa bir rəvayətdə isə Asim əl-Əhvəl demişdir: "Mən Ənəs ibn Malikdə Peyğəmbərin ﷺ piyaləsini gördüm. O sınmışdı deyə, sonradan onu gümüş lehimlə bərkitmişdi. Bu, ağzıgen, gözəl bir piyalə idi. Özü də (qızılı rəngə çalan ən keyfiyyətli) ağacdan düzəldilmişdi. Ənəs demişdir: "Mən Peyğəmbər ﷺ üçün bu piyaləyə filan və filan içkiləri süzmüşəm." İbn Sirin rəvayət edir ki, bu piyalənin üzərinə dəmir həlqə keçirilmişdir. Ənəs bu həlqəni qızıl və ya gümüşlə əvəz etmək istədikdə, Əbu Talhə ona: "Rəsulullahın ﷺ düzəltdiyi bir şeyi dəyişmə!"– dedi və o da, bu həlqəni dəyişmək fikrindən vaz keçdi" (Səhih əl-Buxari, 5207).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

١٩٦- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: أَنْبَأَنَا عَمْرُو بْنُ عَاصِمٍ، قَالَ: أَنْبَأَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، قَالَ: أَنْبَأَنَا حُمَيْدٌ، وَثَابِتٌ، عَنْ أَنَسٍ، قَالَ: ((لَقَدْ سَقَيْتُ رَسُولَ اللهِ ﷺ بِهَذَا الْقَدَحِ الشَّرَابَ كُلَّهُ، الْمَاءَ وَالنَّبِيذَ وَالْعَسَلَ وَاللَّبَنَ)).

(196) ..... Ənəs ﷺ demişdir:[1] "Mən Rəsulullah ﷺ üçün bu piyaləyə hər cür içki: su, nəbiz,[2] bal və süd süzmüşəm."

---

[1] Bu hədisi Muslim (2008) və Əhməd (3/247) rəvayət etmişdir.

[2] Nəbiz: xurmanı, üzümü, buğdanı, arpanı və s. yumşalanadək suda saxladıqdan sonra onu sıxmaqla hazırlanan içkidir (Tohfətul-Əhvəzi, 5/86). İbn Abbas ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ üçün gecənin əvvəlində (meyvədən və s.) şirə çəkərdilər. Sonra o, bu şirəni ya ertəsi gün səhər, ya həmin günün axşamı, ya növbəti gün günortaüstü, və ya axşamı, ya da o biri gün əsr vaxtınadək içərdi. Sonra yerdə qalanını xidmətçisinə verər, (qıcqırdığı təqdirdə isə) onun əmri ilə bu içkini (zibilliyə) boşaldardılar. (Səhih Muslim, 3739). Bu hədislərdən belə nəticə çıxır ki, istənilən nəbizi üç gün ərzində - yəni, şirinliyi qaldığı müddətcə onu içmək olar. Üç gündən sonra isə bu nəbiz qıcqırıb sərxoşedici içkiyə çevrilir. Bunu da içməyi həm Allah, həm də Peyğəmbər ﷺ haram buyurmuşdur. "əl-Maidə" surəsinin 90-91-ci ayələrində belə buyurulur: **"Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici *içki* də, qumar da, *tapınmaq məqsədilə* dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız. Həqiqətən, şeytan sərxoşedici *içki* və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz *buna* son qoyacaqsınızmı?"** Hədislərin birində Əbu Musa əl-Əşari ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ onu Yəmənə göndərdikdə, Əbu Musa ondan orada düzəldilən içkilər barədə soruşdu. Peyğəmbər ﷺ soruşdu: "Nədir onlar?" Əbu Musa: "Bal və arpa şərabıdır"– dedi. Onda Peyğəmbər ﷺ buyurdu: "Sərxoşedici hər bir şey haramdır" (Səhih əl-Buxari, 4343).

٣٠- بَاب صفة فاكِهة رسول الله ﷺ

30-cu fəsil. Rəsulullahın ﷺ (yediyi) meyvənin[1] vəsfi

١٩٧- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ مُوسَى الْفَزَارِيُّ، قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ سَعْدٍ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللهِ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ، يَأْكُلُ الْقِثَّاءَ بِالرُّطَبِ)).

(197) ..... Abdullah (ibn Cəfər) رضي الله عنهما demişdir: "Mən Peyğəmbərin ﷺ xiyarla tər xurma[2] yediyini görmüşəm."[3]

١٩٨- حَدَّثَنَا عَبْدَةُ بْنُ عَبْدِ اللهِ الْخُزَاعِيُّ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ بْنُ هِشَامٍ، عَنْ سُفْيَانَ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ: ((أَنَّ النَّبِيَّ ﷺ، كَانَ يَأْكُلُ الْبِطِّيخَ بِالرُّطَبِ)).

---

[1] Burada "meyvə" deyildikdə, həm meyvə, həm də tərəvəz nəzərdə tutulur.

[2] Muhəmməd Hərəvi demişdir: "Bu ikisini bir yerdə yeməyin insan orqanizminə böyük faydası vardır. Rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: "Anam məni Rəsulullahın ﷺ evinə gəlin göndərməmişdən bir müddət əvvəl məni kökəltmək üçün əlindən gələni etdi, lakin heç nə alınmadı. Nəhayət, mən xiyarla xurma yedim və yetərincə kökəldim" (Sunən Əbu Davud, 3903; Səhih İbn Macə 3324; Silsilətul-Əhadisis-Səhihə, 1/85).

[3] Bu hədisi Buxari (5124), Muslim (2043), Əbu Davud (3835), Tirmizi (1845), İbn Macə (3325) və Əhməd (1/203) rəvayət etmişdir.

(198) ..... Aişə رضي الله عنها demişdir: “Peyğəmbər ﷺ qarpızla tər xurma[1] yeyərdi.”[2]

١٩٩- حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ يَعْقُوبَ، قَالَ: أَخْبَرَنِي وَهْبُ بْنُ جَرِيرٍ، قَالَ: أَخْبَرَنَا أَبِي، قَالَ: سَمِعْتُ حُمَيْدًا، أَوْ قَالَ: حَدَّثَنِي حُمَيْدٌ، قَالَ وَهْبٌ: وَكَانَ صَدِيقًا لَهُ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((رَأَيْتُ رَسُولَ اللهِ ﷺ، يَجْمَعُ بَيْنَ الْخِرْبِزِ وَالرُّطَبِ)).

(199) ..... Ənəs ibn Malik رضي الله عنه demişdir: “Mən Rəsulullahın ﷺ qovunla[3] bərabər,[4] xurma yediyini görmüşəm.”[1]

---

[1] Bu rəvayətlərdə qeyd edilən meyvə və tərəvəzlərdən biri isti, digəri soyuq, yəni, xurma isti, xiyar və qarpız isə soyuq olduğundan bunları qatışdırıb yeməyin mədəyə xeyri vardır. Digər hədisdə rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: “Peyğəmbər ﷺ qarpızla tər xurma yeyər və deyərdi: “Biz bunun istisi ilə onun soyuğunu, onun soyuğu ilə də bunun istisini azaldırıq” (Sunən Əbu Davud, 3835; Sunən ət-Tirmizi, 1/338; Silsilətul-Əhadisis-Səhihə, 1/86). İbn Qeyyim qarpız barədə demişdir: “Qarpız xüsusunda varid olmuş hədislərin heç biri səhih deyildir. Yalnız bu hədisdən başqa” (Zadul-Məad fi Hədyi Xayril-İbad, 4/263)

[2] Bu hədisi Əbu Davud (3836), Tirmizi (1844) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

[3] Qovun: qabaq fəsiləsindən uzunsov, yaxud girdə şəkilli, şirin və ətirli bostan meyvəsi.

[4] İbn Qeyyim demişdir: “Kim Rəsulullahın ﷺ nələr yediyini araşdırsa, görər ki, o, heç vaxt nə balıqla südü, nə südlə turş bir şeyi, nə iki acı yeməyi, nə iki soyuq yeməyi, nə iki qatı yeməyi, nə iki qəbizlik yaradan yeməyi, nə iki qarnı işlədən yeməyi, nə iki ağır

٢٠٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يَحْيَى، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ الْعَزِيزِ الرَّمْلِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ يَزِيدَ بْنِ الصَّلْتِ، عَنْ مُحَمَّدِ بْنِ إِسْحَاقَ، عَنْ يَزِيدَ بْنِ رُومَانَ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ: ((أَنَّ النَّبِيَّ ﷺ أَكَلَ الْبِطِّيخَ بِالرُّطَبِ)).

(200) ..... Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ qarpızla tər xurma yemişdir."[2]

٢٠١- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، عَنْ مَالِكِ بْنِ أَنَسٍ؛ ح: وَحَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: ((كَانَ النَّاسُ إِذَا رَأَوْا أَوَّلَ الثَّمَرِ جَاءُوا

---

yeməyi, nə iki yüngül yeməyi, nə iki qeyri-adi yeməyi biri-birinə qatıb yeməzdi. Həmçinin, iki müxtəlif yeməyi: qəbizlik yaradan yeməklə qarnı işlədən yeməyi, yaxud tez həzm olan yeməklə gec həzm olanı, qızarmış yeməklə soyutma yeməyi bərabər yeməzdi. Habelə nə təzə ilə köhnə yeməyi, nə südlə yumurtanı, nə də ətlə südü biri-birinə qatardı. Yeməyi çox isti halda yeməz, habelə dünəndən qalan yeməyi də qızdırıb yeməzdi. Xarab olmuş, yaxud çox duzlu, yaxud çox sirkəli yeməkləri də yeməzdi. Çünki bu qaydada yemək yemək insanda bir çox xəstəliklər əmələ gətirir" (Zadul-Məad fi Hədyi Xayril-İbad, 4/202).

[1] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Bu hədisin isnadında keçən Muhəmməd ibn Abdul-Əziz "çoxlu xətalara yol vermiş səduq" ravidir (Təqrib ət-Təhzib). Üstəlik Muhəmməd ibn İshaq "mudəllis"dir. Elə bu səbəbdən də, bu isnad "zəif" hesab edilir. Lakin əvvəlki hədislərə əsasən bu hədisin mətni "səhih" sayılır.

بِهِ إِلَى رَسُولِ اللهِ ﷺ، فَإِذَا أَخَذَهُ رَسُولُ اللهِ ﷺ، قَالَ: ((اللَّهُمَّ بَارِكْ لَنَا فِي ثِمَارِنَا، وَبَارِكْ لَنَا فِي مَدِينَتِنَا، وَبَارِكْ لَنَا فِي صَاعِنَا وَمُدِّنَا، اللَّهُمَّ إِنَّ إِبْرَاهِيمَ عَبْدُكَ وَخَلِيلُكَ وَنَبِيُّكَ، وَإِنِّي عَبْدُكَ وَنَبِيُّكَ، وَإِنَّهُ دَعَاكَ لِمَكَّةَ، وَإِنِّي أَدْعُوكَ لِلْمَدِينَةِ، بِمِثْلِ مَا دَعَاكَ بِهِ لِمَكَّةَ وَمِثْلِهِ مَعَهُ))، ثُمَّ يَدْعُو أَصْغَرَ وَلِيدٍ يَرَاهُ ، فَيُعْطِيهِ ذَلِكَ الثَّمَرَ)).

(201) ..... Əbu Hureyrə ﷺ demişdir: "Camaat (məhsul yığımı zamanı) dərdikləri novbar meyvələrdən Rəsulullaha ﷺ gətirərdi. Rəsulullah ﷺ onları götürərkən dua edib deyərdi: "Allahım, bizim meyvələrimizə bərəkət ver! Bizim şəhərimizə[1] bərəkət ver! Bizim dörd ovuc və bir ovuc yeməyimizə bərəkət ver! Allahım, İbrahim Sənin qulun, Sənin ən əziz dostun və Sənin peyğəmbərin olmuşdur. Mən də Sənin qulun və peyğəmbərinəm. O, Səndən Məkkə üçün (xeyir-bərəkət) diləmişdir.[2] Mən də Səndən Mədinə üçün, onun Məkkə üçün dilədiyini və üstəlik, bir o qədərini də diləyirəm." Bundan sonra

[1] Burada "şəhərimizə" deyildikdə, Mədinə şəhəri nəzərdə tutulur.

[2] Bu xüsusda Uca Allah buyurur: **"Bir zaman İbrahim demişdi: "Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq *yurdu* et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaqlaşdır. Ey Rəbbimiz! Mən nəslimdən bəzisini Sənin mühafizə olunan Evinin yaxınlığında, heç bir bitki olmayan bir vadidə sakin etdim. Ey Rəbbimiz! Onlar namaz qılsınlar deyə, *belə etdim*. İnsanların bir qisminin qəlbini onlara meyilli et və onlara *növbənöv* məhsullardan ruzi ver ki, bəlkə şükür etsinlər"** (İbrahim, 35-37).

Rəsulullah ﷺ gördüyü ən azyaşlı uşağı yanına çağırar və həmin meyvələri ona verərdi."[1]

٢٠٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ حُمَيْدٍ الرَّازِيُّ، قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ الْمُخْتَارِ، عَنْ مُحَمَّدِ بْنِ إِسْحَاقَ، عَنْ أَبِي عُبَيْدَةَ بْنِ مُحَمَّدِ بْنِ عَمَّارِ بْنِ يَاسِرٍ، عَنِ الرُّبَيِّعِ بِنْتِ مُعَوِّذِ بْنِ عَفْرَاءَ، قَالَتْ: ((بَعَثَنِي مُعَاذُ بْنُ عَفْرَاءَ بِقِنَاعٍ مِنْ رُطَبٍ وَعَلَيْهِ أَجْرٌ مِنْ قِثَّاءٍ زُغْبٍ وَكَانَ النَّبِيُّ ﷺ يُحِبُّ الْقِثَّاءَ، فَأَتَيْتُهُ بِهِ وَعِنْدَهُ حِلْيَةٌ قَدْ قَدِمَتْ عَلَيْهِ مِنَ الْبَحْرَيْنِ، فَمَلأَ يَدَهُ مِنْهَا فَأَعْطَانِيهِ)).

(202) ..... Rubeyyi bint Muəvviz ibn Əfra[2] رضي الله عنها demişdir: "(Əmim) Muaz ibn Əfra[3] mənə, üzərinə xırda xiyarlar qoyulmuş bir qab tər xurma verib (Peyğəmbərin ﷺ yanına) göndərdi. Peyğəmbər ﷺ xiyarı xoşlayırdı. Mən xurmaları Peyğəmbər ﷺ gətirdiyim vaxt Bəhreyndən ona

---

[1] Bu hədisi Muslim (1373), Tirmizi (3450), İbn Macə (3329) və Əhməd (1/183-184; 2/330-331) rəvayət etmişdir.

[2] Rubeyyi bint Muəvviz ibn Haris əl-Ənsariyyə رضي الله عنها Peyğəmbərin ﷺ səhabəsidir. Əfra Muəvvizin anasının adıdır. Abdul-Məlik ibn Mərvanın xilafəti dövründə vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 41-ci tərcümeyi-hal).

[3] Muaz ibn Haris ibn Rifaə əl-Ənsari رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir. Hər iki Əqəbə beyətində və bir çox döyüşlərdə iştirak etmiş, Osman ibn Əffan رضي الله عنه şəhid olduqdan az bir müddət sonra vəfat etmişdir. (Siyər Əlam ən-Nubələ, 72-ci tərcümeyi-hal). Bu səhabə Bədr döyüşündə qardaşı ilə birlikdə Əbu Cəhli öldürməklə yadda qalmışdır.

zinət əşyaları göndərmişdilər. O, bunlardan bir ovuc götürüb mənə verdi.”[1]

٢٠٣- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنْ عَبْدِ اللهِ بْنِ مُحَمَّدِ بْنِ عَقِيلٍ، عَنِ الرُّبَيِّعِ بِنْتِ مُعَوِّذِ بْنِ عَفْرَاءَ، قَالَتْ: ((أَتيتُ النَّبِيَّ ﷺ، بِقِنَاعٍ مِنْ رُطَبٍ، وَأَجْرِ زُغْبٍ، فَأَعْطَانِي مِلْءَ كَفِّهِ حُلِيًّا أَوْ قَالَتْ: ذَهَبًا)).

(203) ..... Rubeyyi bint Muəvviz ibn Əfra رضي الله عنها demişdir: “(Bir dəfə) mən Peyğəmbərə ﷺ bir qab tər xurma və (yanında da) xırda xiyarlar gətirdim. Onda Peyğəmbər ﷺ mənə bir ovuc zinət əşyası, yaxud bir ovuc qızıl verdi.”[2]

---

[1] Bu hədisi Təbərani “Mocəm əl-Kəbir” (24/274) və Bəğəvi “Şərh əs-Sunnə” (2895) əsərlərində rəvayət etmişlər. Hədisin isnadında keçən Muhəmməd ibn Humeyd ər-Razi “zəif” ravidir. Habelə, İbrahim ibn Muxtar “hafizəsi zəif olan” ravidir. Üstəlik Muhəmməd ibn İsahq “səduq və mudəllis” ravidir. Və bir də, Əbu Ubeydə “məqbul” ravidir (Təqrib ət-Təhzib). Muhəmməd Nasirəddin əl-Albani "Müxtəsər “əş-Şəmail” əsərində bu hədisin “zəif” olduğunu demişdir.

[2] Bu hədisi imam Əhməd “Musnəd” (6/359) və Təbərani “Mocəm əl-Kəbir” (24/273) əsərlərində rəvayət etmişlər. Hədisin isnadında keçən Şərik ibn Abdullah ən-Nəxəi “çoxlu xətalara yol vermiş səduq” ravidir. Həmçinin, bu isnadda adı çəkilən Abdullah ibn Muhəmməd “hafizəsi zəif səduq” ravidir. (Təqrib ət-Təhzib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin “zəif” olduğunu demişdir. Bu hədislərin hər ikisi “zəif” olsa da, Peyğəmbərin ﷺ xurma ilə xiyar yeməsi “səhih” hədislərdə öz təsdiqini tapmışdır.

٣١- بَاب صفة شَراب رسول الله ﷺ

31-ci fəsil. Rəsulullahın ﷺ içdiyi (suyun və s.) **vəsfi**

٢٠٤- حَدَّثَنَا ابْنُ أَبِي عُمَرَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مَعْمَرٍ، عَنِ الزُّهْرِيِّ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كَانَ أَحَبَّ الشَّرَابِ إِلَى رَسُولِ اللهِ ﷺ، الْحُلْوُ الْبَارِدُ)).

قَالَ أَبُو عِيسَى: هَكَذَا رَوَى سُفْيَانُ بْنُ عُيَيْنَةَ، هَذَا الْحَدِيثَ، عَنْ مَعْمَرٍ، عَنِ الزُّهْرِيِّ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ. وَرَوَاهُ عَبْدُ اللَّهِ بْنُ الْمُبَارِكِ ، وَعَبْدُ الرَّزَّاقِ، وَغَيْرُ وَاحِدٍ، عَنْ مَعْمَرٍ، عَنِ الزُّهْرِيِّ، عَنِ النَّبِيِّ ﷺ مُرْسَلاً وَلَمْ يَذْكُرُوا فِيهِ عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ. وَهَكَذَا رَوَى يُونُسُ وَغَيْرُ وَاحِدٍ، عَنِ الزُّهْرِيِّ، عَنِ النَّبِيِّ ﷺ مُرْسَلاً.

قَالَ أَبُو عِيسَى : إِنَّمَا أَسْنَدَهُ ابْنُ عُيَيْنَةَ مِنْ بَيْنِ النَّاسِ.

(204) ..... Aişə رضي الله عنها demişdir: “Rəsulullahın ﷺ ən çox sevdiyi içki həm şirin,[1] həm də soyuq[2] olanı idi.”

---

[1] Burada “şirin” deyildikdə, həm içməli təbii şirin su, həm də tərkibinə xurma, bal və s. şirin şeylər qatılmış nəbiz və başqa bu kimi içkilər nəzərdə tutulur. Əbu Davudun “Sunən” əsərində rəvayət edilmiş hədisdə xəbər verilir ki, Aişə رضي الله عنها demişdir: “*Səhabələr* Peyğəmbər ﷺ üçün su quyusundan şirin su çıxarardılar” (Səhih əl-Cami, 4951).

[2] Burada “soyuq” deyildikdə, çox soyuq olmayan, sərin içkilər nəzərdə tutulur.

Əbu İsa (ət-Tirmizi) demişdir: "Sufyan ibn Uyeynə bu hədisi bu cür:[1] Məmərdən, o da, Zuhridən, o da, Urvadan, o da, Aişədən rəvayət etmişdir. Abdullah ibn Mübarək, Abdur-Rəzzaq və digərləri isə (bu hədisi) Məmərdən, o da, Zuhridən, o da, Peyğəmbərdən ﷺ "mursəl" isnadla rəvayət etmis və həmin isnadda "o da, Urvadan, o da, Aişədən" sözünü zikr etməmişlər. Həmçinin, Yunus və bir çoxları (bu hədisi) Zuhridən, o da Peyğəmbərdən ﷺ "mursəl" isnadla rəvayət etmislər."

Əbu İsa (ət-Tirmizi) demişdir: "Bu hədisi yalnız İbn Uyeynə ("movsul"[2]) isnadla rəvayət etmişdir."[3]

---

[1] Yəni, ravilər arasında bağlılıq olan "muttəsil" isnadla rəvayət etmişdir.

[2] **"Movsul"** kəlməsi ərəbcə "vəsələ" (وَصَلَ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Belə isnada "müttəsil" də deyilir. Bu kəlmə isə ərəbcə "ittəsələ" (إِتَّصَلَ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu iki kəlmə: birləşdirilmiş, bitişdirilmiş, bağlanmış, əlaqədar və s. mənaları ifadə edir. İstilahi mənada isə "mərfu" və ya "mövquf" qrupuna aid, sənədində bağlılıq olan isnad – "movsul" adlanır. Belə isnad həm də "müttəsil" adlanır (Suyutinin "Tədribur-Ravi" əsəri, 1/155; Təhhanın "Təysirul-Mustələhəl-Hədis" əsəri, səh: 136).

[3] İmam Tirmizi "Sunən" əsərində bu hədisi rəvayət etdikdən sonra demişdir: "Bəzi ravilər bu hədisi İbn Uyeynədən bu isnadla Məmərdən, o da, Zuhridən, o da, Urvadan, o da, Aişədən rəvayət etmişlər. Daha doğrusu budur ki, bu hədisi Zuhri, Peyğəmbərdən ﷺ "mursəl" isnadla rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində, habelə "Səhih əl-Cami" (4627) və "Silsilətul-Əhadisis-Səhihə" (3006) əsərlərində bu hədisin "səhih" olduğunu demişdir.

٢٠٥- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ، قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ زَيْدٍ، عَنْ عُمَرَ هُوَ ابْنُ أَبِي حَرْمَلَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: ((دَخَلْتُ مَعَ رَسُولِ اللهِ ﷺ، أَنَا، وَخَالِدُ بْنُ الْوَلِيدِ عَلَى مَيْمُونَةَ، فَجَاءَتْنَا بِإِنَاءٍ مِنْ لَبَنٍ، فَشَرِبَ رَسُولُ اللهِ ﷺ، وَأَنَا عَلَى يَمِينِهِ، وَخَالِدٌ عَلَى شِمَالِهِ، فَقَالَ لِي: ((الشَّرْبَةُ لَكَ، فَإِنْ شِئْتَ آثَرْتَ بِهَا خَالِدًا))، فَقُلْتُ: ((مَا كُنْتُ لأُوثِرَ عَلَى سُؤْرِكَ أَحدًا))، ثُمَّ قَالَ رَسُولُ اللهِ ﷺ: ((مَنْ أَطْعَمَهُ اللَّهُ طَعَامًا، فَلْيَقُلِ: اللَّهُمَّ بَارِكْ لَنَا فِيهِ، وَأَطْعِمْنَا خَيْرًا مِنْهُ، وَمَنْ سَقَاهُ اللَّهُ عَزَّ وَجَلَّ لَبَنًا، فَلْيَقُلِ: اللَّهُمَّ بَارِكْ لَنَا فِيهِ، وَزِدْنَا مِنْهُ)) ثُمَّ قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((لَيْسَ شَيْءٌ يُجْزِئُ مَكَانَ الطَّعَامِ وَالشَّرَابِ، غَيْرُ اللَّبَنِ)).

قَالَ أَبُو عِيسَى: وَمَيْمُونَةُ بِنْتُ الْحَارِثِ زَوْجُ النَّبِيِّ ﷺ هِيَ خَالَةُ خَالِدِ بْنِ الْوَلِيدِ، وَخَالَةُ ابْنِ عَبَّاسٍ، وَخَالَةُ يَزِيدَ بْنِ الأَصَمِّ، وَاخْتَلَفَ النَّاسُ فِي رِوَايَةِ هَذَا الْحَدِيثِ، عَنْ عَلِيِّ بْنِ زَيْدِ بْنِ جُدْعَانَ، فَرَوَى بَعْضُهُمْ عَنْ عَلِيِّ بْنِ زَيْدٍ، عَنْ عُمَرَ بْنِ أَبِي حَرْمَلَةَ، وَرَوَى شُعْبَةُ، عَنْ عَلِيِّ بْنِ زَيْدٍ، فَقَالَ: عَنْ عَمْرِو بْنِ حَرْمَلَةَ، وَالصَّحِيحُ عُمَرُ بْنُ أَبِي حَرْمَلَةَ.

(205) ..... İbn Abbas رضي الله عنهما demişdir: “Mən və Xalid ibn Vəlid, [1] Rəsulullah ﷺ ilə birlikdə Məymunənin [1] evinə

[1] Xalid ibn Vəlid və İbn Abbas رضي الله عنهما xalauşaqlarıdır. Xalidin anası Ummu Xalid Lubabə bint Haris, İbn Abbasın anası isə Ummu Fədl Lubabə bint Harisdir. Harisin qızları olan bu iki bacının adları eyni olsa da, kunyələri fərqlidir. Xalid ibn Vəlid ibn Muğira əl-Məxzumi رضي الله عنه

gəldik. O, bizə bir cam süd gətirdi və Rəsulullah ﷺ bu süddən içdi. Mən onun sağ tərəfində, Xalid isə sol tərəfində idi. Sonra Rəsulullah ﷺ mənə belə buyurdu: "Artıq (bu südü) içmək haqqı sənindir[2] və əgər istəyirsənsə, öz haqqını Xalidə verə bilərsən." Dedim: "Sənin artığını (bi-

---

Peyğəmbərin ﷺ səhabəsidir. Allahın qılıncı ləqəbi ilə tanınmış bu səhabə hicrətin 8-ci ilində, səfər ayında İslamı qəbul etmiş, sonra da bir çox döyüşlərdə layiqincə vuruşmuşdur. Peyğəmbər ﷺ onu tərif edib demişdir: "Xalid, Allahın qılınclarından biridir. Allah bu qılıncla müşrikləri kəsir" (Səhih əl-Cami, 3207). Digər hədisdə Ənəs ؓ rəvayət edir ki, Zeyd *ibn Harisənin*, Cəfər *ibn Əbu Talibin* və *Abdullah* ibn Rəvahanın ölüm xəbəri gəlməmişdən əvvəl Peyğəmbər ﷺ ağlaya-ağlaya onların şəhid olduqlarını xəbər verib dedi: "Bayrağı Zeyd götürdü və şəhid oldu. Sonra *bayrağı* Cəfər götürdü və o da, şəhid oldu. Sonra *bayrağı* İbn Rəvahə götürdü və o da, şəhid oldu. Axırda *bayrağı* Allahın qılıncı sayılan birisi götürdü və Allah *müsəlmanlara bu döyüşdə* qələbə bəxş etdi" (Səhih əl-Buxari, 3757). Bu döyüşdə Xalid doqquz qılınc sındırmış, Allahın izni ilə üç minlik ordu ilə yüz iyirmi minlik ordunu qorxudub geri çəkilməyə məcbur etmişdir. Peyğəmbər ﷺ də bunu müsəlmanların qələbəsi hesab etmişdir. Hicrətin 21-ci ilində 60 yaşında Homsda vəfat etmiş və orada Homs qapısının yaxınlığında dəfn edilmişdir (Siyər Əlam ən-Nubələ 78-ci tərcümeyi-hal).

[1] Məymunə bint Haris ibn Həzn əl-Hilaliyyə ؓ möminlərin anası və Peyğəmbərin ﷺ zövcəsidir. Peyğəmbər ﷺ hicrətin 7-ci ilində qəza ümrəsindən sonra onunla evlənmişdir. Məymunə hicrətin 61-ci ilində, səksən yaşında vəfat etmişdir (Siyər Əlam ən-Nubələ 27-ci tərcümeyi-hal).

[2] Peyğəmbər ﷺ hər bir işində sağ tərəfindən başlamağı xoşlayırdı deyə, bu südü ilk əvvəl sağında oturan İbn Abbasa ؓ təklif etmişdir.

rinci olaraq içmək) xüsusunda heç kəsə güzəşt edən deyiləm, (ya Rəsulullah).”[1] Sonra Rəsulullah ﷺ belə buyurdu: “Qoy Allahın yemək yedirtdiyi kimsə desin: “Allahummə barik lənə fihi və ət'imnə xayran minhu.[2]” Həmçinin, Allahın süd içirtdiyi kimsə də belə desin: “Allahummə barik lənə fihi və zidnə minhu.[3]” Daha sonra Rəsulullah ﷺ belə buyurdu: “Süddən başqa heç bir şey həm yeməyi, həm də içkini əvəz[4] etmir.”[5]

---

[1] Digər hədisdə rəvayət edilir ki, Səhl ibn Səd ﷺ demişdir: “*Bir dəfə* Peyğəmbərə ﷺ bir cam süd gətirdilər və o, bu süddən içdi. *Həmin vaxt* onun sağında *məclisdəkilərin* ən kiçiyi – yeniyetmə bir oğlan, solunda isə yaşlı adamlar oturmuşdu. Peyğəmbər ﷺ *yeniyetməyə* dedi: “Oğul bala, mənə izin verirsənmi, bunu yaşlılara verim?” Gənc dedi: “Sənin artığını *birinci olaraq içmək* xüsusunda heç kəsə güzəştə gedən deyiləm, ya Rəsulullah.” *Buna görə də* Peyğəmbər ﷺ camı o cavan oğlana verdi” (Səhih əl-Buxari, 2351).

[2] Tərcüməsi: Allahım, bunu bizim üçün bərəkətli et və bizə bundan da xeyirlisini nəsib et!

[3] Tərcüməsi: Allahım, bu südü bizim üçün bərəkətli et və onu bizim üçün artır!

[4] Yəni, süd həm aclığı aradan qaldırır, həm də susuzluğu yatırır – hər iki xüsusiyyəti özündə cəm edir. Odur ki, Peyğəmbər ﷺ müsəlmana başqa yeməklərdən fərqli olaraq süd üçün ayrıca dua etməyi – Allahdan adi yeməklərin sadəcə başqası ilə əvəz olunmasını, südün isə artmasını diləməyi buyurur.

[5] Bu hədisi Əbu Davud (3730), Tirmizi (3451) və İbn Macə (3426) rəvayət etmişdir. İsnadında keçən Ömər ibn Əbu Hərmələ və Əli ibn Zeyd ibn Cudan “zəif” ravilərdir. Elə bu səbəbdən də, bu isnad “zəif” hesab edilir. Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “həsən” olduğunu demişdir.

Əbu İsa (ət-Tirmizi) demişdir: "Peyğəmbərin ﷺ zövcəsi Məymunə bint Haris həm Xalid ibn Vəlidin, həm İbn Abbasın, həm də Yezid ibn Əsammın xalasıdır. Hədis alimləri Əli ibn Zeyd ibn Cudandan rəvayət edilmiş bu hədis barədə ixtilaf etmişlər. Bəziləri (bu hədisi) Əli ibn Zeyddən, o da Ömər ibn Əbu Hərmələdən rəvayət etmişlər. Şobə isə Əli ibn Zeydin (bu hədisi) Amr ibn Hərmələdən rəvayət etdiyini xəbər vermişdir. Lakin səhih olan budur ki, (bu) Ömər ibn Əbu Hərmələdir."

٣٢- بَاب ما جاء في شُرْب رسول الله ﷺ

32-ci fəsil. Rəsulullahın ﷺ (su və s.) içməsi barədə varid olanlar

٢٠٦- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا هُشَيْمٌ، قَالَ: حَدَّثَنَا عَاصِمٌ الأَحْوَلُ، وَمُغِيرَةُ، عَنِ الشَّعْبِيِّ، عَنِ ابْنِ عَبَّاسٍ: ((أَنَّ النَّبِيَّ ﷺ، شَرِبَ مِنْ زَمْزَمَ، وَهُوَ قَائِمٌ)).

(206) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ zəm-zəm suyundan ayaq üstə[1] içmişdir."[2]

٢٠٧- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، عَنْ حُسَيْنٍ الْمُعَلِّمِ، عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ، عَنْ أَبِيهِ، عَنْ جَدِّهِ ، قَالَ: ((رَأَيْتُ النَّبِيَّ ﷺ، يَشْرَبُ قَائِمًا، وَقَاعِدًا)).

---

[1] Bu xüsusda İbn Qeyyim demişdir: "Peyğəmbər ﷺ (suyu və s.) həmişə oturulu halda içərmiş. Səhih hədislərdə onun, ayaq üstə su içməyi qadağan etməsi, hətta ayaq üstə su içən adama içdiyini qusmağı əmr etməsi varid olmuşdur. Lakin səhih hədislərdə Peyğəmbərin ﷺ ayaq üstə su içməsi də varid olmuşdur. Bu hədislərdən nəticə çıxarmış İslam alimlərinin bəziləri ayaq üstə su içməyə rüsxət verən hədislərin qadağa barədə varid olan hədisləri nəsx etdiyini, bəziləri də, bu qadağanın haram deyil, sadəcə daha münasib və (oturulu halda su içməyin) daha əfzəl olduğunu söyləmişlər. Bəziləri isə, bu hədislər arasında ziddiyyət olmadığını demiş (və bunu belə izah etmişlər): "Peyğəmbər ﷺ sadəcə zərurətdən dolayı ayaq üstə su içmişdir..." (Zadul-Məad fi Hədyi Xayril-İbad, 4/205).

[2] Bu hədisi Buxari (1556), Muslim (2027), Nəsai (2964), Tirmizi (1883), İbn Macə (3422) və Əhməd (1/243) rəvayət etmişdir.

(207) ..... Amr ibn As[1] رضي الله عنه demişdir:[2] "Mən Rəsulullahın ﷺ həm ayaq üstə, həm də oturulu halda su içdiyini görmüşəm."

٢٠٨- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا ابْنُ الْمُبَارِكِ، عَنْ عَاصِمٍ الأَحْوَلِ، عَنِ الشَّعْبِيِّ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: ((سَقَيْتُ النَّبِيَّ ﷺ، مِنْ زَمْزَمَ، فَشَرِبَ، وَهُوَ قَائِمٌ)).

(208) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Mən Peyğəmbər ﷺ üçün zəm-zəm suyu süzdüm və o, (bu suyu) ayaq üstə içdi."[3]

٢٠٩- حَدَّثَنَا أَبُو كُرَيْبٍ مُحَمَّدُ بْنُ الْعَلاءِ، وَمُحَمَّدُ بْنُ طَرِيفٍ الْكُوفِيُّ، قَالا: حَدَّثَنَا ابْنُ الْفُضَيْلِ، عَنِ الأَعْمَشِ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ مَيْسَرَةَ، عَنِ النَّزَّالِ بْنِ سَبْرَةَ، قَالَ: ((أُتِيَ عَلِيٌّ، بِكُوزٍ مِنْ مَاءٍ، وَهُوَ فِي الرَّحْبَةِ، فَأَخَذَ مِنْهُ كَفًّا، فَغَسَلَ يَدَيْهِ، وَمَضْمَضَ، وَاسْتَنْشَقَ، وَمَسَحَ وَجْهَهُ وَذِرَاعَيْهِ وَرَأْسَهُ، ثُمَّ شَرِبَ وَهُوَ قَائِمٌ، ثُمَّ قَالَ: ((هَذَا وُضُوءُ مَنْ لَمْ يُحْدِثْ، هَكَذَا رَأَيْتُ رَسُولَ اللهِ ﷺ، فَعَلَ)).

(209) ..... Nəzzal ibn Səbrə demişdir: "(Bir dəfə) Əli (Kufədəki) məscidin həyətində ikən ona bir bardaq su

---

[1] Əbu Abdullah Amr ibn As ibn Vail əs-Səhmi رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir.

[2] Bu hədisi Tirmizi (1884) rəvayət etmiş və: "Bu, "həsən səhih" hədisdir"– demişdir.

[3] 206-cı hədisin qeydlərinə bax.

gətirdilər. O, bu sudan ovuc-ovuc götürüb əllərini yudu, ağzını yaxaladı, burnunu yudu, üzünə, qollarına və başına məsh çəkdi, sonra da ayaq üstə (bu sudan) içdi və dedi: "Bu, dəstəmazı pozulmamış adamın yuyunmasıdır. Mən Rəsulullahın ﷺ (belə) etdiyini görmüşəm."[1]

٢١٠- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، وَيُوسُفُ بْنُ حَمَّادٍ، قَالا: حَدَّثَنَا عَبْدُ الْوَارِثِ بْنُ سَعِيدٍ، عَنْ أَبِي عصَامَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يَتَنَفَّسُ فِي الإِنَاءِ ثَلاثًا إِذَا شَرِبَ، وَيَقُولُ: هُوَ أَمْرَأُ، وَأَرْوَى.

(210) ..... Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ (su içərkən) üç dəfə nəfəs alar,[2] sonra deyərdi: "Bu (cür su içmək) daha çox zövq verir və susuzluğu daha tez yatırır."[3]

٢١١- حَدَّثَنَا عَلِيُّ بْنُ خَشْرَمٍ، قَالَ: حَدَّثَنَا عِيسَى بْنُ يُونُسَ، عَنْ رِشْدِينِ بْنِ كُرَيْبٍ، عَنْ أَبِيهِ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا شَرِبَ، تَنَفَّسَ مَرَّتَيْنِ.

---

[1] Bu hədisi Buxari (5293), Əbu Davud (3718), Nəsai (130) və Əhməd (1/78; 1/144) rəvayət etmişdir.

[2] Yəni, Peyğəmbər ﷺ suyu üç qurtuma içər və hər qurtum aldıqdan sonra fincanı kənara çəkib nəfəs alar sonra yenə sudan qurtum alardı. Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbər ﷺ qabın içinə üfürməyi qadağan etmişdir. Əbu Qətadə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Sizdən biriniz (bir şey) içdikdə qabın içinə üfürməsin..." (Səhih əl-Buxari, 153).

[3] Bu hədisi Muslim (2028), Əbu Davud (3727), Tirmizi (1885) və Əhməd (3/118-119) rəvayət etmişdir.

(211) ..... İbn Abbas رضي الله عنهما rəvayət etmişdir ki, Peyğəmbər ﷺ (su) içərkən iki dəfə nəfəs alardı.[1]

٢١٢- حَدَّثَنَا ابْنُ أَبِي عُمَرَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ يَزِيدَ بْنِ يَزِيدَ بْنِ جَابِرٍ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي عَمْرَةَ، عَنْ جَدَّتِهِ كَبْشَةَ، قَالَتْ: ((دَخَلَ عَلَيَّ رَسُولُ اللهِ ﷺ فَشَرِبَ مِنْ قِرْبَةٍ مُعَلَّقَةٍ قَائِمًا، فَقُمْتُ إِلَى فِيهَا فَقَطَعْتُهُ)).

(212) ..... Kəbşə[2] رضي الله عنها demişdir: "(Bir dəfə) Peyğəmbər ﷺ mənim evimə gəldi və (orada) asılmış cürdəkdən ayaq üstə su içdi.[3] Sonra mən qalxıb, o cürdəyin ağzını kəsdim.[4]"[5]

٢١٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا عُزْرَةُ بْنُ ثَابِتٍ الأَنْصَارِيُّ، عَنْ ثُمَامَةَ بْنِ عَبْدِ اللهِ، قَالَ: ((كَانَ

---

[1] Bu hədisi Tirmizi (1887), İbn Macə (3417) və Əhməd (1/284) rəvayət etmişdir. Hədisin isnadında keçən Rişdin ibn Kureyb "zəif" ravidir (Təqrib ət-Təhzib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[2] Kəbşə bint Sabit رضي الله عنها Peyğəmbərin ﷺ səhabəsi və Həssan ibn Sabitin رضي الله عنه bacısıdır (Təhzib ət-Təhzib, 6/219).

[3] Burada Peyğəmbər ﷺ ya ayaq üstə su içməyin caiz olduğunu göstərmək istəmiş, ya da oturmağa imkan olmadığı üçün suyu ayaq üstə içmişdir.

[4] Kəbşə رضي الله عنها o cürdəyin ağzını ona görə kəsmişdir ki, heç kəs Peyğəmbərin ﷺ ağzının dəydiyi yerdən təbərruk etmək məqsədilə bu cürdəkdən su içməsin.

[5] Bu hədisi Tirmizi (1893), İbn Macə (3423), Əhməd (6/4343) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

أَنَسُ بْنُ مَالِكٍ، يَتَنَفَّسُ فِي الإِنَاءِ ثَلاثًا، وَزَعَمَ أَنَسٌ، أَنَّ النَّبِيَّ ﷺ، كَانَ يَتَنَفَّسُ فِي الإِنَاءِ ثَلاثًا)).

(213) ..... Sumamə ibn Abdullah demişdir: "Ənəs ibn Malik (su) içərkən üç kərə nəfəs alar [1] və deyərdi: "Peyğəmbər ﷺ (su) içərkən üç kərə nəfəs alardı."[2]

٢١٤- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنِ ابْنِ جُرَيْجٍ، عَنْ عَبْدِ الْكَرِيمِ، عَنِ الْبَرَاءِ بْنِ زَيْدٍ ابْنِ ابْنَةِ أَنَسِ بْنِ مَالِكٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ النَّبِيَّ ﷺ، دَخَلَ عَلَى أُمِّ سُلَيْمٍ، وَقِرْبَةٌ مُعَلَّقَةٌ، فَشَرِبَ مِنْ فَمِ الْقِرْبَةِ وَهُوَ قَائِمٌ، فَقَامَتْ أُمُّ سُلَيْمٍ إِلَى رَأْسِ الْقِرْبَةِ فَقَطَعَتْهَا.

(214) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ Ummu Suleymin evinə daxil oldu. (Evin bir tərəfində içində su olan bir) cürdək asılmışdı. Peyğəmbər ﷺ ayaq üstə, o cürdəkdən su içdi. Sonra Ummu Suleym qalxıb o cürdəyin ağzını kəsdi."[3]

٢١٥- حَدَّثَنَا أَحْمَدُ بْنُ نَصْرٍ النَّيْسَابُورِيُّ، قَالَ: حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُحَمَّدٍ الْفَرْوِي، قَالَ: حَدَّثَتْنَا عَبِيدَةُ بِنْتُ نَائِلٍ، عَنْ عَائِشَةَ بِنْتِ سَعْدِ بْنِ أَبِي وَقَّاصٍ، عَنِ أَبِيهَا، أَنَّ النَّبِيَّ ﷺ، كَانَ يَشْرَبُ قَائِمًا.

---

[1] Bu əməl, səhabələrin Peyğəmbərin ﷺ sünnəsinə olduqca məsuliyyətlə yanaşdıqlarından xəbər verir.

[2] Bu hədisi Buxari (5308), Muslim (2028), Tirmizi (1885), Nəsai (6884), İbn Macə (3416) və Əhməd (3/114) rəvayət etmişdir.

[3] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

قَالَ أَبُو عِيسَى: وَقَالَ بَعْضُهُمْ: عُبَيْدَةُ بِنْتُ نَابِلٍ.

(215) ..... Səd ibn Əbu Vəqqas[1] ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ ayaq üstə su içərdi."[2]

Əbu İsa (ət-Tirmizi) demişdir: "Bəziləri (bu hədisin isnadında keçən Abidə bint Nailin): "Ubeydə bint Nabil" (olduğunu) demişlər."

[1] Əbu İshaq Səd ibn Əbu Vəqqas Malik ibn Uheyb əl-Qurəşi əz-Zuhri ﷺ Peyğəmbərin ﷺ səhabəsi, Cənnətlə müjdələnmiş on nəfərdən biridir (Siyər Əlam ən-Nubələ, 5-ci tərcümeyi-hal). Onun fəzilətinə dair ikicə hədis desək, kifayət edər. Bunlardan birində rəvayət edilir ki, Əli ibn Əbu Talib ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ Səd ibn Əbu Vəqqasa belə dediyini eşitmişəm: "Oxla vur *onları*, atam-anam sənə fəda olsun!" (Səhih əl-Buxari, 2905). Digər hədisdə deyilir ki, Peyğəmbər ﷺ onun üçün dua edib demişdir: "Allahım, Səd nə zaman Sənə dua etsə, onun duasını qəbul et!" (Səhih Sunən ət-Tirmizi, 3751).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

٣٣- بَاب تَعَطُّر رسول الله ﷺ

33-cü fəsil. Rəsulullahın ﷺ ətirlənməsi[1]

٢١٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ رَافِعٍ، وَغَيْرُ وَاحِدٍ، قَالُوا: حَدَّثَنَا أَبُو أَحْمَدَ الزُّبَيْرِيُّ، قَالَ: حَدَّثَنَا شَيْبَانُ، عَنْ عَبْدِ اللهِ بْنِ الْمُخْتَارِ، عَنْ مُوسَى بْنِ أَنَسِ بْنِ مَالِكٍ، عَنْ أَبِيهِ، قَالَ: ((كَانَ لِرَسُولِ اللهِ ﷺ سُكَّةٌ يَتَطَيَّبُ مِنْهَا)).

---

[1] Müəllif bu fəsildə varid etdiyi hədislərlə Peyğəmbərin ﷺ ətir vurmağı xoşladığını bəyan edir. Hədislərin birində rəvayət edilir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Bu dünyada üç şey mənə sevdirildi: qadınlar, ətir və bir də gözümün ağı-qarası olan namaz" (Musnəd Əhməd, 3/128; Səhih əl-Cami, 3124). Qeyd edək ki, Peyğəmbər ﷺ ətirlənmədikdə belə, onun vücudundan gözəl iy gələrdi. Əbu Cuheyfə ﷺ rəvayət edir ki, *bir dəfə* mən Peyğəmbərin ﷺ əlini tutub üzümə qoydum və onun əlinin qardan soyuq olduğunu, həm də müşkdən daha gözəl iy verdiyini duydum" (Səhih əl-Buxari, 3553); başqa bir hədisdə Ənəs ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ əlindən daha yumşaq bir ipəyə əsla toxunmamışam, Peyğəmbərdən ﷺ gələn qoxudan daha gözəl bir müşk və ya başqa bir ətir qoxusu əsla iyləməmişəm" (Səhih əl-Buxari, 1973); yenə bir rəvayətdə Ənəs ﷺ demişdir: "*Bir dəfə,* günortaüstü Peyğəmbər ﷺ bizə gəldi və dincini almaq üçün uzanıb yatdı. *Yuxuda ikən* ondan tər axmağa başladı. Onda anam bir ətir şüşəsi gətirib onun tərini bu şüşənin içinə doldurmağa başladı. Elə bu vaxt Peyğəmbər ﷺ yuxudan oyandı və dedi: "Niyə belə edirsən, ey Ummu Suleym?" Anam da ona belə cavab verdi: "Sənin bu tərini ətirimizə qatırıq. Çünki o, ən gözəl ətirdir" (Səhih Muslim, 4300).

(216) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullahın ﷺ ətir qabı var idi və o, bu qabdakı (ətirdən) ətirlənərdi."[1]

٢١٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا عَزْرَةُ بْنُ ثَابِتٍ، عَنْ ثُمَامَةَ بْنِ عَبْدِ اللهِ، قَالَ: كَانَ أَنَسُ بْنُ مَالِكٍ، لا يَرُدُّ الطِّيبَ، وَقَالَ أَنَسٌ: ((إِنَّ النَّبِيَّ ﷺ كَانَ لا يَرُدُّ الطِّيبَ)).

(217) ..... Sumamə ibn Abdullah demişdir: "Ənəs heç vaxt ətirdən imtina etməzdi. O deyərdi: "Peyğəmbər ﷺ heç vaxt ətirdən imtina etməzdi.[2]"[3]

٢١٨- حَدَّثَنَا قُتَيْبَةُ ، قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي فُدَيْكٍ، عَنْ عَبْدِ اللهِ بْنِ مُسْلِمِ بْنِ جُنْدُبٍ، عَنْ أَبِيهِ، عَنِ ابْنِ عُمَرَ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((ثَلاثٌ لا تُرَدُّ: الْوَسَائِدُ، وَالدُّهْنُ، وَاللَّبَنُ)).

(218) ..... İbn Ömər ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Üş şeydən imtina edilməz:[4] balışdan, ətirdən və süddən."[1]

---

[1] Bu hədisi Əbu Davud (4162) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Burada söhbət hədiyyədən gedir. Belə ki, əgər ətir Peyğəmbərə ﷺ sədəqə kimi verilsəydi, o, ətirdən imtina edərdi. Lakin səhabələr və digər sıravi müsəlmanlar üçün bunun bir aidiyyəti yoxdur. Belə ki, istər hədiyyə olsun, istərsə sədəqə, ətiri qəbul etmək sünnə hesab edilir.

[3] Bu hədisi Buxari (5585), Tirmizi (2790), Nəsai (5258) və Əhməd (3/118) rəvayət etmişdir.

[4] Adətən bu üç şey qonağa təqdim olunur. Bu üç şey, minnəti az olan hədiyyələrə aiddir ki, bunlardan imtina etmək bəyənilmir. (Tohfətul-Əhvəzi).

٢١٩- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ الْحَفَرِيُّ، عَنْ سُفْيَانَ، عَنِ الْجُرَيْرِيِّ، عَنْ أَبِي نَضْرَةَ، عَنْ رَجُلٍ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((طِيبُ الرِّجَالِ مَا ظَهَرَ رِيحُهُ، وَخَفِيَ لَوْنُهُ، وَطِيبُ النِّسَاءِ مَا ظَهَرَ لَوْنُهُ وَخَفِيَ رِيحُهُ)).

(219) ..... Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Kişi ətiri, iyi çox olması və rəngi nəzərə çarpmaması ilə,[2] qadın ətiri isə, rəngi nəzərə çarpması və iyi az olması ilə[3] seçilməlidir."[1]

---

[1] Bu hədisi Tirmizi (2791) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Səhih əl-Cami" əsərində (3046) onun "həsən" olduğunu demişdir.

[2] Buna gül suyu, müşk, ənbər, kafur və başqa bu kimi ətirlər aiddir. Yeri gəlmişkən, qeyd edək ki, kişilərə zəfəran və başqa bu kimi qadına xas ənlik-kirşandan istifadə etmək qadağandır. Bu xüsusda varid olmuş hədisdə Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ kişilərə zəfərandan ətir kimi istifadə etməyi qadağan etmişdir" (Səhih əl-Buxari, 5846); başqa bir hədisdə Əli ibn Əbu Talib ﷺ rəvayət etmişdir ki, (bir dəfə) Peyğəmbər ﷺ bir qövmün yanına gəldi. Onların arasında zəfərandan düzəldilmiş ətirlə ətirlənmiş bir kişi var idi. Peyğəmbər ﷺ onlara nəzər saldı. Sonra hamısına salam verib, (ancaq) o kişidən üz döndərdi. Kişi dedi: "Nə üçün məndən üz döndərirsən?" Peyğəmbər ﷺ dedi: "Sənin gözlərinin arasında köz vardır" (Ədəbul-Mufrəd, 1020). Demək, qadın kimi bəzənmək və qadına oxşamaq qadağandır.

[3] Mubarəkfuri demişdir: "Burada "qadın ətiri" deyildikdə, zəfəran və başqa bu kimi, qadının gözəl görünmək məqsədilə istifadə etdiyi ənlik-kirşan nəzərdə tutulur. Səd demişdir: "Alimlər Peyğəmbərin ﷺ bu sözünü belə izah etmişlər: "Qadının bu cür ətir vurmasına gəlincə,

٢٢٠- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: أَنْبَأَنَا إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ، عَنِ الْجُرَيْرِيِّ، عَنْ أَبِي نَضْرَةَ، عَنِ الطُّفَاوِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ، مِثْلَهُ بِمَعْنَاهُ.

(220) Əli ibn Hucr demişdir: "Bizə İsmail ibn İbrahim Cureyriyyədən, o da, Əbu Nədrədən, o da Tufaviyyədən, o da, Əbu Hureyrədən, o da Peyğəmbərdən ﷺ bu hədisin bənzərini mənası ilə xəbər vermişdir."

٢٢١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ خَلِيفَةَ، وَعَمْرُو بْنُ عَلِيٍّ، قَالا: حَدَّثَنَا يَزِيدُ بْنُ زُرَيْعٍ، قَالَ: حَدَّثَنَا حَجَّاجٌ الصَّوَّافُ، عَنْ حَنَانٍ، عَنْ أَبِي عُثْمَانَ النَّهْدِيِّ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((إِذَا أُعْطِيَ أَحَدُكُمُ الرَّيْحَانَ فَلا يَرُدُّهُ، فَإِنَّهُ خَرَجَ مِنَ الْجَنَّةِ)).

قَالَ أَبُو عِيسَى: وَلاَ نَعْرِفُ لِحَنَانٍ غَيْرَ هَذَا الْحَدِيثَ.

---

bu, qadının ancaq evindən bayıra çıxdığı zaman istifadə edəcəyi ətirə (yəni, iyisi olmayan ənlik-kirşana) aiddir. Öz evində isə qadın istənilən ətirlə ətirlənə bilər." Sədin bu sözünü təsdiqləmək üçün Peyğəmbərin ﷺ bu hədisini dəlil göstərmək olar: "Hər bir göz zina edir. Hansı bir qadın ətirləndikdən sonra evindən çıxıb bu ətrin iyini hiss etirmək məqsədilə bir toplumun yanından keçərsə, zina etmiş sayılar" (Sunən ət-Tirmizi, 3015; Səhih əl-Cami, 4540; Tohfətul-Əhvəzi). Demək, qadına ətirlənib bayıra çıxmaq və ya evinin içində naməhrəm kişi üçün ətirlənmək qadağandır.

[1] Bu hədisi Əbu Davud (2174), Nəsai (5117), Tirmizi (2788) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin səhih olduğunu demişdir.

(221) ..... Əbu Osman ən-Nəhdi[1] rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Birinizə reyhan (ətiri) verildikdə, ondan imtina etməsin. Çünki o, Cənnətdən çıxır."[2]

Əbu İsa (ət-Tirmizi) demişdir: "Biz Hənanın bu hədisdən başqa (bir hədis) rəvayət etdiyini bilmirik."

٢٢٢- حَدَّثَنَا عُمَرُ بْنُ إِسْمَاعِيلَ بْنِ مُجَالِدِ بْنِ سَعِيدٍ الْهَمْدَانِيُّ بِبَغْدَاد قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ بَيَانٍ، عَنْ قَيْسِ بْنِ أَبِي حَازِمٍ، عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ قَالَ: ((عُرِضْتُ بَيْنَ يَدَيْ عُمَرَ بْنِ الْخَطَّابِ، فَأَلْقَى جَرِيرٌ رِدَاءَهُ وَمَشَى فِي

---

[1] Əbu Osman Abdur-Rəhman ibn Məllə ən-Nəhdi səhabə olmasa da, muxədrəmlərə – yəni, Peyğəmbərin ﷺ zamanında İslamı qəbul etmiş, lakin onu görməmiş insanlara aiddir.

[2] Bu hədisin isnadında keçən Hənna əl-Əsədi "məqbul" ravidir. Buna görə də, bu hədisin isnadı "zəif" hesab edilir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Lakin qeyd etmək lazımdır ki, reyhan bitkisindən hazırlanmış ətirlə ətirlənməyin caiz olması, "səhih" hədisdə öz təsdiqini tapmışdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Birisinə reyhandan (düzəlmiş) ətir verilərsə, qoy bundan imtana etməsin. Çünki bu, daşınması rahat, üstəlik iyi gözəl olan *bir ətirdir*" (Səhih Muslim, 6020). Bu hədisdən belə nəticə çıxır ki, üzürlü səbəb olmadan, ətirdən imtina etmək bəyənilmir. (Şərh ən-Nəvəvi). Belə ki, ətir vurmaqda məqsəd insanın könlünü açmaq, onu sevindirmək və əhval-ruhiyyəsini qaldırmaqdır. Və əgər ətrin iyi adamın xoşuna gəlmirsə, ona həmin ətirdən vurmaq vacib deyil, yəni, ondan imtina etməsi caizdir.

إِزَارٍ، فَقَالَ لَهُ: خُذْ رِدَاءَكَ. فَقَالَ عُمَرُ لِلْقَوْمِ: ((مَا رَأَيْتُ رَجُلاً أَحْسَنَ صُورَةً مِنْ جَرِيرٍ إِلاَّ مَا بَلَغَنَا مِنْ صُورَةِ يُوسُفَ عليه السلام)).

(222) ..... Cərir ibn Abdullah[1] رضي الله عنه demişdir: "(Bir gün) mən Ömər ibn Xəttabın hüzuruna gəldim." (Ravi deyir ki,) Cərir bürüncəyini çiynindən yerə salıb (əynindəki tək bir) izarla çıxıb getdikdə, Ömər ona: "Bürüncəyini götür (çiyninə sal)"– dedi. Sonra yanındakılara dedi: "Mən Cərirdən daha yaraşıqlısını görməmişəm. Yalnız bizə məlum olan Yusufun عليه السلام gözəlliyindən başqa."[2]

[1] Əbu Amr Cərir ibn Abdullah ibn Cabir ibn Malik əl-Bəcəli رضي الله عنه Peyğəmbərin ﷺ səhabəsidir. Cərir رضي الله عنه hicrətin 54-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 108-ci tərcümeyi-hal).

[2] Bu hədisin isnadında keçən Ömər ibn İsmail ibn Mucalid "mətruk" ravidir (Təqrib ət-Təhzib). Elə bu səbəbdən də, bu hədis "zəif" sayılır. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin olduqca "zəif" olduğunu demişdir.

٣٤- بَاب كيف كان كلام رسول الله ﷺ

34-cü fəsil. Rəsulullahın ﷺ danışıq tərzinin necəliyi barədə

٢٢٣- حَدَّثَنَا حُمَيْدُ بْنُ مَسْعَدَةَ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا حُمَيْدُ بْنُ الأَسْوَدِ، عَنِ أُسَامَةَ بْنِ زَيْدٍ، عَنِ الزُّهْرِيِّ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((مَا كَانَ رَسُولُ اللهِ ﷺ يَسْرُدُ سرْدَكُمْ هَذَا، وَلَكِنَّهُ كَانَ يَتَكَلَّمُ بِكَلامٍ بَيِّنٍ فَصْلٍ، يَحْفَظُهُ مَنْ جَلَسَ إِلَيْهِ)).

(223) ..... Aişə ﵂ demişdir: "Rəsulullah ﷺ sizin kimi tələm-tələsik və qatma-qarışıq danışmazdı. Əksinə, həm aydın, həm də aramla elə danışardı ki, yanında oturanlar onun dediklərini yadda saxlayardılar."[1]

٢٢٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يَحْيَى، قَالَ: حَدَّثَنَا أَبُو قُتَيْبَةَ سَلْمُ بْنُ قُتَيْبَةَ، عَنْ عَبْدِ اللهِ بْنِ الْمُثَنَّى، عَنْ ثُمَامَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ، يُعِيدُ الْكَلِمَةَ ثَلاثًا لِتُعْقَلَ عَنْهُ)).

---

[1] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Bu hədisin bir hissəsi Buxari (3357) və Muslimin (2493) "Səhih"lərində rəvayət edilmişdir. Digər rəvayətdə Aişə ﵂ demişdir: "Peyğəmbər ﷺ elə bir tərzdə danışardı ki, onun sözlərini saymaq istəyən adam, onu saya bilərdi" (Səhih əl-Buxari, 3567).

(224) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ (bir söz söylədiyi zaman) söylədiyi başa düşülsün deyə, sözü üç kərə təkrar edərdi."[1]

٢٢٥- حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ: حَدَّثَنَا جُمَيْعُ بْنُ عُمَرَ بْنِ عَبْدِ الرَّحْمَنِ الْعِجْلِيُّ، قَالَ: أَخْبَرَنِي رَجُلٌ مِنْ بَنِي تَمِيمٍ مِنْ وَلَدِ أَبِي هَالَةَ زَوْجِ خَدِيجَةَ يُكْنَى أَبَا عَبْدِ اللهِ، عَنِ ابْنٍ لأَبِي هَالَةَ، عَنِ الْحَسَنِ بْنِ عَلِيٍّ، قَالَ: سَأَلْتُ خَالِي هِنْدُ بْنُ أَبِي هَالَةَ، وَكَانَ وَصَّافًا، فَقُلْتُ: ((صِفْ لِي مَنْطِقَ رَسُولِ اللهِ ﷺ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ مُتَوَاصِلَ الأَحْزَانِ، دَائِمَ الْفِكْرَةِ، لَيْسَتْ لَهُ رَاحَةٌ، طَوِيلُ السَّكْتِ، لا يَتَكَلَّمُ فِي غَيْرِ حَاجَةٍ، يَفْتَتِحُ الْكَلامَ، وَيَخْتِمُهُ بِاسْمِ اللهِ تَعَالَى، وَيَتَكَلَّمُ بِجَوَامِعِ الْكَلِمِ، كَلامُهُ فَصْلٌ، لا فُضُولَ، وَلا تَقْصِيرَ، لَيْسَ بِالْجَافِي، وَلا الْمُهِينِ، يُعَظِّمُ النِّعْمَةَ وَإِنْ دَقَّتْ لا يَذُمُّ مِنْهَا شَيْئًا، غَيْرَ أَنَّهُ لَمْ يَكُنْ يَذُمُّ ذَوَاقًا وَلا يَمْدَحُهُ، وَلا تُغْضِبُهُ الدُّنْيَا، وَلا مَا كَانَ لَهَا، فَإِذَا تُعُدِّيَ الْحَقُّ، لَمْ يَقُمْ لِغَضَبِهِ شَيْءٌ، حَتَّى يَنْتَصِرَ لَهُ، وَلا يَغْضَبُ لِنَفْسِهِ، وَلا يَنْتَصِرُ لَهَا، إِذَا أَشَارَ أَشَارَ بِكَفِّهِ كُلِّهَا، وَإِذَا تَعَجَّبَ قَلَبَهَا، وَإِذَا تَحَدَّثَ اتَّصَلَ بِهَا، وَضَرَبَ بِرَاحَتِهِ الْيُمْنَى بَطْنَ إِبْهَامِهِ الْيُسْرَى، وَإِذَا غَضِبَ أَعْرَضَ وَأَشَاحَ، وَإِذَا فَرِحَ غَضَّ طَرْفَهُ، جُلُّ ضَحِكِهِ التَّبَسُّمُ، يَفْتَرُّ عَنْ مِثْلِ حَبِّ الْغَمَامِ)).

[1] Bu hədisi Buxari (5890), Tirmizi (3644) və Əhməd (3/213) rəvayət etmişdir.

(225) ..... Həsən ibn Əli رضي الله عنهما demişdir:[1] "Mən *gördüyü kimsəni* vəsf etməyi bacaran, dayım Hind ibn Əbu Haləyə dedim: "Rəsulullahın ﷺ necə danışdığını mənə vəsf et." O dedi: "Rəsulullah ﷺ həmişə kədərli,[2] daim (Allahın yaratdıqları barədə) düşünən bir adam idi[3] və heç vaxt rahatlığı olmazdı. Çox vaxt susar və ancaq lazım gəldikdə danışardı.[4] Nitqini Uca Allahın adı ilə başlayar və (Onun

---

[1] Bu hədis əvvəldə keçən 8-ci hədisin bir hissəsidir. Həmin hədisin isnadı barədə danışarkən, onun "olduqca zəif" olduğunu qeyd etmişdik. O hədisin qeydlərinə bax.

[2] Bu, yanlış sözdür və neçə-neçə "səhih" rəvayətlərə ziddir. Bu xüsusda İbn Qeyyim demişdir: "Hind ibn Əbu Halənin Peyğəmbərin ﷺ vəsfi barədə rəvayət etdiyi hədisə – onun həmişə kədərli olduğuna gəlincə, bu hədis "səhih" deyil, isnadında "məchul" ravilər vardır. Hansı əsasla demək olar ki, Peyğəmbər ﷺ həmişə kədərli olmuşdur?! Halbuki Allah onu dünyəvi kədərdən və bu kədəri gətirən bütün səbəblərdən qorumuş, habelə, kafirlərin etdikləri əməllərə görə kədərlənməməyi buyurmuş (ən-Nəml, 70), üstəlik onun keçmiş və gələcək xətalarını bağışlamışdır. Belə isə, bu qəm-kədər ona haradan gələ bilərdi ki?! Əksinə, o, daim nikbin və gülərüz olmuşdur" (Mədaric əs-Salikin, 1/506-507).

[3] Muhəmməd peyğəmbər ﷺ öz üzərinə düşən peyğəmbərlik vəzivəsinin məsuliyyətindən dolayı həmişə narahat olar və bu vəzifəni layiqincə yerinə yetirmək üçün əlindən gələni edərdi.

[4] Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun" (Səhih əl-Buxari, 6018); digər bir hədisdə demişdir: "Kim susarsa, nicat tapar" (Sunən ət-Tirmizi, 2/82; Silsilətul-Əhadisis-Səhihə, 536); başqa bir hədisdə də belə buyurmuşdur: "Hər kim mənə iki çənəsi arasındakını və iki budu arasındakını qoruyacağına zəmanət verərsə, mən onun Cənnətə *girəcəyinə* zəmanət verərəm" (Səhih əl-Buxari, 6474).

adı ilə) bitirərdi.[1] Yığcam kəlmələrlə danışar[2] və dediyi sözləri aydın tələffüz edərdi.[3] (Bu sözlər) nə uzun (yorucu), nə də ki qısa (faydasız) olardı. Özü də, nə kobudluq edər, nə də (bir kimsənin) mənliyinə toxunardı.[4] (Allahın verdiyi) nemət az olduğu təqdirdə belə, onu

---

[1] Yəni, "Bismilləhir-Rəhmanir-Rəhim", yaxud "İnnəl-həmdə lilləh" və ya buna bənzər kəlmələrlə sözünə başlayar, "subhanəkəllahummə və bihəmdik" və ya bu kimi kəlmələrlə sözünü bitirərdi.

[2] Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Mən yığcam kəlmələrlə *peyğəmbər* göndərildim" (Səhih əl-Buxari, 2977). Burada "yığcam kəlmələr" deyildikdə Quran və hədis nəzərdə tutulur. Bu, Uca Allahın Öz Kitabında cəm etdiyi kəlmələr, habelə Peyğəmbərimizin ﷺ hədislərində varid olan yığcam, lakin çoxmənalı kəlmələridir" (Şərhu-Səhih-Muslim, 2/280). Peyğəmbərimizin ﷺ hədislərini şərh etmiş alimlərin kitablarına nəzər salsaq görərik ki, bu şərhçilər hər hansı bir hədisin bir cümləsindən, hətta bir kəlməsindən neçə-neçə nəticələr çıxarmışlar.

[3] Bu cümlə 223-cü hədisdə öz təsdiqini tapmışdır.

[4] Uca Allah bu xüsusda buyurur: **"Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar"** (Ali-İmran, 159). Həmçinin, Peyğəmbər ﷺ barədə varid olmuş aşağıdakı hədislərə nəzər salsaq, onun necə əxlaq sahibi olduğunu görərik:

- Abdullah ibn Amr رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ ədəbsiz və kobud olmamışdır. O deyərdi: "Sizin ən xeyirliniz, əxlaqı ən gözəl olanınızdır!" (Səhih əl-Buxari, 3559);

- Ənəs ibn Malik رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ nə söyüş söyən, nə ədəbsizlik edən, nə də lənət oxuyan *bir adam* olmuşdur. Birimizi tənbeh edərkən deyərdi: "Ona nə olub?! Alnı yerə sürtülsün" (Səhih əl-Buxari, 6031);

- Ənəs رضي الله عنه demişdir: "Mən on il Peyğəmbərə ﷺ xidmət etdim, bir dəfə də olsun o, mənə nə "uf!", nə "niyə belə etmisən?", nə də "niyə belə etməmisən?"– dedi" (Səhih əl-Buxari, 6037).

dəyərləndirər və onu əsla məzəmmət etməzdi.[1] Yeməyi də nə pisləyər,[2] nə də tərifləyərdi.[3] Nə bu dünya, nə də dünyaya aid işlər onu əsla qəzəbləndirməzdi. (Allahın qoyduğu) qanunlar pozulduğu təqdirdə isə, haqqı bərqərar edənədək, heç bir şey onun qəzəbinin qabağını ala bilməzdi.[4] O, əsla öz nəfsinə görə qəzəblənməz və buna görə (heç kəsdən) intiqam almazdı.[5] Əli ilə işarə etdiyi zaman tam şəkildə işarə edərdi.[6] (Bir şeyə) təəccüb etdikdə

---

[1] 173-cü hədisə bax.

[2] Əbu Hureyrə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ heç vaxt, heç bir yeməyi pisləməzdi. Yemək xoşuna gəldikdə, onu yeyər, əks halda isə onu tərk edərdi" (Səhih əl-Buxari, 3563).

[3] Yəni, vaxtını hər hansı bir yeməyi və ya içkini tərifləməyə sərf etməz və qəlbini buna bağlamazdı.

[4] 112-113-cü hədislərə və onların qeydlərinə bax.

[5] Səhih hədisdə Aişə ؓ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ öz nəfsinə görə heç kəsdən intiqam almamışdır. Yalnız Uca Allahın qoyduğu qanunlar pozulduqda, qüdrətli və əzəmətli Allaha görə intiqam alardı" (Ədəbul-Mufrəd, 274); digər bir hədisdə Əbu Hureyrə ؓ rəvayət etmişdir ki, *bir dəfə* bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib ondan borcunu tələb etməyə başladı və onunla kobud danışdı. Peyğəmbərin ﷺ səhabələri ona qulaqburması vermək istədikdə, Peyğəmbər ﷺ buyurdu: "Dəyməyin ona! Həqiqətən, borc yiyəsinin danışmağa haqqı var." Sonra əlavə edib dedi: "Ona dəvəsi yaşında olan bir dəvə verin!" Səhabələr dedilər: "Ya Rəsulullah, bizdə olan dəvə onun dəvəsindən yaşlıdır." Peyğəmbər ﷺ buyurdu: "*Bunu* ona verin! Həqiqətən, sizin ən xeyirliniz, *borcunu* ən gözəl şəkildə ödəyəninizdir" (Səhih əl-Buxari, 2306).

[6] Bu, heç də o demək deyil ki, Peyğəmbər ﷺ yalnız bu şəkildə işarə etmişdir. Belə ki, "səhih" hədislərdə onun bir və ya daha çox barmaqla işarə etdiyi varid olmuşdur. Səhl ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ orta barmağıyla işarə barmağını yan-yana azacıq aralı

əlini çevirər,[1] danışdıqda isə əlini (o yan-bu yana) hərəkət etdirərdi. (Hərdən) sağ əlinin içini sol əlinin baş barmağına vurardı.[2] Birisinə acığı tutduğu zaman ondan üz çevirər və narazılığını (ona) hiss etdirərdi.[3] Sevindiyi zaman gözlərini yumardı.[4] Çox vaxt təbəssüm[5] edərək gülər (və gülərkən ön dişləri) dolu[6] tək bərq vurardı."

---

tutub demişdir: "Mən və yetimin himayədarı Cənnətdə *bu iki barmaq kimi* olacağıq" (Səhih əl-Buxari, 5304); digər hədisdə də belə buyurmuşdur: "Yetkinlik yaşlarınadək iki qız uşağının qayğısına qalan kimsə, Cənnətdə mənimlə birlikdə bu iki barmaq kimi olacaq"– deyib orta barmağıyla işarə barmağını birləşdirdi" (Ədəbul-Mufrəd, 894).

[1] Yəni, əlinin üstünü altına və ya altını üstünə çevirərdi.

[2] Hərəvi demişdir: "Bu, ərəblərin adəti idi" (Cəmul-Vəsail fi Şərhiş-Şəmail).

[3] Əbu Səid əl-Xudri ؓ rəvayət edir ki, (bir dəfə) Nəcrandan bir nəfər Rəsulullahın ﷺ yanına gəldi. Onun barmağında qızıl üzük var idi. Rəsulullah ﷺ ondan üz çevirdi. (Sonra o adam ondan bunun səbəbini soruşduqda) Rəsulullah ﷺ dedi: "Sən mənim yanıma gəldikdə, əlində bir parça köz var idi" (Sunən ən-Nəsai, 5188; Səhih ət-Tərğib vət-Tərhib, 2061). Həmçinin, 219-cu hədisin qeydlərinə bax.

[4] Hərəvi demişdir: "Bu, Rəsulullahın ﷺ təvazökarlığına dəlalət edir" (Cəmul-Vəsail fi Şərhiş-Şəmail).

[5] Bundan aydın olur ki, Rəsulullah ﷺ çox vaxt təbəssüm edər, hərdən də gülərdi. Müəllifin növbəti fəsildə gətirdiyi hədislərdə bu, öz təsdiqini tapmışdır. Lakin qeyd etmək lazımdır ki, Rəsulullah ﷺ güldükdə, damağı görünməzdi. Yəni, o, heç vaxt qəhqəhə çəkməzdi.

[6] Dolu: havada donub tökülən yağmur dənələri.

٣٥- بَاب ما جاء في ضحك رسول الله ﷺ

35-ci fəsil. Rəsulullahın ﷺ gülməyi barədə varid olanlar

٢٢٦- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا عَبَّادُ بْنُ الْعَوَّامِ، قَالَ: أَخْبَرَنَا الْحَجَّاجُ وَهُوَ ابْنُ أَرْطَاةَ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، عَنْ جَابِرِ بْنِ سَمُرَةَ، قَالَ: ((كَانَ فِي سَاقَيْ رَسُولِ اللهِ ﷺ، حُمُوشَةٌ، وَكَانَ لا يَضْحَكُ إلا تَبَسُّمًا، فَكُنْتُ إِذَا نَظَرْتُ إِلَيْهِ، قُلْتُ: أَكْحَلُ الْعَيْنَيْنِ، وَلَيْسَ بِأَكْحَلَ)).

(226) ..... Cabir ibn Səmurə ﷺ demişdir: "Rəsulullahın ﷺ baldırları nazik idi. (Çox vaxt) onun gülməyi ancaq təbəssüm etmək olardı. Mən ona baxarkən (öz-özümə) deyərdim: "(Deyəsən,) gözləri sürməlidir,[1] halbuki gözləri sürməli deyildi."[2]

٢٢٧- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: أَخْبَرَنَا ابْنُ لَهِيعَةَ، عَنْ عُبَيْدِ اللهِ بْنِ الْمُغِيرَةِ، عَنْ عَبْدِ اللهِ بْنِ الْحَارِثِ بْنِ جَزْءٍ، أَنَّهُ قَالَ: ((مَا رَأَيْتُ أَحَدًا أَكْثَرَ تَبَسُّمًا مِنْ رَسُولِ اللهِ ﷺ)).

---

[1] Yəni, kirpiklərinin dibi xilqətcə qara rəngə çalırdı. Beyhəqinin "Dəlail" əsərində (1/212) rəvayət edilir ki, Əbu Hureyrə ﷺ demişdir: "(Peyğəmbərin ﷺ) gözləri (xilqətcə) sürməli idi." Bu hədisi Muhəmməd Nasirəddin əl-Albani "həsən" hesab etmişdir (Səhih əl-Cami, 4633).

[2] Bu hədisi Tirmizi (4006) rəvayət etmişdir. İsnadında keçən Həccac ibn Ərtat "çoxlu xətalara yol vermiş" ravidir (Təqrib ət-Təhzib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

(227) ..... Abdullah ibn Haris ibn Cəz ﷺ demişdir: "Mən Rəsulullahdan ﷺ daha çox təbəssüm edən bir kimsə görməmişəm."[1]

٢٢٨- حَدَّثَنَا أَحْمَدُ بْنُ خَالِدٍ الْخَلالُ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ إِسْحَاقَ السَّيْلَحَانِيُّ، قَالَ: حَدَّثَنَا لَيْثُ بْنُ سَعْدٍ، عَنْ يَزِيدَ بْنِ أَبِي حَبِيبٍ، عَنْ عَبْدِ اللهِ بْنِ الْحَارِثِ، قَالَ: ((مَا كَانَ ضَحِكُ رَسُولِ اللهِ ﷺ إِلا تَبَسُّمًا)).

قَالَ أَبُو عِيسَى: هَذَا حَدِيثٌ غَرِيبٌ مِنْ حَدِيثِ لَيْثِ بْنِ سَعْدٍ.

(228) ..... Abdullah ibn Haris ﷺ demişdir: "Rəsulullahın ﷺ gülməyi ancaq təbəssüm etmək olardı."[2]

Əbu İsa (ət-Tirmizi) demişdir: "Bu, Leys ibn Sədin rəvayət etdiyi qərib hədislərdəndir."

٢٢٩- حَدَّثَنَا أَبُو عَمَّارٍ الْحُسَيْنُ بْنُ حُرَيْثٍ، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، قَالَ: حَدَّثَنَا الأَعْمَشُ، عَنِ الْمَعْرُورِ بْنِ سُوَيْدٍ، عَنْ أَبِي ذَرٍّ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ:((إِنِّي لأَعْلَمُ أَوَّلَ رَجُلٍ يَدْخُلُ الْجَنَّةَ، وَآخَرَ رَجُلٍ يَخْرُجُ مِنَ النَّارِ، يُؤْتَى بِالرَّجُلِ يَوْمَ الْقِيَامَةِ))، فَيُقَالُ: ((اعْرِضُوا عَلَيْهِ صِغَارَ ذُنُوبِهِ وَيُخَبَّأُ عَنْهُ كِبَارُهَا))، فَيُقَالُ لَهُ: ((عَمِلْتَ يَوْمَ كَذَا وَكَذَا، كَذَا وَ كَذَا، وَهُوَ مُقِرٌّ، لا

---

[1] Bu hədisi Tirmizi (3645) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

يُنْكِرُ، وَهُوَ مُشْفِقٌ مِنْ كِبَارِهَا))، فَيُقَالُ: ((أَعْطُوهُ مَكَانَ كُلِّ سَيِّئَةٍ عَمِلَهَا حَسَنَةً))، فَيَقُولُ: ((إِنَّ لِي ذُنُوبًا مَا أَرَاهَا هَاهُنَا)).

قَالَ أَبُو ذَرٍّ: ((فَلَقَدْ رَأَيْتُ رَسُولَ اللهِ ﷺ، ضَحِكَ حَتَّى بَدَتْ نَوَاجِذُهُ)).

(229) ..... Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mən cənnətliklərdən Cənnətə ilk[1] daxil olacaq və cəhənnəmliklərdən də Cəhənnəmdən son çıxacaq[2] kimsəni tanıyıram.[3] Bu o kimsədir ki, Qiyamət günü

---

[1] Burada "ilk" kəlməsi yanlışdır. Əslində burada "son" kəlməsi olmalıdır, yəni, "cənnətliklərdən Cənnətə son girəcək." İmam Muslimin "Səhih"ində də bu cür rəvayət edilmişdir. Üstəlik, bu ləfz, ilk əvvəl Cənnətə girəcək kimsənin Peyğəmbərimiz ﷺ olacağı barədə varid olmuş "səhih" hədislərə ziddir. Həmin hədislərdən birində Peyğəmbər ﷺ demişdir: "Mən Qiyamət günü Cənnət qapısının yanına gəlib onun açılmasını xahiş edəcəyəm. Bu vaxt gözətçi: "Sən kimsən?"– deyə soruşacaq. Mən: "Muhəmmədəm"– deyə cavab verəcəyəm. *Bunu eşidəndə,* o deyəcək: "Mənə *bu qapıları* səndən əvvəl heç bir kəsə açmamaq, yalnız sənin üçün açmaq əmr edilmişdir" (Səhih Muslim, 486).

[2] Bu, o deməkdir ki, ondan əvvəl də Cəhənnəmdən çıxanlar olacaq. Onların hamısı Allahın mərhəməti sayəsində zaman-zaman oradan çıxarılacaqlar.

[3] Bu kimsə Cəhənnəmdən çıxdıqdan sonra yerdə qalanlar heç vaxt oradan çıxmayacaqlar. Uca Allah onlar barədə belə buyurur: " **Kafirləri isə Cəhənnəm odu gözləyir. Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu odun əzabı *onlar üçün* yüngülləşdirilər. Biz hər bir kafiri belə cəzalandırırıq. Onlar orada fəryad qoparıb yalvaracaqlar: "Ey Rəbbimiz! Bizi *buradan* çıxart ki, *əvvəllər* etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək". *Onlara deyiləcək:***

(məhşərə) gətiriləcək və: "Kiçik günahlarını ona göstərin, böyük günahlarını isə ondan gizlədin"– deyiləcək. Sonra (ona kiçik günahları göstəriləcək və) ona belə deyiləcək: "Sən filan gün, filan gün filan və filan işləri görmüsən." O, (günahını) boynuna alacaq və (bunlardan heç birini) inkar edə bilməyəcək. (Həmin an) o, böyük günahlarının ona ərz edilməsindən ehtiyat edəcək. Bu vaxt ona belə buyurulacaq: "Onun etdiyi hər bir günahını bir savabla əvəz edin."[1] Bundan sonra o deyəcək: "(Ey Rəbbim!) Mən bir çox (günah) işlər görmüşəm ki, onları burada görmürəm."

"Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən *Peyğəmbər* də gəlmişdi. Elə isə dadın *əzabı!* Zalımlara kömək edən olmaz" (Fatir, 36-37); **"Onlar *Cəhənnəm gözətçisini* çağırıb deyəcəklər: "Ey Malik! Qoy Rəbbin canımızı alıb qurtarsın!" O isə: "Siz *burada* əbədi qalacaqsınız!"– deyəcək"** (əz-Zuxruf, 77)

[1] Demək, adam Cəhənnəm odunda günahlarından təmizləndikdən sonra keçmiş günahlarının hamısı savabla əvəz olur. Həmçinin, adam tutduğu işdən peşman olub tövbə etdikdən və mömin olduğu halda, yaxşı işlər gördükdən sonra da, Allah onun bir zaman etdiyi günahları savaba çevirir. Bu xüsusda Mərhəmətli və Rəhmli Allah belə buyurur: **"Mərhəmətli *Allahın* qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara *xoşagəlməz* bir söz dedikdə: "Salam!"- deyərlər. Onlar gecələrini Rəbbi üçün səcdədə və qiyamda keçirərlər. Onlar deyərlər: "Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən uzaq elə. Doğrusu, onun əzabı həmişəlikdir. Həqiqətən, ora nə pis məskən, necə də pis iqamətgahdır!" Onlar *mallarını* xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar. Onlar Allahla yanaşı başqa məbuda yalvarmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina**

Əbu Zərr dedi: "Mən Rəsulullahın ﷺ arxa dişləri görünənədək güldüyünü gördüm."[1]

---

etməzlər. Bunu edən kimsə cəzalandırılar. Qiyamət günü onun əzabı qat-qat artırılar və onun içində zəlil olub əbədi qalar. Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis əməllərini yaxşı əməllərlə əvəz edər. Allah Bağışlayandır, Rəhmlidir!" (əl-Furqan, 63-70)

[1] Bu hədisi Muslim (190), Tirmizi (2599) və Əhməd (5/157) rəvayət etmişdir. Bu hədisdə həmin adamın Cəhənnəmdən necə çıxdığı və Cənnətə necə daxil olduğu vəsf olunmur. Lakin Muslimin "Səhih"ində (463) bu xüsusda maraqlı bir hədis varid edilmişdir. Həmin hədisdə İbn Məsud rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Cənnətə girənlərin sonuncusu o kimsə olacaq ki, o, *körpüdən keçərkən* gah yeriyəcək, gah üzüqoylu yerə yıxılacaq, gah da Cəhənnəm alovu onun üzünə çırpılacaq. Nəhayət, Cəhənnəmi ötüb-keçdiyi zaman ona tərəf çevrilib deyəcək: "Məni səndən xilas edən Allah nə qədər Uludur! O, əvvəlkilərdən və sonrakılardan heç kəsə vermədiyini mənə vermişdir." Sonra ona bir ağac göstəriləcək. Onda həmin adam deyəcək: "Ey Rəbbim! Məni bu ağaca yaxınlaşdır, onun kölgəsində kölgələnim, suyundan içim." İzzətli və Qüdrətli Allah buyuracaq: "Ey Adəm oğlu! Əgər bu istədiyini sənə versəm, yəqin ki, daha artığını istəyəcəksən." O: "Yox, *istəmərəm*, ey Rəbbim"– deyəcək və Allahdan bundan başqa *heç nə* istəməyəcəyinə dair Ona söz verəcək. Rəbbi onun bu nemətə qarşı səbirsiz olduğunu yəqin bildiyindən, onu üzürlü sayacaq və onu bu ağaca yaxınlaşdıracaq. Adam *bir müddət* bu ağacın kölgəsində kölgələnəcək və onun suyundan içəcəkdir. Sonra ona əvvəlkindən daha gözəl bir ağac göstəriləcək. Onda, o deyəcək: "Ey Rəbbim! Məni bu ağaca yaxınlaşdır, onun suyundan içim, kölgəsində kölgələnim. Səndən bundan başqa bir şey istəməyəcəyəm." Allah buyuracaq: "Ey Adəm oğlu! Məgər, sən bundan başqa bir şey istəməyəcəyinə dair Mənə söz verməmişdinmi?! Əgər səni ona yaxınlaşdırsam, yəqin ki, daha artığını istəyəcəksən." Onda, o, bundan başqa *heç nə*

٢٣٠- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ بْنُ عَمْرٍو، قَالَ: حَدَّثَنَا زَائِدَةُ، عَنْ بَيَانٍ، عَنْ قَيْسِ بْنِ أَبِي حَازِمٍ، عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللهِ، قَالَ: ((مَا حَجَبَنِي رَسُولُ اللهِ ﷺ مُنْذُ أَسْلَمْتُ، وَلا رَآنِي إِلا ضَحِكَ)).

---

istəməyəcəyinə dair Allaha söz verəcək. Rəbbi onun bu nemətə qarşı səbirsiz olduğunu yəqin bildiyindən, onu üzürlü sayacaq və onu bu ağaca yaxınlaşdıracaq. Adam *bir müddət* bu ağacın kölgəsində kölgələnəcək və onun suyundan içəcəkdir. Sonra ona Cənnət qapısının yanında, əvvəlkilərdən daha gözəl bir ağac göstəriləcək. Onda, o deyəcək: "Ey Rəbbim! Məni bu ağaca yaxınlaşdır, onun kölgəsində kölgələnim, suyundan içim. Səndən bundan başqa bir şey istəməyəcəyəm." Allah buyuracaq: "Ey Adəm oğlu! Məgər, sən bundan başqa bir şey istəməyəcəyinə dair Mənə söz verməmişdinmi?!" O deyəcək: "Elədir, ey Rəbbim! Bunu da *ver*, Səndən daha heç nə istəməyəcəyəm." Rəbbi onun bu nemətə qarşı səbirsiz olduğunu yəqin bildiyindən, onu üzürlü sayacaq və onu bu ağaca yaxınlaşdıracaq. O, bu ağaca yaxınlaşdığı və Cənnət əhlinin səsini eşitdiyi zaman: "Ey Rəbbim, Məni oraya daxil et!"– deyə yalvaracaq. Allah buyuracaq: "Ey Adəm oğlu! İstəklərinə son qoyacaqsanmı?! Sənə *orada* dünya və onun misli qədər *yer* versəm, razı qalarsanmı?" O deyəcək: "Ey Rəbbim! Sən aləmlərin Rəbbi olduğun halda, mənə istehzamı edirsən?"

Bunu deyəndə İbn Məsud güldü və *oradakılardan*: "Nə üçün gülməyimin səbəbini soruşmursunuz?"– deyə soruşdu. Onlar: "Niyə güldün?"– deyə soruşdular. İbn Məsud dedi: "Rəsulullah ﷺ belə güldü və *səhabələr ondan*: "Niyə güldün, ya Rəsulullah?"– deyə soruşduqda, o, belə buyurdu: "Bu adamın: Sən aləmlərin Rəbbi olduğun halda, mənə istehzamı edirsən?"– dediyi vaxt aləmlərin Rəbbinin gülməyinə güldüm."

Sonra Allah buyurdu: "Mən sənə istehza etmirəm, lakin Mən istədiyimi etməyə qadirəm."

(230) ..... Cərir ibn Abdullah ﷺ demişdir: "Mən İslamı qəbul etdiyim gündən Rəsulullah ﷺ heç vaxt mənə öz məclisində iştirak etməyi qadağan etməz və həmişə üzümə gülümsəyərdi."[1]

٢٣١- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ بْنُ عَمْرٍو، قَالَ: حَدَّثَنَا زَائِدَةُ، عَنِ إِسْمَاعِيلَ بْنِ أَبِي خَالِدٍ، عَنْ قَيْسٍ، عَنْ جَرِيرٍ، قَالَ: ((مَا حَجَبَنِي رَسُولُ اللهِ ﷺ، وَلا رَآنِي مُنْذُ أَسْلَمْتُ إِلا تَبَسَّمَ)).

(231) ..... Cərir ﷺ demişdir: "Mən İslamı qəbul etdiyim gündən Rəsulullah ﷺ heç vaxt mənə öz məclisində iştirak etməyi qadağan etməz və həmişə məni təbəssümlə qarşılayardı."[2]

٢٣٢- حَدَّثَنَا هَنَّادُ بْنُ السَّرِيِّ، قَالَ: حَدَّثَنَا أَبُو مُعَاوِيَةَ، عَنِ الأَعْمَشِ، عَنْ إِبْرَاهِيمَ، عَنْ عَبِيدَةَ السَّلْمَانِيِّ، عَنْ عَبْدِ اللهِ بْنِ مَسْعُودٍ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((إِنِّي لأَعْرِفُ آخِرَ أَهْلِ النَّارِ خُرُوجًا، رَجُلٌ يَخْرُجُ مِنْهَا زَحْفًا، فَيُقَالُ لَهُ: انْطَلِقْ فَادْخُلِ الْجَنَّةَ، قَالَ: فَيَذْهَبُ لِيَدْخُلَ الْجَنَّةَ، فَيَجِدُ النَّاسَ قَدْ أَخَذُوا الْمَنَازِلَ، فَيَرْجِعُ فَيَقُولُ: يَا رَبِّ، قَدْ أَخَذَ النَّاسُ الْمَنَازِلَ، فَيُقَالُ لَهُ: أَتَذْكُرُ الزَّمَانَ الَّذِي كُنْتَ فِيهِ، فَيَقُولُ: نَعَمْ، قَالَ: فَيُقَالُ لَهُ: تَمَنَّ، قَالَ: فَيَتَمَنَّى، فَيُقَالُ لَهُ: فَإِنَّ لَكَ الَّذِي تَمَنَّيْتَ وَعَشَرَةَ أَضْعَافِ الدُّنْيَا، قَالَ: فَيَقُولُ: تَسْخَرُ

---

[1] Bu hədisi Buxari (2881), Muslim (2475), Tirmizi (3822), İbn Macə (159) və Əhməd (4/358) rəvayət etmişdir.

[2] Öncəki hədisin qeydlərinə bax.

بِي وَأَنْتَ الْمَلِكُ قَالَ: فَلَقَدْ رَأَيْتُ رَسُولَ اللهِ ﷺ، ضَحِكَ، حَتَّى بَدَتْ نَوَاجِذُهُ)).

(232) ..... Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mən, cəhənnəmliklərdən[1] Cəhənnəmdən son çıxacaq kimsəni tanıyıram. O kimsə ki, yanı üstə sürünə-sürünə Cəhənnəmdən çıxacaq və ona: "Get, Cənnətə gir!"– deyə buyurulacaq. Bu adam gedib Cənnətə girəcək və görəcək ki, insanlar artıq öz yerlərini tutmuşlar. Onda adam geri dönəcək və "Ey Rəbbim! İnsanlar artıq öz yerlərini tutmuşlar"– deyəcək. Bu vaxt ona deyiləcək: "(Dünyada) keçirdiyin vaxtları xatırlayırsanmı?" O: "Bəli!"– deyə cavab verəcək. Ona: "Təmənna et!"– deyiləcək, o da təmənna edəcəkdir. Sonra ona: "Təmənna etdiyin və dünyanın on qatı qədər (yer) sənindir"– deyiləcək. Onda bu adam deyəcək: "Sən Hökmdar ola-ola, mənə lağ edirsən?"

(Abdullah dedi): "Mən Peyğəmbərin ﷺ arxa dişləri görünənədək güldüyünü gördüm."[2]

٢٣٣- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا أَبُو الأَحْوَصِ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ عَلِيِّ بْنِ رَبِيعَةَ، قَالَ: ((شَهِدْتُ عَلِيًّا، أُتِيَ بِدَابَّةٍ لِيَرْكَبَهَا فَلَمَّا وَضَعَ رِجْلَهُ فِي الرِّكَابِ، قَالَ: بِسْمِ اللهِ، فَلَمَّا اسْتَوَى عَلَى ظَهْرِهَا، قَالَ: الْحَمْدُ

[1] Yəni, asi möminlərdən.

[2] Bu hədisi Buxari (6202), Muslim (186), Tirmizi (2598), İbn Macə (4339) və Əhməd (1/378-379) rəvayət etmişdir.

لِلَّهِ، ثُمَّ قَالَ: سُبْحَانَ الَّذِي سَخَّرَ لَنَا هَذَا وَمَا كُنَّا لَهُ مُقْرِنِينَ وَإِنَّا إِلَى رَبِّنَا لَمُنْقَلِبُونَ، ثُمَّ قَالَ: الْحَمْدُ لِلَّهِ ثَلاثًا، وَاللَّهُ أَكْبَرُ ثَلاثًا، سُبْحَانَكَ إِنِّي ظَلَمْتُ نَفْسِي، فَاغْفِرْ لِي فَإِنَّهُ لا يَغْفِرُ الذُّنُوبَ إِلا أَنْتَ، ثُمَّ ضَحِكَ فَقُلْتُ: ((مِنْ أَيِّ شَيْءٍ ضَحِكْتَ يَا أَمِيرَ الْمُؤْمِنِينَ؟)) قَالَ: ((رَأَيْتُ رَسُولَ اللهِ ﷺ صَنَعَ كَمَا صَنَعْتُ ثُمَّ ضَحِكَ، فَقُلْتُ: مِنْ أَيِّ شَيْءٍ ضَحِكْتَ يَا رَسُولَ اللهِ؟)) قَالَ: ((إِنَّ رَبَّكَ لَيَعْجَبُ مِنْ عَبْدِهِ، إِذَا قَالَ: رَبِّ اغْفِرْ لِي ذُنُوبِي، يَعْلَمُ أَنَّهُ لا يَغْفِرُ الذُّنُوبَ أَحَدٌ غَيْرُهُ)).

(233) ..... Əli ibn Rəbiə demişdir: "(Bir dəfə) mən Əlinin yanında ikən, ona bir minik heyvanı gətirdilər. O, ayağını üzəngiyə[1] qoyub: "Bismilləh[2]"– dedi (və heyvanın belinə qalxdı). Nəhayət, miniyin üstündə qərar tutduqda: "Əlhəmdulilləh[3]"– dedi, sonra da belə dua etdi: "Subhanəl-ləzi səxxara lənə həzə və mə kunnə ləhu muqrinin. Və innə ilə Rabbinə ləmunqalibun." [4] Sonra üç dəfə "Əlhəmdulilləh" və üç dəfə "Allahu Əkbər"[5]– dedi. Sonra davam edib dedi: "Subhanəkə inni zaləmtu nəfsi fəğfir li,

[1] Üzəngi: süvarinin ayağını dirəməsi üçün yəhərin iki tərəfindən asılı, altı düz dəmir halqalardan hər biri.

[2] Allahın adı ilə!

[3] Allaha həmd olsun!

[4] **"Bunu bizə tabe edən Allah pak və müqəddəsdir. Yoxsa bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq!"** (əz-Zuxruf, 13-14).

[5] Allah ən Böyükdür!

fə innəhu lə yəğfiruz-zunubə illə ənt.”[1] Sonra o güldü. Mən dedim: “Nəyə güldün, ey möminlərin əmiri?” O dedi: “Mən Rəsulullahın ﷺ mənim kimi (minik heyvanına minib dua) etdiyini, sonra da güldüyünü gördüm və (ondan): “Nə üçün güldün, ya Rəsulullah?”– deyə soruşdum. O da, belə buyurdu: “Sənin Rəbbin Öz bəndəsinin: “Rabbi-ğfir li zunubi”[2] – deməsinə, (Özünə layiq tərzdə) təəccüb edir. Bəndəsi də bilir ki, Rəbbindən başqa heç kəs bu günahları bağışlaya bilməz.”[3]

٢٣٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ اللهِ الأَنْصَارِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَوْنٍ، عَنْ مُحَمَّدِ بْنِ مُحَمَّدِ بْنِ الأَسْوَدِ، عَنْ عَامِرِ بْنِ سَعْدٍ، قَالَ: قَالَ سَعْدٌ: ((لَقَدْ رَأَيْتُ النَّبِيَّ ﷺ، ضَحِكَ يَوْمَ الْخَنْدَقِ حَتَّى بَدَتْ نَوَاجِذُهُ)) قَالَ: قُلْتُ: ((كَيْفَ كَانَ؟)) قَالَ: ((كَانَ رَجُلٌ مَعَهُ تُرْسٌ، وَكَانَ سَعْدٌ رَامِيًا، وَكَانَ يَقُولُ كَذَا وَكَذَا بِالتُّرْسِ يُغَطِّي جَبْهَتَهُ، فَنَزَعَ لَهُ سَعْدٌ بِسَهْمٍ، فَلَمَّا رَفَعَ رَأْسَهُ رَمَاهُ فَلَمْ يُخْطِئْ هَذِهِ مِنْهُ يَعْنِي جَبْهَتَهُ وَانْقَلَبَ الرَّجُلُ، وَشَالَ بِرِجْلِهِ: فَضَحِكَ النَّبِيُّ ﷺ حَتَّى بَدَتْ نَوَاجِذُهُ)) قَالَ: قُلْتُ: ((مِنْ أَيِّ شَيْءٍ ضَحِكَ؟)) قَالَ: ((مِنْ فِعْلِهِ بِالرَّجُلِ)).

(234) ..... Amir ibn Səd rəvayət edir ki, Səd (ibn Əbu Vəqqas) ﷺ demişdir: “Xəndək günü[4] mən Peyğəmbərin ﷺ

---

[1] Sən pak və müqəddəssən! Mən özümə zülm etdim. Məni bağışla! Şübhəsiz ki, günahları ancaq Sən bağışlayırsan!

[2] Ey Rəbbim, günahlarımı bağışla!

[3] Bu hədisi Əbu Davud (2602), Tirmizi (3443), Əhməd (1/98) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

[4] Yəni, Əhzab döyüşündə.

arxa dişləri görünənədək güldüyünü gördüm.” Mən (Səddən): “O, nə üçün güldü?”– deyə soruşdum. O dedi: “(Döyüş əsnasında kafirlərdən) birinin əlində qalxan var idi. Səd də oxla (kafirləri) vururdu. (Bu kafir) alnını (atılan oxlardan) qorumaq üçün əlindəki qalxanı o yan-bu yana yellədirdi. Səd onu vurmaq üçün (ox qabındaq) bir ox çıxartdı (və oxu yaya qoyub hazır durdu). Kafir başını yuxarı qaldırdıqda, Səd oxu atdı və ox gedib onun alnına batdı. (Ox ona dəyən kimi) o, arxası üstə yerə yıxıldı, ayaqları da göyə qalxdı. Onda Peyğəmbər ﷺ arxa dişləri görünənədək güldü.” Mən (Səddən): “O, nəyə güldü?”– deyə soruşdum. O dedi: “Sədin o kafirə elədiyinə (güldü).”[1]

[1] Bu hədisin isnadında keçən Muhəmməd ibn Muhəmməd ibn Əsvəd “məchul” ravidir. Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “zəif” olduğunu demişdir. Lakin Muslimin “Səhih”ində (4431) bu hadisənin həqiqət olduğu öz təsdiqini tapmış, habelə bunun Xəndək döyüşündə yox, Uhud döyüşündə baş verdiyi xəbər verilmişdir. Həmin hədisdə Amir ibn Səd rəvayət etmişdir ki, atası Səd ﷺ demişdir: “Uhud döyüşündə müşriklərdən biri müsəlmanları qırıb-çatırdı. Onda Peyğəmbər ﷺ mənə dedi: “Atam-anam sənə fəda olsun, vur *onu*!” Mən onu vurmaq üçün *ox qabından* ucu olmayan bir ox çıxartdım *və bu oxla* onu böyründən vurdum. *Ox ona dəyən kimi* o, arxası üstə yerə yıxıldı və üst-başı açıldı. Onda Rəsulullah ﷺ güldü və mən onun arxa dişlərini gördüm.” Burada Rəsulullah ﷺ o kafirin üst-başının açılmasına yox, onun öldürülməsinə gülmüşdür.

٣٦- بَاب ما جاء في صفة مِزاح رسول الله ﷺ

36-cı fəsil. Rəsulullahın ﷺ zarafat[1] etməsinin vəsfi barədə varid olanlar

[1] Burada "zarafat" deyildikdə, şit zarafat, yəni, qəh-qəhə çəkib gülmək və ifrat dərəcədə əylənmək üçün deyilən söz və ya edilən hərəkət nəzərdə tutulmur. Belə ki, Peyğəmbər ﷺ hər bir işdə orta yol tutduğu kimi, bu işdə də həmçinin, nə daim qaşqabaqlı olar, nə də ki, zarafat etdikdə, həddini aşardı. Zarafatı da həmişə deyil, ancaq lazım gəldikdə edərdi ki, bunun sayəsində səhabələrinin könlünü açsın və arada olan isti münasibətləri bir qədər də möhkəmləndirsin. Bu xüsusda imam Nəvəvi demişdir: "Alimlər demişlər: "Qadağan olunmuş zarafat, ifrat dərəcədə edilən və davamiyyətli olan zarafatdır. Çünki belə zarafat həddən ziyadə gülməyə və qəlbin sərtləşməsinə səbəb olur, üstəlik adamı Uca Allahı zikr etməkdən və dinə aid mühüm işləri yerinə yetirməkdən yayındırır. Çox vaxt belə zarafat adamı başqalarına sataşmağa və bəlaliklə də, onlara əziyyət verməyə təhrik edir, axırda da, bu hərəkət ədavətə gətirib çıxarır və son nəticədə heybət də əldən gedir, ciddiyyət də.

Bu deyilənlərə yol verməmək şərtilə zarafat etmək isə, Rəsulullahın ﷺ etdiyi mübah əməllərdən sayılır. Çünki Rəsulullah ﷺ nadir hallarda – məsləhət bildikdə, üstəlik zarafat etdiyi adamın könlünü açmaq və dostluq münasibətini artırmaq məqsədilə zarafat edərdi. Bu cür zarafat etmək isə əsla qadağan deyildir. Əksinə, bu cür zarafat bəyənilən sünnəyə aiddir" (Əzkar, 1/326). Demək, adam zarafat etdikdə, Kitab və Sünnədən qırağa çıxmamalıdır. Əvvəla, zarafat edən adam yalan danışmamalı, öz zarafatı ilə başqalarına əziyyət verməməli və onlara istehza etməməlidir. Bu fəsildə varid edilmiş növbəti hədisdə səhabənin: "Bizimlə zarafat edirsən, ya Rəsulullah?!" sualına Rəsulullah ﷺ belə cavab vermişdir: "Bəli, (zarafat edirəm). Ancaq mən haqdan başqa söz danışmıram!" Başqa bir hədisdə isə Rəsulullah ﷺ belə buyurmuşdur: "Camaatı güldürmək məqsədilə

٢٣٥- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنْ شَرِيكٍ، عَنْ عَاصِمٍ الأَحْوَلِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ النَّبِيَّ ﷺ، قَالَ لَهُ: ((يَا ذَا الأُذُنَيْنِ)).

قَالَ مَحْمُودٌ: قَالَ أَبُو أُسَامَةَ: يَعْنِي يُمَازِحُهُ.

(235) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ ona: "Ey ikiqulaqlı![1]"– demişdir.[2]

Mahmud[3] rəvayət edir ki, Əbu Usamə demişdir: "Yəni, Peyğəmbər ﷺ onunla zarafat edirdi."

---

yalan danışan kimsənin vay halına, vay halına, vay halına!" (Sunən Əbu Davud, 4990; Səhih əl-Cami, 7136).

[1] Burada Rəsulullah ﷺ öz xidmətçisi ilə həm zarafat etmiş, həm də onu həqiqi mənada tərifləmişdir. Belə ki, Ənəs ﷺ Rəsulullahın ﷺ qəsd etdiyi o qulaqlar vasitəsi ilə onun buyuruqlarını eşidib itaət edər, verdiyi öyüd-nəsihətlərini dinləyərdi.

[2] Bu hədisi Əbu Davud (5052), Tirmizi (3831) və Əhməd (3/117) rəvayət etmişdir. Hədisin isnadında keçən Şərik ibn Abdullah ən-Nəxəi "çoxlu xətalara yol vermiş səduq" ravidir. Lakin digər isnadlarla rəvayət edilmiş bu mənada olan hədislər bu hədisin dərəcəsini qüvvətləndirir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu söyləmişdir.

[3] Mahmud ibn Ğeylan Tirmizinin şeyxidir.

٢٣٦- حَدَّثَنَا هَنَّادُ بْنُ السَّرِيِّ، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، عَنْ شُعْبَةَ، عَنْ أَبِي التَّيَّاحِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((إِنْ كَانَ رَسُولُ اللهِ ﷺ، لَيُخَالِطُنَا حَتَّى يَقُولَ لأَخٍ لِي صَغِيرٍ: يَا أَبَا عُمَيْرٍ، مَا فَعَلَ النُّغَيْرُ؟))

قَالَ أَبُو عِيسَى: وَفِقْهُ هَذَا الْحَدِيثِ أَنَّ النَّبِيَّ ﷺ، كَانَ يُمَازِحُ وَفِيهِ أَنَّهُ كَنَّى غُلامًا صَغِيرًا، فَقَالَ لَهُ: ((يَا أَبَا عُمَيْرٍ)). وَفِيهِ أَنَّهُ لا بَأْسَ أَنْ يُعْطَى الصَّبِيُّ الطَّيْرَ، لِيَلْعَبَ بِهِ وَإِنَّمَا، قَالَ لَهُ النَّبِيُّ ﷺ: ((يَا أَبَا عُمَيْرٍ، مَا فَعَلَ النُّغَيْرُ؟)) لأَنَّهُ كَانَ لَهُ نُغَيْرٌ يَلْعَبُ بِهِ فَمَاتَ، فَحَزِنَ الْغُلامُ عَلَيْهِ فَمَازَحَهُ النَّبِيُّ ﷺ: ((يَا أَبَا عُمَيْرٍ، مَا فَعَلَ النُّغَيْرُ؟))

(236) ..... Ənəs ibn Malik ﷺ demişdir: “Rəsulullah ﷺ (hərdən) bizimlə zarafat edərdi. Nəhayət, (bir gün o) mənim balaca qardaşıma dedi: “Ey Əbu Umeyr, quşcuğaza nə oldu?”[1]

Əbu İsa (ət-Tirmizi) demişdir: “Bu hədisdən belə nəticə çıxır ki, Peyğəmbər ﷺ (səhabələri ilə) zarafat edərmiş. Həmçinin, onun azyaşlı uşağa: “Ey Əbu Umeyr!”– deyə kunyə[2] verməsi (bunun caiz olduğunu bildirir). Hədis həm də ona dəlalət edir ki, uşağa, oynamaq üçün quş vermək

[1] Bu hədisi Buxari (6778), Muslim (3215), Tirmizi (333), İbn Macə (3320) və Əhməd (3/114-115) rəvayət etmişdir.

[2] Kunyə: ismin əvvəlinə “əbu (ata)”, yaxud “ummu (ana)”, yaxud “ibn (oğul)”, yaxud da “bint (qız)” sözlərindən birini qoşmaqla əmələ gələn ləqəb və ya ayamadır.

caizdir. Peyğəmbərin ﷺ ona: "Ey Əbu Umeyr, quşcuğaza nə oldu?"– deməsinin səbəbi bu idi ki, uşaq bu quşcuğazla oynayarkən quş ölmüş və uşaq buna görə kədərlənmişdir. Buna görə də, Peyğəmbər ﷺ onunla zarafat edib ona: "Ey Əbu Umeyr, quşcuğaza nə oldu?"– demişdir."[1]

٢٣٧- حَدَّثَنَا عَبَّاسُ بْنُ مُحَمَّدٍ الدُّورِيُّ، قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ الْحَسَنِ بْنِ شَقِيقٍ، قَالَ: أَنبأَنَا عَبْدُ اللهِ بْنُ الْمُبَارِكِ، عَنِ أُسَامَةَ بْنِ زَيْدٍ، عَنْ سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: قَالُوا: ((يَا رَسُولَ اللهِ، إِنَّكَ تُدَاعِبُنَا))، قَالَ: ((نَعَمْ؟ غَيْرَ أَنِّي لا أَقُولُ إِلا حَقًّا)).

(237) ..... Əbu Hureyrə ﷺ rəvayət edir ki, (bir dəfə) səhabələr (Peyğəmbərə ﷺ) dedilər: "Ya Rəsulullah, sən (hərdən) bizimlə zarafat edirsən." Peyğəmbər ﷺ də onlara belə cavab verdi: "Bəli, (zarafat edirəm). Lakin mən haqdan başqa bir söz danışmıram!"[2]

---

[1] İbn Həcər bu hədisi izah edərkən demişdir: "Bu hədisdə çoxlu faydalar vardır. Neçə-neçə əsərlər yazmış, habelə şafii fəqihlərindən olmuş və İbnul-Qas ləqəbi ilə tanınmış Əbul-Abbas Əhməd ibn Əbu Əhməd ət-Təbəri, ayrıca bir kitabda bu hədisi müxtəlif isnadlarla rəvayət etmiş və bu hədisdən çıxarılmış nəticələri zikr etmişdir. İbnul-Qas həmin kitabın əvvəlində: "Bəzi adamlar mühəddislərin heç bir faydası olmayan hədislər rəvayət etdiklərini söyləmişlər"– demiş və Əbu Umeyrin bu hədisini misal göstərmişdir. Sonra davam edib: "Lakin onlar bilmirlər ki, bu hədisdə şəriət qanunlarına, İslam ədəblərinə və bir çox faydalı məsələlərə dəlalət edən altmış nəticə vardır" – demiş və həmin nəticələri qeyd etmişdir" (10/584).

[2] Bu hədisi Tirmizi (1991) rəvayət etmişdir. Hədisin isnadında keçən Usamə ibn Zeyd əl-Leysi "xətalara yol vermiş səduq" ravidir. (Təqrib ət-Təhzib). Lakin bu mənada olan başqa hədislər bu hədisin

٢٣٨- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا خَالِدُ بْنُ عَبْدِ اللهِ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ رَجُلا اسْتَحْمَلَ رَسُولَ اللهِ ﷺ، فَقَالَ: ((إِنِّي حَامِلُكَ عَلَى وَلَدِ نَاقَةٍ))، فَقَالَ: ((يَا رَسُولَ اللهِ، مَا أَصْنَعُ بِوَلَدِ النَّاقَةِ؟)) فَقَالَ ﷺ: ((وَهَلْ تَلِدُ الإِبِلَ إِلا النُّوقُ؟))

(238) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərdən ﷺ bir minik heyvanı istədi və o, bu adama: "Mən sənə dişi dəvənin balasını verəcəyəm"– dedi. Adam (təəccüblə) soruşdu: "Ya Rəsulullah, dişi dəvənin balası ilə mən nə edəcəyəm?!" Peyğəmbər ﷺ də ona belə cavab verdi: "Məgər dişi dəvə, dəvədən başqa bir heyvan doğur?![1]"[2]

٢٣٩- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، قَالَ: حَدَّثَنَا مَعْمَرٌ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ رَجُلا مِنْ أَهْلِ الْبَادِيَةِ كَانَ اسْمُهُ زَاهِرًا، وَكَانَ يُهْدِي إِلَى النَّبِيِّ ﷺ، هَدِيَّةً مِنَ الْبَادِيَةِ، فَيُجَهِّزُهُ النَّبِيُّ ﷺ، إِذَا

---

dərəcəsini qüvvətləndirir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu söyləmişdir.

[1] Burada Rəsulullah ﷺ demək istəyir ki, onun verəcəyi dəvəni də nə vaxtsa bir dişi dəvə doğmuşdur. Bu dəvə böyüyüb minilməli yaşa çatmış olsa da, yenə həmin dişi dəvənin balası sayılır. Demək, Rəsulullah ﷺ ancaq doğru söz söyləyərək zarafat edərdi.

[2] Bu hədisi Əbu Davud (4998) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

أَرَادَ أَنْ يَخْرُجَ، فَقَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ زَاهِرًا بَادِيَتُنَا وَنَحْنُ حَاضِرُوهُ)) وَكَانَ ﷺ يُحِبُّهُ وَكَانَ رَجُلا دَمِيمًا، فَأَتَاهُ النَّبِيُّ ﷺ، يَوْمًا وَهُوَ يَبِيعُ مَتَاعَهُ وَاحْتَضَنَهُ مِنْ خَلْفِهِ وَهُوَ لا يُبْصِرُهُ، فَقَالَ: ((مَنْ هَذَا؟ أَرْسِلْنِي)) فَالْتَفَتَ فَعَرَفَ النَّبِيَّ ﷺ فَجَعَلَ لا يَأْلُو مَا أَلْصَقَ ظَهْرَهُ بِصَدْرِ النَّبِيِّ ﷺ حِينَ عَرَفَهُ، فَجَعَلَ النَّبِيُّ ﷺ، يَقُولُ: ((مَنْ يَشْتَرِي هَذَا الْعَبْدَ))، فَقَالَ: ((يَا رَسُولَ اللهِ، إِذًا وَاللَّهِ تَجِدُنِي كَاسِدًا))، فَقَالَ النَّبِيُّ ﷺ: ((لَكِنْ عِنْدَ اللهِ لَسْتَ بِكَاسِدٍ)) أَوْ قَالَ: ((أَنتَ عِنْدَ اللهِ غَالٍ)).

(239) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki,[1] (Peyğəmbərin ﷺ dövründə) səhrada yaşayan Zahir adlı bir bədəvi var idi. Bu adam (vaxtaşırı) səhradan[2] Peyğəmbərə ﷺ hədiyyələr gətirər, sonra da (öz işlərini görüb evinə) qayıtmaq istədiyi vaxt, Peyğəmbər ﷺ (şəhərdəki şeylərdən) ona hədiyyələr verərdi.[3] Peyğəmbər ﷺ deyərdi: "Zahir bizim səhramız, biz də onun şəhəriyik."[4] Peyğəmbər ﷺ

---

[1] Bu hədisi Əhməd (3/161) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Burada "səhradan" deyildikdə, səhrada bitən bitkilər, habelə bədəvilərin səhrada hazırladığı süd, yağ, qurut və s. nemətlər nəzərdə tutulur.

[3] Bu, dəlildir ki, müsəlmanların bir-birilərinə hədiyyə vermələri sünnədir.

[4] Yəni, biz onun səhradan bizim üçün gətirdiyi nemətlərdən istifadə edirik, o da, bizim ona verdiyimiz şeylərdən istifadə edir.

onun xətrini çox istəyirdi. (Hərçənd,) bu adam göyçək deyildi, (lakin onun əxlaqı gözəl idi). Bir gün o, bazarda öz malını satarkən Peyğəmbər ﷺ onun yanına gəldi və (yaxınlaşıb) arxa tərəfdən onu qucaqladı.[1] Zahir onu görmürdü. Odur ki, dedi: "Kimdir bu? Burax məni!" Sonra o, (azacıq) arxaya döndü və (arxasındakı adamın) Peyğəmbər ﷺ olduğunu gördü. Peyğəmbəri ﷺ tanıyan kimi kürəyini onun sinəsinə dirədi. Peyğəmbər ﷺ də (yanındakılardan): "Bu qulu[2] kim alar?"– deyə soruşdu. Zahir dedi: "Ya Rəsulullah, əgər sən məni satası olsan, vallahi ki, mənim satılmaz (və dəyərsiz) bir mal olduğumu görəcəksən." Onda Peyğəmbər ﷺ dedi: "Əksinə, sən, Allah yanında keyfiyyətsiz *adam* deyilsən", yaxud dedi: "Sən, Allah yanında çox[3] dəyərlisən."

---

[1] Bu, Peyğəmbərin ﷺ xətrini istədiyi səhabəsi ilə etdiyi zarafatdır. Peyğəmbər ﷺ hərdən sözlə, hərdən də hərəkətlə zarafat edərdi.

[2] Peyğəmbər ﷺ Zahirin Allahın qulu olduğunu qəsd edirdi. Bu da yalan olmayan bir zarafat idi.

[3] Zahir göyçək olmadığından, özünün dəyərsiz olduğunu güman edir, Rəsulullah ﷺ isə ona Allah yanında hörmətli bir qul olduğunu xəbər verir. Demək, Allah yanında hörmət qazanmaq üçün var-dövlət sahibi və gözəl görünüşlü olmaq şərt deyil. Yetər ki, təqvalı, ixlaslı və əməlisaleh qullardan olasan. Bu xüsusda Uca Allah buyurur: "**Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Ondan* ən çox qorxanınızdır**" (əl-Hucurat, 13). Hədisdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allah sizin zahiri görünüşünüzə və mal-dövlətinizə baxmır. Əksinə, O, sizin qəlbinizə və əməllərinizə baxır" (Səhih Muslim, 6708). Digər bir hədisdə Ənəs ﷺ demişdir: "(Bir dəfə) qaradərili bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, mənim rəngim qaradır, dərimdən xoşagəlməz iy gəlir, özüm də göyçək deyiləm, üstəlik varım-dövlətim də yoxdur. De görüm, *Allah yolunda* vuruşub ölsəm,

٢٤٠- حَدَّثَنَا عَبْدُ بْنُ حُمَيْدٍ، قَالَ: حَدَّثَنَا مُصْعَبُ بْنُ الْمِقْدَامِ، قَالَ: حَدَّثَنَا الْمُبَارِكُ بْنُ فَضَالَةَ، عَنِ الْحَسَنِ، قَالَ: ((أَتَتْ عَجُوزٌ إِلَى النَّبِيِّ ﷺ، فَقَالَتْ: ((يَا رَسُولَ اللهِ، ادْعُ اللَّهَ أَنْ يُدْخِلَنِي الْجَنَّةَ، فَقَالَ: ((يَا أُمَّ فُلانٍ، إِنَّ الْجَنَّةَ لا تَدْخُلُهَا عَجُوزٌ))، قَالَ: فَوَلَّتْ تَبْكِي، فَقَالَ: ((أَخْبِرُوهَا أَنَّهَا لا تَدْخُلُهَا وَهِيَ عَجُوزٌ إِنَّ اللَّهَ تَعَالَى، يَقُولُ: إِنَّا أَنْشَأْنَاهُنَّ إِنْشَاءً، فَجَعَلْنَاهُنَّ أَبْكَارًا ، عُرُبًا أَتْرَابًا)).

(240) ..... Həsən (əl-Bəsri) rəvayət edir ki, yaşlı bir qadın Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ya Rəsulullah, Allaha dua et ki, məni cənnətlik etsin!" Peyğəmbər ﷺ dedi: "Ey Ummu filankəs, yaşlı qadın Cənnətə girməyəcək!" (Bunu eşidəndə) qadın ağlaya-ağlaya dönüb getdi. Peyğəmbər ﷺ dedi: "Bu qadına xəbər verin ki, o, yaşlı olduğu halda Cənnətə girməyəcək.[1] Çünki Uca Allah buyurur: **"Biz *Cənnətdəki* qadınları yeni biçimdə**

---

hara düşəcəyəm?" Peyğəmbər ﷺ dedi: "Cənnətə!" Bu adam *Allah yolunda* vuruşub şəhid olduqdan sonra Peyğəmbər ﷺ onun cənazəsinə yaxınlaşıb dedi: "Artıq, Allah sənin rəngini dəyişdirib ağ elədi, dərindən gələn iyi gözəlləşdirdi, sənə çoxlu mal-dövlət verdi və mən hurilərdən olan qaragözlü zövcənin sənin yundan olan cübbənin yaxasını açıb yanına girdiyini görürəm" (Mustədrək, 2463; Səhih Tərğib vət-Tərhib, 1381).

[1] İstər qadın olsun, istərsə kişi hər bir mömin cavan yaşında Cənnətə girəcək. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Cənnət əhli, bədənlərində tük olmadığı, gözləri də sürməli olduğu halda, habelə otuz üç yaşlarında, boyları da Adəmin عليه السلام boyuna uyğun – altmış dirsək hündürlüyündə olduqları halda – Cənnətə girəcəklər" (Sunən ət-Tirmizi, 2545; Səhih əl-Cami, 8072; Səhih Tərğib vət-Tərhib, 3698).

yaradacağıq. Onları bakirə qızlar, ərlərini sevən, həmyaşıdlar edəcəyik.[1]"[2]

[1] "əl-Vaqiə", 35-37.

[2] Bu hədisin isnadı "mursəl"dir. Belə ki, Həsən əl-Bəsri Peyğəmbəri ﷺ görməmişdir. Habelə isnadında keçən Musab ibn Miqdam "xətalara yol vermiş səduq" ravidir. Mubarək ibn Fədalə də, həmçinin "səduq" ravidir. Lakin qeyd edək ki, bu hədisi gücləndirən başqa hədislər də var. Odur ki, Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" və "Silsilətul-Əhadisis-Səhihə" əsərlərində onun "həsən" olduğunu demişdir.

٣٧- بَاب ما جاء في صفة كلام رسول الله ﷺ في الشعر

37-ci fəsil. Rəsulullahın ﷺ şeir[1] xüsusunda dediklərinin vəsfi barədə varid olanlar

٢٤١- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنِ الْمِقْدَامِ بْنِ شُرَيْحٍ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: قِيلَ لَهَا: ((هَلْ كَانَ النَّبِيُّ ﷺ، يَتَمَثَّلُ

[1] Şeirin hökmü də digər sözlərin hökmü kimidir. Yəni, yaxşısı yaxşı, pisi də pis sayılır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Şeir də söz kimidir. Yaxşısı yaxşı söz kimi, pisi də pis söz kimidir" (Ədəbul-Mufrəd, 865). Digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Şeirin bir qismi hikmətdir" (Səhih əl-Buxari, 6145). Bu hədislərdən belə nəticə çıxır ki, hər deyilən şeir yaxşı sayıla bilməz. Şeirin yaxşısı da var, pisi də, bəyəniləni də var, bəyənilməyəni də, caiz olanı da var, qadağan olanı da. Bəzi şeirlər insanları haqqa və düz yola çağırır, bəzisi isə küfrü, bidəti və s. günahları təmsil edir. Uca Allah Quranda haqq yoldan azmış şairləri belə vəsf edir: **"Şairlərə gəldikdə isə, onlara ancaq azğınlar uyar. Məgər görmürsənmi ki, onlar hər vadidə veyl-veyl gəzir** (hər mövzuda şeir uydurur) **və etmədikləri şeylərə aid söhbət açırlar? Təkcə iman sahibi olub saleh əməllər edən, Allahı tez-tez yada salan və haqsızlığa məruz qaldıqdan sonra *dini* müdafiə edənlərdən başqa. Zalımlar isə qayıdacaqları yeri mütləq biləcəklər"** (əş-Şuəra, 224-227). Hərçənd, şeir demək və ya şeirə qulaq asmaq caizdir, lakin şeir insanı o həddə gətirib çatdırmamalıdır ki, bu, onu Allahı zikr etməkdən, elm öyrənməkdən və Quran oxumaqdan yayındırsın. Peyğəmbər ﷺ bunu məzəmmət edib demişdir: "Birinizin qarnının irinlə doldurulması, onun şeirlə dolmasından daha xeyirlidir" (Səhih əl-Buxari, 6154).

بِشَيْءٍ مِنَ الشِّعْرِ؟)) قَالَتْ: ((كَانَ يَتَمَثَّلُ بِشِعْرِ ابْنِ رَوَاحَةَ، وَيَتَمَثَّلُ بِقَوْلِهِ: يَأْتِيكَ بِالأَخْبَارِ مَنْ لَمْ تُزَوِّدِ)).

(241) ..... Şureyh[1] rəvayət edir ki, (bir dəfə) Aişədən soruşdular: "Peyğəmbər ﷺ şeir deyərdimi?" Aişə dedi: "Peyğəmbər ﷺ (hərdən) İbn Rəvahənin [2] şeirlərindən oxuyar,[3] onun bu sözlərini deyərdi: "Sənə xəbər gətirər, təmin etmədiyin[4] kəs."[5]

---

[1] Əbu Miqdam Şureyh ibn Hani əl-Harisi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 33-cü tərcümeyi-hal).

[2] Əbu Amr Abdullah ibn Rəvahə ibn Sələbə əl-Xəzrəci əl-Ənsari ﷺ həm Peyğəmbərin ﷺ səhabəsi, həm də onun şairi olmuşdur. Nomən ibn Bəşirin dayısıdır. Mutə döyüşündə şəhid olmuşdur (Siyər Əlam ən-Nubələ, 37-ci tərcümeyi-hal). Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbərin ﷺ üç şairi var idi: Abdullah ibn Rəvahə, Həssan ibn Sabit və Kəb ibn Malik ﷺ.

[3] Bu şeir parçası əslində, Tərfə ibn Abdın şeiridir (Divan, 96; Şərh əl-Qəsaid əl-Məşhura, 1/94). Bu şeirin əvvəlki beyti belədir: "Nə qədər ki cahilsən, günlər sənə görünər." Kitablarda məşhur olan budur ki, Peyğəmbər ﷺ Tərfənin bu: "Sənə xəbər gətirər, təmin etmədiyin kəs" şeirini oxuyardı (Səhih Ədəbul-Mufrəd, 213). İmam Əhmədin "Musnəd" əsərində (6/31) rəvayət edilmiş hədisdə Aişə ﷺ demişdir: "Peyğəmbər ﷺ kimdənsə bir xəbər gözlədikdə, Tərfənin bu şeirini deyərdi: "Sənə xəbər gətirər, təmin etmədiyin kəs" (Şeyx Albani bu hədisin həsən olduğunu demişdir. Bax: Silsilətul-Əhadisis-Səhihə, 2057). Ehtimal edilir ki, Abdullah ibn Rəvahə ﷺ bu şeir parçasını Tərfədən götürmüşdür.

[4] Burada "təmin etməmək" deyildikdə, gətirdiyi xəbərə görə zəhmət haqqı verməmək nəzərdə tutulur.

[5] Bu hədisi Tirmizi (2852), Nəsai (997), Əhməd (6/138) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

٢٤٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ الثَّوْرِيُّ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ عُمَيْرٍ، قَالَ: حَدَّثَنَا أَبُو سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((إِنَّ أَصْدَقَ كَلِمَةٍ قَالَهَا الشَّاعِرُ، كَلِمَةُ لَبِيدٍ: أَلَا كُلُّ شَيْءٍ مَا خَلا اللَّهَ بَاطِلٌ، وَكَادَ أُمَيَّةُ بْنُ أَبِي الصَّلْتِ أَنْ يُسْلِمَ)).

(242) ..... Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Şair tərəfindən deyilmiş ən doğru söz, Ləbidin[1] (bu) sözüdür: "Allahdan başqa nə varsa, fanidir.[2] "[3] Umeyyə ibn Əbu Səltə[4] gəlincə, o, az qalmışdı ki, müsəlman olsun."[5]

---

[1] Ləbid ibn Əbu Rəbiə islamaqədərki dövrdə məşhur şair olmuş, sonradan İslamı qəbul etmişdir. O, müsəlman olduqdan sonra: "Mənə Quran yetər!"– demişdir. Ləbid hicrətin 41-ci ilində, yüz qırx yaşında vəfat etmişdir (Cəmul-Vəsail fi Şərhiş-Şəmail).

[2] Uca Allah bu xüsusda buyurur: **"Onun Üzündən başqa hər şey məhv olacaq"** (əl-Qəsəs, 88).

[3] Beytin ikincisi belədir: "Hər bir ləzzətin, əlbət ki, bir sonu vardır." Burada ancaq dünyada olan naz-nemətlər nəzərdə tutulur. Belə ki, axirət nemətləri tükənməzdir. Bu xüsusda Uca Allah buyurur: **"Sizdə olan nemətlər tükənəcək, Allah yanında olan nemətlər isə daim qalacaqdır"** (ən-Nəhl, 96).

[4] Bu adam xristian olmuş və İslam dini ilə maraqlanmışdır. 248-ci hədisə və onun qeydlərinə bax.

[5] Bu hədisi Buxari (5795), Muslim (2256), Tirmizi (2853), İbn Macə (3757) və Əhməd (2/248) rəvayət etmişdir.

٢٤٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنِ الأَسْوَدِ بْنِ قَيْسٍ، عَنْ جُنْدُبِ بْنِ سُفْيَانَ الْبَجَلِيِّ، قَالَ: أَصَابَ حَجَرٌ أُصْبُعَ رَسُولِ اللهِ ﷺ فَدَمِيَتْ، فَقَالَ:

هَلْ أَنْتِ إِلا أُصْبُعٌ دَمِيتِ وَفِي سَبِيلِ اللهِ مَا لَقِيتِ.

(243) ..... Cundub ibn Sufyan əl-Bəcəli[1] ﷺ demişdir:[2] "(Döyüşlərin birində) Rəsulullahın ﷺ (ayaq) barmağı[3] daşa dəyib yaralandı və ondan qan axmağa başladı. Onda Rəsulullah ﷺ dedi: "Sən ancaq qanayan bir barmaqsan! Sənə üz vermiş bu müsibət Allah yolundadır![4]"

---

[1] Əbu Abdullah Cundub ibn Abdullah ibn Sufyan əl-Bəcəli ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 30-cu tərcümeyi-hal).

[2] Bu hədisi Buxari (2648), Muslim (1796), Tirmizi (3342), Nəsai (559) və Əhməd (4/313) rəvayət etmişdir.

[3] Burada ərəbcə (أصبع) "barmaq" kəlməsinin özünəməxsus deyiliş qaydası vardır ki, bu da, ərəb dilinin nə dərəcədə zəngin olduğundan xəbər verir. Belə ki, (أصبع) kəlməsindəki "əlif" və "bə" hərflərinin hər biri "müsəlləs"dir, yəni, həmin hərflər bu kəlmənin deyilişində hər üç hərəkə ilə - fəthə, kəsrə və dammə ilə tələffüz edilə bilər. Alimlər bu kəlmənin on cür tələffüz edildiyini bildirmişlər: isbə (إِصْبَعٌ), isbi (إِصْبِعٌ), isbu (إِصْبُعٌ), əsbə (أَصْبَعٌ), əsbi (أَصْبِعٌ), əsbu (أَصْبُعٌ), usbə (أُصْبَعٌ), usbi (أُصْبِعٌ), usbu (أُصْبُعٌ) və usbuu (أُصْبُوعٌ). Ən bəlağətlisi isə birincisidir (Şərh ən-Nəvəvi).

[4] Yəni, buna görə kədərlənməyə dəyməz, əksinə, buna sevinmək gərəkdir. Çünki möminin başına gələn hər bir müsibət onun xeyrinədir. Bu xüsusda varid olmuş hədislərin birində Rəsulullah ﷺ belə buyurmuşdur: "Müsəlmana üz vermiş elə bir yorğunluq, elə bir

٢٤٤- حَدَّثَنَا ابْنُ أَبِي عُمَرَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنِ الأَسْوَدِ بْنِ قَيْسٍ، عَنْ جُنْدُبِ بْنِ عَبْدِ اللهِ الْبَجَلِيِّ، نَحْوَهُ.

(244) Bizə, İbn Əbu Ömər belə rəvayət etmişdir: "Bizə Sufyan ibn Uyeynə Əsvəd ibn Qeysdən, o da Cundub ibn Abdullah [1] əl-Bəcəlidən bu hədisin eynisini rəvayət etmişdir."

٢٤٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ الثَّوْرِيُّ، قَالَ: أَنْبَأَنَا أَبُو إِسْحَاقَ، عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ، قَالَ: قَالَ لَهُ رَجُلٌ: ((أَفَرَرْتُمْ عَنْ رَسُولِ اللهِ ﷺ يَا أَبَا عُمَارَةَ؟)) فَقَالَ: لا وَاللَّهِ مَا وَلَّى رَسُولُ

---

naxoşluq, elə bir kədər, elə bir üzüntü, elə bir əziyyət, elə bir dərd, hətta *ayağına* batan elə bir tikan yoxdur ki, onun sayəsində Allah *həmin* müsəlmanın günahlarını bağışlamasın" (Səhih əl-Buxari, 5642); digər bir hədisdə demişdir: "Allah kimə xeyir nəsib etmək istəsə, onu imtahana çəkər" (Səhih əl-Buxari, 5645); bir başqa hədisdə də belə buyurmuşdur: "Mömin pöhrəyə bənzəyir. Külək hansı tərəfdən əssə, pöhrəni əyər, külək sakitləşdiyi zaman isə pöhrə dikələr. *Mömin də həmçinin,* müsibətlərə məruz qalsa da, *əqidəsindən dönməz*. Günahkar adam isə sərt və dimdik duran sidr ağacına bənzəyir. Allah istədiyi zaman onu sındırır" (Səhih əl-Buxari, 5644). Pöhrə: ağacda və başqa bitkilərdə yenicə cücərən göy qabıqlı, incə budaqların hər biri.

[1] Əvvəlki isnadda Cundub ibn Sufyan, bu isnadda isə Cundub ibn Abdullah deyilir. İmam Əbu İsa ət-Tirmizi bu isnadla bildirmək istəmişdir ki, Cundubun atası, Sufyan yox, Abdullahdır. Sadəcə olaraq, hədisin isnadını istinad edərkən oğulu babaya mənsub etmək caizdir.

اللهِ ﷺ، وَلَكِنْ وَلَّى سَرَعَانُ النَّاسِ، تَلَقَّتْهُمْ هَوَازِنُ بِالنَّبْلِ، وَرَسُولُ اللهِ ﷺ، عَلَى بَغْلَتِهِ، وَأَبُو سُفْيَانَ بْنُ الْحَارِثِ بْنِ عَبْدِ الْمُطَّلِبِ آخِذٌ بِلِجَامِهَا، وَرَسُولُ اللهِ يَقُولُ: ((أَنَا النَّبِيُّ لا كَذِبْ أَنَا ابْنُ عَبْدِ الْمُطَّلِبْ)).

(245) ..... Rəvayət edilir ki, bir nəfər Bəra ibn Azibdən soruşdu: "Siz Rəsulullahı ﷺ qoyub qaçmısınızmı, ey Əbu Umarə?" [1] Bəra dedi: "Yox, vallahi ki, (qaçmadıq [2]),

---

[1] Burada söhbət Huneyn döyüşündən gedir. Buxarinin "Səhih"ində rəvayət edilir ki, bir nəfər Bəra ibn Azibdən soruşdu: "Siz Huneyn döyüşündə Rəsulullahı ﷺ qoyub qaçmısınızmı?" Bəra dedi: "(Bəziləri qaçsa da,) Rəsulullah ﷺ qaçmadı. Həvazin qəbiləsi *sərrast* ox atmaqda məşhur idi. Biz onlarla qarşı-qarşıya gəldikdə, üzərlərinə hücum etdik və onlar dağılıb geri çəkildilər. Müsəlmanlar qənimət toplamağa başladıqda, onlar bizi ox atəşinə tutdular. Rəsulullaha ﷺ gəlincə, o, *bu həngamədə heç yerə* qaçmadı. Mən onu ağ qatırının üstündə oturan gördüm. Həmin vaxt Əbu Sufyan qatırın yüyənindən tutmuşdu. Peyğəmbər ﷺ isə deyirdi:

Yalan deyil, mən peyğəmbərəm!
Mən Abdulmuttəlibin oğluyam!"

(Səhih əl-Buxari, 2864).

Bu xüsusda Uca Allah buyurur: **"Həqiqətən, Allah əksər döyüşlərdə, habelə Huneyn günündə də sizə kömək etmişdi. O zaman çoxluğunuza aludə oldunuz, amma *bu* sizin karınıza gəlmədi. Yer üzü, genişliyinə baxmayaraq, sizə dar gəldi, sonra geriyə çevrilib qaçdınız. Sonra Allah Öz Elçisinə və möminlərə əminlik nazil etdi, görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirlərə əzab verdi. Budur kafirlərin cəzası"** (ət-Tovbə, 25-26).

[2] Bəra ibn Azib Peyğəmbərin ﷺ yanında sabit qalıb heç yerə qaçmamış səhabələrini qəsd edir.

Peyğəmbər ﷺ də qaçmadı. Lakin həvazinlilər bizi ox atəşinə tutduqda, bir çoxları dönüb qaçmağa başladı. Bu əsnada Rəsulullah ﷺ öz qatırının üstündə oturmuş,[1] Əbu Sufyan ibn Haris ibn Abdul-Muttəlib bu qatırın yüyənindən tutmuş və Rəsulullah ﷺ bu sözləri deyirdi:

Yalan deyil, mən peyğəmbərəm!
Mən Abdulmuttəlibin oğluyam[2]!"[3]

٢٤٦- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، قَالَ: حَدَّثَنَا جَعْفَرُ بْنُ سُلَيْمَانَ، قَالَ: حَدَّثَنَا ثَابِتٌ، عَنْ أَنَسٍ، أَنَّ النَّبِيَّ ﷺ دَخَلَ مَكَّةَ فِي عُمْرَةِ الْقَضَاءِ، وَابْنُ رَوَاحَةَ يَمْشِي بَيْنَ يَدَيْهِ، وَهُوَ يَقُولُ:

خَلُّوا بَنِي الْكُفَّارِ عَنْ سَبِيلِهِ الْيَوْمَ نَضْرِبُكُمْ عَلَى تَنْزِيلِهِ،
ضَرْبًا يُزِيلُ الْهَامَ عَنْ مَقِيلِهِ وَيُذْهِلُ الْخَلِيلَ عَنْ خَلِيلِهِ.

فَقَالَ لَهُ عُمَرُ: ((يَا ابْنَ رَوَاحَةَ، بَيْنَ يَدِي رَسُولِ اللهِ ﷺ، وَفِي حَرَمِ اللهِ تَقُولُ الشِّعْرَ))، فَقَالَ ﷺ: ((خَلِّ عَنْهُ يَا عُمَرُ، فَلَهِيَ أَسْرَعُ فِيهِمْ، مِنْ نَضْحِ النَّبْلِ)).

---

[1] Bu qatırı Peyğəmbərə ﷺ Fərvə ibn Nufasə əl-Cuzami hədiyyə etmişdi (Bax: Səhih Muslim, 1775). Peyğəmbərin ﷺ bu döyüşə dəvə və ya atla yox, məhz qatırla getməsi, onun Allaha nə dərəcədə təvəkkül etdiyini bir daha sübuta yetirir.

[2] Burada Peyğəmbər ﷺ, sadəcə, Abdul-Muttəlibin nəslindən olduğunu bildirir. Çünki əslində, o, Peyğəmbərin ﷺ babası olmuşdur. Atasının adı isə Abdullah idi.

[3] Bu hədisi Buxari (2864), Muslim (1776), Tirmizi (1688) və Əhməd (4/289) rəvayət etmişdir.

(246) ..... Ənəs ﷺ rəvayət edir ki,[1] Peyğəmbər ﷺ qəza ümrəsi əsnasında Məkkəyə daxil olarkən, İbn Rəvahə onun önündə bu sözləri deyə-deyə gedirdi:

Çəkilin onun[2] yolundan, ey kafir oğulları!
Bu gün onunla birgə, qırarıq hamınızı.
Bir zərbəylə qoparar, hər başı bədənindən,
Üstəlik də, ayırar, əzizi əzizindən.

(Bunu eşidəndə) Ömər ona dedi: "Ey Rəvahanın oğlu! Rəsulullahın ﷺ önündə və Allahın toxunulmaz buyurduğu *Məscidul-Həramda* şeir deyirsən?!" Onda Peyğəmbər ﷺ (Ömərə) dedi: "Onda işin olmasın, ey Ömər![3] Bu misralar onların (qəlbinə), atılan oxlardan daha tez yeriyir."

---

[1] Bu hədisi Nəsai (2873), Tirmizi (2851) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun səhih olduğunu demişdir.

[2] Burada, Abdullah ibn Rəvaha ﷺ Peyğəmbəri ﷺ nəzərdə tutur.

[3] Peyğəmbərin ﷺ bu sözü dəlildir ki, hikmətli şeir parçalarını həm demək, həm dinləmək, həm də tərif etmək olar. Ələlxüsus də İslam dinini yaymaq və ya onu müdafiə etmək məqsədilə münasib yerlərdə və uyğun məqamlarda şeir demək, icazəli əməllərdəndir. Bəra ibn Azib ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ *kafirlərin cavabını vermək üçün* Həssana deyərdi: "Onlara şeirlə cavab ver! *Arxayın ol,* Cəbrail də sənninlədir" (Səhih əl-Buxari, 3213); digər hədisdə rəvayət edilir ki, Aişə ﷺ demişdir: "Həssan *öz şeiri ilə* müşrikləri gülünc vəziyyətdə qoyaraq yerinə oturtmaq üçün Peyğəmbərdən ﷺ izin istədi. Peyğəmbər ﷺ soruşdu: "Bəs, mənim əsil-nəsəbim necə olacaq?" Həssan dedi: "Tük xəmirin içindən çıxarıldığı kimi, mən səni onların arasından çıxaracağam" (Səhih əl-Buxari, 3531). Burada Həssan ﷺ

٢٤٧- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، عَنْ جَابِرِ بْنِ سَمُرَةَ، قَالَ: ((جَالَسْتُ النَّبِيَّ ﷺ، أَكْثَرَ مِنْ مِائَةِ مَرَّةٍ، وَكَانَ أَصْحَابُهُ يَتَنَاشَدُونَ الشِّعْرَ، وَيَتَذَاكَرُونَ أَشْيَاءَ مِنْ أَمْرِ الْجَاهِلِيَّةِ، وَهُوَ سَاكِتٌ وَرُبَّمَا تَبَسَّمَ مَعَهُمْ)).

(247) ..... Cabir ibn Səmurə ﷺ demişdir: "Mən Peyğəmbərlə ﷺ birlikdə yüzdən çox məclisdə iştirak etmişəm. (Bəzən məclislərdə) onun səhabələri şeir deyər və (öz şeirlərində) cahiliyyət dövrünə aid olan şeyləri zikr edərdilər.[1] Peyğəmbər ﷺ isə sakitcə buna qulaq asar,[2] hərdən də onlara təbəssüm edərdi."[3]

Peyğəmbərin ﷺ dədə-babalarının adını çəkməyəcəyini və onları alçaltmayacağını bildirmişdir.

Hədisdən o da aydın olur ki, hər bir mömin yeri gəldikdə silahla, yeri gəldikdə də dili ilə Allah yolunda Onun düşmənləri ilə mübarizə aparmalıdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Mömin bəndə həm qılıncı ilə, həm də dili ilə cihad edər. Canım Əlində olan Allaha and olsun ki, bununla sanki onların (qəlbinə) ox yeritmiş olarsınız" (Musnəd imam Əhməd, 4/172; Silsilətul-Əhasdisis-Səhihə, 1631).

[1] Burada "cahiliyyət dövrünə aid olan şeylər" deyildikdə, həmin dövrdə söylənilmiş, həm də batil mənalar ifadə etməyən, bəyənilən şeirlər nəzərdə tutulur.

[2] Yəni, narazılığını bildirməzdi. Əgər şeir demək, qadağan olunan və ya bəyənilməyən əməllərdən olsaydı, belə məqamda Peyğəmbər ﷺ əsla susmazdı. Peyğəmbərin ﷺ təbəssüm etməsi, bu əməlin caiz olmasına dəlalət edir.

[3] Bu hədisi Tirmizi (2854) rəvayət etmişdir. İsnadında keçən Şərik ibn Abdullah ən-Nəxəi "çoxlu xətalara yol vermiş səduq" ravidir.

٢٤٨- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا شَرِيكٌ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ عُمَيْرٍ، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ، قَالَ: ((أَشْعَرُ كَلِمَةٍ تَكَلَّمَتْ بِهَا الْعَرَبُ كَلِمَةُ لَبِيدٍ: أَلا كُلُّ شَيْءٍ مَا خَلا اللَّهَ بَاطِلٌ)).

(248) ..... Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Ərəblərin (cahiliyyət dövründə) söylədiyi şeirlərdən ən doğru mənalısı Ləbidin *bu* sözüdür: "Allahdan başqa nə varsa, fanidir."[1]

٢٤٩- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ، عَنْ عَبْدِ اللهِ بْنِ عَبْدِ الرَّحْمَنِ الطَّائِفِيِّ، عَنْ عَمْرِو بْنِ الشَّرِيدِ، عَنْ أَبِيهِ، قَالَ: ((كُنْتُ رِدْفَ النَّبِيِّ ﷺ، فَأَنْشَدْتُهُ مِائَةَ قَافِيَةٍ مِنْ قَوْلِ أُمَيَّةَ بْنِ أَبِي الصَّلْتِ الثَّقَفِيِّ، كُلَّمَا أَنْشَدْتُهُ بَيْتًا، قَالَ لِيَ النَّبِيُّ ﷺ: ((هِيهْ)) حَتَّى أَنْشَدْتُهُ مِائَةً يَعْنِي بَيْتًا، فَقَالَ النَّبِيُّ ﷺ: ((إِنْ كَادَ لَيُسْلِمُ)).

(249) ..... Şərid[2] ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ tərkində olarkən, ona Umeyyə ibn Əbu Səlt əs-Səqəfinin şeirindən yüz beyt oxudum. Mən hər dəfə bir beyt oxuduqda, o mənə: "Davam et!"– deyirdi. Nəhayət, mən

---

Lakin bu mənada varid olmuş başqa hədislər onu qüvvətləndirir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[1] 242-ci hədisə bax.

[2] Şərid ibn Suveyd ﷺ Peyğəmbərin ﷺ səhabəsidir.

ona yüz beyt oxudum. Sonra Peyğəmbər ﷺ mənə belə buyurdu: "O,[1] az qala ki, müsəlman olacaqdı."[2]

٢٥٠- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ مُوسَى الْفَزَارِيُّ، وَعَلِيُّ بْنُ حُجْرٍ، وَالْمَعْنَى وَاحِدٌ، قَالا: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي الزِّنَادِ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كَانَ رَسُولُ اللهِ ﷺ يَضَعُ لِحَسَّانَ بْنِ ثَابِتٍ مِنْبَرًا فِي الْمَسْجِدِ يَقُومُ عَلَيْهِ قَائِمًا يُفَاخِرُ عَنْ رَسُولِ اللهِ ﷺ أَوْ قَالَ: يُنَافِحُ عَنْ رَسُولِ اللهِ ﷺ، وَيَقُولُ ﷺ: ((إِنَّ اللَّهَ يُؤَيِّدُ حَسَّانَ بِرُوحِ الْقُدُسِ، مَا يُنَافِحُ أَوْ يُفَاخِرُ عَنْ رَسُولِ اللهِ)).

(250) ..... Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ (hərdən) Həssan ibn Sabit üçün məsciddə[3] minbər qoydurar, Həssan da qalxıb onun üstündə durar və (öz şeirləri ilə) Rəsulullahın ﷺ tərəfini saxlayar *və onu müdafiə edər*, Peyğəmbər ﷺ də belə deyərdi: "Həssan, Allahın rəsulunu

---

[1] Burada "o" deyildikdə, Umeyyə ibn Əbu Səlt əs-Səqəfi nəzərdə tutulur. Bu adam İslam dininin gəldiyi dövrlərdə yaşamış, lakin müsəlmanlığı qəbul etməmişdir. Buna rəğmən o, öz şeirlərində həqiqətləri əks etdirmiş və haqqı bəyan etmiş, etiqadı müsəlman əqidəsinə yaxın olmuşdur. Elə bu səbəbdən də, Peyğəmbər ﷺ onun barəsində bu sözü söyləmişdir.

[2] Bu hədisi Muslim (2255), Nəsai (998), İbn Macə (3758) və Əhməd (4/388, 389, 390) rəvayət etmişdir.

[3] Yəni, Peyğəmbərin ﷺ məscidində.

müdafiə etdiyi və ya onun tərəfini saxladığı müddətcə Allah, ona müqəddəs ruhla[1] kömək edir!”[2]

٢٥١- حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ مُوسَى، وَعَلِيُّ بْنُ حُجْرٍ، قَالا: حَدَّثَنَا ابْنُ أَبِي الزِّنَادِ، عَنْ أَبِيهِ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ، عَنِ النَّبِيِّ ﷺ، مِثْلَهُ.

(251) Bizə İsmail ibn Musa və Əli ibn Hucr belə rəvayət etmişdir: “Bizə İbn Əbu Zinad öz atasından, o da Urvadan, o da Aişədən, o da Peyğəmbərdən ﷺ bu hədisin eynisini rəvayət etmişdir.

---

[1] Burada “müqəddəs ruh” deyildikdə, Cəbrail ﷺ nəzərdə tutulur.

[2] Bu hədisi Əbu Davud (5015), Tirmizi (2849), Əhməd (6/72) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun “həsən” olduğunu demişdir. Digər rəvayətdə deyilir ki, *bir dəfə* Həssan ibn Sabit əl-Ənsari ﷺ Əbu Hureyrədən soruşdu: “Səni and verirəm Allaha, *de görüm*, Peyğəmbərin ﷺ: “Ey Həssan, Allahın elçisinin əvəzinə *müşriklərə* cavab ver! Ey Allah, ona müqəddəs ruhla kömək ol!”– dediyini eşitmisənmi?” Əbu Hureyrə: “Bəli!”– deyə cavab verdi (Səhih əl-Buxari, 453).

٣٨- بَاب كلام رسول الله ﷺ في السَّمَر

38-ci fəsil. Rəsulullahın ﷺ gecə söhbəti[1] barədə dediyi

٢٥٢- حَدَّثَنَا الْحَسَنُ بْنُ صَبَّاحٍ الْبَزَّارُ، قَالَ: حَدَّثَنَا أَبُو النَّضْرِ، قَالَ: حَدَّثَنَا أَبُو عَقِيلٍ الثَّقَفِيُّ عَبْدُ اللهِ بْنُ عَقِيلٍ، عَنْ مُجَالِدٍ، عَنِ الشَّعْبِيِّ، عَنْ مَسْرُوقٍ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((حَدَّثَ رَسُولُ اللهِ ﷺ، ذَاتَ لَيْلَةٍ نِسَاءَهُ حَدِيثًا، فَقَالَتِ امْرَأَةٌ مِنْهُنَّ: كَأَنَّ الْحَدِيثَ حَدِيثُ خُرَافَةَ، فَقَالَ: ((أَتَدْرُونَ مَا خُرَافَةُ؟ إِنَّ خُرَافَةَ كَانَ رَجُلا مِنْ عُذْرَةَ، أَسَرَتْهُ الْجِنُّ فِي الْجَاهِلِيَّةِ، فَمَكَثَ فِيهِمْ دَهْرًا، ثُمَّ رَدُّوهُ إِلَى الإِنْسِ، فَكَانَ يُحَدِّثُ النَّاسَ بِمَا رَأَى فِيهِمْ مِنَ الأَعَاجِيبِ))، فَقَالَ النَّاسُ: ((حَدِيثُ خُرَافَةَ)).

(252) ..... Aişə ﵂ demişdir: “Bir gecə Rəsulullah ﷺ öz zövcələrinə bir əhvalat danışdı. Bu vaxt qadınlardan biri dedi: “Bu söhbət Xurafanın söhbətinə bənzəyir.” Onda Rəsulullah ﷺ dedi: “Heç bilirisiniz, Xurafa kimdir?! Xurafa, Uzra qəbiləsindən olan bir kişi idi. Cahiliyyət dövründə

[1] Hədislərin birində rəvayət edilir ki, Əbu Bərzə əl-Əsləmi ﵁ demişdir: “Peyğəmbər ﷺ sizin “ətəmə” adlandırdığınız işa namazını *gecənin yarısınadək* yubatmağı sevər, bu namazdan əvvəl yatmağı və ondan sonra danışmağı xoşlamazdı” (Səhih əl-Buxari, 547). Bu fəsildəki hədislərdə isə Peyğəmbərin ﷺ zövcəsi ilə söhbət etdiyi xəbər verilir. Bu hədisləri cəm edib demək olar iki, bu namazdan sonra səhərədək istənilən vaxt zövcə ilə söhbət etmək müstəsnadır.

cinlər onu əsir götürmüş və uzun müddət o, onların arasında qalmışdır. Sonra cinlər onu insanların yanına qaytarmış və o da onlara cinlərin yanında ikən gördüyü əcaib-qəraib şeylər danışmışdır." Beləliklə də, insanlar (qəribə şeylər gördükdə): "*Bu,* Xurafa[1] söhbətidir"– deyirmişlər."[2]

٢٥٣- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا عِيسَى بْنُ يُونُسَ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنِ أَخِيهِ عَبْدِ اللهِ بْنِ عُرْوَةَ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((جَلَسَتْ إِحْدَى عَشْرَةَ امْرَأَةً فَتَعَاهَدْنَ وَتَعَاقَدْنَ أَنْ لا يَكْتُمْنَ مِنْ أَخْبَارِ أَزْوَاجِهِنَّ شَيْئًا: فَقَالَتِ الأُولَى: زَوْجِي لَحْمُ جَمَلٍ غَثٍّ وَعَلَى رَأْسِ جَبَلٍ وَعْرٍ، لا سَهْلٌ فَيُرْتَقَى، وَلا سَمِينٌ فَيُنْتَقَلُ قَالَتِ الثَّانِيَةُ: زَوْجِي لا أَبُثُّ خَبَرَهُ، إِنِّي أَخَافُ أَنْ لا أَذَرَهُ، إِنْ أَذْكُرْهُ أَذْكُرْ عُجَرَهُ، وَبُجَرَهُ قَالَتِ الثَّالِثَةُ: زَوْجِي الْعَشَنَّقُ، إِنْ أَنْطِقْ أُطَلَّقْ، وَإِنْ أَسْكُتْ أُعَلَّقْ قَالَتِ الرَّابِعَةُ: زَوْجِي كَلَيْلِ تِهَامَةَ، لا حَرٌّ، وَلا قُرٌّ، وَلا مَخَافَةَ، وَلا سَآمَةَ قَالَتِ الْخَامِسَةُ: زَوْجِي إِنْ دَخَلَ فَهِدَ، وَإِنْ خَرَجَ أَسِدَ، وَلا يَسْأَلُ عَمَّا عَهِدَ قَالَتِ السَّادِسَةُ: زَوْجِي إِنْ أَكَلَ لَفَّ، وَإِنْ شَرِبَ

---

[1] Burada Xurafa adlı adam nəzərdə tutulsa da, əslində, insanlar bu sözlə belə əhvalatların xurafat yəni, mövhumat, uydurma, nağıl və əfsanə olduğunu qəsd edirdilər.

[2] Bu hədisin isnadında keçən Mucalid ibn Səid "qüvvətli ravi deyil" (Təqrib ət-Təhzib). İbn Kəsir bu hədisin "munkər" olduğunu söyləmişdir. (6/53). Habelə Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

اشْتَفَّ، وَإِنِ اضْطَجَعَ الْتَفَّ، وَلا يُولِجُ الْكَفَّ، لِيَعْلَمَ الْبَتَّ قَالَتِ السَّابِعَةُ: زَوْجِي عَيَايَاءُ، أَوْ غَيَايَاءُ طَبَاقَاءُ، كُلُّ دَاءٍ لَهُ دَاءٌ، شَجَّكِ، أَوْ فَلَّكِ، أَوْ جَمَعَ كُلا لَكِ قَالَتِ الثَّامِنَةُ: زَوْجِي الْمَسُّ، مَسُّ أَرْنَبٍ وَالرِّيحُ، رِيحُ زَرْنَبٍ قَالَتِ التَّاسِعَةُ: زَوْجِي رَفِيعُ الْعِمَادِ، عَظِيمُ الرَّمَادِ، طَوِيلُ النِّجَادِ، قَرِيبُ الْبَيْتِ مِنَ النَّادِ قَالَتِ الْعَاشِرَةُ: زَوْجِي مَالِكٌ، وَمَا مَالِكٌ؟ مَالِكٌ خَيْرٌ مِنْ ذَلِكِ، لَهُ إِبِلٌ كَثِيرَاتُ الْمَبَارِكِ، قَلِيلاتُ الْمَسَارِحِ، إِذَا سَمِعْنَ صَوْتَ الْمِزْهَرِ، أَيْقَنَّ أَنَّهُنَّ هَوَالِكُ قَالَتِ الْحَادِيَةَ عَشْرَةَ: زَوْجِي أَبُو زَرْعٍ وَمَا أَبُو زَرْعٍ؟ أَنَاسَ مِنْ حُلِيٍّ أُذُنَيَّ، وَمَلأَ مِنْ شَحْمٍ عَضُدَيَّ، وَبَجَّحَنِي، فَبَجَحَتْ إِلَيَّ نَفْسِي، وَجَدَنِي فِي أَهْلِ غُنَيْمَةٍ بِشَقٍّ فَجَعَلَنِي فِي أَهْلِ صَهِيلٍ، وَأَطِيطٍ وَدَائِسٍ وَمُنَقٍّ، فَعِنْدَهُ أَقُولُ، فَلا أُقَبَّحُ، وَأَرْقُدُ، فَأَتَصَبَّحُ، وَأَشْرَبُ، فَأَتَقَمَّحُ، أُمُّ أَبِي زَرْعٍ فَمَا أُمُّ أَبِي زَرْعٍ؟ عُكُومُهَا رَدَاحٌ، وَبَيْتُهَا فَسَاحٌ، ابْنُ أَبِي زَرْعٍ، فَمَا ابْنُ أَبِي زَرْعٍ؟ مَضْجَعُهُ كَمَسَلِّ شَطْبَةٍ، وَتُشْبِعُهُ ذِرَاعُ الْجَفْرَةِ، بِنْتُ أَبِي زَرْعٍ، فَمَا بِنْتُ أَبِي زَرْعٍ؟ طَوْعُ أَبِيهَا وَطَوْعُ أُمِّهَا، مِلْءُ كِسَائِهَا، وَغَيْظُ جَارَتِهَا، جَارِيَةُ أَبِي زَرْعٍ، فَمَا جَارِيَةُ أَبِي زَرْعٍ؟ لا تَبُثُّ حَدِيثَنَا تَبْثِيثًا، وَلا تُنَقِّثُ مِيرَتَنَا تَنْقِيثًا، وَلا تَمْلأُ بَيْتَنَا تَعْشِيشًا، قَالَتْ: خَرَجَ أَبُو زَرْعٍ، وَالأَوْطَابُ تُمْخَضُ، فَلَقِيَ امْرَأَةً مَعَهَا وَلَدَانِ لَهَا كَالْفَهْدَيْنِ، يَلْعَبَانِ مِنْ تَحْتِ خَصْرِهَا بِرُمَّانَتَيْنِ، فَطَلَّقَنِي وَنَكَحَهَا، فَنَكَحْتُ بَعْدَهُ رَجُلا سَرِيًّا، رَكِبَ شَرِيًّا، وَأَخَذَ خَطِّيًّا، وَأَرَاحَ عَلَيَّ نَعَمًا ثَرِيًّا، وَأَعْطَانِي مِنْ كُلِّ رَائِحَةٍ زَوْجًا،

وَقَالَ: كُلِي أُمَّ زَرْعٍ، وَمِيرِي أَهْلَكِ، فَلَوْ جَمَعْتُ كُلَّ شَيْءٍ أَعْطَانِيهِ، مَا بَلَغَ أَصْغَرَ آنِيَةِ أَبِي زَرْعٍ)).

قَالَتْ عَائِشَةُ: ((فَقَالَ لِي رَسُولُ اللهِ ﷺ: ((كُنْتُ لَكِ كَأَبِي زَرْعٍ لأُمِّ زَرْعٍ)).

(253) ..... Aişə رضي الله عنها demişdir: "(Bir dəfə) on bir qadın bir yerdə oturub öz ərlərinin barəsində olan xəbərlərdən heç bir şey gizlətməyəcəklərinə dair bir-birilərinə söz verdilər.[1]

Birincisi dedi: "Mənim ərim sıldırımlı dağın zirvəsində yerləşən arıq dəvənin ətinə bənzəyir. O dağa çıxmaq asan iş deyil, üstəlik ətin üstündə piy deyilən şey də yoxdur ki, (kimsə onu) götürüb aparsın."[2]

İkincisi dedi: "Mən ərimin eyiblərini açıb-ağardan deyiləm. Çünki qorxuram ki, onun haqqında danışmağa

---

[1] Bu qadınlardan kimisi öz ərini ancaq tərifləmiş, kimisi onu ancaq pisləmiş, kimisi də onun həm yaxşı, həm pis xüsusiyyətlərini zikr etmişdir.

[2] Burada qadın qoç, yaxud dana və ya başqa bir heyvanın ətini deyil, məhz dəvə ətini misal çəkir. Çünki dəvə əti əti yeyilən digər heyvanların ətinə nisbətən daha bərk olur. Üstəlik, bu ətin əlçatmaz yerdə və üzərində piy olmadığını deməklə, onun keyfiyyətsiz bir adam olduğunu xəbər verir. Qadın bu məsəllə ərinin tamahkar, dikbaş, kobud və qanacaqsız bir adam olduğunu, habelə, onda olan xeyirli xüsusiyyətlərin az olduğunu bildirir.

başlasam, onun bütün gizli və aşkar nöqsanlarını söyləməyincə dayanmayım."[1]

Üçüncüsü dedi: "Mənim ərim uzundrazdır. Əgər mən (onun qarasınca) danışsam, o, məni boşayar, yox, əgər sussam, (onda həmişə ondan) asılı vəziyyətdə qalaram."[2]

Dördüncüsü dedi: "Mənim ərim Tihamə[3] gecəsinə bənzəyir. O, nə kəmhövsələ, nə laqeyd, nə qorxunc, nə də zəhlətökən bir adamdır."[4]

Beşincisi dedi: "Mənim ərim evə girəndə bəbirə, çölə çıxanda isə şirə dönür və (mənə) tapşırdığı xırda-para işlərə görə (evinə) söz-söhbət salmır."[5]

Altıncısı dedi: "Mənim ərim yeyəndə də, içəndə də (süfrədə) heç nə saxlamır. Yatağına uzandıqda, (bir tərəfə

---

[1] Qadın bu məsəllə ərinin nöqsanlarının olduqca çox olduğunu və bu haqda danışmaq üçün həddən ziyadə çox vaxt lazım gələcəyini xəbər verir, üstəlik, bu sözlə ərinin həm əxlaq, həm də davranış baxımından yaramaz adam olduğunu bildirir.

[2] Qadın bu sözlərlə ərini məzəmmət edir və onun eyiblərinin olduqca çox, üstəlik də, özünün ədəbsiz və səfeh olduğunu xəbər verir.

[3] Tihamə: Qırmızı dənizin şərq sahili boyu olan ərazidir. Burada gecələr adətən sakit, hava da çox vaxt mülayim olur.

[4] Qadın bu sözlə ərinin gözəl əxlaq sahibi və üzüyola, mötədil bir adam olduğunu, habelə qaba və deyingən olmadığını, kimsənin canını boğazına yığmadığını, ailəsinə əziyyət vermədiyini bildirir.

[5] Qadın bu sözlə ərinin evdə, ailəsinin qeydinə qalan və onun haqqını ödəyən ailəcanlı bir kişi, bayırda isə şücaətkar, xeyirxah və səxavətli bir insan olduğunu xəbər verir.

çəkilib) bürüncəyinə bürünür və heç əlini uzadıb bir baxmır da ki, görsün yanındayam, ya yox."[1]

Yeddincisi dedi: "Mənim ərim olduqca fərsiz, (yaxud aciz-avara) və sarsaq adamdır. Nə nöqsan desəniz, onda tapa bilərsiniz. O, sənin başını yara bilər, bədəninə xəsarət yetirə bilər, yaxud da hər ikisini edə bilər."[2]

Səkkizincisi dedi: "Mənim ərim nərmə-nazik, dovşan tək zərif, zərnəb[3] kimi xoşiyli bir adamdır."[4]

Doqquzuncusu dedi: "Mənim ərim hündür sütuna sahib olan,[5] evində tez-tez ocaq qalanan,[6] belində uzun qın daşıyan[7] və evi (həmişə) qonaq-qaravaşla dolu olan bir adamdır."[8]

---

[1] Burada qadın ərinin paxıl, acgöz və qarınqulu olduğunu, evə gəldikdə, yeməkdən başqa bir şeylə maraqlanmadığını, üstəlik ona diqqət və qayğı göstərmədiyini, yataqda onun haqqını ödəmədiyini xəbər verir.

[2] Burada qadın ərinin nəzakətsiz və qəddar olduğunu, onunla olduqca kobud rəftar etdiyini, özünün də axmaq bir kişi olduğunu söyləyərək onu məzəmmət edir.

[3] Zərnəb: xoşiyli ot.

[4] Burada qadın ərinin olduqca nəzakətli, şirindil və əhli-əyalının nazını çəkən, üstəlik özünün təmizliyinə və əyin-başına fikir verən, habelə gözəl iyli ətirlərlə ətirlənməyi xoşlayan bir adam olduğunu qəsd edir.

[5] Burada "hündür sütuna sahib" deyildikdə, bu kişinin zadəgan nəslinə mənsub, əsilzadə bir adam olduğu nəzərdə tutulur.

[6] Burada söhbət evə gəlmiş qonaq üçün bişirilən yeməklərdən gedir.

[7] Bu adamın belində uzun qılınc daşıması, onun hündürboy adam olmasına dəlalət edir.

[8] Burada qadın ərinin kübar ailəyə mənsub, alicənab, boylu-buxunlu, şücaətkar və olduqca qonaqpərvər bir adam olduğunu xəbər verir.

Onuncusu dedi: “Mənim ərimin adı Malikdir![1] (Nə bilirsiniz) Malik kimdir?![2] (Nə cür vəsf etsəm də,) Malik onlardan daha xeyirlidir.[3] Onun dəvələrinin çoxu ağıllarda,[4] az bir qismi isə otlaqlarda olur. (Ağıllardakı) dəvələr ud səsi eşitdikdə, boğazlanacaqlarını[5] yəqin edirlər.”

On birincisi dedi: “Mənim ərim Əbu Zər'dir. (Nə bilirsiniz) Əbu Zər' kimdir?![6] O, mənim qulaqlarımı zinət

---

[1] Bu qadın ərləri barədə söhbət açmış qadınlar arasında ərinin adını çəkən yeganə qadındır.

[2] Ərəbcə istənilən bir ismin əvvəlinə “nə” (مَا) və ya “nə bilirsən” (وَمَا أَدْرَاكَ) qoyulduqda, bu ədat həmin isimi əzəmətləşdirir və ya onun olduqca dəhşətli olduğunu bildirir. Məsələn, Quranda deyilir: **“Səndən o Saat barəsində: “O, nə vaxt qopacaq?”– *deyə* soruşurlar. Axı, sən onu haradan biləsən?! Onu kamil bilmək sənin Rəbbinə aiddir. Sən yalnız ondan qorxanı xəbərdar edənsən”** (ən-Naziat, 42-45), yaxud deyilir: **“Həqiqətən, Biz *Quranı* Qədr gecəsində nazil etdik! Sən nə biləsən ki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan xeyirlidir. O gecə Rəbbinin izni ilə mələklər və Ruh *Cəbrail* hər işə görə *yerə* enirlər. O gecə sübh açılanadək əmin-amanlıq olur”** (əl-Qədr surəsi) və ya deyilir: **“Kimin tərəziləri yüngül gələrsə, məskəni Haviyə olacaqdır. Sən nə biləsən ki, o nədir? O, çox qızmar bir oddur!”** (əl-Qariə, 8-11).

[3] Burada “onlardan” deyildikdə, öncəki qadınların ərləri nəzərdə tutulur.

[4] Malik bu dəvələri ağıllarda saxlayardı ki, gələn qonaq-qaravaşa onların südündən və ətindən verə bilsin. Bu da, onun çoxlu sərvət sahibi və olduqca səxavətli olduğuna dəlalət edir. Burada qadın onun qonaqpərvər və əliaçıq insan olduğunu bildirir.

[5] Belə ki, ərəblər qonağı qarşıladıqda ud çalar və dəvələr də kəsiləcəklərini hiss edərdilər.

[6] Burada “Nə bilirsiniz Əbu Zər' kimdir?!” sözü də həmçinin, “Nə bilirsiniz Malik kimdir?!” sözünün izah edildiyi kimi izah olunur.

əşyaları ilə bəzəmiş, mən (onun qayğısı sayəsində) toppuş olmuş, habelə, o, mənə sevinc bəxş etmiş və bu mənim könlümü şad etmişdir. O, məni bir neçə qoyuna sahib olan ailədən alıb, at və dəvə sürüsünə sahib, habelə, taxıl döyməklə məşğul olan və tərtəmiz taxıla sahib olan bir ailəyə (gəlin) gətirmişdi.[1] Onun evində danışdığım sözlərə görə heç kəs məni tənbeh etmir, (istəyəndə) günortaya qədər yata bilirdim və istədiyim qədər (süd və s.) içirdim.[2] Əbu Zər'in anası. (Nə bilirsiniz) Əbu Zər'in anası kimdir?! Onun bazar zənbilləri həmişə dolu olur, evi də olduqca genişdir.[3] Əbu Zər'in oğlu. (Nə bilirsiniz) Əbu Zər'in oğlu kimdir?! Onun yatağı xurma çubuğuna bənzəyir, özü də dörd aylıq çəpişin ayağını yesə doyar.[4] Əbu Zər'in qızı. (Nə bilirsiniz) Əbu Zər'in qızı kimdir?! O, ata-anasının qayğısına qalan, toppuş bir qızdır. Onun (gözəlliyi)

---

[1] Qadın bu sözlə kasıb ailədə böyüdüyünü, sonra varlı bir ailəyə gəlin köçdüyünü xəbər verir.

[2] Qadın bu təriflələ ərinin ona olduqca çox qayğı göstərdiyini, ona geyim-keçim və yemək-içmək sarıdan korluq vermədiyini, özünün xoş rəftarı ilə həmişə onun könlünü ələ aldığını, habelə ər evində ona güldən ağır söz deyilmədiyini, evdəki naz-nemətlərdən istədiyi qədər yeyib içdiyini, xoş gün-güzəran içində yaşadığını bildirir.

[3] Burada qadın ərini tərif etdikdən sonra qayınanasını tərifləməyə başlayır. Halbuki, əksər gəlinlərin qayınanadan zəhləsi gedir. Bu da, həmin qayınananın həm gözəlxasiyyətli, həm səxavətli, həm də qonaqpərvər bir adam olduğundan xəbər verir.

[4] Burada qadın bu oğlanın olduqca arıq adam olduğunu və bir də az yediyini bildirir.

günüsünü[1] qəzəbləndirir.[2] Əbu Zər'in kənizi. (Nə bilirsiniz) Əbu Zər'in kənizi kimdir?! Bu kəniz bizim söhbətlərimizi orda-burda danışmaz, yeməyimizi israf etməz, evimizi də həmişə təmiz və səliqəli saxlayar.[3]

Ummu Zər' (davam edib) dedi: "(Yaz aylarında) heyvan sağıldığı vaxt (bir gün) Əbu Zər' (evdən) bayıra çıxdı və yanında bəbir kimi iki uşağı[4] olan bir qadına rast gəldi. Uşaqlar (əllərini) onun belinin altından salıb iki narla[5] oynayırdılar. Bundan sonra Əbu Zər' məni boşayıb, onunla evləndi. Mən də ondan (boşandıqdan) sonra zəngin və alicənab bir adama, yorulmaq bilməyən, gözoxşayan bir at minən, əlində də nizə gəzdirən birisinə ərə getdim.[6] O, mənə çoxlu var-dövlət bəxş etdi, (ev) heyvanlarının hər növündən mənə bir cüt verdi və dedi: "Özün də ye,

---

[1] Günü: birinci arvadın üstünə alınan ikinci, yaxud üçüncü, yaxud da dördüncü arvad.

[2] Yəni, ərinin digər zövcələrini özündən çıxardır. Bəzi alimlər bu cümlədə işlənən "carə" sözünün həqiqi mənada işləndiyini söyləmişlər. Yəni, onun gözəlliyi qonşusunu qəzəbə gətirir.

[3] Burada qadın həmin kənizin xidmət etdiyi ailəyə sadiq olub, onların nöqsanlarını heç yerdə danışmadığını və ağasına xəyanət etməyib onun malını göz bəbəyi kimi qoruduğunu, üstəlik, təmizkar bir qadın olduğunu bildirir.

[4] Burada qadın uşaqların cəld və daim hərəkətdə olduqlarını bildirir.

[5] Qadının yanları yekə olduğundan, o, yerə uzandıqda, beli yuxarı qalxmış və uşaqlar əllərindəki narları onun belinin altından o tərəf-bu tərəfə diyirləyirlərmiş (Fəthul-Bari, 9/273).

[6] Burada qadın onun həm varlı, həm də cəsur və şücaətkar bir adam olduğunu bildirir.

qohumlarına da ver, ey Ummu Zər'!" (Buna rəğmən) əgər mən onun verdiklərinin hamısını bir yerə yığsaydım, (bu əşyalar) Əbu Zər'in ən balaca qabı qədər olmazdı."[1]

Aişə dedi: "Rəsulullah ﷺ (mənə) dedi: "Əbu Zər' Ummu Zər'ə (əziz) olduğu kimi,[2] mən də sənə (əzizəm)."[3]

---

[1] Bu əhvalatdan aydın olur ki, Ummu Zər' ərindən boşanmış olsa da, ərinin ona etdiyi yaxşılıqları unutmamışdır. Təəssüf ki, qadınların böyük əksəriyyəti öz ərlərinə qarşı nankorluq edir, onları pisləyir və onların etdikləri yaxşılıqları heç hesab edir. Bu da, son nəticədə həmin qadınların Cəhənnəm əhlindən olmasına səbəb olur. Hədislərin birində xəbər verilir ki, bir dəfə Peyğəmbər ﷺ: "Mən Cəhənnəm əhlinin əksəriyyətinin qadınlar olduğunu gördüm" – demiş və *camaat* ondan: "Nəyə görə, ya Rəsulullah?"– deyə soruşduqda, o: "Nankorluqlarına görə!"– deyə cavab vermişdir. Sonra onlar: "Allaha qarşımı nankordurlar?"– deyə soruşduqda, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Onlar ərlərinə qarşı nankordurlar, yaxşılığı yerə vururlar. Birisinə il boyu yaxşılıq etsən, sonra da səndən *xoşuna gəlmədiyi* bir şey görsə, deyər: "Mən səndən heç vaxt xeyir görmədim" (Səhih əl-Buxari, 1052).

[2] Peyğəmbər ﷺ bu sözü ilə, Əbu Zər'in Ummu Zər'ə etdiklərinin hamısını yox, ancaq yaxşılıqlarını qəsd edir. Belə ki, Peyğəmbərin ﷺ Aişəni boşayıb, ondan da gözəl qadınla evlənmək fikri yox idi. Demək, buradakı bənzətmə yalnız xeyirxahlıq baxımındandır.

[3] Bu hədisi Buxari (4893), Muslim (2448) və Nəsai (9138) rəvayət etmişdir. İbn Həcər bu hədisi izah edərkən demişdir: "Bu hədisdə bir çox faydalar vardır. Bunlar:

– kişinin (gecə vaxtı) öz zövcəsi ilə mübah sayılan əhvalatlardan söhbət açması; bir şərtlə ki, bütün bunlar, onları (qeybət və s. kimi) günahlar işlətməyə aparıb çıxartmasın;

– kişinin öz əhli-əyalının könlünü açmaq və arada olan ülvi-məhəbbəti artırmaq məqsədi ilə hərdən onunla zarafatlaşması; bir

şərtlə ki, bu zarafat qadında nifrət oyadan şit zarafatlardan olmasın və ona xəsarət toxundurmasın;

– mal-dövlətlə öyünməyin bəyənilməməsi, habelə, dinə aid olan işlərin fəzilətli olduğunu, üstəlik də, kişinin öz zövcəsinə olan həm yaxşı, həm də pis münasibətlərini xüsusilə qeyd etməyin caiz olması.

– kişinin öz zövcələri arasında istəkli zövcəsini tərifləməsinin caiz olması; bir şərtlə ki, digər zövcələrinin də haqqını ödəmiş olsun;

– qadınların öz ərlərinə vəfalı olub onlara xəyanət etməmələrinin, habelə onların etdikləri yaxşılıqlara şükür etməyin vacib əməllərdən sayılması;

– qadının öz ərini olduqca gözəl vəsflərlə vəsf etməsinin və ya ifrat dərəcədə onu məzəmmət etməsinin caiz olması; bir şərtlə ki, bu vəsflər harama gətirib çıxartmasın; Maziri demişdir: "Bəzi alimlər demişlər ki, bu qadınların bəzilərinin öz ərlərinin qarasınca danışması, haram sayılan qeybətə aid deyildir. Çünki burada onlar ərlərinin nə adlarını, nə kimliklərini bildirmirlər. Bir də ki, belə əhvalatları danışmaq o halda qadağan sayıla bilər ki, əhvalatı eşidən kimsə bunu, yəni, qadınların ərlərinin dalınca danışmasını – eşidib təsdiqləsin. Bu hədisdə isə buna dəlalət edən bir əlamət yoxdur. Sadəcə olaraq, Aişə burada olub keçmiş əhvalatı danışır. Yoxsa, qadının haqsız yerə öz ərinin dalınca danışması qeybət hesab olunur..."

– qadının birinci ərindən boşandıqdan sonra belə, ona olan məhəbbətini gizlətməməsinin, vaxtı ilə ona elədikləri yaxşılıqları xatırlamasının, hətta onun etdiklərini sonrakı ərinin etdiklərini müqayisə etməsinin caiz olması..." (Fəthul-Bari, 9/276).

٣٩- بَاب صِفةِ نَوْمِ رسول الله ﷺ

39-cu fəsil. Rəsulullahın ﷺ yatmağının[1] vəsfi

[1] Burada müəllif Peyğəmbərin ﷺ yatmazdan əvvəl etdiyi bəzi duaları, habelə yatağında nə cür uzandığını qeyd etmişdir. Peyğəmbər ﷺ yatmazdan əvvəl bir çox zikrlər edərdi ki, bu zikrlərin mənasına nəzər saldıqda, yuxunun ölümə bənzədiyini aydın başa düşmək olur. Adam yuxuda olduğu müddətcə ruhu Allahın istəyi altında olur. Odur ki, Peyğəmbər ﷺ dua edib deyərdi: "Bismikə rabbi vəda'tu cənbi və bikə ərfəuhu. Fəin əmsəktə nəfsi fərhəmhə və in ərsəltəhə fəhfəzhə bimə təhfəzu bihi ibadəkəs-salihin! (Ey Rəbbim! Sənin adınla böyrümü yerə qoydum, Sənin sayəndə də qaldıraram. Ruhumu tutub saxlasan, ona rəhm et! Onu buraxsan, əməlisaleh qullarını qoruduğun kimi, onu da qoru!)" (Səhih əl-Buxari, 5845; Səhih Muslim, 2714). Yuxunun ölümə bənzəməsi Allahın Kitabında da öz təsdiqini tapmışdır. Bu xüsusda Quranda belə buyurulur: **"Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır. Həqiqətən, bunda ağıl sahibləri üçün dəlillər vardır"** (əz-Zumər, 42); digər ayədə deyilir: **"Gecələr sizi öldürən, gündüzlər isə nələr etdiyinizi bilən Odur. Sonra O, sizi səhərlər oyadır ki, müəyyən olunmuş əcəliniz gəlib çatsın. Sonra isə dönüşünüz Ona olacaq. O, nə etdiklərinizi barədə sizə xəbər verəcəkdir"** (əl-Ənam, 60). Yuxu, həm də Allahın qüdrətli və əzəmətli olduğuna dəlalət edən əlamətlərdəndir. Bu xüsusda Uca Allah buyurur: **"Gecə və gündüz yatıb dincəlməyiniz, Onun lütfünü axtarmağınız da Onun dəlillərindəndir. Həqiqətən, bunda eşidən kəslər üçün ibrətamiz dəlillər vardır"** (ər-Rum, 23). Yuxu eləcə də Allahın insanlara olan mərhəməti və lütfüdür. Bu xüsusda Uca Allah buyurur: **"*Allah* Öz mərhəməti ilə sizin üçün gecəni və gündüzü yaratdı ki, dincələsiniz və Onun lütfündən *ruzi* axtarasınız. Bəlkə, şükür edəsiniz"** (əl-Qəsəs, 73). Bu ayələrdən xəbəri olan ağıl sahibi heç vaxt yatmazdan əvvəl Allahı zikr etməyi unutmaz. Peyğəmbərin ﷺ həyat-tərzinə nəzər salan adam onun yatmazdan əvvəl Allahı çox

٢٥٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ عَبْدِ اللهِ بْنِ يَزِيدَ، عَنِ الْبَرَاءِ بْنِ

---

zikr etdiyini görə bilər. İbn Qeyyim öz kitabında bu xüsusda qırxa yaxın hədis zikr etmişdir. Peyğəmbərin ﷺ yolunu tutub gedən hər bir müsəlman da bu zikrlərdən "səhih" olanlarını əzbərləməli və yatmazdan əvvəl onları deməlidir. Bu zikrlərin möminə həm bu dünyada, həm də axirətdə böyük faydaları vardır. Bunlar insanı şeytandan qoruyan səbəblərdəndir. Hədislərin birində xəbər verilir ki, şeytanın səhabəyə dediyi: "Yatağına uzananda Kürsü – **"Allah, Ondan başqa ilah yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur..."**– ayəsini axıra qədər oxu. Əgər bunu etsən, səhər yuxudan oyananadək sənin yanında Allahın təyin etdiyi gözətçi *bir mələk* durar və şeytan sənə yaxınlaşmaz" sözü, Peyğəmbər ﷺ təsdiqləyib demişdir: "O, sənə doğru söylədi, halbuki özü qatı yalançıdır" (Səhih əl-Buxari, 2311). Yatmazdan əvvəl zikr edib yatan müsəlman təkAllahlığı qəbul etdiyini bir daha sübuta yetirmiş olur. Və əgər bu halda vəfat edərsə, fitrət üzərində, Allaha şərik qoşmadığı halda vəfat etmiş sayılar. Yox, əgər yuxudan oyanıb, həyatına davam edərsə, Allah əməlisaleh qullarını qoruduğu kimi onu da qoruyar. Rəvayət edilir ki, Nofəl əl-Əşcəi ﷺ demişdir: "*Bir dəfə* mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Ey Allahın Peyğəmbəri! Mənə elə bir şey öyrət ki, mən onu yatağıma girdiyim zaman oxuyum." Peyğəmbər ﷺ buyurdu: "(Yatağına uzandığın zaman): **"De: "Ey Kafirlər!"** (əl-Kafirun) surəsini oxu və yat. Heç şübhəsiz ki, bu surə səni şirkdən uzaq tutar" (Səhih İbn Hibban 787; Sunən ət-Tirmizi, 2709; Səhih əl-Cami, 1161). Üstəlik, yatmazdan qabaq edilən zikrlər insana dünyəvi işləri görməyə qüvvət verir. Hədislərin birində xəbər verilir ki, Fatimə ﷺ Peyğəmbərdən ﷺ ev işlərində ona kömək edəcək bir kəniz istədiyi zaman, Peyğəmbər ﷺ ona belə buyurmuşdur: "Məndən istədiyinizdən daha xeyirlisini sizə öyrədimmi? Yatağınıza uzandığınız zaman otuz dörd dəfə "Allahu Əkbər", otuz üç dəfə "Sübhanəllah" və otuz üç dəfə "Əlhəmdulillah" deyin. Bu, sizin üçün xidmətçidən daha xeyirli olar" (Səhih əl-Buxari, 3705).

عَازِبٍ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا أَخَذَ مَضْجَعَهُ وَضَعَ كَفَّهُ الْيُمْنَى تَحْتَ خَدِّهِ الأَيْمَنِ، وَقَالَ: ((رَبِّ قِنِي عَذَابَكَ يَوْمَ تَبْعَثُ عِبَادَكَ)).

(254) ..... Bəra ibn Azib ﷺ rəvayət edir ki,[1] Peyğəmbər ﷺ yatağına uzandığı zaman sağ əlini sağ yanağının altına qoyub deyərdi: "Rabbi, qını əzabəkə yovmə təb'asu ibadəkə.[2]"

---

[1] Bu hədisi Nəsai "əl-Yovm vəl-Leylə" əsərində (755) və imam Əhməd Musnəd əsərində (4/281) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir. Digər bir hədisdə Peyğəmbərin ﷺ zövcəsi Həfsə rəvayət etmişdir ki, Peyğəmbər ﷺ bu zikri üş dəfə təkrar edərmiş (Sunən Əbu Davud, 4388; Silsilətul-Əhadisis-Səhihə, 2754). Başqa bir rəvayətdə də, "Rabbi" sözünün yerinə "Allahummə" sözü rəvayət edilmişdir (Sunən Əbu Davud, 4/311).

[2] Tərcüməsi: "Ey Rəbbim, bəndələrini dirildəcəyin gün, məni Öz əzabından qoru!" Yatağa uzandıqda, sağ böyrü üstə uzanmaq və sağ əli sağ yanağın altına qoymaq yatmaq ədəblərindəndir. Və əgər müsəlman bu sünnəyə əməl edərsə, xeyir-bərəkətə nail olar. Çünki Peyğəmbərimizin ﷺ bizə öyrətdiyi hər bir sözdə və hər bir hərəkətdə xeyir-bərəkət vardır. Peyğəmbər ﷺ hər bir işdə sağdan başlamağı xoşladığı kimi, yatanda da sağ böyrü üstə yatmağı xoşlayardı. Arxası üstə uzanmağa gəlincə, bu, caiz olan uzanmaya aiddir. Abbad ibn Təmim rəvayət etmişdir ki, əmisi *Abdullah ibn Zeyd əl-Ənsari* Peyğəmbərin ﷺ arxası üstə uzanıb, bir ayağını o biri ayağının üstünə qoyduğunu görmüşdür (Səhih əl-Buxari, 5724 və Səhih Muslim, 2100). Sol böyür üstə uzanmağa gəlincə, bu xüsusda heç bir qadağa varid olmadığından, alimlər bu cür uzanmağın mübah olduğunu söyləmişlər. Üzüqoylu yatmaq isə Allahın nifrət etdiyi əməllərdəndir. Rəvayət edilir ki, Tixfə ibn Qeys əl-Ğifari ﷺ demişdir: "*Bir dəfə* mən gecənin axır vaxtında məsciddə üzüqoylu yatdığım zaman, bir nəfər gəlib ayağı ilə məni silkələyib dedi: "Qalx! Bu cür uzanmağa Allah

٢٥٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي عُبَيْدَةَ، عَنْ عَبْدِ اللهِ، مِثْلَهُ وَقَالَ: ((يَوْمَ تَجْمَعُ عِبَادَكَ)).

(255) ..... Əbu Ubeydə demişdir: "Abdullah ibn Məsud bu hədisin bənzərini rəvayət etmiş və (Peyğəmbərin ﷺ): "yovmə təcməu ibadəkə[1]"– (dediyini) xəbər vermişdir.[2]"[3]

٢٥٦- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَبْدِ الْمَلِكِ بْنِ عُمَيْرٍ، عَنْ رِبْعِيِّ بْنِ حِرَاشٍ، عَنْ حُذَيْفَةَ ، قَالَ:

---

nifrət edər." Mən başımı qaldırıb Peyğəmbərin ﷺ başımın üstündə dayandığını gördüm" (Ədəbul-Mufrəd, 1187); digər rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Bu elə bir uzanmadır ki, Allah onu sevməz" (Səhih əl-Cami, 2270). Muhəmməd ibn Saleh əl-Useymin bu xüsusda demişdir: "Arxası üstə yatmaq caiz, sol böyür üstə yatmaq da habelə caiz, sağ böyrü üstə yatmaq əfzəl, üzüqoylu yatmaq isə bəyənilməyən əməllərdəndir. Yalnız zəruri halda üzüqoylu uzanmaq caizdir" (Şərh Riyadus-Salihin, 824-cü hədisin şərhi).

[1] Yəni, Peyğəmbər ﷺ yatağına uzandığı zaman sağ əlini sağ yanağının altına qoyub deyərdi: "Rabbi, qini əzabəkə yovmə təcməu ibadəkə (Ey Rəbbim, bəndələrini bir yerə toplayacağın gün, məni Öz əzabından qoru!)"

[2] Bu zikrlərdə "dirildəcəyin gün" və "bir yerə toplayacağın gün" deyildikdə, Qiyamət günü nəzərdə tutulur. Bu da, insana ölümü xatırladır. Demək, yatmaq ölümə, yuxudan oyanmaq isə dirilməyə bənzəyir. Odur ki, Peyğəmbər ﷺ yuxudan oyandıqda deyərdi: "Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun!"

[3] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

((كَانَ النَّبِيُّ ﷺ إِذَا أَوَى إِلَى فِرَاشِهِ، قَالَ: ((اللَّهُمَّ بِاسْمِكَ أَمُوتُ وَأَحْيَا))، وَإِذَا اسْتَيْقَظَ، قَالَ: ((الْحَمْدُ لِلَّهِ الَّذِي أَحْيَانَا بَعْدَمَا أَمَاتَنَا وَإِلَيْهِ النُّشُورُ)).

(256) ..... Huzeyfə ﷺ demişdir: "Peyğəmbər ﷺ yatağına uzandığı zaman: "Allahummə, bismikə əmutu və əhya[1]"– deyər,[2] yuxudan oyandıqda isə: "Əlhəmdulilləhil-ləzi əhyanə bə'də mə əmatənə və ileyhin-nuşur [3] "– deyərdi.[4]"[5]

٢٥٧- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا الْمُفَضَّلُ بْنُ فَضَالَةَ، عَنْ عُقَيْلٍ، أُرَاهُ عَنِ الزُّهْرِيِّ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كَانَ رَسُولُ اللهِ ﷺ،

---

[1] Tərcüməsi: Allahım, Sənin adınla ölürəm və dirilirəm!

[2] Bu zikri edən hər bir müsəlman həyatının da, ölümünün də yalnız Allah üçün olduğunu qəsd edir. Necə ki, Quranda buyurulur: **"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!"** (əl-Ənam, 162).

[3] Tərcüməsi: Bizi öldürdükdən sonra dirildən Allaha həmd olsun. (Ölüb dirildikdən sonra isə) qayıdış Onadır!

[4] Yuxudan oyanmağın özü böyük nemətdir. Neçə-neçə insanlar olub ki, yatıb durmayıb və bu, onun son yatışı olub. Odur ki, hər bir müsəlman yuxudan oyandıqda, bu nemətə şükür etməli və onu həyata qaytaran Allaha həmd etməlidir. Uca Allah buyurur: **"Yada salmaq və şükür etmək istəyənlər üçün gecə ilə gündüzü bir-birinin ardınca gətirən Odur"** (əl-Furqan, 62); digər ayədə buyurulur: **"Allaha şükür et! Kim şükür etsə, özü üçün şükür etmiş olar. Kim nankor olsa, *bilsin ki*, Allah *onun şükrünə* möhtac deyildir, Tərifəlayiqdir"** (Loğman, 12).

[5] Bu hədisi Buxari (5953), Əbu Davud (5049),Tirmizi (3413), İbn Macə (3880) və Əhməd (5/397) rəvayət etmişdir.

إِذَا أَوَى إِلَى فِرَاشِهِ كُلَّ لَيْلَةٍ جَمَعَ كَفَّيْهِ فَنَفَثَ فِيهِمَا، وَقَرَأَ فِيهِمَا: ﴿قُلْ هُوَ اللَّهُ أَحَدٌ﴾ وَ ﴿قُلْ أَعُوذُ بِرَبِّ الْفَلَقِ﴾ وَ ﴿قُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ﴾، ثُمَّ مَسَحَ بِهِمَا مَا اسْتَطَاعَ مِنْ جَسَدِهِ، يَبْدَأُ بِهِمَا رَأْسَهُ وَوَجْهَهُ وَمَا أَقْبَلَ مِنْ جَسَدِهِ، يَصْنَعُ ذَلِكَ ثَلاثَ مَرَّاتٍ)).

(257) ..... Aişə ﵂ demişdir: "Rəsulullah ﷺ hər gecə[1] yatağına girdiyi zaman əllərini cütləşdirib onların içinə üfürər,[2] sonra ora (şərdən qoruyan surələri) **"De: "O Allah Təkdir..."**, **"De: "Sığınıram sübhün Rəbbinə..." və "De: "Sığınıram insanların Rəbbinə..."** (surələrini)[3] oxu-

[1] Bu dəlildir ki, Peyğəmbər ﷺ bu zikrləri heç vaxt tərk etməyib. Hətta ölümqabağı yatağa düşdüyü zaman belə bu zikrləri tərk etməmiş, çətinlik çəkə-çəkə olsa da, zövcəsi Aişənin ﵂ köməyi ilə bu zikrləri etmişdir. Rəvayət edilir ki, Aişə ﵂ demişdir: "Peyğəmbər ﷺ xəstələndiyi zaman şərdən qoruyan surələri ("əl-İxlas", "əl-Fələq" və "ən-Nas" surələrini) oxuyub ovuclarına üfürər, sonra da əllərini *baş və üz nahiyəsindən başlayaraq, bacardığı qədər* bədəninin hər yerinə sürtərdi. Vəfat etməmişdən qabaq, xəstəliyi şiddətləndikdə isə onun oxuyub üfürdüyü bu surələri mən onun üçün oxuyub *ovcuna* üfürər və əllərini onun bədəninə sürtərdim" (Səhih əl-Buxari, 4439).

[2] Burada "üfürmək" deyildikdə, yüngülvarı tüpürmək nəzərdə tutulur. Bu fəsildəki hədisdə Peyğəmbərin ﷺ əvvəlcə əllərinin içinə üfürdüyü, sonra bu surələri oxuduğu, Əbu Davudun "Sunən" əsərində isə onun əvvəlcə bu surələri oxuduğu, sonra əllərinin içinə üfürdüyü xəbər verilir. İbn Həcər bu iki hədisi cəm edib demişdir: "Bu surələri oxuya-oxuya əllərin içinə üfürmək gərəkdir" (Fəthul-Bari, 10/210).

[3] Burada "əl-İxlas", "əl-Fələq" və "ən-Nas" surələri nəzərdə tutulur.

yar, daha sonra isə əllərini baş və üz nahiyəsindən başlayaraq, bacardığı qədər bədəninin hər yerinə sürtərdi.[1] Beləcə, o, bunu üç dəfə təkrar edərdi."[2]

٢٥٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ سَلَمَةَ بْنِ كُهَيلٍ، عَنْ كُرَيْبٍ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّ رَسُولَ اللهِ ﷺ، نَامَ حَتَّى نَفَخَ، وَكَانَ إِذَا نَامَ نَفَخَ، فَأَتَاهُ بِلالٌ فَآذَنَهُ بِالصَّلاةِ، فَقَامَ وَصَلَّى وَلَمْ يَتَوَضَّأْ. وَفِي الْحَدِيثِ قِصَّةٌ.

(258) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ uzanıb yatdı və xoruldamağa başladı. (Ümumiyyətlə,) o, yatarkən xoruldayardı. Sonra Bilal onu namaza[3] çağırdı və o, qalxıb dəstəmaz almadan[4] namaz qıldı."[5]

(Əbu İsa ət-Tirmizi demişdir): "Bu, uzun bir hədisin bir hissəsidir."[6]

---

[1] Bunu edən kimsəni Allah şeytandan və digər ziyanvericilərdən qoruyar.

[2] Bu hədisi Buxari (5960), Əbu Davud (5056), Tirmizi (3399) və İbn Macə (3875) rəvayət etmişdir.

[3] Burada "namaz" deyildikdə, sübh və ya zöhr namazı nəzərdə tutulur.

[4] Bu, yalnız Peyğəmbərə ﷺ aiddir. Belə ki, digər insanlardan fərqli olaraq, Peyğəmbərin ﷺ yatmağı onun dəstəmazını pozmur. Çünki Peyğəmbərin ﷺ gözləri yatsa da, qəlbi yatmır. Hədislərin birində Peyğəmbər ﷺ Aişəyə رضي الله عنها belə buyurmuşdur: "Ey Aişə, mənim gözlərim yatsa da, qəlbim yatmır" (Səhih əl-Buxari, 1147).

[5] Bu hədisi Buxari (5957), Muslim (763), Əbu Davud (5043), İbn Macə (508) və Əhməd (1/330) rəvayət etmişdir.

[6] İmam Buxari bu hədisi tam olaraq, belə rəvayət etmişdir: İbn Abbas رضي الله عنهما demişdir: "*Bir dəfə mən xalam* Məymunənin evində ge-

٢٥٩- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ: حَدَّثَنَا عَفَّانُ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ رَسُولَ اللهِ ﷺ، كَانَ إِذَا أَوَى إِلَى فِرَاشِهِ، قَالَ: ((الْحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنَا وَسَقَانَا وَكَفَانَا وَآوَانَا، فَكَمْ مِمَّنْ لا كَافِيَ لَهُ وَلا مُؤْوِيَ)).

(259) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ yatağına girdiyi zaman deyərdi: "Əlhəmdulilləhil-ləzi ət'amənə və səqanə və kəfanə və əvanə, fə kəm mimmən lə kafiyə ləhu və lə mu'viyə.[1]"[2]

---

cələdim. Gecə vaxtı Peyğəmbər ﷺ yuxudan oyanıb su başına çıxdı, sonra üzünü və əllərini yuyub yenə uzanıb yatdı. *Bir müddətdən* sonra qalxıb su tuluğuna yaxınlaşdı və onun ağzındakı ipi açıb suyu israf etmədən, kamil şəkildə dəstəmaz aldı və namaza durdu. Onu güddüyümü başa düşməsin deyə, qalxıb gərnəşdim, sonra dəstəmaz alıb namaz qılmaq üçün onun solunda durdum. O, qulağımdan tutub məni sağ tərəfinə keçirdi. Peyğəmbər ﷺ namazı on üç rükətə tamamladı. Sonra uzanıb yatdı və xoruldamağa başladı. *Ümumiyyətlə* o, yatarkən xoruldayardı. Sonra Bilal onu namaza çağırdı və o, qalxıb dəstəmaz almadan namaz qıldı və belə dua etdi: "Allahım, qəlbimə nur saç! Gözümə nur saç və qulağıma nur saç! Sağımdan və solumdan nur saç! Başımın üstündən və ayağımın altından nur saç! Önümə və arxama nur saç! Mənim üçün nur saç!" (Səhih əl-Buxari, 6316).

[1] Tərcüməsi: "Bizi yedirdən, içirdən, qoruyan və bizə sığınacaq verən Allaha həmd olsun! Neçə-neçə şəxslər vardır ki, onların nə bir qoruyanı, nə də bir sığınacaq veräni var!" Yatmazdan əvvəl belə dua etmək, gün ərzində Allahın verdiyi bu ruzilərə şükür etmək deməkdir.

[2] Bu hədisi Muslim (2715), Əbu Davud (5053), Tirmizi (3393) və Əhməd (3/153; 167; 253) rəvayət etmişdir.

٢٦٠- حَدَّثَنَا الْحُسَيْنُ بْنُ مُحَمَّدٍ الْجُرَيْرِيُّ، قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ حُمَيْدٍ، عَنْ بَكْرِ بْنِ عَبْدِ اللهِ الْمُزَنِيِّ، عَنْ عَبْدِ اللهِ بْنِ رَبَاحٍ، عَنْ أَبِي قَتَادَةَ، أَنَّ النَّبِيَّ ﷺ، كَانَ إِذَا عَرَّسَ بِلَيْلٍ اضْطَجَعَ عَلَى شِقِّهِ الأَيْمَنِ، وَإِذَا عَرَّسَ قُبَيْلَ الصُّبْحِ نَصَبَ ذِرَاعَهُ، وَوَضَعَ رَأْسَهُ عَلَى كَفِّهِ.

(260) ..... Əbu Qətadə[1] ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ səfərdə[2] gecə vaxtı dincəlmək üçün dayandığı zaman, sağ böyrü üstə uzanar, dan yerinin ağarmasına yaxın dincəlmək üçün dayandığı zaman isə (sadəcə) dirsəklənər[3] və başını *sağ* əlinin içinə qoyardı.[1]

---

[1] Əbu Qətadə Haris ibn Rəbi əl-Ənsari əs-Suləmi ﷺ Peyğəmbər ﷺ səhabəsidir. (Siyər Əlam ən-Nubələ, 87-ci tərcümeyi-hal).

[2] Burada "səfər" deyildikdə, təkcə səfər əsnasında deyil, başqa vaxtlarda da, həmçinin, yatmaq istədiyi zaman sağ böyrü üstə uzanıb yatardı.

[3] Peyğəmbər ﷺ belə edərdi ki, dərin yuxuya dalıb sübh namazının vaxtını keçirməsin. Bu cür yatmaq sübh namazına qalxmağa kömək edən amillərdəndir. Yatmazdan əvvəl zikrləri etməyən, habelə sübh namazına qalxmağa kömək olan amillərdən yapışmayan və nəhayət, sübh namazına yatıb qalan kimsənin isə aqibəti həqiqətən də, çox pis olar. Bu xüsusda rəvayət edilmiş hədisdə Abdullah ibn Məsud ﷺ demişdir: "Peyğəmbərin ﷺ yanında bir adam haqqında söhbət açıldı və: "*Filankəs* səhərə qədər yatıb, heç namaza da qalxmayıb"– deyildi. Peyğəmbər ﷺ də belə buyurdu: "Şeytan onun qulağına sidik ifraz etmişdir" (Səhih əl-Buxari, 1144); başqa bir hədisdə Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Sizlərdən biri yatdığı zaman şeytan onun boynunun ardına üç düyün vurur və hər

düyün vurduqca: "Gecə uzundur, yat!"– *deyir*. Əgər o kimsə oyanıb Allahı zikr etsə, düyünlərdən biri açılar, dəstəmaz alsa, ikincisi açılar, namaz qılsa, üçüncüsü açılar və beləliklə də o adam səhər gümrah və əhvali-ruhiyyəsi yaxşı olduğu halda yuxudan oyanar. Əks halda isə o, əhvali-ruhiyyəsi çox pis, özü də əzgin halda yuxudan oyanar" (Səhih əl-Buxari, 1142).

[1] Bu hədisi Muslim (683) və Əhməd (5/298; 309) rəvayət etmişdir.

٤٠ – بَاب فِي عِبادة رسول الله ﷺ

40-cı fəsil. Rəsulullahın ﷺ ibadəti[1] barədə

[1] İbadət sözünün lüğəti mənası: zəlil olmaq deməkdir. Məsələn ərəbcə uzanmış halda olan dəvəyə "bəirun muəbbəd", ayaqlar altında tapdanaraq düzəlmiş yola isə "tariqun muəbbəd" deyilir. İbadət sözünün istilahi mənası isə belədir: Allahın sevdiyi və razı qaldığı hər bir zahiri və batini söz və əməl ibadət adlanır.

Allah insanları və cinləri məhz Ona ibadət etmək üçün yaratmışdır: Bu xüsusda Uca Allah buyurur: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım"** (əz-Zariyat, 56). **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"– *deyə*, elçi göndərdik"** (ən-Nəhl, 36). Hədislərin birində rəvayət edilir ki, Muaz ibn Cəbəl ﷺ demişdir: "*Bir dəfə* mən Peyğəmbərin ﷺ tərkində ikən, o dedi: "Ey Muaz, bilirsən, Allahın qulları üzərindəki haqqı və qulların da Allah üzərindəki haqqı nədir?" Mən: "Allah və Onun rəsulu daha yaxşı bilir!"– dedim. O buyurdu: "Allahın qulları üzərindəki haqqı, qulların Ona ibadət edib, heç kəsi Ona şərik qoşmamalarıdır. Qulların Allah üzərindəki haqqı isə, Ona heç nəyi şərik qoşmayan qullarına əzab verməməsidir" (Səhih əl-Buxari, 2856). Demək, ibadətin haqqı Allaha məxsusdur və Ondan qeyrisinə ibadət etmək ən böyük günahdır. Rəvayət edilir ki, Abdullah ibn Məsud ﷺ demişdir: "*Bir dəfə* mən Peyğəmbərdən ﷺ soruşdum ki: "Hansı günah Allah yanında ən böyük günah sayılır?" Dedi: "Səni yaradan Allaha *başqa birisini* tay tutmağındır!" (Səhih əl-Buxari, 4477).

İbadət üç sütun üzərində qurulur:

1. Pak və müqəddəs olan Allahı kamil şəkildə sevmək. Bu xüsusda, Uca Allah buyurur: **"İman gətirənlərin Allaha olan sevgisi isə daha güclüdür"** (əl-Bəqərə, 165).

2. Allahın mərhəmətinə tam şəkildə ümid bəsləmək. Uca Allah buyurur: **"Onlar Allahın rəhmətini umurlar"** (əl-İsra, 57).

٢٦١- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، وَبِشْرُ بْنُ مُعَاذٍ، قَالا: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ زِيَادِ بْنِ عِلاقَةَ، عَنِ الْمُغِيرَةِ بْنِ شُعْبَةَ، قَالَ: ((صَلَّى رَسُولُ اللهِ ﷺ، حَتَّى انْتَفَخَتْ قَدَمَاهُ، فَقِيلَ لَهُ: ((أَتَتَكَلَّفُ هَذَا، وَقَدْ غَفَرَ اللَّهُ لَكَ مَا تَقَدَّمَ مِنْ ذَنْبِكَ وَمَا تَأَخَّرَ؟)) قَالَ: ((أَفَلا أَكُونُ عَبْدًا شَكُورًا)).

(261) ..... Muğira ibn Şobə ﷺ demişdir:[1] "(Bir dəfə) Rəsulullah ﷺ (gecə) namazını qıldı (və o qədər ayaq üstə

---

3. Nöqsansız və qüsursuz Allahdan layiqincə qorxmaq. Uca Allah buyurur: **"...*və* Allahın əzabından qorxurlar"** (əl-İsra, 57).

İbadət yalnız iki şərtlə qəbul olunur:

1. Allah qarşısında ixlaslı olmaq. Bu xüsusda, Uca Allah buyurur: **"De: "Mən dinimi məhz Allaha məxsus edərək, yalnız Ona ibadət edirəm"** (əz-Zumər, 14).

2. Peyğəmbərin ﷺ sünnəsini tutub getmək. Belə ki, Uca Allah yalnız Peyğəmbərin ﷺ yoluna uyğun olan əməlləri qəbul edir. Uca Allah buyurur: **"Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan, tam təslim olmayınca, iman gətirmiş olmazlar"** (ən-Nisa, 65). Rəsulullah ﷺ belə buyurmuşdur: "Kim bizim bu işimizə (dinimizə) ondan olmayan bir şeyi əlavə edərsə, o rədd olunar." Yəni, onun özünə qayıdar.

Müəllifin bu fəsilə verdiyi ad ümumi olsa da, yəni, ibadətin hər növünə aid edilsə də, fəslin altında gətirdiyi hədislər Rəsulullahın ﷺ yalnız gecə namazlarına aiddir.

[1] Bu hədisi Buxari (1078), Muslim (2819), Tirmizi (412), İbn Macə (1419) və Əhməd (4/251) rəvayət etmişdir.

durdu ki,[1]) hətta, ayaqları şişdi. (Sonra) ona: "Nə üçün özünü bu ağır yüklə yükləyirsən?! Axı, Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır"– deyildi. Onda o: "Şükür edən bir qul olmayımmı?!"[2]– deyə cavab verdi."

---

[1] Hədislərin birində xəbər verilir ki, Rəsulullah ﷺ gecə namazının bir rükətində "əl-Bəqərə", "Ali-İmran" və "ən-Nisa" surələrini oxumuşdur (Sunən ən-Nəsai, 1009; Səhih İbn Macə, 897).

[2] Allahın verdiyi nemətlərə şükür etmək hər bir bəndənin borcudur. Və bu şükür həm qəlb, həm dil, həm də əməllə təsdiqlənməlidir. Yəni, adam ona bu nemətləri bəxş edən Allaha minnətdar olduğunu qəlbən etiraf etməli, dili ilə Ona şükür etməli və şükür əlaməti olaraq ibadəti yalnız Ona yönəltməlidir. Bu hədis də məhz əməllə təsdiqlənən şükürə aiddir. Burada Peyğəmbər ﷺ möminə xas iki məqama toxunur, həm qul, həm də şükür edən bir bəndə olmasını təmənna edir. Halbuki o, ibadət etmək və şükür etmək xüsusunda kamilliyə çatmış bəndələrdəndir. Bu hədisi oxuduqda, elə başa düşülməməlidir ki, Peyğəmbər ﷺ ibadət etdikdə, canına zülm edər, həddən ziyadə bir əməli yerinə yetirərmiş. Xeyr, o, hər bir ibadəti yerinə yetirdikdə, nə ifrata varar, nə də ki, etdiyi ibadətə laqeyd yanaşar, əksinə, orta yol tutardı. Bu xüsusda varid omuş hədislərin birində Ənəs ibn Malik ﷺ demişdir: "*Bir dəfə* üç nəfər Peyğəmbərin ﷺ evinə gəlib onun əhli-əyalından Peyğəmbərin ﷺ ibadəti barəsində soruşdu. Bu haqda onlara xəbər verildikdə, onlar *etdikləri ibadətin* az olduğunu güman edib belə dedilər: "Yəni biz Peyğəmbər ﷺ kimi ola bilərikmi? Üstəlik, Allah onun bütün keçmiş və gələcək xətalarını bağışlamışdır." Onlardan birisi dedi: "Mən bütün gecələri ibadət edəcəyəm, yatmayacağam." O birisi dedi: "Mən il boyu oruc tutacağam, *gündüzlər* yemək yeməyəcəyəm." Üçüncüsü dedi: "Mən qadınlara yaxın durmayacağam, heç vaxt evlənməyəcəyəm." Peyğəmbər ﷺ *bunu eşidəndən sonra* onların yanına gəlib dedi: "Filan, filan sözləri sizmi demisiniz?! Vallahi ki, aranızda Allahdan ən çox qorxanınız mənəm. Bununla belə, mən bəzən oruc tutur, bəzən də tutmuram, gecənin bir vaxtını namaz qılır, digərində isə dincəlirəm və

nəhayət, mən qadınlarla evlənirəm. Belə olduğu halda, mənim yolumdan çıxan kimsələr məndən deyillər" (Səhih əl-Buxari, 5063). Peyğəmbər ﷺ ibadəti sevə-sevə yerinə yetirmiş, ümmətinə də belə etməyi, özlərini daşıya bilməyəcəkləri bir yüklə yükləməməyi tövsiyə edib demişdir: "Siz bacardığınızı yerinə yetirməlisiniz. Vallahi ki, siz usanmadıqca, Allah usanmaz" (Səhih əl-Buxari, 43); başqa hədisdə rəvayət edilir ki, Abdullah ibn Amr رضي الله عنهما demişdir: "*Bir gün* Peyğəmbər ﷺ məndən soruşdu: "Sən necə oruc tutursan?" Dedim: "Hər gün." Soruşdu: "Quranı necə xətm edirsən?" Dedim: "Hər gecə." Onda, o, *mənə* belə buyurdu: "Hər ayın üç gününü oruc tut, Quranı da ayda bir dəfə xətm et!" Dedim: "Mənim bundan da çox *ibadət* etməyə gücüm çatar." O dedi: "Həftədə üç gün oruc tut!" Dedim: "Mənim bundan da artığına gücüm çatar." Dedi: "İki gündən bir oruc tut!" Dedim: "Mənim bundan da artığına gücüm çatar." Dedi: "*Elə isə* ən əfzəl orucu – günaşırı oruc tutan Davudun orucunu tut və həftədə bir dəfə *gecələr Quranı başdan axıradək* oxu." Abdullah ibn Amr *yaşa dolduqdan sonra* deyərdi: "Kaş, Peyğəmbərin ﷺ verdiyi rüsxəti qəbul edərdim. *İndi* mən artıq qocalıb əldən düşmüşəm" (Səhih əl-Buxari, 5052). Demək, hər bir müsəlman bacardığından artıq ifrat dərəcədə yox, az da olsa davamlı şəkildə ibadət etməyə çalışmalıdır. Elə Allaha sevimli olan ibadət də məhz belə ibadətlərdir. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Doğru yol tutun, *ən kamil olanı yerinə yetirə bilməsəniz də, heç olmasa, ona* yaxınlaşın və bilin ki, sizlərdən heç kəsin əməli onu Cənnətə daxil edə bilməz. Bilin ki, əməllərdən Allahın ən çox xoşuna gələni az da olsa, davamlı olanıdır" (Səhih əl-Buxari, 6465). Demək, əməlin çoxluğu ilə deyil, onu yalnız Allah üçün və Peyğəmbərin ﷺ öyrətdiyi kimi yerinə yetirməklə Allahın mərhəmətinə nail olmaq və beləliklə də, Cənnəti qazanmaq olar. Əbu Hureyrə رضي الله عنه rəvayət etmişdir ki, *bir dəfə* Peyğəmbər ﷺ *səhabələrinə* dedi: "Sizlərdən heç kəsin əməli onu əzabdan xilas etməyəcək." *Səhabələr* soruşdular: "Səni də, ya Rəsulullah?" Dedi: "Hətta, məni də. Yalnız Allahın mənə mərhəmət göstərməsi istisnadır. Elə isə doğru yol tutun, *ən kamil olanı yerinə yetirə bilməsəniz də, heç olmasa, ona* yaxınlaşın, səhər və axşam, habelə gecənin bir vaxtı *yaxşı işlər görməyə* çalışın. Beləcə də, yavaş-yavaş

٢٦٢- حَدَّثَنَا أَبُو عَمَّارٍ الْحُسَيْنُ بْنُ حُرَيْثٍ، قَالَ: حَدَّثَنَا الْفَضْلُ بْنُ مُوسَى، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ، يُصَلِّي حَتَّى تَرِمَ قَدَمَاهُ، قَالَ: فَقِيلَ لَهُ: ((أَتَفْعَلُ هَذَا وَقَدْ جَاءَكَ أَنَّ اللَّهَ تَعَالَى قَدْ غَفَرَ لَكَ مَا تَقَدَّمَ مِنْ ذَنْبِكَ وَمَا تَأَخَّرَ؟)) قَالَ: ((أَفَلا أَكُونُ عَبْدًا شَكُورًا)).

(262) ..... Əbu Hureyrə ﷺ demişdir: "Rəsulullah ﷺ (gecə) namazını o qədər uzadardı ki, axırda ayaqları şişər və ona: "(Niyə) belə edirsən?! Axı, sənə xəbər verilmişdir ki,[1] Uca Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır?!"– deyildikdə, o: "Şükür edən bir qul olmayımmı?!"– deyərdi."[2]

---

muradınıza çatacaqsınız" (Səhih əl-Buxari, 6463). Gecə namazını və başqa bu kimi nafilə ibadətlərini yerinə yetirməyin faydası isə olduqca böyükdür. Bu xüsusda varid olmuş qüdsi hədisdə Uca Allah belə buyurur: "Qulum, nafilə ibadətləri yerinə yetirməklə Mənə o qədər yaxınlaşar ki, Mən onu sevərəm. Onu sevdiyim təqdirdə onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən diləsə, ona dilədiyini verərəm, sığınacaq istəsə, ona sığınacaq verərəm" (Səhih əl-Buxari, 6502).

[1] Quranda Uca Allah Öz peyğəmbərinə belə buyurur: **"Həqiqətən, Biz sənə aydın bir zəfər bəxş etdik ki, Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlasın, sənə olan nemətini tamamlasın, səni düz yola yönəltsin və Allah sənə böyük bir qələbə ilə kömək etsin"** (əl-Fəth, 1-3).

[2] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

٢٦٣- حَدَّثَنَا عِيسَى بْنُ عُثْمَانَ بْنِ عِيسَى بْنِ عَبْدِ الرَّحْمَنِ الرَّمْلِيُّ، قَالَ: حَدَّثَنَا عَمِّي يَحْيَى بْنُ عِيسَى الرَّمْلِيُّ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ يَقُومُ يُصَلِّي حَتَّى تَنْتَفِخَ قَدَمَاهُ فَيُقَالُ لَهُ: ((يَا رَسُولَ اللهِ، تَفْعَلُ هَذَا وَقَدْ غَفَرَ اللَّهُ لَكَ مَا تَقَدَّمَ مِنْ ذَنْبِكَ وَمَا تَأَخَّرَ؟))، قَالَ: ((أَفَلا أَكُونُ عَبْدًا شَكُورًا)).

(263) ..... Əbu Hureyrə ﷺ demişdir: "Rəsulullah ﷺ ayaq üstə durub o qədər namaz qılardı ki, axırda, ayaqları şişər və ona: "Ya Rəsulullah, (niyə) belə edirsən?! Axı Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır?!"– deyildikdə o: "Şükür edən bir qul olmayımmı?!"– deyə cavab verərdi."[1]

٢٦٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنِ الأَسْوَدِ بْنِ يَزِيدَ، قَالَ: ((سَأَلْتُ عَائِشَةَ، عَنْ صَلاةِ رَسُولِ اللهِ ﷺ بِاللَّيْلِ؟ فَقَالَتْ: ((كَانَ يَنَامُ أَوَّلَ اللَّيْلِ ثُمَّ يَقُومُ، فَإِذَا كَانَ مِنَ السَّحَرِ أَوْتَرَ، ثُمَّ أَتَى فِرَاشَهُ، فَإِذَا كَانَ لَهُ حَاجَةٌ أَلَمَّ بِأَهْلِهِ، فَإِذَا سَمِعَ الأَذَانَ وَثَبَ، فَإِنْ كَانَ جُنُبًا أَفَاضَ عَلَيْهِ مِنَ الْمَاءِ، وَإِلا تَوَضَّأَ وَخَرَجَ إِلَى الصَّلاةِ)).

(264) ..... Əsvəd ibn Yezid demişdir: "Mən Aişədən Rəsulullahın ﷺ gecə namazı barəsində soruşdum. O dedi:

[1] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

"O, gecənin birinci qismini[1] yatar, sonra qalxıb namaz qılardı.[2] Dan yerinin sökülməyinə az qalmış isə vitri qılar,

[1] Burada "gecənin birinci qismi" deyildikdə, işa namazından sonra gələn gecənin birinci saatı nəzərdə tutulur. Və saat deyildikdə bizim bildiyimiz altmış dəqiqə deyil, gecənin altıda biri qəsd edilir. Gecənin vaxtı isə, günəşin batdığı andan başlayıb dan yeri söküldüyü an başa çatır. Hədisdən aydın olur ki, Peyğəmbər ﷺ işa namazından sonra yatardı.

[2] Burada "sonra" deyildikdə, gecənin yarısından sonra gələn dördüncü və beşinci qismləri nəzərdə tutulur. Belə ki, bütün gecə, yəni, günəş batdığı andan dan yeri söküldüyü anadək olan vaxt altı qismə bölünür. Birinci üç qismi gecə yarısınadək, sonrakı, dördüncü, beşinci və altıncı qismləri isə dan yeri sökülən vaxtadək davam edir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Allahın ən çox xoşuna gələn namaz Davudun qıldığı namaz, ən çox xoşuna gələn oruc isə Davudun tutduğu orucdur. Davud gecənin yarısını yatar, sonra qalxıb onun üçdə birini namaz qılar, sonra da yerdə qalan altıda birini yatardı. Orucu da günaşırı tutardı" (Səhih əl-Buxari, 1131). Muhəmməd ibn Saleh əl-Useymin bu hədisi şərh edərkən demişdir: "Gecə üç qismə bölünür: birinci qismi yatmaq üçün, sonra üçdə bir hissəsi gecə namazı üçün və *son* altıda biri yatmaq üçün. Çünki bunda bədən üçün bir rahatlıq vardır. Belə ki, adam gecənin yarısını yatdığı zaman kifayət qədər dincini almış (gündüzün yorğunluğunu çıxarmış) olur. Nəhayət, gecənin üçdə birini ibadətdə keçirdikdən sonra *axır* altıda birini yatdığı zaman gecənin axırındakı bu yuxu həmin ibadətin yorğunluğunu aradan qaldırır. Hərçənd, adam gecənin istənilən vaxtı qalxıb namaz qılarsa, savaba nail olar, lakin Peyğəmbərin ﷺ buyurduğu daha əfzəl və Allah üçün daha sevimlidir. Bu ibadətin savabına nail olmaq üçün kifayətdir ki, imkanın daxilində gecənin axır üçdə birini, yaxud orta üçdə birini, yaxud da birinci yarısını ibadətdə keçirəsən. Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ gecənin hər bir qismində: gecənin əvvəlində də, ortasında da, axırında da namaz

sonra da yatağına gəlib (uzanar) və istəyərdisə, zövcəsi ilə yaxınlıq edərdi. Azanı eşitdikdə[1] isə dərhal ayağa qalxar və əgər cənabətli halda olardısa, başından su əndərər,[2] əks təqdirdə, isə dəstəmaz alıb[3] namaza gedərdi."[4]

٢٦٥- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، عَنْ مَالِكِ بْنِ أَنَسٍ؛ ح: وَحَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى الأَنْصَارِيُّ، قَالَ: حَدَّثَنَا مَعْنٌ، عَنْ مَالِكٍ، عَنْ مَخْرَمَةَ بْنِ سُلَيْمَانَ، عَنْ كُرَيْبٍ، عَنِ ابْنِ عَبَّاسٍ، أَنَّهُ أَخْبَرَهُ، أَنَّهُ بَاتَ عِنْدَ مَيْمُونَةَ وَهِيَ خَالَتُهُ، قَالَ: ((فَاضْطَجَعْتُ فِي عَرْضِ الْوِسَادَةِ، وَاضْطَجَعَ رَسُولُ اللهِ ﷺ فِي طُولِهَا، فَنَامَ رَسُولُ اللهِ ﷺ، حَتَّى إِذَا انْتَصَفَ اللَّيْلُ أَوْ قَبْلَهُ بِقَلِيلٍ أَوْ بَعْدَهُ بِقَلِيلٍ، فَاسْتَيْقَظَ رَسُولُ اللهِ ﷺ، فَجَعَلَ يَمْسَحُ النَّوْمَ عَنْ وَجْهِهِ، ثُمَّ قَرَأَ الْعَشْرَ الآيَاتِ الْخَوَاتِيمَ مِنْ سُورَةِ آلِ عِمْرَانَ، ثُمَّ قَامَ إِلَى شَنٍّ مُعَلَّقٍ فَتَوَضَّأَ مِنْهَا، فَأَحْسَنَ الْوُضُوءَ، ثُمَّ قَامَ يُصَلِّي، قَالَ عَبْدُ اللهِ بْنُ عَبَّاسٍ: فَقُمْتُ إِلَى جَنْبِهِ فَوَضَعَ رَسُولُ اللهِ ﷺ، يَدَهُ

---

qılmışdır" (Şərh Riyadus-Salihin, 1177-ci hədisin şərhi). Bu xüsusda, Uca Allah buyurur: **"Həqiqətən, Rəbbin bilir ki, sən və sənin**lə olan **insanların bir qismi *bəzən* gecənin üçdə ikisindən az, *bəzən* yarısını, *bəzən də* üçdə birini *ibadət üçün* dursunuz"** (əl-Muzzəmmil, 20).

[1] Burada söhbət sübh namazının azanından gedir.

[2] Yəni, tam şəkildə qüsl edərdi.

[3] Peyğəmbərin ﷺ dəstəmaz almağının səbəbi, ya onu təzələmək, ya da başqa bir şey olmuşdur. Çünki digər insanlardan fərqli olaraq, Peyğəmbərin ﷺ yatmağı onun dəstəmazını pozmazdı. Rəvayət edilir ki, İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ *uzanıb* yatdı, hətta xorultusu belə eşidildi. Sonra qalxıb *dəstəmaz almadan* namaz qıldı" (Səhih əl-Buxari, 138).

[4] Bu hədisi Buxari (1095) və Əhməd (6/102) rəvayət etmişdir.

الْيُمْنَى عَلَى رَأْسِي ثُمَّ أَخَذَ بِأُذُنِي الْيُمْنَى، فَفَتَلَهَا فَصَلَّى رَكْعَتَيْنِ، ثُمَّ رَكْعَتَيْنِ، ثُمَّ رَكْعَتَيْنِ، ثُمَّ رَكْعَتَيْنِ، ثُمَّ رَكْعَتَيْنِ، ثُمَّ رَكْعَتَيْنِ، قَالَ مَعْنٌ: سِتَّ مَرَّاتٍ، ثُمَّ أَوْتَرَ، ثُمَّ اضْطَجَعَ ثُمَّ جَاءَهُ الْمُؤَذِّنُ، فَقَامَ فَصَلَّى رَكْعَتَيْنِ خَفِيفَتَيْنِ، ثُمَّ خَرَجَ فَصَلَّى الصُّبْحَ)).

(265) ..... İbn Abbas رضي الله عنهما xalası Məymunənin evində gecələdiyini xəbər verib demişdir: [1] "Mən yatağın köndələninə uzandım, Rəsulullah ﷺ isə yatağın uzununa uzandı.[2] Rəsulullah ﷺ yuxuya getdi. Nəhayət, gecə yarısı yetişdikdə, və ya bundan bir az əvvəl, yaxud bir az sonra Rəsulullah ﷺ yuxudan oyandı və gözlərini ovxalayıb yuxusunu dağıtmağa başladı. Sonra Ali-İmran surəsinin son on ayəsini oxudu.[3] Sonra qalxıb (tavandan) asılmış

---

[1] Bu hədisi Buxari (181), Muslim (763), Əbu Davud (1364), Nəsai (397), İbn Macə (1363) və Əhməd (1/284) rəvayət etmişdir. Hərçənd, İbn Abbas رضي الله عنهما, xalası Məymunədən رضي الله عنها Peyğəmbərin ﷺ gecə namazı barəsində soruşa bilərdi, lakin o, bunu öz gözləri ilə müşahidə etmək istədiyindən onun evində gecələmişdir. Bu, uşağın gecə namazını qılmağa həris olması, onun nə dərəcədə fəzilətli bir insan olduğunu bir daha sübuta yetirir.

[2] Burada İbn Abbas رضي الله عنهما Peyğəmbərin ﷺ ayaqları altında uzandığını xəbər verir. Bu da, səhabənin Peyğəmbərə ﷺ nə dərəcədə ehtiram göstərdiyini bildirir.

[3] Yəni: **"Doğrusu, göylərin və yerin xəlq edilməsində, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıllı adamlar üçün dəlillər vardır..."** (190-cı) ayədən başlayıb həmin surəni axıradək oxudu. Digər bir hədisdə rəvayət edilir ki, Əta رحمه الله demişdir: "*Bir dəfə* mən İbn Umeyrlə birgə Aişənin yanına gəldim və İbn Umeyr ona: "Rəsulullahdan ﷺ gördüyün ən heyrətamiz hadisəni bizə danış"– dedi.

köhnə cürdəyə yaxınlaşdı və kamil şəkildə dəstəmaz aldı. Sonra durub namaz qıldı. Mən də qalxıb (dəstəmaz aldım və gedib) onun yanında durdum. Rəsulullah ﷺ sağ əlini mənim başıma qoydu və sağ qulağımdan tutub onu (yavaşca) dartdı.[1] Sonra iki rükət, sonra yenə iki rükət,

---

Bunu eşitdikdə, Aişə ağladı, sonra dedi: "Gecələrin birində Rəsulullah ﷺ yuxudan oyandı və mənə: "Ey Aişə, izin ver, mən Rəbbimə ibadət edim"– dedi. Mən dedim: "Vallahi ki, mən sənin Allaha yaxın olmağını istəyirəm, üstəlik, səni sevindirən hər bir əməli sevirəm." Sonra o, qalxıb dəstəmaz aldı və namaz qıldı. *Namazda* o qədər ağladı ki, sinəsi göz yaşına bələndi. Sonra yenə o qədər ağladı ki, hətta *durduğu* yer də göz yaşı ilə islandı. Nəhayət, Bilal gəlib Rəsulullahdan ﷺ azan vermək üçün izn istədi və onun ağladığını gördükdə, dedi: "Ya Rəsulullah, *niyə* ağlayırsan?! Axı Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır?!" Onda Rəsulullah ﷺ belə buyurdu: "Şükür edən bir qul olmayımmı?! Bu gecə mənə ayələr nazil oldu. Vay o kəsin halına ki, bu ayələri oxuyub onların barəsində düşünməsin: **"Doğrusu, göylərin və yerin xəlq edilməsində, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıllı adamlar üçün dəlillər vardır..."** (Səhih İbn Hibban, 523; Silsilətul-Əhadisis-Səhihə, 68).

[1] Burada İbn Abbas رضي الله عنهما Rəsulullahın ﷺ sol tərəfində durmuş və Rəsulullah ﷺ onun sağ qulağından tutub özünün sağ tərəfinə keçirmişdir. Buxarinin rəvayətində bu, öz təsdiqini tapmışdır. Həmin rəvayətdə İbn Abbas رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ qulağımdan tutub məni sağ tərəfinə keçirdi" (Səhih əl-Buxari, 6316). Bu da, dəlildir ki, iki kişi bir yerdə namaz qıldığı zaman imam solda, ona tabe olan kimsə isə onun sağında, həm də yanaşı durmalıdırlar. Və əgər kimsə bilməməzliyi üzündən namaz əsnasında gəlib imamın solunda dursa, imamın o kimsəni özünün sağ tərəfinə keçirməsi namazı batil edən artıq hərəkətlərdən sayılmaz. Onu da qeyd edək ki, həmin adamın qulağından tutmaq vacib deyil, qolundan və ya başından tutmaq da kifayət edər. Muslimin "Səhih"ində (1824) Rəsulullahın ﷺ İbn Abbasın رضي الله عنهما əlindən tutub sağ tərəfinə keçirdiyi rəvayət

sonra yenə iki rükət, sonra yenə iki rükət, sonra yenə iki rükət, sonra yenə iki rükət,[1] sonra da bir rükət (namaz) qıldı. Sonra (yatağına) uzandı. Nəhayət, müəzzin onun yanına gəldikdə, qalxıb iki rükət xəfifcə namaz qıldı.[2] Sonra gedib sübh namazını qıldırdı."

---

edilmişdir. Və əgər üçüncü bir adam da gəlib imama qoşularsa, onda imam onların hər ikisini arxa tərəfinə keçirməlidir. Bu xüsusda varid olmuş hədisdə Cabir ﷺ demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ qalxıb namaz qıldı və mən də gəlib onun sol tərəfində namaza durdum. Onda o, mənim əlimdən tutub sağ tərəfinə keçirtdi. Daha sonra Cabbar ibn Saxr gəlib onun sol tərəfində durdu. Onda Rəsulullah ﷺ əlimizdən tutub, bizi arxa tərəfinə keçirtdi" (Səhih Muslim, 3010). Lakin xüsusilə vurğulamaq gərəkdir ki, bu keçirmə imamın önündən deyil, arxa tərəfindən olmalıdır. Bir də ki, bu hədis nafilə namazının camaat şəklində qılınmasının caiz olduğuna dəlalət edir.

[1] Ma'n demişdir: "O, bu iki rükətləri altı kərə təkrar etmişdir." Bu dəlildir ki, gecə namazlarında hər iki rükətdən bir salam verib namazı tamamlamaq və təkrükətli vitri ayrıca qılmaq daha əfzəldir.

[2] Burada söhbət sübh namazından öncə qılınan nafilə namazından gedir. Peyğəmbərin ﷺ bu iki rükəti xəfif qılmasına dair rəvayət edilmiş digər bir hədisdə Aişə ﷺ demişdir: "Peyğəmbər ﷺ sübh namazından əvvəl qıldığı iki rükət *nafilə namazını* o qədər qısa qılardı ki, mən *öz-özümə*: "Görəsən o, "əl-Fatihə" surəsini oxudumu?"– deyərdim" (Səhih əl-Buxari, 1171). Lakin başqa rəvayətlərdə onun bu namazda "əl-Kafirun" və "əl-İxlas" surələrini oxuması ona dəlalət edir ki, bu namazda qısa surələrdən oxumaq caizdir. Peyğəmbərin ﷺ sübh namazının sünnəsində bu iki surəni oxuması, gününə tövhid surələri ilə başlaması deməkdir. Təbəraninin "Mocəm əl-Kəbir" əsərində rəvayət edilir ki, Peyğəmbər ﷺ məğrib namazından sonra qıldığı iki rükət nafilə namazında da həmçinin "əl-Kafirun" və "əl-İxlas" surələrini oxuyardı (Silsilətul-Əhadisis-Səhihə, 3328). Bu da, Peyğəmbərin ﷺ gününə tövhid surələri ilə başa vurması deməkdir. Habelə gecə namazlarını bu iki surə ilə tamamlaması, onun gecəni

٢٦٦- حَدَّثَنَا أَبُو كُرَيْبٍ مُحَمَّدُ بْنُ الْعَلاءِ، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، عَنْ شُعْبَةَ، عَنْ أَبِي جَمْرَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ يُصَلِّي مِنَ اللَّيْلِ ثَلاثَ عَشْرَةَ رَكْعَةً)).

(266) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ gecə namazını on üç rükət[1] qılardı."[2]

٢٦٧- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا أَبُو عَوَانَةَ، عَنْ قَتَادَةَ، عَنْ زُرَارَةَ بْنِ أَوْفَى، عَنْ سَعْدِ بْنِ هِشَامٍ، عَنْ عَائِشَةَ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا لَمْ يُصَلِّ بِاللَّيْلِ، مَنَعَهُ مِنْ ذَلِكَ النَّوْمُ، أَوْ غَلَبَتْهُ عَيْنَاهُ، صَلَّى مِنَ النَّهَارِ ثِنْتَيْ عَشْرَةَ رَكْعَةً.

(267) ..... Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ yuxuya qalma və ya gözlərindən yuxu tökülməsi səbə-

---

tövhid surələri ilə başa vurması deməkdir. Bu da Peyğəmbərin ﷺ tövhidə olduqca əzmlə bağlı olduğunu bir daha sübuta yetirir. Ümumiyyətlə qeyd edək ki, dörd vaxtda bu iki surəni oxumaq əfzəldir: sübh namazından əvvəl və məğrib namazından sonra qılınan iki rükət nafilə namazlarında, habelə, gecə namazlarının son rükətlərində və bir də yatmazdan əvvəl.

[1] 270 və 272-ci hədislərdə Peyğəmbərin ﷺ gecə namazını on bir rükət, 273-cü hədisdə isə doqquz rükət qıldığı xəbər verilir. Buxarinin "Səhih"ində (1071) isə onun gecə namazını yeddi rükət qıldığı da varid olmuşdur. Bu hədisləri cəm edib demək olar ki, gecə namazını yeddi, yaxud doqquz, yaxud on bir, yaxud da on üç rükət qılmaq caizdir. Lakin ən əfzəli Peyğəmbərin ﷺ davamlı qıldığı kimi on bir rükət qılmaqdır.

[2] Bu hədisi Buxari (1087), Muslim (764) və Tirmizi rəvayət etmişdir.

bindən gecə namazını qılmadığı təqdirdə (həmin namazları), gündüz vaxtı on iki rükət[1] qılardı.[2]

[1] Bu hədis dəlildir ki, üzrlü səbəbdən dolayı vaxtında qılınmamış nafilə namazının qəzasını qılmaq caizdir. Hədisdən o da aydın olur ki, gecə namazını gündüz vaxtı qılmaq istəyən kimsə onu cüt sayda qılmalıdır. Demək, hər kim gecə namazını on bir rükət qılmaq niyyətində olmuşsa, gündüz vaxtı onu on iki rükət, doqquz rükət qılmaq niyyətində olmuşsa, gündüz ikən onu on rükət, yeddi rükət qılmaq niyyətində olmuşsa, gündüz onu səkkiz rükət, beş rükət qılmaq niyyətində olmuşsa, gündüz onu altı rükət, üç rükət qılmaq niyyətində olmuşsa, gündüz onu dörd rükət qılmalıdır. Ömər ibn Xəttabın ﷺ bu xüsusda rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Hər kim (gecə namazında) oxuduğu hizbi və ya onun bir qismini *oxumayıb* (gecə namazını qılmayıb) yatsa, sonra da qalxıb sübh ilə zöhrün arasında onu qılarsa, sanki onu gecə qılmış kimi ona *savab* yazılar" (Səhih Muslim, 1236). Qeyd etmək lazımdır ki, ümumi dəlillərə əsasən, bu namazı günəş üfüqdən bir nizə hündürlüyündə yüksəldikdən sonra qılmaq daha münasib sayılır. Çünki Peyğəmbər ﷺ sübh namazından sonra namaz qılmağı qadağan etmişdir. Lakin qeyd edək ki, yada düşən kimi bu gecə namazını qılmaq caizdir. Ənəs ibn Malikin ﷺ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim namaza yatıb qalarsa və ya onu unudarsa, qoy yadına düşən kimi onu qılsın. Çünki onun bundan başqa kəffarəsi yoxdur" (Səhih əl-Buxari, 597; Səhih Muslim, 684). Bu hədis dəlildir ki, adam yaxşı əməli taqəti yetdiyi qədər davamlı yerinə yetirməli və onu tərk etməməlidir (Şərh Riyadus-Salihin, 153-cü hədisin şərhi).

[2] Bu hədisi Muslim (746), Nəsai (1789) və Tirmizi (445) rəvayət etmişdir.

٢٦٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْعَلاءِ، قَالَ: حَدَّثَنَا أَبُو أُسَامَةَ، عَنْ هِشَامٍ يَعْنِي ابْنَ حَسَّانَ، عَنْ مُحَمَّدِ بْنِ سِيرِينَ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ، قَالَ: ((إِذَا قَامَ أَحَدُكُمْ مِنَ اللَّيْلِ فَلْيَفْتَتِحْ صَلاتَهُ بِرَكْعَتَيْنِ خَفِيفَتَيْنِ)).

(268) ..... Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Qoy sizlərdən biri gecə (namazına) qalxdığı zaman (qılacağı namazları) iki xəfif[1] rükətlə başlasın."[2]

٢٦٩- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، عَنْ مَالِكِ بْنِ أَنَسٍ؛ ح: قَالَ: وَحَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنْ عَبْدِ اللهِ بْنِ أَبِي بَكْرٍ، عَنْ أَبِيهِ، أَنَّ عَبْدَ اللهِ بْنَ قَيْسِ بْنِ مَخْرَمَةَ أَخْبَرَهُ، عَنْ زَيْدِ بْنِ خَالِدٍ الْجُهَنِيِّ، أَنَّهُ قَالَ: ((لأَرْمُقَنَّ صَلاةَ النَّبِيِّ ﷺ، فَتَوَسَّدْتُ عَتَبَتَهُ، أَوْ فُسْطَاطَهُ فَصَلَّى رَسُولُ اللهِ ﷺ، رَكْعَتَيْنِ خَفِيفَتَيْنِ، ثُمَّ صَلَّى رَكْعَتَيْنِ طَوِيلَتَيْنِ، طَوِيلَتَيْنِ، طَوِيلَتَيْنِ، ثُمَّ صَلَّى رَكْعَتَيْنِ وَهُمَا دُونَ اللَّتَيْنِ قَبْلَهُمَا، ثُمَّ صَلَّى رَكْعَتَيْنِ وَهُمَا دُونَ

---

[1] Hərəvi demişdir: "Bunun hikməti ondadır ki, adam bu iki rükəti qılmaqla özünün əhval-ruhiyyəsini qaldırmış (və beləliklə də, vücudunu qılacağı gecə namazına hazır etmiş) olsun. İstənilən ağır bir işi yerinə yetirmək üçün ona tədricən öyrəşmək lazım gəldiyi kimi, bu namazları qılmazdan əvvəl də iki rükət xəfif namaz qılmaq daha münasibdir" (Camul-Vəsail).

[2] Bu hədisi Muslim (768), Əbu Davud (1323) və Əhməd (2/232) rəvayət etmişdir.

اللَّتَيْنِ قَبْلَهُمَا، ثُمَّ صَلَّى رَكْعَتَيْنِ وَهُمَا دُونَ اللَّتَيْنِ قَبْلَهُمَا، ثُمَّ صَلَّى رَكْعَتَيْنِ وَهُمَا دُونَ اللَّتَيْنِ قَبْلَهُمَا، ثُمَّ أَوْتَرَ فَذَلِكَ ثَلاثَ عَشْرَةَ رَكْعَةً)).

(269) ..... Zeyd ibn Xalid əl-Cuhəni ﷺ demişdir: "(Bir gecə) mən Peyğəmbərin ﷺ namazına göz qoymaq qərarına gəldim və gəlib onun (alaçığının)[1] kandarında, yaxud çadırının yanında yerə uzandım.[2] Rəsulullah ﷺ iki xəfif rükətlə namaza başladı. Sonra iki rükət uzun-uzadı[3] namaz qıldı. Sonra daha iki rükət namaz qıldı və bu iki rükət əvvəlkindən qısa oldu. Sonra yenə iki rükət namaz qıldı və bu iki rükət əvvəlkindən qısa oldu. Sonra yenə iki rükət namaz qıldı və bu iki rükət əvvəlkindən qısa oldu. Sonra yenə iki rükət namaz qıldı və bu iki rükət əvvəlkindən qısa oldu. Sonra vitri qıldı. Beləliklə də, on üç rükət[4] (namaz qıldı)."[1]

---

[1] Alaçıq: çubuqdan qurulub üstü keçə ilə örtülən köçəri mənzili.

[2] Hədisdən aydın olur ki, səhabənin gecə namazının nə cür qılınmasını öyrənmək məqsədilə Peyğəmbərə ﷺ göz qoyması səfərdə onun əhli-əyalı həmin çadırda olmadığı bir vaxtda baş vermişdir. Çünki əgər Peyğəmbərin ﷺ zövcəsi onun yanında olmuş olsaydı, səhabə onun çadırına yaxın getməzdi. Demək, dini öyrənmək məqsədilə kənardan elm əhlinə göz qoymaq caiz olan əməllərdəndir.

[3] Digər bir hədisdə Rəsulullah ﷺ belə buyurmuşdur: "Namazların ən əfzəli qiyamı ən uzun olanıdır" (Səhih Muslim, 756).

[4] Bu hədisdə və daha öncə İbn Abbasın رضي الله عنهما rəvayət etdiyi hədisdə Peyğəmbərin ﷺ on üç rükət qıldığı, Aişənin رضي الله عنها rəvayətində isə Peyğəmbərin ﷺ on bir rükətdən artıq gecə namazı qılmadığı xəbər verilir. Bu rəvayətləri cəm edib demək olar ki, Aişə رضي الله عنها on bir rükət

٢٧٠- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنْ سَعِيدِ بْنِ أَبِي سَعِيدٍ الْمَقْبُرِيِّ، عَنْ أَبِي سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ، أَنَّهُ أَخْبَرَهُ أَنَّهُ سَأَلَ عَائِشَةَ، كَيْفَ كَانَتْ صَلاةُ رَسُولِ اللهِ ﷺ فِي رَمَضَانَ؟ فَقَالَتْ: ((مَا كَانَ رَسُولُ اللهِ ﷺ لِيَزِيدَ فِي رَمَضَانَ وَلا فِي غَيْرِهِ عَلَى إِحْدَى عَشْرَةَ رَكْعَةً، يُصَلِّي أَرْبَعًا، لا تَسْأَلْ عَنْ حُسْنِهِنَّ، وَطُولِهِنَّ، ثُمَّ يُصَلِّي أَرْبَعًا لا تَسْأَلْ عَنْ حُسْنِهِنَّ وَطُولِهِنَّ، ثُمَّ يُصَلِّي ثَلاثًا، قَالَتْ عَائِشَةُ: قُلْتُ: ((يَا رَسُولَ اللهِ، أَتَنَامُ قَبْلَ أَنْ تُوتِرَ؟)) فَقَالَ: ((يَا عَائِشَةُ، إِنَّ عَيْنَيَّ تَنَامَانِ، وَلا يَنَامُ قَلْبِي)).

(270) ..... Əbu Sələmə ibn Abdur-Rəhman rəvayət etmişdir ki, (bir dəfə) o, Aişədən: "Peyğəmbər ﷺ ramazan ayında[2] necə namaz qılardı?"– deyə soruşmuş və Aişə də

---

deyəndə, Peyğəmbərin ﷺ əvvəldə qıldığı iki xəfif rükəti nəzərə almırdı (270-ci hədisə bax).

[1] Bu hədisi Muslim (765), Əbu Dabud (1366), İbn Macə (1362) və Əhməd (5/193) rəvayət etmişdir.

[2] Ramazan ayı başlayandan qurtaranadək gündəlik olaraq işa namazından sonra istər məsciddə, istərsə də başqa bir təmiz yerdə, fərdi olaraq və ya camaatla birlikdə on bir rükət qılınan gecə namazı "təravih" adlanır. Ümumiyyətlə, gecə namazına "təhəccüd" və ya "qiyamul-leyl" deyilir. Yeri gəlmişkən qeyd edək ki, nə təravih, nə də başqa günlərdə qılınan gecə namazları bu ümmətə fərz buyrulmamışdır. Aişənin ﵂ rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ *ramazan ayında* gecənin bir aləmində məscidə gəlib namaz qıldı və bir neçə səhabə də onunla birlikdə bu namazı qıldı. Səhəri gün camaat bu namazdan *başqalarına* danışmağa başladı. Növbəti gecə namaza əvvəlkindən daha çox adam toplaşıb, onun

ona belə cavab vermişdir: "Peyğəmbər ﷺ nə ramazanda, nə də ki başqa aylarda (gecələr) on bir rükətdən artıq namaz qılmazdı. [1] (Əvvəlcə) dörd rükət qılardı ki, bu rükətlərin (necə) gözəl və (nə qədər) uzun olduğu barədə

---

arxasında *gecə* namazı qıldılar. Səhəri gün camaat yenə bu namazdan danışdı. Üçüncü gecə məscidə gələnlərin sayı lap çox idi. Peyğəmbər ﷺ gəlib *gecə* namazını qıldı və səhabələr də onunla birlikdə bu namazı qıldılar. Dördüncü gecə *namaza gələnlərin sayı həddindən artıq çox olduğundan,* camaat məscidə yerləşmirdi. *O gecə Peyğəmbər ﷺ namaza gəlmədi*. Nəhayət, səhər məscidə gəlib sübh namazını qıldırdı, sonra da üzünü camaata tutub şəhadət kəlməsini gətirdi və dedi: "Sonra isə... Doğrusu, mən sizin etdiklərinizdən xəbərsiz deyildim. Lakin mən bu namazın sizə vacib buyurulacağından və sizin də onu yerinə yetirə bilməyəcəyinizdən ehtiyat etdim" (Səhih əl-Buxari, 2012); digər hədisdə Nəcd əhlindən olan saçları dağınıq bir kişi Peyğəmbərin ﷺ yanına gəldi. Biz uzaqdan onun gurultulu səsini eşidir, amma nə dediyini anlamırdıq. Nəhayət, yaxına gəldi və aydın oldu ki, İslam barəsində soruşur. Peyğəmbər ﷺ buyurdu: "Gün ərzində beş vaxt namaz *qılmalısan*." Kişi soruşdu: "Mənə bundan başqası vacib buyurulubmu?" Peyğəmbər ﷺ: "Xeyr! Yalnız könüllü olaraq qıldığından başqa"– deyə cavab verdi..." (Səhih əl-Buxari, 46).

[1] Bu hədisdə Aişə ﵂ Peyğəmbərin ﷺ on bir rükətdən artıq gecə namazı qılmadığını, Buxarinin "Səhih"ində rəvayət edilmiş hədisdə isə onun on üç rükət gecə namazı qıldığını xəbər vermişdir. İbn Həcər bu rəvayətləri cəm edib demişdir: "Ola bilsin ki, Aişə ﵂ burada on üç deyəndə, Peyğəmbərin ﷺ işa namazından sonra evində qıldığı iki rükət nafilə namazını və ya gecə namazlarının əvvəlində qıldığı iki xəfif rükəti, bu on bir rükətə əlavə etmişdir. Düşünürəm ki, Əbu Sələmənin rəvayətində, Aişənin: "Peyğəmbər ﷺ nə ramazanda, nə də ki başqa aylarda *gecələr* on bir rükətdən artıq namaz qılmazdı" sözü, bu namazın rükətlərinin sayını daha dəqiq bildirən rəvayətdir" (Fəthul-Bari, 3/21).

heç soruşma. Sonra (yenə) dörd rükət qılardı ki, bu rükətlərin də (necə) gözəl və (nə qədər) uzun olduğu barədə heç soruşma. Daha sonra üç rükət qılardı."

Aişə davam edib dedi: "Mən (Peyğəmbərdən ﷺ): "Ya Rəsulullah, vitr namazını qılmamış yatırsan?"[1] – deyə soruşdum. O buyurdu: "Ey Aişə, mənim gözlərim yatsa da, qəlbim yatmır.[2]"[3]

٢٧١- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ، أَنَّ رَسُولَ اللهِ ﷺ، كَانَ يُصَلِّي مِنَ اللَّيْلِ إِحْدَى عَشْرَةَ رَكْعَةً، يُوتِرُ مِنْهَا بِوَاحِدَةٍ، فَإِذَا فَرَغَ مِنْهَا، اضْطَجَعَ عَلَى شِقِّهِ الأَيْمَنِ.

---

[1] Ehtimal edilir ki, Peyğəmbər ﷺ burada səkkiz rükət gecə namazı qıldıqdan sonra yatmış və elə bu səbəbdən də Aişə رضي الله عنها ona belə sual vermişdir. Sanki dəstəmazı pozulacağından ehtiyat etmişdir (Tohfətul-Əhvəzi, 403-cü hədisin şərhi).

[2] Bu xüsusiyyət peyğəmbərlərin hamısına aiddir. Ənəs ibn Malikin رضي الله عنه rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbərin ﷺ gözləri yatsa da, qəlbi yatmazdı. Peyğəmbərlərin hamısı belə olmuşlar, gözləri yatsa da, qəlbləri yatmazdı" (Səhih əl-Buxari, 3570); digər hədisdə xəbər verilir ki, yəhudilər Peyğəmbərdən ﷺ: "Bizə peyğəmbərin əlaməti haqqında xəbər ver"– deyə soruşduqda, Peyğəmbər ﷺ belə cavab vermişdir: "Peyğəmbərin gözləri yatsa da, qəlbi həmişə oyaq qalır" (Sunən ət-Tirmizi, 4/129; Silsilətul Əhadisis-Səhihə, 1872).

[3] Bu hədisi Buxari (1909), Muslim (738), Əbu Davud (1341), Nəsai (1321) və Əhməd (6/36) rəvayət etmişdir.

(271) ..... Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ gecə (namazını) on bir rükət qılardı. (O, bu namazın on rükətini cüt-cüt qılar və axırda) bir rükət vitri qılardı. Gecə namazını bitirdikdən sonra isə sağ böyrü üstə uzanardı.[1]

٢٧٢- حَدَّثَنَا ابْنُ أَبِي عُمَرَ، قَالَ: حَدَّثَنَا مَعْنٌ، عَنْ مَالِكٍ، عَنِ ابْنِ شِهَابٍ، نَحْوَهُ؛ ح: وَحَدَّثَنَا قُتَيْبَةُ، عَنْ مَالِكٍ، عَنِ ابْنِ شِهَابٍ، نَحْوَهُ.

(272) Bizə İbn Əbu Ömər demişdir: "Bizə Ma'n Malikdən, o da, İbn Şihabdan bu hədisin bənzərini rəvayət etmişdir; eləcə də, Quteybə Malikdən, o da, İbn Şihabdan bu hədisin bənzərini rəvayət etmişdir."

٢٧٣- حَدَّثَنَا هَنَّادٌ، قَالَ: حَدَّثَنَا أَبُو الأَحْوَصِ، عَنِ الأَعْمَشِ، عَنْ إِبْرَاهِيمَ، عَنِ الأَسْوَدِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كَانَ رَسُولُ اللهِ ﷺ، يُصَلِّي مِنَ اللَّيْلِ تِسْعَ رَكَعَاتٍ)).

(273) ..... Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ gecə (namazını bəzən) doqquz rükət[2] qılardı."[3]

---

[1] Bu hədisi Buxari (1071), Əbu Davud (1335), Tirmizi (440) və Əhməd (6/215; 248) rəvayət etmişdir.

[2] 266-cı hədisin qeydlərinə bax.

[3] Bu hədisi Tirmizi (443 və 444), Nəsai (1725), İbn Macə (1360), Əhməd (6/253) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

٢٧٤- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ آدَمَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ الثَّوْرِيُّ، عَنِ الأَعْمَشِ، نَحْوَهُ.

(274) Bizə Mahmud ibn Ğeylan demişdir: "Bizə Yəhya ibn Adəm demişdir: "Bizə Sufyan əs-Sovri, Aməşdən bu hədisin bənzərini rəvayət etmişdir."

٢٧٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ عَمْرِو بْنِ مُرَّةَ، عَنْ أَبِي حَمْزَةَ، رَجُلٍ مِنَ الأَنْصَارِ، عَنْ رَجُلٍ مِنْ بَنِي عَبْسٍ، عَنْ حُذَيْفَةَ بْنِ الْيَمَانِ، أَنَّهُ صَلَّى مَعَ النَّبِيِّ ﷺ مِنَ اللَّيْلِ، قَالَ : فَلَمَّا دَخَلَ فِي الصَّلاةِ، قَالَ: ((اللَّهُ أَكْبَرُ ذُو الْمَلَكُوتِ وَالْجَبَرُوتِ، وَالْكِبْرِيَاءِ وَالْعَظَمَةِ))، قَالَ: ثُمَّ قَرَأَ الْبَقَرَةَ، ثُمَّ رَكَعَ فَكَانَ رُكُوعُهُ نَحْوًا مِنْ قِيَامِهِ، وَكَانَ يَقُولُ: سُبْحَانَ رَبِّيَ الْعَظِيمِ، سُبْحَانَ رَبِّيَ الْعَظِيمِ ثُمَّ رَفَعَ رَأْسَهُ، فَكَانَ قِيَامُهُ نَحْوًا مِنْ رُكُوعِهِ، وَكَانَ يَقُولُ: ((لِرَبِّيَ الْحَمْدُ، لِرَبِّيَ الْحَمْدُ)) ثُمَّ سَجَدَ، فَكَانَ سُجُودُهُ نَحْوًا مِنْ قِيَامِهِ، وَكَانَ يَقُولُ: ((سُبْحَانَ رَبِّيَ الأَعْلَى، سُبْحَانَ رَبِّيَ الأَعْلَى)) ثُمَّ رَفَعَ رَأْسَهُ، فَكَانَ مَا بَيْنَ السَّجْدَتَيْنِ نَحْوًا مِنَ السُّجُودِ، وَكَانَ يَقُولُ: ((رَبِّ اغْفِرْ لِي، رَبِّ اغْفِرْ لِي)) حَتَّى قَرَأَ الْبَقَرَةَ، وَآلَ عِمْرَانَ، وَالنِّسَاءَ، وَالْمَائِدَةَ، أَوِ الأَنْعَامَ)).

شُعْبَةُ الَّذِي شَكَّ فِي الْمَائِدَةِ، أَوِالأَنْعَامِ.

قَالَ أَبُو عِيسَى: وَأَبُو حَمْزَةَ اسْمُهُ: طَلْحَةُ بْنُ زَيْدٍ، وَأَبُو جَمْرَةَ الضُّبَعِيُّ اسْمُهُ: نَصْرُ بْنُ عِمْرَانَ.

(275) ..... Bəni-Abs qəbiləsindən olan bir nəfər[1] rəvayət etmişdir ki, Huzeyfə ibn Yəmən ﷺ Peyğəmbərlə ﷺ birgə gecə namazı qıldığını xəbər verib demişdir: "Peyğəmbər ﷺ namaza başladıqda:[2] "Allahu Əkbər, zul-mələkuti, vəl-cəbəruti, vəl-kibriyai, vəl-əzəmə!"[3]– dedi, sonra "əl-Bəqərə" surəsini oxudu.[4] Sonra rükuya getdi və qiyamda durduğu müddətə yaxın müddət qədər (rükuda) qaldı. (Rükuda) o: "Subhanə rabbiyəl-azim![5] Subhanə rabbiyəl-azim!"– deyirdi. Sonra başını qaldırıb (dikəldi) və (rükuda durduğu) müddətə yaxın müddət qədər ayaq üstə durdu. (Bu vəziyyətdə) o: "Li rabbiyəl-həmd,[6] li rab-

---

[1] Hərçənd, burada ravinin adı çəkilmir və bu səbəbdən də hədisin isnadı "zəif" sayılır, lakin Təyalisinin Musnəd əsərində (səh: 56) bu adamın Silə ibn Zufər olduğu xəbər verilir. Bu ravi isə imam Buxari və Muslimin etimad etdiyi etibarlı ravilərdəndir. Odur ki, bu hədisin isnadı "səhih" hesab edilir (Bax: Sifətus-Səlatin-Nəbi, səh: 268).

[2] Burada "namaza başladıqda" deyildikdə, təkbir gətirib namaza başladıqdan sonra bu duanı oxuduğu nəzərdə tutulur.

[3] Tərcüməsi: Allah ən böyükdür, səltənət, qüdrət, böyüklük və əzəmət sahibidir! Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbər həm rükuda, həm də səcdədə dua edib deyərdi: "Subhanə zil-cəbəruti, vəl-mələkuti, vəl-kibriyai, vəl-azəməti! (Qüdrət, səltənət, böyüklük və əzəmət sahibi pak və müqəddəsdir!)" (Sunən Əbu Davud, 1/230; Səhih Əbu Davud, 1/166).

[4] Yəni, əvvəlcə "əl-Fatihə" surəsini, ardınca da "əl-Bəqərə" surəsini oxudu. Belə ki, namazın hər rükətində "əl-Fatihə" surəsini oxumaq vacibdir və onsuz namaz səhih sayılmır. Ubadə ibn Samit ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: "Əl-Fatihə surəsini oxumayan kimsənin namazı qəbul deyildir!" (Səhih əl-Buxari, 756).

[5] Tərcüməsi: Ulu Rəbbim pak və müqəddəsdir!

[6] Tərcüməsi: Rəbbimə həmd olsun!

biyəl-həmd!"– deyirdi. Sonra səcdə etdi və (qiyamda durduğu) müddətə yaxın müddət qədər səcdədə qaldı. (Səcdədə) o: "Subhanə rabbiyəl-əla,[1] subhanə rabbiyəl-əla!"– deyirdi. Sonra başını (səcdədən) qaldırdı və (səcdədə qaldığı) müddətə yaxın müddət qədər iki səcdə arasında oturdu. (Bu halda) o: "Rabbiğ-firli,[2] rabbiğ-firli!"– deyirdi. Nəhayət, o, "əl-Bəqərə", "Ali-İmran", "ən-Nisa" və "əl-Maidə" yaxud "əl-Ənam" surələrini oxudu.[3]

(Əbu İsa ət-Tirmizi demişdir): "(Hədisin ravisi) Şobə *onun* "əl-Maidə" yaxud "əl-Ənam" surələrindən hansı birini oxuduğuna şəkk etmişdir."

Əbu İsa (ət-Tirmizi) demişdir: "Əbu Həmzənin adı: Talhə ibn Zeyddir.[4] Əbu Həmzə əd-Dubəinin isə adı: Nəsr ibn İmrandır.

---

[1] Tərcüməsi: Ən Uca Rəbbim pak və müqəddəsdir! Qeyd edək ki, Allah Quranda Öz Peyğəmbərinə ﷺ: **"Elə isə Ulu Rəbbinin adına təriflər de!"** (əl-Vaqiə, 74) və **"Ən Uca Rəbbinin adına təriflər de!"** (əl-Əla, 1) buyurduqdan sonra Peyğəmbər ﷺ rükuda "Subhanə rabbiyəl-azim!" və səcdədə "Subhanə rabbiyəl-əla!" deməyə başladı.

[2] Tərcüməsi: Ey Rəbbim, məni bağışla!

[3] Bu hədisi Əbu Davud (874), Nəsai (1069), Əhməd (5/398) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[4] Əslində, bu ravinin adı: Əbu Həmzə Talhə ibn Yezid əl-Ənsaridir (Təhzib əl-Kəmal, 2986-cı tərcümeyi-hal).

٢٧٦- حَدَّثَنَا أَبُو بَكْرٍ مُحَمَّدُ بْنُ نَافِعٍ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ الصَّمَدِ بْنُ عَبْدِ الْوَارِثِ، عَنِ إِسْمَاعِيلَ بْنِ مُسْلِمٍ الْعَبْدِيِّ، عَنْ أَبِي الْمُتَوَكِّلِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((قَامَ رَسُولُ اللهِ ﷺ بِآيَةٍ مِنَ الْقُرْآنِ لَيْلَةً)).

(276) ..... Aişə رضي الله عنها demişdir:[1] "Bir gecə Rəsulullah ﷺ Qurandan bir ayəni (təkrar-təkrar) oxuyaraq namaz qıldı.[2]"

---

[1] Bu hədisi Tirmizi (448), Nəsai (1010), İbn Macə (1350), Əhməd (5/149, 156 və 173) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[2] İmam Nəsainin rəvayət etdiyi hədisdə (1010) Əbu Zərr رضي الله عنه xəbər vermişdir ki, bir gecə Peyğəmbər ﷺ səhərədək bu ayəni oxudu: **"Əgər onlara əzab versən, sözsüz ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, şübhəsiz ki, Sən Qüdrətlisən, Müdriksən!"** (əl-Maidə, 118). Demək, gecə namazında hər hansı bir ayəni təkrar-təkrar oxumaq caizdir. Bu xüsusda İbn Qeyyim رحمه الله demişdir: "Alimlər Quran oxumaq xüsusunda hansı əməlin daha əfzəl olduğu – oxunan ayələrin sayı az olsa da, bu ayələri düşünə-düşünə oxumağın, yoxsa tələm-tələsik və çox sayda ayə oxumağın daha əfzəl olduğu barədə ixtilaf etmişlər. İbn Məsud, İbn Abbas (Allah onların hər ikisindən razı olsun!) və digərləri, Quran ayələrini düşünə-düşünə oxumağın daha əfzəl olduğunu hesab etmişlər. Bunu deyənlər bu fikri belə əsaslandırmışlar ki, Quranı oxumaqda məqsəd onu başa düşmək, ayələrin mənası barədə düşünmək və ona əməl etməkdir. Onu oxumaq və əzbərləmək isə mənasını başa düşmək üçün bir vasitədir. Sələflərdən bəziləri demişlər: "Quran, içindəkilərə əməl etmək üçün nazil olmuş və elə buna görə də müsəlmanlar Quran oxumağı ona əməl etmək hesab etmişlər. Odur ki, Quranı anlayan və ona əməl edən kimsələr, onu əzbərdən bilməsələr də, məhz onlar Quran əhli hesab olunarlar. Quranı əzbər bilən, lakin onu anlamayan və içindəkilərə

əməl etməyən kimsəyə gəlincə, o, necə hafiz olursa olsun, yenə Quran əhlindən sayılmır. Çünki iman gətirmək ən əfzəl əməl hesab olunur. Quranı başa düşmək və içindəki ayələr barədə düşünmək isə imanı artırır. Onu başa düşmədən və ayələri barədə düşünmədən oxumağa gəlincə, bunu yaxşı adam da bacarır, pis adam da, – mömin də Quran oxuyur, münafiq də. Hədislərin birində Peyğəmbər ﷺ onları belə vəsf etmişdir: "Quran oxuyan və ona əməl edən mömin turunca bənzəyir, onun dadı da xoşdur, iyi də. Quran oxumayan, amma ona əməl edən mömin xurmaya bənzəyir, onun dadı gözəldir, amma iyisi yoxdur. Quran oxuyan münafiqin məsəli reyhan bitkisinə bənzəyir, onun iyi gözəl olsa da, dadı acıdır. Quran oxumayan münafiqin məsəli acı qovuna bənzəyir, onun iyi xoşagəlməzdir, dadı da acıdır" (Səhih əl-Buxari, 5059). Bu xüsusda, insanlar dörd qismə bölünürlər: birincisi və ən əfzəli Quranı anlayıb, ona əməl edən möminlərdir; ikincisi, nə Quranı bilən, nə də ki imanı olan kimsələrdir; üçüncüsü, Quranı başa düşməyən, lakin (Allaha və Onun Rəsuluna ﷺ) iman gətirmiş kimsələrdir; dördüncüsü isə özünə Quran oxumaq qabiliyyəti bəxş edilmiş, iman gətirmək isə nəsib olmamış kimsələrdir. Necə ki, Quranı qavramayan mömin, onu oxuyub başa düşən imansız adamdan üstündürsə, eləcə də, Quranı qavrayan kimsə, onu qavramadan səlis oxuyan kimsədən üstündür. Bu da Peyğəmbərin ﷺ yoludur. Belə ki, Peyğəmbər ﷺ istənilən bir surəni oxuduğu zaman, həmin surə uzun olsaydı da belə, onu aramla oxuyardı. Hətta bir gecə səhərədək bir ayəni təkrar-təkrar oxumuşdur." Şafiilər isə əksinə, Quranı çox oxumağın daha əfzəl olduğunu söyləmiş və bu fikri İbn Məsudun ﷺ rəvayət etdiyi hədislə əsaslandırmışlar. Həmin hədisdə Rəsulullah ﷺ belə buyurmuşdur: "Kim Allahın Kitabından bir hərf oxusa, buna görə savab qazanar və bu savab on savaba bərabər olar. Mən demirəm ki, əlif, ləm, mim bir hərfdir. Lakin əlif bir hərf, ləm bir hərf, mim də bir hərfdir." Bu hədisi Tirmizi rəvayət etmiş və onun səhih olduğunu demişdir (Sunən ət-Tirmizi, 2910; Səhih əl-Cami, 6469). Bu rəydə olanlar həmçinin, Osman ibn Əffanın ﷺ bir rükətdə Quranı tam şəkildə oxuduğunu, habelə, bir çox sələflərin də belə etdiyinə dair neçə-neçə dəlillər olduğunu söyləmişlər. Bu məsələdə daha doğru rəy

budur ki, Quran ayələrini aramla və mənasını düşünərək oxumaq, fəzilət baxımından daha üstün olmaq, Qurandan çox oxumaq isə daha çox savab qazanmaq deməkdir... Buxarinin "Səhih"ində (5046) Qətadədən rəvayət edilmiş hədisdə deyilir ki, *bir dəfə* Ənəsdən ﷺ: "Peyğəmbər ﷺ *Quranı* necə oxuyardı?"– deyə soruşdular. Ənəs: "Uzadaraq!"– deyə cavab verdi, sonra da: "Bismillahir-Rəhmanir-Rəhim" ayəsini – "Bismillah", "ər-Rəhman" və "ər-Rəhim" kəlmələrinin *hər birini* uzadaraq oxudu." Şobə rəvayət edir ki, Əbu Həmzə demişdir: "Bir dəfə mən İbn Abbasa: "Mən Quranı tez-tez oxuyuram və elə olur ki, bir gecədə mən bir və ya iki dəfə onu xətm edirəm"– dedim. İbn Abbas ﷺ da mənə belə cavab verdi: "Mənim üçün bir surə oxumağım, sənin etdiyini etməkdən daha xoşdur. Yox əgər ürəyin daha çox surə oxumaq istəyirsə, onda, oxuyacağın ayələri elə oxu ki, öz qulağınla onları eşidəsən, qəlbin də onları dərk etsin" (Zadul-Məad fi Hədyi Xayril-İbad, 1/337-340). Yeri gəlmişkən, qeyd edək ki, namazda istənilən bir surəni təkrar-təkrar oxumaq da caizdir. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, *bir dəfə gecə vaxtı* bir nəfər başqa birisinin: **"De: "O Allah Təkdir..."**– (əl-İxlas surəsini) təkrar-təkrar oxuduğunu eşitdi. Səhər açılanda o, Peyğəmbərin ﷺ yanına gəlib eşitdiklərini ona danışdı və sanki həmin adamın bu surəni ucuz tutduğunu bildirmək istədi. Lakin Peyğəmbər ﷺ buyurdu: "Canım Əlində olan Allaha and olsun ki, bu surə Quranın üçdə birinə bərabərdir" (Səhih əl-Buxari, 5013) Başqa bir hədisdə Aişə ﷺ rəvayət etmişdir ki, *bir dəfə* Peyğəmbər ﷺ bir nəfəri qoşuna başçı təyin edib *döyüşə* göndərdi. Həmin adam dostlarına qıldırdığı namazı hər dəfə: "De: "O Allah Təkdir!" (əl-İxlas surəsi) ilə bitirərdi. Səhabələr geri döndükdə bu haqda Peyğəmbərə ﷺ xəbər verdilər. Peyğəmbər ﷺ dedi: "Ondan nə üçün belə etdiyini soruşun." Onlar bunun səbəbini ondan soruşduqda o dedi: "Çünki bu surə ər-Rəhmanı vəsf edir. Mən də onu oxumağı çox sevirəm." Peyğəmbər ﷺ buyurdu: "Ona bildirin ki, Allah da onu sevir" (Səhih əl-Buxari, 7375); digər rəvayətdə isə demişdir: "Bu surəyə olan sevgin səni Cənnətə daxil edər" (Sunən ət-Tirmizi, 2901; Mişkatul-Məsabih, 2130). Subhanəllah! Əgər bir surəni sevməyin nəticəsi budursa, bəs, onda bütün Quranı sevməyin nəticəsi necə ola

٢٧٧- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا سُلَيْمَانُ بْنُ حَرْبٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي وَائِلٍ، عَنْ عَبْدِ اللهِ بْنِ مَسْعُودٍ، قَالَ: ((صَلَّيْتُ لَيْلَةً مَعَ رَسُولِ اللهِ ﷺ فَلَمْ يَزَلْ قَائِمًا حَتَّى هَمَمْتُ بِأَمْرِ سُوءٍ)) قِيلَ لَهُ: وَمَا هَمَمْتَ بِهِ؟ قَالَ: ((هَمَمْتُ أَنْ أَقْعُدَ وَأَدَعَ النَّبِيَّ ﷺ)).

(277) ..... Əbu Vail rəvayət edir ki, Abdullah ibn Məsud[1] ﷺ demişdir: "Bir gecə mən Rəsulullahla ﷺ birlikdə namaz qıldım. O, qiyamı o qədər uzatdı ki, hətta, mən pis

---

bilər?! Aişə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Quran oxuyan və onu əzbərdən bilən adam möhtərəm və müti mələklərlə eyni dərəcədədir. Çətinlik çəkə-çəkə daim Quran oxuyan adam isə iki savab qazanar" (Səhih əl-Buxari, 4937).

[1] Abdullah ibn Məsud ibn Ğafil ibn Həbib əl-Huzəli ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. Gənc yaşlarında İslam dinini qəbul etmiş və iki dəfə hicrət etmiş mühacirlərdən, müsəlmanlığı ilk əvvəl qəbul etmiş altı nəfərin altıncısı, özü də çox arıq, bəstədoy, mülayim, həm də iradəsi möhkəm bir adam olmuşdur. Peyğəmbərdən ﷺ sonra Məkkədə Quranı ilk dəfə ucadan oxuyan səhabədir. Abdullah ibn Məsud ﷺ Quranı ən yaxşı bilənlərdən idi. Abdullah ibn Məsud ﷺ demişdir: "Allahın Kitabından nazil olmuş elə bir ayə yoxdur ki, mən onun harada və nə səbəbdən nazil olduğunu bilməyim." Xeysəmə rəvayət edir ki, bir dəfə mən Abdullah ibn Amr ibn əl-Asın yanında ikən o, Abdullah ibn Məsudu yada saldı və dedi: "Mən Peyğəmbərin ﷺ: "Quranı dörd nəfərdən öyrənin: Abdullah ibn Məsuddan, Əbu Huzeyfənin azad etdiyi köləsi Salimdən, Ubey ibn Kəbdən və Muaz ibn Cəbəldən" dediyini eşitdiyim gündən bəri Abdullahı sevirəm. Abdullah ibn Məsud ﷺ hicrətin 32-ci ilində Mədinə şəhərində vəfat etmiş və Bəqi qəbiristanlığında dəfn edilmişdir (Siyər Əlam ən-Nubələ, 87-ci tərcümeyi-hal).

bir iş[1] görmək istədim." Biz: "O nə iş idi?"– deyə soruşduq. Dedi: "İstədim yerə oturum və Peyğəmbəri ﷺ ayaq üstə buraxım."[2]

٢٧٨- حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ: حَدَّثَنَا جَرِيرٌ، عَنِ الأَعْمَشِ، نَحْوَهُ.

(278) Bizə Sufyan ibn Vəki demişdir: "Bizə Cərir, Aməşdən bu hədisin bənzərini rəvayət etmişdir."

٢٧٩- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى الأَنْصَارِيُّ، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنْ أَبِي النَّضْرِ، عَنْ أَبِي سَلَمَةَ، عَنْ عَائِشَةَ، أَنَّ النَّبِيَّ ﷺ كَانَ يُصَلِّي جَالِسًا، فَيَقْرَأُ وَهُوَ جَالِسٌ، فَإِذَا بَقِيَ مِنْ قِرَاءَتِهِ قَدْرُ مَا يَكُونُ ثَلاثِينَ أَوْ أَرْبَعِينَ آيَةً، قَامَ فَقَرَأَ وَهُوَ قَائِمٌ، ثُمَّ رَكَعَ وَسَجَدَ، ثُمَّ صَنَعَ فِي الرَّكْعَةِ الثَّانِيَةِ مِثْلَ ذَلِكَ.

(279) ..... Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ oturulu halda namaz qılar,[3] oturulu ikən surələri oxuyar və qiraətini qurtarmağa otuz və ya qırx ayə miqdarında

---

[1] Bu dəlildir ki, namazda imama müxalif olmaq qəbih əməllərdən hesab olunur.

[2] Bu hədisi Buxari (1084), Muslim (773), İbn Macə (1418) və Əhməd (1/385, 396, 415 və 440) rəvayət etmişdir.

[3] Bu hərəkəti Peyğəmbər ﷺ yorulduqda və ya xəstələndikdə edərdi. Möminlərin anası Aişə رضي الله عنها rəvayət edir ki, o, Peyğəmbərin ﷺ gecə namazını yaşa dolanadək oturduğu vəziyyətdə qıldığını görməmişdir. *Yaşa dolduqda isə* o, oturulu vəziyyətdə *namaza başlayıb* surələri oxuyar və rüku etmək istədikdə, ayağa qalxıb otuz və ya qırx ayə oxuduqdan sonra rüku edərdi (Səhih əl-Buxari, 1118).

ayələr qaldıqda ayağa qalxar və qalan ayələri ayaq üstə oxuyar, rüku etmək istədikdə, ayağa qalxıb otuz və ya qırx ayə oxuduqdan sonra rüku edər və daha sonra səcdəyə qapanardı. Sonra (bunları) ikinci rükətdə də eynilə təkrar edərdi.[1]

٢٨٠- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا هُشَيْمٌ، قَالَ: حَدَّثَنَا خَالِدٌ الْحَذَّاءُ، عَنْ عَبْدِ اللهِ بْنِ شَقِيقٍ، قَالَ: سَأَلْتُ عَائِشَةَ، عَنْ صَلاةِ رَسُولِ اللهِ ﷺ، عَنْ تَطَوُّعِهِ، فَقَالَتْ: ((كَانَ يُصَلِّي لَيْلا طَوِيلا قَائِمًا، وَلَيْلا طَوِيلا قَاعِدًا، فَإِذَا قَرَأَ وَهُوَ قَائِمٌ رَكَعَ وَسَجَدَ وَهُوَ قَائِمٌ، وَإِذَا قَرَأَ وَهُوَ جَالِسٌ رَكَعَ وَسَجَدَ وَهُوَ جَالِسٌ)).

(280) ..... Abdullah ibn Şəqiq demişdir: "Mən Aişədən Rəsulullahın ﷺ nafilə (namazı) barədə soruşdum. Dedi: "Rəsulullah ﷺ gecələr bəzən ayaq üstə uzun-uzadı, bəzən də oturulu halda uzun-uzadı namaz qılardı. Namazını ayaq üstə qıldığı zaman rükunu da, səcdəni də ayaq üstə edər, oturulu halda qıldığı zaman isə rüku və səcdəni oturulu halda edərdi.[2]"[1]

---

[1] Bu hədisi Buxari (1068), Muslim (731), Əbu Davud (954), Nəsai (1648) və Tirmizi (374) rəvayət etmişdir. İmam Buxarinin rəvayətində bu hədisin tamamında Aişə رضي الله عنها deyir ki, Peyğəmbər ﷺ namazı bitirdikdən sonra (mənə tərəf) baxardı, mən oyaq olsaydım, mənimlə söhbət edər, yatmış olsaydım, o da, uzanıb yatardı."

[2] Bu rəvayətin zahiri əvvəlki rəvayətə zidd görünsə də, bu hədislərin izahına nəzər saldıqda onların nə mənada olduğu aydın olur. İbn Həcər bu hədisləri izah edərkən demişdir: "Bunu Peyğəmbər ﷺ yaşa dolmazdan əvvəl etmişdir" (Fəthul-Bari, 8/585). Yəni, yaşa dolanadək yorulduqda və ya xəstələndikdə gecə namazlarını oturulu

٢٨١- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى الأَنْصَارِيُّ، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكٌ، عَنِ ابْنِ شِهَابٍ، عَنِ السَّائِبِ بْنِ يَزِيدَ، عَنِ الْمُطَّلِبِ بْنِ أَبِي وَدَاعَةَ، عَنْ حَفْصَةَ، زَوْجِ النَّبِيِّ ﷺ، قَالَتْ: كَانَ رَسُولُ اللهِ يُصَلِّي فِي سُبْحَتِهِ قَاعِدًا، وَيَقْرَأُ بِالسُّورَةِ وَيُرَتِّلُهَا، حَتَّى تَكُونَ أَطْوَلَ مِنْ أَطْوَلَ مِنْهَا.

---

halda qılar, rükunu və səcdəni etməzdən əvvəl ayağa qalxardı və bunları ayaq üstə yerinə yetirər, yaşa dolduqdan sonra isə rükunu da, səcdəni də oturulu vəziyyətdə yerinə yetirərdi. Yeri gəlmişkən qeyd edək ki, oturulu halda namaz qılan kəs, ayaq üstə qıldığı namazın yarısı qədər savab qazanır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Oturulu halda namaz qılan kəs ayaq üstə namaz qılan kimsənin qazandığı savabın yarısı qədər savab qazanar" (Sunən İbn Macə, 1/370; Musnəd imam Əhməd, 3/214; Səhih əl-Cami, 3828). Lakin bunun Peyğəmbərə ﷺ heç bir aidiyyəti yoxdur. Belə ki, o, istənilən halda qıldığı namaza görə savabını tam olaraq qazanırdı. Bu xüsusda rəvayət edilmiş hədisdə Abdullah ibn Amr ibn As ﷺ demişdir: "*Bir dəfə* mən Rəsulullahın ﷺ yanına gəldim və onun oturulu halda namaz qıldığını gördüm. *Namazı bitirdikdən sonra* mən ona yaxınlaşıb əlimi onun başına qoydum. Rəsulullah ﷺ məndən: "Sənə nə olub, ey Abdullah ibn Amr?"– deyə soruşdu. Dedim: "Mənə demişdilər ki, sən: "Oturulu halda namaz qılan kəs, ayaq üstə namaz qılan kimsənin qazandığı savabın yarısı qədər savab qazanar" demisən, ancaq özün oturulu halda namaz qılırsan." Onda Rəsulullah ﷺ dedi: "Elədir, lakin mən sizlərdən heç biriniz kimi deyiləm (Səhih Muslim, 1749).

[1] Bu hədisi Muslim (730), Əbu Davud (1251), Nəsai (1355), Tirmizi (375) və Əhməd (6/254) rəvayət etmişdir.

(281) ..... Peyğəmbərin ﷺ zövcəsi Həfsə[1] رضي الله عنها demişdir: "Rəsulullah ﷺ nafilə[2] (namazını) oturulu qılar[3] və oxuduğu surəni aramla oxuyub o qədər uzadardı ki, hətta (ayələrinin sayına görə) ondan daha uzun olan surədən uzun olardı.[4]"[5]

٢٨٢- حَدَّثَنَا الْحَسَنُ بْنُ مُحَمَّدٍ الزَّعْفَرَانِيُّ، قَالَ: حَدَّثَنَا الْحَجَّاجُ بْنُ مُحَمَّدٍ، عَنِ ابْنِ جُرَيْجٍ، قَالَ: أَخْبَرَنِي عُثْمَانُ بْنُ أَبِي سُلَيْمَانَ، أَنَّ أَبَا سَلَمَةَ بْنَ عَبْدِ الرَّحْمَنِ أَخْبَرَهُ، أَنَّ عَائِشَةَ أَخْبَرَتْهُ، أَنَّ النَّبِيَّ ﷺ، لَمْ يَمُتْ، حَتَّى كَانَ أَكْثَرُ صَلَاتِهِ وَهُوَ جَالِسٌ.

(282) ..... Əbu Sələmə ibn Abdur-Rəhman rəvayət edir ki, Aişə ona (Peyğəmbərin ﷺ gecə namazı barədə)

---

[1] Həfsə bint Ömər ibn Xəttab əl-Ədəviyyə رضي الله عنها Peyğəmbərin ﷺ zövcəsi və möminlərin anasıdır (Siyər Əlam ən-Nubələ, 25-ci tərcümeyi-hal).

[2] Burada "nafilə" deyildikdə gecə namazları nəzərdə tutulur.

[3] Başqa rəvayətdə Həfsə رضي الله عنها Peyğəmbərin ﷺ nə vaxtdan oturulu namaz qılmağa başladığını xəbər verib demişdir: "Mən Rəsulullahın ﷺ nafilə namazını oturulu qıldığını görməmişdim. Nəhayət, o, vəfatına bir il qalmış nafilə namazını oturulu halda qılmağa başladı. Rəsulullah ﷺ oxuduğu surəni aramla oxuyub, o qədər uzadardı ki, hətta *ayələrinin sayına görə* ondan daha uzun olan surədən uzun olardı" (Səhih Muslim, 1712).

[4] Peyğəmbər ﷺ surəni aramla və uzadaraq oxuduğundan, bu surə adi qiraətlə oxunan və ayələrinin sayına görə daha uzun olan surədən uzun oxunardı (Tohfətul-Əhvəzi).

[5] Bu hədisi Muslim (733), Nəsai (1658), Tirmizi (373) və Əhməd (6/285) rəvayət etmişdir.

xəbər verib demişdir: “Peyğəmbər ﷺ ölümqabağı yatağa düşdüyü zaman namazlarını çox vaxt oturulu halda qılardı.”[1]

٢٨٣- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ، قَالَ: حَدَّثَنَا أَيُّوبَ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، قَالَ: ((صَلَّيْتُ مَعَ رَسُولِ اللهِ ﷺ، رَكْعَتَيْنِ قَبْلَ الظُّهْرِ، وَرَكْعَتَيْنِ بَعْدَهَا، وَرَكْعَتَيْنِ بَعْدَ الْمَغْرِبِ فِي بَيْتِهِ، وَرَكْعَتَيْنِ بَعْدَ الْعِشَاءِ فِي بَيْتِهِ)).

(283) ..... İbn Ömər رضي الله عنهما demişdir:[2] “Mən Peyğəmbərlə ﷺ birlikdə[3] zöhrdən həm əvvəl, həm də sonra iki rükət,

---

[1] Bu hədisi Muslim (732), Nəsai (1656) və Əhməd (6/169) rəvayət etmişdir.

[2] Bu hədisi Tirmizi (425), Əhməd (2/63) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

[3] Burada səhabə “birlikdə” dedikdə, bu namazları camaat olaraq deyil, sadəcə bir vaxtda və bir məkanda qıldığını və ya sadəcə Peyğəmbərin ﷺ bu namazları qıldığını gördüyünü qəsd edir. Belə ki, səhabələr bu nafilələri fərdi şəkildə qılardılar. İbn Ömər رضي الله عنهما bu hədisdə sübh namazının iki rükət sünnəsini qeyd etməsə də, növbəti hədislərdə o, Peyğəmbərin ﷺ sübh namazından əvvəl də iki rükət nafilə namazı qıldığını xəbər verir. Habelə, Buxarinin rəvayətində (937) İbn Ömər رضي الله عنهما bu hədisin tamamında demişdir: “Cümə namazından sonra isə məsciddən çıxıb gedənədək namaz qılmaz, *ancaq evində* iki rükət namaz qılardı.” Bu hədislərdən aydın olur ki, Peyğəmbər ﷺ adi günlərdə davamlı şəkildə on rükət nafilə namazı qılardı. Bu namazlara ratibə namazları da deyilir və bu namazlar təkid olunmuş sünnə hesab edilir. Digər bir hədisdə Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ zöhrdən əvvəl qıldığı dörd rükət və sübhdən

habelə məğrib və işa namazlarından sonra onun evində[1] iki rükət namaz qıldım.”

٢٨٤- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ، قَالَ: حَدَّثَنَا أَيُّوبُ، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، قَالَ: ((أَخْبَرَتْنِي حَفْصَةُ، أَنَّ رَسُولَ اللهِ ﷺ، كَانَ يُصَلِّي رَكْعَتَيْنِ حِينَ يَطْلُعُ الْفَجْرُ وَيُنَادِي الْمُنَادِي))، قَالَ أَيُّوبُ: أُرَاهُ، قَالَ: ((خَفِيفَتَيْنِ)).

əvvəl qıldığı iki rükət *nafilə* namazlarını heç vaxt buraxmazdı (Səhih əl-Buxari, 1182). Bu iki hədis zahirən ziddiyyətli görünsə də, onların izahlarına nəzər saldıqda, aralarında heç bir ziddiyyət olmadığı aydın olur. İbn Həcər bu iki hədisi cəm edib demişdir: “Bu səhabələrdən hər biri öz gördüyünü rəvayət etmişdir. Yəni, Peyğəmbər ﷺ zöhrdən əvvəl qıldığı nafilə namazını bəzən dörd rükət, bəzən də iki rükət qılardı. Necə ki, cümə namazından sonra qıldığı namazı, məsciddə qıldığı təqdirdə onu dörd rükət qılar, yox əgər gedib evində qılardısa, onda onu iki rükət qılardı” (Fəthul-Bari, 3/58).

[1] Bu dəlildir ki, nafilə namazlarının bəzisini evdə, bəzisini də məsciddə qılmaq caizdir. Lakin nafilə namazını evdə qılmaq əfzəldir. Bunun əfzəlliyinə dəlalət edən hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: “Fərz namazlarından başqa ən fəzilətli namaz adamın öz evində qıldığı namazıdır” (Səhih əl-Buxari, 731); digər hədisdə isə o, belə buyurmuşdur: “Kişinin öz evində qıldığı (nafilə) namazın, camaatın onu görə biləcəyi yerdə qıldığı namazdan üstünlüyü – camaat namazının fərdi qılınan namazdan olan üstünlüyü kimidir” (Mocəm əl-Kəbir, 7666; Səhih əl-Cami, 4217); başqa bir hədisdə o demişdir: “Namazlarınızın bir qismini öz evlərinizdə qılın, onları qəbiristanlığa çevirməyin” (Səhih əl-Buxari, 432). Nafilə namazını evdə qılmağın hikməti isə, riyadan uzaq olmaq, habelə ev əhlini namaz qılmağa təşviq etməkdir.

(284) ..... İbn Ömər رضي الله عنهما demişdir: "Həfsə mənə rəvayət etmişdir[1] ki, dan yeri söküləndə və müəzzin (sübh namazı üçün) azan verib qurtaranda Rəsulullah ﷺ iki rükət namaz qılardı."[2]

Əyyub[3] demişdir: "Deyəsən, "iki xəfif" (demək istəmişdir)."[4]

---

[1] Demək, Peyğəmbər ﷺ bu namazı da evində qılmış və İbn Ömər رضي الله عنهما onun həmin namazı nə vaxt qıldığını öz bacısı Həfsədən رضي الله عنها öyrənmişdir. Bu iki rükət nafilə namazını həm xəfif qılmaq, həm də birinci rükətində "əl-Kafirun", ikinci rükətində isə "əl-İxlas" surələrini oxumaq sünnə hesab edilir. Bu iki rükətin nə dərəcədə fəzilətli olduğuna dair rəvayət edilmiş hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Sübh namazından (qabaq qılınan) iki rükət nafilə namazı, dünya və onun içindəkilərdən xeyirlidir" (Səhih Muslim, 1688); həmçinin, bu namazın fəzilətinə dair rəvayət edilmiş qüdsi hədisdə Uca Allah buyurur: "Ey adəm oğlu, gündüzün əvvəlində dörd rükət namaz qıl, axırında (başına gələ biləcək bəlalardan) səni qoruyum" (Sunən ət-Tirmizi, 475; Mişkatul-Məsabih, 1313; Səhih əl-Cami, 4339). İbn Teymiyyə, Mənavi və digərləri bu dörd rükətin sübh namazı və onun sünnəti olduğunu söyləmişlər.

[2] Bu hədisi Buxari (593), Muslim (723), Tirmizi (433), Nəsai (583), İbn Macə (1145) və Əhməd (2/6) rəvayət etmişdir.

[3] Əyyub bu hədisi nəql etmiş ravilərdəndir.

[4] Bu fikir Buxarinin "Səhih"ində (618) öz təsdiqini tapmışdır. Həmin hədisdə Həfsə رضي الله عنها demişdir: "Müəzzin sübh namazı üçün azan verib qurtaranda və artıq dan yeri söküləndə Peyğəmbər ﷺ iqamədən əvvəl iki xəfif rükətli namaz qılardı."

٢٨٥- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا مَرْوَانُ بْنُ مُعَاوِيَةَ الْفَزَارِيُّ، عَنْ جَعْفَرِ بْنِ بُرْقَانَ، عَنْ مَيْمُونِ بْنِ مِهْرَانَ، عَنِ ابْنِ عُمَرَ، قَالَ: ((حَفِظْتُ مِنْ رَسُولِ اللهِ ﷺ، ثَمَانِيَ رَكَعَاتٍ: رَكْعَتَيْنِ قَبْلَ الظُّهْرِ، وَرَكْعَتَيْنِ بَعْدَهَا، وَرَكْعَتَيْنِ بَعْدَ الْمَغْرِبِ، وَرَكْعَتَيْنِ بَعْدَ الْعِشَاءِ، قَالَ ابْنُ عُمَرَ: وَحَدَّثَتْنِي حَفْصَةُ بِرَكْعَتَيِ الْغَدَاةِ، وَلَمْ أَكُنْ أَرَاهُمَا مِنَ النَّبِيِّ ﷺ)).

(285) ..... İbn Ömər رضي الله عنهما demişdir: "Mən Rəsulullahın ﷺ səkkiz rükət (nafilə) namazı qıldığını yadda saxlamışam: zöhrdən həm əvvəl, həm də sonra iki rükət, məğribdən sonra iki rükət və işadan sonra iki rükət."

İbn Ömər dedi: "Həfsə mənə sübhün iki rükət sünnəti barədə xəbər vermişdir ki, mən Peyğəmbərin ﷺ bu namazı qıldığını görməmişəm.[1]"[2]

٢٨٦- حَدَّثَنَا أَبُو سَلَمَةَ يَحْيَى بْنُ خَلَفٍ، قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْمُفَضَّلِ، عَنْ خَالِدٍ الْحَذَّاءِ، عَنْ عَبْدِ اللهِ بْنِ شَقِيقٍ، قَالَ: سَأَلْتُ عَائِشَةَ، عَنْ صَلاةِ رَسُولِ اللهِ ﷺ، قَالَتْ: ((كَانَ يُصَلِّي قَبْلَ الظُّهْرِ رَكْعَتَيْنِ وَبَعْدَهَا رَكْعَتَيْنِ، وَبَعْدَ الْمَغْرِبِ رَكْعَتَيْنِ، وَبَعْدَ الْعِشَاءِ رَكْعَتَيْنِ، وَقَبْلَ الْفَجْرِ ثِنْتَيْنِ)).

---

[1] Burada İbn Ömər رضي الله عنهما demək istəyir ki, Peyğəmbər ﷺ bu iki rükəti evində qıldığından o, öz gözü ilə Peyğəmbərin ﷺ bu namazı qıldığını görməmişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

(286) ..... Abdullah ibn Şəqiq demişdir: "Mən Aişədən Peyğəmbərin ﷺ (nafilə) namazı barədə soruşdum. O dedi: "Peyğəmbər ﷺ zöhrdən həm əvvəl,[1] həm də sonra iki rükət, habelə məğribdən sonra iki rükət, işadan sonra iki rükət və fəcrdən[2] əvvəl iki rükət namaz qılardı."[3]

٢٨٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ، قَالَ: سَمِعْتُ عَاصِمَ بْنَ ضَمْرَةَ، يَقُولُ: سَأَلْنَا عَلِيًّا، عَنْ صَلاةِ رَسُولِ اللهِ ﷺ مِنَ النَّهَارِ، فَقَالَ: ((إِنَّكُمْ لا تُطِيقُونَ ذَلِكَ))، قَالَ: فَقُلْنَا: ((مَنْ أَطَاقَ ذَلِكَ مِنَّا صَلَّى))، فَقَالَ: ((كَانَ إِذَا كَانَتِ الشَّمْسُ

---

[1] Digər rəvayətlərdə Aişə ؓ Peyğəmbərin ﷺ zöhrdən əvvəl dörd rükət nafilə namazı qıldığını demişdir (283-cü hədisin qeydlərinə bax). Gün ərzində on iki rükət nafilə namazı qılmağın fəziləti barədə rəvayət edilmiş hədisdə Peyğəmbərin ﷺ zövcəsi Ummu Həbibə ؓ demişdir: "Mən Rəsulullahın ﷺ belə buyurduğunu eşitmişəm: "Fərz namazlarından əlavə gündəlik olaraq on iki rükət nafilə namazı qılan elə bir müsəlman bəndə yoxdur ki, Allah onun üçün Cənnətdə bir ev bina etmiş olmasın." (Sonra) Ummu Həbibə ؓ dedi: "(Bu sözü eşitdiyim) gündən bəri mən bu namazları buraxmamışam." (Hədisin ravisi) Amr ibn Ovs demişdir: "(Bu sözü eşitdiyim) gündən bəri mən bu namazları buraxmamışam. (Hədisi Amrdan eşitmiş) Nomən də eyni sözü demişdir" (Səhih Muslim, 728). Bu da, sələflərin Peyğəmbərin ﷺ sözünə necə ehtiramla yanaşdığına və onu eşidən kimi davamlı olaraq yerinə yetirmələrinə dəlalət edir.

[2] Yəni, sübh namazından.

[3] Bu hədisi Tirmizi (438) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

مِنْ هَهُنَا كَهَيْئَتِهَا مِنْ هَهُنَا عِنْدَ الْعَصْرِ صَلَّى رَكْعَتَيْنِ، وَإِذَا كَانَتِ الشَّمْسُ مِنْ هَهُنَا، كَهَيْئَتِهَا مِنْ هَهُنَا عِنْدَ الظُّهْرِ صَلَّى أَرْبَعًا، وَيُصَلِّي قَبْلَ الظُّهْرِ أَرْبَعًا، وَبَعْدَهَا رَكْعَتَيْنِ، وَقَبْلَ الْعَصْرِ أَرْبَعًا، يَفْصِلُ بَيْنَ كُلِّ رَكْعَتَيْنِ بِالتَّسْلِيمِ عَلَى الْمَلائِكَةِ الْمُقَرَّبِينَ وَالنَّبِيِّينَ، وَمَنْ تَبِعَهُمْ مِنَ الْمُؤْمِنِينَ وَالْمُسْلِمِينَ)).

(287) ..... Asim ibn Damra demişdir: “Biz Əli (ibn Əbu Talibdən ﷺ) Peyğəmbərin ﷺ gündüz qıldığı (nafilə) namazları barədə soruşduq. O dedi: “Düzü, sizin bu namazları yerinə yetirməyə gücünüz yetməyəcək.”[1] Biz dedik: “(Sən de,) bizlərdən kimin bu namazları qılmağa gücü yetərsə, qılacaq.” O dedi: “O, günəş şərqdən doğduqdan sonra, əsr çağı günbatan istiqamətindəki yüksəklikdəki bir yüksəklikdə olduğu zaman iki rükət[2] namaz qılardı. Sonra şərqdən günəş yüksəlib günortaüstü zenitə yaxınlaşdığı zaman dörd rükət namaz qılardı.[3] Zöhrdən

[1] Burada səhabə onların bu namazları davamiyyətli şəkildə yerinə yetirə bilməyəcəklərini qəsd edir.

[2] Söhbət ixtiyari vaxtda qılınan duha namazından gedir. Günəş üfüqdən təxminən bir nizə hündürlüyündə yüksəldikdən sonra bu namazı qılmaq caizdir. Həmin vaxta ərəbcə “işraq” deyilir.

[3] Yəni, günəşin təqribən zenitə yüksəlməsinə yarım saat qalmış dörd rükət namaz qılardı. Burada “dörd rükət namaz” deyildikdə duha namazı nəzərdə tutulur. Onu da qeyd edək ki, duha namazını günəşin zenitə yüksəlməsinə yarım saat qalmış, yəni, bu namazın axır vaxtında onu qılmaq daha əfzəldir. Bu namazın fəzilətinə dair varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: “(Bu,) qızmış torpağın dəvə

əvvəl dörd rükət, sonra isə iki rükət, həmçinin əsrdən əvvəl də dörd rükət[1] namaz qılar və (bu dörd rükətlərin) hər iki rükətini Allaha müti olan mələklərə və peyğəmbərlərə, habelə onların yolunu tutub gedən möminlərə və müsəlmanlara salam verməklə digərindən ayırardı.[2]"[3]

---

balalarının ayaqlarını yandırdığı vaxt, *Allaha* boyun əyən kimsələrin qıldıqları namazdır" (Səhih Muslim, 1747).

[1] Bu dörd rükət ratibə, yəni, davamlı qılınan nafilə namazlarına aid olmasa da, onu hərdən qılmaq Allahın rəhmətinə qovuşmaq deməkdir. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Əsrdən əvvəl dörd rükət namaz qılan kimsəyə Allah rəhm edər!" (Sunən Əbu Davud, 1271; Səhih Tərğib vət-Tərhib, 588).

[2] Yəni, hər iki rükətin sonunda salam verib namazını tamamlayardı. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Gecə və gündüz qılınan (nafilə) namazları iki rükət-iki rükət qılınır" (Sunən Əbu Davud, 1271; Səhih əl-Cami, 3831).

[3] Bu hədisi Nəsai (874), Tirmizi (598), Əhməd (1/85) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "həsən" olduğunu demişdir.

٤١- بَاب صَلاة الضُحى

41-ci fəsil. Duha[1] namazı

٢٨٨- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ الطَّيَالِسِيُّ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ يَزِيدَ الرِّشْكِ، قَالَ: سَمِعْتُ مُعَاذَةَ، قَالَتْ: قُلْتُ لِعَائِشَةَ: ((أَكَانَ النَّبِيُّ ﷺ يُصَلِّي الضُّحَى؟)) قَالَتْ: ((نَعَمْ، أَرْبَعَ رَكَعَاتٍ، وَيَزِيدُ مَا شَاءَ اللَّهُ عَزَّ وَجَلَّ)).

(288) ..... Muazə demişdir: "Mən Aişədən soruşdum: "Peyğəmbər ﷺ duha namazını qılardımı?" O dedi: "Bəli,

---

[1] Müəllif bu fəsili ayrıca ünvanla varid etmişdir ki, duha namazının nə dərəcədə fəzilətli olduğunu və Peyğəmbərin ﷺ bu namazı tövsiyə etdiyini, habelə, bu namazın nə cür qılındığını və onu qılanların nə qədər savab qazandığını bəyan etsin. Duha namazının fəzilətinə dəlalət edən hədislərin birində rəvayət edilir ki, Əbu Hureyrə ﷺ demişdir: "Ən əziz dostum (Rəsulullah ﷺ) mənə üç şeyi nəsihət etmişdir ki, mən ölənədək, onları buraxan deyiləm: hər ayın üç gününü oruc tutmaq, duha namazını qılmaq və yatmazdan əvvəl vitri qılmaq" (Səhih əl-Buxari, 1178); digər hədisdə Peyğəmbər ﷺ demişdir: "Sizlərdən hər biriniz hər gün əzaları sayəsində sədəqə verə bilər. Hər "Subhanəllah" demək sədəqədir, hər "Əlhəmdulillah" demək sədəqədir, hər "Lə ilahə illəllah" demək sədəqədir, hər "Allahu Əkbər" demək sədəqədir, yaxşı işlər görməyi əmr etmək sədəqədir, pis əməllərdən çəkindirmək sədəqədir və duha çağında qılınan iki rükət namaz bütün bunları əvəz edir" (Səhih Muslim, 720).

(o, bu namazı) dörd rükət qılar və (bəzən rükətlərin sayını) Allah ﷻ istədiyi qədər artırardı.1"[2]

٢٨٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنِي حَكِيمُ بْنُ مُعَاوِيَةَ الزِّيَادِيُّ، قَالَ: حَدَّثَنَا زِيَادُ بْنُ عُبَيْدِ اللهِ بْنِ الرَّبِيعِ الزِّيَادِيُّ، عَنْ حُمَيْدٍ الطَّوِيلِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ النَّبِيَّ ﷺ، كَانَ يُصَلِّي الضُّحَى سِتَّ رَكَعَاتٍ.

(289) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ duha namazını altı rükət[3] qılardı.[4]

٢٩٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ عَمْرِو بْنِ مُرَّةَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي لَيْلَى، قَالَ: ((مَا أَخْبَرَنِي أَحَدٌ، أَنَّهُ رَأَى النَّبِيَّ ﷺ يُصَلِّي الضُّحَى إِلا أُمُّ هَانِئٍ، فَإِنَّهَا حَدَّثَتْ أَنَّ

---

[1] Duha namazının neçə rükət qılınması barədə alimlər müxtəlif fikirlər söyləmişlər. Onlardan kimisi bu namazın iki, yaxud dörd, yaxud altı, yaxud da səkkiz rükət qılındığını, kimisi də bundan da artıq, on iki rükət qılındığını, kimisi də bu namazın rükətlərinin sayında məhdudiyyət olmadığını demişdir.

[2] Bu hədisi Muslim (719), İbn Macə (1380) və Əhməd (6/120) rəvayət etmişdir.

[3] Burada "altı rükət qılardı" deyildikdə, Peyğəmbərin ﷺ bu namazı davamlı olaraq altı rükət qıldığı nəzərdə tutulmur. Belə ki, Peyğəmbər ﷺ bu namazı çox vaxt dörd, bəzən altı, bəzən səkkiz, bəzən də on iki rükət qılmışdır.

[4] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin mətninin "səhih" olduğunu demişdir.

رَسُولَ اللهِ ﷺ، دَخَلَ بَيْتَهَا يَوْمَ فَتْحِ مَكَّةَ فَاغْتَسَلَ فَسَبَّحَ ثَمَانِيَ رَكَعَاتٍ، مَا رَأَيْتُهُ ﷺ صَلَّى صَلاةً قَطُّ أَخَفَّ مِنْهَا، غَيْرَ أَنَّهُ كَانَ يُتِمُّ الرُّكُوعَ وَالسُّجُودَ)).

(290) ..... Abdur-Rəhman ibn Əbu Leyla demişdir: "(Səhabələrdən) heç kəs mənə Peyğəmbərin ﷺ duha namazını qıldığını gördüyünü xəbər verməmişdir.[1] Yalnız Ummu Hanidən başqa. O, rəvayət etmişdir ki, Rəsulullah Məkkənin fəthi günü onun evinə gəlib (orada) qüsl etmiş[2] və səkkiz rükət namaz qılmışdır. (O demişdir): "Mən Peyğəmbərin ﷺ bu *namazdan* daha xəfif namaz qıldığını görməmişdim. Buna rəğmən, o, rüku və səcdəni uzadardı."[3]

٢٩١- حَدَّثَنَا ابْنُ أَبِي عُمَرَ قَالَ: حَدَّثَنَا وَكِيعٌ قَالَ: حَدَّثَنَا كَهْمَسُ بْنُ الْحَسَنِ، عَنْ عَبْدِ اللَّهِ ابْنِ شَقِيقٍ قَالَ: قُلْتُ لِعَائِشَةَ: أَكَانَ النبي ﷺ يُصَلِّي الضحى؟ قَالَتْ: ((لا، إلاَّ يَجِيء مِنْ مَغِيبِهِ)).

(291) ..... Abdullah ibn Şəqiq demişdir:[4] "Mən Aişədən soruşdum: "Peyğəmbər ﷺ duha namazını qılardımı?"

---

[1] Abdur-Rəhman ibn Əbu Leylanın bu sözü heç də o demək deyil ki, həmin vaxt Ummu Hanidən ﵂ başqa heç kəs Peyğəmbərin bu namazı qıldığını bilmirdi. Sadəcə olaraq, Abdur-Rəhmana bu haqda xəbər çatmamışdır (Tohfətul-Əhvəzi).

[2] Buxarinin rəvayətində Ummu Hani ﵂: "Fatimənin də ona pərdə tutduğunu gördüm"– demişdir.

[3] Bu hədisi Buxari (1122), Muslim (336), Əbu Davud (1291), Nəsai (486), Tirmizi (474) və Əhməd (6/342) rəvayət etmişdir.

[4] Bu hədisi Muslim (717), Nəsai (2184) və Əhməd (6/171) rəvayət etmişdir.

O dedi: “Xeyr, ancaq səfərdən qayıtdıqda[1] (bu namazı qılardı).”

[1] Bu fəsilin əvvəlində keçən hədisdə Aişə ﵂ Peyğəmbərin ﷺ bu namazı dörd rükət və daha artıq qıldığını, bu hədisdə onun ancaq səfərdən qayıtdıqda duha namazını qıldığını və nəhayət, Buxarinin “Səhih”ində (1128) onun heç vaxt bu namazı qılmadığını xəbər vermişdir. Həmin hədisdə Aişə ﵂ demişdir: “Peyğəmbərin ﷺ yerinə yetirmək istədiyi elə əməllər var idi ki, o, insanların bu əməlləri yerinə yetirdikdən sonra bunun onlara da fərz buyurulacağından ehtiyat etdiyindən həmin əməlləri (çox vaxt) tərk edərdi. Peyğəmbər ﷺ heç vaxt duha namazını qılmayıb, mən isə bu namazı qılıram” (Səhih əl-Buxari, 1128). Cəlaləddin əs-Suyuti bu hədislərə aydınlıq gətirərkən demişdir: “Aişə ﵂ Peyğəmbərin ﷺ bu namazı qıldığını görməməsi, heç də onun əsla bu namazı qılmadığına dəlalət etmir. Çünki Aişə ﵂ digər “səhih” hədislərdə Peyğəmbərin ﷺ bu namazı qıldığını xəbər vermişdir. Aişə ﵂ Peyğəmbərin ﷺ duha namazını qılmadığını xəbər verməsinin səbəbi budur ki, o, bu namazı heç vaxt Aişənin ﵂ yanında qılmamışdır. Habelə, Aişənin ﵂: “O, bu namazı dörd rükət qılardı” deməsi dəlildir ki, Aişə ﵂ bu namazın özünü inkar etməmişdir, sadəcə olaraq, Peyğəmbərin ﷺ onu qıldığını görməmişdir” (Dibac alə Muslim, 2/338-339). Buxarinin “Səhih”ində Kəb ibn Malik ﵁ demişdir: “Peyğəmbər ﷺ nə zaman səfərdən səhər açıldıqda qayıdardısa, məscidə girib oturmamışdan əvvəl iki rükət namaz qılardı” (Səhih əl-Buxari, 3088). Bu hədisdən aydın olur ki, səfəri başa vurub mənzil başına çatdıqda (məscidə gəlib duha) namazını qılmaq sünnədir (Umdətul-Qari Şərh Səhih əl-Buxari, 198-ci hədisin şərhi). Hədislərdən aydın olur ki, Peyğəmbər ﷺ bu namazı davamlı olaraq qılmamışdır. Lakin başqa hədislərdə Peyğəmbər ﷺ bu namazın nə dərəcədə fəzilətli olduğunu xəbər vermiş, habelə, səhabələrindən bəzisinə bu namazı qılmağı tövsiyə etmişdir. İbn Teymiyyə bu məsələyə aydınlıq gətirərkən demişdir: “Peyğəmbərin ﷺ sünnəsindən xəbəri olan alimlər yekdil rəydədirlər ki, Peyğəmbər ﷺ duha namazını davamiyyətli qılmamışdır. Bu namazın Peyğəmbərə ﷺ vacib buyurul-

٢٩٢- حَدَّثَنَا زِيَادُ بْنُ أَيُّوبَ الْبَغْدَادِيُّ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ رَبِيعَةَ، عَنْ فُضَيْلِ بْنِ مَرْزُوقٍ، عَنْ عَطِيَّةَ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ، يُصَلِّي الضُّحَى حَتَّى نَقُولَ: لا يَدَعُهَا، وَيَدَعُهَا حَتَّى نَقُولَ: لا يُصَلِّيهَا)).

(292) ..... Əbu Səid əl-Xudri ﷺ demişdir: "Peyğəmbər ﷺ (hərdən) duha namazını (o qədər davamlı) qılardı ki, axırda biz (öz-özümüzə): "O, bu namazı tərk etməyəcək"– deyərdik. (Hərdən də) onu tərk edər və biz: "O, bu namazı heç vaxt qılmayacaq"– deyərdik."[1]

٢٩٣- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: أَخْبَرَنَا هُشَيْمٍ، قَالَ: أَخْبَرَنَا عُبَيْدَةُ، عَنِ إِبْرَاهِيمَ، عَنْ سَهْمِ بْنِ مِنْجَابٍ، عَنْ قَرْثَعٍ الضَّبِّيِّ، أَوْ عَنْ قَزَعَةَ، عَنْ قَرْثَعٍ، عَنْ أَبِي أَيُّوبَ الأَنْصَارِيِّ، أَنَّ النَّبِيَّ ﷺ، كَانَ يُدْمِنُ أَرْبَعَ رَكَعَاتٍ عِنْدَ زَوَالِ الشَّمْسِ، فَقُلْتُ: ((يَا رَسُولَ اللهِ، إِنَّكَ تُدْمِنُ هَذِهِ الأَرْبَعَ رَكَعَاتٍ عِنْدَ زَوَالِ

---

duğunu deyən fəqihlər isə yanılırlar... Sual verilə bilər ki, "Əbu Hureyrənin ﷺ hədisinə əsasən bu namazı davamlı qılmaq əfzəldir, yoxsa Peyğəmbər ﷺ kimi onu nadir hallarda qılmaq?" Bu xüsusda alimlər ixtilaf etmişlər. Lakin demək olar ki, hər kim gecə namazını davamlı qılarsa, bu namazlar duha namazını əvəz edər. Necə ki, Peyğəmbər ﷺ edərdi. Və kim də bu namazları buraxarsa, gündüz vaxtı onun əvəzini qılar" (Məcmuəl-Fətəva, 22/283-284).

[1] Bu hədisi Tirmizi (477) və Əhməd (3/21) rəvayət etmişdir. Hədisin isnadında keçən Fudeyl ibn Mərzuq rəvayətlərində yanılmış "səduq", habelə Atiyyə ibn Səd ibn Cunadə çoxlu xəlara yol vermiş "səduq", üstəlik "mudəllis" ravidir (Təqrib ət-Təhzib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

الشَّمْسِ))، فَقَالَ: ((إِنَّ أَبْوَابَ السَّمَاءِ تُفْتَحُ عِنْدَ زَوَالِ الشَّمْسِ فَلا تُرْتَجُ حَتَّى تُصَلَّى الظُّهْرُ، فَأُحِبُّ أَنْ يَصْعَدَ لِي فِي تِلْكَ السَّاعَةِ خَيْرٌ))، قُلْتُ: ((أَفِي كُلِّهِنَّ قِرَاءَةٌ؟)) قَالَ: ((نَعَمْ)) قُلْتُ: ((هَلْ فِيهِنَّ تَسْلِيمٌ فَاصِلٌ؟)) قَالَ: ((لا)).

(293) ..... Əbu Əyyub əl-Ənsari ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ davamlı olaraq, günəş zeniti keçdikdə dörd rükət namaz[1] qılardı. (Bir gün) mən: "Ya Rəsulullah, (görürəm) sən davamlı olaraq günəş zeniti keçdikdə dörd rükət namaz qılırsan"– deyə ondan (bunun səbəbini soruşdum). O dedi: "Günəş zeniti keçdiyi zaman göy qapıları açılır və zöhr namazı qılınanadək, bu qapılar bağlanmır. Mən də istəyirəm ki, gördüyüm xeyirli iş o saatda (göyə) yüksəlsin." Mən soruşdum: "Bu dörd rükətin hər birində (Qurandan ayə) oxunurmu?"[2] O: "Bəli!"– deyə cavab verdi. Soruşdum: "Hər iki rükətdən sonra salam vermək gərəkdirmi?" O: "Xeyr!"[3]– deyə cavab verdi."[4]

---

[1] Çox güman ki, bu dörd rükət Peyğəmbərin ﷺ zöhrdən əvvəl davamlı qıldığı nafilə namazıdır (Camul-Vəsail). 295-ci hədisə bax.

[2] Burada səhabə Peyğəmbərdən ﷺ bu rükətlərin hər birində "əl-Fatihə" surəsini oxuduqdan sonra əlavə bir surə və ya bir neçə ayə oxunub-oxunmadığını bilmək istəmişdir.

[3] Bu dəlildir ki, dörd rükət nafilə namazını bir salamla qılmaq caizdir. Lakin qeyd etmək lazımdır ki, dörd rükət nafilə namazını bu cür qılmaq caiz olsa da, onu iki-iki qılmaq, yəni, hər iki rükətdən sonra salam vermək daha əfzəldir.

[4] Bu hədisi Əbu Davud (1270), İbn Macə (1157) və Əhməd (5/416-417) rəvayət etmişdir. Hədisin isnadında keçən Ubeydə ibn Muğattib əd-Dabbi "zəif" ravidir (Təqrib ət-Təhzib) Elə bu səbəbdən də bu

٢٩٤- حدثنا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: أَخْبَرَنَا أَبُو مُعَاوِيَةَ، قَالَ: حَدَّثَنَا عُبَيْدَةُ، عَنِ إِبْرَاهِيمَ، عَنْ سَهْمِ بْنِ مِنْجَابٍ، عَنْ قَزَعَةَ، عَنْ قَرْثَعٍ، عَنْ أَبِي أَيُّوبَ الأَنْصَارِيِّ، عَنِ النَّبِيِّ ﷺ، نَحْوَهُ.

(294) Bizə Əhməd ibn Məni belə xəbər vermişdir: "Bizə Əbu Müaviyə belə rəvayət etmişdir: "Bizə Ubeydə, İbrahimdən, o da, Səhm ibn Mincabdan, o da, Qəzəadən, o da Qərsəadən, o da, Əbu Əyyub əl-Ənsaridən, o da, Peyğəmbərdən ﷺ bu hədisin bənzərini rəvayət etmişdir."

٢٩٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ مُسْلِمِ بْنِ أَبِي الْوَضَّاحِ، عَنْ عَبْدِ الْكَرِيمِ الْجَزَرِيِّ، عَنْ مُجَاهِدٍ، عَنْ عَبْدِ اللهِ بْنِ السَّائِبِ، أَنَّ رَسُولَ اللهِ ﷺ كَانَ يُصَلِّي أَرْبَعًا بَعْدَ أَنْ تَزُولَ الشَّمْسُ قَبْلَ الظُّهْرِ وَقَالَ: ((إِنَّهَا سَاعَةٌ تُفْتَحُ فِيهَا أَبْوَابُ السَّمَاءِ، فَأُحِبُّ أَنْ يَصْعَدَ لِي فِيهَا عَمَلٌ صَالِحٌ)).

(295) ..... Abdullah ibn Saib[1] rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ günəş zeniti keçdikdən sonra, zöhr

---

hədisin isnadı "zəif" hesab edilir. Lakin bu hədisi qüvvətləndirən digər hədislər varid olduğundan şeyx Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[1] Əbu Saib Abdullah ibn Saib ibn Yezid ibn Səid əl-Qureşi əl-Məxzumi. Zamanında Məkkənin qarilərindən olmuşdur. Mücahid demişdir: "Vaxtı ilə biz başqa şəhərlərin sakinləri yanında öz qarimiz Abdullah ibn Saiblə, fəqihimiz Abdullah ibn Abbasla, müəzzinimiz

namazından əvvəl dörd rükət namaz qıldı, sonra da belə buyurdu: “Bu, elə bir saatdır ki, həmin vaxt göy qapıları açılır. Mən də istəyirəm ki, mənim etdiyim saleh əməl o saatda (göyə) yüksəlsin.”[1]

٢٩٦- حَدَّثَنَا أَبُو سَلَمَةَ يَحْيَى بْنُ خَلَفٍ، قَالَ: حَدَّثَنَا عُمَرُ بْنُ عَلِيٍّ الْمُقَدَّمِيُّ، عَنْ مِسْعَرِ ابْنِ كِدَامٍ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ عَاصِمِ بْنِ ضَمْرَةَ، عَنْ عَلِيٍّ، أَنَّهُ كَانَ يُصَلِّي قَبْلَ الظُّهْرِ أَرْبَعًا، وَذَكَرَ أَنَّ رَسُولَ اللهِ ﷺ كَانَ يُصَلِّيهَا عِنْدَ الزَّوَالِ وَيَمُدُّ فِيهَا.

(296) ..... Asim ibm Damra rəvayət edir ki, Əli (ibn Əbu Talib) zöhrdən əvvəl dörd rükət (nafilə) namazı qılar[2] və xatırladardı ki, Peyğəmbər ﷺ də günəş zeniti keçdikdən sonra bu namazı qılar və onu bir qədər uzadardı.[3]

Əbu Məhzura ilə və qazımız Ubeyd ibn Umeyrlə fəxr edərdik” (Siyər Əlam ən-Nubələ, 59-cu tərcümeyi-hal).

[1] Bu hədisi Tirmizi (478), Əhməd (3/411) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

[2] Demək, bu fəsilin son üç hədisi zöhr namazının sünnətinə aiddir.

[3] Bu hədis “həsən”dir (287-ci hədisin qeydlərinə bax).

٤٢ – بَاب صلاة التَطَوُّع في البيت

42-ci fəsil. Nafilə namazının evdə qılınması[1]

[1] Burada "nafilə namazı" deyildikdə, fərz namazı istisna edilir. Yəni, fərz namazı evdə yox, məsciddə camaatla birgə qılınmalıdır. Bunun vacib olmasına dair rəvayət edilmiş hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Canım Əlində olan Allaha and olsun ki, mən istərdim əmr edəm, odun yığsınlar, sonra əmr edəm, *camaatı* namaza çağırmaq üçün azan versinlər, sonra da bir adama camaata namaz qıldırmağı tapşıram və namaza gəlməyən kişilərin evinə gedib, onların evlərini yandırıb kül edəm. Canım Əlində olan Allaha and olsun ki, əgər onlardan birisi *burada* ona üstündə yağlı ət parçası olan sümük və ya bir cüt qoyun dırnağı veriləcəyini bilsəydi, mütləq işa namazına gələrdi" (Səhih əl-Buxari, 644). Hədisdə Peyğəmbər ﷺ "namaza gəlməyən kişilərin" deyir. Bu da, o deməkdir ki, bu hökm yalnız kişilərə vacibdir. Bu fikir həmçinin, Qurani Kərimdə də öz təsdiqini tapmışdır. Uca Allah "ən-Nur" surəsinin 35-ci ayəsində: **"Allah göylərin və yerin nurudur"** deyir, sonra 36-cı və 37-ci ayələrdə davam edib buyurur: **"*Bu nur* Allahın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izin verdiyi evlərdədir. *Mömin kişilər* orada səhər-axşam Ona təriflər deyirlər. O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar."** Nafilə namazını isə əksinə, evdə qılmaq əfzəldir. Bunun da hikmətlərindən biri budur ki, ev, məzarlığa bənzəməsin. Bü xüsusda varid olmuş hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "İçində Allah zikr edilən evlə, Allah zikr edilməyən evin məsəli, diri ilə ölünün məsəlinə bənzəyir" (Səhih Muslim, 1823). Yalnız üzrlü halda camaat namazına getməmək caizdir. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Azanı eşidib namaza gəlməyən kimsənin (təkbaşına qıldığı) namazı qəbul deyildir. Yalnız üzrlü olanlar istisnadır" (Sunən İbn Macə 645; Səhih əl-Cami, 6300). Hədisdə üzr deyildikdə, yolda olan təhlükə, yaxud ağır xəstəlik və ya bu kimi maneələr nəzərdə tutulur.

٢٩٧- حَدَّثَنَا عَبَّاسٌ الْعَنْبَرِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، عَنْ مُعَاوِيَةَ بْنِ صَالِحٍ، عَنِ الْعَلاءِ بْنِ الْحَارِثِ، عَنْ حَرَامِ بْنِ مُعَاوِيَةَ، عَنْ عَمِّهِ عَبْدِ اللهِ بْنِ سَعْدٍ، قَالَ: ((سَأَلْتُ رَسُولَ اللهِ ﷺ عَنِ الصَّلاةِ فِي بَيْتِي وَالصَّلاةِ فِي الْمَسْجِدِ، قَالَ: ((قَدْ تَرَى مَا أَقْرَبَ بَيْتِي مِنَ الْمَسْجِدِ، فَلأَنْ أُصَلِّيَ فِي بَيْتِي أَحَبُّ إِلَيَّ مِنْ أَنْ أُصَلِّيَ فِي الْمَسْجِدِ، إِلا أَنْ تَكُونَ صَلاةً مَكْتُوبَةً)).

(297) ..... Abdullah ibn Səd[1] ﷺ demişdir: "Mən Rəsulullahdan ﷺ evimdə qıldığım və bir də məsciddə qıldığım namaz barədə soruşdum.[2] O dedi: "Görürsən, mənim evim məscidə nə qədər yaxındır. (Buna baxmayaraq,) mənim üçün evdə namaz qılmaq, məsciddə namaz qılmaqdan daha xoşdur.[3] Yalnız fərz namazından başqa."[4]

---

[1] Əbu Yəhya Abdullah ibn Səd ibn Əbu Sərh ibn Haris əl-Qureşi ﷺ Peyğəmbərin ﷺ səhabəsi, Osman ibn Əffanın ﷺ süd qardaşıdır. Hicrətin 59-cu ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 8-ci tərcümeyi-hal).

[2] Burada səhabə həmin namazlardan hansının daha əfzəl olduğunu öyrənmək istəmişdir.

[3] Hərəvi demişdir: "Belə etmək adamı riyakarlıqdan və lovğalıqdan qoruyur, üstəlik, imanı möhkəmləndirir və beləliklə də, o, münafiqlərə müxalif olmuş olur, habelə, bu namaz evdə xeyir-bərəkətin artmasına, mələklərin o evi müşahidə etməsinə və şeytanların oradan uzaqlaşmasına səbəb olur" (Camul-Vəsail).

[4] Bu hədisi İbn Macə (1378), Əhməd (4/342) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

٤٣- بَاب ما جاء في صَوْم رسول الله ﷺ

43-cü fəsil. Rəsulullahın ﷺ orucu[1] barədə varid olanlar

[1] Müəllif bu fəsildə Peyğəmbərin ﷺ həm ramazanda, həm hər həftə, yəni, birinci və dördüncü günlər, həm hər ay, yəni, hər ayın üç gününü, həm də hər il, yəni, aşura gününü və bununla yanaşı, ondan əvvəl, yaxud ondan sonra gələn günləri, ərəfa günü, habelə, istədiyi vaxt ardıcıl olaraq günlərlə oruc tutduğunu xəbər verən hədisləri varid etmişdir. Lüğəti mənada oruc: tutmaq, nəfsi saxlamaq deməkdir. İstilahi mənada isə bu: Allaha ibadət etmək məqsədilə dan yeri söküləndən gün batanadək nəfsi, (orucu) pozan şeylərdən saxlamaqdır. Oruc tutmaq möminin təqvasını artıran, qəlbini Allaha yönəldən, nəfsi haramlardan, günah işlərdən və ümumiyyətlə, Allahı qəzəbə gətirən hər bir əməldən çəkindirən bir ibadətdir. Uca Allah bu xüsusda buyurur: **"Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə *pis əməllərdən* çəkinəsiniz"** (əl-Bəqərə, 183). Həmçinin, Peyğəmbər ﷺ orucun mömin bəndəni pis əməllərdən çəkindirdiyini xəbər verib demişdir: "Oruc bir sipərdir" (Səhih əl-Buxari, 1894). Allahın fərz buyurduğu bu orucu tutmaq həddi-büluğa çatmış, ağlı başında olan hər bir müsəlmana vacibdir. Allahdan qorxan müsəlman təkcə orucluq ayında dan yeri söküləndən gün batanadək yox, ömrünün axırınadək hər zaman günahlardan çəkinməlidir. Bu da, öz-özlüyündə mömin üçün bir oruc, yəni, sipər sayılır. Və elə oruc tutmağın əsəs məqsədlərindən biri də məhz pis əməllərdən çəkinib, Allahın rizasını qazanmaqdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim yalan danışmaqdan və bu yalana əməl etməkdən əl çəkməsə, yeməyini və içməyini tərk etməsinə Allahın ehtiyacı yoxdur" (Səhih əl-Buxari, 1903); digər bir hədisdə isə o demişdir: "Qoy, evlənməyə imkanı olan *hər kəs* evlənsin. Çünki evlilik, gözləri və cinsiyyət üzvünü *zinadan* qoruyan ən yaxşı *vasitədir*. İmkanı olmayanlar isə oruc tutsunlar. Çünki oruc *insanın* şəhvətini soyudur" (Səhih əl-Buxari, 1905).

٢٩٨- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ أَيُّوبَ، عَنْ عَبْدِ اللهِ بْنِ شَقِيقٍ، قَالَ: سَأَلْتُ عَائِشَةَ، عَنْ صِيَامِ رَسُولِ اللهِ ﷺ، قَالَتْ: ((كَانَ يَصُومُ حَتَّى نَقُولَ قَدْ صَامَ، وَيُفْطِرُ حَتَّى نَقُولَ قَدْ أَفْطَرَ قَالَتْ: وَمَا صَامَ رَسُولُ اللهِ ﷺ، شَهْرًا كَامِلا مُنْذُ قَدِمَ الْمَدِينَةَ إِلا رَمَضَانَ)).

(298) ..... Abdullah ibn Şəqiq demişdir:[1] "Mən Aişədən Rəsulullahın ﷺ orucu barədə soruşdum. O dedi: "Rəsulullah ﷺ (bəzən o qədər) oruc tutardı[2] ki, axırda biz (öz-özümüzə): "O, (bütün ayı) oruc tutacaq"– deyərdik. (Bəzən də günlərlə) oruc tutmazdı və iş o yerə gəlib çatardı ki, biz (öz-özümüzə): "O (bu ay) oruc tutmayacaq"– deyərdik. Rəsulullah ﷺ Mədinəyə gəldiyi gündən bəri[3] ramazandan başqa heç bir ayı[1] tam olaraq oruc tutmamışdır."

---

[1] Bu hədisi Buxari (1969), Muslim (1156), Nəsai (2349) və Tirmizi (768) rəvayət etmişdir.

[2] Burada söhbət nafilə oruclarından gedir.

[3] Burada "Mədinəyə gəldiyi gündən" deyildikdə, elə başa düşülməməlidir ki, Peyğəmbər ﷺ Məkkədə yaşadığı müddət hansısa ayı tam olaraq oruc tutmuşdur. Belə ki, oruc tutmaq hicrətin 2-ci ilində, Peyğəmbər ﷺ Mədinəyə hicrət etdikdən sonra vacib buyurulmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, bundan əvvəl nafilə orucu, daha dəqiq desək, aşura gününü oruc tutardı. Bu xüsusda rəvayət edilmiş hədisdə Aişə ؓ demişdir: "Cahiliyyət dövründə qureyşlilər aşura gününü oruc tutardılar; Peyğəmbər ﷺ də həmin günü oruc tutardı. O, Mədinəyə hicrət etdikdən sonra bu orucu tutmağa davam etdi və bunu səhabələrinə də əmr etdi. Nəhayət, ramazan ayının orucu vacib buyurulduqdan sonra o, belə buyurdu: "Kim istəyirsə onu tutsun,

٢٩٩- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ جَعْفَرٍ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسٍ، أَنَّهُ سُئِلَ عَنْ صَوْمِ النَّبِيِّ ﷺ، فَقَالَ: ((كَانَ يَصُومُ مِنَ الشَّهْرِ حَتَّى نَرَى أَنْ لا يُرِيدَ أَنْ يُفْطِرَ مِنْهُ، وَيُفْطِرُ مِنْهُ حَتَّى نَرَى أَنْ لا يُرِيدَ أَنْ يَصُومَ مِنْهُ شَيْئًا وَكُنْتَ لا تَشَاءُ أَنْ تَرَاهُ مِنَ اللَّيْلِ مُصَلِّيًا إِلا رَأَيْتَهُ مُصَلِّيًا، وَلا نَائِمًا إِلا رَأَيْتَهُ نَائِمًا)).

(299) ..... Humeyd rəvayət edir ki,[2] (bir dəfə) Ənəs Peyğəmbərin ﷺ orucu barədə soruşdular. O dedi: "(Bəzən)

---

istəmirsə, tutmasın" (Səhih əl-Buxari, 2002; Səhih Muslim, 2693). Yeri gəlmişkən, qeyd edək ki, ramazan ayının orucunu tutmaq, İslamın beş sütunundan biridir. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "İslam beş (əsas) üzərində qurulmuşdur: Allahdan başqa (ibadətə haqqı olan) məbud olmadığına və Muhəmmədin ﷺ Allahın elçisi olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və ramazan orucunu tutmaq" (Səhih əl-Buxari, 8). Ramazan orucunu tutmağın nə dərəcədə fəzilətli olması barədə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kim Ramazan ayını imanla, mükafatını *yalnız Allahdan* umaraq oruc tutarsa, keçmiş günahları bağışlanar" (Səhi əl-Buxari, 38); həmçinin, bu aydan istifadə etməyən kimsənin pis aqibəti barədə belə buyurmuşdur: "Ramazan ayına yetişib, günahları bağışlanmamış *halda ondan ayrılan* bəndə zəlil olsun!" (Ədəbul-Mufrəd, 646).

[1] Hərçənd, Peyğəmbər ﷺ bəzi aylarda, məsələn: şaban ayında daha çox oruc tutardı, lakin bununla belə o, bu ayı tam olaraq oruc tutmazdı. İmam Buxarinin rəvayətində bu hədisin tamamında Aişə رضي الله عنها demişdir: Həmçinin, *başqa aylarda* şaban ayında olduğu qədər çox oruc tutduğunu da görməmişəm."

[2] Bu hədisi Buxari (1871), Muslim (1158), Tirmizi (769), Nəsai (1627) və Əhməd (3/104, 236, 264) rəvayət etmişdir.

Peyğəmbər ﷺ ay ərzində o qədər oruc tutardı ki, hətta biz onun həmin ay orucunu pozmaq istəmədiyini güman edərdik.[1] (Bəzən də) ay ərzində (günlərlə) oruc tutmaz və nəhayət, biz onun həmin ayda oruc tutmaq istəmədiyini güman edərdik. Sən nə vaxt onun gecə namazı qıldığını görmək istəsəydin, görə bilərdin. Habelə yatdığını görmək istəsəydin, onu da görə bilərdin.[2]"

٣٠٠– حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي بِشْرٍ، قَالَ: سَمِعْتُ سَعِيدَ بْنَ جُبَيْرٍ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ:

---

[1] Səhabə demək istəyir ki, Peyğəmbər ﷺ ayın əvvəlindən oruc tutmağa başlayıb günlərlə dalbadal, o qədər oruc tutardı ki, axırda onlar onun həmin ayı axıradək oruc tutacağını güman edərdilər.

[2] Bunu deməklə, səhabə bildirmək istəyir ki, Peyğəmbər ﷺ gecələr əsla yuxusuz qalmaz, bir qismini yatar, bir qismini də ibadətdə keçirərdi. Yeri gəlmişkən, qeyd edək ki, alimlər bu üslubu, yəni, verilən suala cavab verməkdən əlavə başqa bir məsələyə də aydınlıq gətirməyi, elmdə səxavətlilik hesab edirlər. Ənəs ibn Malik ﷺ isə bu üslubu təbii ki, Peyğəmbərdən ﷺ öyrənmişdir. Buna da "Sunən" əsərlərində varid olmuş hədisi misal göstərmək olar. Həmin hədisdə Əbu Hureyrə ﷺ rəvayət edir ki, bir nəfər Peyğəmbərdən ﷺ: "Ya Rəsulullah, biz dənizə çıxırıq və özümüzlə az miqdarda su götürürük. Əgər onunla dəstəmaz alsaq, içəcək suyumuz qalmayacaq. *Belə olduğu halda,* dənizin suyu ilə dəstəmaz ala bilərikmi?"– deyə soruşdu. Peyğəmbər ﷺ belə buyurdu: "Dənizin suyu təmiz, içindəki ölmüş balıqlar isə halaldır" (Sunən Əbu Davud, 83; Sunən ən-Nəsai, 59; Sunən ət-Tirmizi, 74; Sunən İbn Macə, 386; Silsilətul-Əhadisis-Səhihə, 480). Bu hədisdə Peyğəmbər ﷺ ondan dəstəmaz barədə soruşan adama dəniz heyvanının ölüsünün halal sayıldığını və quruda yaşayan heyvanlardan fərqli olaraq üzərində, "bismillah" deyilərək boğazlanmasına gərək olmadığını xəbər verir.

((كَانَ النَّبِيُّ ﷺ يَصُومُ حَتَّى نَقُولَ مَا يُرِيدُ أَنْ يُفْطِرَ مِنْهُ، وَيُفْطِرُ حَتَّى نَقُولَ مَا يُرِيدُ أَنْ يَصُومَ مِنْهُ، وَمَا صَامَ شَهْرًا كَامِلا مُنْذُ قَدِمَ الْمَدِينَةَ إِلا رَمَضَانَ)).

(300) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ (bəzən o qədər) oruc tutardı ki, hətta, biz (öz-özümüzə): "O, bu ay orucunu kəsmək istəmir"– deyərdik. (Bəzən də günlərlə) oruc tutmaz və iş o yerə gəlib çatardı ki, biz (öz-özümüzə): "O, bu ay oruc tutmaq istəmir"– deyərdik. Peyğəmbər ﷺ Mədinəyə gəldiyi gündən bəri ramazan ayı istisna olmaqla heç bir ayı tam olaraq oruc tutmamışdır."[1]

٣٠١- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، عَنْ سُفْيَانَ، عَنْ مَنْصُورٍ، عَنْ سَالِمِ بْنِ أَبِي الْجَعْدِ، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أُمِّ سَلَمَةَ، قَالَتْ: ((مَا رَأَيْتُ النَّبِيَّ ﷺ يَصُومُ شَهْرَيْنِ مُتَتَابِعَيْنِ إِلا شَعْبَانَ وَرَمَضَانَ)).

قَالَ أَبُو عِيسَى: هَذَا إِسنَادٌ صَحِيحٌ وَهَكَذَا قَالَ: عَنْ أَبِي سَلَمَةَ، عَنْ أُمِّ سَلَمَةَ وَرَوَى هَذَا الْحَدِيثَ غَيْرُ وَاحِدٍ، عَنْ أَبِي سَلَمَةَ، عَنْ عَائِشَةَ، عَنِ النَّبِيِّ ﷺ، وَيُحْتَمَلُ أَنْ يَكُونَ أَبُو سَلَمَةَ بْنُ عَبْدِ الرَّحْمَنِ قَدْ رَوَى الْحَدِيثَ عَنْ عَائِشَةَ، وَأُمِّ سَلَمَةَ جَمِيعًا، عَنِ النَّبِيِّ ﷺ.

(301) ..... Əbu Sələmə[2] rəvayət edir ki,[1] Ummu Sələmə رضي الله عنها demişdir: "Mən Peyğəmbərin ﷺ iki ay dalbadal

---

[1] Bu hədisi Buxari (1870), Muslim (1157), Nəsai (2346), İbn Macə (1711) və Əhməd (1/227) rəvayət etmişdir.

[2] Əbu Sələmə رحمه الله məşhur tabiin, üstəlik, Peyğəmbərin ﷺ məşhur səhabəsi Abdur-Rəhman ibn Aufun رضي الله عنه oğludur. Adı da Abdullah, yaxud İsmaildir (Siyər Əlam ən-Nubələ, 108-ci tərcümeyi-hal).

oruc tutduğunu görməmişəm. Yalnız şaban[2] və ramazan ayları müstəsnadır.”

Əbu İsa (ət-Tirmizi) demişdir: “Bu hədisin isnadı səhihdir. Beləcə (Salim bu hədisi) Əbu Sələmədən, o da, Ummu Sələmədən rəvayət etmişdir. Ancaq başqaları bu hədisi Əbu Sələmədən, o da, Aişədən, o da, Peyğəmbərdən ﷺ rəvayət etmişlər. Ehtimal edilir ki, Əbu Sələmə ibn Abdur-Rəhman bu hədisi hər ikisindən: Ummu Sələmədən və Aişədən, onlar da Peyğəmbərdən ﷺ rəvayət etmişlər.”

٣٠٢- حَدَّثَنَا هَنَّادٌ، قَالَ: حَدَّثَنَا عَبْدَةُ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، قَالَ: حَدَّثَنَا أَبُو سَلَمَةَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((لَمْ أَرَ رَسُولَ اللهِ ﷺ، يَصُومُ فِي شَهْرٍ أَكْثَرَ مِنْ صِيَامِهِ فِي شَعْبَانَ، كَانَ يَصُومُ شَعْبَانَ إِلا قَلِيلا، بَلْ كَانَ يَصُومُهُ كُلَّهُ)).

---

[1] Bu hədisi Əbu Davud (2336), Nəsai (2175), Tirmizi (736), İbn Macə (1648) və Əhməd (6/293-294) rəvayət etmişdir.

[2] Başqa bir rəvayətdə Aişə ﵂ demişdir: “Peyğəmbər ﷺ heç bir ayda şaban ayında tutduğu qədər çox oruc tutmazdı. Elə olurdu ki, o, şaban ayının hamısını oruc tuturdu” (Səhih əl-Buxari, 1970). İbn Həcər bu hədisi izah edərkən demişdir: “Hədisdə “şaban ayının hamısını oruc tutardı” deyildikdə, bu ayın çox günləri nəzərdə tutulur. Tirmizi İbn Mubarəkin belə dediyini rəvayət etmişdir: “Ərəb dilində ayın çox günlərini oruc tutan adam barəsində “o, ayın hamısını oruc tutmuşdur” deyilə bilər” (Fəthul-Bari). Bir də ki, müsəlmana yalnız ramazan ayını oruc tutmaq vacib buyurulmuşdur. Digər aylarda oruc tutmaq isə müstəhəbdir.

(302) ..... Əbu Sələmə rəvayət edir ki,[1] Aişə رضي الله عنها demişdir: "Mən Peyğəmbərin ﷺ şaban ayından başqa bir ayda Allah üçün[2] daha çox oruc tutduğunu görməmişəm. Peyğəmbər ﷺ şaban ayından bir neçə gün istisna olmaqla, o, bu ayın (çox hissəsini), hətta hamısını[3] oruc tutardı."

---

[1] Bu hədisi Tirmizi (737) rəvayət etmişdir. Həmçinin, həm Buxarinin (1869), həm də Muslimin (782) "Səhih" əsərlərində bu hədisin bənzəri rəvayət edilmişdir.

[2] Burada "Allah üçün" deyildikdə, bu orucların müstəhəb olduğu nəzərdə tutulur.

[3] İmam Əbu İsa ət-Tirmizi bu hədisi "Sunən" əsərində nəql etdikdən sonra demişdir: "Rəvayət edilir ki, İbn Mubarək bu hədis barədə demişdir: "Ərəb dilində, ayın çox günlərini oruc tutan adam barəsində "o, ayın hamısını oruc tutmuşdur" deyilir. Habelə, gecənin bir qismini bəzi işlərlə məşğul olub sonra namaz qılan kimsə barədə "filankəs bütün gecəni namaz qılıb" deyilir. İbn Mubarək hər iki hədisin səhih olduğunu nəzərə alıb demişdir: "Bu hədislərdən belə nəticə çıxır ki, Peyğəmbər ﷺ ayın çox hissəsini oruc tutarmış" (Sunən ət-Tirmizi, 737). Bu fikir imam Muslimin rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır. Həmin hədisdə Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ şaban ayının hamısnı – bu ayın çox hissəsini oruc tutardı" (Səhih Muslim, 2778). İmam Nəvəvi bu hədisə aydınlıq gətirərkən demişdir: "(Aişənin رضي الله عنها dediyi sözün) ikincisi, birincisini izah edir." Xülasə budur ki, Peyğəmbər ﷺ ramazandan başqa heç bir ayı tam olaraq oruc tutmamışdır. Şaban ayında oruc tutmağın hikmətinə dair rəvayət edilmiş hədisdə Usamə ibn Zeyd رضي الله عنه demişdir: "(Bir dəfə) mən Peyğəmbərə ﷺ dedim: "Ya Rəsulullah, mən sənin şaban ayında tutduğun oruclar qədər digər aylarda oruc tutduğunu görmürəm." O da, *mənə* belə cavab verdi: "Bu, elə bir aydır ki, insanlar rəcəb ilə ramazan ayı arasında keçən bu ayda *savab qazanmaq* fürsətini əldən

٣٠٣- حَدَّثَنَا الْقَاسِمُ بْنُ دِينَارٍ الْكُوفِيُّ، قَالَ: حَدَّثَنَا عُبَيْدُ اللهِ بْنُ مُوسَى، وَطَلْقُ بْنُ غَنَّامٍ، عَنْ شَيْبَانَ، عَنْ عَاصِمٍ، عَنْ زِرِّ بْنِ حُبَيْشٍ، عَنْ عَبْدِ اللهِ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ، يَصُومُ مِنْ غُرَّةِ كُلِّ شَهْرٍ ثَلاثَةَ أَيَامٍ، وَقَلَّمَا كَانَ يُفْطِرُ يَوْمَ الْجُمُعَةِ)).

(303) ..... Abdullah (ibn Məsud) ﷺ demişdir:[1] "Rəsulullah ﷺ hər ayın əvvəllərində[2] üç gün oruc tutar və çox nadir hallarda cümə günü orucunu buraxardı.[3]"

---

qaçırırlar. Bu, elə bir aydır ki, bu ayda görülən əməllər aləmlərin Rəbbinin yanına qalxır. Mən də istəyirəm ki, gördüyüm xeyirli iş mən oruc tutmuş ikən *göyə* yüksəlsin" (Sunən ən-Nəsai, 2357; Səhih Tərğib vət-Tərhib, 1022).

[1] Bu hədisi Əbu Davud (2450), Nəsai (2368), Tirmizi (742), İbn Macə (1725), Əhməd (1/406) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "həsən" olduğunu demişdir.

[2] Burada "əvvəllərində" deyildikdə elə başa düşülməməlidir ki, bu orucu məhz ayın əvvəlində tutmaq sünnədir. Çünki bu xüsusda Peyğəmbərdən ﷺ rəvayət edilmiş digər hədislərə və onların şərhlərinə nəzər saldıqda aydın olur ki, bu orucu ayın əvvəlində də, ortasında da, axırında da, istər ardıcıl üç gün, istərsə də, ayrı-ayrı günlərdə tutmaq caizdir. Hər ayın üç gününü oruc tutmağın fəzilətinə dair rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Ramazan ayını, üstəlik, hər ayın üç gününü oruc tutmaq, il boyu oruc tutmağa bərabərdir" (Sunən ən-Nəsai, 2366; Səhih əl-Cami, 3718). Hədisdən aydın olur ki, hər ay tutulan üç gün oruc tam bir aya, bunlar da üst-üstə bir ilin orucuna bərabərdir.

[3] Bu hədisdə Peyğəmbərin ﷺ cümə günü oruc tutduğu, Buxarinin "Səhih"ində (1984 və 1986) isə onun ayrıca cümə günü oruc tutmağı

٣٠٤- حَدَّثَنَا أَبُو حَفْصٍ عَمْرُو بْنُ عَلِيٍّ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ دَاوُدَ، عَنْ ثَوْرِ بْنِ يَزِيدَ، عَنْ خَالِدِ بْنِ مَعْدَانَ، عَنْ رَبِيعَةَ الْجُرَشِيِّ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كَانَ النَّبِيُّ ﷺ يَتَحَرَّى صَوْمَ الاثْنَيْنِ وَالْخَمِيسِ)).

(304) ..... Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ birinci və dördüncü günləri[1] əzmlə oruc tutardı."[2]

---

qadağan etdiyi varid olmuşdur. Mubarəkfuri bu hədisi belə izah etmişdir: "Muzhir demişdir: "Bunu belə yozmaq olar ki, Peyğəmbər ﷺ cümə gününün orucunu ya ondan əvvəlki, ya da ondan sonrakı günlə bərabər tutarmış, yaxud demək olar ki, bu oruc Peyğəmbərə ﷺ xas imiş." Qeyd edim ki, ayrıca cümə günü oruc tutmağın qadağan edilməsi barədə səhih hədislər varid olmuşdur. Elə bu səbəbdən də, alimlərin əksəriyyəti ayrıca cümə günü oruc tutmağı məkruh əməllərdən hesab etmişlər. Lakin imam Əbu Hənifə və Malik bunun məkruh olmadığını demiş və bu fəsildəki hədisə əsaslanmışlar. İbn Həcər "Fəthul-Bari" əsərində demişdir: "Hərçənd, hənəfilər bu fəsildə varid olmuş Tirmizinin İbn Məsuddan rəvayət etdiyi bu hədisə əsaslanırlar, lakin bu hədisdə *onların rəyini təsdiqləyən* bir əsas yoxdur. Çünki ehtimal edilir ki, Peyğəmbər ﷺ oruclarını ardıcıl tutduğundan cümə günü onu pozmamışdır. Bu da, ayrıca cümə günü oruc tutmağın məkruh olduğuna zidd deyildir. Beləliklə də, bu iki hədisi cəm etmiş oluruq" İbn Həcərin sözü burada bitdi" (Tohfətul-Əhvəzi, 673-cü hədisin izahı).

[1] Hər həftənin bu iki gününü oruc tutmaq Peyğəmbərin ﷺ davamlı yerinə yetirdiyi və çox sevdiyi sünnələrdəndir.

[2] Bu hədisi Nəsai (2187), Tirmizi (745) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

٣٠٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ يَحْيَى، قَالَ: حَدَّثَنَا أَبُو عَاصِمٍ، عَنْ مُحَمَّدِ بْنِ رِفَاعَةَ، عَنْ سُهَيْلِ بْنِ أَبِي صَالِحٍ، عَنْ أَبِيهِ، عَنْ أَبِي هُرَيْرَةَ، أَنَّ النَّبِيَّ ﷺ، قَالَ: ((تُعْرَضُ الأَعْمَالُ يَوْمَ الاثْنَيْنِ وَالْخَمِيسِ، فَأُحِبُّ أَنْ يُعْرَضَ عَمَلِي وَأَنَا صَائِمٌ)).

(305) ..... Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Bazar ertəsi və cümə axşamı[1] əməllər (Allaha) ərz edilir. Mən də istəyirəm ki, əməlim mən oruc tutmuş ikən (Allaha) ərz edilsin."[2]

٣٠٦- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو أَحْمَدَ، وَمُعَاوِيَةُ بْنُ هِشَامٍ، قَالا: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مَنْصُورٍ، عَنْ خَيْثَمَةَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كَانَ النَّبِيُّ ﷺ يَصُومُ مِنَ الشَّهْرِ السَّبْتَ وَالأَحَدَ وَالاثْنَيْنَ، وَمِنَ الشَّهْرِ الآخَرِ الثُّلاثَاءَ وَالأَرْبَعَاءَ وَالْخَمِيسَ)).

---

[1] Burada "cümə axşamı" deyildikdə dördüncü gün nəzərdə tutulur. Bu günlərin fəzilətinə dair varid olmuş hədislərin birində Peyğəmbər ﷺ demişdir: "Bazar ertəsi və cümə axşamı Cənnətin qapıları açılır və *müsəlman* qardaşına nifrət edən kimsədən başqa, Allaha heç nəyi şərik qoşmayan hər kəsin günahları bağışlanır. (Bir-birinə nifrət edən iki qardaş haqqında isə belə) deyilir: "Bu ikisini, aralarındakı münasibətləri düzəldənədək gözləyin (onların bağışlanmasını təxirə salın)" (Ədəbul-Mufrəd, 411).

[2] Bu hədisi Tirmizi Sunən əsərində (747) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

(306) ..... Aişə رضي الله عنها demişdir:[1] "Peyğəmbər ﷺ bəzi aylarda şənbə, bazar və bazar ertəsi, digərlərində isə çərşənbə axşamı, çərşənbə və cümə axşamları[2] oruc tutardı."

---

[1] Tirmizi bu hədisi "Sunən" əsərində rəvayət etmiş və onun "həsən" olduğunu demişdir. Hədisin isnadında keçən Muaviyə ibn Hişam "çoxlu xətalara yol vermiş səduq" ravidir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" və "Səhih əl-Cami" əsərlərində bu hədisin mötəbər olduğunu demişdir.

[2] Burada Aişə رضي الله عنها Peyğəmbərin ﷺ hər ayın üç gününü: 13-ü, 14-ü və 15-i oruc tutduğunu xəbər verir. Qəməri ayların hər birində "əyyamul-biyd" deyilən bu üç gün isə heç də hər ay həftənin eyni günləri ilə üst-üstə düşmür. Odur ki, Aişə رضي الله عنها Peyğəmbərin ﷺ fərqli günlərdə oruc tutduğunu söyləmişdir. Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbər ﷺ şənbə günü oruc tutmağı qadağan etmişdir. Lakin bir çox alimlər Aişənin رضي الله عنها bu hədisinə, habelə, bu mənada rəvayət olunmuş bir çox hədislərə əsaslanaraq demişlər ki, şənbə gününün orucunu tutmaq barədə qadağa yalnız fərdi şəkildə tutulan oruca aiddir. Və əgər şənbə gününün orucu bu üç günə, yaxud aşura gününə, yaxud ərəfa gününə, yaxud şəvval ayının altı gününə təsadüf edərsə və ya cümə gününün ardınca şənbə gününün orucunu tutmağa niyyət edilərsə, bu təqdirdə şənbə günü oruc tutmaq caizdir. Bəzi alimlər isə şənbə günü oruc tutmağın qadağan olunması barədə varid olmuş hədislərə əsaslanaraq, ümumiyyətlə, həmin gün oruc tutmağı qadağan hesab etmişlər. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Fərz orucları istisna olmaqla, şənbə günü oruc tutmayın!" (Səhih əl-Cami, 7358).

٣٠٧- حَدَّثَنَا أَبُو مُصْعَبٍ الْمَدِينِيُّ، عَنْ مَالِكِ بْنِ أَنَسٍ، عَنْ أَبِي النَّضْرِ، عَنْ أَبِي سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((مَا كَانَ رَسُولُ اللهِ ﷺ يَصُومُ فِي شَهْرٍ أَكْثَرَ مِنْ صِيَامِهِ فِي شَعْبَانَ)).

(307) ..... Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ heç bir ayda şaban ayında tutduğu qədər çox oruc tutmazdı."[1]

٣٠٨- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ يَزِيدَ الرِّشْكِ، قَالَ: سَمِعْتُ مُعَاذَةَ، قَالَتْ: قُلْتُ لِعَائِشَةَ: ((أَكَانَ رَسُولُ اللهِ ﷺ، يَصُومُ ثَلاثَةَ أَيَّامٍ مِنْ كُلِّ شَهْرٍ؟)) قَالَتْ: ((نَعَمْ)) قُلْتُ: ((مِنْ أَيِّهِ كَانَ يَصُومُ؟)) قَالَتْ: ((كَانَ لا يُبَالِي مِنْ أَيِّهِ صَامَ)).

قَالَ أَبُو عِيسَى: وَيَزِيدُ الرِّشْكُ هُوَ يَزِيدُ الضُّبَعِيُّ الْبَصْرِيُّ وَهُوَ ثِقَةٌ رَوَى عَنْهُ شُعْبَةُ، وَعَبْدُ الْوَارِثِ بْنُ سَعِيدٍ، وَحَمَّادُ بْنُ زَيْدٍ، وَإِسْمَاعِيلُ بْنُ إِبْرَاهِيمَ، وَغَيْرُ وَاحِدٍ مِنَ الأَئِمَةِ، وَهُوَ يَزِيدُ الْقَاسِمُ وَيُقَالُ: الْقَسَّامُ، وَالرِّشْكُ بِلُغَةِ أَهْلِ الْبَصْرَةِ هُوَ الْقَسَّامُ.

(308) ..... Muazə demişdir: "(Bir dəfə) mən Aişədən: "Rəsulullah ﷺ hər ayın üç gününü oruc tutardımı?"– deyə soruşdum. O: "Bəli!"– deyə cavab verdi. Mən soruşdum:

[1] Bu hədisi Buxari (1868), Muslim (1156), Əbu Davud (2434), Nəsai (2351) və Əhməd (6/107) rəvayət etmişdir.

“Hansı günləri oruc tutardı?” O dedi: “Hansı günləri oruc tutmaq onun üçün təfavüt etməzdi.”[1]

Əbu İsa (ət-Tirmizi) demişdir: “Bu Yezid ər-Rişk[2] – Yezid əd-Dubəi əl-Bəsridir və o, etibarlı ravidir. Şobə, Abdul-Varis ibn Səid, Həmmad ibn Zeyd, İsmail ibn İbrahim və digərləri ondan (neçə-neçə hədislər) rəvayət etmişlər. Ona Yezid əl-Qasim, yaxud əl-Qəssam[3] da deyirlər. Bəsrə əhlinin dilində ər-Rişk, əl-Qəssam deməkdir.”

٣٠٩- حَدَّثَنَا هَارُونُ بْنُ إِسْحَاقَ الْهَمْدَانِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدَةُ بْنُ سُلَيْمَانَ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كَانَ عَاشُورَاءُ يَوْمًا تَصُومُهُ قُرَيْشٌ فِي الْجَاهِلِيَّةِ، وَكَانَ رَسُولُ اللهِ ﷺ يَصُومُهُ، فَلَمَّا قَدِمَ الْمَدِينَةَ صَامَهُ وَأَمَرَ بِصِيَامِهِ، فَلَمَّا افْتُرِضَ رَمَضَانُ كَانَ رَمَضَانُ هُوَ الْفَرِيضَةُ وَتُرِكَ عَاشُورَاءُ، فَمَنْ شَاءَ صَامَهُ وَمَنْ شَاءَ تَرَكَهُ)).

(309) ..... Aişə رضي الله عنها demişdir: “Aşura[4] günü cahiliyyət dövründə qureyşlilərin oruc tutduqları bir gün idi; [1]

---

[1] Bu hədisi Muslim (1160), Əbu davud (2453), Tirmizi (763), İbn Macə (1709) və Əhməd (6/145-146) rəvayət etmişdir.

[2] Hərəvi rəvayət edir ki, Əbu Hatim ər-Razi demişdir: “Yezid olduqca qeyrətli olduğundan, ona “ər-Rişk” ləqəbi verilmişdi.” Qeyd edim ki, farsca “rişk” qeyrət deməkdir. Ola bilsin ki, sonradan bu kəlmə ərəb dilinin leksikasına daxil olmuşdur (Camul-Vəsail).

[3] Ərəbcə “əl-Qasim” və ya “əl-Qəssam” əslində, bölən və bölüşdürən deməkdir. Bu ravi torpaq sahələrini bölüşdürmə xüsusunda məşhurlaşdığına görə ona bu ləqəbi vermişlər. (Camul-Vəsail).

[4] Aşura: Muhərrəm ayının 10-u.

Peyğəmbər ﷺ də həmin günü oruc tutardı. O, Mədinəyə hicrət etdikdən sonra bu orucu tutmağa davam etdi və bunu (səhabələrinə də) əmr etdi.[2] Nəhayət, ramazan ayını oruc tutmaq vacib buyurulduqdan sonra, (ancaq) ramazan ayının orucu fərz qəbul edildi, aşura gününün orucu isə tərk edildi[3]. Bundan sonra aşura orucunu kim istəsə, tutar, kim istəsə, tutmazdı."[4]

٣١٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مَنْصُورٍ، عَنِ إِبْرَاهِيمَ، عَنْ عَلْقَمَةَ، قَالَ: سَأَلْتُ

---

[1] Ehtimal edilir ki, qureyşlilər bu günü İbrahim dinindən qalmış bir ayin kimi yerinə yetirərmişlər. Rəsulullah ﷺ isə bu orucu, əlbəttə ki, Allaha yaxınlaşmaq məqsədilə tutardı.

[2] Aşura gününü oruc tutmaq Allaha şükür etməyin əlamətidir. Həmin gündə Allah Musanı və onun qövmünü Fironun əlindən xilas etmişdir. Bu xüsusda varid olmuş hədisdə rəvayət edilir ki, İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ Mədinəyə gəldikdə, yəhudilərin aşura günü oruc tutduqlarını görüb: "Bu nədir?"– deyə soruşdu. Onlar: "Bu, gözəl bir gündür! Bu, Allahın İsrail oğullarını onların düşmənlərindən xilas etdiyi bir gündür! (Elə bu səbəbdən də) Musa həmin günü oruc tutmuşdur"– dedilər. Onda, Peyğəmbər ﷺ buyurdu: "Mən Musaya (onun etdiyini davam etməyə) sizdən daha haqlıyam." Sonra o, həmin günü oruc tutdu və səhabələrinə də o günü oruc tutmağı əmr etdi" (Səhih əl-Buxari, 2004).

[3] Yəni, onun hökmünün vacibliyi ləğv edildi. Lakin hökmü sünnə olaraq davam etdi. Qeyd edək ki, səhabələr aşura gününün orucunu fərz olaraq cəmi iki dəfə: hicrətin 1-ci və 2-ci illərində tutmuşlar.

[4] Bu hədisi Buxari (1897), Muslim (1125), Əbu Davud (2442), Tirmizi (753) və Əhməd (6/29-30) rəvayət etmişdir.

عَائِشَةَ، أَكَانَ رَسُولُ اللهِ ﷺ، يَخُصُّ مِنَ الأَيَامِ شَيْئًا؟ قَالَتْ: ((كَانَ عَمَلُهُ دِيمَةً، وَأَيُّكُمْ يُطِيقُ مَا كَانَ رَسُولُ اللهِ ﷺ، يُطِيقُ)).

(310) ..... Əlqəmə demişdir: "Mən Aişədən soruşdum: "Rəsulullah ﷺ müəyyən günlərdə (nafilə ibadətini) xüsusiləşdirərdimi?" O dedi: "Onun etdiyi əməllər davamiyyətli olardı.[1] Bir də ki, hansı biriniz Rəsulullahın ﷺ tab gətirdiyinə tab gətirə bilər?![2]"[3]

٣١١- حَدَّثَنَا هَارُونُ بْنُ إِسْحَاقَ، قَالَ: حَدَّثَنَا عَبْدَةُ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((دَخَلَ عَلَيَّ رَسُولُ اللهِ ﷺ وَعِنْدِي امْرَأَةٌ، فَقَالَ: ((مَنْ هَذِهِ؟)) قُلْتُ: فُلانَةُ لا تَنَامُ اللَّيْلَ، فَقَالَ رَسُولُ اللهِ ﷺ: ((عَلَيْكُمْ مِنَ الأَعْمَالِ مَا تُطِيقُونَ، فَوَاللهِ لا يَمَلُّ اللهُ حَتَّى تَمَلُّوا))، وَكَانَ أَحَبَّ ذَلِكَ إِلَى رَسُولِ اللهِ ﷺ الَّذِي يَدُومُ عَلَيْهِ صَاحِبُهُ)).

(311) ..... Aişə رضي الله عنها demişdir: "(Bir dəfə) bir qadın mənim yanımda ikən, Rəsulullah ﷺ (hücrəmə) daxil oldu

---

[1] Peyğəmbər ﷺ ibadətləri davamlı yerinə yetirməyi səhabələrinə də tövsiyə edərdi. Abdullah ibn Amr ibn As رضي الله عنهما rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ mənə belə buyurdu: "Ey Abdullah, sən filankəs kimi olma! O, gecələr namaza durardı, sonra isə gecə namazını tərk etdi" (Səhih əl-Buxari, 1152).

[2] Burada Aişə رضي الله عنها demək istəyir ki, bu ümmətdən heç kəs öz ibadətini istər kəmiyyət, istərsə də keyfiyyət baxımından Peyğəmbər ﷺ kimi yerinə yetirə bilməz, onun tək təqvalı, imanlı, ixlaslı, təvazökar ola bilməz. Müsəlmanlar, sadəcə ona oxşaya bilərlər.

[3] Bu hədisi Buxari (2886), Muslim (6101), Əbu Davud (1370) və Əhməd (6/43) rəvayət etmişdir.

və: "Bu kimdir?"– deyə soruşdu. Dedim: "Filankəsdir,[1] o, gecələri yatmır, [2] (səhərədək namaz qılır)." Onda, Rəsulullah ﷺ belə buyurdu: "Siz bacardığınız əməlləri yerinə yetirməlisiniz. Vallahi, siz usanmadıqca, Allah usanmaz."[3]

---

[1] İbn Hibbanın "Səhih"ində (360) rəvayət edilmiş bu hədisdə həmin qadının Hovlə bint Tuveyt رضي الله عنها olduğu xəbər verilir. Bu qadın Xədicənin رضي الله عنها qohumlarından idi.

[2] 40-cı fəsilin hədislərini – Peyğəmbərin ﷺ gecə namazları barədə varid olan hədisləri izah edərkən, bizə aydın oldu ki, gecənin bir qismini yatmaq, digər qismini ibadətdə keçirmək sünnədir. Demək, burada qadının bu əməli sünnəyə ziddir.

[3] İbn Useymin رحمه الله bu hədisi izah edərkən demişdir: "Yəni, siz etdiyiniz əməldən bezib, onu tərk etməyincə, Allah sizin əməllərinizin mükafatını kəsməz. Odur ki, davamlı yerinə yetirməyə gücünüz yetdiyi ibadətləri yerinə yetirməlisiniz ki, ibadətə görə qazanacağınız savab da davamlı olsun. Burada Peyğəmbər ﷺ qadına həddən ziyadə ibadət edib, özünü yormamağı əmr edir ki, sonda bu yorğunluq onu bezdirib, həmin namazı tərk etməyə gətirib çıxartmasın... Hədisdə "Allah usanmaz" deyildikdə Allaha layiq bir (feli) sifət nəzərdə tutulur və bu usanmaq biz insanların usanmağına bənzəmir. Çünki insan adətən yorğunluqdan və tənbəllikdən usanır, Allahın usanması isə Özünə aid nöqsansız bir usanmadır. Demək, yorğunluq və tənbəllik kimi naqis sifətləri Allaha aid etmək olmaz. Uca Allah bu xüsusda Qurani Kərimdə belə buyurur: **"Biz göyləri, yeri və onların arasında olanları altı gündə yaratdıq və Bizə heç bir yorğunluq üz vermədi"** (Qaf, 38)" (Şərh Riyadus-Salihin, 142-ci hədisin şərhi).

Aişə ﵂ dedi: “Rəsulullah ﷺ üçün ibadətlərin ən sevimlisi, (əməl) sahibi tərəfindən davamlı yerinə yetiriləni idi.”[1]

٣١٢- حَدَّثَنَا أَبُو هِشَامٍ مُحَمَّدُ بْنُ يَزِيدَ الرِّفَاعِيُّ، قَالَ: حَدَّثَنَا ابْنُ فُضَيْلٍ، عَنِ الأَعْمَشِ، عَنْ أَبِي صَالِحٍ، قَالَ: سَأَلْتُ عَائِشَةَ، وَأُمَّ سَلَمَةَ، أَيُّ الْعَمَلِ كَانَ أَحَبَّ إِلَى رَسُولِ اللهِ ﷺ؟ قَالَتَا: ((مَا دِيمَ عَلَيْهِ، وَإِنْ قَلَّ)).

(312) ..... Əbu Saleh demişdir: “Mən Aişədən və Ummu Sələmədən soruşdum: “Hansı əməl Peyğəmbərin ﷺ ən çox sevdiyi (əməllərdən) idi?” İkisi də (eyni cavabı verib) dedi: “Az olsa da, davamlı yerinə yetirilən əməl.[2]”[3]

---

[1] Bu hədisi Buxari (43), Muslim (785), Nəsai (1642), Tirmizi (304), İbn Macə (5035) və Əhməd (6/46) rəvayət etmişdir.

[2] Bu hədis dəlildir ki, az olub, davamlı yerinə yetirilən ibadət çox olub, sonda tərk edilən ibadətdən daha xeyirlidir. Peyğəmbər ﷺ öz ümmətinə bu dini çətinləşdirməməyi buyurub demişdir: “Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət oyatmayın” (Səhih əl-Buxari, 69). Həmçinin, o, dini çətinləşdirən hər kəsin aqibətinin çox pis olacağı barədə belə buyurmuşdur: “Dini çətinləşdirən elə bir kimsə yoxdur ki, (bu din) onu üstələməsin” (Səhih əl-Buxari, 39); başqa bir hədisdə o, üç dəfə təkrar-təkrar demişdir: “(Allahın asan buyurduğu bu dini) çətinləşdirən kimsələr həlak oldu!” (Səhih Muslim, 6955).

[3] Bu hədisi Tirmizi (304), Əhməd (6/289) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

٣١٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْمَاعِيلَ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ صَالِحٍ، قَالَ: حَدَّثَنِي مُعَاوِيَةُ بْنُ صَالِحٍ، عَنْ عَمْرِو بْنِ قَيْسٍ، أَنَّهُ سَمِعَ عَاصِمَ بْنَ حُمَيْدٍ، قَالَ: سَمِعْتُ عَوْفَ بْنَ مَالِكٍ، يَقُولُ: ((كُنْتُ مَعَ رَسُولِ اللهِ ﷺ، لَيْلَةً فَاسْتَاكَ، ثُمَّ تَوَضَّأَ، ثُمَّ قَامَ يُصَلِّي، فَقُمْتُ مَعَهُ فَبَدَأَ فَاسْتَفْتَحَ الْبَقَرَةَ، فَلا يَمُرُّ بِآيَةِ رَحْمَةٍ، إِلا وَقَفَ فَسَأَلَ، وَلا يَمُرُّ بِآيَةِ عَذَابٍ، إِلا وَقَفَ فَتَعَوَّذَ، ثُمَّ رَكَعَ فَمَكَثَ رَاكِعًا بِقَدْرِ قِيَامِهِ، وَيَقُولُ فِي رُكُوعِهِ: ((سُبْحَانَ ذِي الْجَبَرُوتِ وَالْمَلَكُوتِ، وَالْكِبْرِيَاءِ وَالْعَظَمَةِ))، ثُمَّ سَجَدَ بِقَدْرِ رُكُوعِهِ، وَيَقُولُ فِي سُجُودِهِ: ((سُبْحَانَ ذِي الْجَبَرُوتِ وَالْمَلَكُوتِ، وَالْكِبْرِيَاءِ وَالْعَظَمَةِ)) ثُمَّ قَرَأَ آلَ عِمْرَانَ ثُمَّ سُورَةً سُورَةً، يَفْعَلُ مِثْلَ ذَلِكَ فِي كل ركعة)).

(313) ..... Auf ibn Malik[1] ﷺ demişdir: “Bir gecə mən Rəsulullahın ﷺ yanında qaldım. O, əvvəlcə (dişlərini) misvakla[2] təmizlədi,[3] sonra dəstəmaz aldı, sonra da durub

[1] Əbu Abdur-Rəhman Auf ibn Malik əl-Əşcəi əl-Ğətəfani ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. Məkkənin fəthində, Mutə döyüşündə və Konstantinopola olan yürüşdə iştirak etmişdir. Hicrətin 73-cü ilində vəfat etmişdir (Siyər Əlam ən-Nubələ, 101-ci tərcümeyi-hal).

[2] Misvak – dişləri təmizləmək üçün ərak ağacından düzəldilmiş təbii fırça.

[3] Hər namazdan əvvəl dişləri misvakla təmizləmək Peyğəmbərin ﷺ çox sevdiyi və ümmətinə tövsiyə etdiyi əməllərdəndir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: “Mən misvaka dair sizə dəfələrlə nəsihət etmişəm” (Səhih əl-Buxari, 888); başqa bir hədisdə isə o, belə buyurmuşdur: “Əgər ümmətimə ağır gəlməsəydi, onlara əmr

namaz qıldı. Mən də gəlib onun yanında namaza durdum. Rəsulullah ﷺ (“əl-Fatihə” surəsindən sonra) “əl-Bəqərə” surəsini oxumağa başladı. O, hər bir rəhmət ayəsini oxuduqda dayanıb, (Allahdan mərhəmət) diləyir[1] və hər bir əzab ayəsini oxuduqda dayanıb, (Allaha) sığınırdı.[2] Sonra o, rükuya getdi və qiyamda durduğu müddət qədər[3] rükuda durdu. Rükuda: “Subhanə zil-cəbəruti, vəl-mələkuti, vəl-kibriyai, vəl-azəmə!”[4]– deyirdi. Sonra səcdə etdi və rükuda durduğu müddət qədər[5] səcdədə durdu. Səcdədə də: “Subhanə zil-cəbəruti, vəl-mələkuti, vəl-kibriyai, vəl-azəmə!”– deyirdi. Sonra o, “Ali-İmran”

---

edərdim ki, hər namazdan əvvəl *dişlərini* misvakla təmizləsinlər” (Səhih əl-Buxari, 887). Qeyd edək ki, bəzi müsəlmanlar bu hədisləri düzgün başa düşmədiklərindən, görürsən ki, imam təkbir gətirib namaza başladıqda onlar misvaklarını çıxarıb dişlərini təmizləyir və bir çox hallarda imamla bərabər təkbir gətirmək fürsətini əldən buraxırlar. Halbuki, namazı imamla birlikdə başlayıb axıradək onunla bərabər qılmaq daha əfzəldir.

[1] Məsələn: Cənnət, yaxud savab, yaxud nemətlər, yaxud Allahın lütfü zikr edilmiş ayələri oxuduqda dayanar və Allahdan mərhəmət diləyərdi.

[2] Məsələn: Cəhənnəm, yaxud əzab, yaxud cəza, yaxud Allahın qəzəbi zikr edilmiş ayələri oxuduqda dayanar və bunlardan Allaha sığınardı.

[3] Bu dəlildir ki, Peyğəmbər ﷺ rükunu “əl-Bəqərə” surəsini oxuduğu müddət qədər uzadardı.

[4] Tərcüməsi: Qüdrət, səltənət, böyüklük və əzəmət sahibi pak və müqəddəsdir!

[5] Bu da dəlildir ki, Peyğəmbər ﷺ səcdəni “əl-Bəqərə” surəsini oxuduğu müddət qədər uzadardı.

surəsini, daha sonra isə başqa surələri oxudu[1] və hər rükətdə (birinci rükətdə) etdiklərini təkrar etdi."[2]

[1] Səhabə demək istəyir ki, Peyğəmbər ﷺ ikinci rükətdə "Ali-İmran" surəsini və ondan sonra qıldığı rükətlərdə də başqa uzun surələrdən oxumuşdur.

[2] Bu hədisi Əbu Davud (873), Nəsai (1049), Əhməd (6/24) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Mişkatul-Məsabih" əsərində (882) bu hədisin "səhih" olduğunu demişdir.

٤٤- بَاب قِراءة رسول الله ﷺ

44-cü fəsil. Rəsulullahın ﷺ qiraəti[1]

٣١٤- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا اللَّيْثُ، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ، عَنْ يَعْلَى بْنِ مَمْلَكٍ، أَنَّهُ سَأَلَ أُمَّ سَلَمَةَ، عَنْ قِرَاءَةِ رَسُولِ اللهِ ﷺ، فَإِذَا هِيَ تَنْعَتُ قِرَاءَةً مُفَسَّرَةً حَرْفًا حَرْفًا.

(314) ..... Rəvayət edilir ki, Yəla ibn Məmlək Ummu Sələmədən Rəsulullahın ﷺ qiraəti barədə soruşmuş, o da, bu qiraəti izahlı şəkildə, hərfbəhərf[2] vəsf etmişdir."[3]

٣١٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا وَهْبُ بْنُ جَرِيرِ بْنِ حَازِمٍ، قَالَ: حَدَّثَنَا أَبِي، عَنْ قَتَادَةَ، قَالَ: قُلْتُ لأَنَسٍ: ((كَيْفَ كَانَتْ قِرَاءَةُ رَسُولِ اللهِ ﷺ؟)) فَقَالَ: ((مَدًّا)).

---

[1] Yəni, Rəsulullahın ﷺ Quran oxuması.

[2] Burada "izahlı şəkildə, hərfbəhərf" deyildikdə, ayələri kəlməbəkəlmə, hər bir hərfi aydın səsləndirməklə, ayələri aramla oxumaq nəzərdə tutulur.

[3] Bu hədisi Əbu Davud (1466), Nəsai (1022), Tirmizi (2924) və Əhməd (6/294) rəvayət etmişdir. Hədisin isnadında keçən Yəla ibn Məmlək "məqbul" ravidir (ət-Təqrib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Hədisin isnadı "zəif" olsa da, mənası "səhih"dir. Peyğəmbərin ﷺ Quranı aramla oxuması, bu fəsildə nəql edilmiş digər "səhih" hədislərdə öz təsdiqini tapmışdır.

(315) ..... Qətadə demişdir: "Mən Ənəsdən: "Peyğəmbər ﷺ (Quranı) necə oxuyardı?"– deyə soruşdum. O dedi: "Uzadaraq![1]"[2]

٣١٦- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ سَعِيدٍ الأُمَوِيُّ، عَنِ ابْنِ جُرَيْجٍ، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ، عَنْ أُمِّ سَلَمَةَ، قَالَتْ: ((كَانَ النَّبِيُّ ﷺ، يُقَطِّعُ قِرَاءَتَهُ، يَقُولُ: ((الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ)) ثُمَّ يَقِفُ، ثُمَّ يَقُولُ: ((الرَّحْمَنِ الرَّحِيمِ)) ثُمَّ يَقِفُ، وَكَانَ يَقْرَأُ ((مَلِكِ يَوْمِ الدِّينِ)).

(316) ..... Ummu Sələmə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ (Quranı) ara verə-verə[3] oxuyardı. **"Əlhəmdulilləhi Rabbil aləmin"**[4]– deyər, sonra dayanardı. Sonra: **"Ər-Rəhmanir-**

---

[1] Burada "uzadaraq" deyildikdə, bəzi kəlmələrin, habelə, kəlmələrdəki bəzi hərflərin uzadılması nəzərdə tutulur.

[2] Bu hədisi Buxari (4758), Əbu Davud (1465), Nəsai (1014), İbn Macə (1353) və Əhməd (3/119) rəvayət etmişdir. Buxarinin rəvayətinin tamamında deyilir: "Sonra Ənəs: "Bismillahir-Rəhmanir-Rəhim" ayəsini – "Bismillah", "ər-Rəhman" və "ər-Rəhim" (kəlmələrinin hər birini) uzadaraq oxudu."

[3] Qurani Kərimi bu cür oxumaq adama Allahın ayələrini başa düşməyə və onların barəsində düşünməyə kömək edir. Həm də, belə oxumaq sünnəyə uyğundur. İbn Qeyyim, Zuhrinin: "Rəsulullah ﷺ Quranı ayəbəayə oxuyardı"– dediyini nəql etmiş, sonra da davam edib demişdir: "Ən əfzəl olanı da elə budur. Əvvəlki ayənin mənası sonrakı ayəyə bağlı olsa da, hər ayənin sonunda dayanmaq daha əfzəldir... Əlbəttə ki, Peyğəmbərin ﷺ sünnəsinə tabe olmaq daha yaxşıdır" (Zadul-Məad, 1/337).

[4] Tərcüməsi: **"Həmd olsun aləmlərin Rəbbi Allaha!"** (əl-Fatihə, 2).

Rəhim”[1]– deyər, yenə dayanardı. Sonra da: **“Məliki**[2] **yovmid-din”**[3] (ayəsini) oxuyardı.”[4]

٣١٧- حَدَّثَنَا قُتَيْبَةُ، قَالَ: حَدَّثَنَا اللَّيْثُ، عَنْ مُعَاوِيَةَ بْنِ صَالِحٍ، عَنْ عَبْدِ اللهِ بْنِ أَبِي قَيْسٍ، قَالَ: سَأَلْتُ عَائِشَةَ، عَنْ قِرَاءَةِ النَّبِيِّ ﷺ: ((أَكَانَ يُسِرُّ بِالْقِرَاءَةِ أَمْ يَجْهَرُ؟)) قَالَتْ: ((كُلُّ ذَلِكَ قَدْ كَانَ يَفْعَلُ قَدْ كَانَ رُبَّمَا أَسَرَّ وَرُبَّمَا جَهَرَ)) فَقُلْتُ: ((الْحَمْدُ لِلَّهِ، الَّذِي جَعَلَ فِي الأَمْرِ سَعَةً)).

(317) ..... Abdullah ibn Əbu Qeys demişdir: “Mən Aişədən Peyğəmbərin ﷺ (Quran) oxuması barədə soruşub dedim: “O, (ayələri) səssiz, yoxsa səslə oxuyardı?”[5] Aişə dedi: “Hər ikisini edərdi. Bəzən səssiz, bəzən də səslə oxuyardı.[6]” Onda mən dedim: “Bu işdə (bizə) sərbəstlik verən Allaha həmd olsun!”[1]

---

[1] Tərcüməsi: **“Mərhəmətli və Rəhmliyə!”** (əl-Fatihə, 3).

[2] Bu hədisin bəzi rəvayətlərində **“Maliki yovmid-din”** deyilir, yəni, “mə” hərfi uzadılaraq oxunur ki, bu da, məşhur qiraətlərdən sayılır.

[3] Tərcüməsi: **“Haqq-hesab gününün Hökmdarına!”** (əl-Fatihə, 4).

[4] Bu hədisi Əbu Davud (4001), Tirmizi (2928) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

[5] Bu sual Peyğəmbərin ﷺ gecə namazına aiddir. Belə ki, imam Tirmizi bu hədisi “Sunən” əsərində “Peyğəmbərin ﷺ gecə *namazında* Quran oxuması” adlı fəsildə nəql etmişdir.

[6] Burada “səssiz oxuyardı” deyildikdə, hərfləri səssiz tələffüz edərək, Quran oxumaq qəsd edilir. Çünki namazda Quran ayələrini tələffüz etmədən, sadəcə, qəlbdən keçirmək bu ayələri oxumaq sayılmır, hətta “əl-Fatihə” surəsini bu cür tələffüzsüz oxumaq namazı

٣١٨- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، قَالَ: حَدَّثَنَا مِسْعَرٌ، عَنْ أَبِي الْعَلاءِ الْعَبْدِيِّ، عَنْ يَحْيَى بْنِ جَعْدَةَ، عَنْ أُمِّ هَانِئٍ، قَالَتْ: ((كُنْتُ أَسْمَعُ قِرَاءَةَ النَّبِيِّ ﷺ، بِاللَّيْلِ وَأَنَا عَلَى عَرِيشِي)).

(318) ..... Ummu Hani ؓ demişdir: "Mən yatağımda uzanmış olduğum halda Peyğəmbərin ﷺ gecə (namazında) oxuduğu (ayələri) eşidərdim."[2]

٣١٩- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ مُعَاوِيَةَ بْنِ قُرَّةَ، قَالَ: سَمِعْتُ عَبْدَ اللهِ بْنَ مُغَفَّلٍ، يَقُولُ: ((رَأَيْتُ النَّبِيَّ ﷺ، عَلَى نَاقَتِهِ يَوْمَ الْفَتْحِ، وَهُوَ يَقْرَأُ: ((إِنَّا فَتَحْنَا لَكَ فَتْحًا مُبِينًا لِيَغْفِرَ لَكَ اللَّهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِكَ وَمَا تَأَخَّرَ))، قَالَ: فَقَرَأَ وَرَجَّعَ)).

وَقَالَ مُعَاوِيَةُ بْنُ قُرَّةَ: لَوْلا أَنْ يَجْتَمِعَ النَّاسُ عَلَيَّ لأَخَذْتُ لَكُمْ فِي ذَلِكَ الصَّوْتِ أَوْ قَالَ: اللَّحْنِ.

(319) ..... Muaviyə ibn Qurra demişdir: "Mən Abdullah ibn Muğəffəlin belə dediyini eşitmişəm: "Mən fəth

---

batil edir. "Səslə oxuyardı" deyildikdə isə, lap uca səslə deyil, kifayət qədər eşidiləcək tərzdə səslə oxumaq nəzərdə tutulur. Beləliklə, aydın olur ki, gecə namazını qıldıqda Quranı bəzən səslə, bəzən də səssiz oxumaq sünnəyə müvafiqdir.

[1] Bu hədisi Muslim (307), Əbu Davud (1437), Tirmizi (449), Nəsai (1662) və Əhməd (6/73-74) rəvayət etmişdir.

[2] Bu hədisi Nəsai (1013), İbn Macə (1349), Əhməd (6/341-342) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

günü[1] Peyğəmbərin ﷺ dəvəsinin üstündə oturmuş ikən gözəl avazla[2] **"Həqiqətən, Biz sənə aydın bir zəfər bəxş etdik ki, Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlasın..."** (surəsini)[3] oxuduğunu gördüm."

Muaviyə ibn Qurra dedi: "Camaatın başıma yığışacağından çəkinməsəydim, sizin üçün Quranı həmin avazla, yaxud o tonda[4] oxuyardım."[5]

٣٢٠- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا نُوحُ بْنُ قَيْسٍ الْحُدَّانِيُّ، عَنْ حُسَامِ بْنِ مِصَكٍّ، عَنْ قَتَادَةَ، قَالَ: ((مَا بَعَثَ اللَّهُ نَبِيًّا إِلا حَسَنَ الْوَجْهِ،

---

[1] Alimlərin bəzisi bu hədisdə zikr olunmuş "fəth günü"nün Məkkənin fəthi günü olduğunu, bəziləri də Hüdeybiyyə sülhü günü olduğunu xəbər vermişlər.

[2] Quranı avazla oxumaq xüsusunda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Quranı öz səsinizlə gözəlləşdirin. Həqiqətən də, gözəl səs Quranın gözəlliyini (bir qədər də) artırır" (Sunən Əbu Davud, 1468; Mustədrək, 1/575; Silsilətul-Əhadisis-Səhihə, 771); başqa bir hədisdə o demişdir: "Quranı avazla oxumayan kimsə bizdən deyildir" (Səhih əl-Buxari, 7527); Peyğəmbər ﷺ gözəl avazla Quran oxuyan səhabəsini tərifləyib demişdir: "Ey Əbu Musa, sənə Davudun məlahətli səsi kimi məlahətli bir səs bəxş edilmişdir!" (Səhih əl-Buxari, 5048); yenə bir hədisdə o belə buyurmuşdur: "Ən gözəl Quran oxuyanlar o kimsələrdir ki, siz onların səsini eşitdikdə, onların Allahdan qorxduğunu hesab edirsiniz" (Sunən İbn Macə, 1101; Səhih ət-Tərğib vət-Tərhib, 1450).

[3] Burada Abdullah ibn Muğəffəl ﷺ Peyğəmbərin ﷺ "əl-Fəth" surəsini oxuduğunu xəbər verir.

[4] Ton: səsin səslənmə çaları.

[5] Bu hədisi Buxari (4031), Muslim (794), Əbu Davud (1467), Nəsai (8054) və Əhməd (4/85-86) rəvayət etmişdir.

حَسَنَ الصَّوْتِ، وَكَانَ نَبِيُّكُمْ ﷺ حَسَنَ الْوَجْهِ، حَسَنَ الصَّوْتِ، وَكَانَ لا يُرَجِّعُ)).

(320) ..... Qətadə demişdir: "Allah göndərdiyi hər bir peyğəmbərə həm gözəl bəniz, həm də gözəl səs bəxş etmişdi. Peyğəmbəriniz ﷺ də həmçinin, gözəl bənizli və gözəl səsli (bir zat) idi. (Quranı da) avazla oxumazdı."[1]

٣٢١- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ حَسَّانَ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ أَبِي الزِّنَادِ، عَنْ عَمْرِو بْنِ أَبِي عَمْرٍو، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: ((كَانَتْ قِرَاءَةُ النَّبِيِّ ﷺ، رُبَّمَا يَسْمَعُهَا مَنْ فِي الْحُجْرَةِ وَهُوَ فِي الْبَيْتِ)).

(321) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Bəzən Peyğəmbərin ﷺ evdə (Quran) oxuduğunu hücrədəkilər eşidərdi.[2]"[3]

---

[1] Bu hədisin isnadı "mursəl"dir, üstəlik, isnadında keçən Hişam ibn Misək zəif ravidir (ət-Təqrib). Muhəmməd Nasirəddin əl-Albani "Sifətu Sələtun-Nəbi" əsərində onun "zəif" olduğunu demişdir.

[2] Burada söhbət Peyğəmbərin ﷺ gecə namazında orta səslə Quran oxumasından gedir. Peyğəmbər ﷺ gecə namazında Quranı o vaxt səslə oxuyardı ki, onu eşidənlərə faydası olsun və ətrafdakılar onun səsindən əziyyət çəkməsin. Əks təqdirdə isə, yatanlara əziyyət verməsin deyə, Quranı səssiz oxuyardı. Hədisdə "hücrə" deyildikdə, evin içindəki otaq nəzərdə tutulur (Şərh Sunən Əbu Davud).

[3] Bu hədisi Əbu Davud (1327) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Mişkatul-Məsabih" əsərində (1203) onun "həsən" olduğunu demişdir.

٤٥ – بَاب بُكاء رسول الله ﷺ

45-ci fəsil. Rəsulullahın ﷺ ağlamağı[1]

[1] Müəllif bu fəsildə Peyğəmbərin ﷺ hansı hallarda ağladığını xəbər verən hədisləri varid etmişdir. Həmin hədislərdən aydın olur ki, Peyğəmbər ﷺ Allahdan qorxan bir bəndə, həm də ürəyiyumşaq və rəhmli adam olmuşdur. İbn Qeyyim Peyğəmbərin ﷺ nə səbəbdən və nə cür ağladığı barədə demişdir: "Peyğəmbərin ﷺ ağlamağı da, gülməyi kimi olardı. Necə ki, gülərkən qəhqəhə çəkməz, eləcə də, ağlayarkən zar-zar ağlayıb səsini qaldırmaz, sadəcə, gözləri yaşla dolar və ancaq hıçqırığı eşidilərdi. O, bəzən əzizinin ölümünə acıdığından, bəzən ümmətinin halına yandığından, bəzən Allah qorxusundan, bəzən də Quran ayələrini eşitdikdə ağlayardı. Bu, təqva ilə yanaşı, ürək yanğısından, məhəbbətdən və şəfqətdən irəli gələn bir ağlamaqdır. Peyğəmbərin ﷺ oğlu İbrahim vəfat etdiyi gün onun gözləri yaşla dolmuş və o, körpəyə acıyaraq ağlaya-ağlaya demişdir: "Gözlər yaşla dolur, qəlb kədərlənir, lakin biz Rəbbimizin razı qaldığı sözdən başqa bir söz demirik: "Ey İbrahim, həqiqətən də, biz sənin ayrılığına kədərlənirik." O, həmçinin, öz qızlarından birinin can verdiyini görərkən ağlamışdır. Habelə, İbn Məsud ona "ən-Nisa" surəsini oxuyub **"Biz hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman *onların halı* necə olacaq?"** ayəsinə çatdıqda (onu dayandırıb) ağlamışdır. Bundan başqa, Osman ibn Məzun vəfat etdikdə, habelə günəşin üzü tutulduğu zaman kusuf namazını qıldıqda da ağlamışdır. Peyğəmbər ﷺ namazların birində ağlayıb içini çəkə-çəkə demişdir: "Ey Rəbbim, məgər Sən mənə söz vermədinmi ki, mən onların arasında ikən, üstəlik, həm onlar, həm də biz Səndən bağışlanma dilədiyimiz zaman onlara əzab verməyəcək-sən?" O, həmçinin, qızlarından birinin qəbrinin başında oturduğu zaman ağlamış, habelə, hərdən gecə namazlarında da ağlayardı" (Zadul-Məad fi Hədyi Xayril-İbad, 1/175).

٣٢٢- حَدَّثَنَا سُوَيْدُ بْنُ نَصْرٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ الْمُبَارِكِ، عَنْ حَمَّادِ بْنِ سَلَمَةَ، عَنْ ثَابِتٍ، عَنْ مُطَرِّفٍ وَهُوَ ابْنُ عَبْدِ اللهِ بْنِ الشِّخِّيرِ، عَنْ أَبِيهِ، قَالَ: ((أَتَيْتُ رَسُولَ اللهِ ﷺ وَهُوَ يُصَلِّي، وَلِجَوْفِهِ أَزِيزٌ كَأَزِيزِ الْمِرْجَلِ مِنَ الْبُكَاءِ)).

(322) ..... Abdullah ibn Şixxir[1] ﷺ demişdir:[2] "(Bir gün) Rəsulullah ﷺ namaz qılarkən mən onun yanına gəldim. O, (için-için) ağladığına görə onun köksündən, qazanda (qaynamağa başlayan suyun) fışıltısına bənzər bir fışıltı səsi gəlirdi.[3]"

---

[1] Abdullah ibn Şixxir ibn Auf ibn Həriş əl-Amiri əl-Hərişi ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Mərifətus-Səhabə, 3/1682; əl-İsabə, 4746-cı tərcümeyi-hal).

[2] Bu hədisi Buxari (4306), Muslim (800), Əbu Davud (3668), ən-Nəsai (1105) və Əhməd (1/380) rəvayət etmişdir.

[3] Peyğəmbərin ﷺ namazda ağlaması onun Allahdan qorxduğunu və təvazökar bir qul olduğunu bir daha sübuta yetirir. Allahdan layiqincə qorxmaq üçün isə, Onu tanımaq və Onun haqq-hesab çəkəcəyindən xəbərdar olmaq gərəkdir. Odur ki, Uca Allah Qurani Kərimdə alimlərin Ondan daha çox qorxduqlarını bildirib buyurur: **"Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar"** (Fatir, 28); O, həmçinin buyurur: **"Ayələrimizə ancaq o kəslər iman gətirirlər ki, ayələrimiz onlara xatırlanarkən təkəbbür göstərmədən səcdəyə qapanır, Rəbbinə həmd-səna ilə tərifləri deyirlər. Onlar *gecə namazını qılmaq üçün* böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən *Allah yolunda* xərcləyirlər. Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir"** (əs-Səcdə, 15-17);

٣٢٣- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ بْنُ هِشَامٍ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الأَعْمَشِ، عَنِ إِبْرَاهِيمَ، عَنْ عُبَيْدَةَ، عَنْ عَبْدِ اللهِ، قَالَ: قَالَ لِي رَسُولُ اللهِ ﷺ: ((اقْرَأْ عَلَيَّ)) فَقُلْتُ: ((يَا رَسُولَ اللهِ، أَقْرَأُ عَلَيْكَ وَعَلَيْكَ أُنْزِلَ))، قَالَ: ((إِنِّي أُحِبُّ أَنْ أَسْمَعَهُ مِنْ غَيْرِي))، فَقَرَأْتُ سُورَةَ النِّسَاءِ، حَتَّى بَلَغْتُ ((وَجِئْنَا بِكَ عَلَى هَؤُلاءِ شَهِيدًا))، قَالَ: ((فَرَأَيْتُ عَيْنَيْ رَسُولِ اللهِ ﷺ تَهْمِلانِ)).

(323) ..... Abdullah (ibn Məsud) ﷺ rəvayət edir ki, (bir dəfə) Rəsulullah ﷺ: "Mənə (Quran) oxu!" – deyə buyurdu. Mən dedim: "Ya Rəsulullah, (Quran) sənə nazil olduğu halda, onu sənə mənmi oxuyacağam?!" Rəsulullah ﷺ buyurdu: "(Bəli,) mən onu başqasından dinləməyi xoşlayı-

---

O, həmçinin buyurur: **"Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti *qullar* idilər"** (əl-Ənbiya, 90); O, həmçinin buyurur: **"Həqiqətən, Rəbbinin qorxusundan əsim-əsim əsənlər, Rəbbinin ayələrinə iman gətirənlər, Rəbbinə şərik qoşmayanlar, Rəbbinə qayıdacaqlar deyə yerinə yetirməli olduqlarını qəlbləri qorxa-qorxa yerinə yetirənlər – Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər"** (əl-Muminun, 57-61). Bu xüsusda Peyğəmbər ﷺ hədislərin birində demişdir: "Əgər mən bildiyimi siz bilsəydiniz, az gülüb, çox ağlayardınız!" (Səhih əl-Buxari, 4621); digər hədisdə də rəvayət edilir ki, o: "Mən gördüyümü siz görsəydiniz, az gülüb çox ağlayardınız!"– demiş və səhabələri ondan: "Sən nə gördün, ya Rəsulullah?"– deyə soruşduqda o: "Cənnəti və Cəhənnəmi gördüm"– demişdir" (Səhih Muslim, 989).

ram.” [1] Onda mən ona “ən-Nisa” surəsini oxumağa başladım. Nəhayət, (bu surənin): **“Biz hər ümmətdən bir şahid gətirəcəyimiz** [2] **və səni də onlara şahid gətirəcəyimiz zaman *onların halı* necə olacaq?”** ayəsinə çatdım. [3] Sonra (başımı qaldırıb) Peyğəmbərin ﷺ gözlərindən yaş axdığını gördüm.”[4]

٣٢٤– حَدَّثَنَا قُتَيْبَةُ، قَالَ: حَدَّثَنَا جَرِيرٌ، عَنْ عَطَاءِ بْنِ السَّائِبِ، عَنْ أَبِيهِ، عَنْ عَبْدِ اللهِ بْنِ عَمْرٍو، قَالَ: انْكسفَتِ الشَّمْسُ يَوْمًا عَلَى عَهْدِ رَسُولِ اللهِ ﷺ، فَقَامَ رَسُولُ اللهِ ﷺ يُصَلِّي، حَتَّى لَمْ يَكَدْ يَرْكَعُ ثُمَّ رَكَعَ، فَلَمْ يَكَدْ يَرْفَعُ رَأْسَهُ، ثُمَّ رَفَعَ رَأْسَهُ، فَلَمْ يَكَدْ أَنْ يَسْجُدَ، ثُمَّ سَجَدَ فَلَمْ يَكَدْ أَنْ يَرْفَعَ رَأْسَهُ، ثُمَّ رَفَعَ رَأْسَهُ، فَلَمْ يَكَدْ أَنْ يَسْجُدَ، ثُمَّ سَجَدَ فَلَمْ يَكَدْ أَنْ يَرْفَعَ رَأْسَهُ، فَجَعَلَ

---

[1] Hədislərin birində rəvayət edilir ki, Rəsulullah ﷺ Əbu Musa əl-Əşariyə: “Dünən gecə mən sənin Quran oxumağını dinlədim. Sənə Davud ailəsinin məlahətli səsi kimi bir səs bəxş edilmişdir”– demişdir” (Sunən ət-Tirmizi, 2/318; Sifətu Səlatun-Nəbi, 1/127).

[2] Yəni, hər bir ümmətə göndərilən peyğəmbər Qiyamət günü həmin ümmətə şahidlik etməyə gələcək. Onlar öz ümmətlərinin xeyirxah əməllər etdiklərinə və ya şər işlər gördüklərinə şahidlik edəcəklər. Uca Allah hər ümmətə elçi göndərdiyi barədə belə buyurur: **“Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan uzaq olun”– *deyə*, elçi göndərdik. Onlardan kimisini Allah doğru yola yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir”** (ən-Nəhl, 36).

[3] Buxarinin “Səhih”ində (4582) rəvayət edilmiş hədisdə İbn Məsud ﷺ demişdir: “Peyğəmbər ﷺ mənə: “Dayan!”– dedi və mən *başımı qaldırıb* onun gözlərindən yaş axdığını gördüm.”

[4] Bu hədisi Buxari (4306), Muslim (800), Əbu Davud (3668), ən-Nəsai (1105) və Əhməd (1/380) rəvayət etmişdir.

يَنْفُخُ وَيَبْكِي، وَيَقُولُ: ((رَبِّ أَلَمْ تَعِدْنِي أَنْ لا تُعَذِّبَهُمْ وَأَنَا فِيهِمْ؟ رَبِّ أَلَمْ تَعِدْنِي أَنْ لا تُعَذِّبَهُمْ وَهُمْ يَسْتَغْفِرُونَ؟ وَنَحْنُ نَسْتَغْفِرُكَ)) فَلَمَّا صَلَّى رَكْعَتَيْنِ انْجَلَتِ الشَّمْسُ، فَقَامَ فَحَمِدَ اللَّهَ تَعَالَى، وَأَثْنَى عَلَيْهِ، ثُمَّ قَالَ: ((إِنَّ الشَّمْسَ وَالْقَمَرَ آيَتَانِ مِنْ آيَاتِ اللهِ لا يَنْكَسِفَانِ لِمَوْتِ أَحَدٍ وَلا لِحَيَاتِهِ، فَإِذَا انْكَسَفَا، فَافْزَعُوا إِلَى ذِكْرِ اللهِ تَعَالَى)).

(324) ..... Abdullah ibn Amr رضي الله عنهما demişdir: "Rəsulullahın ﷺ zamanında bir gün günəş tutuldu[1] və Rəsulullah ﷺ qalxıb namaz qıldı.[2] (Namazını o qədər uzatdı ki,) hətta az qala rüku etməyəcəkdi. Sonra rükuya getdi və az qala rükudan başını qaldırmayacaqdı. Sonra başını qaldırıb (dikəldi) və az qala səcdəyə getməyəcəkdi. Sonra səcdəyə qapandı və az qala başını (səcdədən) qal-

[1] Burada "günəşin tutulması" deyildikdə, günəşin bütün gün ərzində tutulması deyil, onun müvəqqəti olaraq başqa göy cismi ilə örtülməsi nəzərdə tutulur. Onu da qeyd etmək lazımdır ki, Peyğəmbərin ﷺ zamanında günəşin tutulması hadisəsi cəmi bircə dəfə, hicrətin 10-cu ilində baş vermişdir. Bu da, oğlu İbrahim vəfat etdiyi günlə üst-üstə düşmüş və elə bu səbəbdən də cahillər: "Günəş İbrahimin ölümünə görə tutulmuşdur"– demiş və Peyğəmbər ﷺ onlara belə cavab vermişdir: "Günəş və Ay kimsənin nə ölümünə, nə də dünyaya gəldiyinə görə tutulur. *Onların tutulduğunu* gördüyünüz zaman namaz qılın və Allaha dua edin!" (Səhih əl-Buxari, 1043).

[2] Buxarinin "Səhih"ində (1048) rəvayət edilmiş hədisdə Əbu Bəkrə رضي الله عنه demişdir: "Biz Peyğəmbərin ﷺ yanında ikən günəş tutuldu. Peyğəmbər ﷺ dərhal qalxıb əbasını sürüyərək məscidə daxil oldu. Biz də *onun arxasınca oraya* daxil olduq. Günəşin üzü açılanadək o, bizə iki rükət namaz qıldırdı..."

dırmayacaqdı. Sonra başını qaldırdı və az qala səcdəyə getməyəcəkdi. Sonra yenə səcdəyə qapandı və az qala başını (səcdədən) qaldırmayacaqdı.[1] Sonra içini çəkə-çəkə

[1] Bu hədisdə Peyğəmbərin ﷺ kusuf namazı tam vəsf edilmir. Lakin Buxarinin "Səhih"ində rəvayət olunmuş hədisdə Abdullah ibn Abbas رضي الله عنهما Peyğəmbərin ﷺ kusuf namazını nə cür qıldığını belə vəsf edir: "Peyğəmbər ﷺ zamanında günəş tutuldu və bu səbəbdən də o, *camaata* namaz qıldırdı. *Namazda* qiyamı o qədər uzatdı ki, *bu vaxt ərzində* "əl-Bəqərə" surəsini oxumaq olardı, sonra rükuya getdi və rükunu uzatdı, sonra rükudan qalxdı və qiyamı uzatdı, lakin bu qiyam əvvəlkindən qısa idi, sonra *bir də* rükuya getdi və rükunu uzatdı, lakin bu rüku əvvəlkindən qısa idi, sonra *rükudan qalxıb səcdəyə getdi və iki dəfə* səcdə qıldı. Sonra ayağa qalxıb qiyamı uzatdı, lakin bu qiyam əvvəlkindən qısa idi, sonra rükuya getdi və rükunu uzatdı, lakin bu rüku əvvəlkindən qısa idi, sonra rükudan qalxdı və *yenə* qiyamı uzatdı, lakin bu qiyam əvvəlkindən qısa idi, sonra *bir də* rükuya getdi və rükunu uzatdı, lakin bu rüku əvvəlkindən qısa idi, sonra *rükudan qalxıb səcdəyə getdi və iki dəfə* səcdə qıldı, sonra *salamları verib* namazı bitirdi. Artıq günəşin üzü açılmışdı. Bundan sonra Peyğəmbər ﷺ buyurdu: "Günəş və Ay Allahın dəlillərindəndir. Onlar kimsənin nə ölümünə, nə də dünyaya gəldiyinə görə tutulur. Odur ki, onların tutulduğunu gördüyünüz zaman Allahı zikr edin!" *Səhabələr* dedilər: "Ya Rəsulullah, biz sənin dayandığın yerdə əlini uzadıb nə isə götürdüyünü, sonra da arxaya çəkildiyini gördük." Peyğəmbər ﷺ buyurdu: "Mən Cənnəti gördüm və *oradakı meyvələrdən* bir salxım dərmək istədim. Mən onu dərə bilsəydim, dünya durduqca siz ondan yeyə bilərdiniz. Həmçinin, Cəhənnəm də mənə göstərildi. Mən heç vaxt bu gün *gördüyüm* mənzərədən daha dəhşətlisini görməmişdim. Mən Cəhənnəm əhlinin əksəriyyətinin qadınlar olduğunu gördüm." *Camaat* soruşdu: "Nəyə görə, ya Rəsulullah?" O dedi: "Nankorluqlarına görə!" *Yenə* soruşdular: "Allaha qarşımı nankordurlar?" O dedi: "Onlar ərlərinə qarşı nankordurlar, yaxşılığı yerə vururlar. Birisinə il boyu yaxşılıq etsən, sonra da səndən *xoşuna gəlməyən* bir şey görsə, deyər: "Mən səndən heç vaxt xeyir görmədim" (Səhih əl-

ağlamağa başladı və dedi: "Ey Rəbbim, məgər Sən mənə söz vermədinmi ki, mən onların arasında ikən Sən onlara əzab verməyəcəksən?! Ey Rəbbim, məgər Sən mənə söz vermədinmi ki, onlar bağışlanmalarını dilədikləri zaman Sən onlara əzab verməyəcəksən?![1] Axı, biz də Səndən bağışlanma diləyirik! Rəsulullah ﷺ (bu) iki rükəti bitirdikdə günəşin üzü açılmışdı. Sonra o, ayağa qalxıb Uca Allaha həmd etdi və Ona təriflər dedi. Sonra da belə buyurdu: "Günəş və Ay Allahın dəlillərindəndir. Onlar kimsənin ölümünə görə, yaxud dünyaya gəldiyinə görə tutulmur. Odur ki, onların tutulduğunu gördüyünüz zaman Uca Allahı zikr eməyə tələsin!"[2]

Buxari, 1052); digər bir hədisdə deyilir ki, Peyğəmbər ﷺ həmin xütbədə həmçinin, demişdir: "Ey Muhəmməd ümməti! Vallahi, əgər mən bildiyimi siz bilsəydiniz, az gülüb, çox ağlayardınız" (Səhih əl-Buxari,1044).

[1] Bu xüsusda varid olmuş hədisdə Ənəs ibn Malik ﷺ rəvayət etmişdir ki, *bir dəfə* Əbu Cəhl: "Allahım, əgər (Muhəmmədin ﷺ) bu dedikləri haqdırsa, onda başımıza göydən daş yağdır, ya da bizə şiddətli bir əzab göndər"– dedi və Uca Allah bu ayələri (əl-Ənfal, 33-34) nazil etdi: **"Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir. Onlar Məscidulharamın xidmətçiləri olmadıqlarına baxmayaraq, *möminləri* oraya buraxmadıqları halda Allah nə üçün onlara əzab verməsin? Onun xidmətçiləri yalnız müttəqilərdir. Lakin onların çoxu *bunu* bilmir"** (Səhih əl-Buxari, 4282; Səhih Muslim, 7242).

[2] Bu hədisi Buxari (1003), Muslim (910), Əbu Davud (1194), Nəsai (1482) və Əhməd (2/159) rəvayət etmişdir.

٣٢٥- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو أَحْمَدَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَطَاءِ بْنِ السَّائِبِ، عَنْ عِكْرِمَةَ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: أَخَذَ رَسُولُ اللهِ ﷺ ابْنَةً لَهُ تَقْضِي فَاحْتَضَنَهَا فَوَضَعَهَا بَيْنَ يَدَيْهِ، فَمَاتَتْ وَهِيَ بَيْنَ يَدَيْهِ وَصَاحَتْ أُمُّ أَيْمَنَ، فَقَالَ يَعْنِي ﷺ: ((أَتَبْكِينَ عِنْدَ رَسُولِ اللهِ؟)) فَقَالَتْ: ((أَلَسْتُ أَرَاكَ تَبْكِي؟)) قَالَ: ((إِنِّي لَسْتُ أَبْكِي، إِنَّمَا هِيَ رَحْمَةٌ، إِنَّ الْمُؤْمِنَ بِكُلِّ خَيْرٍ عَلَى كُلِّ حَالٍ، إِنَّ نَفْسَهُ تُنْزَعُ مِنْ بَيْنِ جَنْبَيْهِ، وَهُوَ يَحْمَدُ اللَّهَ تعالى)).

(325) ..... İbn Abbas رضي الله عنهما demişdir: “Rəsulullahın ﷺ qızı can verərkən o, qızı qucağına alıb bağrına basdı.[1] (Çox

[1] İmam Nəsainin رحمه الله rəvayət etdiyi hədisdə İbn Abbas رضي الله عنهما Peyğəmbərin ﷺ azyaşlı qızının vəfat etdiyini xəbər vermişdir (Sunən ən-Nəsai, 1/261; Silsilətul-Əhadisis-Səhihə, 1632). Çox güman ki, burada “qızı” deyildikdə, Peyğəmbərin ﷺ qız nəvəsi qəsd edilir. Belə ki, onun öz qızlarının dördü də yaşa dolduqdan sonra vəfat etmişdir. Odur ki, bəzi alimlər bu uşağın onun qızlarından birinin övladı olduğunu demişlər. Rəvayət edilir ki, Usamə ibn Zeyd رضي الله عنهما demişdir: “Peyğəmbərin ﷺ qızı *Zeynəb*: “Oğlum ölür, bizə gəl!”– deyə atasına xəbər göndərdi. Peyğəmbər ﷺ *xəbər gətirən adama buyurdu ki, Zeynəbin yanına qayıdıb* onu salamlasın və desin: “Şübhəsiz ki, Allahın aldığı da, verdiyi də Özünə aiddir. Onun yanında hər şeyin öz müəyyən əcəli var. Səbir et və *bunun əvəzinə Allah yanında mükafat qazanacağına* ümid bağla!” *Bir müddətdən sonra* Zeynəb, *atası* mütləq gəlsin deyə, and verib *xəbərçini yenə* onun yanına göndərdi. Peyğəmbər ﷺ qalxıb Səd ibn Ubadə, Muaz ibn Cəbəl, Ubey ibn Kəb, Zeyd ibn Sabit və başqa bir neçə səhabə ilə onun yanına gəldi. *Evə daxil olduqda,* körpəni Pey-

keçmədən) qız Rəsulullahın ﷺ qolları arasında canını tapşırdı və (bunu görən) Ummu Əymən[1] fəryad qoparıb ağlamağa başladı. Onda Rəsulullah ﷺ belə buyurdu: "Allahın rəsulunun yanında ağlayırsan?!"[2] Ummu Əymən dedi: "Məgər mən sənin ağladığını görmürəm?!"

ğəmbərə ﷺ verdilər. Uşaq xırıldayaraq nəfəs alırdı. *Bunu görəndə,* Peyğəmbərin ﷺ gözləri yaşla doldu. Səd dedi: "Bu nədir, ya Rəsulullah? *Sən də ağlayırsan?*" Peyğəmbər ﷺ buyurdu: "Bu, Allahın Öz qullarının qəlbinə saldığı mərhəmətdir. Allah Öz qullarından yalnız rəhmli olanlara rəhm edir" (Səhih əl-Buxari, 1284).

[1] Ummu Əymən رضي الله عنها Peyğəmbərin ﷺ həm süd anası, həm də onun azad etdiyi kənizidir. Bu qadın Peyğəmbərə ﷺ atasından miras qalmış və nəhayət, o, Xədicə رضي الله عنها ilə evləndiyi zaman onu azad etmiş, sonra da Zeyd ibn Harisəyə رضي الله عنه ərə vermiş və o da, ondan Usaməni رضي الله عنهما dünyaya gətirmişdir. Uhud döyüşündə iştirak etmiş və yaralılara kömək göstərmişdir. Ömər ibn Xəttab şəhid olduqdan iyirmi gün sonra vəfat etmişdir (Camul-Vəsail).

[2] Peyğəmbər ﷺ bu sözü ilə Ummu Əymənin رضي الله عنها qadağan olunmuş tərzdə ağlamağına etiraz etmişdir. Bu cür ağlamağın qadağan edilməsi barədə rəvayət edilmiş hədisdə Ummu Ətiyyə رضي الله عنها demişdir: "Biz Peyğəmbərə ﷺ beyət etdikdən sonra, o, bizə *ölən adam üçün* vay-şivən salıb ağlamağı qadağan etdi" (Səhih əl-Buxari, 4892); başqa bir hədisdə rəvayət edilir ki, *bir dəfə* Əbu Musa رضي الله عنه ağır xəstələndi və başı zövcələrindən birinin qucağında ikən bayıldı. Bu vaxt onun zövcəsi *fəryad qoparıb* ağlamağa başladı və Əbu Musa həmin an ona heç nə deyə bilmədi. Ayıldıqda isə dedi: "Peyğəmbərin ﷺ uzaq olduğu kimsədən mən də uzağam. Peyğəmbər ﷺ *müsibət üz verdikdə* şivən salıb ağlayan, başını qırxdıran və paltarını cıran kimsədən uzaqdır!" (Səhih əl-Buxari, 1296).

(Peyğəmbər ﷺ də) ona belə cavab verdi: "Mən ağlamıram.[1] Bu sadəcə, bir mərhəmətdir.[2] Şübhəsiz ki, mömin hər bir halda ancaq xeyir içində olur. (Hətta) ruhu bədənindən çıxdığı zaman belə, (təkrar-təkrar) Uca Allaha həmd edir.[3]"[4]

٣٢٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَاصِمِ بْنِ عُبَيْدِ اللهِ، عَنِ الْقَاسِمِ بْنِ مُحَمَّدٍ، عَنْ عَائِشَةَ، أَنَّ رَسُولَ اللهِ ﷺ، قَبَّلَ عُثْمَانَ بْنَ مَظْعُونٍ وَهُوَ مَيِّتٌ وَهُوَ يَبْكِي أَوْ قَالَ: عَيْنَاهُ تَهْرَاقَانِ.

---

[1] Peyğəmbər ﷺ qadına bildirmək istəyir ki, onun ağlamağı fərqli bir ağlamaqdır. Belə ki, Peyğəmbər ﷺ ağlayarkən, səsini qaldırmaz, sadəcə gözlərindən yaş axardı.

[2] Yəni, ölən adamın halına acımaq, ona rəhm etməkdir.

[3] Başqa bir hədisdə Rəsulullah ﷺ mömini vəsf edib demişdir: "Möminin işi çox qəribədir! Həqiqətən də, onun hər bir işində xeyir vardır. Bu *xüsusiyyət də* yalnız möminə məxsusdur. *Belə ki,* ona xoş bir şey nəsib olduqda şükür edər və bu onun xeyrinə olar, habelə, başına bir müsibət gəldikdə səbir edər və bu da onun xeyrinə olar" (Səhih Muslim, 7692).

[4] Bu hədisi Nəsai (1843) və Əhməd (1/273) rəvayət etmişdir. Hədisin isnadında keçən Əta ibn Saib "ömrünün axırında hafizəsi qarışmış səduq" ravidir (ət-Təqrib). Lakin Sufyan bu hədisi Ətadan, onun hafizəsi qarışmamışdan əvvəl eşitmişdir (Silsilətul-Əhadisis-Səhihə, 1632-ci hədisin qeydləri). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" və "Silsilətul-Əhadisis-Səhihə" əsərlərində bu hədisin "səhih" olduğunu demişdir.

(326) ..... Aişə رضي الله عنها demişdir: "Osman ibn Məzun[1] ölü ikən Rəsulullah ﷺ ağlaya-ağlaya (yaxud gözlərindən yaş axa-axa) onu öpdü.[2]"[3]

٣٢٧- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ: أَخْبَرَنَا أَبُو عَامِرٍ، قَالَ: حَدَّثَنَا فُلَيْحٌ وَهُوَ ابْنُ سُلَيْمَانَ، عَنْ هِلَالِ ابْنِ عَلِيٍّ، عَنْ أَنَسٍ، قَالَ: ((شَهِدْنَا ابْنَةً لِرَسُولِ اللهِ ﷺ، وَرَسُولُ اللهِ ﷺ جَالِسٌ عَلَى الْقَبْرِ، فَرَأَيْتُ عَيْنَيْهِ تَدمَعَانِ، فَقَالَ: ((أَفِيكُمْ رَجُلٌ لَمْ يُقَارِفِ اللَّيْلَةَ؟))، قَالَ أَبُو طَلْحَةَ: أَنَا، قَالَ: ((انْزِلْ)) فَنَزَلَ فِي قَبْرِهَا.

(327) ..... Ənəs رضي الله عنه demişdir: "Biz Rəsulullahın ﷺ qızının[1] dəfnində iştirak etdik. (Həmin vaxt) Rəsulullah ﷺ

---

[1] Əbu Saib Osman ibn Məzun ibn Həbib əl-Cuməhi رضي الله عنه Peyğəmbərin ﷺ məşhur səhabəsidir. Osman ibn Məzun İslamı ilk əvvəl qəbul edənlərdən və iki dəfə hicrət edənlərdən olmuşdur. Bədr döyüşündə iştirak etmişdir. Osman Mədinəyə hicrət etdikdən sonra vəfat etmiş və Bəqi qəbiristanlığında ilk dəfn edilmiş mühacirdir (Siyər Əlam ən-Nubələ, 9-cu tərcümeyi-hal).

[2] Bu hədis dəlildir ki, ölmüş adamı öpmək və ona rəhm edərək ağlamaq caizdir. Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ vəfat etdikdən sonra Əbu Bəkr رضي الله عنه onun yanına gəlmiş və onun üzünü açıb alnından öpmüşdür (Səhih əl-Buxari, 3394).

[3] Bu hədisi Əbu Davud (3163), Tirmizi (989), İbn Macə (1456) və Əhməd (6/43) rəvayət etmişdir. Hədisin isnadında keçən Asim ibn Abdullah "zəif" ravidir (ət-Təqrib). Lakin digər isnadlarla bu mənada rəvayət edilmiş hədislər bu hədisi qüvvətləndirdiyindən, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

qəbrin baş tərəfində oturmuşdu. Mən onun gözlərinin yaşla dolduğunu gördüm. O soruşdu: "Aranızda bu gecə qadını ilə yaxınlıq etməyən bir kimsə varmı?" Əbu Talhə: "Mən"– deyə cavab verdi. Rəsulullah ﷺ: (ona) "Elə isə sən düş!"– deyə buyurdu və o, qadının qəbrinə düşüb (onu yerbəyer etdi)."[2]

[1] Söhbət hicrətin 9-cu ilində vəfat etmiş Ummu Kulsumdan رضي الله عنها gedir (Fəthul-Bari).

[2] Bu hədisi Buxari (1225) rəvayət etmişdir.

٤٦- بَاب فِراش رسول الله ﷺ

46-cı fəsil. Rəsulullahın ﷺ yatağı

٣٢٨- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ مُسْهِرٍ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((إِنَّمَا كَانَ فِرَاشُ رَسُولِ اللهِ ﷺ، الَّذِي يَنَامُ عَلَيْهِ مِنْ أَدَمٍ، حَشْوُهُ لِيفٌ)).

(328) ..... Aişə ﵂ demişdir: "Rəsulullahın ﷺ üstündə yatdığı döşəyinin üzü (aşılanmış) dəridən, içi də xurma liflərindən (ibarət) idi.[1]"[1]

---

[1] Rəsulullahın ﷺ yatağının bu cür olması onun dünyaya həris olmadığına dəlalət edir. Başqa bir hədisdə Aişə ﵂ demişdir: "Bir dəfə ənsardan olan bir qadın mənim hücrəmə daxil oldu və Peyğəmbərin ﷺ döşəyinin sadəcə qalın bir parça olduğunu gördü. Sonra qadın *evinə* gedib Peyğəmbərə ﷺ içi yunla doldurulmuş bir döşək göndərdi. Peyğəmbər ﷺ gəlib o döşəyi görəndə mənə dedi: "Onu (yiyəsinə) qaytar! Ey Aişə, vallahi, əgər mən diləsəydim, Allah dağları mənim üçün qızıla və gümüşə çevirərdi" (Təbəqat İbn Səd, 1/465; Silsilətul-Əhadisis-Səhihə, 2484); digər hədisdə İbn Məsud ﵁ rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ həsirin üstündə uzanıb yatdı (və həsir onun böyrünə iz saldı). Oyandıqda mən əlimi onun böyrünə sürtə-sürtə dedim: "Ya Rəsulullah, izin ver, sənin *rahatlığın* üçün bu həsirin üstünə *yumşaq* bir şey sərək. Onda Rəsulullah ﷺ belə buyurdu: "Mənimlə dünyanın məsəli, ağacın kölgəsi altında dincini aldıqdan sonra, o kölgəliyi tərk edən atlının məsəlinə bənzəyir" (Sunən ət-Tirmizi, 2/60; Silsilətul-Əhadisis-Səhihə, 438); yenə bir hədisdə Ömər ibn Xəttab ﵁ demişdir: "Bir gün mən Rəsulullahın ﷺ yanına gəlib onun həsirin üstündə uzandığını, başını içi xurma lifi ilə doldurulmuş

٣٢٩- حَدَّثَنَا أَبُو الْخَطَّابِ زِيَادُ بْنُ يَحْيَى الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ مَيْمُونٍ، قَالَ: حَدَّثَنَا جَعْفَرُ بْنُ مُحَمَّدٍ، عَنْ أَبِيهِ، قَالَ: سُئِلَتْ عَائِشَةُ، مَا كَانَ فِرَاشُ رَسُولِ اللهِ ﷺ فِي بَيْتِكِ؟ قَالَتْ: مِنْ أَدَمٍ حَشْوُهُ مِنْ لِيفٍ. وَسُئِلَتْ حَفْصَةُ، مَا كَانَ فِرَاشُ رَسُولِ اللَّهِ ﷺ فِي بَيْتِكِ؟ قَالَتْ: ((مِسْحًا نَثْنِيهِ ثَنِيَّتَيْنِ فَيَنَامُ عَلَيْهِ، فَلَمَّا كَانَ ذَاتَ لَيْلَةٍ، قُلْتُ: لَوْ ثَنَيْتُهُ أَرْبَعَ ثَنْيَاتٍ، لَكَانَ أَوْطَأَ لَهُ، فَثَنَيْنَاهُ لَهُ بِأَرْبَعِ ثَنْيَاتٍ، فَلَمَّا أَصْبَحَ، قَالَ: ((مَا فَرَشْتُمْ لِيَ اللَّيْلَةَ)) قَالَتْ: قُلْنَا: هُوَ فِرَاشُكَ، إِلا أَنَّا ثَنَيْنَاهُ بِأَرْبَعِ ثَنْيَاتٍ، قُلْنَا: هُوَ أَوْطَأُ لَكَ، قَالَ: ((رُدُّوهُ لِحَالَتِهِ الأُولَى، فَإِنَّهُ مَنَعَتْنِي وَطَاءَتُهُ صَلاتِيَ اللَّيْلَةَ)).

(329) ..... Muhəmməd (əl-Baqir) demişdir: “(Bir dəfə) Aişədən soruşdular: “Rəsulullahın ﷺ sənin evindəki yatağı nə cür idi?” O dedi: “Rəsulullahın ﷺ döşəyinin üzü dəridən, içi isə xurma liflərindən idi.” Həmçinin, Həfsədən soruşdular: “Rəsulullahın ﷺ sənin evindəki yatağı nə cür idi?” O dedi: “Yun parça (idi). Biz onu iki qat edib yerə sərər və o da, onun üstündə yatardı. Bir gecə

---

bir yastığa söykədiyini və həsirin də onun böyrünə iz saldığını gördüm və ağlamağa başladım. Rəsulullah ﷺ məndən: “Niyə ağlayırsan?”– deyə soruşdu. Mən dedim: “Xosrov və Qeysər cah-cəlallıq içində yaşayır, sən isə Allahın rəsulu olduğun halda belə acınacaqlı vəziyyətdə yaşayırsan.” Onda Rəsulullah ﷺ dedi: “İstəmirsən ki, dünya onlara, Axirət isə bizə nəsib olsun?!” (Səhih əl-Buxari, 4532).

[1] Bu hədisi Buxari (6091), Muslim (2082), Əbu davud (4146), Tirmizi (1761), İbn Macə (4151) və Əhməd (6/48) rəvayət etmişdir.

mən (öz-özümə): "Bəlkə bunu dörd qat edim, Rəsulullahın ﷺ yeri daha rahat olsun"– dedim və biz onu dörd qat etdik. Səhər Rəsulullah ﷺ (bizdən): "Bu gecə mənim üçün (yerə) nə sərmişdiniz?"– deyə soruşdu. Biz dedik: "Elə sənin öz döşəyin idi. Sadəcə olaraq, biz onu dörd qat etmişdik. Belə etdik ki, sənin üçün (onun üstündə yatmaq) rahat olsun." Onda Rəsulullah ﷺ belə buyurdu: "Onu əvvəlki şəklinə qaytarın. Çünki bu cür (yumşaq) yataq məni gecə namazını qılmaqdan qoydu."[1]

[1] Bu hədisin isnadında keçən Abdullah ibn Məymun ibn Davud əl-Qəddah "hədisi rədd edilmiş mətruk" ravidir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "olduqca zəif" olduğunu demişdir.

٤٧- بَاب تَواضُع رسول الله ﷺ

47-ci fəsil. Rəsulullahın ﷺ təvazökarlığı[1]

٣٣٠- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، وَسَعِيدُ بْنُ عَبْدِ الرَّحْمَنِ الْمَخْزُومِيُّ، وَغَيْرُ وَاحِدٍ، قَالُوا: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنِ الزُّهْرِيِّ، عَنْ عُبَيْدِ اللهِ، عَنِ ابْنِ عَبَّاسٍ، عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((لا تُطْرُونِي كَمَا أَطْرَتِ النَّصَارَى ابْنَ مَرْيَمَ، إِنَّمَا أَنَا عَبْدٌ، فَقُولُوا: عَبْدُ اللهِ وَرَسُولُهُ)).

(330) ..... Ömər ibn Xəttab ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: "Xristianlar Məryəm oğlunu şişirtdikləri kimi,[2] siz də məni şişirtməyin![1] Mən sadəcə bir

---

[1] Təvəzökarlıq – təvazö sözündən əmələ gəlmiş isimdir. Təvazö: öz üstünlüklərini, məziyyətlərini gözə çapdırmağı, öz xidmətləri ilə qürrələnməyi sevməmək, şöhrətpərəstlikdən, lovğalıqdan uzaq olmaqdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allah mənə vəhy etdi ki, təvazökar olasınız, bir-birinizə təcavüz etməyəsiniz və bir-birinizin yanında lovğalanmayasınız" (Ədəbul-Mufrəd, 428).

[2] Burada "şişirtmək" deyildikdə, olduğundan daha artıq, daha mübaliğəli şəkildə təqdim etmək, adamda olmayan vəsflərlə ona yalandan tərif demək qəsd edilir. Xristianlardan kimisi Məryəm oğlu İsanı ﷺ ilah qəbul etmiş, kimisi onu Allahın oğlu hesab etmişdir. Uca Allah onu ilahiləşdirən kimsələr barədə belə buyurur: **"Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir!"– deyənlər artıq kafir oldular. De: "Əgər Allah, Məryəm oğlu Məsihi, onun anasını və yer üzündə olanların hamısını məhv etmək istəsə, kim Ona bir şeylə mane ola bilər?" Göylərin, yerin və onların arasında olanların səltənəti Allaha məxsusdur. *Allah* istədiyini yaradır. Allah hər şeyə qadirdir"**

qulam.[2] Elə isə (mənə): "Allahın qulu və Onun rəsulu!"[1]– deyin."[2]

(əl-Maidə, 17); O, həmçinin buyurur: **"Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir"– deyənlər artıq kafir oldular. Məsih isə demişdir: "Ey İsrail oğulları! Rəbbim və Rəbbiniz olan Allaha ibadət edin! Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmişdir və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır"** (əl-Maidə, 72). Onların İsa peyğəmbəri ﷺ Allahın oğlu kimi qəbul etməsi barədə isə Uca Allah belə buyurur: **"Xaçpərəstlər: "Məsih Allahın oğludur"– dedilər. Bu, onların ağızlarından çıxan sözlərdir. *Bu,* daha əvvəlki kafirlərin sözlərinə oxşayır. Allah onları məhv etsin! Gör necə də *haqdan* döndərilirlər!"** (ət-Tovbə, 30); başqa bir ayədə Uca Allah Kitab əhlinə dində ifrata varmağı qadağan edib buyurur: **"Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız həqiqəti deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi *"Ol!"* kəlməsi və Onun tərəfindən *göndərilən* bir ruhdur. Allaha və Onun elçilərinə iman gətirin və: *"Tanrı* üçdür!" deməyin. *Batil əqidənizə* son qoyun! *Bu,* sizin üçün xeyirli olar. Həqiqətən, Allah Tək İlahdır! O, pakdır, müqəddəsdir, övladı olmaqdan uzaqdır. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Qoruyan olaraq Allah yetər. Nə *İsa* Məsih Allahın qulu olmağı özünə ar bilər, nə də *Allaha* yaxın olan mələklər. *Allah* Ona ibadət etməyi özlərinə ar bilənlərin və təkəbbürlük göstərənlərin hamısını Öz hüzuruna toplayacaqdır"** (ən-Nisa, 171-172).

[1] Bu dəlildir ki, Peyğəmbəri ﷺ həddən artıq tərif etmək, yaxud hər hansı bir işdə onu Allaha tay tutmaq qadağandır və Peyğəmbər ﷺ bunu ümmətinə qadağan etmişdir. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ səhabələrdən birinin ona: "Allah və sən istəsən"– dediyini eşidib ona belə buyurdu: "Sən məni Allaha tay tutdun?! Yox, əksinə, ancaq Allah istəsə" (Sunən İbn Macə, 2117; Musnəd imam Əhməd, 1/214, 224, 283, 347; Silsilətul-Əhadisis-Səhihə, 139).

[2] Uca Allah Quranda Öz peyğəmbərinə ﷺ belə buyurur: **"De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin**

٣٣١- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا سُوَيْدُ بْنُ عَبْدِ الْعَزِيزِ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ امْرَأَةً جَاءَتْ إِلَى النَّبِيِّ ﷺ، فَقَالَتْ لَهُ: ((إِنَّ لِي إِلَيْكَ حَاجَةً))، فَقَالَ: ((اجْلِسِي فِي أَيِّ طَرِيقِ الْمَدِينَةِ شِئْتِ، أَجْلِسْ إِلَيْكِ)).

(331) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, bir qadın[3] Peyğəmbərin ﷺ yanına gəlib ona: "Mənim sənə ehtiyacım var,[4] (ya Rəsulullah)"– dedi. Peyğəmbər ﷺ də (ona) belə buyurdu: "(Get) küçədə istədiyin bir yerdə otur,[5] mən də gəlib sənin yanında oturacağam.[6]"[1]

---

məbudunuz Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və yerinə yetirdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!" (əl-Kəhf, 110).

[1] Burada "Allahın qulu" deyildikdə, Peyğəmbərin ﷺ ilah olmadığı, "Onun rəsulu" deyildikdə isə, onun adi insan deyil, insanlar arasından seçilmiş, fəzilətli bir insan olduğu qəsd edilir.

[2] Bu hədisi Buxari (3261) və Əhməd (1/23, 24, 47) rəvayət etmişdir.

[3] Buxarinin "Səhih"ində (4833) bu qadının ənsardan olduğu, Muslimin "Səhih"ində (6189) isə bu qadının ağlında naqislik olduğu xəbər verilir.

[4] Yəni, "səndən soruşacaqlarım var".

[5] Hədisə diqqət etsək, görərik ki, Peyğəmbər ﷺ oturmaq üçün yer seçməyi qadının ixtiyarına buraxır. Bu da, Peyğəmbərin ﷺ olduqca təvazökar olduğuna dəlalət edir.

[6] Bu, zəruri halda yolda oturmağın caiz olduğuna dəlalət edir. Lakin qeyd etmək lazımdır ki, yolda oturan adam o yolun haqqını ödəməlidir. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Yolların üstündə oturmaqdan çəkinin!" *Səhabələr* dedilər: "Ya Rəsulullah, bizim orada oturmağımız labüddür. Biz orada söhbət edirik." Peyğəmbər ﷺ buyurdu: "Əgər *oturmağınız* labüddürsə, onda, yolun haqqını ödəyin." *Səhabələr* soruşdular: "Yolun haqqı nədir, ya Rəsulallah?" O buyurdu: "Gözü *haram şeylər-*

٣٣٢- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا عَلِيُّ بْنُ مُسْهِرٍ، عَنْ مُسْلِمٍ الأَعْوَرِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ يَعُودُ الْمَرِيضَ، وَيَشْهَدُ الْجَنَائِزَ، وَيَرْكَبُ الْحِمَارَ، وَيُجِيبُ دَعْوَةَ الْعَبْدِ، وَكَانَ يَوْمَ بَنِي قُرَيْظَةَ عَلَى حِمَارٍ مَخْطُومٍ بِحَبْلٍ مِنْ لِيفٍ، وَعَلَيْهِ إِكَافٌ مِنْ لِيفٍ)).

(332) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ xəstəyə baş çəkər,[2] dəfn mərasimlərində iştirak edər,[1]

---

dən çəkmək, *heç kəsə* əziyyət verməmək, *insanlara* yaxşı işləri buyurmaq və *onları* pis işlərdən çəkindirmək" (Ədəbul-Mufrəd, 1150).

[1] Bu hədisi Muslim (2326), Əbu Davud (4819) və Əhməd (3/98) rəvayət etmişdir.

[2] Peyğəmbər ﷺ xəstəni ziyarət edər və bunu səhabələrinə də əmr edərdi. Əbu Musa ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Əsirləri azad edin, acların qarnını doydurun və xəstələrə baş çəkin!" (Səhih əl-Buxari, 3046). Qeyd edək ki, xəstəni ziyarət etmək, qeyri-müsəlmanlara da aid edilir. Belə ki, Peyğəmbər ﷺ onlara da baş çəkərmiş. Ənəs ﷺ rəvayət edir ki, Peyğəmbərə ﷺ xidmət edən yəhudi bir uşaq xəstələnmişdi. Peyğəmbər ﷺ ona baş çəkməyə gəldi və onun baş tərəfində oturub ona: "Müsəlman ol!"– dedi. Uşaq, yanında durmuş atasının üzünə baxdı. Atası ona: "Əbul-Qasıma itaət et!"– dedi və uşaq İslamı qəbul etdi. Sonra Peyğəmbər ﷺ onun yanından çıxdı və dedi: "Onu oddan xilas edən Allaha həmd olsun!" (Səhih əl-Buxari, 1356). Həmçinin, əmisi Əbu Talibi, o, ölüm ayağında ikən ziyarət etməsi də bu qəbildəndir. Xəstəyə baş çəkməyin olduqca böyük fəzilətləri vardır. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim xəstə qardaşına baş çəksə, (onun yanında olduğu müddətcə) Cənnət xürfəsində olar." Asim deyir ki, mən Əbu Qilabədən soruşdum: "Cənnət xürfəsi nədir?" O dedi: "Cənnətin bir yerə yığılmış meyvələridir" (Ədəbul-Mufrad, 521); başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Müsəlman qardaşına baş çəkən kimsə (onun

yanında) oturanadək Cənnət xürfəsində gəzişmiş sayılar. Qardaşının yanında oturduğu zaman onu rəhmət bürüyər. (Xəstə qardaşını) gündüz vaxtı ziyarət edərsə, yetmiş min mələk axşamadək ona xeyir-dua diləyər, gecə vaxtı ziyarət edərsə, yetmiş min mələk səhərədək ona xeyir-dua diləyər" (Sunən Əbu Davud, 3099; Sunən İbn Macə, 1/440; Musnəd imam Əhməd, 1/81; Silsilətul-Əhadisis-Səhihə, 1367).

[1] Peyğəmbər ﷺ dəfn mərasimlərində iştirak edər və bunu səhabələrinə də əmr edərdi. Uqbə ibn Amir ؓ rəvayət edir ki, bir gün Peyğəmbər ﷺ gedib Uhud şəhidləri üçün cənazə namazı qıldı. Sonra *Mədinəyə gəldi və* minbərə qalxıb dedi: "Mən sizi qabaqlayacağam, *sizdən əvvəl bu dünyadan köçəcəyəm*. Mən sizin nə etdiklərinizə şahidəm. Vallahi, indi mən hovuzumu görürəm. Həqiqətən, mənə yer üzünün xəzinələri *və ya açarları* verilmişdir. Vallahi, mən öldükdən sonra sizin Allaha şərik qoşacağınızdan qorxmuram. Mən sizin dünya *malına* görə bir-birinizlə rəqabət aparacağınızdan qorxuram" (Səhih əl-Buxari, 1344). Qeyd edək ki, qeyri-müsəlmanların cənazəsinə də hörmətlə yanaşmaq müsəlman əxlaqındandır. Rəvayət edilir ki, Cabir ibn Abdullah ؓ demişdir: "Yanımızdan cənazə aparırdılar. *Bu vaxt* Peyğəmbər ﷺ ayağa qalxdı və biz də onunla birlikdə ayağa qalxdıq. Biz dedik: "Ya Rəsulullah, axı bu, yəhudinin cənazəsidir." Peyğəmbər ﷺ buyurdu: "Cənazə gördüyünüz zaman ayağa qalxın!" (Səhih əl-Buxari, 1311). Dəfndə iştirak etməyin də, həmçinin, olduqca böyük fəzilətləri vardır. Əbu Hureyra ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim imanla, mükafatını *yalnız Allahdan* umaraq cənazənin ardınca getsə, namazını qılıb dəfn edilənədək yanında qalsa, iki qirat savabla geri qayıdar ki, qiratların hər biri Uhud dağı boyda olar. Kim cənazə namazı qılıb dəfn edilməmişdən əvvəl geri qayıtsa, bir qiratla geri qayıtmış olar" (Səhih əl-Buxari, 47); digər hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Xəstələri ziyarət edin və cənazələrin ardınca gedin. *Bu*, sizə Axirəti xatırladacaq" (Ədəbul-Mufrəd, 518).

uzunqulaq sürər[1] və kölənin (belə) dəvətini qəbul edərdi.[2] Bəni-Qureyzə qəbiləsi ilə döyüşdüyü gün[3] o, noxtası xurma lifindən hörülmüş ipdən olan, belinə də (içi) liflə

[1] Peyğəmbərin ﷺ Adbə və Qəsva adlı dəvələri, habelə Luheyf adlı atı ola-ola, hərdən uzunqulağa minməsi onun təvazökar olduğunu bir daha sübuta yetirir. Səhih hədislərdə xəbər verilir ki, Peyğəmbərin ﷺ Ufeyr adlı uzunqulağı var imiş. (Səhih əl-Buxari, 2856); həmçinin, rəvayət edilir ki, Peyğəmbər ﷺ, belinə xovlu parça salınmış uzunqulağa minmiş və Usaməni də tərkinə almışdır (Səhih əl-Buxari, 2987).

[2] Bəra ibn Azib ؓ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ onlara yeddi şeyi – cənazənin ardınca getməyi, xəstəni ziyarət etməyi, *məclisə* dəvət edənin dəvətini qəbul etməyi, məzluma yardım etməyi, andı yerinə yetirməyi, verilən salamı almağı və asqıran adama rəhmət diləməyi əmr etmişdir (Səhih əl-Buxari, 1239).

[3] Bəni-Qureyzə Mədinədə yaşayan yəhudi qəbiləsi idi. Xəyanət etdiklərinə görə Peyğəmbər ﷺ onlara qarşı vuruşmuşdur. İbn Ömər ؓ rəvayət edir ki, Bəni-Nədir və Bəni Qureyzə qəbilələri Peyğəmbərə ﷺ qarşı vuruşurdular. Odur ki, Peyğəmbər ﷺ Bəni-Nədir qəbiləsini qovub *öz diyarından* çıxartmış, Bəni-Qureyzə qəbiləsinə isə *müəyyən şərtlər əsasında Mədinədə* qalmağa izin vermişdi. Bəni-Qureyzə *ikinci kərə müsəlmanlara* qarşı silah qaldırdıqda Peyğəmbər ﷺ onların kişilərini qırıb-çatdı, qadınlarını, uşaqlarını və sərvətlərini isə müsəlmanlar arasında paylaşdırdı. Yalnız o kəslər istisna idi ki, Peyğəmbər ﷺ onlara aman vermiş, onlar da İslam dinini qəbul etmişdilər" (Səhih əl-Buxari, 4028).

(dolu) bir palan[1] qoyulmuş uzunqulağın üstündə oturmuşdu."[2]

٣٣٣- حَدَّثَنَا وَاصِلُ بْنُ عَبْدِ الأَعْلَى الْكُوفِيُّ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ فُضَيْلٍ، عَنِ الأَعْمَشِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ، يُدْعَى إِلَى خُبْزِ الشَّعِيرِ، وَالإِهَالَةِ السَّنِخَةِ، فَيُجِيبُ وَلَقَدْ كَانَ لَهُ دِرْعٌ عِنْدَ يَهُودِيٍّ، فَمَا وَجَدَ مَا يَفُكُّهَا حَتَّى مَاتَ)).

(333) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ arpa çörəyi və qaxsımış[3] yağ yeməyə dəvət edilər və o, (bu dəvəti) qəbul edərdi.[4] Peyğəmbər ﷺ (Mədinədə ikən) öz zirehini bir yəhudinin[5] yanında (girov[6]) qoymuşdu.[7] Pey-

---

[1] Palan: minik üçün istifadə edilən heyvanların belinə qoyulan içi saman, yaxud küləş və ya liflə dolu primitiv yəhər.

[2] Bu hədisi Tirmizi (1017) və İbn Macə (2296) rəvayət etmişdir. Hədisin isnadında keçən Muslim ibn Keysan əd-Dabbi "zəif" ravidir (ət-Təqrib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Bu hədisin isnadı zəif olsa da, Peyğəmbərin ﷺ xəstəyə baş çəkməsi, dəfn mərasimlərində iştirak etməsi, uzunqulaq minməsi və kölənin dəvətini qəbul etməsi başqa səhih hədislərdə öz təsdiqini tapmışdır.

[3] Köhnəlib qoxumuş və tamı acılaşmış.

[4] Bu da, həmçinin, Peyğəmbərin ﷺ təvazökar olduğunu bir daha sübuta yetirir.

[5] Bu yəhudinin adı Əbu Şəhm ibn Ərs idi.

[6] Girov: borc alınan ərzaq və s. müqabilində təminat üçün verilən şey.

[7] Buxarinin rəvayətində (2069) xəbər verilir ki, o, həmin zirehi girov qoymuş və bunun əvəzinə ailəsi üçün arpa götürmüşdür.

ğəmbər ﷺ vəfat edənədək (lazımi qədər) pul tapa bilmədi ki, o zirehi girovdan çıxarda bilsin.[1]"[2]

٣٣٤- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ الْحَفَرِيُّ، عَنْ سُفْيَانَ، عَنِ الرَّبِيعِ بْنِ صَبِيحٍ، عَنْ يَزِيدَ بْنِ أَبَانَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((حَجَّ رَسُولُ اللهِ ﷺ، عَلَى رَحْلٍ رَثٍّ، وَعَلَيْهِ قَطِيفَةٌ، لا تُسَاوِي أَرْبَعَةَ دَرَاهِمَ، فَقَالَ: ((اللَّهُمَّ اجْعَلْهُ حَجًّا، لا رِيَاءَ فِيهِ، وَلا سُمْعَةَ)).

(334) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsullullah ﷺ, belinə köhnə yəhər qoyulmuş dəvənin üstündə, əynində də heç dörd dirhəm dəyəri olmayan bir bürüncək[3] olduğu halda həcc ziyarətini yerinə yetirdi və (miqatda[4] dua edib)

"İmam Əhmədin rəvayətində isə bu arpanın otuz saa olduğu bildirilir. Saa – ölçü vahididir və dörd mudda bərabərdir. Bir mudd isə insanın iki ovucuna bərabərdir ki, bu da təqribən yeddi yüz qrama bərabərdir.

[1] Peyğəmbərin ﷺ vəfatından sonra Əbu Bəkr ﷺ onun borcunu ödəyib həmin zirehi girovdan çıxartmış və onu Əli ibn Əbu Talibə ﷺ vermişdir (Fəthul-Bari, 5/142).

[2] Bu hədisin isnadında bağlılıq olmadığından hədisin isnadı "zəif" hesab edilir. Belə ki, hədisin isnadında keçən Amaş adlı ravi bu hədisi Ənəsdən ﷺ bilavasitə eşitməmişdir. Buxari (1963), Tirmizi (1215), Nəsai (4610) və Əhməd (3/133, 208, 232, 238) bu hədisi Amaşdan, o da, Qətadədən, o da, Ənəsdən ﷺ "muttəsil" isnadla rəvayət etmişlər.

[3] Burada "bürüncək" deyildikdə, izar və ridadan – yəni, bədənin qurşaqdan aşağı və bir də ondan yuxarı hissəsini bürüyən iki sadə parçadan ibarət olan ehram libası nəzərdə tutulur.

[4] Həcc və ya ümrə ziyarətini yerinə yetirmək üçün niyyət edilən yer.

dedi: “Allahumməc-alhu həccən lə riyaə fihi vələ sum'əh.[1]”[2]

٣٣٥- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا عَفَّانُ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ حُمَيْدٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((لَمْ يَكُنْ شَخْصٌ أَحَبَّ إِلَيْهِمْ مِنْ رَسُولِ اللهِ ﷺ، قَالَ: وَكَانُوا إِذَا رَأَوْهُ لَمْ يَقُومُوا، لِمَا يَعْلَمُونَ مِنْ كَرَاهَتِهِ لِذَلِكَ)).

(335) ..... Ənəs ibn Malik ﷺ demişdir: “Səhabələr üçün Rəsulullahdan ﷺ daha əziz bir adam yox idi.[1] (Lakin

---

[1] Tərcüməsi: “Allahım bu həccimi, içində riyakarlıq və şan-şöhrət olmayan bir həcc et!” Ümrə ziyarəti etdikdə isə belə deyilir: “Allahumməc-alhu umrətən lə riyaə fihi vələ sum'əh! (Allahım bu ümrəmi, içində riyakarlıq və şan-şöhrət olmayan bir ümrə et!)” Demək, həcc və ya ümrə ziyarəti etmək istəyən hər kəs bu ibadətləri ixlasla – ancaq Allahın rizasını qazanmaq üçün yerinə yetirməlidir. Bu xüsusda Uca Allah belə buyurur: **“Allah üçün həcc və ümrəni tam yerinə yetirin”** (əl-Bəqərə, 196); O, həmçinin, buyurur: **“*Müqəddəs* Evi ziyarət etmək insanların – yoluna gücü çatan hər kəsin – Allah qarşısında borcudur”** (Ali-İmran, 97). Hər kim bu ibadətləri ad-san qazanmaq və özünü göstərmək məqsədilə edərsə, Allah ona istədiyini nəsib edər, lakin onu savabdan məhrum edər və nəticədə bu adam ziyana uğrayar. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: “Kim *etdiyi əməli insanlara* eşitdirmək məqsədilə edərsə, Allah onu eşitdirər, kim də *etdiyi əməli insanlara* göstərmək məqsədilə edərsə, Allah onu (insanlara) göstərər” (Səhih əl-Buxari, 6499).

[2] Bu hədisi İbn Macə (8290) rəvayət etmişdir. Hədisin isnadında keçən Rəbi ibn Səbih “hafizəsi zəif səduq” ravi, habelə Yezid ibn Əban “zəif” ravidir. Odur ki, bu isnad zəif hesab edilir. Lakin bu hədisi qüvvətləndirən digər isnadlar olduğundan şeyx Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” və “Silsilətul-Əhadisis-Səhihə” (2617) əsərlərində bu hədisin “səhih” olduğunu demişdir.

buna rəğmən) onlar onu görəndə ayağa qalxmazdılar.[2] Çünki, bilirdilər ki, bu onun xoşuna gəlmir."[3]

---

[1] Allahın rəsulunu ﷺ hamıdan çox sevmək imandandır. Bu xüsusda Rəsulullah ﷺ belə buyurmuşdur: "Canım Əlində olan Allaha and olsun ki, sizdən biriniz məni valideynindən, övladından və bütün insanlardan çox istəməyincə, iman gətirmiş olmaz" (Səhih əl-Buxari, 14); başqa bir hədisdə Abdullah ibn Hişam ﷺ demişdir: "*Bir dəfə* Peyğəmbərlə ﷺ bərabər yol gedərkən o, Ömər ibn Xəttabın əlindən tutdu və Ömər ona dedi: "Ya Rəsulullah, özümdən başqa, mən səni hamıdan çox sevirəm." Peyğəmbər ﷺ buyurdu: "Xeyr, canım Əlində olan Allaha and olsun ki, sən məni özündən də çox sevməlisən." Ömər ona dedi: "Vallahi ki, indi mən səni hamıdan, hətta özümdən də çox sevirəm." Peyğəmbər ﷺ buyurdu: "Bax, indi *sən vacib buyurulanı yerinə yetirdin*, ey Ömər!" (Səhih əl-Buxari, 6632). Uca Allah Rəsulullahı ﷺ hamıdan çox sevməyin vacib olması haqda belə buyurur: **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmrini verincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz"** (ət-Tovbə, 24); başqa bir ayədə Allah buyurur: **"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır"** (əl-Əhzab, 6).

[2] İslam şəriəti bir adamın təzim etmək məqsədilə digəri üçün ayağa qalxmasını qadağan etmişdir. Bu xüsusda varid olmuş hədisdə "Peyğəmbər ﷺ demişdir: "Hər kim insanların onun üçün ayağa qalxmasından xoşhallanarsa, Cəhənnəm odundakı yerini tutsun" (Ədəbul-Mufrəd, 977; Sunən Əbu Davud, 5229; Sunən ət-Tirmizi, 2/125; Musnəd imam Əhməd, 4/93, 100; Silsilətul-Əhadisis-Səhihə, 357).

[3] Bu hədisi Tirmizi (2755), Əhməd (3/250-251) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

٣٣٦- حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ: حَدَّثَنَا جُمَيْعُ بْنُ عُمَرَ بْنِ عَبْدِ الرَّحْمَنِ الْعِجْلِيُّ، قَالَ: أَنْبَأَنَا رَجُلٌ مِنْ بَنِي تَمِيمٍ مِنْ وَلَدِ أَبِي هَالَةَ زَوْجِ خَدِيجَةَ، يُكْنَى أَبَا عَبْدِ اللهِ، عَنِ ابْنٍ لأَبِي هَالَةَ، عَنِ الْحَسَنِ بْنِ عَلِيٍّ، قَالَ: سَأَلْتُ خَالِي هِنْدَ بْنَ أَبِي هَالَةَ، وَكَانَ وَصَّافًا عَنْ حِلْيَةِ رَسُولِ اللهِ ﷺ، وَأَنَا أَشْتَهِي أَنْ يَصِفَ لِي مِنْهَا شَيْئًا، فَقَالَ: ((كَانَ رَسُولُ اللَّهِ ﷺ فَخْمًا مُفَخَّمًا، يَتَلأْلأُ وَجْهُهُ تَلأْلُؤَ الْقَمَرِ لَيْلَةَ الْبَدْرِ))، فَذَكَرَ الحَدِيْثَ بِطُولِهِ.

قَالَ الحَسَنُ: فَكَتَمْتُهَا الْحُسَيْنَ زَمَانًا، ثُمَّ حَدَّثْتُهُ فَوَجَدْتُهُ قَدْ سَبَقَنِي إِلَيْهِ، فَسَأَلَهُ عَمَّا سَأَلْتُهُ عَنْهُ وَوَجَدْتُهُ قَدْ سَأَلَ أَبَاهُ عَنْ مَدْخَلِهِ وَمَخْرَجِهِ وَشَكْلِهِ فَلَمْ يَدَعْ مِنْهُ شَيْئًا.

قَالَ الْحُسَيْنُ: فَسَأَلْتُ أَبِي، عَنْ دُخُولِ رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: كَانَ إِذَا أَوَى إِلَى مَنْزِلِهِ جَزَّأَ دُخُولَهُ ثَلاَثَةَ أَجْزَاءٍ، جُزْءًا لِلَّهِ، وَجُزْءًا لِأَهْلِهِ، وَجُزْءًا لِنَفْسِهِ، ثُمَّ جَزَّأَ جُزْأَهُ بَيْنَهُ وَبَيْنَ النَّاسِ، فَيَرُدُّ ذَلِكَ بِالْخَاصَّةِ عَلَى الْعَامَّةِ، وَلاَ يَدَّخِرُ عَنْهُمْ شَيْئًا، وَكَانَ مِنْ سِيرَتِهِ فِي جُزْءِ الأُمَّةِ إِيثَارُ أَهْلِ الْفَضْلِ بِإِذْنِهِ وَقَسْمِهِ عَلَى قَدْرِ فَضْلِهِمْ فِي الدِّينِ، فَمِنْهُمْ ذُو الْحَاجَةِ، وَمِنْهُمْ ذُو الْحَاجَتَيْنِ، وَمِنْهُمْ ذُو الْحَوَائِجِ، فَيَتَشَاغَلُ بِهِمْ وَيُشْغِلُهُمْ فِيمَا يُصْلِحُهُمْ وَالأُمَّةَ مِنْ مُسَاءَلَتِهِمْ عَنْهُ وَإِخْبَارِهِمْ بِالَّذِي يَنْبَغِي لَهُمْ وَيَقُولُ: ((لِيُبَلِّغِ الشَّاهِدُ مِنْكُمُ الْغَائِبَ، وَأَبْلِغُونِي حَاجَةَ مَنْ لاَ يَسْتَطِيعُ إِبْلاَغَهَا، فَإِنَّهُ مَنْ أَبْلَغَ سُلطَانًا حَاجَةَ مَنْ لاَ يَسْتَطِيعُ إِبْلاَغَهَا ثَبَّتَ اللَّهُ قَدَمَيْهِ يَوْمَ الْقِيَامَةِ))، لاَ يُذْكَرُ عِنْدَهُ إِلاَ ذَلِكَ، وَلاَ يُقْبَلُ مِنْ أَحَدٍ غَيْرَهُ، يَدْخُلُونَ رُوَّادًا وَلاَ يَفْتَرِقُونَ إِلاَ عَنْ ذَوَاقٍ، وَيَخْرُجُونَ أَدِلَّةً يَعْنِي عَلَى الْخَيْرِ، قَالَ:

فَسَأَلْتُهُ عَنْ مَخْرَجِهِ كَيْفَ يَصْنَعُ فِيهِ؟ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَخْزِنُ لِسَانَهُ إِلاَّ فِيمَا يَعْنِيهِ، وَيُؤَلِّفُهُمْ وَلاَ يُنَفِّرُهُمْ، وَيُكْرِمُ كَرِيمَ كُلِّ قَوْمٍ وَيُوَلِّيهِ عَلَيْهِمْ، وَيَحْذَرُ النَّاسَ وَيَحْتَرِسُ مِنْهُمْ مِنْ غَيْرِ أَنْ يَطْوِيَ عَنْ أَحَدٍ مِنْهُمْ بِشْرَهُ وَخُلُقَهُ، وَيَتَفَقَّدُ أَصْحَابَهُ، وَيَسْأَلُ النَّاسَ عَمَّا فِي النَّاسِ، وَيُحَسِّنُ الْحَسَنَ وَيُقَوِّيهِ، وَيُقَبِّحُ الْقَبِيحَ وَيُوَهِّيهِ، مُعْتَدِلُ الأَمْرِ غَيْرُ مُخْتَلِفٍ، لاَ يَغْفُلُ مَخَافَةَ أَنْ يَغْفُلُوا أَوْ يَمِيلُوا، لِكُلِّ حَالٍ عِنْدَهُ عَتَادٌ، لاَ يُقَصِّرُ عَنِ الْحَقِّ وَلاَ يُجَاوِزُهُ، الَّذِينَ يَلُونَهُ مِنَ النَّاسِ خِيَارُهُمْ، أَفْضَلُهُمْ عِنْدَهُ أَعَمُّهُمْ نَصِيحَةً، وَأَعْظَمُهُمْ عِنْدَهُ مَنْزِلَةً أَحْسَنُهُمْ مُوَاسَاةً وَمُؤَازَرَةً، قَالَ: فَسَأَلْتُهُ عَنْ مَجْلِسِهِ، فَقَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ لاَ يَقُومُ وَلاَ يَجْلِسُ إِلاَّ عَلَى ذِكْرٍ، وَإِذَا انْتَهَى إِلَى قَوْمٍ جَلَسَ حَيْثُ يَنْتَهِي بِهِ الْمَجْلِسُ وَيَأْمُرُ بِذَلِكَ، يُعْطِي كُلَّ جُلَسَائِهِ بِنَصِيبِهِ، لاَ يَحْسَبُ جَلِيسُهُ أَنَّ أَحَدًا أَكْرَمُ عَلَيْهِ مِنْهُ، مَنْ جَالَسَهُ أَوْ فَاوَضَهُ فِي حَاجَةٍ صَابَرَهُ حَتَّى يَكُونَ هُوَ الْمُنْصَرِفُ عَنْهُ، وَمَنْ سَأَلَهُ حَاجَةً لَمْ يَرُدَّهُ إِلاَّ بِهَا أَوْ بِمَيْسُورٍ مِنَ الْقَوْلِ، قَدْ وَسِعَ النَّاسَ بَسْطُهُ وَخُلُقُهُ، فَصَارَ لَهُمْ أَبًا وَصَارُوا عِنْدَهُ فِي الْحَقِّ سَوَاءً، مَجْلِسُهُ مَجْلِسُ حِلْمٍ وَحَيَاءٍ وَأَمَانَةٍ وَصَبْرٍ، لاَ تُرْفَعُ فِيهِ الأَصْوَاتُ وَلاَ تُؤْبَنُ فِيهِ الْحُرَمُ، وَلاَ تُثَنَّى فَلَتَاتُهُ مُتَعَادِلِينَ، بَلْ كَانُوا يَتَفَاضَلُونَ فِيهِ بِالتَّقْوَى، مُتَوَاضِعِينَ يُوَقِّرُونَ فِيهِ الْكَبِيرَ وَيَرْحَمُونَ فِيهِ الصَّغِيرَ، وَيُؤْثِرُونَ ذَا الْحَاجَةِ وَيَحْفَظُونَ الْغَرِيبَ)).

(336) ..... Həsən ibn Əli رضي الله عنهما demişdir: “Mən, (gördüyü kimsəni) vəsf etməyi bacaran, dayım Hind ibn Əbu Halədən Rəsulullahın ﷺ gözəl xislətləri barədə soruşdum. Mən çox istəyirdim ki, o, Rəsulullahın ﷺ xislətlərindən bəzisini mənə vəsf etsin. Dayım dedi: “Rəsulullah ﷺ çox

möhtərəm (və insanların) sayğı göstərdiyi bir adam idi. Onun üzü bədr gecəsindəki ay kimi parlayırdı...”

Beləcə, o, hədisi axıra kimi danışdı.

Həsən dedi: “Mən bir müddət bu rəvayəti Hüseynə bildirmədim. Sonra bunu ona danışdım və mənə aydın oldu ki, o, artıq məni qabaqlayıb dayımdan mənim soruşduğumu soruşmuşdur. Həmçinin, o da aydın oldu ki, Hüseyn öz atasından[1] Rəsulullahın ﷺ (evə nə cür) daxil olduğu, (evdən nə cür) çıxdığı,[2] habelə, (səhabələri ilə nə cür) davrandığı barədə soruşmuş və bu vəsflərdən heç birini buraxmamışdır.”

Hüseyn dedi: “Mən atamdan Rəsulullahın ﷺ (evə) girdikdə (nə işlə məşğul olduğu) barədə soruşdum. O dedi: “Rəsulullah ﷺ evinə gəldikdə vaxtını üç qismə bölərdi. Bir qismini Allaha (ibadət edər), bir qismini əhli-əyalına (həsr edər),[3] bir qismini də özünə (sərf edərdi). O, özünə

---

[1] Bəzi nüsxələrdə “atamdan” deyilir, yəni, Əli ibn Əbu Talibdən ﷺ.

[2] Burada Peyğəmbərin ﷺ öz evində nə işlə məşğul olduğu və bayırda insanlarla necə davrandığı nəzərdə tutulur.

[3] Əvvəlki hədislərdə və onların qeydlərində Peyğəmbərin ﷺ öz evində hər bir kişinin öz evində gördüyü işləri gördüyünü, habelə əhli-əyalı ilə gecə vaxtı söhbət etməsini, hətta ailəsi ilə birgə qüsl etdiyini vurğulamışdıq. Bunlara, Peyğəmbərin ﷺ bu hədisini də əlavə etmək olar: “Hər kim, savabını *yalnız Allahdan* umaraq malından ailəsinə xərcləsə, bu onun üçün sədəqə olar” (Səhih əl-Buxari, 55); digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Ən fəzilətli dinar kişinin ailəsinə xərclədiyi dinar, sonra Allah yolundakı dostlarına xərclədiyi dinar, sonra da Allah yolundakı *cihadda olan* heyvanına xərclədiyi dinardır” (Ədəbul-Mufrəd, 748).

ayırdığı vaxtın (bir qismini yanına gələn) adamlara[1] sərf edər, (öz buyuruqlarını) xüsusi adamların vasitəsilə camaata bildirər[2] və heç nəyi[3] onlardan gizlətməzdi. Ümməti üçün ayırdığı vaxt ərzində öz ixtiyarı ilə fəzilətli insanlara[4] üstünlük verməsi onun xasiyyəti idi. O, (ümməti üçün ayırdığı) vaxtı onların dində tutduqları mövqelərinə görə bölüşdürərdi. Onlardan kimisinin bir,

---

[1] Söhbət dini öyrənmək, yaxud hər hansı bir iş barədə məsləhət almaq, yaxud da dərdini danışmaq məqsədilə Peyğəmbərə ﷺ müraciət edən adamlardan gedir.

[2] Burada "xüsusi adamlar" deyildikdə, Peyğəmbərin ﷺ evinə daxil olmağa ərki çatan, vaxtının çoxunu onun yanında keçirən səhabələri nəzərdə tutulur. Məhz bu səhabələr tez-tez onun yanına gəlib-gedər və onun buyuruqlarını camaata çatdırarmış.

[3] Burada "heç nəyi" deyildikdə, camaata aid olan məsələlər nəzərdə tutulur.

[4] Söhbət İslamı ilk əvvəl qəbul edənlərdən, dini savadı digərlərindən üstün olanlardan və başqa bu kimi Allahdan daha çox qorxan insanlardan gedir. Uca Allah Qurani Kərimdə bu xüsusda belə buyurur: **"Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız *Ondan* ən çox qorxanınızdır"** (əl-Hucurat, 13). Peyğəmbərin ﷺ həmin fəzilətli səhabələr arasında ən çox üstünlük verdiyi isə daim onun yanında olmuş iki ən yaxın dostu, Əbu Bəkr əs-Siddiq رضي الله عنه və Ömər ibn Xəttab رضي الله عنه olmuşdur. Rəvayət edilir ki, İbn Abbas رضي الله عنهما demişdir: "Ömər ibn Xəttab ölüm ayağında ikən mən onun yanına yığışıb ona dua edənlərin arasında idim. Birdən bir nəfərin arxamda durub, dirsəyini də çiynimə qoyub belə dediyini eşitdim: "Allah sənə rəhmət eləsin, (ey Ömər)! Mən həmişə arzulamışam ki, sən dostlarınla bir yerdə olasan. Çünki mən Peyğəmbərin ﷺ çox vaxt belə dediyini eşidərdim: "Mən, Əbu Bəkr və Ömərlə *filan yerdə* idim. Mən, Əbu Bəkr və Ömərlə *filan işi* gördüm. Mən, Əbu Bəkr və Ömərlə *filan yerə* getdim." Mən ümid edirdim ki, Allah səni onlara qovuşduracaq." İbn Abbas رضي الله عنهما dedi: "Mən dönüb gördüm ki, bu, Əli ibn Əbu Talibdir" (Səhih əl-Buxari, 3677).

kimisinin iki, kimisinin də daha çox tələbatı[1] olardı. (Beləcə,) o, öz vaxtını onlarla keçirər və onlara, soruşduqları məsələlər xüsusunda həm özlərinə, həm də ümmətə fayda verəcək işlərlə məşğul olmağı və camaatı, özlərinə aid olan işlərdən xəbərdar etməyi tapşırıb buyurardı: "Qoy, sizlərdən burada olanlar (eşitdiklərini) aramızda olmayanlara təbliğ etsinlər. Həmçinin, dərdini deyə bilməyən kimsənin[2] istəyini mənə bildirin. Çünki kim dərdini deməyə qadir olmayan birisinin dərdini padşaha çatdırarsa, Qiyamət günü Allah onun qədəmlərini sabit edər.[3]"

Rəsulullahın ﷺ hüzurunda ancaq belə (faydalı) məsələlər müzakirə olunar, habelə, mənasız söhbətlər edilməsinə yol verilməzdi. (Səhabələrin başbilənləri) məsləhət almaq məqsədilə Rəsulullahın ﷺ (məclisinə) gələr və (faydalı elmdən) dadmadan dağılışmazdılar. Beləcə, onlar (insanları) xeyirxahlığa yönəldən bələdçilər olduqları halda (həmin məclisdən) çıxardılar."

(Hüseyn) dedi: "Mən atamdan Rəsulullahın ﷺ (evdən) çıxanda (nə işlə məşğul olduğu barədə) soruşdum. O dedi:

---

[1] Burada "tələbat" deyildikdə, şəriət məsələlərinə aydınlıq gətirmək nəzərdə tutulur.

[2] Burada istədikləri vaxt Peyğəmbərin ﷺ qəbuluna düşə bilməyən qadınlar, kölələr, kənizlər və digərləri nəzərdə tutulur.

[3] Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Müsəlman müsəlmanın qardaşıdır; ona zülm etməz və onu ələ verməz. Kim qardaşının ehtiyacını ödəyərsə, Allah da onun ehtiyacını ödəyər. Kim bir müsəlmanı bir sıxıntıdan qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntılarının birindən qurtarar. Kim bir müsəlmanın eyiblərini örtərsə, Allah da Qiyamət günü onun eyiblərini örtər" (Səhih əl-Buxari, 2442).

"Rəsulullah ﷺ dilini qoruyar[1] və yalnız özünə aid olan sözü danışardı. [2] Habelə, insanlarla ülfət bağlamağa çalışar[3] və onlarda özünə qarşı nifrət oyatmazdı.[4] Üstəlik, hər bir qövmün görkəmli şəxsiyyətlərinə hörmətlə yanaşar və onları öz qövmlərinə başçı təyin edərdi.[5] O,

[1] Peyğəmbər ﷺ demişdir: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun" (Səhih əl-Buxari, 6018).

[2] Burada "özünə aid olan söz" deyildikdə, dini məsələləri açıqlamaq, haqqı bəyan etmək, insanlara yaxşı işlər görməyi buyurmaq və onları pis işlərdən çəkindirmək nəzərdə tutulur. Peyğəmbərin ﷺ yolunu tutub gedən hər bir müsəlman da onun kimi olmalı, özünə aid olmayan işlərin başını buraxmalıdır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Müsəlmanın İslamının gözəlliyindəndir ki, özünə aid olmayan işləri tərk etsin" (Sunən ət-Tirmizi, 2319; Səhih əl-Cami, 5911).

[3] Səd ibn Əbu Vəqqas ؓ rəvayət edir ki, *bir gün* Peyğəmbər ﷺ bir dəstə adama hədiyyə verərkən mən də *onların yanında* oturmuşdum. Peyğəmbər ﷺ onlardan ən çox sevdiyi bir adama heç nə vermədi. Dedim: "Ya Rəsulullah, niyə filankəsi kənarda qoydun? Vallahi ki, mən onu mömin hesab edirəm." Peyğəmbər ﷺ: "Bəlkə, müsəlmandır!"– dedi. Mən bir az susdum. Nəhayət, onun haqqında bildiklərim mənə üstün gəldi və yenə sözümü təkrar edib dedim: "Niyə filankəsi kənarda qoydun? Vallahi, mən onu mömin hesab edirəm." Peyğəmbər ﷺ: "Bəlkə, müsəlmandır!"– dedi. Mən bir müddət susdum. Amma onun haqqında bildiklərim yenə mənə üstün gəldi və bir daha sözümü təkrar etdim. Peyğəmbər ﷺ də dediyini təkrar söylədikdən sonra mənə buyurdu: "Ey Səd, bəzən bir adama Allah onu üzüqoylu Oda atmasın deyə, hədiyyə verirəm, halbuki, başqasını ondan da çox istəyirəm" (Səhih əl-Buxari, 27).

[4] Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət oyatmayın" (Səhih əl-Buxari, 69).

[5] Peyğəmbər ﷺ görkəmli şəxsiyyətlərə ehtiramla yanaşmaq barədə belə buyurmuşdur: "(Hər hansı) bir qövmün görkəmli şəxsiyyəti sizin

(bəzi) insanlardan ehtiyat edər və özünü onlardan gözləyər, lakin gülərüzlülüyünü və gözəl əxlaqını heç birindən gizlətməzdi.[1] O, (daim) öz səhabələrindən xəbər tutar, eləcə də, camaatdan hal-əhval soruşardı.[2] Habelə, yaxşı işi tərifləyər və onu təsdiqləyər,[3] qəbih əməli isə

---

yanınıza gəldiyi zaman ona sayğı göstərin!" (Sunən İbn Macə, 2/400; Silsilətul-Əhadisis-Səhihə, 1205).

[1] 350-ci hədisə bax.

[2] Peyğəmbər ﷺ həmişə səhabələrindən hal-əhval tutar və bir kimsəni uzun müddət görmədikdə dalınca adam göndərər, onun xəstə olduğundan xəbər tutduqda, gedib ona baş çəkər, müsafir olduğunu bildikdə, onun üçün dua edər, vəfat etdiyini öyrəndikdə isə, onun üçün məğfirət diləyərdi.

[3] Buna Salman Farisi ؓ ilə Əbu Dərdanın ؓ arasında baş vermiş hadisəni misal göstərmək olar. Rəvayət edilir ki, Əbu Cuheyfə ؓ demişdir: "Salmanla Əbu Dərda Peyğəmbərin ﷺ sayəsində bir-birilə qardaş oldular. *Bir dəfə* Salman Əbu Dərdanı ziyarət etdi və *onun zövcəsi* Ummu Dərdanın əynində köhnə paltar olduğunu görüb: "Niyə bu görkəmdəsən?"– deyə soruşdu. *Ummu Dərda*: "Qardaşın Əbu Dərdanın dünyaya marağı yoxdur"– deyə cavab verdi. Sonra Əbu Dərda gəlib Salmanın qabağına yemək qoydu. Salman: "*Sən də* ye!"– dedi. Əbu Dərda: "Mən oruc tutmuşam"– dedi. Salman: "Sən yeməyincə, mən yeyən deyiləm"– dedi, o da yeməkdən yedi. Gecə olduqda, Əbu Dərda qalxıb namaz qılmaq istədi. Salman: "*Hələ* yat!"– dedi, o da yatdı. Sonra yenə qalxıb namaz qılmaq istədikdə, Salman yenə: "*Hələ* yat!"– dedi. Nəhayət, gecənin axır saatlarında Salman *ona*: "İndi qalxa bilərsən"– dedi və onlar *qalxıb* namaz qıldılar. Sonra Salman ona dedi: "Rəbbinin sənin üzərində haqqı vardır, nəfsinin sənin üzərində haqqı vardı, ailənin sənin üzərində haqqı vardır. Elə isə, hər bir haqq sahibinə haqqını ver." *Səhəri gün* Əbu Dərda Peyğəmbərin ﷺ yanına gəlib hadisəni ona xəbər verdikdə, Peyğəmbər ﷺ dedi: "Salman doğru söyləmişdir" (Səhih əl-Buxari, 1968).

pisləyər və bunu qadağan edərdi.[1] O, (hər bir) işdə ədalətli mövqe tutar, düz yol seçərdi. Səhabələrinin (Allahı zikr etməkdən) xəbərsiz olacaqlarından, yaxud (arxayınlaşmağa[2]) meyil edəcəklərindən ehtiyat etdiyinə görə (onlara qarşı) diqqətsiz olmazdı.[3] Onun hər bir vəziyyətə uyğun (dəvət) üslubu olardı. Nə haqdan yayınar, nə də həddi aşardı. Ona yaxın olan səhabələr insanların ən xeyirliləri idilər.[4] Onun gözündə səhabələrin

---

[1] Buna da Peyğəmbərin ﷺ, namaz əsnasında göyə baxmağı qadağan etməsini misal göstərmək olar. Ənəs ibn Malik ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ: "Namaz əsnasında göyə baxan adamlara nə olub ki, (belə edirlər)?"– deyib buna çox sərt münasibət bildirdikdən sonra belə buyurdu: "Ya buna son qoyacaqlar, ya da ki onların gözləri kor olacaq" (Səhih əl-Buxari, 750).

[2] Bu xüsusda varid olmuş hədisdə rəvayət edilir ki, Muaz ibn Cəbəl ؓ demişdir: "*Bir dəfə* mən Peyğəmbərin ﷺ tərkində ikən, o dedi: "Ey Muaz, bilirsən, Allahın qulları üzərindəki haqqı və qulların da Allah üzərindəki haqqı nədir?" Mən: "Allah və Onun rəsulu daha yaxşı bilir!"– dedim. O buyurdu: "Allahın qulları üzərindəki haqqı, qulların Ona ibadət edib heç kəsi Ona şərik qoşmamalarıdır. Qulların Allah üzərindəki haqqı isə, Ona heç nəyi şərik qoşmayan qullarına əzab verməməsidir." Mən dedim: "Ya Rəsulullah, bu xəbərlə camaatı müjdələyimmi?" O buyurdu: "Müjdələmə, *yoxsa,* onlar *buna* arxayın olacaqlar" (Səhih əl-Buxari, 2856).

[3] Yəni, daim onlara Allahı xatırladar, onları xeyirxah işlərə yönəldər və onlara gözəl nəsihətlər edərdi ki, dində sabitqədəm olsunlar.

[4] Bu cümlə səhabələrin öz aralarında birinin digərindən daha fəzilətli olduğuna dəlalət edir. Bu xüsusda Uca Allah buyurur: **"Sizlərdən *malını Məkkənin* fəthindən əvvəl xərcləyib döyüşənlər *başqaları ilə* eyni deyillər. Onların dərəcəsi *mallarını fəthdən* sonra xərcləyib döyüşənlərdən daha üstündür. Amma Allah onların hamı-**

ən fəzilətlisi onların ən çox nəsihət[1] edəni idi. Habelə onun yanında səhabələrin ən hörmətlisi, başqalarına ən gözəl tərzdə qayğı göstərəni[2] və ən gözəl şəkildə kömək edəni[3] idi."

(Hüseyn) dedi: "Mən atamdan Rəsulullahın ﷺ məclisi barədə soruşdum. O dedi: "Rəsulullah ﷺ duranda da,

---

sına ən gözəl olanı vəd etmişdir" (əl-Hədid, 10). Bu ümmətin ən fəzilətli səhabələri – Əbu Bəkr əs-Siddiq ﷺ, sonra Ömər ibn Xəttab ﷺ, sonra Osman ibn Əffan ﷺ, sonra Əli ibn Əbu Talib ﷺ, sonra Cənnətlə müjdələnmiş on nəfərin qalanı və digərləridir. Habelə, onlardan sonra gələnlər də xeyirli insanlardan hesab olunurlar. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Ən xeyirli insanlar mənim dövrümdə yaşayan (səhabələrimdir), sonra onların ardınca gələnlər, sonra da onların ardınca gələnlərdir" (Səhih əl-Buxari, 2652).

[1] Burada "nəsihət" deyildikdə, səhabənin bu dində olan dərəcəsi – təqvası, Allaha boyun əyməsi, Rəsulullahı ﷺ dəstəkləməsi, İslam dinini müdafiə etməsi, Quranı öyrənməsi və başqalarına da öyrətməsi və müsəlmanlara, ələlxüsus də onların başbilənlərinə nəsihət etməsi nəzərdə tutulur. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Din nəsihətdir, din nəsihətdir, din nəsihətdir." Səhabələr soruşdular: "Kimin üçün, ya Rəsulullah?" O buyurdu: "Allaha, Onun rəsuluna, Onun Kitabına, müsəlmanların rəhbərlərinə və sıravi müsəlmanlara" (Səhih Muslim, 55).

[2] Bu xüsusda Uca Allah buyurur: **"*Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır"** (əl-Həşr, 9).

[3] Uca Allah buyurur: **"Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilik etməkdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir"** (əl-Maidə, 2).

oturanda da, ancaq zikr edərdi.[1] (Hər hansı) bir camaatın yanına gəldikdə, məclisdə (özünə yaxın) olan boş yerdə oturar, səhabələrinə də belə etməyi buyurardı.[2] Məclisdə iştirak edən hər kəsin haqqını ödəyərdi.[3] Belə ki, məclisdəkilərdən heç biri digərinin, Peyğəmbərin ﷺ yanında özündən hörmətli olduğunu güman etməzdi.[4]

---

[1] Allahı zikr etmək xüsusunda varid olmuş hədisdə Abdullah ibn Busr ﷺ rəvayət etmişdir ki, bir nəfər Peyğəmbərə ﷺ: "Ya Rəsulullah, İslam ayinlərinin çoxluğu mənə ağır gəlir. Mənə elə bir şey öyrət ki, ondan bərk-bərk yapışım"– demiş, o da, ona belə buyurmuşdur: "Çalış, dilin daim Allahı zikr etməklə islaq qalsın" (Sunən ət-Tirmizi, 5/458; Səhih əl-Cami, 7700). Hər bir halda Allahı zikr edən möminlər barədə Quranda belə buyurulur: **"O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür** *və deyirlər:* **"Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Cəhənnəm əzabından qoru!"** (Ali-İmran, 191).

[2] Bu mənada varid olmuş hədisdə Abdullah ibn Ömər ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ bizə bir kimsəni yerindən qaldırıb onun yerinə oturmağı qadağan edər, ancaq sıx oturmağı və *bir-birimizə* yer verməyi buyurardı!" (Səhih əl-Buxari, 6270).

[3] Yəni, məclisdə olan hər kəsin üzünə təbəssüm edər, onların hər biri ilə kəlmə kəsər, sualı olanın sualına cavab verər və onlara gözəl nəsihətlər edərdi.

[4] Yəni, Peyğəmbərin ﷺ məclisində olan hər kəs Peyğəmbər ﷺ ona hamıdan çox diqqət yetirdiyini güman edərdi. Bu da, Peyğəmbərin ﷺ nə dərəcədə müdrik olduğunu bir daha sübuta yetirir. Rəvayət edilir ki, bir dəfə Cəfər ibn Əbu Talib ﷺ, Əli ibn Əbu Talib ﷺ və Zeyd ibn Harisə ﷺ öz aralarında söhbət edərkən: "Görəsən, Rəsulullah ﷺ hansı birimizi daha çox sevir?"– dedilər və Rəsulullahın ﷺ yanına gəldilər. Rəsulullah ﷺ onların sualına belə cavab verdi: "Ey Cəfər, xilqəti xilqətimə, əxlaqı əxlaqıma ən çox oxşayan kəs sənsən. Sən məndənsən, mənim əsli-nəsəbimdənsən. Sən, ey Əli, mənim kürəkənimsən, nəvələrimin atasısan! Sən məndənsən, mən də səndən!

Ehtiyac üzündən onun yanına gələn və dərdini onunla bölüşən adam özü çıxıb gedənədək səbir edərdi.[1] Kimsə ondan bir şey istədikdə onu əliboş qaytarmaz, istədiyini ona verər,[2] yaxud ona xoş söz deyərdi.[1] O, insanlara xoş

Sən isə, ey Zeyd, mənim qardaşım və *köləlikdən* azad olmuş sirdaşımsan! Sən məndənsən və qövmüm arasında mənə əziz olan kimsələrdənsən!" (Musnəd imam Əhməd, 5/204; Silsilətul-Əhadisis-Səhihə, 1150).

[1] Burada "ehtiyac üzündən" deyildikdə, həm mənəvi, həm də maddi ehtiyac nəzərdə tutulur. Peyğəmbərin ﷺ səbir etməsi də o deməkdir ki, adam istər yardım üçün, istərsə də sual verməkdən ötrü onun yanına gəldikdə, axıradək onu səbirlə dinləyər, onun sözünü kəsməz və məclisi yarımçıq qoyub durub getməzdi.

[2] Peyğəmbərin ﷺ olduqca əliaçıq olduğu bir çox hədislərdə öz təsdiqini tapmışdır. Həmin hədislərdən birində rəvayət edilir ki, Cabir ؓ demişdir: "Peyğəmbərdən ﷺ bir şey istədikdə, o heç vaxt "yox" deməzdi" (Səhih əl-Buxari, 6034); digər hədisdə rəvayət edilir ki, Ənəs ؓ demişdir: "Peyğəmbər ﷺ rəhmli idi. Onun yanına gələn hər kəsə söz verər, sonra da imkan daxilində ona köməklik edərdi. *Bir dəfə* namaza iqamə verildiyi zaman bir bədəvi gəlib onun ətəyindən tutdu və dedi: "Mənim bir az ehtiyacım var, qorxuram sonra yadımdan çıxa." Peyğəmbər ﷺ gedib, onun ehtiyacını ödədikdən sonra qayıdıb namazı qıldırdı" (Ədəbul-Mufrəd, 278); başqa bir hədisdə rəvayət edilir ki, Səhl ؓ demişdir: "*Bir dəfə* bir qadın Peyğəmbərə ﷺ haşiyələnmiş parçadan *tikilmiş* bir bürüncək gətirdi və ona: "Mən bunu öz əllərimlə toxumuşam və gətirmişəm ki, onu sənə geyindirim"– dedi. Peyğəmbər ﷺ ehtiyac üzündən bürüncəyi götürdü, sonra da onu geyib bizim yanımıza gəldi. Səhabələrdən biri onu tərifləyib: "Nə gözəl bürüncəkdir, onu mənə bağışla!"– dedi. Camaat da ona: "Sən yaxşı iş görmədin. Axı Peyğəmbər ﷺ onu ehtiyac üzündən geyinmişdi. Sən bilə-bilə ki, o, *heç kəsə* rədd etmir, bunu ondan istədin"– dedi. Onda həmin adam belə cavab verdi: "Vallahi ki, mən bunu ondan geyinmək üçün istəmədim. Mən bu bürüncəyi ondan ona görə istədim ki, bu, mənim kəfənim olsun." Səhl dedi: "(Axırda) həmin bürüncək onun kəfəni oldu" (Səhih əl-Buxari, 1277).

üz və gözəl əxlaq göstərər, onlara ata olardı.[2] Səhabələrin

---

[1] Xoş söz demək xüsusunda Uca Allah buyurur: **"Əgər sən Rəbbindən dilədiyin mərhəməti umaraq, onların üzünə baxmırsansa (imkanın olmadığı üçün onlara bir şey verə bilmirsənsə), onda onlara xoş söz de"** (əl-İsra, 28). Yeri gəlmişkən, qeyd edək ki, gözəl söz söyləmək adamı Cəhənnəm odundan qoruyar. Buna dair rəvayət edilmiş hədisdə Adiy ibn Hatim ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ yanında ikən iki nəfər şikayətə gəldi. Onlardan biri kasıbçılıqdan, digəri isə yol kəsən quldurlardan şikayət etdi. Peyğəmbər ﷺ *onları dinlədikdən sonra* dedi: "Yol kəsən quldurlara gəlincə, az bir zaman keçdikdən sonra karvanlar yanlarında heç bir mühafizəçi aparmadan Məkkəyə gedib-gələcəklər. Kasıbçılığa gəldikdə isə, *bilin ki,* biriniz əlindəki sədəqə ilə gəzib-dolaşıb bunu ondan qəbul edəcək bir adam tapa bilməyəcəyi vaxt gəlməyincə Qiyamət qopmayacaq. Sonra siz Allahın hüzurunda duracaqsınız və sızinlə Onun arasında heç bir pərdə olmayacaq. *Dediklərinizi* tərcümə edəcək bir tərcüməçiniz də olmayacaq. Sonra Allah Öz qulundan soruşacaq: "Mən sənə mal-dövlət verməmişdimmi?" O: "Vermişdin"– deyəcək. Allah yenə soruşacaq: "Mən sənə peyğəmbər göndərməmişdimmi?" O: "Göndərmişdin"– deyəcək. Bundan sonra, o, əvvəlcə sağına, sonra da soluna baxacaq, lakin oddan başqa bir şey görməyəcək. Elə isə, heç olmasa, yarım xurma *sədəqə* ilə özünüzü Oddan qoruyun. Bunu tapmasanız, heç olmasa gözəl söz danışmaqla *özünüzü Oddan qoruyun*" (Səhih əl-Buxari, 1413).

[2] Burada "ata" deyildikdə, Peyğəmbərin ﷺ səhabələrinə şəfqətli və rəhmli olması nəzərdə tutulur. Yoxsa ki, həqiqi mənada Peyğəmbər ﷺ səhabələrindən heç birinin atası olmamışdır. Bu xüsusda Quranda belə buyurulur: **"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur"** (əl-Əhzab, 40). Rəvayət edilir ki, Ubey ibn Kəb ﷺ və İbn Abbas رضي الله عنهما "əl-Əhzab" surəsinin 6-cı ayəsini başqa qiraətlə belə oxumuşlar: **"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Zövcələri də möminlərin analarıdır. Özü isə möminlərin atasıdır."** Burada "ata" deyildikdə, dinə aid edilən atalıq qəsd edilir. Belə ki, Peyğəmbər ﷺ öz ümmətinə, atanın öz övladına olan şəfqətindən daha

hamısı onun yanında eyni hüquqa malik idilər. Onun məclisi – həlimlik, həya, düzgünlük və səbir məclisi olardı.[1] (Səhabələr) onun yanında səslərini qaldırmaz,[2] onun məclisində (kimsə kimsəyə) tənə vurmaz və (kimsə kimsənin) eyibini açıb-ağartmazdı.[3] (Peyğəmbər ﷺ onların) hamısıyla eyni tərzdə rəftar edərdi. Məclisdə onlar bir-birilərindən ancaq təqva ilə üstün sayılardılar. Onların hamısı təvazökar insanlar idi. Onlar məclisdə

çox şəfqət bəsləyərdi. Uca Allah onun ümmətinə olan şəfqəti barədə "ət-Tovbə" surəsinin 128-ci ayəsində belə buyurur: **"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir"** (Ədvaul-Bəyan, 6/232).

[1] Bu, Peyğəmbərin ﷺ yanına gələn səhəbələri ilə olan davranışıdır, yəni, o, səhabələri ilə mülayim rəftar edər, özünü həyalı aparar, heç vaxt yalan danışmaz və onların dərdini səbirlə dinləyərdi. Bütün bu xüsusiyyətlər səhih hədislərdə öz əksini tapmışdır. Elə bu kitabın əvvəlində 8-ci hədisi – həmin bu hədisin əvvəlini izah edərkən – Peyğəmbərin ﷺ ən düzdanışan və ən mülayim insan olduğunu, bir qədər əvvəl də onun nə dərəcədə səbirli olduğunu izah etmişik. O ki qaldı Peyğəmbərin ﷺ həyalı olmasına, rəvayət edilir ki, Əbu Səid əl-Xudri ؓ demişdir: "Peyğəmbər ﷺ hücrəsinə çəkilmiş bakirə qızdan daha həyalı idi" (Səhih əl-Buxari, 3562).

[2] Bu xüsusda Uca Allah buyurur: **"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər"** (əl-Hucurat, 2).

[3] Uca Allah Qurani Kərimdə bu qəbih sifəti qadağan edib buyurur: "**Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları *lağa qoymasınlar*. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir!**" (əl-Hucurat, 11).

böyüyə hörmət göstərər, kiçiyə rəhm edər,[1] ehtiyacı olan kimsəni (özlərindən) üstün tutar[2] və qərib adamın qeydinə qalardılar.[3]"[4]

---

[1] Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "Kiçiyimizə rəhm etməyən, böyüyümüzün hörmətini saxlamayan bizdən deyildir" (Ədəbul-Mufrəd, 358).

[2] Yəni, ona hamıdan əvvəl öz dərdini Peyğəmbərə ﷺ ərz etməyə imkan verərdilər.

[3] Rəvayət edilir ki, Əbu Hureyrə ؓ demişdir: "*Bir dəfə* Peyğəmbərin ﷺ yanına qonağı gəldi və o, *səhabələrdən* birini *yemək-içmək gətirmək üçün* zövcələrinin yanına göndərdi. Peyğəmbərin ﷺ zövcələri evdə sudan başqa heç nə olmadığını ona xəbər verdilər. Onda o, *səhabələrinə müraciət edib* dedi: "Kim *mənim qonağıma* qayğı göstərər və ya onu evində qonaq saxlayar?" Ənsardan olan bir nəfər: "Mən!"– deyib onu evinə apardı və zövcəsinə: "Rəsulullahın qonağına layiqincə hörmət et!"– deyə buyurdu. *Zövcəsi ona*: "*Evdə* uşaqlarımın yeməyindən başqa bir yemək yoxdur!"– deyə cavab verdi. *Səhabə* dedi: "Yeməyi hazırla, çırağı yandır, uşaqlar yemək istəsələr, onları yatızdır!" Zövcəsi yeməyi hazırladı, çırağı yandırdı və uşaqlarını yatızdırdı. Sonra ayağa qalxıb özünü guya çırağı düzəldirmiş kimi göstərdi və bilərəkdən onu söndürdü. Sonra hər ikisi *əllərini qaba uzadaraq* özlərini guya yemək yeyirlərmiş kimi *qonağa* göstərdilər və o gecə onlar ac yatdılar. Səhər açıldıqda hər iki səhabə Peyğəmbərin ﷺ yanına getdi. Peyğəmbər ﷺ *onlara*: "Allah sizin dünənki əməlinizə güldü və ya ona təəccübləndi!"– dedi və bu ayə (əl-Həşr, 9) nazil oldu: **"Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır"** (Səhih əl-Buxari, 3898).

[4] Bu, uzun hədisin bir qismidir. Hədisin mətninin əvvəli 8-ci və 225-ci hədislərdə zikr edilmişdir. Həmin hədisləri izah edərkən demişdik ki, hədis alimləri bu hədisin isnadının "olduqca zəif" olduğunu söyləmişlər. Lakin yenə qeyd edək ki, hədisin isnadı "zəif" olsa da, hədisdəki bir çox vəsflər digər "səhih" hədislərdə öz təsdiqini tapmışdır.

٣٣٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَبْدِ اللهِ بْنِ بَزِيعٍ، قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ الْمُفَضَّلِ، قَالَ: حَدَّثَنَا سَعِيدٌ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((لَوْ أُهْدِيَ إِلَيَّ كُرَاعٌ لَقَبِلتُ، وَلَوْ دُعِيتُ عَلَيْهِ لأَجَبْتُ)).

(337) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Mənə qoyun ayağı hədiyyə etsələr, (onu) götürərəm və məni qoyun ayağı yeməyə dəvət etsələr, dəvəti qəbul edərəm."[1]

٣٣٨- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مُحَمَّدِ بْنِ الْمُنْكَدِرِ، عَنْ جَابِرٍ، قَالَ: ((جَاءَنِي رَسُولُ اللهِ ﷺ لَيْسَ بِرَاكِبٍ بَغْلٍ وَلا بِرْذَوْنٍ)).

(338) ..... Cabir ﷺ demişdir: "(Mən xəstə ikən) Peyğəmbər mənə baş çəkməyə gəldi. Həmin vaxt o nə qatıra, nə də, ata minmişdi.[2]"[3]

---

[1] Bu hədisi Buxari (2429), Tirmizi (1338) və Əhməd (2/424) rəvayət etmişdir. Bu hədis Peyğəmbərin ﷺ təvazökar olduğunu bir daha sübuta yetirir.

[2] Cabir ﷺ demək istəyir ki, Peyğəmbər ﷺ onun yanına piyada gəlmişdir. Bu da, Buxarinin rəvayət etdiyi hədisdə öz təsdiqini tapmışdır. Həmin hədisdə Cabir ibn Abdullah ﷺ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ və Əbu Bəkr mənə baş çəkmək üçün piyada Bəni-Sələmə qəbiləsinə gəldilər. Peyğəmbər ﷺ məni *halsız və* heç nəyi dərk etmədiyim bir halda görüb *ev əhlindən* su gətirməyi tələb etdi. O, dəstəmaz aldıqdan və o sudan mənin üzümə səpdikdən sonra mən ayıldım..." (Səhih əl-Buxari, 4577)

[3] Bu hədisi Buxari (5340), Əbu Davud (3096), Tirmizi (3850), Nəsai (7501) və Əhməd (3/373) rəvayət etmişdir.

٣٣٩- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا أَبُو نُعَيْمٍ، قَالَ: أَنْبَأَنَا يَحْيَى بْنُ أَبِي الْهَيْثَمِ الْعَطَّارُ، قَالَ: سَمِعْتُ يُوسُفَ بْنَ عَبْدِ اللهِ بْنِ سَلامٍ، قَالَ: ((سَمَّانِي رَسُولُ اللهِ ﷺ يُوسُفَ، وَأَقْعَدَنِي فِي حِجْرِهِ، وَمَسَحَ عَلَى رَأْسِي)).

(339) ..... Yusuf ibn Abdullah ibn Səlam رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ mənə Yusuf adını verdi, məni dizinin üstünə oturtdu və mənim başımı sığalladı.[1]"[2]

٣٤٠- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ الطَّيَالِسِيُّ، قَالَ: حَدَّثَنَا الرَّبِيعُ وَهُوَ ابْنُ صَبِيحٍ، قَالَ: حَدَّثَنَا يَزِيدُ الرَّقَاشِيُّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ رَسُولَ اللهِ ﷺ، حَجَّ عَلَى رَحْلٍ رَثٍّ وَقَطِيفَةٍ، كُنَّا نَرَى ثَمَنَهَا أَرْبَعَةَ دَرَاهِمَ، فَلَمَّا اسْتَوَتْ بِهِ رَاحِلَتُهُ، قَالَ: ((لَبَّيْكَ بِحَجَّةٍ لا سُمْعَةَ فِيهَا وَلا رِيَاءَ)).

(340) ..... Ənəs ibn Malik رضي الله عنه demişdir: "Rəsullullah ﷺ, belinə köhnə yəhər qoyulmuş dəvənin üstündə, əynində də bürüncək olduğu halda həcc ziyarətini yerinə yetirdi. Biz o bürüncəyin dörd dirhəm dəyərində olduğunu güman edirdik. O, (dəvəsinə mindikdən və) dəvə ayağa

---

[1] Peyğəmbərin ﷺ uşaqla bu tərzdə rəftar etməsi, onun təvazökar insan olduğunu bir daha sübuta yetirir.

[2] Bu hədisi Əhməd (4/35) rəvayət etmiş və Muhəmməd Nasiruddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

qalxdıqdan sonra dedi: “Ləbbeykə bihəccətin lə sum'ətə fihə vələ riyaə.[1]”[2]

٣٤١- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، قَالَ: حَدَّثَنَا مَعْمَرٌ، عَنْ ثَابِتٍ الْبُنَانِيِّ، وَعَاصِمٍ الأَحْوَلِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ رَجُلا خَيَّاطًا دَعَا رَسُولَ اللهِ ﷺ، فَقَرَّبَ مِنْهُ ثَرِيدًا عَلَيْهِ دُبَّاءُ، قَالَ: ((فَكَانَ رَسُولُ اللهِ ﷺ، يَأْخُذُ الدُّبَّاءَ، وَكَانَ يُحِبُّ الدُّبَّاءَ))، قَالَ ثَابِتٌ: فَسَمِعْتُ أَنَسًا، يَقُولُ: ((فَمَا صُنِعَ لِي طَعَامٌ، أَقْدَرُ عَلَى أَنْ يُصْنَعَ فِيهِ دُبَّاءُ، إِلا صُنِعَ)).

(341) ..... Ənəs ibn Malik ﷺ demişdir: “Bir dərzi Rəsulullahı ﷺ qonaq çağırdı və onun qabağına içində balqabaq tikələri olan şorba qoydu.[3] Rəsulullah ﷺ qabdakı balqabaq tikələrini seçib yeyirdi. Rəsulullah ﷺ balqabağı xoşlayırdı.”

(Hədisin ravisi) Sabit dedi: “Mən Ənəsin belə dediyini eşitdim: “Bundan sonra mənim üçün nə vaxt yemək hazırlanardısa, içinə balqabaq qatmaq imkanı olduğu təqdirdə, ona balqabaq qatılardı.”[4]

---

[1] Tərcüməsi: “İçində riyakarlıq və şan-şöhrət olmayan bir həcc ziyarətini yerinə yetirmək üçün hüzurundayam!”

[2] 334-cü hədisin qeydlərinə bax.

[3] Buxarinin “Səhih”indəki hədisdə (2092) Ənəs ﷺ: “O, Peyğəmbərin ﷺ qabağına çörək və içində balqabaq və qurudulmuş ət tikələri olan şorba qoydu”– demişdir.

[4] Bu hədisi Muslim (2041) rəvayət etmişdir.

٣٤٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْمَاعِيلَ قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ صَالِحٍ، قَالَ: حَدَّثَنَا مُعَاوِيَةُ بْنُ صَالِحٍ، عَنْ يَحْيَى بْنِ سَعِيدٍ، عَنْ عَمْرَةَ، قَالَتْ: قِيلَ لِعَائِشَةَ: ((مَاذَا كَانَ يَعْمَلُ رَسُولُ اللهِ ﷺ فِي بَيْتِهِ؟)) قَالَتْ: ((كَانَ بَشَرًا مِنَ الْبَشَرِ، يَفْلِي ثَوْبَهُ، وَيَحْلُبُ شَاتَهُ، وَيَخْدُمُ نَفْسَهُ)).

(342) ..... Rəvayət edilir ki, Aişədən رضي الله عنها: "Rəsulullah ﷺ evində nə işlə məşğul olardı?"– deyə soruşdular. Aişə dedi: "O, hamı kimi bir insan idi.[1] Paltarını özü təmizləyər, qoyununu özü sağar və özü-özünə xidmət edərdi."[2]

---

[1] Quranda Uca Allah Öz peyğəmbərinə ﷺ belə buyurur: **"De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır. Ona tərəf doğru yol tutun və Ondan bağışlanmağınızı diləyin"** (Fussilət, 6).

[2] Bu hədisin isnadında keçən Abdullah ibn Saleh ibn Muhəmməd əl-Cuhəni "çoxlu xətalara yol vermiş səduq" ravidir (ət-Təqrib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Digər hədisdə rəvayət edilir ki, Aişədən رضي الله عنها: "Peyğəmbər ﷺ evdə nə işlə məşğul olurdu?"– deyə soruşdular. Aişə dedi: "O, ev işlərində əhli-əyalına köməklik edər, namaz vaxtı yetişdikdə isə namaza gedərdi" (Səhih əl-Buxari, 676).

٤٨ – بَاب خُلُق رسول الله ﷺ

48-ci fəsil. Rəsulullahın ﷺ əxlaqı[1]

[1] Müəllif bu fəsildə Peyğəmbərin ﷺ əxlaqından danışan hədisləri varid etmişdir. Ümumiyyətlə, əxlaq deyildikdə, insanın mənəvi keyfiyyətini müəyyən edən, yaşadığı cəmiyyət və onu təşkil edən üzvləri ilə rəftarı və özünü aparma qaydası nəzərdə tutulur. Bu da, özü-özlüyündə iki qismə bölünür: Gözəl əxlaq və pis əxlaq. Bu möhtəşəm kitabın bu fəslində təbii ki, söhbət gözəl əxlaqdan – Peyğəmbərin ﷺ kamil əxlaqından gedir. Odur ki, Aişədən رضي الله عنها Rəsulullahın ﷺ əxlaqı barədə soruşduqda, o demişdir: "Onun əxlaqı Quran idi" (Musnəd İmam Əhməd, 6/163; Səhih əl-Cami, 4811). Necə ki, Quranda pis əxlaq, naqis bir cəhət tapmaq mümkün deyil, eləcə də, Peyğəmbərin ﷺ əxlaqında naqislik görmək mümkün deyil. Peyğəmbər ﷺ gözəl əxlaqın məziyyəti barədə belə buyurmuşdur: "Mömin adam öz gözəl əxlaqı ilə (gündüzləri) oruc tutub, (gecələri) namaz qılan kimsənin dərəcəsinə yüksəlir" (Səhih ət-Tərğib vət-Tərhib, 2643); başqa bir hədisdə də belə buyurmuşdur: "Qiyamət günü sizin mənə ən sevimli və məclisinə görə ən yaxın olanınız, əxlaqı ən gözəl olanlarınızdır" (Sunən ət-Tirmizi, 1/363; Silsilətul-Əhadisis-Səhihə, 791). Hərçənd, əxlaq barədə bir çox hədislər varid olmuşdur, lakin bunların ən əsası dördüdür. Maliki məzhəbindən olmuş və "balaca Malik" kimi tanınmış imam İbn Əbu Zeyd əl-Qeyrəvani demişdir: "Əxlaq ədəbləri və onun tutqacları dörd hədisə söykənir: *birinci,* Peyğəmbərin ﷺ: "Kim Allaha və Axirət gününə inanırsa, ya xeyir danışsın, ya da sussun" hədisi, *ikincisi,* onun: "Müsəlmanın İslamının gözəlliyindəndir ki, özünə aid olmayan işləri tərk etsin" hədisi, *üçüncüsü,* ondan nəsihət istəyən kimsəyə: "Qəzəblənmə"– deyə nəsihət etməsi və *dördüncüsü,* onun: "Biriniz özü üçün istədiyini *müsəlman* qardaşı üçün istəmədikcə, *tam şəkildə* iman etmiş olmaz" hədisidir (Şərhun-Nəvəvi, 67-ci hədisin şərhi; Camiul-Ulum vəl-Hikəm, 12-ci hədisin şərhi). Xətib əl-Bağdadi Peyğəmbərin ﷺ yolunu gedən möminlərin əxlaqı barədə danışarkən demişdir: "Peyğəmbərin ﷺ hədislərini öyrənən kimsələrə vacibdir ki, insanların ən ədəblisi, ən

٣٤٣- حَدَّثَنَا عَبَّاسُ بْنُ مُحَمَّدٍ الدُّورِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ يَزِيدَ الْمُقْرِئُ، قَالَ: حَدَّثَنَا لَيْثُ بْنُ سَعْدٍ، قَالَ: حَدَّثَنِي أَبُو عُثْمَانَ الْوَلِيدُ بْنُ أَبِي الْوَلِيدِ، عَنْ سُلَيْمَانَ بْنِ خَارِجَةَ، عَنْ خَارِجَةَ بْنِ زَيْدِ بْنِ ثَابِتٍ، قَالَ: دَخَلَ نَفَرٌ عَلَى زَيْدِ بْنِ ثَابِتٍ، فَقَالُوا لَهُ: حَدِّثْنَا أَحَادِيثَ رَسُولِ اللهِ ﷺ، قَالَ: مَاذَا أُحَدِّثُكُمْ؟ كُنْتُ جَارَهُ فَكَانَ إِذَا نَزَلَ عَلَيْهِ الْوَحْيُ بَعَثَ إِلَيَّ فَكَتَبْتُهُ لَهُ، فَكُنَّا إِذَا ذَكَرْنَا الدُّنْيَا ذَكَرَهَا مَعَنَا، وَإِذَا ذَكَرْنَا الآخِرَةَ ذَكَرَهَا مَعَنَا، وَإِذَا ذَكَرْنَا الطَّعَامَ ذَكَرَهُ مَعَنَا، فَكُلُّ هَذَا أُحَدِّثُكُمْ عَنِ رَسُولِ اللهِ ﷺ.

(343) ..... Xaricə ibn Zeyd rəvayət edir ki, (bir dəfə) dir dəstə adam Zeyd ibn Sabitin yanına gəlib ona: "Bizə Rəsulullahın ﷺ hədislərindən danış"– deyə xahiş etdi. O dedi: "Nə danışım sizə. Mən onun qonşusu olmuşam. Ona vəhy [1] nazil olduqda, mənə xəbər göndərər, (mən də

---

təvazökarı, ən düzdanışanı və ən dindarı olsunlar, habelə, yüngüllük etməsinlər və (hər şeyə görə) qəzəblənməsinlər. Həmçinin, onlar Rəsulullahın ﷺ gözəl əxlaqını və ədəbini özündə cəm edən rəvayətləri, onun əhli-beytindən və səhabələrindən olmuş əməlisaleh sələflərin həyat yolunu özündə əks etdirən, habelə, mühəddislərin həyat tərzindən danışan xəbərləri, üstəlik, keçmiş nəslin əvəzsiz xidmətlərini davamlı araşdırıb öyrənməlidlər ki, ən gözəl və ən yaxşı əxlaqa əməl etsinlər, ən rəzil və ən pis əxlaqdan uzaq olsunlar" (əl-Cami li Əxlaqir-Ravi və Ədabis-Sami, 1/6).

[1] Gizli danışıq, işarə etmə, əmr etmə, ilham vermə, pıçıldama, məktub yazma, elçi göndərmə, tələsdirmə, səs çıxarma. Uca Allahın bilavasitə və ya başqa Özünəməxsus üsullarla Öz əmrlərini peyğəmbərlərinə bildirməsi mənasında işlədilən bir Quran istilahıdır.

gedib) onun üçün həmin vəhyi yazardım.[1] Biz dünyəvi işlərdən danışardıqsa, o da, bizimlə birgə dünyəvi işlərdən danışar, habelə, Axirətdən danışdığımız zaman bizimlə birgə Axirətdən danışar, eləcə də, yeməkdən söhbət açdığımız zaman bizə qoşulardı. Sizə danışdıqlarımın hamısı Rəsulullahdan ﷺ (gördüklərimdir).”[2]

٣٤٤– حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى، حَدَّثَنَا يُونُسُ بْنُ بُكَيْرٍ، عَنْ مُحَمَّدِ بْنِ إِسْحَاقَ، عَنْ زِيَادِ بْنِ أَبِي زِيَادٍ، عَنْ مُحَمَّدِ بْنِ كَعْبٍ الْقُرَظِيِّ، عَنْ عَمْرِو بْنِ الْعَاصِ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ، يُقْبِلُ بِوَجْهِهِ وَحَدِيثِهِ عَلَى أَشَرِّ الْقَوْمِ، يَتَأَلَّفُهُمْ بِذَلِكَ فَكَانَ يُقْبِلُ بِوَجْهِهِ وَحَدِيثِهِ عَلَيَّ، حَتَّى ظَنَنْتُ أَنِّي خَيْرُ الْقَوْمِ، فَقُلْتُ: يَا رَسُولَ اللهِ، أَنَا خَيْرٌ أَوْ أَبُو بَكْرٍ؟ فَقَالَ: ((أَبُو بَكْرٍ))، فَقُلْتُ: يَا

---

[1] Bundan aydın olur ki, Zeyd ibn Sabit, Peyğəmbərin ﷺ vəhy katiblərindən olmuşdur. Bu hədisin isnadı “zəif” olsa da, digər “səhih” rəvayətlərdə Zeyd ibn Sabitin ﷺ vəhy katiblərindən olduğu öz təsdiqini tapmışdır. Rəvayət edilir ki, Ənəs ibn Malik ﷺ demişdir: “Peyğəmbər ﷺ zamanında ənsardan olan dörd nəfər Quranı cəm etməklə məşğul idi: Ubey *ibn Kəb*, Muaz ibn Cəbəl, Əbu Zeyd və Zeyd ibn Sabit” (Səhih əl-Buxari, 3810); digər hədisdə rəvayət edilir ki, Zeyd ibn Sabit ﷺ demişdir: “Peyğəmbər ﷺ bu ayəni mənə yazdırmışdı: “Möminlərdən *evdə* oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar...” (Səhih əl-Buxari, 2832).

[2] Bu hədisi Təbərani “Mocəmul-Kəbir” (4882), Bəğəvi “Şərhus-Sunnə” (3679) rəvayət etmişdir. Hədisin isnadında keçən Vəlid ibn Əbu Vəlid “zəif” ravi, Suleyman ibn Xaricə də “məchul” olduğundan, Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “zəif” olduğunu demişdir.

رَسُولَ اللهِ، أَنَا خَيْرٌ أَوْ عُمَرُ؟ فَقَالَ: ((عُمَرُ))، فَقُلْتُ: يَا رَسُولَ اللهِ، أَنَا خَيْرٌ أَوْ عُثْمَانُ؟ فَقَالَ: ((عُثْمَانُ))، فَلَمَّا سَأَلْتُ رَسُولَ اللهِ ﷺ، فَصَدَقَنِي فَلَوَدِدْتُ أَنِّي لَمْ أَكُنْ سَأَلْتُهُ)).

(344) ..... Amr ibn As ﷺ demişdir: "Rəsulullah ﷺ ən pis insanlara belə diqqət yetirər, onlarla kəlmə kəsər və onlarla münasibət qurmağa çalışardı. Həmçinin, mənə diqqət yetirər və mənimlə kəlmə kəsər, hətta mən özümün camaatın ən xeyirlisi olduğumu zənn edərdim. (Bir gün) mən (ondan): "Ya Rəsulullah, mən daha fəzilətliyəm, yoxsa Əbu Bəkr?"– deyə soruşdum. O: "Əbu Bəkr"– deyə cavab verdi. Yenə soruşum: "Mən daha fəzilətliyəm, yoxsa Ömər?" O: "Ömər"– deyə cavab verdi. Yenə soruşum: "Mən daha fəzilətliyəm, yoxsa Osman?" O: "Osman"– deyə cavab verdi.[1] Mən bu sualları Rəsulullaha ﷺ verdikdə, o, həqiqəti məndən gizlətmədi. (Sonra) mən ona bu cür suallar verdiyimə çox heyifsiləndim."[2]

٣٤٥– حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا جَعْفَرُ بْنُ سُلَيْمَانَ الضُّبَعِيُّ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ، قَالَ: ((خَدَمْتُ رَسُولَ اللهِ ﷺ عَشْرَ سِنِينَ، فَمَا قَالَ لِي أُفٍّ قَطُّ، وَمَا قَالَ لِشَيْءٍ صَنَعْتُهُ، لِمَ صَنَعْتَهُ، وَلا لِشَيْءٍ تَرَكْتُهُ، لِمَ تَرَكْتَهُ؟ وَكَانَ رَسُولُ اللهِ ﷺ، مِنْ أَحْسَنِ النَّاسِ خُلُقًا، وَلا مَسَسْتُ خَزًّا وَلا حَرِيرًا، وَلا شَيْئًا

[1] Bu hədisin isnadı "zəif" olsa da, bu üç səhabənin İslam ümmətinin ən fəzilətli səhabələri olduğuna şübhə yoxdur.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

كَانَ أَلْيَنَ مِنْ كَفِّ رَسُولِ اللهِ ﷺ، وَلا شَمَمْتُ مِسْكًا قَطُّ، وَلا عِطْرًا كَانَ أَطْيَبَ مِنْ عَرَقِ النَّبِيِّ ﷺ)).

(345) ..... Ənəs ibn Malik ؓ demişdir: "Mən on il Rəsulullaha ﷺ xidmət etdim, bir dəfə də olsun mənə "Uf!" demədi, həmçinin, etdiyim bir işə: "Niyə bunu etmisən?", yaxud etmədiyim bir işə: "Niyə bunu etməmisən?" demədi.[1] Rəsulullah ﷺ əxlaq baxımından insanların ən gözəli idi. Mən Rəsulullahın ﷺ əlindən daha yumşaq nə bir zərxaraya, nə bir ipəyə, nə də başqa (zərif) bir şeyə toxunmuşam, habelə, Rəsulullahın ﷺ tərindən (gələn qoxudan) daha gözəl nə bir müşk, nə də (başqa) bir ətir iyləmişəm.[2]"[3]

٣٤٦- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، وَأَحْمَدُ بْنُ عَبْدَةَ هُوَ الضَّبِّيُّ، وَالْمَعْنَى وَاحِدٌ، قَالا: حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ، عَنْ سَلْمٍ الْعَلَوِيِّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، عَنْ رَسُولِ اللهِ ﷺ، أَنَّهُ كَانَ عِنْدَهُ رَجُلٌ بِهِ أَثَرُ صُفْرَةٍ، قَالَ: وَكَانَ رَسُولُ اللهِ ﷺ، لا يكَادُ يُواجِهُ أَحَدًا بِشَيْءٍ يَكْرَهُهُ، فَلَمَّا قَامَ، قَالَ لِلْقَوْمِ: ((لَوْ قُلْتُمْ لَهُ يَدَعُ هَذِهِ الصُّفْرَةَ)).

---

[1] Peyğəmbərin ﷺ öz xidmətçisinə heç vaxt "Uf" deməməsi, yaxud "Niyə bunu etmisən?" və ya "Niyə bunu etməmisən?" deyə ona etiraz etməməsi onun nə dərəcədə böyük əxlaq sahibi olduğunu bir daha sübuta yetirir.

[2] 33-cü fəsilin qeydlərinə bax.

[3] Bu hədisi Buxari (5691), Muslim (2330), Əbu Davud (4773), Tirmizi (2016) və Əhməd (3/101) rəvayət etmişdir.

(346) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Rəsulullahın ﷺ yanına gəlmiş adamlardan birinin üstündə sarı ləkə[1] var idi. Rəsulullah ﷺ xoşuna gəlməyən bir şeyi çox vaxt adamın üzünə deməzdi.[2] Adam durub getdikdən sonra Rəsulullah ﷺ yanındakı adamlara dedi: "Bəlkə ona deyəsiniz, bu ləkəni təmizləsin?![3]"[4]

٣٤٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي عَبْدِ اللهِ الْجَدَلِيِّ وَاسْمُهُ عَبْدُ بْنُ عَبْدٍ، عَنْ عَائِشَةَ، أَنَّهَا قَالَتْ: ((لَمْ يَكُنْ رَسُولُ اللهِ ﷺ، فَاحِشًا، وَلا مُتَفَحِّشًا وَلا صَخَّابًا فِي الأَسْوَاقِ، وَلا يَجْزِئُ بِالسَّيِّئَةِ السَّيِّئَةَ، وَلَكِنْ يَعْفُو وَيَصْفَحُ)).

---

[1] Burada "sarı ləkə" deyildikdə, zəfərandan düzəldilmiş ətirin ləkəsi nəzərdə tutulur.

[2] Rəsulullah ﷺ bir adamın yanlış söz danışdığını və ya səhv hərəkət etdiyini görəndə, çox vaxt bu eybi ümumi olaraq zikr edərdi. Məsələn, namaz əsnasında göyə baxanların əməlini pisləyib demişdir: "Namaz əsnasında göyə baxan adamlara nə olub ki, *belə edirlər*? Onlar ya buna son qoyacaqlar, ya da ki gözləri kor olacaq" (Səhih əl-Buxari, 750). Lakin qeyd edək ki, Rəsulullah ﷺ bəzən məsləhət bildikdə, adamın səhvini üzünə deyərdi. Məsələn, Peyğəmbər ﷺ bir qövmün arasında, zəfərandan düzəldilmiş ətirlə ətirlənmiş bir kişini görüb əvvəlcə ona salam verməmiş, sonra da ona: "Sənin gözlərinin arasında köz vardır" demişdir (Ədəbul-Mufrəd, 1020).

[3] 219-cu hədisin qeydlərinə bax.

[4] Bu hədisin isnadında keçən Səlm ibn Qeys əl-Ələvi "zəif" ravidir (ət-Təqrib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

(347) ..... Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ nə söyüşcül, nə kobud, nə də bazarda qışqır-bağır[1] salan bir adam deyildi, həm də pisliyi pisliklə dəf etməz,[2] əksinə, əfv edər və bağışlayardı."[3]

---

[1] Ümumiyyətlə, müsəlmana səsini kobud şəkildə qaldırmaq yaraşmaz. Bu xüsusda Qurani Kərimdə belə buyurulur: **"*Loğman dedi:* "Oğlum! *Gördüyün iş* bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, Xəbərdardır. Oğlum! Namaz qıl, yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə. Başına gələn çətinliklərə səbir et. Həqiqətən, bu, əzm *tələb edən* əməllərdəndir. İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü dartadarta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir. Yerişində həddi gözlə, *danışanda* səsini alçalt. Çünki ən çirkin səs uzunqulaq səsidir"** (Loğman, 16-19).

[2] Hərçənd, pisliyi pisliklə dəf etmək caizdir, şəriət buna icazə verir: **"Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və barışsa, onun mükafatı Allaha aid olar. Həqiqətən, O, zalımları sevmir. Haqsızlığa uğradıqdan sonra qisas alanlara heç bir məzəmmət olunmaz"** (əş-Şura, 40-41). Lakin əlbəttə ki, əfv etmək və təqsirindən keçmək daha yaxşıdır. Uca Allah Quranda Öz peyğəmbərinə ﷺ belə buyurur: **"Yaxşılıqla pislik eyni ola bilməz. Sən *pisliyi* yaxşılıqla dəf et! O zaman sənինlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. Bu isə ancaq səbir edənlərə verilir və ancaq böyük qismət sahiblərinə nəsib olur"** (Fussiliət, 34-35); digər bir ayədə isə O, möminləri vəsf edib deyir: **"O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün Axirət yurdu – əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn bağları – hazırlanmışdır. Mələklər bütün qapılardan onların yanına daxil olub *deyəcəklər*: "Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!"** (ər-Rəd, 22-24).

[3] Bu hədisi Tirmizi (2017) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

٣٤٨- حَدَّثَنَا هَارُونُ بْنُ إِسْحَاقَ الْهَمْدَانِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدَةُ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((مَا ضَرَبَ رَسُولُ اللهِ ﷺ، بِيَدِهِ شَيْئًا قَطُّ، إِلا أَنْ يُجَاهِدَ فِي سَبِيلِ اللهِ، وَلا ضَرَبَ خَادِمًا وَلا امْرَأَةً)).

(348) ..... Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ heç vaxt, heç kəsi əli ilə vurmayıb. Yalnız Allah yolunda cihadda vurduqları istisnadır. O, nə xidmətçini, nə də qadını vurardı.[1]"[2]

٣٤٩- حَدَّثَنَا أَحْمَدُ بْنُ عَبْدَةَ الضَّبِّيُّ، قَالَ: حَدَّثَنَا فُضَيْلُ بْنُ عِيَاضٍ، عَنْ مَنْصُورٍ، عَنِ الزُّهْرِيِّ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((مَا رَأَيْتُ رَسُولَ اللهِ ﷺ مُنْتَصِرًا مِنْ مَظْلَمَةٍ ظُلِمَهَا قَطُّ، مَا لَمْ يُنْتَهَكْ مِنْ مَحَارِمِ اللهِ تَعَالَى شَيْءٌ، فَإِذَا انْتُهِكَ مِنْ مَحَارِمِ اللهِ شَيْءٌ كَانَ مِنْ أَشَدِّهِمْ فِي ذَلِكَ غَضَبًا، وَمَا خُيِّرَ بَيْنَ أَمْرَيْنِ، إِلا اخْتَارَ أَيْسَرَهُمَا، مَا لَمْ يَكُنْ مَأْثَمًا)).

(349) ..... Aişə رضي الله عنها demişdir: "Rəsulullahın ﷺ məruz qaldığı zülmdən dolayı, (kimsədən öz nəfsinə görə) intiqam aldığını görməmişəm. Yalnız Uca Allahın qoyduğu qanunların pozulması istisnadır. Allahın qanunları pozulduğu təqdirdə isə Rəsulullah ﷺ buna hamıdan çox

---

[1] Hərçənd, xidmətçini, həyat yoldaşını, hətta heyvanı belə tərbiyələndirmək məqsədi ilə vurmaq mübah sayılır, lakin onları vurmamaq daha əfzəldir (Şərh ən-Nəvəvi).

[2] Bu hədisi Muslim (2328), Nəsai (9165), İbn Macə (1984) və Əhməd (6/31-32) rəvayət etmişdir.

qəzəblənərdi.[1] Habelə, iki şeydən birini seçmək təklif edildikdə, – günah işlər istisna olmaqla, – həmişə daha asan olanını seçərdi.[2]"[3]

٣٥٠- حَدَّثَنَا ابْنُ أَبِي عُمَرَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مُحَمَّدِ بْنِ الْمُنْكَدِرِ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ، قَالَتِ: ((اسْتَأْذَنَ رَجُلٌ عَلَى رَسُولِ اللهِ ﷺ، وَأَنَا عِنْدَهُ، فَقَالَ: ((بِئْسَ ابْنُ الْعَشِيرَةِ أَوْ أَخُو الْعَشِيرَةِ))، ثُمَّ أَذِنَ لَهُ، فَأَلَانَ لَهُ الْقَوْلَ، فَلَمَّا خَرَجَ، قُلْتُ: يَا رَسُولَ اللهِ، قُلْتَ مَا قُلْتَ ثُمَّ أَلَنْتَ لَهُ الْقَوْلَ؟ فَقَالَ: ((يَا عَائِشَةُ، إِنَّ مِنْ شَرِّ النَّاسِ مَنْ تَرَكَهُ النَّاسُ أَوْ وَدَعَهُ النَّاسُ اتِّقَاءَ فُحْشِهِ)).

(350) ..... Aişə رضي الله عنها demişdir: "Mən Rəsulullahın ﷺ yanında ikən bir kişi[4] onun yanına daxil olmaq üçün izin istədi. Rəsulullah ﷺ (onun haqqında): "Əşirətin[5] oğlu və

---

[1] Buxarinin "Səhih"indəki (3560) hədisdə isə: "Allahın qoyduğu qanunlar pozulduğu zaman Allaha görə intiqam alardı"– deyilir.

[2] Buxarinin "Səhih"indəki rəvayətdə (3560) hədisin tamamında deyilir: "Günah iş görmək təklif olunduqda isə o, bundan hamıdan çox çəkinərdi"

[3] Bu hədisi Buxari (3367), Muslim (2327), Əbu Davud (4785), Nəsai (9163) və Əhməd (2/902) rəvayət etmişdir.

[4] Bəzi şərhçilər bu kişinin Uyeynə ibn Hisn əl-Fəzari, bəziləri də onun Məxrəmə ibn Nofəl olduğunu demişlər (Camul-Vəsail; Tohfətul-Əhvəzi).

[5] Əşirət: bir əsildən törəyib birlikdə yaşayan və köçəri (bədəvi) həyat sürən ailələr toplusudur. Buna qəbilə, oymaq da deyilir. Burada Rəsulullah ﷺ "filan qəbilədən olan filankəs nə pis adamdır"– deməklə, onun yaramaz adam olduğunu bildirmək istəmişdir ki, bu adamı tanımayanlar onu tanısınlar. (Tohfətul-Əhvəzi).

ya əşirətin qardaşı necə də pis adamdır!”– dedi, sonra da onun içəri girməsinə izin verdi və (o, içəri daxil olduqda) onunla nəzakətlə danışdı.[1] O, çıxıb getdikdən sonra mən dedim: “Ya Rəsulullah, sən (əvvəlcə) belə dedin, sonra da onunla nəzakətlə danışdın?!” Rəsulullah ﷺ dedi: “Ey Aişə, insanların ən pisi o kəslərdir ki, onların yaramaz əxlaqına görə insanlar onları tərk edir, (yaxud[2] onlardan qaçırlar).”[3]

٣٥١- حَدَّثَنَا سُفْيَانُ بْنُ وَكِيعٍ، قَالَ: حَدَّثَنَا جُمَيْعُ بْنُ عُمَرَ بْنِ عَبْدِ الرَّحْمَنِ الْعِجْلِيُّ، قَالَ: أَخْبَرَنِي رَجُلٌ مِنْ بَنِي تَمِيمٍ مِنْ وَلَدِ أَبِي هَالَةَ زَوْجِ خَدِيجَةَ، وَيُكْنَى أَبَا عَبْدِ اللهِ، عَنِ ابْنٍ لأَبِي هَالَةَ، عَنِ الْحَسَنِ بْنِ عَلِيٍّ، قَالَ: قَالَ الْحُسَيْنُ: سَأَلْتُ أَبِي عَنْ سِيرَةِ النَّبِيِّ ﷺ، فِي جُلَسَائِهِ، فَقَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ، دَائِمَ الْبِشْرِ، سَهْلَ الْخُلُقِ، لَيِّنَ الْجَانِبِ، لَيْسَ بِفَظٍّ وَلا غَلِيظٍ، وَلا صَخَّابٍ وَلا فَحَّاشٍ، وَلا عَيَّابٍ وَلا مُشَاحٍ، يَتَغَافَلُ عَمَّا لا يَشْتَهِي، وَلا يُؤْيِسُ مِنْهُ رَاجِيهِ وَلا يُخَيِّبُ فِيهِ، قَدْ تَرَكَ نَفْسَهُ مِنْ ثَلاثٍ: الْمِرَاءِ، وَالإِكْثَارِ، وَمَا لا يَعْنِيهِ، وَتَرَكَ النَّاسَ مِنْ ثَلاثٍ: كَانَ لا يَذُمُّ أَحَدًا، وَلا يَعِيبُهُ، وَلا يُعَيِّرُهُ، وَلا يَطْلُبُ

---

[1] Nəvəvi demişdir: “Rəsulullahın ﷺ onunla nəzakətlə danışmasının qəsdi, o kişinin qəlbini ələ almaq və özünün gözəl əxlaqını ona göstərmək idi. Bu da, fasiqin qeybətini etməyin caiz olduğuna dəlalət edir. Lakin bu qeybət açıq-aşkar günah işlər görən və ya bidət edənlərə aid edilir, yəni, onların qeybətini etmək caizdir. (Şərh ən-Nəvəvi). Bu hədis Rəsulullahın ﷺ kamil əxlaq sahibi olduğunu bir daha sübuta yetirir.

[2] Bu, hədisin ravilərindən biri – Sufyanın şəkkidir.

[3] Bu hədisi Buxari (5780), Muslim (2591), Əbu Davud (4791), Tirmizi (1997) və Əhməd (6/38) rəvayət etmişdir.

عَوْرَتَهُ، وَلا يَتَكَلَّمُ إِلا فِيمَا رَجَا ثَوَابَهُ، وَإِذَا تَكَلَّمَ أَطْرَقَ جُلَسَاؤُهُ، كَأَنَّمَا عَلَى رُؤُوسِهِمُ الطَّيْرُ، فَإِذَا سَكَتَ تَكَلَّمُوا لا يَتَنَازَعُونَ عِنْدَهُ الْحَدِيثَ، وَمَنْ تَكَلَّمَ عِنْدَهُ أَنْصَتُوا لَهُ حَتَّى يَفْرُغَ، حَدِيثُهُمْ عِنْدَهُ حَدِيثُ أَوَّلِهِمْ، يَضْحَكُ مِمَّا يَضْحَكُونَ مِنْهُ، وَيَتَعَجَّبُ مِمَّا يَتَعَجَّبُونَ مِنْهُ، وَيَصْبِرُ لِلْغَرِيبِ عَلَى الْجَفْوَةِ فِي مَنْطِقِهِ وَمَسْأَلَتِهِ، حَتَّى إِنْ كَانَ أَصْحَابُهُ لَيَسْتَجْلِبُونَهُ، وَيَقُولُ: ((إِذَا رَأَيْتُمْ طَالِبَ حَاجَةٍ يِطْلُبُهَا فَأَرْفِدُوهُ))، وَلا يَقْبَلُ الثَّنَاءَ إِلا مِنْ مُكَافِئٍ وَلا يَقْطَعُ عَلَى أَحَدٍ حَدِيثَهُ حَتَّى يَجُوزَ فَيَقْطَعُهُ بِنَهْيٍ أَوْ قِيَامٍ)).

(351) ..... Həsən (ibn Əli) رضي الله عنهما rəvayət edir ki, (qardaşı) Hüseyn رضي الله عنهما demişdir: "Mən atamdan Peyğəmbərin ﷺ məclisindəki səhabələri ilə olan davranışı barədə soruşdum. O dedi: "Rəsulullah ﷺ həm daim gülərüzlü, həm həlim xasiyyətli, həm də olduqca lütfkar insan idi.[1] O, nə kobud, nə daş qəlbli,[2] nə qışqır-bağır salan, nə

[1] Peyğəmbərin ﷺ gülərüzlü və həlim xasiyyətli olduğu əvvəlki fəsillərdə zikr edilmişdir. Onun lütfkar və mərhəmətli olduğuna bu iki hədisi misal göstərmək olar. Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ Həsən ibn Əlini öpərkən Əqra ibn Habis onun yanında oturmuşdu. Əqra dedi: "Mənim on övladım var, onlardan heç birini öpməmişəm." Peyğəmbər ﷺ ona baxıb dedi: "Rəhm etməyən kimsəyə rəhm edilməz" (Ədəbul-Mufrəd, 91); digər hədisdə Aişə رضي الله عنها rəvayət edir ki, bir bədəvi Peyğəmbərin ﷺ yanına gəlib (onun uşağı öpdüyünü gördü və təəccüblə) dedi: "Siz uşaqlarınızı öpürsünüz?! Biz onları öpmürük." Peyğəmbər ﷺ dedi: "Əgər Allah sənin qəlbindən mərhəmət hissini götürübsə, ona mən nə edim?!" (Ədəbul-Mufrəd, 90).

[2] Bu xüsusda Uca Allah buyurur: **"Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli**

söyüşcül,[1] nə eyib tutan,[2] nə də tamahkar[3] adam idi. Xoşuna gəlmədiyi bir şeyə (narazılığını) biruzə verməzdi. (Habelə ehtiyacı üzündən) ona müraciət edən adam naümid qalmazdı, (çünki o,) həmin adamın ümidini qırmazdı. [4] (Peyğəmbər ﷺ) üç (yaramaz xislətə) yaxın durmazdı: mübahisəyə, [5] (dünya malını) artırmağa [1] və

---

olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar" (Ali-İmran, 159).

[1] 347-ci hədisdə və onun qeydlərində Peyğəmbərin ﷺ qışqır-bağır salmayan və söyüşcül bir adam olmadığı ətraflı izah edilmişdir.

[2] Hərçənd, Peyğəmbər ﷺ gözəl şeylərə və yaxşı işlərə eyib tutmazdı, lakin o, pis əməlləri, habelə, harama əl atan kimsələri həmişə tənqid edərdi.

[3] Bu xüsusda Uca Allah buyurur: **"Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır"** (əl-Həşr, 9). Demək, nəfsinin tamahından qorunmayan kimsələr nicat tapmayacaq və Cəhənnəmə giriftar olacaqlar. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: "Sizə Cəhənnəm sakinləri barədə xəbər verimmi?!" *Bu*, hər bir daşürəkli, tamahkar və yekəxana *adamdır*" (Səhih əl-Buxari, 4918)

[4] Ondan yardım istəyən adama imkan daxilində köməklik edər, verməyə bir şey tapmadıqda isə ona xoş söz deyər və onun qəlbini qırmazdı.

[5] Burada "mübahisə" deyildikdə, ədavətə gətirib çıxaran faydasız mübahisə nəzərdə tutulur. Hədislərin birində Peyğəmbər ﷺ mübahisə etməyən kimsəni belə müjdələmişdir: "Mən, haqlı olduğu halda belə mübahisədən əl çəkən kimsənin Cənnətin güşəsində bir evi olacağına, habelə, zarafatla olsa belə yalan danışmayan kimsənin Cənnətin ortasında bir evi olacağına və bir də əxlaqı gözəl olan kimsənin Cənnətin ən yüksək təbəqəsində bir evi olacağına zəmanət verirəm" (Sunən Əbu Davud, 4800; Sunən ət-Tirmizi, 2124; Sisilətul-Əhadisis-Səhihə, 273). Lakin qeyd etmək lazımdır ki, insanları Allahın yoluna dəvət etmək məqsədilə və həddi aşmamaq şərti ilə gözəl tərzdə

özünə aid olmayan işlərə (qarışmağa). Habelə insanlara da (bu) üç şeydən uzaq olmağı tövsiyə edərdi. O, heç kəsi

---

mübahisə etmək caizdir. Bu xüsusda Uca Allah Qurani Kərimdə belə buyurur: **"*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır"** (ən-Nəhl, 125).

[1] Ümumiyyətlə, dünya malını artırmağı məşğuliyyətə çevirmək möminə yaraşan sifətlərdən deyildir. Dünya malını artırmağa aludə olan kəslərin pis aqibəti barədə Uca Allah Qurani Kərimdə belə buyurur: **"Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki, *gömülməklə* qəbirləri ziyarət etdiniz. Yox-yox! Siz *aqibətinizi* hökmən biləcəksiniz! Bir də yox! Siz *aqibətinizi* tezliklə biləcəksiniz! Xeyr! Kaş ki, yəqin biləydiniz. Siz Cəhənnəmi mütləq görəcəksiniz! Onu həqiqətən öz gözünüzlə mütləq görəcəksiniz! Sonra, o gün nemətlər barəsində hökmən sorğu-suala tutulacaqsınız"** (ət-Təkasur, 1-8); digər isə ayədə buyurur: **"Kim gəldi-gedər dünyanı istəsə, orada ona – dilədiyimiz kimsəyə istədiyimiz şeyləri dərhal verərik. Sonra isə onu qınanmış və *Allahın rəhmətindən* qovulmuş halda girəcəyi Cəhənnəmə atarıq"** (əl-İsra, 18). Peyğəmbər ﷺ isə bu xüsusda belə buyurmuşdur: "Kimin məqsədi Axirəti qazanmaq olarsa, Allah onun varını qəlbinə yerləşdirər (o, hər şeyə qane olar), onun işlərini avand edər və (qədərinə yazılmış) dünya malı ram edilmiş halda gəlib onu tapar. Kimin də məqsədi dünyanı qazanmaq olarsa, Allah onun kasıblığını gözləri arasına gətirər, işlərini dolaşığa salar və dünya malından da yalnız qədərinə yazılmış olanı əldə edər" (Sunən ət-Tirmizi, 2/76; Silsilətul-Əhadisis-Səhihə, 949; Səhih əl-Cami, 6510). Bu kitabın bəzi nüsxələrində (الإِكْثَار) "*dünya malını* artırmağa" yerinə (الإِكْبَار) "təşəxxüslənməyə" kəlməsi varid olmuşdur. Yəni, Peyğəmbər ﷺ heç vaxt məclisdə özünü dartmaz və kibirlənməzdi.

təhqir etməz, heç kəsə tənə vurmaz,[1] heç kəsi utandırmaz,[2] heç kəsin eyibini arayıb-axtarmazdı. [3] Yalnız savab qazanılması umulacaq sözləri danışardı. Danışdığı zaman yanındakılar başlarını aşağı salardılar, sanki, başlarına quş

[1] Bu iki xislət – kimsəyə tənə vurmaq və kimsəni təhqir etmək möminə yaraşan sifətlərdən deyildir. Bu xüsusda Peyğəmbər ﷺ hədisdə belə buyurmuşdur: "Mömin nə tənə vuran, nə lənət oxuyan, nə ədəbsiz, nə də təhqir edən deyil" (Ədəbul-Mufrəd, 312).

[2] Peyğəmbər ﷺ özü heç kəsi utandırmaz, habelə, səhabələrinə də kimsəni utandırmağı qadağan edər və bu pis əxlaqın möminə yaraşmadığını onlara bildirərdi. Rəvayət edilir ki, Əbu Zərr ؓ demişdir: "(Bir dəfə) mən öz köləmə: "Ey zənci oğlu!" deyib onu utandırdım. (Bunu eşidəndə,) Peyğəmbər ﷺ mənə dedi: "Ey Əbu Zərr! Sən onu anasına görə utandırdın?! Həqiqətən də, səndə cahiliyyət *əxlaqı* qalmışdır. Kölələriniz sizin qardaşlarınızdır! Allah onları sizin tabeçiliyinizə vermişdir. Kimin qardaşı öz tabeçiliyi altında olsa, yediyindən ona da yedirtsin, geyindiyindən ona da geyindirsin! Onları gücləri çatmadığı bir işlə yükləməyin. Hərgah, onları gücləri çatmadığı bir işlə yükləsəniz, onda onlara yardım edin" (Səhih əl-Buxari, 30).

[3] Pis niyyətlə kiminsə eyibini arayıb axtarmaq casusluq sayılır ki, bunu da Uca Allah bizə qadağan edir: **"Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin..."** (əl-Hucurat, 12). Həmçinin, Peyğəmbər ﷺ hədisdə belə buyurmuşdur: "Ey dili ilə iman gətirmiş, lakin qəlbinə iman daxil olmamış kimsələr, müsəlmanların qeybətini qırmayın və onların eyiblərini arayıb axtarmayın! Hər kim müsəlman qardaşının eyibini arayıb axtararsa, Allah da onun eyibini arayar. Allah da kimin eyibini arayarsa, bu eyib onun evinin içində olsa belə, onu ifşa edər" (Sunən Əbu Davud, 4882; Səhih əl-Cami, 7984).

qonmuşdur.[1] Sözünü bitirdikdə isə onlar danışmağa başlayardılar. Onlar onun hüzurunda mübahisə etməzdilər. Onun yanında danışan adam sözünü tamamlayanadək, onlar sükut içində o adamı dinləyərdilər. (Peyğəmbərin ﷺ yanında) ilk əvvəl söhbətə başlayan kimsənin söhbəti, (həmin məclisdə) onların söhbəti olardı. O, səhabələrinin güldüyünə gülümsəyər,[2] təəccüb etdiklərinə də təəccüb edərdi. O, yad adamın[3] istər danışığında, istərsə də verdiyi sualda kobudluq etməsinə səbir edərdi.[4] Onun səhabələri (yad adamın)

---

[1] Məlumdur ki, quş ancaq tərpənməyən cismlərin üzərinə qonur. Bu misalla səhabə onların nə dərəcədə dinməz və hərəkətsiz oturduqlarını bildirmək istəyir. Bu da, səhabələrin Peyğəmbərə olan hörmətinin olduqca böyük olduğunu bir daha sübuta yetirir.

[2] Yəni, Peyğəmbər ﷺ onların sevincinə şərik olardı.

[3] Burada "yad adam" deyildikdə, əsasən bədəvilər nəzərdə tutulur. Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Çöldə yaşayan adam kobud olar..." (Musnəd İmam Əhməd, 2/371, 440; Silsilətul-Əhadisis-Səhihə, 1272); digər bir hədisdə isə o, belə buyurmuşdur: "Daşürəklilik və qabalıq, kobud danışığı ilə seçilən, dəvələrinin quyruğundan yapışmış bədəvilərə aiddir" (Səhih əl-Buxari, 3302).

[4] Buna aşağıdakı hədisləri misal göstərmək olar:

Əbu Hureyrə ؓ rəvayət edir ki, *bir dəfə* bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib ondan borcunu tələb etməyə başladı və onunla kobud danışdı. Peyğəmbərin ﷺ səhabələri ona qulaqburması vermək istədikdə, Peyğəmbər ﷺ buyurdu: "Ona dəyməyin! Həqiqətən, borc yiyəsinin danışmağa haqqı var." Sonra əlavə edib dedi: "Ona dəvəsi yaşında olan bir dəvə verin!" Səhabələr dedilər: "Ya Rəsulullah, bizdə olan dəvə onun dəvəsindən yaşlıdır." Peyğəmbər ﷺ buyurdu: "*Bunu* ona verin! Həqiqətən, sizin ən xeyirliniz, *borcunu* ən gözəl şəkildə

gəlişini təmənna edərdilər.[1] O, (öz səhabələrinə) deyərdi: "Ehtiyaclı bir adam gördüyünüz zaman ona yardım edin!" Peyğəmbər ﷺ ifrata varmayan kimsənin tərifini qəbul edərdi.[2] O, heç kəsin sözünü kəsməzdi. Lakin

---

ödəyənizdir" (Səhih əl-Buxari, 2306); digər bir hədisdə rəvayət edilir ki, Ənəs ibn Malik ﷺ demişdir: "*Bir dəfə* mən Peyğəmbərlə ﷺ birlikdə yol gedirdim. Peyğəmbərin ﷺ əynində Nəcranda tikilmiş qalın haşiyəli bir bürüncək var idi. Bu vaxt bir bədəvi *arxadan gəlib* ona çatdı və onun bürüncəyindən tutub elə *bərk* dartdı ki, mən bürüncəyin Peyğəmbərin ﷺ çiyninə iz buraxdığını gördüm. Sonra bədəvi dedi: "Əmr ver, Allahın səndə olan malından mənə də versinlər." Peyğəmbər ﷺ ona tərəf çevrilib gülümsədi, sonra da *qənimətdən* ona bir şey verilməsini əmr etdi" (Səhih əl-Buxari, 3149).

[1] Yəni, gözləyərdilər ki, dini savadı olmayan bir kimsə gəlib Peyğəmbərə ﷺ sual versin və onlar da onun həmin suala verdiyi cavabdan faydalansınlar.

[2] Peyğəmbər ﷺ həddən ziyadə tərifləmək sevməz və səhabələrinə onu şişirtməyi – olduğundan daha artıq, daha mübaliğəli şəkildə təqdim etməyi, özündə olmayan vəsflərlə ona yalandan tərif deməyi qadağan edərdi. Lakin olduğu kimi tərif edildikdə, bunu qəbul edərdi. Yeri gəlmişkən, qeyd edək ki, ifrat dərəcədə tərif olunmağı sevmək Cəhənnəm əhlinin sifətlərindəndir. Bu xüsusda Uca Allah belə buyurur: **"Etdikləri əməllərdən fərəhlənən və etmədikləri işlərə görə tərif olunmağı xoşlayan kimsələrin əzabdan qurtulacaqlarını əsla güman etmə. Onlara acılı-ağrılı bir əzab hazırlanmışdır"** (Ali-İmran, 188). Bəzi şərhçilər bu hədisdəki "qəbul edərdi" sözünün Peyğəmbərin ﷺ bu hədisi ilə izah etmişlər: "Sizə yaxşılıq edən kimsəyə siz də yaxşılıq edin. Ona yaxşılıq etməyə bir şey tapmasanız, heç olmasa onun üçün dua edin ki, yaxşılığının əvəzini vermiş sayılasınız" (Sunən Əbu Davud, 1/389; Silsilətul-Əhadisis-Səhihə, 254).

danışan adam həddini aşdıqda, bunu ona qadağan etməklə və ya durub getməklə onun sözünü kəsərdi.”[1]

٣٥٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مُحَمَّدِ بْنِ الْمُنْكَدِرِ، قَالَ: سَمِعْتُ جَابِرَ بْنَ عَبْدِ اللهِ، يَقُولُ: ((مَا سُئِلَ رَسُولُ اللهِ ﷺ، شَيْئًا قَطُّ فَقَالَ: لا)).

(352) ..... Cabir ibn Abdullah رضي الله عنهما demişdir: “Rəsulullahdan ﷺ bir şey istədikdə, o, heç vaxt yox deməzdi.”[2]

٣٥٣- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عِمْرَانَ أَبُو الْقَاسِمِ الْقُرَشِيُّ الْمَكِّيُّ، قَالَ: حَدَّثَنَا إِبْرَاهِيمُ بْنُ سَعْدٍ، عَنِ ابْنِ شِهَابٍ، عَنْ عُبَيْدِ اللهِ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ، أَجْوَدَ النَّاسِ بِالْخَيْرِ، وَكَانَ أَجْوَدَ مَا يَكُونُ فِي شَهْرِ رَمَضَانَ، حَتَّى يَنْسَلِخَ، فَيَأْتِيهِ جِبْرِيلُ، فَيَعْرِضُ عَلَيْهِ الْقُرْآنَ، فَإِذَا لَقِيَهُ جِبْرِيلُ كَانَ النَّبِيُّ ﷺ، أَجْوَدَ بِالْخَيْرِ مِنَ الرِّيحِ الْمُرْسَلَةِ)).

(353) ..... İbn Abbas رضي الله عنهما demişdir: “Peyğəmbər ﷺ insanların ən səxavətlisi idi.[3] Ramazan ayında – ayın əv-

---

[1] Bu, uzun hədisin bir qismidir. Hədisin mətninin əvvəli 8-ci, 225-ci 336-cı hədislərdə zikr edilmişdir. Həmin hədisləri izah edərkən demişdik ki, hədis alimləri bu hədisin isnadının “olduqca zəif” olduğunu söyləmişlər. Lakin yenə qeyd edək ki, hədisin isnadı “zəif” olsa da, hədisdəki bir çox vəsflər digər “səhih” hədislərdə öz təsdiqini tapmışdır.

[2] Bu hədisi Buxari (5687), Muslim (2311) və Əhməd (3/307) rəvayət etmişdir.

[3] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Uca Allah Səxavətlidir və səxavətli olanı sevər” (Sunən ət-Tirmizi, 2799; Səhih əl-Cami, 1744).

vəlindən axırınadək daha səxavətli olardı. Cəbrail (Ramazan ayının hər gecəsi) Peyğəmbərin ﷺ yanına gələr və Peyğəmbər ﷺ Quranı ona oxuyardı. Cəbrail ilə görüşdüyü zaman isə Peyğəmbər ﷺ xeyirxah işlər görməkdə sərbəst əsən küləkdən daha comərd olardı.[1]"[2]

٣٥٤- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: أَخْبَرَنَا جَعْفَرُ بْنُ سُلَيْمَانَ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ، لا يَدَّخِرُ شَيْئًا لِغَدٍ)).

(354) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ sabahı üçün heç nə saxlamazdı.[3]"[4]

٣٥٥- حَدَّثَنَا هَارُونُ بْنُ مُوسَى بْنِ أَبِي عَلْقَمَةَ الْمَدِينِيُّ، قَالَ: أَخْبَرَنِي أَبِي، عَنْ هِشَامِ بْنِ سَعْدٍ، عَنْ زَيْدِ ابْنِ أَسْلَمَ، عَنْ أَبِيهِ، عَنْ عُمَرَ بْنِ الْخَطَّابِ،

---

[1] Bundan belə nəticə çıxır ki, başqa aylardan fərqli olaraq ramazan ayında Quranı daha çox oxumaq sünnədir. Hədisdən o da aydın olur ki, xeyirxah insanlarla oturub-durmaq, üstəlik Quran oxumaq adamı xeyirxah işlər görməyə təşviq edir.

[2] Bu hədisi Buxari (1803), Muslim (2308), Nəsai (2095) və Əhməd (1/230-231) rəvayət etmişdir.

[3] Yəni, özü üçün heç nə saxlamazdı. Lakin bir çox səhih hədislərdə onun öz əhli-əyalı üçün uzun müddətlik ərzaq saxladığı varid olmuşdur. Rəvayət edilir ki, Ömər ﷺ demişdir: "Allah Bəni-Nədir qəbiləsinin var-dövlətini qənimət olaraq Öz rəsuluna ﷺ verdi, müsəlmanlar bu qənimətləri əldə etmək üçün *döyüş meydanına* nə bir at, nə də bir dəvə sürdülər. Bu *qənimətlər* Allahın rəsuluna ﷺ məxsus idi. O, *bundan* öz ailəsinin birillik azuqəsini ayırdıqdan sonra, yerdə qalanını Allah yolunda *cihada* hazırlıq məqsədilə silah və at almağa xərclədi" (Səhih əl-Buxari, 2904).

[4] Bu hədisi Tirmizi (2363) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

أَنَّ رَجُلا جَاءَ إِلَى النَّبِيِّ ﷺ، فَسَأَلَهُ أَنْ يُعْطِيَهُ، فَقَالَ النَّبِيُّ ﷺ: ((مَا عِنْدِي شَيْءٌ، وَلَكِنِ ابْتَعْ عَلَيَّ، فَإِذَا جَاءَنِي شَيْءٌ قَضَيْتُهُ))، فَقَالَ عُمَرُ: يَا رَسُولَ اللهِ، قَدْ أَعْطَيْتُهُ فَمَّا كَلَّفَكَ اللَّهُ مَا لا تَقْدِرُ عَلَيْهِ، فَكَرِهَ النَّبِيُّ ﷺ قَوْلَ عُمَرَ، فَقَالَ رَجُلٌ مِنَ الأَنْصَارِ: يَا رَسُولَ اللهِ، أَنْفِقْ وَلا تَخَفْ مِنْ ذِي الْعَرْشِ إِقْلالا، فَتَبَسَّمَ رَسُولُ اللهِ ﷺ وَعُرِفَ فِي وَجْهِهِ الْبِشْرَ لِقَوْلِ الأَنْصَارِيِّ، ثُمَّ قَالَ: ((بِهَذَا أُمِرْتُ)).

(355) ..... Ömər ibn Xəttab ﷺ rəvayət edir ki, (bir dəfə) bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib ondan yardım istədi. Peyğəmbər ﷺ ona dedi: "(İndi) sənə verəcək bir şeyim yoxdur. Lakin get mənim adımdan ehtiyacın olan şeyi al.[1] Sonra mənə bir şey gətirildiyi zaman[2] mən o borcu ödəyərəm."

Ömər dedi: "Ya Rəsulullah, mən ona istədiyini vermişəm. Allah sənə gücün çatmadığı bir şeyi yükləməmişdir." Ömərin bu sözü Peyğəmbərin ﷺ acığına gəldi. Onda ənsardan olan bir nəfər dedi: "Ya Rəsulullah, (dilədiyini) ver və Ərş Sahibi yanında yoxsulluqdan qorxma." Rəsulullah ﷺ ənsardan olan bu adamın sözünə təbəssüm etdi və bu sevinc hissi onun üzündə hiss olundu. Sonra o dedi: "Mənə belə etmək əmr edildi."[3]

---

[1] Burada Peyğəmbər ﷺ həmin adama mal yiyəsinin yanına gedib, onun adından borc almağı məsləhət görür.

[2] Burada "bir şey" deyildikdə, qənimət, yaxud hədiyyə nəzərdə tutulur.

[3] Bu hədisin isnadında keçən Musa ibn Əbu Əlqəmə "məchul" ravidir (ət-Təqrib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

٣٥٦- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: أَخْبَرَنَا شَرِيكٌ، عَنْ عَبْدِ اللهِ بْنِ مُحَمَّدِ بْنِ عَقِيلٍ، عَنِ الرُّبَيِّعِ بِنْتِ مُعَوِّذِ بْنِ عَفْرَاءَ، قَالَتْ: ((أَتَيْتُ النَّبِيَّ ﷺ، بِقِنَاعٍ مِنْ رُطَبٍ وَأَجْرٍ زُغْبٍ، فَأَعْطَانِي مِلْءَ كَفِّهِ حُلِيًّا وَذَهَبًا)).

(356) ..... Rubeyyi bint Muəvviz ibn Əfra رضي الله عنها demişdir: "(Bir dəfə) mən Peyğəmbərə ﷺ bir qab tər xurma və xırda xiyar gətirdim. Onda Peyğəmbər ﷺ mənə bir ovuc zinət əşyası, (yaxud bir ovuc) qızıl verdi."[1]

٣٥٧- حَدَّثَنَا عَلِيُّ بْنُ خَشْرَمٍ، وَغَيْرُ وَاحِدٍ، قَالُو: حَدَّثَنَا عِيسَى بْنُ يُونُسَ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، أَنَّ النَّبِيَّ ﷺ، كَانَ يَقْبَلُ الْهَدِيَّةَ، وَيُثِيبُ عَلَيْهَا.

(357) ..... Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ hədiyyəni götürər[2] və (əvəzinə[3] onu verən adama) bir şey hədiyyə edərdi.[4]

---

[1] 203-cü hədisə bax.

[2] Bu hədis hədiyyəni götürməyin caiz olmasına dəlalət edir. Lakin qeyd etmək lazımdır ki, bu, vəzifə sahiblərinə aid edilmir. Belə ki, vəzifə başında olan adamlara hədiyyə götürmək caiz deyildir. Bu xüsusda varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "Vəzifə başında olan kimsələrə hədiyyə götürmək xəyanətdir" (Musnəd imam Əhməd, 5/424; Səhih əl-Cami, 7021).

[3] 239-cu hədisə bax.

[4] Bu hədisi Buxari (2445), Əbu Davud (3536), Tirmizi (1954) və Əhməd (6/90) rəvayət etmişdir.

٤٩- بَاب حَياء رسول الله ﷺ

49-cu fəsil. Rəsulullahın ﷺ həyası[1]

٣٥٨- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ قَتَادَةَ، قَالَ: سَمِعْتُ عَبْدَ اللهِ بْنَ أَبِي عُتْبَةَ، يُحَدِّثُ عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ، قَالَ: ((كَانَ النَّبِيُّ ﷺ أَشَدَّ حَيَاءً مِنَ الْعَذرَاءِ فِي خِدْرِهَا، وَكَانَ إِذَا كَرِهَ شَيْئًا عَرَفْنَاهُ فِي وَجْهِهِ)).

(358) ..... Əbu Səid əl-Xudri ﷺ demişdir: "Peyğəmbər ﷺ hücrəsinə çəkilmiş bakirə qızdan[2] daha həyalı idi. Onun

---

[1] Həya: abır, ar, ismət, namus, utanma hissidir. Həya insanı yaxşı işlər görməyə təşviq edən və pis əməllərdən çəkindirən əxlaqdır. Həyanın yeri qəlbdir və o, imandandır. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: "İman altmış və bir neçə şöbədən ibarətdir. Həya da imanın şöbələrindəndir" (Səhih əl-Buxari, 9); başqa bir rəvayətdə Peyğəmbər ﷺ demişdir: "Həyanın hamısı xeyirdir" (Səhih Muslim, 157). Yəni, "Həya insana ancaq xeyir gətirər" (Səhih Muslim, 156). Həya insana xeyir gətirirsə, demək, həyasızlıq insanı günah işlər görməyə təşviq edir. Bu mənada varid olmuş hədisdə Peyğəmbər ﷺ demişdir: "İlk peyğəmbərlik kəlamından *insanların yaddaşında qalan və* zamanımıza qədər gəlib çatan söz *belədir*: "Utanmırsansa, istədiyini et!" (Səhih əl-Buxari, 6120).

[2] Burada "hücrəsinə çəkilmiş bakirə qız" deyildikdə, həddi-büluğa çatmış, hələ ərə getməmiş, nadir hallar istisna olmaqla, heç vaxt hücrəsindən bayıra çıxmayan, nəinki kişilərdən, hətta qadınlardan belə həya edən ismətli qız nəzərdə tutulur. Səhabə bu məsəli çəkməklə Peyğəmbərin ﷺ nə dərəcədə həyalı olduğunu bildirmək istəyir. Peyğəmbərə ﷺ oxşamaq istəyən mömin də həmçinin, bu əxlaqa yiyələnməli, hər bir işdə həyalı olmalıdır. Yeganə hal dini öyrənməkdir ki, bu halda utanmaq olmaz. Bu xüsusda varid olmuş hədisdə

nə isə xoşuna gəlmədikdə, bunu onun üzündən anlayardıq.”[1]

٣٥٩- حَدَّثَنَا مَحْمُودُ بْنُ غَيْلانَ، قَالَ: حَدَّثَنَا وَكِيعٌ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ مَنْصُورٍ، عَنْ مُوسَى بْنِ عَبْدِ اللهِ بْنِ يَزِيدَ الْخَطْمِيِّ، عَنْ مَوْلًى لِعَائِشَةَ، قَالَ: قَالَتْ عَائِشَةُ: ((مَا نَظَرْتُ إِلَى فَرْجِ رَسُولِ اللهِ ﷺ، أَوْ قَالَتْ: مَا رَأَيْتُ فَرْجَ رَسُولِ اللهِ ﷺ قَطُّ)).

(359) ..... Aişə رضي الله عنها demişdir: “Mən Rəsulullahın ﷺ tənasülünə[2] baxmamışam”, yaxud demişdir: “Mən Rəsulullahın ﷺ tənasülünü əsla görməmişəm.”[3]

Ummu Sələmə رضي الله عنها rəvayət edir ki, bir gün Ummu Suleym Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ya Rəsulullah, Allah haqqı deməkdən həya etməz. Qadın pollyusiya halına düşdükdə (yəni, yuxuda ikən məni axıtdıqda) qüsl etməlidirmi?” Peyğəmbər ﷺ buyurdu: “Bəli, əgər su görübsə (yəni, məni axıdıbsa), etməlidir!” Ummu Sələmə (utandığından) üzünü yaşmaqla örtdü və: “Ya Rəsulullah, heç qadın da pollyusiya halına düşə bilərmi?”– deyə soruşdu. Peyğəmbər ﷺ dedi: “Əlbəttə, (düşə bilər). Ay yazıq, belə olmasa, övladı ona necə oxşaya bilər?!” (Səhih əl-Buxari, 130).

[1] Bu hədisi Buxari (5768), Muslim (2320) və Əhməd (3/79) rəvayət etmişdir.

[2] Tənasül: qadın və kişilərdə cinsiyyət üzvü.

[3] Bu hədisi İbn Macə (662) və Əhməd (6/63) rəvayət etmişdir. İsnadında keçən ravilərdən biri “məchul” olduğundan, hədis “zəif” hesab edilir. Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “zəif” olduğunu demişdir. Bundan əlavə bu hədisin mənası Buxari və Muslimin rəvayət etdiyi səhih hədisin mənasına ziddir. Həmin hədisdə Aişə رضي الله عنها rəvayət edir ki, mən Peyğəmbərlə ﷺ birlikdə, ikimiz də cunub olduğumuz halda, bir qabdan *su götürüb* qüsl edərdik” (Səhih əl-Buxari, 299).

٥٠- بَابُ حِجامة رسول الله ﷺ

50-ci fəsil. Rəsulullahın ﷺ qan aldırması[1]

٣٦٠- حَدَّثَنَا عَلِيُّ بْنُ حُجْرٍ، قَالَ: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ جَعْفَرٍ، عَنْ حُمَيْدٍ، قَالَ: سُئِلَ أَنَسُ ابْنُ مَالِكٍ عَنْ كَسْبِ الْحَجَّامِ، فَقَالَ أَنَسُ: ((احْتَجَمَ رَسُولُ اللهِ ﷺ، حَجَمَهُ أَبُو طَيْبَةَ، فَأَمَرَ لَهُ بِصَاعَيْنِ مِنْ طَعَامٍ، وَكَلَّمَ أَهْلَهُ فَوَضَعُوا عَنْهُ مِنْ خَرَاجِهِ، وَقَالَ : ((إِنَّ أَفْضَلَ مَا تَدَاوَيْتُمْ بِهِ الْحِجَامَةُ، أَوْ إِنَّ مِنْ أَمْثَلِ دَوَائِكُمُ الْحِجَامَةَ)).

(360) ..... Rəvayət edilir ki, (bir dəfə) Ənəs ibn Malikdən ﷺ həcəmət[2] qoyan adamın qazancı barədə soruşdular. O dedi: "Rəsulullah ﷺ qan aldırdıqdan – Əbu Teybə ondan qan aldıqdan – sonra ona iki saa[3] ərzaq verdi,[4]

---

[1] Burada müalicə məqsədilə, həcəmətlər vasitəsilə bədəndən qan aldırmaq nəzərdə tutulur. Peyğəmbər dəfələrlə bədənindən qal aldırmış və ümmətinə də bunu tövsiyə etmişdir. Hədislərin birində deyilir ki: "Üç şeydə şəfa vardır: bir içim balda, *qan almaq üçün* banka qoymaqda və *müalicə məqsədilə bədənə* dağ basmaqda. *Buna rəğmən*, mən ümmətimə dağ basmağı qadağan edirəm" (Səhih əl-Buxari, 5681).

[2] Müalicə məqsədilə baş, kürək və bədənin başqa nahiyələrindən qan almaq üçün işlədilən buynuzşəkilli alət.

[3] 25-ci hədisin qeydlərinə bax.

[4] Bu dəlildir ki, qan alan adama zəhmətinin müqabilində pul və ya ərzaq vermək caizdir.

üstəlik, onun ağaları ilə danışdı və onlar (gündəlik olaraq ondan aldıqları xəracın[1] miqdarını) bir qədər azaltdılar.”

(Peyğəmbər ﷺ) demişdir: “Müalicə üçün istifadə etdiyiniz vasitələrin ən üstünü qan aldırmaqdır və ya müalicə olunmağınız üçün istifadə etdiyiniz ən gözəl dərman qan aldırmaqdır.”[2]

٣٦١- حَدَّثَنَا عَمْرُو بْنُ عَلِيٍّ، قَالَ: حَدَّثَنَا أَبُو دَاوُدَ، قَالَ: حَدَّثَنَا وَرْقَاءُ بْنُ عُمَرَ، عَنْ عَبْدِ الأَعْلَى، عَنْ أَبِي جَمِيلَةَ، عَنْ عَلِيٍّ، أَنَّ النَّبِيَّ ﷺ، احْتَجَمَ وَأَمَرَنِي فَأَعْطَيْتُ الْحَجَّامَ أَجْرَهُ.

(361) ..... Əli (ibn Əbu Talib) ﷺ rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ qan aldırdı, sonra da mənə (ondan qan alan adama zəhmət haqqını verməyi) əmr etdi, mən də onun zəhmət haqqını verdim.”[3]

٣٦٢- حَدَّثَنَا هَارُونُ بْنُ إِسْحَاقَ الْهَمْدَانِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدَةُ، عَنْ سُفْيَانَ الثَّوْرِيِّ، عَنْ جَابِرٍ، عَنِ الشَّعْبِيِّ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: ((إِنَّ النَّبِيَّ ﷺ

---

[1] Burada “xərac” deyildikdə, vergi, bac nəzərdə tutulur.

[2] Bu hədisi Buxari (5371), Muslim (1577), Əbu Davud (3424), Tirmizi (1278) və Əhməd (3/174) rəvayət etmişdir.

[3] Bu hədisi İbn Macə (2163) və Əhməd (1/90, 134) rəvayət etmişdir. Hədisin isnadında keçən Əbu Cəmilə Meysərə ibn Yəqub “məqbul” ravidir (ət-Təqrib). Hədisin isnadı “zəif” olsa da, digər “səhih” isnadlarla bu mənada varid olmuş “səhih” hədislər onu qüvvətləndirir. Elə bu səbəbdən də, şeyx Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

احْتَجَمَ فِي الأَخْدَعَيْنِ، وَبَيْنَ الْكَتِفَيْنِ، وَأَعْطَى الْحَجَّامَ أَجْرَهُ، وَلَوْ كَانَ حَرَامًا لَمْ يُعْطِهِ)).

(362) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ boyun damarlarından və kürəkləri arasından qan aldırdı, (sonra da) qan alan adama zəhmət haqqını verdi. Əgər (bu işin müqabilində nə isə vermək) haram olsaydı, Peyğəmbər ﷺ ona zəhmət haqqını verməzdi."[1]

٣٦٣- حَدَّثَنَا هَارُونُ بْنُ إِسْحَاقَ، قَالَ: حَدَّثَنَا عَبْدَةُ، عَنِ ابْنِ أَبِي لَيْلَى، عَنْ نَافِعٍ، عَنِ ابْنِ عُمَرَ، أَنَّ النَّبِيَّ ﷺ، دَعَا حَجَّامًا فَحَجَمَهُ وَسَأَلَهُ: ((كَمْ خَرَاجُكَ؟)) فَقَالَ: ثَلاثَةُ آصُعٍ، فَوَضَعَ عَنْهُ صَاعًا وَأَعْطَاهُ أَجْرَهُ.

(363) ..... İbn Ömər رضي الله عنهما rəvayət edir ki, (bir dəfə) Peyğəmbər ﷺ qan alan (köləni) yanına çağırdı və o, Peyğəmbərdən ﷺ qan aldı. Sonra ondan: "Sənin xəracın nə

[1] Bu hədisin isnadında keçən Cabir ibn Yezid əl-Cufi "zəif" ravidir. Elə bu səbəbdən də bu isnad "zəif" sayılır. Lakin hədisin mənası "səhih" isnadlarla varid olmuş bir çox hədislərdə öz təsdiqini tapmışdır. Həmin hədisləri Buxari (5367), Muslim (1202), Əbu Davud (4323), Tirmizi (775), Nəsai (2845), İbn Macə (1682) və Əhməd (1/333) rəvayət etmişdir. Bu hədislərdən birində rəvayət edilir ki, İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ qan aldırdı və qan alan adama (zəhmət haqqı) verdi. Əgər (bu işin müqabilində nə isə almaq) haram olsaydı, Peyğəmbər ﷺ ona (zəhmət haqqı) verməzdi" (Səhih əl-Buxari).

qədərdir?"[1]– deyə soruşdu. O: "Üç saa"– deyə cavab verdi. Peyğəmbər ﷺ (ağasının ondan aldığı xəracın miqdarını) bir saa azaltdı və onun zəhmət haqqını ödədi."[2]

٣٦٤- حَدَّثَنَا عَبْدُ الْقُدُّوسِ بْنُ مُحَمَّدٍ الْعَطَّارُ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ عَاصِمٍ، قَالَ: حَدَّثَنَا هَمَّامٌ، وَجَرِيرُ بْنُ حَازِمٍ، قَالَ: حَدَّثَنَا قَتَادَةُ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((كَانَ رَسُولُ اللهِ ﷺ يَحْتَجِمُ فِي الأَخْدَعَيْنِ وَالْكَاهِلِ، وَكَانَ يَحْتَجِمُ لِسَبْعَ عَشْرَةَ، وَتِسْعَ عَشْرَةَ، وَإِحْدَى وَعِشْرِينَ)).

(364) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ boyun damarlarından və süysünündən[3] qan aldırardı. Peyğəmbər ﷺ (ayın) on yeddisi, on doqquzu və iyirmi biri[4] qan aldırardı."[5]

---

[1] Bu kölənin ağaları ona, hər ay və ya hər il onlara xərac vermək şərtilə qan almaqla məşğul olmağa izin vermişdilər. Elə bu səbəbdən də Peyğəmbər ﷺ ondan xəracı barədə soruşmuşdur.

[2] Bu hədisi Əhməd (3/353) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Süysün: boynun bel sütunu ilə birləşən hissəsi.

[4] Yəni, Peyğəmbər ﷺ qəməri aylarda, bu günlərdən birində qan aldırardı.

[5] Bu hədisi Tirmizi (2052), Əhməd (3/119) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

٣٦٥- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ: أَنْبَأَنَا عَبْدُ الرَّزَّاقِ، عَنْ مَعْمَرٍ، عَنْ قَتَادَةَ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ رَسُولَ اللهِ ﷺ احْتَجَمَ وَهُوَ مُحْرِمٌ بِمَلَلٍ عَلَى ظَهْرِ الْقَدَمِ.

(365) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ ihramda olduğu halda Mələldə[1] ayağının üstündən[2] qan aldırdı."[3]

[1] Mələl: Məkkə ilə Mədinə arasında, Mədinəyə daha yaxın olan bir yerin adıdır.

[2] İmam Əhmədin rəvayətində "ayağı ağrıdığına görə" sözü də əlavə edilmişdir. Bu hədis dəlildir ki, ihramda olan adamın qan aldırması caizdir. Lakin qeyd etmək lazımdır ki, bu, ancaq bədənin tük bitməyən yerinə aiddir. Çünki ihramda ikən bədənin həcamət qoyulacaq yerindəki tükləri təmizləmək qadağandır. Belə ki, həcc və ümrə ziyarətinə niyyət edən kimsə ihramdan çıxanadək bədənindən tük götürməməlidir.

[3] Bu hədisi Əbu Davud (1837), Əhməd (3/164) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

٥١- بَاب أَسماء رسول الله ﷺ

51-ci fəsil. Rəsulullahın ﷺ adları

٣٦٦- عن سَعِيدُ بْنُ عَبْدِ الرَّحْمَنِ الْمَخْزُومِيُّ، وَغَيْرُ وَاحِدٍ، قَالُوا: حَدَّثَنَا سُفْيَانُ، عَنِ الزُّهْرِيِّ، عَنْ مُحَمَّدِ بْنِ جُبَيْرِ بْنِ مُطْعِمٍ، عَنْ أَبِيهِ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((إِنَّ لِي أَسْمَاءً، أَنَا مُحَمَّدٌ، وَأَنَا أَحْمَدُ، وَأَنَا الْمَاحِي الَّذِي يَمْحُو اللَّهُ بِيَ الْكُفْرَ، وَأَنَا الْحَاشِرُ الَّذِي يُحْشَرُ النَّاسُ عَلَى قَدَمِي، وَأَنَا الْعَاقِبُ وَالْعَاقِبُ الَّذِي لَيْسَ بَعْدَهُ نَبِيٌّ)).

(366) ..... Cubeyr ibn Mutim رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Mənim (bir çox) adlarım var: mən həm Muhəmməd[1], həm də Əhmədəm[2], mən Allahın mənim vasitəmlə küfrü yox etdiyi Mahiyəm[3], mən insanların, arxasınca gedib məhşərə toplandığı Haşirəm[4] və mən

---

[1] "Muhəmməd" – mədh olunan. Bu adı ona atası qoymuşdur. Bu ad Qurani Kərimdə dörd yerdə zikr olunur: "Ali-İmran", 144; "əl-Əhzab"; 40, "Muhəmməd", 2; "əl-Fəth", 29.

[2] "Əhməd" – Allaha hamıdan çox həmd edən. Bu ad Qurani Kərimdə bir yerdə zikr olunur: "əs-Saff", 6.

[3] "Mahi" – silib yox edən. Bu xüsusda Uca Allah buyurur: **"Müşriklərin xoşuna gəlməsə də, *İslam* dinini bütün dinlərdən üstün etmək məqsədilə Öz Elçisini hidayət və haqq dinlə göndərən Odur"** (əs-Saff, 9).

[4] "Haşir" – bir yerə toplayan. Yəni, Peyğəmbərimiz ﷺ öndə, insanlar da onun arxasınca gedib məhşərə toplanacaqlar. Hədislərin

Aqibəm,[1] o Aqib ki, özündən sonra bir peyğəmbər gəlməyəcək.[2]"[3]

٣٦٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ طَرِيفٍ الْكُوفِيُّ، قَالَ: حَدَّثَنَا أَبُو بَكْرِ بْنُ عَيَّاشٍ، عَنْ عَاصِمٍ، عَنْ أَبِي وَائِلٍ، عَنْ حُذَيْفَةَ، قَالَ: ((لَقِيتُ النَّبِيَّ ﷺ، فِي بَعْضِ طُرُقِ الْمَدِينَةِ، فَقَالَ: ((أَنَا مُحَمَّدٌ، وَأَنَا أَحْمَدُ، وَأَنَا نَبِيُّ الرَّحْمَةِ، وَنَبِيُّ التَّوْبَةِ، وَأَنَا الْمُقَفَّى، وَأَنَا الْحَاشِرُ، وَنَبِيُّ الْمَلاحِمِ)).

---

birində Peyğəmbər ﷺ demişdir: "Qiyamət günü mən Adəm övladının ən hörmətlisi olacağam, lakin mən (bununla) lovğalanmıram. (Həmin gün) mən əlimdə həmd bayrağı tutacağam, lakin mən (bununla) lovğalanmıram. (O gün) peyğəmbərlərin hamısı mənim bayrağımın altında toplanacaqlar. Habelə, qəbri açılacaq ilk kimsə də mən olacağam, lakin mən (bununla) lovğalanmıram" (Sunən ət-Tirmizi, 3975; Səhih Tərğib vət-Tərhib, 3543).

[1] "Aqib" – sonuncu. Bu xüsusda Uca Allah buyurur: **"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir"** (əl-Əhzab, 40).

[2] Muslimin "Səhih"ində (6254) bu rəvayətin tamamında deyilir: "və mən həm Rəhmət peyğəmbəri, həm də Tövbə peyğəmbəriyəm." Peyğəmbərimizin ﷺ rəhmət peyğəmbəri olması barədə Uca Allah buyurur: **"Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik"** (əl-Ənbiya, 107). Həmçinin, tövbə xüsusunda da Peyğəmbərimiz ﷺ bütün bəşəriyyətə nümunə olmuşdur. Hədislərin birində Peyğəmbər ﷺ belə buyurmuşdur: "Vallahi, mən hər gün yetmiş dəfədən çox Allahdan həm bağışlanma diləyir, həm də Ona tövbə edirəm" (Səhih əl-Buxari, 6307).

[3] Bu hədisi Buxari, (3339), Muslim (2354), Tirmizi (3842) və Əhməd (4/80) rəvayət etmişdir.

(367) ..... Huzeyfə ﷺ demişdir: "(Bir gün) mən Mədinənin küçələrindən birində Peyğəmbərə ﷺ rast gəldim. O (mənə öz adlarını sadalayıb) dedi: "Mən həm Muhəmməd, həm də Əhmədəm, mən həm Rəhmət peyğəmbəri, həm də Tövbə peyğəmbəriyəm, mən həm Muqəffəyəm,[1] həm də Haşirəm və bir də Döyüşlər peyğəmbəriyəm.[2]"[3]

---

[1] Hədisdəki bu ad həm "Muqəffi" həm də "Muqəffə" ləfzi ilə varid olmuşdur. Muqəffi: peyğəmbərlərin yolunu addımbaaddım gedib, onların axırıncısı olan deməkdir. Onların yolunu getmək barədə Uca Allah Quranda Öz peyğəmbərinə ﷺ belə buyurur: **"O *peyğəmbərlər* Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl"** (əl-Ənam ,90). Hədisdə isə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Dünyada da, Axirətdə də insanların Məryəm oğlu İsaya ən yaxın olanı mənəm. *Əslində,* peyğəmbərlər atabir, ana ayrı övladlardır. Anaları ayrı olsa da, dinləri birdir" (Səhih əl-Buxari, 1433). Muqəffə isə, sonuncu deməkdir. Yəni, peyğəmbərlərin bir-birinin ardınca gəlişi Muhəmməd peyğəmbərin ﷺ gəlişi ilə başa çatmış və Allahın risaləsi tamamlanmışdır. Peyğəmbərlərin bir-birinin ardınca göndərilməsi barədə Qurani Kərimdə belə xəbər verilir: **"Sonra bir-birinin ardınca elçilərimizi göndərdik. Hər dəfə hər hansı bir ümmətə peyğəmbər gəldikdə, onlar onu yalançı saydılar. Biz də onları bir-birinin ardınca *məhv edib* əfsanələrə çevirdik. Məhv olsun iman gətirməyən adamlar!"** (əl-Muminun, 53).

[2] Bu ad Peyğəmbərə ﷺ Allah yolunda apardığı döyüşlərə, yəni, cihada olan hərisliyinə görə verilmişdir.

[3] Bu hədisin isnadında keçən Asim ibn Bəhdələ ibn Əbu Nəcvəd "xətalara yol vermiş səduq" ravidir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "həsən" olduğunu demişdir.

٣٦٨- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مَنْصُورٍ، قَالَ: حَدَّثَنَا النَّضْرُ بْنُ شُمَيْلٍ، قَالَ: أَنْبَأَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ عَاصِمٍ، عَنْ زِرٍّ، عَنْ حُذَيْفَةَ، عَنِ النَّبِيِّ ﷺ، نَحْوَهُ بِمَعْنَاهُ، هَكَذَا، قَالَ حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ عَاصِمٍ، عَنْ زِرٍّ، عَنْ حُذَيْفَةَ.

(368) Bizə İshaq ibn Mənsur rəvayət edib demişdir: “Bizə Nədr ibn Şumeyl belə rəvayət etmişdir: “Bizə Həmmad ibn Sələmə Asimdən, o da, Zirdən, o da, Huzeyfədən, o da, Peyğəmbərdən ﷺ bu hədisin bənzərini məna ilə bu cür – Həmmad ibn Sələmə Asimdən, o da, Zirdən, o da, Huzeyfədən rəvayət etmişdir.

٥٢- بَاب عَيْش رسول الله ﷺ

52-ci fəsil. Rəsulullahın ﷺ dolanışığı

٣٦٩- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا أَبُو الأَحْوَصِ، عَنْ سِمَاكِ بْنِ حَرْبٍ، قَالَ: سَمِعْتُ النُّعْمَانَ بْنَ بَشِيرٍ، يَقُولُ: ((أَلَسْتُمْ فِي طَعَامٍ وَشَرَابٍ مَا شِئْتُمْ؟ لَقَدْ رَأَيْتُ نَبِيَّكُمْ ﷺ، وَمَا يَجِدُ مِنَ الدَّقَلِ، مَا يَمْلأُ بَطْنَهُ)).

(369) ..... Rəvayət edilir ki, (bir dəfə) Nomən ibn Bəşir ﷺ (yanındakılara) dedi: "Məgər, siz istədiyiniz nemətlərdən yeyib içmirsiniz?! Halbuki, mən Peyğəmbərinizin ﷺ (evində) qarnını doyuracaq qədər köhnə xurması belə olmadığını görmüşəm."[1]

---

[1] Bu hədisi Muslim (2977), Tirmizi (2373) və Əhməd (4/268) rəvayət etmişdir. Peyğəmbərin ﷺ dolanışığının olduqca ağır olduğunu açıqlayan başqa bir hədisdə Ənəs ibn Malik ﷺ rəvayət edir ki, *bir gün* bir qadın Aişənin yanına gəldi. Aişə ona üç ədəd xurma verdi. Qadın körpələrinin hərəsinə bir xurma verdi. Birini də özünə saxladı. Körpələr xurmaları yedikdən sonra analarının üzünə baxdılar. Analarının *özü üçün saxladığı* o bir xurmanı iki yerə bölüb hər birinə xurmanın bir yarısını verdi. Peyğəmbər ﷺ (evə) gəldikdə, Aişə ona bu haqda xəbər verdi. O dedi: "Nədir səni təəccübləndirən?! O, körpələrinə rəhm etdiyinə görə, Allah da ona rəhm etdi" (Ədəbul-Mufrəd, 89); başqa bir rəvayətdə Aişə ﷺ demişdir: "Biz artıq xurma və sudan doyunca yeyib içməyə *imkanımız olduğu* zaman Peyğəmbər ﷺ vəfat etdi" (Səhih əl-Buxari, 5383).

٣٧٠- حَدَّثَنَا هَارُونُ بْنُ إِسْحَاقَ، قَالَ: حَدَّثَنَا عَبْدَةُ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((إِنْ كُنَّا آلَ مُحَمَّدٍ نَمكُثُ شَهْرًا مَا نَسْتَوْقِدُ بِنَارٍ، إِنْ هُوَ إِلا التَّمْرُ وَالْمَاءُ)).

(370) ..... Aişə رضي الله عنها demişdir: "Olurdu ki, biz – Muhəmmədin ﷺ ailəsi – bir ay od qalamırdıq.[1] (Evimizdə) ancaq xurma və su olardı."[2]

٣٧١- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ أَبِي زِيَادٍ، قَالَ: حَدَّثَنَا سَيَّارٌ، قَالَ: حَدَّثَنَا سَهْلُ بْنُ أَسْلَمَ، عَنْ يَزِيدَ بْنِ أَبِي مَنْصُورٍ، عَنْ أَنَسٍ، عَنْ أَبِي طَلْحَةَ، قَالَ: ((شَكَوْنَا إِلَى رَسُولِ اللهِ ﷺ، الْجُوعَ وَرَفَعْنَا عَنْ بُطُونِنَا عَنْ حَجَرٍ حَجَرٍ، فَرَفَعَ رَسُولُ اللهِ ﷺ، عَنْ بَطْنِهِ عَنْ حَجَرَيْنِ)).

قَالَ أَبُو عِيسَى: هَذَا حَدِيثٌ غَرِيبٌ مِنْ حَدِيثِ أَبِي طَلْحَةَ لا نَعْرِفُهُ إِلا مِنْ هَذَا الْوَجْهِ، وَمَعْنَى قَوْلِهِ: وَرَفَعْنَا عَنْ بُطُونِنَا عَنْ حَجَرٍ حَجَرٍ، كَانَ أَحَدُهُمْ يَشُدُّ فِي بَطْنِهِ الْحَجَرَ مِنَ الْجُهْدِ وَالضَّعْفِ الَّذِي بِهِ مِنَ الْجُوعِ .

---

[1] Aişə رضي الله عنها demək istəyir ki, bu müddət ərzində Peyğəmbərin ﷺ evində isti yemək bişirilməzdi. Buxarinin rəvayətində xəbər verilir ki, Aişə رضي الله عنها demişdir: "Olurdu ki, biz bir hilal görür, sonra yenə bir hilal görür, hətta iki ayda üç hilal görürdük, *lakin bu müddət ərzində* Peyğəmbərin ﷺ evlərində od qalanmırdı" (Səhih əl-Buxari, 2567). Bu hədisdən də aydın olur ki, Peyğəmbərin ﷺ evində nəinki bir, hətta aylarla isti yemək bişirilməzdi.

[2] Bu hədisi Buxari (2428), Muslim (2972), Tirmizi (2473) və Əhməd (6/108, 244) rəvayət etmişdir.

(371) ..... Əbu Talhə[1] ﷺ demişdir: "(Bir gün) biz Peyğəmbərə ﷺ aclıqdan şikayət etdik və libasımızı qaldırıb qarnımıza bağladığımız daşları birbəbir ona göstərdik. Onda Peyğəmbər ﷺ öz libasını qaldırıb qarnına iki ədəd daş bağladığını bizə göstərdi."[2]

Əbu İsa (ət-Tirmizi) demişdir: "Bu, Əbu Talhədən rəvayət edilmiş qərib hədisdir. Biz bu hədisin yalnız bu ləfz ilə rəvayət edildiyini bilirik. Əbu Talhənin: "libasımızı

---

[1] Əbu Talhə Zeyd ibn Səhl əl-Ənsari ən-Nəccari əl-Xəzrəci ﷺ Peyğəmbərin ﷺ həm səhabəsi, həm dayılarından birinin oğlu, həm də birinci Əqəbə beyətində iştirak edən on iki nəfərdən biridir. Məşhur səhabə Ənəs ibn Malikin ﷺ atalığıdır (Siyər Əlam ən-Nubələ, 5-ci tərcümeyi-hal). Bu səhabənin fəzilətinə dair varid olmuş hədislərin birində rəvayət edilir ki, Ənəs ﷺ demişdir: "Uhud döyüşündə *bəzi* adamlar Peyğəmbəri ﷺ qoyub geri çəkildikdə, Əbu Talhə onun önündə dayanıb, öz qalxanı ilə onu qoruyurdu. Əbu Talhə yaxşı oxatan, yayının kirişini olduqca möhkəm dartıb *oxu* atan birisi idi. *Bu döyüşdə Əbu Talhə* iki ya üç yay sındırdı. *Həmin vaxt* kim əlində ox qabı ilə *onların yanından* keçirdisə, Peyğəmbər ﷺ ona: "Ox qabını Əbu Talhənin qabağına sər!"– deyirdi. Peyğəmbər ﷺ Əbu Talhənin arxasından boylanıb düşmənə baxmaq istəyəndə, Əbu Talhə ona deyirdi: "Ey Allahın peyğəmbəri, atam-anam sənə qurban, baxma, yoxsa onların atdıqları ox sənə dəyər, qoy mənim sinəm sənin üçün sipər olsun" (Səhih əl-Buxari, 3811).

[2] Bu hədisin isnadında keçən Səyyar ibn Hatim əl-Ənəzi "xətalara yol vermiş səduq" ravidir (ət-Təqrib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Hədisin isnadı zəif olsa da, digər səhih hədislərdə Peyğəmbərin ﷺ və səhabələrinin aclığa dözmək məqsədilə qarınlarına daş bağladıqları varid olmuşdur. Buxarinin "Səhih"ində (4101) rəvayət edilmiş hədisdə Cabir ﷺ xəbər vermişdir ki, onlar Əhzab döyüşünə hazırlıq gördükləri zaman xəndək qazarkən Peyğəmbər ﷺ aclığı hiss etməsin deyə, qarnına üç ədəd daş bağlamışdı.

qaldırıb qarnımıza bağladığımız daşları birbəbir ona göstərdik" sözü o deməkdir ki, onların hər biri aclıq üzündən halsız olduğuna və taqətdən düşdüyünə görə qarnına daş bağlayarmış."

٣٧٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْمَاعِيلَ، قَالَ: حَدَّثَنَا آدَمُ بْنُ أَبِي إِيَاسٍ، قَالَ: حَدَّثَنَا شَيْبَانُ أَبُو مُعَاوِيَةَ، قَالَ: حَدَّثَنَا عَبْدُ الْمَلِكِ بْنُ عُمَيْرٍ، عَنْ أَبِي سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: ((خَرَجَ النبي ﷺ، فِي سَاعَةٍ لا يَخْرُجُ فِيهَا، وَلا يَلْقَاهُ فِيهَا أَحَدٌ، فَأَتَاهُ أَبُو بَكْرٍ، فَقَالَ: ((مَا جَاءَ بِكَ يَا أَبَا بَكْرٍ؟))، قَالَ: خَرَجْتُ أَلْقَى رَسُولَ اللهِ ﷺ وَأَنْظُرُ فِي وَجْهِهِ، وَالتَّسْلِيمَ عَلَيْهِ، فَلَمْ يَلْبَثْ أَنْ جَاءَ عُمَرُ، فَقَالَ: ((مَا جَاءَ بِكَ يَا عُمَرُ؟))، قَالَ: الْجُوعُ يَا رَسُولَ اللهِ، قَالَ ﷺ: ((وَأَنَا قَدْ وَجَدْتُ بَعْضَ ذَلِكَ))، فَانْطَلَقُوا إِلَى مَنْزِلِ أَبِي الْهَيْثَمِ بْنِ التَّيِّهَانِ الأَنْصَارِيِّ، وَكَانَ رَجُلاً كَثِيرَ النَّخْلِ وَالشَّاءِ، وَلَمْ يَكُنْ لَهُ خَدَمٌ، فَلَمْ يَجِدُوهُ، فَقَالُوا لامْرَأَتِهِ: أَيْنَ صَاحِبُكِ؟ فَقَالَتِ: انْطَلَقَ يَسْتَعْذِبُ لَنَا الْمَاءَ، فَلَمْ يَلْبَثُوا أَنْ جَاءَ أَبُو الْهَيْثَمِ بِقِرْبَةٍ يَزْعَبُهَا، فَوَضَعَهَا ثُمَّ جَاءَ يَلْتَزِمُ النَّبِيَّ ﷺ وَيُفَدِّيهِ بِأَبِيهِ وَأُمِّهِ، ثُمَّ انْطَلَقَ بِهِمْ إِلَى حَدِيقَتِهِ فَبَسَطَ لَهُمْ بِسَاطًا، ثُمَّ انْطَلَقَ إِلَى نَخْلَةٍ فَجَاءَ بِقِنْوٍ فَوَضَعَهُ، فَقَالَ النَّبِيُّ ﷺ: ((أَفَلا تَنَقَّيْتَ لَنَا مِنْ رُطَبِهِ؟)) فَقَالَ: يَا رَسُولَ اللهِ، إِنِّي أَرَدْتُ أَنْ تَخْتَارُوا، أَوْ تَخَيَّرُوا مِنْ رُطَبِهِ وَبُسْرِهِ، فَأَكَلُوا وَشَرِبُوا مِنْ ذَلِكَ الْمَاءِ، فَقَالَ ﷺ: ((هَذَا وَالَّذِي نَفْسِي بِيَدِهِ مِنَ النَّعِيمِ الَّذِي تُسْأَلُونَ عَنْهُ يَوْمَ الْقِيَامَةِ، ظِلٌّ بَارِدٌ، وَرُطَبٌ طَيِّبٌ، وَمَاءٌ بَارِدٌ))، فَانْطَلَقَ أَبُو الْهَيْثَمِ لِيَصْنَعَ لَهُمْ طَعَامًا، فَقَالَ النَّبِيُّ ﷺ: ((لا تَذْبَحَنَّ ذَاتَ دَرٍّ))، فَذَبَحَ لَهُمْ عَنَاقًا أَوْ جَدْيًا، فَأَتَاهُمْ بِهَا فَأَكَلُوا، فَقَالَ ﷺ: ((هَلْ لَكَ خَادِمٌ))، قَالَ: لا، قَالَ: ((فَإِذَا أَتَانَا،

سَيْيٌ، فَأْتِنَا)) فَأُتِيَ النَّبِيُّ ﷺ بِرَأْسَيْنِ لَيْسَ مَعَهُمَا ثَالِثٌ، فَأَتَاهُ أَبُو الْهَيْثَمِ، فَقَالَ النَّبِيُّ ﷺ: ((اخْتَرْ مِنْهُمَا)) فَقَالَ: يَا رَسُولَ اللهِ، اخْتَرْ لِي، فَقَالَ النَّبِيُّ ﷺ: ((إِنَّ الْمُسْتَشَارَ مُؤْتَمَنٌ، خُذْ هَذَا، فَإِنِّي رَأَيْتُهُ يُصَلِّي، وَاسْتَوْصِ بِهِ مَعْرُوفًا))، فَانْطَلَقَ أَبُو الْهَيْثَمِ إِلَى امْرَأَتِهِ، فَأَخْبَرَهَا بِقَوْلِ رَسُولِ اللهِ ﷺ، فَقَالَتِ امْرَأَتُهُ: مَا أَنْتَ بِبَالِغٍ حَقَّ مَا، قَالَ فِيهِ النَّبِيُّ ﷺ إِلا بِأَنْ تَعْتِقَهُ، قَالَ: فَهُوَ عَتِيقٌ، فَقَالَ ﷺ: ((إِنَّ اللَّهَ لَمْ يَبْعَثْ نَبِيًّا وَلا خَلِيفَةً إِلا وَلَهُ بِطَانَتَانِ: بِطَانَةٌ تَأْمُرُهُ بِالْمَعْرُوفِ وَتَنْهَاهُ عَنِ الْمُنْكَرِ، وَبِطَانَةٌ لا تَأْلُوهُ خَبَالا، وَمَنْ يُوقَ بِطَانَةَ السُّوءِ فَقَدْ وُقِيَ)).

(372) ..... Əbu Hureyrə ﷺ demişdir: "Peyğəmbər ﷺ adətən (evindən) çıxmadığı, habelə, (evində) heç kəsi qəbul etmədiyi bir vaxtda (evdən bayıra) çıxdı. Bu vaxt Əbu Bəkr onun yanına gəldi və Peyğəmbər ﷺ (ondan) soruşdu: "(Bu saatda) səni (bura) gətirən nədir, ey Əbu Bəkr?" O dedi: "Gəldim ki, Allahın rəsuluna baş çəkim, onun üzünə baxım və ona salam verim."[1] Çox keçmədən Ömər gəldi və Peyğəmbər ﷺ (ona da eyni) sualı verdi: "(Bu saatda) səni (bura) gətirən nədir, ey Ömər?" O dedi: "Aclıqdır, ya Rəsulullah." Peyğəmbər ﷺ: "Mən də bir az acmışam"– dedi. Sonra onlar Əbul-Heysəm ibn Teyyihan

[1] Əbu Bəkr ﷺ ilk gündən Peyğəmbərin ﷺ ən yaxın dostu olmuş, onu hamıdan çox sevmiş, ömrü boyu ona arxa olmuş, sədaqətinə xəyanət etməmiş və nəhayət, Siddiq ləqəbini qazanmışdır. Onun Peyğəmbərə ﷺ yaxın dost olduğu barədə Uca Allah belə buyurur: **"Əgər siz *Peyğəmbərə* kömək etməsəniz, *bilin ki,* Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq *Məkkədən* çıxartdılar. O iki nəfər mağarada olarkən *onlardan* biri öz dostuna dedi: "Qəm yemə, Allah bizimlədir!"** (ət-Tovbə, 40).

əl-Ənsarinin[1] yanına getdilər. Onun çoxlu xurma ağacı və bir sürü qoyunu var idi, lakin xidmətçisi yox idi. Onlar onu (evdə) tapmadıqlarından, onun övrətindən: "Yoldaşın haradadır?"– deyə soruşdular. Qadın dedi: "Gedib, bizə içməli su gətirsin." Çox keçmədən Əbul-Heysəm əlində bir tuluq su gəlib çıxdı. O, tuluğu (bir kənara) qoyduqdan sonra Peyğəmbərin ﷺ yanına gəldi və "atam-anam sənə qurban"– deyib onu qucaqladı. Sonra o, qonaqları öz bağına apardı və onlar üçün süfrə açdı. Sonra da xurma ağacına yaxınlaşıb (bir salxım xurma dərdi) və onu gətirib (qonaqların qabağına) qoydu. [2] Peyğəmbər ﷺ (ondan): "Niyə bizim üçün ancaq yetişmiş tər xurmalardan dərmədin?"– deyə soruşdu. O dedi: "Ya Rəsulullah, istədim ki, yetişmişini və tam yetişməmişini [3] özünüz seçəsiniz." Beləcə, onlar (xurmadan) yeyib, tuluqdakı sudan içdikdən sonra Peyğəmbər ﷺ dedi: "Canım Əlində olan *Allaha* and olsun ki, siz Qiyamət günü bu nemətlər barədə sorğu-sual

[1] Əbul-Heysəm Malik ibn Teyyihan ibn Bəli əl-Ənsari ﷺ Peyğəmbərin ﷺ səhabəsidir (Siyər Əlam ən-Nubələ, 22-ci tərcümeyi-hal).

[2] Səhabələrin hamısı onu bu cür çox istəyər, onu görmədikdə, onun üçün darıxar və ona əllərindən gələn köməyi etməyə hazır olardılar.

[3] Ərəbcə yetişmiş xurmaya "rutəb", tam yetişməmişinə isə "busr" deyilir. Ümumiyyətlə, xurmanın yetişdiyi mərhələlərdəki, yəni, tam yetişməmiş tər xurmadan quru xurma olanadək – adları bu cür dəyişir: təl (طَلْعٌ), sonra xilal (خِلَالٌ), sonra bələh (بَلَحٌ), sonra busr (بُسْرٌ), sonra rutəb (رُطَبٌ), sonra da təmr (تَمْرٌ) (Dəlil əl-Falihin, 4/319).

olunacaqsınız: sərin kölgə, tər xurma və sərin su.[1]" Sonra Əbul-Heysəm gedib onlar üçün yemək hazırlamaq istədikdə, Peyğəmbər ﷺ (ona) dedi: "Süd verən heyvanı kəsməyəsən, ha!" (Beləliklə, Əbul-Heysəm) onlar üçün bir dişi və ya erkək keçi balası kəsdi. (Yeməyi hazırladıqdan) sonra onu gətirib onların qabağına qoydu. Onlar (yeməyi) yedikdən sonra Peyğəmbər ﷺ (ondan): "Sənin xidmətçin varmı?"– deyə soruşdu. O: "Xeyr!"– deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: "Bizə əsirlər gəldiyi zaman yanıma gələrsiniz!"[2] Nəhayət, Peyğəmbərin ﷺ yanına cəmi iki əsir gətirdilər. (Bundan xəbər tutmuş) Əbul-Heysəm Peyğəmbərin ﷺ yanına gəldi və Peyğəmbər ﷺ (ona): "Bunlardan birini seç!"– deyə buyurdu. O dedi: "Ya Rəsulullah, özün mənim üçün (istədiyini) seç." Peyğəmbər ﷺ buyurdu: "Məsləhət verən kimsə, etibar qazanmış adamdır. Götür bunu, mən onun namaz qıldığını gördüm. Ona yaxşı bax." Sonra Əbul-Heysəm

---

[1] Bütün bunlar Peyğəmbərin ﷺ qəsd etdiyi nemətlərə aiddir. Burada Peyğəmbər ﷺ hər kəsin Qiyamət günü bu nemətləri haradan qazandığı və nəyə sərf etdiyi barədə soruşulacağını qəsd edir. Bu xüsusda Uca Allah buyurur: **"Sonra, həmin gün *Allahın sizə verdiyi* nemətlər barəsində hökmən sorğu-sual olunacaqsınız"** (ət-Təkasur, 8). Qazı İyad demişdir: "Bu hədisdə "sorğu-sual" deyildikdə, Allahın verdiyi nemətlərə şükür edib-etməməsi barədə olan sorğu-sual nəzərdə tutulur" (Tohfətul-Əhvəzi). Allahın verdiyi nemətə şükür edən bəndələrdən olmaq üçün isə bu nemətlərə görə dilimizlə Allaha şükür etməli, qəlbimizlə Onun Ruzi verən Tək İlah olduğunu etiraf etməli və yalnız Ona ibadət etməliyik.

[2] Peyğəmbərin ﷺ bu sözü, verilən hədiyyənin əvəzinə hədiyyə verməyin müstəhəb olduğuna dəlalət edir.

həyat yoldaşının yanına gəldi və Rəsulullahın ﷺ dediyini ona xəbər verdi. Həyat yoldaşı da (ona): "Peyğəmbərin ﷺ ona dair verdiyi tövsiyəsini yerinə yetirmək üçün onu ancaq azad etməlisən"– dedi.[1] Əbul-Heysəm: "Elə isə, o, azaddır!"– dedi. Peyğəmbər ﷺ (bu hadisədən xəbər tutduqda) belə buyurdu: "Allahın göndərdiyi elə bir peyğəmbər və elə bir xəlifə olmamışdır ki, onun iki dostu olmasın; yaxşı işlər görməyi ona əmr edib, pis işlərdən onu çəkindirən dost və bir də fəsad törətməkdən əl

[1] Nə üçün səhabə Peyğəmbərin ﷺ dediyini zövcəsinə xəbər verir? Əlbəttə ki, məşvərət etmək üçün. Səhabənin öz zövcəsindən məsləhət alması, habelə, o qadının ona verdiyi məsləhət onun ağıllı, fəzilətli və xeyirxah bir qadın olduğuna dəlalət edir. Qadından məsləhət almaq sizə qəribə gəlməsin. Belə ki, ağıllı qadın həqiqətən də, adama ağıllı məsləhət verə bilər. Gəlin, bu xüsusda varid olmuş hədisə nəzər salaq. Rəvayət edilir ki, Hudeybiyə günü Peyğəmbər ﷺ sülh müqaviləsini bağladıqdan sonra səhabələrinə: "Qalxın, qurbanlarınızı kəsin, başınızı qırxdırın!"– deyə əmr etdi." Peyğəmbər ﷺ bunu üç dəfə təkrar etdi, lakin səhabələrdən heç biri ayağa qalxmadı. Səhabələrin yerlərindən tərpənmədiyini görən Peyğəmbər ﷺ Ummu Sələmənin yanına gəldi və onların bu etinasızlığını ona xəbər verdi. Ummu Sələmə dedi: "Ey Allahın rəsulu, istəyirsən, onlar sənin əmrinə tabe olsunlar?! Bayıra çıx, sonra qurbanlıq dəvələrini kəsməyincə və dəllə-yini çağırıb başını qırxdırmayınca, onlara bir kəlmə belə demə!" Rəsulullah ﷺ bayıra çıxıb qurbanlıq dəvələrini kəsdi, dəlləyini çağırıb başını qırxdırdı və onlara heç bir söz demədi! Bunu görən səhabələr dərhal qalxıb qurbanlıq dəvələrini kəsdilər və bir-birilərinin başlarını qırxmağa başladılar. Hətta, iş o yerə çatdı ki, *onun əmrini daha tez yerinə yetirmək üçün baş vermiş dartışma nəticəsində* səhabələr bilmədən az qala bir-birilərini öldürmüşdülər..." (Səhih əl-Buxari, 2732). Bu hədislərdən aydın olur ki, Uca Allah Ummu Sələməni ﷺ Rəsulullah ﷺ üçün, Əbul-Heysəmənin zövcəsini ﷺ də əri Əbul-Heysəmə ﷺ üçün xeyirli dost seçmişdir.

çəkməyən dost.[1] Hər kim pis dostdan özünü qoruyarsa, qorunmuş olar.[2]"[3]

٣٧٣- حَدَّثَنَا عُمَرُ بْنُ إِسْمَاعِيلَ بْنِ مُجَالِدِ بْنِ سَعِيدٍ، قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ بَيَانِ بْنِ بِشْرٍ، عَنْ قَيْسِ بْنِ أَبِي حَازِمٍ، قَالَ: سَمِعْتُ سَعْدَ بْنَ أَبِي وَقَّاصٍ يَقُولُ: ((إِنِّي لأَوَّلُ رَجُلٍ أَهْرَاقَ دَمًا فِي سَبِيلِ اللَّهِ، وَإِنِّي لأَوَّلُ رَجُلٍ رَمَى بِسَهْمٍ

---

[1] Mubarəkfuri bu hədisi izah edərkən demişdir: "Başqa bir hədisdə Peyğəmbər ﷺ belə buyurmuşdur: "Allah (hər hansı) bir başçıya xeyir nəsib etmək istədiyi zaman sədaqətli bir vəziri ona dost edər. O, (yaxşılıq etməyi) unutduğu zaman vəzir bunu onun yadına salar, yadına düşdükdə isə ona kömək edər. Allah ona xeyir nəsib etmək istəmədikdə isə pis bir vəziri ona dost edər. O, (yaxşılıq etməyi) unutduğu zaman vəzir bunu onun yadına salmaz, yadına düşdükdə isə ona kömək etməz" (Sunən Əbu Davud, 2932; Silsilətul-Əhadisis-Səhihə, 489).

[2] Bu hədisdən aşağıdakı nəticələri çıxarmaq olar:

– bir adamın başqa birisinə taleyindən gileylənərək öz narazılığını bildirmək yox, sadəcə, təsəlli tapmaq məqsədilə aclıqdan, xəstəlikdən və başqa bu kimi acılardan əziyyət çəkdiyini xəbər verməyinin caiz olması;

– zəruri halda naməhrəm qadından sadəcə söz soruşmağın caiz olması;

– isti yeməkdən əvvəl meyvə yeməyin müstəhəb olması;

– evə gəlmiş qonaq üçün yemək hazırlananadək ona yüngül yeməklərdən verməyin müstəhəb olması;

– bir kimsənin əməlisaleh bir adam – ələlxüsus də namaz qılan adam – olduğunu vurğulayıb onunla gözəl tərzdə davranmağı tövsiyə etməyin müstəhəb sayılması (Tohfətul-Əhvəzi, 2292-ci hədisin şərhi).

[3] Bu hədisi Tirmizi (2370), Əbu Davud (5128) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

فِي سَبِيلِ اللَّهِ، لَقَدْ رَأَيْتُنِي أَغْزُو فِي الْعِصَابَةِ مِنْ أَصْحَابِ مُحَمَّدٍ عَلَيْهِ الصَّلاَةُ وَالسَّلاَمِ مَا نَأْكُلُ إِلاَّ وَرَقَ الشَّجَرِ وَالْحُبْلَةِ حَتَّى تَقَرَّحَتْ أَشْدَاقُنَا، وَإِنَّ أَحَدَنَا لَيَضَعُ كَمَا تَضَعُ الشَّاةُ وَالْبَعِيرُ، وَأَصْبَحَتْ بَنُو أَسَدٍ يَعْزُرُونِي فِي الدِّينِ. لَقَدْ خِبْتُ وَخَسِرْتُ إِذًا وَضَلَّ عَمَلِي)).

(373) ..... Səd ibn Əbu Vəqqas ﷺ demişdir: "Allah yolunda ilk qan tökən, habelə Allah yolunda ilk ox atan adam mənəm.[1] Mən Muhəmmədin ﷺ səhabələrindən ibarət bir dəstədə[2] döyüşərdim. Biz (yeməyə bir şey tapmadığımızdan) ancaq ağac yarpağı və akasiya[3] qabığı yeyərdik. İş o yerə gəlib çatmışdı ki, ordlarımız[4] yara bağlamış, nəcisimiz də qoyunun və dəvənin nəcisinə bənzəyirdi.[5] (Bu gün isə) Əsəd oğulları mənə namaz öyrədirlər.[6] Belə olsaydı, mən naümid qalar və ziyana uğrayar, əməlim də puç olub gedərdi"[1]

---

[1] Səd ibn Əbu Vəqqasın ﷺ bu sözü yalnız bu ümmətə aiddir. Belə ki, bu ümmətdən əvvəl gəlib-getmiş müsəlmanlar da Allahın dinini yaymaq məqsədilə Allah yolunda vuruşmuşlar. Buna Davudun عليه السلام Calutu öldürməsini misal çəkmək olar (Bax: "əl-Bəqərə", 251).

[2] Burada "dəstə" deyildikdə, on nəfərdən qırx nəfərədək adamlardan ibarət toplum nəzərdə tutulur. Söhbət İslamın əvvəllərində keçirilən döyüşlərdə iştirak edən müsəlmanlardan gedir. Belə ki, sonralar Allah yolunda vuruşan müsəlmanların sayı üç yüz, min, on min, otuz min, hətta bundan da çox olmuşdur.

[3] Paxlalılar fəsiləsindən ağac və kol bitkisi.

[4] Ord: ağız boşluğunun yanaqlar tərəfində olan hissələrindən biri.

[5] Yəni, yarpaq və qabıq yediklərinə görə nəcisləri quru olardı.

[6] Burada Səd ibn Əbu Vəqqas bu sözü kinayə ilə deyir. Yəni, demək istəyir ki, "onlar mənim namazımda nöqsan tutur, onu doğru-düzgün qılmadığımı söyləyirlər." Bu xüsusda varid olmuş hədisdə

rəvayət edilir ki, kufəlilər Ömərə Səd ibn Əbu Vəqqasdan şikayət etdilər, hətta onun namazı lazımı qaydada qılmadığını belə iddia etdilər. Onda Səd ibn Əbu Vəqqas Ömərə "Vallahi ki, mən onlara Peyğəmbərin ﷺ namazını qıldırmışam və bundan heç bir şey əskiltməmişəm" dedi, sonra da o, azğınların başçısına belə bəddua etdi: "Allahım! Əgər sənin bu qulun yalançıdırsa, üstəlik, bunu özünü göstərmək və ad qazanmaq məqsədi ilə edirsə, onda onun ömrünü uzat, yoxsulluğunu artır və onu bəlalara düçar et!" *Uca Allah Sədin duasını qəbul etdi.* Sonralar həmin adamdan *onun halı barədə* soruşanda deyərdi: "Mən başıbəlalı bir qocayam, məni Sədin bədduası tutub." (Hədisin ravisi Abdul-Malik demişdir): "Sonralar mən o adamı gördüm, o qədər qocalmışdı ki, qaşları gözlərinin üstünə düşmüşdü, özü də küçələrdə cariyələrə əl atırdı" (Səhih əl-Buxari, 755). Bu həmin Səd ibn Əbu Vəqqasdır ﷺ ki, Peyğəmbər ﷺ onun üçün ayrıca dua edib demişdir: "Allahım, Səd nə vaxt Sənə dua etsə, onun duasını qəbul elə!" (Sunən ət-Tirmizi, 4117; Səhih ət-Tirmizi, 2950; Mişkatul-Məsabih, 6116). Yeri gəlmişkən, qeyd edək ki, bu günkü gündə də müsəlman ümmətini parçalayan əsas amillərdən biri də müsəlmanın hər eşitdiyini danışması və bu yalanın ümmət arasında yayılmasıdır. Halbuki, Peyğəmbər ﷺ beləsinin cəhənnəmlik olduğunu xəbər verib demişdir: "Dedi-qodu yayan Cənnətə girməz!" (Səhih əl-Buxari, 6056). Əbu Hureyrə ﷺ rəvayət edir ki, bir dəfə Peyğəmbər ﷺ səhabələrindən: "Bilirsiniz müflis kimdir?"– deyə soruşdu. Onlar: "Müflis, ya Rəsulullah, nə bir dirhəmi, nə də bir malı olan kimsələrimizdir"– deyə cavab verdilər. Onda Rəsulullah ﷺ dedi: "Ümmətimin müflisləri o kəslərdir ki, onlar Qiyamət günü namazla, orucla və zəkatla, habelə, birisini söymüş, birisinə böhtan atmış, birisinin malını yemiş, birisinin qanını tökmüş, birisini də vurmuş olduğu halda (Allahın hüzuruna) gələcək və (zülm etdiyi) bu adamlar ondan qisas alaraq, onun savablarından götürəcəklər. Əgər ondan tam olaraq qisas alınmadan öncə savabları qurtararsa, həmin adamların günahlarından götürülüb onun günahları üzərinə əlavə edilər, sonra da bu adam Cəhənnəm oduna atılar" (Sunən ət-Tirmizi, 248; Səhih Tərğib vət-Tərhib, 2843). Demək, əməlisaleh insanların haqqı tapdalandıqca, onların yalnız savabı artar. Rəvayət edilir ki, bir dəfə möminlərin anası Aişəyə رضي الله عنها

٣٧٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ قَالَ: حَدَّثَنَا صَفْوَانُ بْنُ عِيسَى، قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ عِيسَى أَبُو نَعَامَةَ الْعَدَوِيُّ قَالَ: سَمِعْتُ خَالِدَ بْنَ عُمَيْرٍ، وَشُوَيْسًا أَبَا الرَّقَادِ، قَالاَ: بَعَثَ عُمَرُ بْنُ الْخَطَّابِ عُتْبَةَ بْنَ غَزْوَانَ وَقَالَ: انْطَلِقْ أَنْتَ وَمَنْ مَعَكَ، حَتَّى إِذَا كُنْتُمْ فِي أَقْصَى بِلاَدِ الْعَرَبِ، وَأَدْنَى بِلاَدِ الْعَجَمِ فَأَقْبِلُوا، حَتَّى إِذَا كَانُوا بِالْمِرْبَدِ وَجَدُوا هَذَا الْكِذَّانَ، فَقَالُوا: مَا هَذِهِ؟ قَالُوا: هَذِهِ الْبَصْرَةُ فَسَارُوا حَتَّى إِذَا بَلَغُوا حِيَالَ الْجِسْرِ الصَّغِيرِ، فَقَالُوا: هَهُنَا أُمِرْتُمْ، فَنَزَلُوا – فَذَكَرُوا الْحَدِيثَ بِطُولِهِ.

فَقَالَ عُتْبَةُ بْنُ غَزْوَانَ: لَقَدْ رَأَيْتُنِي وَإِنِّي لَسَابِعُ سَبْعَةٍ مَعَ رَسُولِ اللَّهِ ﷺ مَا لَنَا طَعَامٌ إِلاَّ وَرَقَ الشَّجَرِ حَتَّى تَقَرَّحَتْ أَشْدَاقُنَا، فَالْتَقَطْتُ بُرْدَةً فَشَقَقْتُهَا بَيْنِي وَبَيْنَ سَعْدٍ، فَمَا مِنَّا مِنْ أُولَئِكَ السَّبْعَةُ أَحَدٌ إِلاَّ وَهُوَ أَمِيرُ مِصْرٍ مِنَ الأَمْصَارِ وَسَتُجَرِّبُونَ الأُمَرَاءَ بَعْدَنَا.

---

xəbər verdilər ki, bəzi adamlar Peyğəmbərin ﷺ səhabələrini söyür, hətta Əbu Bəkr və Ömərə belə dil uzadırlar. Onda Aişə رضي الله عنها onlara belə cavab verdi: “Siz buna təəccüb edirsiniz?! O səhabələrin əməl dəftəri bağlanmış, lakin Allah onların savablarının artmasını istəmişdir” (əl-Fiqhu fi Ahdis-Səhabə, 1/18).

[1] Bu hədisin isnadında keçən Ömər ibn İsmail ibn Mucalid “mətruk” və onun atası İsmail ibn Mucalid “səduq” ravidir (ət-Təqrib). Lakin bu hədisin mətnini Buxari (3522), Muslim (2966), Tirmizi (2367), İbn Macə (131) və Əhməd (1/174) rəvayət etmişdir. Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

(374) ..... Xalid ibn Umeyr və Şuveys demişlər: "Ömər ibn Xəttab, Utbə ibn Ğəzvanı[1] (döyüşə) yollayıb dedi: "Sən öz əsgərlərinlə birgə yola düş. Elə ki gəlib ərəblərin ən uzaq diyarına və əcəmlərin ən yaxın diyarına çatdınız, (həmin yerdə düşərgə salın)." Nəhayət, onlar gəlib (Bəsrə) mirbədinə[2] yetişdikdə, orada ağ rəngə çalan boş daşlar[3] gördülər və (bir-birilərindən): "Bu, nə yerdir?"– deyə soruşdular. (Onlara): "Bura Bəsrədir"[4]– dedilər. Sonra onlar yollarına davam etdilər. Nəhayət, gəlib kiçik bir körpünün[5] başına çatdılar və: "Bizə buraya gəlmək əmr edilmişdir"– dedilər, sonra da orada düşərgə saldılar." (Ravilər[6]) bu hədisi axıra kimi danışdılar.

---

[1] Əbu Ğəzvan Utbə ibn Ğəzvan ibn Cabir əl-Mazini ﷺ Peyğəmbərin ﷺ məşhur səhabəsidir. İslamı ilk əvvəl qəbul edənlərdən, habelə, Həbəşistana hicrət edənlərdəndir (Siyər Əlam ən-Nubələ, 59-cu tərcümeyi-hal).

[2] Mirbəd: dəvə və qoyun saxlamaq, habelə, xurma qurutmaq üçün ayrılmış düz yerdir. Səhabələrin oraya yollanmaqlarının səbəbi bu idi ki, həmin vaxt Fars hökmdarı Hind hökmdarından mədəd diləyirdi.

[3] Burada "boş daşlar" deyildikdə, uzun müddət günün altında qalmaqdan boşalmış və getdikcə ovxalanıb qırıq-qırıq olan daşlar nəzərdə tutulur.

[4] Hədisdə "bura Bəsrədir" deyildikdə, məşhur Bəsrə şəhərinin özü nəzərdə tutulmur. Belə ki, həmin vaxt bu şəhər hələ salınmamışdı. Bu xüsusda Səm'ani demişdir: "Bəsrə şəhəri İslamın qübbəsi və ərəblərin xəzinəsi sayılır. Bu şəhər Ömər ibn Xəttabın ﷺ xilafəti dövründə Peyğəmbərin ﷺ Utbə ibn Ğəzvan ﷺ adlı səhabəsi tərəfindən təsis edilmişdir. O, bu şəhərin binasını hicrətin 17-ci ilində qoymuş və 18-ci ilində insanlar oraya köçməyə başlamışlar" (Şərh ən-Nəvəvi, 1/70).

[5] Söhbət Dəclə çayının üstündən salınmış körpüdən gedir.

[6] Yəni, Xalid və Şuveys.

Utbə ibn Ğəzvan dedi: "Mən Rəsulullahın ﷺ yanında olan yeddi nəfərin yeddincisi idim.[1] Bizim ağac yarpağından başqa bir yeməyimiz yox idi. (Yarpaq yeməkdən) ordlarımız yara bağlamışdı. O vaxt mən bir bürüncək götürüb onu Səd[2] ilə öz aramda iki yerə böldüm.[3] Bu gün isə o yeddi nəfərdən hər biri bir şəhərin əmiridir. Bizdən sonra siz də əmirlik xüsusunda imtahan olunacaqsınız."[4]

---

[1] Bunu deməklə, o, İslamı ilk əvvəl qəbul edənlərdən olduğunu bildirmək istəmişdir.

[2] Burada "Səd" deyildikdə, Səd ibn Malik ﷺ qəsd edilir (Səhih Muslim, 2967).

[3] Səhabə demək istəyir ki, bu bürüncəyi iki yerə bölüb bir yarısını ona vermiş, o biri yarısını da özünə götürmüşdür.

[4] Bu hədisin isnadında keçən Amr ibn İsa Əbu Nəamə əl-Bəsri "hafizəsi qarışmış səduq" ravidir (ət-Təqrib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin əvvəlinin "zəif" olduğunu, Utbə ibn Ğəzvanın ﷺ sözünün isə "səhih" olduğunu demişdir. Səhabənin dedikləri Muslimin "Səhih"ində (2967) varid olmuş hədisdə öz təsdiqini tapmışdır. Rəvayət edilir ki, Xalid ibn Umeyr əl-Ədəvi demişdir: "(Bir dəfə) Utbə ibn Ğəzvan bizə xütbə verdi və Allaha həmd-səna etdikdən sonra dedi: "Amma sonra... Həqiqətən, bu dünya artıq öz faniliyini elan etmiş və sürətlə dönüb uzaqlaşmışdır. Ondan ancaq qabın dibində qalmış bir içimlik su kimi az bir şey qalmışdır ki, sahibi qabın dibində qalmış o qalığı dərhal içir. Heç şübhəsiz ki, siz bu dünyadan, fani olmayan bir yurda köçəcəksiniz. Elə isə, o yurda əlinizdə olan ən xeyirli şeylərlə (saleh əməllərlə) köçün! Həqiqətən, bizə xəbər verilmişdir ki, Cəhənnəmin qırağından onun içinə atılan daş (onun dibinə doğru) yetmiş il yol gedir, lakin gedib dibinə çatmır. Allaha and olsun ki, (bu böyüklükdə olan Cəhənnəm) mütləq doldurulacaqdır. Siz (buna) heyrətmi edirsiniz?! Bizə xəbər verilmişdir ki, Cənnət qapılarındakı laylardan hər iki lay arasındakı məsafə qırx illik gediləcək yol qədərdir.

٣٧٥- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا رَوْحُ بْنُ أَسْلَمَ أَبُو حَاتِمٍ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، قَالَ: حَدَّثَنَا ثَابِتٌ، عَنْ أَنَسٍ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((لَقَدْ أُخِفْتُ فِي اللهِ وَمَا يَخَافُ أَحَدٌ، وَلَقَدْ أُوذِيتُ فِي اللهِ وَمَا يُؤْذَى أَحَدٌ، وَلَقَدْ أَتَتْ عَلَيَّ ثَلاثُونَ مِنْ بَيْنِ لَيْلَةٍ وَيَوْمٍ، وَمَا لِي وَلِبِلالٍ طَعَامٌ يَأْكُلُهُ ذُو كَبِدٍ، إلا شَيْءٌ يُوَارِيهِ إِبِطُ بِلالٍ)).

(375) ..... Ənəs ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Mən Allah yolunda qorxudulduğum qədər heç kəs qorxudulmamış, habelə, Allah yolunda mənə verilən əziyyət qədər, heç kəsə əziyyət verilməmişdir.[1] Düz otuz gün və otuz gecə nə mənim, nə də Bilalın, (hər hansı) bir

---

Nəhayət, gün gələcək Cənnət izdihamdan dolayı dopdolu olacaqdır. Mən Rəsulullahın ﷺ yanında olan yeddi nəfərin yeddincisi idim. Bizim ağac yarpağından başqa bir yeməyimiz yox idi. (Yarpaq yeməkdən) ordlarımız yara bağlamışdı. O vaxt mən bir bürüncək götürüb onu Səd ilə öz aramda iki yerə böldüm. Bir yarısını mən öz belimə doladım, o biri yarısını da Səd öz belinə doladı. Bu gün isə bizlərdən (yəni, o yeddi nəfərdən) hər biri bir şəhərin əmiridir. Mən öz gözümdə böyük olub, Allah yanında kiçik olmaqdan, Allaha sığınıram! Həqiqətən, heç bir peyğəmbərlik qalmamışdır, hamısı bir-birini nəsx etmişdir. Nəhayət, peyğəmbərlik sona çatdıqdan sonra padşahlıq dövrü başlamışdır. Tezliklə, siz həqiqətləri biləcəksiniz və bizdən sonra əmirlik xüsusunda imtahan olunacaqsınız.”

[1] Söhbət İslamın əvvəllərində Peyğəmbərin ﷺ başına gəlmiş müsibətlərdən gedir. O ağır vaxtlarda müşriklər Peyğəmbərə ﷺ o ki var hədə-qorxu gələr və yeri gəldikdə, ona əziyyət də verərdilər.

canlının yediyi yeməyi tək bir yeməyi olardı. Yalnız Bilalın qoltuğu altında gizlətdiyi az bir şeydən başqa.”[1]

٣٧٦- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ، قَالَ: حَدَّثَنَا عَفَّانُ بْنُ مُسْلِمٍ، قَالَ: حَدَّثَنَا أَبَانُ بْنُ يَزِيدَ الْعَطَّارُ، قَالَ: حَدَّثَنَا قَتَادَةُ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّ النَّبِيَّ ﷺ، لَمْ يَجْتَمِعْ عِنْدَهُ غَدَاءٌ وَلا عَشَاءٌ مِنْ خُبْزٍ وَلَحْمٍ، إِلا عَلَى ضَفَفٍ.

قَالَ عَبْدُ اللهِ، قَالَ بَعْضُهُمْ: هُوَ كَثْرَةُ الأَيْدِي.

(376) ..... Ənəs ibn Malik ﷺ rəvayət edir ki, çox nadir hallarda Peyğəmbərin ﷺ nahar və şam yeməyində ət və çörək olardı.”

Abdullah demişdir: Bəziləri (“Nadir hal”ı), yeməyə uzanan əllərin çox olması[2] kimi izah etmişlər.”[3]

٣٧٧- حَدَّثَنَا عَبْدُ بْنُ حُمَيْدٍ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ إِسْمَاعِيلَ بْنِ أَبِي فُدَيْكٍ، قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي ذِئْبٍ، عَنْ مُسْلِمِ بْنِ جُنْدُبٍ، عَنْ نَوْفَلِ بْنِ إِيَاسٍ الْهُذَلِيِّ، قَالَ: ((كَانَ عَبْدُ الرَّحْمَنِ بْنُ عَوْفٍ لَنَا جَلِيسًا، وَكَانَ نِعْمَ الْجَلِيسُ، وَإِنَّهُ انْقَلَبَ بِنَا ذَاتَ يَوْمٍ، حَتَّى إِذَا دَخَلْنَا بَيْتَهُ وَدَخَلَ فَاغْتَسَلَ، ثُمَّ خَرَجَ وَأُوتِيْنَا بِصَحْفَةٍ فِيهَا خُبْزٌ وَلَحْمٌ، فَلَمَّا وُضِعَتْ بَكَى عَبْدُ الرَّحْمَنِ، فَقُلْتُ لَهُ: يَا أَبَا

---

[1] Bu hədisi Tirmizi (2474), İbn Macə (151), Əhməd (3/120) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

[2] 72-ci hədisə bax.

[3] Bu hədisi Əhməd (3/270) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində onun “səhih” olduğunu demişdir.

مُحَمَّدٍ، مَا يُبْكِيكَ؟ فَقَالَ: هَلكَ رَسُولُ اللهِ ﷺ، وَلَمْ يَشْبَعْ هُوَ وَأَهْلُ بَيْتِهِ مِنْ خُبْزِ الشَّعِيرِ فَلا أَرَانَا أُخِّرْنَا لِمَا هُوَ خَيْرٌ لَنَا)).

(377) ..... Nofəl ibn İyas əl-Huzəli ﷺ demişdir: "Abdur-Rəhman ibn Auf bizim dostumuz idi və bizim ən gözəl dostlarımızdan idi. Bir gün biz onunla birlikdə (bir məclisdən) qayıdarkən (yol üstü) onun evinə getdik. O, evə daxil olub qüsl etdikdən sonra bizə içində çörək və ət olan bir sini yemək gətirdilər. Yemək qabağımıza qoyulduqda, Adbur-Rəhman ağlamağa başladı.[1] Mən ondan: "Ey Əbu Muhəmməd, səni ağladan nədir?"– deyə soruşdum. O dedi: "Rəsulullah ﷺ vəfat edənədək nə özü, nə də ailəsi arpa çörəyindən doyunca yemişdir.[2] Mən (Rəsulullahdan ﷺ sonra) bizə nəsib olan bu nemətlərin bizim xeyrimizə olduğunu güman etmirəm."[3]

---

[1] Rəvayət edilir ki, İbrahim demişdir: "(Bir gün) Abdur-Rəhman ibn Auf ﷺ oruc ikən, ona yemək gətirdilər. Onda Abdur-Rəhman dedi: "(Qardaşım) Musab ibn Umeyr (Uhud döyüşündə) şəhid oldu. (Düşünürəm ki,) o, məndən daha xeyirlidir. Onu elə bir bürüncəkdə dəfn etdilər ki, bu bürüncəyi onun ayaqlarına örtdükdə başı açıq qalırdı, başını örtdükdə isə ayaqları açıq qalırdı. Həmçinin, Həmzə də (o döyüşdə) şəhid oldu. O da, məndən xeyirlidir. Sonra isə bizə bu gördüyünüz dünya malından əta edildi. Qorxuram, bu nemətlər bizə yalnız bu dünyada verilmiş olsun." Sonra Abdur-Rəhman ağlamağa başladı və bu yeməyi yemədi" (Səhih əl-Buxari, 1196).

[2] 143-cü, 144-cü və 149-cu hədislərə bax.

[3] Bu hədisi Əbu Nueym "Hilyə" əsərində (1/99-100) rəvayət etmişdir. Hədisin isnadında keçən Nofəl ibn İyas "məqbul" ravidir (ət-Təqrib). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

٥٣- بَاب سِنّ رسول الله ﷺ

53-cü fəsil. Rəsulullahın ﷺ yaşı

٣٧٨- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا رَوْحُ بْنُ عُبَادَةَ، قَالَ: حَدَّثَنَا زَكَرِيَا بْنُ إِسْحَاقَ، قَالَ: حَدَّثَنَا عَمْرُو بْنُ دِينَارٍ، عَنِ ابْنِ عَبَّاسٍ، قَالَ: ((مَكَثَ النَّبِيُّ ﷺ بِمَكَّةَ ثَلاثَ عَشْرَةَ سَنَةً يُوحَى إِلَيْهِ، وَ بِالْمَدِينَةِ عَشْرًا، وَتُوُفِّيَ وَهُوَ ابْنُ ثَلاثٍ وَسِتِّينَ)).

(378) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbərə ﷺ vəhy nazil olduqdan sonra[1] on üç il Məkkədə və on il Mədinədə yaşadı. (Nəhayət,) o, altmış üç yaşında vəfat etdi."[2]

٣٧٩- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، عَنْ شُعْبَةَ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ عَامِرِ بْنِ سَعْدٍ، عَنْ جَرِيرٍ، عَنْ مُعَاوِيَةَ، أَنَّهُ سَمِعَهُ يَخْطُبُ، قَالَ: ((مَاتَ رَسُولُ اللهِ ﷺ وَهُوَ ابْنُ ثَلاثٍ وَسِتِّينَ وَأَبُو بَكْرٍ وَعُمَرُ، وَأَنَا ابْنُ ثَلاثٍ وَسِتِّينَ سنة)).

---

[1] Yəni, ona qırx yaşında peyğəmbərlik verildikdən sonra. Digər bir hədisdə İbn Abbas رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ qırx yaşında ikən ona *vəhy* nazil olmuşdur. *Bundan sonra,* o, on üç il Məkkədə yaşamış, sonra ona hicrət etmək əmr edilmiş və o, Mədinəyə hicrət etmişdir. On il də Mədinədə yaşadıqdan sonra o, vəfat etmişdir" (Səhih əl-Buxari, 3851).

[2] Bu hədisi Buxari (3689), Muslim (2351), Tirmizi (2653) və Əhməd (1/370) rəvayət etmişdir.

(379) ..... Rəvayət edilir ki, Cərir Müaviyənin[1] xütbədə belə dediyini eşitmişdir: "Rəsulullah ﷺ altmış üç yaşında vəfat etmişdir. Əbu Bəkr və Ömər də habelə. Mənim də altmış üç yaşım var.[2]"[3]

٣٨٠- حَدَّثَنَا حُسَيْنُ بْنُ مَهْدِيٍّ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّزَّاقِ، عَنِ ابْنِ جُرَيْجٍ، عَنِ الزُّهْرِيِّ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ، أَنَّ النَّبِيَّ ﷺ، مَاتَ وَهُوَ ابْنُ ثَلاثٍ وَسِتِّينَ سَنَةً.

(380) ..... Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbər ﷺ altmış üç yaşında vəfat etmişdir.[4]

٣٨١- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، وَيَعْقُوبُ بْنُ إِبْرَاهِيمَ الدَّوْرَقِيُّ، قَالا: حَدَّثَنَا إِسْمَاعِيلُ بْنُ عُلَيَّةَ، عَنْ خَالِدٍ الْحَذَّاءِ، قَالَ: أَنْبَأَنَا عَمَّارٌ مَوْلَى بَنِي هَاشِمٍ، قَالَ: سَمِعْتُ ابْنَ عَبَّاسٍ، يَقُولُ: ((تُوُفِّيَ رَسُولُ اللَّهِ ﷺ، وَهُوَ ابْنُ خَمْسٍ وَسِتِّينَ)).

---

[1] Əbu Abdur-Rəhman Müaviyə ibn Əbu Süfyan ibn Saxr ibn Hərb əl-Əməvi əl-Qurəşi Peyğəmbərin ﷺ məşhur səhabəsidir.

[2] Burada Müaviyə onlar kimi altmış üç yaşında vəfat etməsini təmənna edir. Mirak demişdir: "O, altmış üç yaşında vəfat etməsini təmənna etsə də, arzusuna çatmamış, səksən yaşına qədər yaşamışdır" (Tohfətul-Əhvəzi, 3586-cı hədisin şərhi).

[3] Bu hədisi Muslim (2352), Tirmizi (3654) və Əhməd (4/96) rəvayət etmişdir.

[4] Bu hədisi Tirmizi (3655) rəvayət etmişdir. Hədisin isnadında keçən ibn Cureyc "mudəllis" ravidir. Lakin digər "səhih" hədislər bu hədisi qüvvətləndirdiyindən, Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

(381) ..... İbn Abbas رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ altmış beş yaşında vəfat etmişdir."[1]

٣٨٢- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، وَمُحَمَّدُ بْنُ أَبَانَ، قَالا: حَدَّثَنَا مُعَاذُ بْنُ هِشَامٍ، قَالَ: حَدَّثَنِي أَبِي، عَنْ قَتَادَةَ، عَنِ الْحَسَنِ، عَنْ دَغْفَلِ بْنِ حَنْظَلَةَ، أَنَّ النَّبِيَّ ﷺ، قُبِضَ وَهُوَ ابْنُ خَمْسٍ وَسِتِّينَ.

قَالَ أَبُو عِيسَى: وَدَغْفَلٌ، لا نَعْرِفُ لَهُ سَمَاعًا مِنَ النَّبِيِّ ﷺ، وَكَانَ فِي زَمَنِ النَّبِيِّ ﷺ.

(382) ..... Dəğfəl ibn Hənzələ rəvayət edir ki, Peyğəmbər ﷺ altmış beş yaşında vəfat etmişdir."[2]

Əbu İsa (ət-Tirmizi) demişdir: "Biz Dəğfəlin Peyğəmbərdən ﷺ hədis eşitdiyini bilmirik.[3] O, Peyğəmbərin ﷺ zamanında yaşamışdır."

٣٨٣- حَدَّثَنَا إِسْحَاقُ بْنُ مُوسَى الأَنْصَارِيُّ، قَالَ: حَدَّثَنَا مَعْنٌ، قَالَ: حَدَّثَنَا مَالِكُ بْنُ أَنَسٍ، عَنْ رَبِيعَةَ بْنِ أَبِي عَبْدِ الرَّحْمَنِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، أَنَّهُ سَمِعَهُ، يَقُولُ: ((كَانَ رَسُولُ اللهِ ﷺ، لَيْسَ بِالطَّوِيلِ الْبَائِنِ، وَلا بِالْقَصِيرِ، وَلا

---

[1] Bu hədisi Buxari (3689), Muslim (2351), Tirmizi (2653) və Əhməd (1/370) rəvayət etmişdir.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir.

[3] İmam Buxari demişdir: "Biz Həsənin Dəğfəldən hədis eşitdiyini bilmirik. Habelə, Dəğfəlin Peyğəmbəri ﷺ gördüyünü də bilmirik" (Təhzib ət-Təhzib, 399-cu tərcümeyi-hal).

بِالأَبْيَضِ الأَمْهَقِ، وَلا بِالآدَمِ، وَلا بِالْجَعْدِ الْقَطَطِ، وَلا بِالسَّبْطِ، بَعَثَهُ اللَّهُ تَعَالَى عَلَى رَأْسِ أَرْبَعِينَ سَنَةً، فَأَقَامَ بِمَكَّةَ عَشْرَ سِنِينَ، وَبِالْمَدِينَةِ عَشْرَ سِنِينَ، وَتَوَفَّاهُ اللَّهُ عَلَى رَأْسِ سِتِّينَ سَنَةً، وَلَيْسَ فِي رَأْسِهِ وَلِحْيَتِهِ عِشْرُونَ شَعَرَةً بَيْضَاءَ)).

(383) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Peyğəmbər ﷺ nə çox hündürboy, nə də bəstəboy idi, nə dümağ dərili, nə də qarayanız idi, saçları da nə tamamilə qıvrım, nə də dümdüz idi. Onun qırx yaşı tamam olduqda Allah onu peyğəmbər göndərdi. (Bundan sonra) o, on il Məkkədə, on il də Mədinədə yaşadı. Uca Allah Peyğəmbərin ﷺ, altmış yaşında ikən ruhunu aldıqda, onun saç-saqqalında heç iyirmi ədəd ağ tük yox idi."[1]

٣٨٤- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، عَنْ مَالِكِ بْنِ أَنَسٍ، عَنْ رَبِيعَةَ بْنِ أَبِي عَبْدِ الرَّحْمَنِ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، نَحْوَهُ.

(384) Bizə Quteybə ibn Səid, Malik ibn Ənəsdən, o da Rəbiə ibn Əbu Abdur-Rəhmandan, o da Ənəs ibn Malikdən bu hədisin bənzərini rəvayət etmişdir.

[1] Əbu İsa ət-Tirmizi eyni hədisi kitabın əvvəlində varid etmişdir (1-ci hədisə bax).

٥٤- بَابٌ فِي وَفاة رسول الله ﷺ

54-cü fəsil. Rəsulullahın ﷺ vəfatı[1] barədə [varid olanlar]

٣٨٥- حَدَّثَنَا أَبُو عَمَّارٍ الْحُسَيْنُ بْنُ حُرَيْثٍ، وَقُتَيْبَةُ بْنُ سَعِيدٍ، وَغَيْرُ وَاحِدٍ، قَالُوا: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنِ الزُّهْرِيِّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((آخِرُ نَظْرَةٍ نَظَرْتُهَا إِلَى رَسُولِ اللهِ ﷺ، كَشْفُ السِّتَارَةِ يَوْمَ الاثْنَيْنِ، فَنَظَرْتُ إِلَى وَجْهِهِ كَأَنَّهُ وَرَقَةُ مُصْحَفٍ، وَالنَّاسُ خَلْفَ أَبِي بَكْرٍ، فَكَادَ النَّاسُ أَنْ يَضْطَرِبُوا، فَأَشَارَ إِلَى النَّاسِ أَنِ اثْبُتُوا، وَأَبُو بَكْرٍ يَؤُمُّهُمْ وَأَلْقَى السِّجْفَ، وَتُوُفِّيَ رَسُولُ اللهِ ﷺ مِنْ آخِرِ ذَلِكَ الْيَوْمِ)).

(385) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ (vəfatına səbəb olan xəstəliyə tutulduğu zaman[2]) bazar ertəsi mən axırıncı kərə onun üzünü gördüm. Həmin vaxt o, (qaldığı hücrənin) pərdəsini qaldırdı və mən onun üzünə baxdım. Onun üzü, sanki Quran kağızı[3] idi.[4] (Bu əsnada)

---

[1] Uca Allah Peyğəmbərin ﷺ vəfat edəcəyi barədə Qurani Kərimdə belə buyurur: "**Sözsüz ki, sən də öləcəksən, onlar da öləcəklər!**" (əz-Zumər, 30).

[2] Hicrətin 11-ci ilində – səfər ayında Peyğəmbərin ﷺ xəstəliyi şiddətlənmiş, bu xəstəlik on üç gün, yaxud bundan bir gün artıq və ya bir gün əskik davam etmiş və nəhayət, rabiyəl-əvvəl ayında o, vəfat etmişdir (Fəthul-Bari).

[3] Burada Peyğəmbərin ﷺ üzünün gözəlliyi, ağlığı və nuraniliyi nəzərdə tutulur.

[4] Buxarinin rəvayətində xəbər verilir ki, Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ (hücrəsinin pərdəsini qaldırıb camaatın namaza

camaat Əbu Bəkrin arxasında namaza durmuşdu.[1] Onlar (Peyğəmbəri ﷺ görəndə sevinclərindən) az qaldılar ki, namazdan çıxsınlar. Əbu Bəkr camaata imamlıq edərkən, (Peyğəmbərin ﷺ namaz qılacağını zənn etdi və dala çəkilərək, arxasındakı cərgəyə keçdi), lakin Peyğəmbər ﷺ əli ilə camaata yerlərində qalmağı işarə etdi.[2] Sonra o, pərdəni aşağı saldı və həmin günün axırında[1] vəfat etdi."[2]

---

durduğunu gördükdə) təbəssüm etdi" (Səhih əl-Buxari, 680). Peyğəmbərin ﷺ ölüm ayağında ikən səhabələrinin camaat şəklində namaz qılmasını görüb təbəssüm etməsi, onlardan razı qaldığını, habelə, camaat olmağın nə dərəcədə vacib olduğunu bildirir.

[1] Söhbət sübh namazından gedir.

[2] Bu dəlildir ki, Peyğəmbər ﷺ Əbu Bəkrin ؓ camaata imam olmasından razı idi. Digər bir hədisdə rəvayət edilir ki, Cubeyr ibn Mutim ؓ demişdir: "(Bir dəfə) bir qadın Peyğəmbərin ﷺ yanına gəldi və o, qadına (bir müddətdən sonra) gəlməyi buyurdu. Qadın: "Bəs, gəlib səni tapmasam, necə olsun?"– deyə soruşdu. Sanki o, Peyğəmbərin ﷺ vəfat edəcəyini qəsd edirdi. Peyğəmbər ﷺ buyurdu: "Məni tapmasan, Əbu Bəkrin yanına gedərsən!" (Səhih əl-Buxari, 3659). Bir də ki, Peyğəmbərin ﷺ özü, Əbu Bəkri ؓ camaata imam təyin etmişdi. Rəvayət edilir ki, Aişə ؓ demişdir: "Peyğəmbər ﷺ xəstələndiyi zaman buyurdu: "Əbu Bəkrə deyin, camaata namaz qıldırsın!" Mən dedim: "Əbu Bəkr sənin yerinə imamlıq etsə, onun ağlamağı üzündən camaat heç nə eşidə bilməyəcək. Buna görə də camaata namaz qıldırmağı Ömərə həvalə et." Lakin Peyğəmbər ﷺ yenə təkidlə buyurdu: "Əbu Bəkrə deyin, camaata namaz qıldırsın!" (Səhih əl-Buxari, 679). Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbər ﷺ yatağa düşdükdən və Əbu Bəkrə ؓ camaata namaz qıldırmağı tapşırdıqdan sonra hərdən özündə güc tapar və gəlib camaata namazı özü qıldırardı. Nəhayət, cümə günü axşamüstü onun ağrıları şiddətləndi və bundan sonra o, vəfat edənədək camaat namazına gələ bilmədi. Demək, Peyğəmbər ﷺ hələ həyatda ikən Əbu Bəkr ؓ

٣٨٦- حَدَّثَنَا حُمَيْدُ بْنُ مَسْعَدَةَ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا سُلَيْمُ بْنُ أَخْضَرَ، عَنِ ابْنِ عَوْنٍ، عَنِ إِبْرَاهِيمَ، عَنِ الأَسْوَدِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((كُنْتُ مُسْنِدَةً النَّبِيَّ ﷺ، إِلَى صَدْرِي أَوْ قَالَتْ: إِلَى حِجْرِي فَدَعَا بِطَسْتٍ لِيَبُولَ فِيهِ، ثُمَّ بَالَ، فَمَاتَ)).

(386) ..... Aişə ؓ demişdir: “Mən Peyğəmbərin ﷺ (ölümqabağı yatağa düşdüyü zaman) başını sinəmə (yaxud dizimə[3]) söykəmişdim. Həmin vaxt o, bir tas gətizdirib onun içinə bövl etdi[4] və (çox keçmədən) vəfat etdi.”[5]

---

camaata, cümə gecəsinin, habelə, cümə, şənbə və bazar günlərinin namazlarını və bir də bazar ertəsinin sübh namazını qıldırmışdır.

[1] Buxarinin rəvayətində (648) “və həmin gün də vəfat etdi” deyilir. İbn Həcər bu hədisi izah edərkən demişdir: “İbn İshaq Peyğəmbərin ﷺ günortaüstü, günün istisinin şiddətləndiyi vaxt vəfat etdiyini xəbər vermişdir. Bu rəvayətləri cəm edib demək olar ki, Ənəsin ؓ hədisində “günün axırında” deyildikdə, gündüzün o biri yarısının əvvəli nəzərdə tutulur” (Fəthul-Bari).

[2] Bu hədisi Buxari (648), Muslim (419), Nəsai (1831), İbn Macə (1624) və Əhməd (3/110) rəvayət etmişdir.

[3] Bu şəkk, hədisin isnadında olan ravilərdən birinin şəkkidir. Səhih olanı budur ki, Peyğəmbərin ﷺ başı Aişənin ؓ sinəsinə söykənmiş idi. Rəvayət edilir ki, Aişə ؓ demişdir: “Allahın mənə bəxş etdiyi nemətlərdən *biri də o idi ki*, Peyğəmbər ﷺ mənim evimdə, mənim *növbəm çatdığı* gün və başı mənim sinəmin üstündə ikən vəfat etdi” (Səhih əl-Buxari, 4449).

[4] Bövl etmək: sidik ifraz etmək, təbii ehtiyacı rəf etmək deməkdir.

[5] Bu hədisi Buxari (4190), Muslim (1636), Nəsai (3624, 3625) və İbn Macə (1626) rəvayət etmişdir.

٣٨٧- حَدَّثَنَا قُتَيْبَةُ، قَالَ: حَدَّثَنَا اللَّيْثُ، عَنِ ابْنِ الْهَادِ، عَنْ مُوسَى بْنِ سَرْجِسَ، عَنِ الْقَاسِمِ بْنِ مُحَمَّدٍ، عَنْ عَائِشَةَ، أَنَّهَا قَالَتْ: ((رَأَيْتُ رَسُولَ اللهِ ﷺ، وَهُوَ بِالْمَوْتِ وَعِنْدَهُ قَدَحٌ فِيهِ مَاءٌ، وَهُوَ يُدْخِلُ يَدَهُ فِي الْقَدَحِ، ثُمَّ يَمْسَحُ وَجْهَهُ بِالْمَاءِ، ثُمَّ يَقُولُ: ((اللَّهُمَّ أَعِنِّي عَلَى مُنْكَرَاتِ أَوْ قَالَ: عَلَى سَكَرَاتِ الْمَوْتِ)).

(387) ..... Aişə ﵂ demişdir: “Mən Rəsulullahı ﷺ can verərkən gördüm. Yanında bir qədəh su var idi. O, əlini qədəhin içinə salır, sonra da yaş əlini üzünə sürtüb deyirdi: “Allahım, məni ölüm sıxıntılarından və ya ölüm bihuşluğundan qurtar.”[1]

---

[1] Bu hədisin isnadında keçən Musa ibn Sərcəs “məchul” ravidir. Muhəmməd Nasiрəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “zəif” olduğunu demişdir. Üstəlik, bu hədisdə varid olmuş Peyğəmbərin ﷺ: “Allahım, məni ölüm sıxıntılarından və ya ölüm bihuşluğundan qurtar” sözü, Buxarinin “Səhih”indəki hədisin ləfzinə ziddir. Bu hədisin isnadı zəif olsa da, bu hadisənin baş verməsi səhih hədislərdə öz əksini tapmışdır. Rəvayət edilir ki, Aişə ﵂ demişdir: “Peyğəmbər ﷺ ölüm ayağında ikən onun qabağında bir qab su var idi. O, əlini suyun içinə salır, sonra *yaş əlini* üzünə sürtüb deyirdi: “Lə ilahə illəllah! Həqiqətən də, ölümün bihuşluğu vardır.” Sonra əlini qaldırıb: “*Allahım, məni* uca dostlara *qovuşdur*!”– deməyə başladı. Nəhayət, ruhu bədənindən çıxdı və əli yanına düşdü” (Səhih əl-Buxari, 4449); başqa bir rəvayətdə Aişə ﵂ demişdir: “Peyğəmbər ﷺ vəfatından öncə kürəyini mənə söykəyib belə dediyini eşitdim: “Allahım, məni bağışla, mənə rəhm et və məni (uca) dostlara qovuşdur!” (Səhih əl-Buxari, 4440). digər bir hədisdə Aişə ﵂ demişdir: “Mən (Peyğəmbərin ﷺ tez-tez belə dediyini) eşidərdim: “Heç bir peyğəmbər özünə dünya həyatı ilə Axirət arasında seçim təklif edilməyincə ölmür.” *Həmçinin*, mən Peyğəmbərin ﷺ ölümü ilə nəticələnən xəstəliyə tutulduğu zaman xırıltılı səslə *bu ayəni*

٣٨٨- حَدَّثَنَا الْحَسَنُ بْنُ الصَّبَّاحِ الْبَزَّازُ، حَدَّثَنَا مُبَشِّرُ بْنُ إِسْمَاعِيلَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ الْعَلاءِ، عَنْ أَبِيهِ، عَنِ ابْنِ عُمَرَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((لا أَغْبِطُ أَحَدًا بَهَوْنِ مَوْتٍ بَعْدَ الَّذِي رَأَيْتُ مِنْ شِدَّةِ مَوْتِ رَسُولِ اللهِ ﷺ)).

قَالَ: سَأَلْتُ أَبَا زُرْعَةَ فَقُلْتُ لَهُ: مَنْ عَبْدُ الرَّحْمَنِ بْنُ العَلاَءِ هَذَا؟ قَالَ: هُوَ عَبْدُ الرَّحْمَنِ بْنُ الْعَلاَءِ بْنِ اللَّجْلاَجِ.

(388) ..... Aişə رضي الله عنها demişdir: "Mən Rəsulullahın ﷺ ölüm anında nələr çəkdiyini gördükdən[1] sonra kimsənin asanlıqla canını tapşıracağına qibtə etmirəm.[2]"[1]

---

oxuduğunu eşitdim: **"Allaha və *Onun* Elçisinə itaət edən kimsələr Allahın özlərinə nemət bəxş etdiyi peyğəmbərlərlə, sidq ürəkdən inananlarla, şəhidlərlə və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar necə də gözəl dostlardır."** Onda mən başa düşdüm ki, ona seçim verilmişdir" (Səhih əl-Buxari, 4435).

[1] Digər bir hədisdə Aişə رضي الله عنها demişdir: "Mən kimsənin (can verərkən), Rəsulullahın ﷺ ağrıları kimi ağrıları olduğunu görməmişəm" (Musnəd imam Əhməd, 6/172; Sunən ət-Tirmizi, 2577).

[2] Aişə رضي الله عنها demək istəyir ki, "əgər mən kimsənin ölüm bihuşluğunu rahat keçirdiyini, can üstə ikən ağrıları olmadığını bilsəydim, mən yenə ona qibtə etməzdim." Çünki Aişə رضي الله عنها Allahın ən fəzilətli bəndəsi – Muhəmmədin ﷺ belə ölüm bihuşluğunu ağır keçirdiyini öz gözləri ilə görmüşdür. Digər hədisdə rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: "Peyğəmbər ﷺ vəfat edərkən onun başı mənim sinəmin üstündə idi. Peyğəmbərin ﷺ vəfatından sonra mən heç vaxt, heç kəsin ölüm bihuşluğuna bu qədər nifrət etmədim" (Səhih əl-Buxari, 4446). Qeyd edək ki, mömin bəndənin ölüm bihuşluğunu ağır keçirməyinin səbəbi vardır. Bu xüsusda Ömər ibn Abdul-Əziz رحمه الله demişdir: "Mən arzulamıram ki, ölüm bihuşluğum mənim üçün rahat olsun. Çünki, o, möminin (bu dünyada) axırıncı savabını qazanması üçün bir vasitə və günahının bağışlanması üçün bir kəffarədir" (Şöəbul-İman, 9739; Hilyətul-Övliya, 5/316).

(Əbu İsa ət-Tirmizi) demişdir: "Mən Əbu Zuradan soruşdum: "Kimdir bu Abdur-Rəhman ibn Alə?" O dedi: "Bu, Abdur-Rəhman ibn Alə ibn Ləclacdır."

٣٨٩- حَدَّثَنَا أَبُو كُرَيْبٍ، قَالَ: حَدَّثَنَا أَبُو مُعَاوِيَةَ، عَنْ عَبْدِ الرَّحْمَنِ بْنِ أَبِي بَكْرٍ وَهُوَ ابْنُ الْمُلَيْكِيِّ، عَنِ ابْنِ أَبِي مُلَيْكَةَ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((لَمَّا قُبِضَ رَسُولُ اللهِ ﷺ، اخْتَلَفُوا فِي دَفْنِهِ، فَقَالَ أَبُو بَكْرٍ: سَمِعْتُ مِنْ رَسُولِ اللهِ ﷺ، شَيْئًا مَا نَسِيتُهُ، قَالَ: مَا قَبَضَ اللَّهُ نَبِيًّا إِلا فِي الْمَوْضِعِ الَّذِي يُحِبُّ أَنْ يُدْفَنَ فِيهِ، ادْفِنُوهُ فِي مَوْضِعِ فِرَاشِهِ)).

(389) ..... Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ vəfat etdikdən sonra (səhabələr) onun dəfni barədə ixtilafa düşdülər.[2] Onda Əbu Bəkr dedi: "Mən Rəsulullahdan ﷺ elə bir hədis eşitmişəm ki, (indiyədək) onu unutmamışam. O demişdir: "Allah (hər bir) peyğəmbərin (ruhunu) ancaq onun dəfn edilməsini istədiyi yerdə almışdır.[3] (Elə isə) onu, yatağının yerində dəfn edin."[1]

---

[1] Bu hədisi Tirmizi (979), Nəsai (1830) və Əhməd (6/74) rəvayət etmişdir. Hədisin isnadında keçən Abdur-Rəhman ibn Alə ibn Ləclac "məchul" ravidir. Elə bu səbəbdən də, bu isnad "zəif" hesab edilir. Lakin bu hədisin mətnini qüvvətləndirən digər "səhih" hədislər olduğundan, hədisin mətni "səhih" sayılır. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

[2] Səhabələr رضي الله عنهم Peyğəmbərin ﷺ dəfn edilib-edilməməsi və əgər dəfn ediləcəksə, harada dəfn edilməsi barədə ixtilafa düşdülər.

[3] Peyğəmbərimiz ﷺ Aişənin رضي الله عنها hücrəsində vəfat etmişdir. Hədisdən aydın olur ki, bu hökm yalnız peyğəmbərlərə aiddir. Adi

٣٩٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، وَعَبَّاسٌ الْعَنْبَرِيُّ، وَسَوَّارُ بْنُ عَبْدِ اللَّهِ، وَغَيْرُ وَاحِدٍ قَالُوا: حَدَّثَنَا يَحْيَى ابْنُ سَعِيدٍ، عَنْ سُفْيَانَ الثَّوْرِيِّ، عَنْ مُوسَى بْنِ

---

insanlar isə ancaq qəbiristanlıqda dəfn edilməlidirlər. Belə ki, mötəbər hədislərdə Peyğəmbər ﷺ müsəlmanlara öz evlərini qəbirstanlığa çevirməyi qadağan etmişdir (Səhih əl-Buxari, 432). Yeri gəlmişkən, qeyd edək ki, Peyğəmbərin ﷺ qəbrini Əbu Talhə Zeyd ibn Səhl ﷺ qazmış və onu camaxatanlı etmişdir. Camaxatan qədim fars sözüdür – yorğan-döşək, sandıq və s. qoymaq üçün divarın içində açılan dördkünc oyuğa camaxatan deyilir. Demək, Əbu Talhə ﷺ Peyğəmbərin ﷺ qəbrinin içəri tərəfindən, onun sağ divarında oyuq qazmışdır. Buna ərəbcə "ləhd" deyilir. Ənəs ibn Malik ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ vəfat etdiyi zaman Mədinədə iki nəfər qəbirqazan var idi. Biri qəbirləri camaxatanlı, digəri isə camaxatansız şəkildə qazardı. Səhabələr dedilər: "Gəlin, Rəbbimizdən daha xeyirli olanı bizə göstərməsini diləyək və hər iki qəbirqazanın yanına adam göndərək. Hansı biri tez gəlsə, o da onun qəbrini qazsın. Beləliklə, onlar hər ikisinin yanına adam göndərdilər. Camaxatanlı qəbirqazan daha tez gəldi deyə, Peyğəmbərin ﷺ qəbrini o qazdı" (Səhih Sunən İbn Macə, 1557).

[1] Bu hədisin isnadında keçən Abdur-Rəhman ibn Əbu Bəkr əl-Muleyki "hafizəsi zəif olan" ravidir. Elə bu səbəbdən də, bu isnad "zəif" hesab edilir. Lakin bu hədisin mətnini qüvvətləndirən digər "səhih" hədislər olduğundan hədisin mətni "səhih" sayılır. Şeyx Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demiş və "Əhkamul-Cənaiz" əsərində bu hədisi qüvvətləndirən hədislərin mənbəsini qeyd etmişdir. Həmin hədis İbn Macənin "Sunən" əsərində (1/498-499), İbn Sədin "Təbəqat" əsərində (2/71), İbn Adiyin "Kamil" əsərində (2/94) – İbn Abbasdan رضي الله عنهما, o da, Əbu Bəkrdən ﷺ – rəvayət edilmişdir.

أَبِي عَائِشَةَ، عَنْ عُبَيْدِ اللَّهِ بْنِ عَبْدِ اللَّهِ، عَنِ ابْنِ عَبَّاسٍ، وَعَائِشَةَ: ((أَنَّ أَبَا بَكْرٍ، قَبَّلَ النَّبِيَّ ﷺ بَعْدَ مَا مَاتَ)).

(390) ..... İbn Abbas رضي الله عنهما və Aişə رضي الله عنها rəvayət etmişlər ki, Peyğəmbər ﷺ vəfat etdikdən sonra Əbu Bəkr onu öpmüşdür.[1]

٣٩١- حَدَّثَنَا نَصْرُ بْنُ عَلِيٍّ الْجَهْضَمِيُّ، قَالَ: حَدَّثَنَا مَرْحُومُ بْنُ عَبْدِ الْعَزِيزِ الْعَطَّارُ، عَنِ أَبِي عِمْرَانَ الْجَوْنِيِّ، عَنْ يَزِيدَ بْنِ بَابَنُوسَ، عَنْ عَائِشَةَ، أَنَّ أَبَا بَكْرٍ، دَخَلَ عَلَى النَّبِيِّ ﷺ بَعْدَ وَفَاتِهِ فَوَضَعَ فَمَهُ بَيْنَ عَيْنَيْهِ وَوَضَعَ يَدَيْهِ عَلَى سَاعِدَيْهِ، وَقَالَ: ((وَانَبِيَّاهْ، وَاصَفِيَّاهْ، واخَلِيلاَهْ)).

(391) ..... Aişə رضي الله عنها rəvayət etmişdir ki, Peyğəmbər ﷺ vəfat etdikdən sonra Əbu Bəkr gəlib əllərini onun çiyninə qoydu, onun gözləri arasından öpdü və dedi: "Ah (mənim) peyğəmbərim, ah pak insan, ah əziz dostum!"[2]

٣٩٢- حَدَّثَنَا بِشْرُ بْنُ هِلاَلٍ الصَّوَّافُ الْبَصْرِيُّ، قَالَ: حَدَّثَنَا جَعْفَرُ بْنُ سُلَيْمَانَ، عَنْ ثَابِتٍ، عَنْ أَنَسٍ، قَالَ: ((لَمَّا كَانَ الْيَوْمُ الَّذِي دَخَلَ فِيهِ رَسُولُ

---

[1] Bu hədisi Buxari (4188), Nəsai (1840), İbn Macə (1457) və Əhməd (6/55) rəvayət etmişdir. Bu hədis ölünü öpməyin caiz olmasına dəlalət edir. Qeyd edək ki, Peyğəmbər ﷺ öz səhabəsini – Osman ibn Məzunu رضي الله عنه öpmüşdür (326-cı hədisə bax).

[2] Bu hədisin isnadında keçən Yezid ibn Babənus "məqbul" ravidir. Bu hədisin dərəcəsini qüvvətləndirən digər hədislər olduğundan, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "həsən" olduğunu demişdir.

اللهِ ﷺ الْمَدِينَةَ أَضَاءَ مِنْهَا كُلُّ شَيْءٍ، فَلَمَّا كَانَ الْيَوْمُ الَّذِي مَاتَ فِيهِ أَظْلَمَ مِنْهَا كُلُّ شَيْءٍ، وَمَا نَفَضْنَا أَيْدِيَنَا مِنَ التُّرَابِ، وَإِنَّا لَفِي دَفْنِهِ ﷺ، حَتَّى أَنْكَرْنَا قُلُوبَنَا)).

(392) ..... Ənəs ﷺ demişdir: "Peyğəmbər ﷺ Mədinəyə gəldiyi gün hər yan nura boyandı, o, vəfat etdiyi gün isə hər tərəfi zülmət bürüdü.[1] (Peyğəmbərin ﷺ dəfnindən

[1] Burada Ənəs ibn Malik ﷺ səhabələrin Peyğəmbəri ﷺ olduqca çox istədiyini və onun ayrılığına çox kədərləndiklərini xəbər verir. Peyğəmbər ﷺ hələ həyatda ikən öləcəyini onlara bildirəndə, onlar buna kədərlənib ağlayardılar. Əbu Səid əl-Xudri rəvayət edir ki, bir dəfə Peyğəmbər ﷺ öz xütbəsində dedi: "Allah bir qula dünya həyatı ilə Öz yanında olan *nemətlər* arasında seçim etmək imkanı verdi və *o qul* Allah yanında olanları seçdi." Əbu Bəkr *bu sözləri eşidəndə* ağladı. Mən öz-özümə dedim: "Əgər Allah bir qula dünya həyatı ilə Öz yanında olan *nemətlər* arasında seçim etmək imkanı verib və *o qul* Allah yanında olanları seçibsə, onda bu şeyxi ağladan nədir?" *Axırda, mənə bəlli oldu ki,* bu qul Peyğəmbərin ﷺ özü imiş. *Həqiqətən də,* Əbu Bəkr bizdən çox bilirdi. *Peyğəmbər* ﷺ dedi: "Ağlama, ey Əbu Bəkr! Həqiqətən, insanlar arasında dostluqda və malını *xərcləməkdə* mənə ən sadiq olanı Əbu Bəkrdir. Əgər mən ümmətimin arasında özümə ən yaxın dost seçməli olsaydım, mütləq Əbu Bəkri seçərdim. Lakin İslamda qardaşlıq və sevgi *bundan da yaxşıdır*" (Səhih əl-Buxari, 466); başqa bir hədisdə Asim ibn Humeyd rəvayət etmişdir ki, Peyğəmbər ﷺ Muaz ibn Cəbəli ﷺ Yəmənə göndərərkən, onun atının yüyənindən tutub Mədinədən çıxanadək onu yola salmış və ona: "Ey Muaz! Ola bilsin ki, sən bir də məni görməyəsən. Qayıdanda mənim qəbrimi ziyarət edəcəksən"– dedi. Bunu eşidəndə, Muaz ağlamağa başladı. Onda Peyğəmbər ﷺ ona belə buyurdu: "Ağlama, ey Muaz! *Heyfi-silənərək* ağlamaq şeytandandır." Sonra Peyğəmbər ﷺ üzünü Mə-

sonra) qəlbimiz soyuyanadək əlimizin torpağını təmizləmədik.[1]"[2]

٣٩٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ حَاتِمٍ، قَالَ: حَدَّثَنَا عَامِرُ بْنُ صَالِحٍ، عَنْ هِشَامِ بْنِ عُرْوَةَ، عَنْ أَبِيهِ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((تُوُفِّيَ رَسُولُ اللهِ ﷺ يَوْمَ الاثْنَيْنِ)).

(393) ..... Aişə رضي الله عنها demişdir: "Rəsulullah ﷺ bazar ertəsi vəfat etmişdir."[3]

---

dinəyə tərəf çevirib dedi: "Kimliyindən və harada olduğundan asılı olmayaraq, insanların mənə ən yaxın olanı, Allahdan ən çox qorxanıdır" (Musnəd imam Əhməd, 5/235; Silsilətul-Əhadisis-Səhihə, 2497).

[1] Peyğəmbərin ﷺ yoxluğu, habelə vəhyin bir daha nazil olmayacağı səhabələrə ağır gəldiyindən, onlar öz qəlblərinin dəyişdiyini hiss edirdilər. Bu, heç də o demək deyil ki, onlar İslamdan və imandan soyumuşlar. Ənəs ibn Malik رضي الله عنه bu sözü ilə sadəcə özlərinin ürəkağrısını ifadə etmək istəmiş və həqiqi mənanı qəsd etməmişdir. Necə ki, Peyğəmbərin ﷺ qızı Fatimə رضي الله عنها atasının dəfnindən sonra səhabələri qınamışdır. Ənəs ibn Malik رضي الله عنه rəvayət edir ki, (Peyğəmbərin ﷺ dəfnindən sonra) Fatimə رضي الله عنها mənə dedi: "Ey Ənəs, Rəsulullahın ﷺ üstünə torpaq atmaq qəlbinizi rahatlaşdırdımı?!" (Sunən İbn Macə, 1630; Səhih İbn Macə, 1321).

[2] Bu hədisi Tirmizi (3622), İbn Macə (1631), Əhməd (3/221) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[3] Bu hədisin isnadında keçən Amir ibn Saleh ibn Abdullah "mətruk" ravidir (ət-Təqrib). Hədisin isnadı "zəif" olsa da, mətni digər "səhih" hədislərdə öz təsdiqini tapmışdır (375-ci hədisə bax). Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

٣٩٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ أَبِي عُمَرَ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ بْنُ عُيَيْنَةَ، عَنْ جَعْفَرِ بْنِ مُحَمَّدٍ، عَنْ أَبِيهِ، قَالَ: قُبِضَ رَسُولُ اللهِ ﷺ يَوْمَ الاثْنَيْنِ فَمَكَثَ ذَلِكَ الْيَوْمَ وَلَيْلَةَ الثُّلاثَاءِ، وَدُفِنَ مِنَ اللَّيْلِ، وَقَالَ سُفْيَانُ: وَقَالَ غَيْرُهُ: يُسْمَعُ صَوْتُ الْمَسَاحِي مِنْ آخِرِ اللَّيْلِ.

(394) ..... Muhəmməd (əl-Baqir) demişdir: "Rəsulullah ﷺ bazar ertəsi vəfat etdi. Sonra həmin gün və çərşənbə axşamının gecəsinədək onun dəfni ləngidildi. Nəhayət, o, gecə dəfn edildi.[1]"

Sufyan (ibn Uyeynə) rəvayət edir ki, qeyrisi[2] demişdir: "Gecənin axır saatlarında bellərin[3] səsi gəlirdi"[4]

---

[1] Peyğəmbərin ﷺ dəfninin çərşənbənin gecəsinədək uzanmasının səbəblərindən biri də, camaatın ayrı-ayrılıqda onun üçün cənazə namazı qılması olmuşdur. Qazı İyad demişdir: "Alimlər Peyğəmbərə ﷺ cənazə namazının qılınıb-qılınmaması xüsusunda ixtilaf etmişlər. Lakin əksəriyyəti səhabələrin dəstə-dəstə – əvvəlcə kişilərin, sonra qadınların, sonra da uşaqların onun hücrəsinə daxil olub onun üçün cənazə namazını qıldığını söyləmişlər" (Nəvəvinin Şərhi, 1608-ci hədisin şərhi). Peyğəmbərə ﷺ cənazə namazının qılınmasının səhih olduğu 396-cı hədisdə öz təsdiqini tapmışdır.

[2] Yəni, Muhəmməd əl-Baqirdən qeyrisi.

[3] Bel: sağ və sol tərəfində ayaqla basmaq üçün çıxıntısı olan uzun saplı qazma aləti.

[4] Bu hədisin isnadı "mursəl" olduğundan, hədisin isnadı "zəif" hesab edilir. Belə ki, Muhəmməd əl-Baqir Peyğəmbəri ﷺ görməmişdir. Lakin hədisin mətni digər mötəbər hədislərdə öz təsdiqini tapmışdır. Elə buna görə də, şeyx Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir. Rəvayət edilir ki, Aişə ؓ demişdir: "Rəsulullah ﷺ bazar ertəsi vəfat etmiş və çərşənbənin gecəsi dəfn edilmişdir" (Musnəd İmam Əhməd, 6/110);

٣٩٥- حَدَّثَنَا قُتَيْبَةُ بْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ مُحَمَّدٍ، عَنْ شَرِيكِ بْنِ عَبْدِ اللهِ بْنِ أَبِي نَمِرٍ، عَنْ أَبِي سَلَمَةَ بْنِ عَبْدِ الرَّحْمَنِ بْنِ عَوْفٍ، قَالَ: ((تُوُفِّيَ رَسُولُ اللهِ ﷺ يَوْمَ الاثْنَيْنِ، وَدُفِنَ يَوْمَ الثُّلاثَاءِ)).

قَالَ أَبُو عِيسَى: هَذَا حَدِيثٌ غَرِيبٌ.

(395) ..... Əbu Sələmə ibn Abdur-Rəhman ibn Auf demişdir: "Rəsulullah ﷺ bazar ertəsi vəfat etmiş və çərşənbə axşamı dəfn edilmişdir."[1]

Əbu İsa (ət-Tirmizi) demişdir: "Bu, "qərib" hədisdir."

٣٩٦- حَدَّثَنَا نَصْرُ بْنُ عَلِيٍّ الْجَهْضَمِيُّ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ دَاوُدَ، قَالَ: حَدَّثَنَا سَلَمَةُ بْنُ نُبَيْطٍ، عَنْ نُعَيْمِ بْنِ أَبِي هِنْدَ، عَنْ نُبَيْطِ بْنِ شَرِيطٍ، عَنْ سَالِمِ بْنِ عُبَيْدٍ، وَكَانَتْ لَهُ صُحْبَةٌ، قَالَ: أُغْمِيَ عَلَى رَسُولِ اللهِ ﷺ، فِي مَرَضِهِ فَأَفَاقَ، فَقَالَ: ((حَضَرَتِ الصَّلاةُ؟)) فَقَالُوا: نَعَمْ فَقَالَ: ((مُرُوا بِلالا فَلْيُؤَذِّنْ، وَمُرُوا أَبَا بَكْرٍ أَنْ يُصَلِّيَ للنَّاسِ أَوْ قَالَ: بِالنَّاسِ))، قَالَ: ثُمَّ أُغْمِيَ عَلَيْهِ، فَأَفَاقَ، فَقَالَ: ((حَضَرَتِ الصَّلاةُ؟)) فَقَالُوا: نَعَمْ، فَقَالَ: ((مُرُوا بِلالا فَلْيُؤَذِّنْ، وَمُرُوا

---

başqa bir hədisdə Aişə ﵂ demişdir: "Çərşənbənin gecəsi, gecənin bir yarısında bellərin səsi eşidildiyi zaman biz artıq Rəsulullahın ﷺ dəfn edildiyini anladıq" (Musnəd İmam Əhməd, 6/274).

[1] Bu hədisin isnadı "mursəl" olduğundan, hədisin isnadı "zəif" hesab edilir. Belə ki, Əbu Sələmə ibn Abdur-Rəhman tabiindir və Peyğəmbəri ﷺ görməmişdir. Habelə, hədisin isnadında keçən Şərik ibn Abdullah "xətalara yol vermiş səduq" ravidir. Elə buna görə də, bu isnad "zəif" sayılır. Üstəlik, bu hədisin mətni digər səhih hədislərə ziddir. Belə ki, Peyğəmbər ﷺ çərşənbənin gecəsi dəfn edilmişdir.

أَبَا بَكْرٍ فَلْيُصَلِّ بِالنَّاسِ))، فَقَالَتْ عَائِشَةُ: إِنَّ أَبِي رَجُلٌ أَسِيفٌ، إِذَا قَامَ ذَلِكَ الْمَقَامَ بَكَى فَلا يَسْتَطِيعُ، فَلَوْ أَمَرْتَ غَيْرَهُ، قَالَ: ثُمَّ أُغْمِيَ عَلَيْهِ فَأَفَاقَ فَقَالَ: ((مُرُوا بِلالا فَلْيُؤَذِّنْ، وَمُرُوا أَبَا بَكْرٍ فَلْيُصَلِّ بِالنَّاسِ، فَإِنَّكُنَّ صَوَاحِبُ أَوْ صَوَاحِبَاتُ يُوسُفَ))، قَالَ: فَأُمِرَ بِلالٌ فَأَذَّنَ، وَأُمِرَ أَبُو بَكْرٍ فَصَلَّى بِالنَّاسِ، ثُمَّ إِنَّ رَسُولَ اللهِ ﷺ، وَجَدَ خِفَّةً، فَقَالَ: ((انْظُرُوا لِي مَنْ أَتَّكِئُ عَلَيْهِ))، فَجَاءَتْ بَرِيرَةُ، وَرَجُلٌ آخَرُ، فَاتَّكَأَ عَلَيْهِمَا فَلَمَّا رَآهُ أَبُو بَكْرٍ ذَهَبَ لِينْكُصَ فَأَوْمَأَ إِلَيْهِ أَنْ يَثْبُتَ مَكَانَهُ، حَتَّى قَضَى أَبُو بَكْرٍ صَلاتَهُ.

ثُمَّ إِنَّ رَسُولَ اللهِ ﷺ قُبِضَ، فَقَالَ عُمَرُ: وَاللَّهِ لا أَسْمَعُ أَحَدًا يَذْكُرُ أَنَّ رَسُولَ اللهِ ﷺ قُبِضَ إِلا ضَرَبْتُهُ بِسَيْفِي هَذَا، قَالَ: وَكَانَ النَّاسُ أُمِّيِّينَ لَمْ يَكُنْ فِيهِمْ نَبِيٌّ قَبْلَهُ، فَأَمْسَكَ النَّاسُ، فَقَالُوا: يَا سَالِمُ، انْطَلِقْ إِلَى صَاحِبِ رَسُولِ اللهِ ﷺ فَادْعُهُ، فَأَتَيْتُ أَبَا بَكْرٍ وَهُوَ فِي الْمَسْجِدِ فَأَتَيْتُهُ أَبْكِي دَهِشًا، فَلَمَّا رَآنِي، قَالَ: أَقُبِضَ رَسُولُ اللهِ ﷺ؟ قُلْتُ: إِنَّ عُمَرَ، يَقُولُ: لا أَسْمَعُ أَحَدًا يَذْكُرُ أَنَّ رَسُولَ اللهِ ﷺ قُبِضَ إِلا ضَرَبْتُهُ بِسَيْفِي هَذَا، فَقَالَ لِي: انْطَلِقْ، فَانْطَلَقْتُ مَعَهُ، فَجَاءَ هُوَ وَالنَّاسُ قَدْ دَخَلُوا عَلَى رَسُولِ اللهِ ﷺ، فَقَالَ: يَا أَيُّهَا النَّاسُ، أَفْرِجُوا لِي، فَأَفْرَجُوا لَهُ فَجَاءَ حَتَّى أَكَبَّ عَلَيْهِ وَمَسَّهُ، فَقَالَ: إِنَّكَ مَيِّتٌ وَإِنَّهُمْ مَيِّتُونَ، ثُمَّ قَالُوا: يَا صَاحِبَ رَسُولِ اللهِ ﷺ، أَقُبِضَ رَسُولُ اللهِ ﷺ؟ قَالَ: نَعَمْ، فَعَلِمُوا أَنْ قَدْ صَدَقَ، قَالُوا: يَا صَاحِبَ رَسُولِ اللهِ ﷺ، أَيُصَلَّى عَلَى رَسُولِ اللهِ ﷺ؟ قَالَ: نَعَمْ، قَالُوا: وَكَيْفَ؟ قَالَ: يَدْخُلُ قَوْمٌ فَيُكَبِّرُونَ وَيُصَلُّونَ، وَيَدْعُونَ، ثُمَّ يَخْرُجُونَ، ثُمَّ يَدْخُلُ قَوْمٌ فَيُكَبِّرُونَ وَيُصَلُّونَ وَيَدْعُونَ، ثُمَّ يَخْرُجُونَ، حَتَّى يَدْخُلَ النَّاسُ،

قَالُوا: يَا صَاحِبَ رَسُولِ اللهِ ﷺ، أَيُدْفَنُ رَسُولُ اللهِ ﷺ؟ قَالَ: نَعَمْ، قَالُوا: أَينَ؟ قَالَ: فِي الْمكَانِ الَّذِي قَبَضَ اللَّهُ فِيهِ رُوحَهُ، فَإِنَّ اللَّهَ لَمْ يَقْبِضْ رُوحَهُ إِلا فِي مَكَانٍ طَيِّبٍ فَعَلِمُوا أَنْ قَدْ صَدَقَ، ثُمَّ أَمَرَهُمْ أَنْ يَغْسِلَهُ بَنُو أَبِيهِ، وَاجْتَمَعَ الْمُهَاجِرُونَ يَتَشَاوَرُونَ، فَقَالُوا: انْطَلِقْ بِنَا إِلَى إِخْوانِنَا مِنَ الأَنْصَارِ نُدْخِلُهُمْ مَعَنَا فِي هَذَا الأَمْرِ، فَقَالَتِ الأَنْصَارُ: مِنَّا أَمِيرٌ وَمِنْكُمْ أَمِيرٌ، فَقَالَ عُمَرُ بْنُ الْخَطَّابِ: مَنْ لَهُ مِثْلُ هَذِهِ الثَّلاثِ ثَانِيَ اثْنَيْنِ إِذْ هُمَا فِي الْغَارِ إِذْ يَقُولُ لِصَاحِبِهِ لا تَحْزَنْ إِنَّ اللَّهَ مَعَنَا، مَنْ هُمَا؟ قَالَ: ثُمَّ بَسَطَ يَدَهُ فَبَايَعَهُ وَبَايَعَهُ النَّاسُ بَيْعَةً حَسَنَةً جَمِيلَةً.

(396) ..... Səhabələrdən olmuş Salim ibn Ubeyd ﷺ demişdir: “Rəsulullah ﷺ (ölümqabağı) xəstələndiyi zaman bayıldı, sonra huşu özünə gəldikdə soruşdu: “Namazın vaxtı yetişdimi?” [1] Ona: “Bəli!” – deyə cavab verdilər. Onda o, belə buyurdu: “Bilala deyin, azan versin, Əbu Bəkrə də deyin, camaata namaz qıldırsın!” Sonra o, yenə bayıldı və nəhayət, huşu özünə gəldikdə soruşdu: “Namazın vaxtı yetişdimi?” Ona: “Bəli!” – deyə cavab verdilər.

[1] Peyğəmbərin ﷺ bu sualı, namazın olduqca əhəmiyyətli olduğuna, Allah yanında ən fəzilətli əməl hesab edildiyinə dəlalət edir. Onun səhabələri də həmçinin, namazı hər şeydən üstün tutardılar. Ömər ibn Xəttab ﷺ namazda vurulduqdan sonra, hər dəfə bayılıb sonra huşu özünə gəldikdə, camaatın namazı qılıb-qılmadığını soruşurmuş. Əlbəttə ki, namazı sevən və onu gözünün ağı-qarası hesab edən abid möminə – məhz beləsinə, ölüm ayağında belə onu qılmaq nəsib olar.

O, yenə buyurdu: "Bilala deyin azan versin, Əbu Bəkrə də deyin, camaata namaz qıldırsın!" Onda Aişə dedi: "Atam ürəyiyuxa adamdır, əgər (sənin) yerinə imamlıq etsə, ağlayacaq və (namazı lazımi qaydada qıldıra) bilməyəcək. Bəlkə (bu işi) başqasına həvalə edəsən."[1] (Bu əsnada Rəsulullah ﷺ) yenə bayıldı, huşu özünə gəldikdə isə bir daha buyurdu: "Bilala deyin, azan versin, Əbu Bəkrə də deyin, camaata namaz qıldırsın! Siz, Yusufu (incidən) qadınlar kimisiniz.[2]" Bundan sonra (Rəsulullahın ﷺ) buyuruğunu Bilala bildirdilər və o, qalxıb azan verdi, habelə Əbu Bəkrə xəbər verdilər və o, (gəlib) camaata

---

[1] Buxarinin "Səhih"ində rəvayət edilmişdir ki, Aişə رضي الله عنها: "Elə isə, camaata namaz qıldırmağı Ömərə həvalə et"– demişdir (679). Bu rəvayətdə Aişənin رضي الله عنها daha sonra nə etdiyi bildirilmir, lakin Muslimin "Səhih"indəki rəvayətdə xəbər verilir ki, Aişə رضي الله عنها demişdir: "Mən Həfsəyə dedim: "Peyğəmbərə ﷺ de ki, Əbu Bəkr ürəyiyumşaq adamdır. Nə vaxt sənin yerinə imamlıq etsə, (Quranı) camaata eşitdirə bilməyəcək. Bəlkə (bunu) Ömərə həvalə edəsən" (941).

[2] Yusufu عليه السلام yoldan çıxartmaq istəyən qadın şəhərdəki qadınların onu bu əməlinə görə məzəmmət etdiyini eşidəndə, onlar üçün qonaqlıq təşkil etmiş, məqsədi isə Yusufu عليه السلام onlara göstərmək olmuşdur. Peyğəmbər ﷺ onları məsəl çəkməklə demək istəyir ki, qadınların danışdıqları sözlə məqsədləri çox vaxt ziddiyyətli olur. Burada Aişə رضي الله عنها atasının ürəyiyumşaq olduğunu desə də, əslində qorxurdu ki, camaat onu Peyğəmbərin ﷺ yerində görsə, bunu bəd əlamət hesab edər və onun xəstəliyini Əbu Bəkrlə رضي الله عنه əlaqələndirər (Fəthul-Bari, 2/492). Bu xüsusda varid olmuş başqa bir hədisdə Aişə رضي الله عنها demişdir: "Vallahi, bunun səbəbi, Rəsulullahın ﷺ məqamında duracaq ilk kimsənin camaat tərəfindən uğursuz əlamət sayılacağı qorxusu idi" (Səhih Muslim, 940).

namaz qıldırdı. (Namaz əsnasında) Rəsulullahın ﷺ halı yaxşılaşdı və o dedi: "Görün kimi tapa bilərsiniz, mən ona söykənib (namaza gedim)."[1] Sonra Bərirə və başqa birisi[2] onun yanına gəldi və Rəsulullah ﷺ onlara söykənib (ayaqlarını yerlə sürüyərək namaza getdi). Əbu Bəkr (onun gəldiyini hiss etdikdə) geriyə çəkilmək istədi, lakin

[1] Peyğəmbərin ﷺ bu sözü onun namaza məsuliyyyətlə yanaşdığına dəlalət edir. Onun səhabələri də həmçinin camaat namazına olduqca məsuliyyətlə yanaşardılar. Abdullah رضي الله عنه demişdir: "Hər kim sabah Allaha bir müsəlman olaraq qovuşacağına sevinirsə, namaza çağırılan hər bir yerdə fərz namazlarını davamlı olaraq *doğru-düzgün* yerinə yetirsin. Çünki Allah, Peyğəmbərinizə ﷺ hidayət yollarını qanun etdi. Heç şübhəsiz ki, bu namazlar hidayət yollarıdır. Əgər siz, *camaat namazından* yayınıb evində namaz qılan bu kimsələr kimi namazınızı evinizidə qılsaydınız, Peyğəmbərinizin ﷺ əmrini tərk etmiş olardınız. Peyğəmbərinizin ﷺ əmrini tərk etdiyiniz təqdirdə isə zəlalətə düşmüş olardınız. Hər kim gözəl tərzdə dəstəmaz alıb, sonra bu məscidlərdən birinə gələrsə, Allah onun atdığı hər bir addımın müqabilində onun üçün bir savab yazar, onu bir dərəcə yüksəldər və onun bir xətasını silər. Biz bilirdik ki, camaat namazından ancaq münafiqliyi yəqin bilinən münafiq yayınar. *Səhabələr arasında isə* bəzən olurdu ki, adam xəstə olduğundan iki nəfərin arasında *əllərini onların çiyninə qoyduğu halda* gətirilər və cərgələr arasında dik tutulardı" (Səhih Muslim, 1488).

[2] Bu hədisdəki digər səhabənin adı Nubədir (Camul-Vəsail). Bəzi rəvayətlərdə Peyğəmbərin ﷺ Abbasa رضي الله عنه və Əli ibn Əbu Talibə رضي الله عنه söykəndiyi varid olmuşdur (Səhih Muslim, 938). Bəzi şərhçilər bu hədisləri belə izah etmişlər ki, Peyğəmbər ﷺ məscidin qapısınadək Bərirə ilə Nubəyə, məscidin qapısından namaz qıldığı yerədək isə Abbasla Əliyə söykənərək getmişdir. Bəziləri də bu hadisələrin ayrı-ayrı vaxtlarda baş verdiyini demişlər.

Rəsulullah ﷺ işarə ilə ona yerində qalmağı buyurdu.[1] Beləcə, bu namazı Əbu Bəkr qıldırdı.

(Az bir müddətdən) sonra Rəsulullah ﷺ vəfat etdi. Onda (onun ölümünə inana bilməyən) Ömər dedi: "Vallahi, kimsənin Rəsulullahın ﷺ öldüyünü dediyini eşitsəm, bu qılıncımla onun (boynunu) vuracağam."[2] İnsanlar savadsız idilər, həm də ondan əvvəl onlara bir peyğəmbər gəlməmişdi.[3] Odur ki, camaat (bu xüsusda) susmağa qərar vermişdi. Sonra onlar (mənə): "Ey Salim, Rəsulullahın ﷺ səhabəsinin yanına get, onu (bura) çağır"– dedilər və mən (qalxıb) Əbu Bəkrin yanına getdim. O, məsciddə oturmuşdu. Mən dəhşət içində ağlaya-ağlaya onun yanına gəldim. O, məni görcək soruşdu: "Rəsulullah ﷺ vəfat etdimi?" Mən dedim: "Ömər deyir ki, eşidəm-biləm kimsə Rəsulullahın ﷺ öldüyünü deyir, bu qılıncımla onun (boynunu) vuracağam." Əbu Bəkr mənə: "Gedək"–

---

[1] Başqa rəvayətlərdə bu hədisin tamamında deyilir ki, Peyğəmbər ﷺ *o iki nəfərə*: "Məni onun yanında otuzdurun!"– dedi və onu Əbu Bəkrin yanında otuzdurdular. Bundan sonra Əbu Bəkr ayaq üstə durduğu halda Peyğəmbərə ﷺ tabe olaraq *camaata* namaz qıldırır, camaat da Əbu Bəkrə tabe olaraq namaz qılırdı. Peyğəmbər ﷺ isə *namazı* oturmuş vəziyyətdə qılırdı" (Səhih əl-Buxari, 409; Səhih Muslim, 936).

[2] Ömər ibn Xəttab ؓ onun vəfat etdiyini yəqin bilmədiyinə və bayıldığını güman etdiyinə görə belə demişdir.

[3] Yəni, əgər onlara Muhəmməddən ﷺ əvvəl bir peyğəmbər gəlmiş olsaydı və onlar həmin peyğəmbərin öldüyündən xəbər tutsaydılar, peyğəmbərlərin də, adi insanlar kimi ölümə məhkum olduqlarını bilərdilər.

dedi və mən qalxıb onunla birlikdə (Aişənin رضي الله عنها evinə) getdim. Bu əsnada camaat Rəsulullahın ﷺ hücrəsinə doluşmuşdu. Əbu Bəkr (onlara): "Ay camaat, mənə yol verin"– deyə buyurdu və onlar da ona yol verdilər. O, yaxınlaşıb Rəsulullaha ﷺ tərəf əyildi, əlini onun vücuduna toxundurdu və dedi: **"Sözsüz ki, sən də öləcəksən, onlar da öləcəklər!"**[1] Sonra camaat (ondan): "Ey Rəsulullahın ﷺ səhabəsi, Rəsulullah ﷺ vəfat etdimi?"– deyə soruşdu. O: "Bəli!"– deyə cavab verdi və onlar bunun həqiqət olduğunu başa düşdülər. Onlar soruşdular: "Ey Rəsulullahın ﷺ səhabəsi, Rəsulullah ﷺ üçün cənazə namazı qılınmalıdırmı?" O yenə: "Bəli!"– deyə cavab verdi. Soruşdular: "Necə (qılaq)?" Dedi: "Bir dəstə içəri girsin, təkbir gətirib namazını qılsın, dua eləsin, sonra bayıra çıxsın. Sonra o biri dəstə içəri girsin, təkbir gətirib namazını qılsın, dua eləsin, sonra bayıra çıxsın. Beləcə, hamı (növbə ilə) içəri girib (cənazə namazını qılsın). Onlar soruşdular: "Ey Rəsulullahın ﷺ səhabəsi, Rəsulullah ﷺ dəfn edilməlidirmi?" O yenə: "Bəli!"– deyə cavab verdi. Soruşdular: "Harada?" Dedi: "O yerdə ki, Allah onun orada ruhunu almışdır. Çünki Allah onun ruhunu ancaq pak bir yerdə almışdır." Beləcə, onlar onun doğru söylədiyini yəqin etdilər.[2] Sonra Əbu Bəkr onlara

[1] "əz-Zumər" surəsi, 30.

[2] Bu hədisdən aydın olur ki, Peyğəmbərin ﷺ həqiqətən də vəfat etdiyi, ancaq Əbu Bəkrə رضي الله عنه agah olmuş, üstəlik, onun yuyulub kəfənləməsini, onun üçün cənazə namazının dəstə-dəstə qılınmasını və nəhayət, vəfat etdiyi yerdə dəfn edilməsini də məhz Əbu Bəkr رضي الله عنه

Rəsulullahı ﷺ yumağı buyurdu və yaxın əqrəbası onu yudu.[1]

(Rəsulullah ﷺ vəfat etdikdən) sonra mühacirlər (xilafət xüsusunda) məşvərət etmək üçün bir yerə toplaşdılar[2] və

---

məsləhət görmüş və hamı onun qərarı ilə razılaşmışdır. Ələlxüsus də, insanlar az qala Peyğəmbərin ﷺ ölməyəcəyinə inanacaqları bir vaxtda onların qarşısına çıxıb xütbə vermiş və heç kəsin ağlına gəlmədiyi ayəni onların yadına salmışdır. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, (Peyğəmbər ﷺ vəfat etdiyi gün) Əbu Bəkr رضي الله عنه camaatın qarşısına çıxıb Allaha həmd-sənalar etdikdən sonra dedi: "Amma sonra... Kim Muhəmmədə ibadət edirdisə, bilsin ki, o, artıq vəfat etmişdir. Kim Allaha ibadət edirdisə, bilsin ki, Allah əbədi Yaşayandır, Ölməzdir." Sonra o, bu ayəni oxudu: **"Muhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib getmişlər. Məgər, o ölərsə və ya öldürülərsə, siz geriyəmi dönəcəksiniz? Kim geri dönərsə, Allaha heç bir zərər yetirməz. Allah şükür edənləri mükafatlandırar"** (Ali-İmran, 144). İbn Abbas dedi: "Vallahi, sanki camaat Allahın bu ayəni nazil etdiyini bilmirmiş. Əbu Bəkr رضي الله عنه bu ayəni oxuduqdan sonra camaat da onu oxumağa başladı. Bundan sonra bu ayəni eşidən hər kəs onu (təkrar-təkrar) oxuyardı." Səid ibn Museyyib rəvayət edir ki, Ömər (bu ayəni eşitdikdə) dedi: "Vallahi, bu ayəni Əbu Bəkrdən eşidəndə məni əsmə tutdu, ayaqlarım üstümdə durmadı, diz üstə yerə çökdüm və başa düşdüm ki, Peyğəmbər ﷺ artıq vəfat etmişdir" (Səhih əl-Buxari, 1165).

[1] Peyğəmbərin ﷺ vəsiyyəti ilə Əli ibn Əbu Talib رضي الله عنه onu yumuş, Abbas və onun oğlu Fədl, habelə Usamə və Şəqran (Allah onların hamısından razı olsun!) ona su və s. verməklə kömək etmişlər. Qaldı ki, Peyğəmbərin ﷺ kəfənlənməsinə, bu xüsusda varid olmuş səhih hədisdə Aişə رضي الله عنها rəvayət edir ki, Peyğəmbəri ﷺ Yəmənin Səhuliyyə şəhərində hazırlanmış üç ədəd ağappaq pambıq parçaya bürüdülər. Bunların arasında nə bir köynək, nə də bir əmmamə var idi" (Səhih əl-Buxari, 1246).

[2] Onların Peyğəmbərin ﷺ dəfnindən əvvəl bir yerə yığışmalarının məqsədi, aralarında bir nəfəri əmir seçmək idi. Çünki əmirsiz öz aralarında baş vermiş fikir ayrılıqlarına son qoya bilməyəcəkdilər.

(Əbu Bəkrə) dedilər: "Gəl ənsar qardaşlarımızın yanına gedək və bu işə dair[1] onların da fikrini öyrənək." Ənsar[2] dedi: "Qoy bir əmir bizdən, bir əmir də sizdən olsun." Onda Ömər ibn Xəttab: "Hansı birimizdə bu üç xislət[3] cəm edilmişdir"– dedi və (bu ayəni oxudu): **"O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq *Məkkədən* çıxartdılar. O iki nəfər mağarada olarkən, *onlardan* biri öz səhabəsinə dedi: "Qəm yemə, Allah bizimlədir!"**[4] (Bunu deyəndən)

Beləliklə də, mühacirlərin və ənsarın razılığı ilə Əbu Bəkr ﷺ xəlifə seçildi.

[1] Yəni, xəlifə seçmək mövzusunda.

[2] Burada "ənsar" deyildikdə, Bəni-Saidə talvarına toplaşmış ənsardan biri, daha dəqiq desək, Hubabə ibn Munzir ﷺ Nəzərdə tutulur.

[3] Burada "üç xislət" deyildikdə, "ət-Tovbə" surəsinin 40-cı ayəsindəki xislətlər nəzərdə tutulur:

Birincisi, Əbu Bəkrin ﷺ hicrət əsnasında Peyğəmbərə ﷺ yol yoldaşı olmasıdır: **"O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq *Məkkədən* çıxartdılar."**

İkincisi, Uca Allahın Quran ayəsi ilə Əbu Bəkrin ﷺ Peyğəmbərin ﷺ səhabəsi olduğunu təsdiqləməsi: **"O iki nəfər mağarada olarkən *onlardan* biri öz səhabəsinə dedi..."** Hərçənd, səhabələrin hamısı Peyğəmbərin ﷺ səhabəsi idi, lakin onlar öz aralarında (صَاحِبُ رَسُولُ الله ﷺ) "Rəsulullahın ﷺ səhabəsi" deyəndə, xüsusi olaraq, Əbu Bəkri ﷺ qəsd edirdilər. Elə bu hədisdə camaat Salimə: "Ey Salim, Rəsulullahın ﷺ səhabəsinin yanına get" deyəndə, Əbu Bəkri ﷺ qəsd edirdi.

Üçüncüsü isə, ayədə keçən **"Qəm yemə, Allah bizimlədir"** sözüdür. Bu da, "xüsusi bir kömək"dir ki, ərəbcə buna (المعِيَّةُ الخَاصَّة) deyilir. Allahın xüsusi olaraq Öz Peyğəmbərinin ﷺ və onun əziz dostu Əbu Bəkrin ﷺ köməyində durması, bu səhabənin nə dərəcədə fəzilətli olmasını bir daha sübuta yetirir.

[4] "ət-Tovbə" surəsi, 40.

sonra Ömər əlini uzadıb Əbu Bəkrə beyət etdi və camaat da tərəddüd etmədən, gözəl tərzdə ona beyət etdi."[1]

٣٩٧- حَدَّثَنَا نَصْرُ بْنُ عَلِيٍّ، قَالَ: حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ الزُّبَيْرِ، شَيْخٌ بَاهِلِيٌّ قَدِيمٌ بَصْرِيٌّ قَالَ: حَدَّثَنَا ثَابِتٌ الْبُنَانِيُّ، عَنْ أَنَسِ بْنِ مَالِكٍ، قَالَ: ((لَمَّا وَجَدَ رَسُولُ اللهِ ﷺ، مِنْ كُرَبِ الْمَوْتِ مَا وَجَدَ، قَالَتْ فَاطِمَةُ: ((وَاكَرْبَاهُ))، فَقَالَ النَّبِيُّ ﷺ: ((لا كَرْبَ عَلَى أَبِيكِ بَعْدَ الْيَوْمِ، إِنَّهُ قَدْ حَضَرَ مِنْ أَبِيكِ مَا لَيْسَ بِتَارِكٍ مِنْهُ أَحَدًا الْمُوافَاةُ يَوْمَ الْقِيَامَةِ)).

(397) ..... Ənəs ibn Malik ﷺ demişdir: "Rəsulullah ﷺ ölüm iztirabını çəkərkən Fatimə (onun bu halını görüb): "Necə ağır iztirabdır!"– dedi.[2] Onda Peyğəmbər ﷺ ona belə buyurdu: "Bu gündən sonra sənin atan bir daha iztirab çəkməyəcək. Çünki sənin atana elə bir şey[3] yaxınlaşmışdır ki, o, (əcəli çatmış) bir kimsəni sərbəst buraxmır.[4] (Allahın izni ilə) Qiyamət günü görüşəcəyik.[1]"[2]

---

[1] Bu hədisi Nəsai (7119), İbn Macə (1234) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[2] Buxarinin "Səhih"ində (1702) isə bu, başqa ləfz ilə varid olmuşdur. Həmin hədisdə Fatimə ﷺ demişdir: "Yazıq atam, iztirab çəkir!"

[3] Burada söhbət hər kəsə daddırılacaq ölümdən gedir.

[4] Bu xüsusda Uca Allah buyurur: **"Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər"** (Yunus, 49); digər bir ayədə buyurur: **"Heç bir ümmət öz əcəlini nə qabaqlaya bilər, nə də yubada bilər"** (əl-Hicr, 5).

٣٩٨- حَدَّثَنَا أَبُو الْخَطَّابِ زِيَادُ بْنُ يَحْيَى الْبَصْرِيُّ، وَنَصْرُ بْنُ عَلِيٍّ، قَالا: حَدَّثَنَا عَبْدُ رَبِّهِ ابْنُ بَارِقٍ الْحَنَفِيُّ، قَالَ: سَمِعْتُ جَدِّي أَبَا أُمِّي سِمَاكَ بْنَ الْوَلِيدِ يُحَدِّثُ، أَنَّهُ سَمِعَ ابْنَ عَبَّاسٍ، يُحَدِّثُ أَنَّهُ سَمِعَ رَسُولَ اللهِ ﷺ، يَقُولُ: ((مَنْ كَانَ لَهُ فَرَطَانِ مِنْ أُمَّتِي أَدْخَلَهُ اللَّهُ تَعَالَى بِهِمَا الْجَنَّةَ))، فَقَالَتْ عَائِشَةُ: ((فَمَنْ كَانَ لَهُ فَرَطٌ مِنْ أُمَّتِكَ؟)) قَالَ: ((وَمَنْ كَانَ لَهُ فَرَطٌ يَا مُوَفَّقَةُ)) قَالَتْ: ((فَمَنْ لَمْ يَكُنْ لَهُ فَرَطٌ مِنْ أُمَّتِكَ؟)) قَالَ: ((فَأَنَا فَرَطٌ لأُمَّتِي، لَنْ يُصَابُوا بِمِثْلِي)).

(398) ..... İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: “Mənim ümmətimdən hər kim iki azyaşlı övladını itirsə, Uca Allah onların sayəsində onu Cənnətə daxil edər.” (Bunu eşidən) Aişə soruşdu: “Bəs ümmətindən ancaq bir azyaşlı övladını itirən kimsə necə?” Rəsulullah ﷺ buyurdu: “Bir azyaşlı övladını itirən kimsə də, habelə, (Cənnətə daxil olar), ey xeyirə nail olmuş qadın!” Aişə soruşdu: “Bəs ümmətindən azyaşlı övladını

---

[1] Peyğəmbər ﷺ bu sözlərlə öz qızına təsəlli verir, əvvəlcə özünün bir daha iztirab çəkməyəcəyini ona xəbər verir, sonra hər kəsin ölümü dadacağını ona bildirir və nəhayət, əbədi həyatda atasına qovuşacağına dair ona müjdə verir.

[2] Bu hədisi İbn Macə (1629) rəvayət etmişdir. İsnadında keçən Abdullah ibn Zubeyr ibn Məbəd əl-Bahili “məqbul” ravidir. Bu hədisi qüvvətləndirən digər hədislər olduğundan, hədisin mətni səhih sayılır. Həmin hədisləri Buxari (1702) və Əhməd (3/141) rəvayət etmişdir. Həmçinin, Muhəmməd Nasirəddin əl-Albani “Muxtəsər əş-Şəmail” əsərində bu hədisin “səhih” olduğunu demişdir.

itirməyən kimsə necə?" Rəsulullah ﷺ buyurdu: "Mənim ölümüm ümmətim üçün ən böyük itkidir və onlar heç vaxt bundan ağır bir müsibətlə üzləşməyəcəklər."[1]

[1] Bu hədisin isnadında keçən Abdu-Rəbbih ibn Bariq "xətalara yol vermiş səduq" ravidir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "zəif" olduğunu demişdir. Hədisin isnadı zəif olsa da, Rəsulullahın ﷺ ölümünün bu ümmətin başına gəlmiş ən böyük müsibət olduğu, səhih hədisdə öz təsdiqini tapmışdır. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: Birinizin başına bir müsibət gəldiyi zaman, qoy mənim ölümümü yada salsın. Çünki bu müsibət, müsibətlərin ən ağırıdır" (Sunən əd-Darimi, 1/40; Silsilətul-Əhadisis-Səhihə, 1106).

٥٥- بَاب ما جاء في مِيراث رسول الله ﷺ

55-ci fəsil. Rəsulullahın ﷺ mirası barədə varid olanlar

٣٩٩- حَدَّثَنَا أَحْمَدُ بْنُ مَنِيعٍ، قَالَ: حَدَّثَنَا حُسَيْنُ بْنُ مُحَمَّدٍ، قَالَ: حَدَّثَنَا إِسْرَائِيلُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ عَمْرِو بْنِ الْحَارِثِ، أَخِي جُوَيْرِيَةَ لَهُ صُحْبَةٌ، قَالَ: ((مَا تَرَكَ رَسُولُ اللهِ ﷺ إِلا سِلاحَهُ، وَبَغْلَتَهُ، وَأَرْضًا جَعَلَهَا صَدَقَةً)).

(399) ..... (Möminlərin anası) Cuveyriyənin رضي الله عنها qardaşı Amr ibn Haris رضي الله عنه demişdir: "Rəsulullah ﷺ (vəfat etdikdə) öz silahından, qatırından[1] və bir də sədəqə üçün ayırdığı torpaqdan[2] başqa bir şey qoyub getməmişdir."[1]

---

[1] Buxarinin "Səhih"ində (2739) bu qatırın ağ rəngdə olduğu xəbər verilir. Amr ibn Haris رضي الله عنه demişdir: "Peyğəmbər ﷺ vəfat etdikdə nə bir dirhəm, nə bir dinar, nə bir kölə, nə bir kəniz, nə də *başqa* bir şey qoyub getmişdir. Qoyub getdiyi ancaq ağ qatır, silahı və sədəqə verdiyi torpaq olmuşdur."

[2] Bu xüsusda İbn Kəsir demişdir: "Peyğəmbər ﷺ (özünə məxsus olan) torpağın hamısını Allah yolunda sədəqə etmişdir. Çünki bu dünya başdan-başa onun gözündə dəyərsiz bir şey idi. Necə ki, Allah üçün dəyərsizdir. Odur ki, o, bu dünyaya könül bağlamamış, habelə, özündən sonra ondan heç bir şey miras qoyub getməmişdir" (Siratun-Nəbəviyyə, 4/560). Onun qoyub getdiyi miras yalnız elmdir. Bu xüsusda varid olmuş rəvayətlərdən birində deyilir ki, bir dəfə Əbu Hureyrə رضي الله عنه Mədinə bazarına gəlib oradakılara dedi: "Ey bazar əhli, nə oturmusunuz?" Onlar: "Nə baş verib, ey Əbu Hureyrə?"– deyə

٤٠٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا أَبُو الْوَلِيدِ، قَالَ: حَدَّثَنَا حَمَّادُ بْنُ سَلَمَةَ، عَنْ مُحَمَّدِ بْنِ عَمْرٍو، عَنْ أَبِي سَلَمَةَ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: ((جَاءَتْ فَاطِمَةُ إِلَى أَبِي بَكْرٍ، فَقَالَتْ: مَنْ يَرِثُكَ؟ فَقَالَ: أَهْلِي وَوَلَدِي، فَقَالَتْ: مَا لِي لا أَرِثُ أَبِي؟ فَقَالَ أَبُو بَكْرٍ: سَمِعْتُ رَسُولَ اللهِ ﷺ، يَقُولُ: ((لا نُورَثُ))، وَلَكِنِّي أَعُولُ مَنْ كَانَ رَسُولُ اللهِ ﷺ، يَعُولُهُ، وَأُنْفِقُ عَلَى مَنْ كَانَ رَسُولُ اللهِ ﷺ يُنْفِقُ عَلَيْهِ)).

---

soruşduqda, Əbu Hureyrə dedi: “Rəsulullahın ﷺ mirası bölüşdürülür, siz isə burada oturmusunuz, gedib ondan öz payınıza düşəni götürmürsünüz?” Onlar: “O miras haradadır?”– deyə soruşdular. Əbu Hureyrə: “Məsciddədir”– dedi. Bazardakılar tələsik məscidə gəldilər, Əbu Hureyrə isə bazarda durub onların qayıtmağını gözlədi. Nəhayət, onlar geri qayıdıb: “Ey Əbu Hureyrə, biz məsciddə heç bir miras görmədik”– dedilər. Əbu Hureyrə soruşdu: “Məsciddə adam gördünüzmü?” Onlar dedilər: “Bəli, gördük. Bəziləri namaz qılır, bəziləri Quran oxuyur, bəziləri də halal və haramdan danışırdılar.” Onda, Əbu Hureyrə dedi: “Vay halınıza! Muhəmmədin ﷺ mirası da budur, bu!” (Mocəmul-Kəbir, 402); başqa bir rəvayətdə xəbər verilir ki, bir gün Abdullah ibn Məsud ﷺ öz tələbələri ilə bir yerdə oturub Peyğəmbərin ﷺ öyrətdiklərindən onlara öyrədərkən, yanlarından keçən bir bədəvi ondan: “Bunlar bura niyə yığışıblar?”– deyə soruşdu. İbn Məsud dedi: “Yığışıblar ki, Muhəmmədin ﷺ mirasını (öz aralarında) bölüşdürsünlər” (Xətib əl-Bəğdadinin “Şərəfu Əshabul-Hədis” əsəri, 1/102).

[1] Bu hədisi Buxari (2588), Nəsai (3594) və Əhməd (4/279) rəvayət etmişdir.

(400) ..... Əbu Hureyrə ﷺ demişdir: "(Peyğəmbərin ﷺ vəfatından sonra) Fatimə Əbu Bəkrin yanına gəlib: "Sənin varisin kimlərdir?"– deyə soruşdu. Əbu Bəkr: "Həyat yoldaşım və övladım"– deyə cavab verdi. Fatimə dedi: "Elə isə, nə üçün mən atamın (qoyub getdiyinə) varis olmayım?" Əbu Bəkr dedi: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: "Biz (peyğəmbərlər) miras qoymuruq." (Əbu Bəkr davam edib) dedi: "Lakin mən Rəsulullahın ﷺ yedirtdiyi kimsələri yedirdəcəyəm və Rəsulullahın ﷺ əl tutduğu kimsələrə əl tutacağam."[1]

٤٠١– حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا يَحْيَى بْنُ كَثِيرٍ الْعَنْبَرِيُّ أَبُو غَسَّانَ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ عَمْرِو بْنِ مُرَّةَ، عَنْ أَبِي الْبَخْتَرِيِّ، أَنَّ الْعَبَّاسَ، وَعَلِيًّا، جَاءَا إِلَى عُمَرَ يَخْتَصِمَانِ، يَقُولُ كُلُّ وَاحِدٍ مِنْهُمَا لِصَاحِبِهِ: أَنْتَ كَذَا، أَنْتَ كَذَا، فَقَالَ عُمَرُ، لِطَلْحَةَ، وَالزُّبَيْرِ، وَعَبْدِ الرَّحْمَنِ بْنِ عَوْفٍ، وَسَعْدٍ: أَنْشُدُكُمْ بِاللهِ أَسَمِعْتُمْ رَسُولَ اللهِ ﷺ، يَقُولُ: ((كُلُّ مَالِ نَبِيٍّ صَدَقَةٌ، إِلا مَا أَطْعَمَهُ، إِنَّا لا نُورَثُ؟)) وَفِي الْحَدِيثِ قِصَّةٌ.

(401) ..... Əbul-Bəxtəri ﷺ rəvayət edir ki, bir dəfə Abbas və Əli öz aralarında düşmüş mübahisədən dolayı

---

[1] Bu hədisi Tirmizi (1608) və Əhməd (1/10) rəvayət etmişdir. İsnadında keçən Muhəmməd ibn Əlqəmə ibn Vəqqas əl-Leysi "hafizəsi qarışmış səduq" ravidir (ət-Təqrib). Bu hədisi qüvvətləndirən digər hədislər olduğundan, Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "həsən" olduğunu demişdir.

Ömərin yanına gəldi. Onlardan hər biri digərinə: "Sən beləsən, sən beləsən[1]"– deyirdi. Onda Ömər Talhəyə, Zubeyrə, Abdur-Rəhman ibn Aufa və Səd (ibn Əbu Vəqqasa) müraciət edib dedi: "Sizi and verirəm Allaha (deyin görüm), Rəsulullahın ﷺ: "Hər bir peyğəmbərin qoyub getdiyi mal sədəqədir. Yalnız verdiyi yemək istisnadır. Biz (peyğəmbərlər) miras qoymuruq"– dediyini eşitmisinizmi?"[2]

(Əbu İsa ət-Tirmizi demişdir): "Bu, uzun bir hədisin bir hissəsidir."[3]

٤٠٢– حَدَّثَنَا مُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالَ: حَدَّثَنَا صَفْوَانُ بْنُ عِيسَى، عَنِ أُسَامَةَ بْنِ زَيْدٍ، عَنِ الزُّهْرِيِّ، عَنْ عُرْوَةَ، عَنْ عَائِشَةَ، أَنَّ رَسُولَ اللهِ ﷺ، قَالَ: ((لا نُورَثُ مَا تَرَكْنَا فَهُوَ صَدَقَةٌ)).

(402) ..... Aişə رضي الله عنها rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Biz (peyğəmbərlər) miras qoymuruq, qoyub getdiyimiz nə varsa, (hamısı) sədəqədir."[4]

---

[1] Yəni, filan torpaq sahəsinə sənin haqqın çatmır.

[2] Bu hədisi Əbu Davud (2975) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

[3] 404-cü hədisə bax.

[4] Bu hədisi Buxari (3810), Muslim (1758) Əbu Davud (2976) və Əhməd (6/145) rəvayət etmişdir. Bu hədis Buxarinin "Səhih"ində daha ətraflı rəvayət edilmişdir. Həmin hədisdə Aişə رضي الله عنها demişdir: "Peyğəmbərin ﷺ zövcələri Osmanı Əbu Bəkrin yanına göndərdilər ki, Allahın Öz peyğəmbərinə ﷺ ayırdığı qənimət payının səkkizdə birini onlara versin. Mən onlara öz etirazımı bildirib dedim: "Heç Allahdan

٤٠٣- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ أَبِي الزِّنَادِ، عَنِ الأَعْرَجِ، عَنْ أَبِي هُرَيْرَةَ، عَنِ النَّبِيِّ ﷺ، قَالَ: ((لا يَقْسِمُ وَرَثَتِي دِينَارًا وَلا دِرْهَمًا، مَا تَرَكْتُ بَعْدَ نَفَقَةِ نِسَائِي وَمُؤْنَةِ عَامِلِي فَهُوَ صَدَقَةٌ)).

(403) ..... Əbu Hureyrə ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Varislərimə məndən nə bir dinar, nə də bir dirhəm qalmamalıdır. Zövcələrim üçün ayırdığım maddi vəsaitdən və xidmətçilərim üçün ayırdığım azuqədən başqa nə qoyub gedirəmsə, sədəqədir."[1]

٤٠٤- حَدَّثَنَا الْحَسَنُ بْنُ عَلِيٍّ الْخَلالُ، قَالَ: حَدَّثَنَا بِشْرُ بْنُ عُمَرَ، قَالَ: سَمِعْتُ مَالِكَ بْنَ أَنَسٍ، عَنِ الزُّهْرِيِّ، عَنْ مَالِكِ بْنِ أَوْسِ بْنِ الْحَدَثَانِ، قَالَ: دَخَلْتُ عَلَى عُمَرَ فَدَخَلَ عَلَيْهِ عَبْدُ الرَّحْمَنِ بْنُ عَوْفٍ، وَطَلْحَةُ، وَسَعْدٌ، وَجَاءَ عَلِيٌّ، وَالْعَبَّاسُ، يَخْتَصِمَانِ، فَقَالَ لَهُمْ عُمَرُ: ((أَنْشُدُكُمْ بِالَّذِي بِإِذْنِهِ تَقُومُ السَّمَاءُ وَالأَرْضُ، أَتَعْلَمُونَ أَنَّ رَسُولَ اللهِ ﷺ، قَالَ: ((لا نُورَثُ، مَا تَرَكْنَاهُ صَدَقَةٌ))، فَقَالُوا: اللَّهُمَّ نَعَمْ)) وَفِي الْحَدِيثِ قِصَّةٌ طَوِيلَةٌ.

---

qorxmursunuz? Məgər, siz Peyğəmbərin ﷺ: "Biz (peyğəmbərlər) miras qoymuruq, qoyub getdiyimiz nə varsa, sədəqədir"– dediyini bilmirsiniz? Bunu deyəndə, o, özünü qəsd etmişdir. *Məgər, siz onun*: "Muhəmmədin ailəsi ancaq öz malından yeyə bilər"– *dediyini bilmirsiniz?*" Bundan sonra, Peyğəmbərin ﷺ zövcələri öz istəklərindən vaz keçdilər" (Səhih əl-Buxari, 4034).

[1] Bu hədisi Buxari (2624), Muslim (1760), Əbu Davud (2974) və Əhməd (2/242) rəvayət etmişdir.

(404) ..... Malik ibn Ovs ibn Hədəsan demişdir: "(Bir dəfə) mən Ömərin yanına daxil oldum, həmçinin, Abdur-Rəhman ibn Auf, Talhə və Səd də onun yanına daxil oldu. Bu əsnada Əli və Abbas aralarındakı mübahisədən dolayı onun yanına gəldi. Onda Ömər onlara dedi: "Öz izni ilə göyü və yeri saxlayan Allah xatirinə *deyin görüm*, Rəsulullahın ﷺ: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiyimiz nə varsa, sədəqədir"– dediyini bilirsinizmi?" Onlar: "Allah *şahiddir ki*, belədir"– deyə cavab verdilər."[1]

(Əbu İsa ət-Tirmizi demişdir): "Bu, uzun bir hədisin bir hissəsidir."[2]

---

[1] Bu hədisi Buxari (3729), Muslim (3302), Əbu Davud (1535) və Nəsai (4079) rəvayət etmişdir.

[2] Bu hədisin tam variantı belədir: rəvayət edilir ki, Malik ibn Ovs ibn Hədəsan demişdir: "(Bir dəfə) günorta vaxtı mən evimdə ikən Ömər ibn Xəttabın göndərdiyi elçi yanıma gəlib dedi: "Möminlərin əmiri səni çağırır!" Mən onunla *Ömərin* yanına getdim. Mən Ömərin yanına daxil olduqda, onun boş taxtın üstündə oturduğunu gördüm. Onun altına heç bir şey sərilməmişdi, özü də dəri yastığa söykənmişdi. Mən salam verib oturdum. Ömər dedi: "Ey Mali! Sənin həmqəbilələrindən bəziləri *öz ailələri ilə birlikdə* yanıma gəlib *məndən yardım istədilər* və mən *öz köməkçilərimə* onlara yardım etməyi tapşırdım. Götür bu yardımı, onların arasında paylaşdır!" Dedim: "Ey möminlərin əmiri, bəlkə, bu işi başqasına tapşırasan." Ömər dedi: "Ay adam, *sənə* bunu götür, *payla dedim*!" Mən Ömərin yanında ikən onun qapıçısı Yərfa gəlib dedi: "Osman, Abdur-Rəhman ibn Auf, Zubeyr və Səd ibn Əbu Vəqqas *sənin yanına gəlmək üçün* izin istəyirlər, onlara izin verirsənmi?" Ömər: "Bəli!"– deyib onlara izin verdi. Onlar içəri daxil oldular və salam verib oturdular. Yərfa da bir qədər oturduqdan sonra *ayağa qalxıb* dedi: "Əli və Abbas da izin istəyir, onlara izin verir-

sənmi?" Ömər: "Bəli!"– deyib onlara da izin verdi. Onlar içəri daxil oldular və salam verib oturdular. Abbas dedi: "Ey möminlərin əmiri, mənimlə bunun arasında hökm ver." Onların mübahisəsi, Allahın Öz peyğəmbərinə ﷺ qənimət olaraq bəxş etdiyi Bəni-Nədir qəbiləsinin torpaq sahəsi üstündə düşmüşdü. Osman və onunla gələnlər dedilər: "Ey möminlərin əmiri, onların arasında hökm ver, onları sakitləşdir!" Ömər dedi: "Özünüzü ələ alın! Göyü və yeri saxlayan Allah xatirinə *deyin görüm*, Peyğəmbərin ﷺ, özünü qəsd edərək: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiyimiz nə varsa, sədəqədir"– dediyini bilirsinizmi?" Onlar: "Bəli, demişdir"– deyə cavab verdilər. Sonra Ömər Əliyə və Abbasa üz tutub soruşdu: "Sizi and verirəm Allaha, *deyin görüm*, Peyğəmbərin ﷺ belə dediyini bilirsinizmi?" Onlar: "Bəli!"– dedilər. Ömər dedi: "Mən sizə bu haqda xəbər vermək istəyirəm. Bilin ki, Allah bu qənimətləri məxsusi olaraq Öz rəsulu üçün ayırmış və bundan heç kəsə pay verməmişdir." Sonra Ömər bu ayəni oxudu: **"Allahın Öz Elçisinə onlardan verdiyi qənimətlərə tərəf siz nə at, nə də dəvə sürdünüz. Lakin Allah Öz elçilərini istədiyi kəslər üzərində hakim edir. Allah hər şeyə qadirdir"** (əl-Həşr, 6). Bu qənimətlər ancaq Allahın rəsuluna məxsus idi. Amma bununla yanaşı, vallahi, o, bu qənimətləri sizdən gizlin saxlayıb ancaq öz mənfəəti üçün istifadə etməmiş, *əksinə,* bundan sizə pay ayırmış və onu sizin aranızda paylaşdırmışdı. Axıra da bu mübahisə etdiyiniz mal qalmışdır. Peyğəmbər ﷺ bu maldan ailəsinin illik xərcini ödəyər, yerdə qalanını isə Allah yolunda xərclənən mallara qatardı. Peyğəmbər ﷺ ömrü boyu belə etmişdir. Allah xatirinə *deyin görüm,* Peyğəmbərin ﷺ belə etdiyini bilirsinizmi?" Onlar: "Bəli!"– dedilər. Sonra Ömər Əliyə və Abbasa dedi: "Allah xatirinə *deyin görüm,* bunu bilirsinizmi?" Sonra Ömər davam edib dedi: "Allah Öz peyğəmbərinin ﷺ ruhunu aldıqdan sonra Əbu Bəkr: "Mən Peyğəmbərin ﷺ xəlifəsiyəm"– deyib bu malları götürdü və onları Peyğəmbərin ﷺ sərf etdiyi işlərə sərf etdi. Allah bilir ki, Əbu Bəkr bu işdə sadiq, xeyirxah, doğru yolla gedən, haqqa boyun əyən bir adam idi. Allah Əbu Bəkrin ömrünü tamamladıqdan sonra

٤٠٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ عَاصِمِ ابْنِ بَهْدَلَةَ، عَنْ زِرِّ بْنِ حُبَيْشٍ، عَنْ عَائِشَةَ، قَالَتْ: ((مَا تَرَكَ رَسُولُ اللهِ ﷺ دِينَارًا وَلا دِرْهَمًا وَلا شَاةً وَلا بَعِيرًا))، قَالَ: وَأَشُكُّ فِي الْعَبْدِ وَالأَمَةِ.

---

mən Əbu Bəkrin varisi oldum və *xilafəti* idarə etdiyim iki il ərzində bu malları Peyğəmbərin ﷺ, sonra da Əbu Bəkrin sərf etdiyi işlərə sərf etdim. Allah bilir ki, mən bu işdə sadiq, xeyirxah, doğru yolla gedən, haqqa boyun əyən bir adam olmuşam. Sonra siz mənim yanıma gəldiniz və ikiniz də eyni sözü dediniz, eyni məsələni ərz etdiniz. Sən, ey Abbas, gəlmisən, qardaşın oğlunun *mirasından* sənə çatacaq payı götürəsən, bu *Əli* isə gəlib, zövcəsi üçün onun atasından qalmış mirası alsın. Mən də sizə dedim ki: "Peyğəmbər ﷺ demişdir: "Biz *peyğəmbərlər* miras qoymuruq, qoyub getdiyimiz nə varsa, sədəqədir!" Lakin düşünəndə ki, bu malları sizə vermək lazımdır, dedim: "İstəyirsinizsə, bu malları sizə verim, amma gərək siz bağladığınız əhdə, verdiyiniz sözə sadiq qalasınız və bu malları Peyğəmbərin ﷺ və Əbu Bəkrin sərf etdiyi, habelə, mən xilafətə gəldikdən sonra sərf etdiyim işlərə sərf edəsiniz." Siz: "Bu malları bizə ver!"– dediniz, buna görə də mən onları sizə verirəm. Allah xatirinə, deyin görüm, mən o malları sizə verdimmi?" Onlar: "Bəli!"– dedilər. Sonra o, üzünü Əliyə və Abbasa tərəf çevirib dedi: "Allah xatirinə, deyin görüm, mən o malları sizə verdimmi?" Onlar: "Bəli!"– dedilər. Ömər dedi: "Yoxsa, siz məndən başqa bir qərar gözləyirdiniz?! Göyü və yeri saxlayan Allaha and olsun ki, mən bu işdə başqa bir qərar verməyəcəyəm. Əgər siz bu malları yerbəyer edə bilməyəcəksinizsə, onda onları mənə qaytarın, mən bu işin öhdəsindən gələrəm" (Səhih əl-Buxari, 3094).

(405) ..... Aişə demişdir: "Rəsulullah ﷺ nə bir dinar, nə bir dirhəm, nə bir qoç, nə bir dəvə qoyub getmişdir."[1]

(Zir ibn Hubeyş) dedi: "Onun: "Nə bir kölə, nə bir kəniz"– dediyinə şəkk edirəm.

[1] Bu hədisin mətninin bənzəri başqa isnadlarla varid olmuşdur. Həmin hədisi Muslim (1635), Əbu Davud (2863), Nəsai (3621) və Əhməd (6/44) rəvayət etmişdir. Muslimin rəvayətində Aişə demişdir: "Rəsulullah ﷺ nə bir dinar, nə bir dirhəm, nə bir qoç, nə bir dəvə qoyub getmiş, nə də bir şey vəsiyyət etmişdir" (Səhih Muslim, 4316).

٥٦- بَابُ فِي رُؤْيَةِ النَّبِيِّ ﷺ فِي المَنَام

56-cı fəsil. Rəsulullahı ﷺ yuxuda görmək barədə

٤٠٦- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الرَّحْمَنِ بْنُ مَهْدِيٍّ، قَالَ: حَدَّثَنَا سُفْيَانُ، عَنْ أَبِي إِسْحَاقَ، عَنْ أَبِي الأَحْوَصِ، عَنْ عَبْدِ اللهِ بْنِ مَسْعُودٍ، عَنِ النَّبِيِّ ﷺ، قَالَ: ((مَنْ رَآنِي فِي الْمَنَامِ فَقَدْ رَآنِي فَإِنَّ الشَّيْطَانَ لا يَتَمَثَّلُ بِي)).

(406) ..... Abdullah ibn Məsud ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "Kim yuxuda məni görsə,[1] həqiqətən də, məni görmüş olar. Çünki şeytan mənim simamda görünə bilmir.[2]"[3]

---

[1] Yəni, hər kim Peyğəmbəri ﷺ onun vəsfinə uyğun surətdə görərsə, həqiqətən də, onu görmüş sayılar. Buradakı "məni görmüş olar" sözünü "qəbirdəki cəsədimi görmüş olar" və ya "Cənnətdəki ruhumu görmüş olar" kimi izah etmək doğru sayılmır. Yuxuda Peyğəmbəri ﷺ görmək özünəməxsus bir görüntüdür.

[2] Qeyd etmək lazımdır ki, şeytan Peyğəmbərin ﷺ simasında görünə bilməsə də, ancaq başqa bir görünüşdə adamın yuxusuna girib özünü peyğəmbər kimi təqdim edə bilər. Elə bu səbəbdən də, Peyğəmbəri ﷺ tanımayan bir çox avamlar yuxuda şeytanı gördükdən sonra özlərinə vergi verildiyini iddia edir və haqqı tapdıqlarını güman edirlər. Lakin özləri də hiss etmədən, ancaq özləri özlərini aldadırlar.

[3] Bu hədisi Tirmizi (2277), İbn Macə (3900) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

٤٠٧- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، وَمُحَمَّدُ بْنُ الْمُثَنَّى، قَالا: حَدَّثَنَا مُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالَ: حَدَّثَنَا شُعْبَةُ، عَنْ أَبِي حَصِينٍ، عَنْ أَبِي صَالِحٍ، عَنْ أَبِي هُرَيْرَةَ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((مَنْ رَآنِي فِي الْمَنَامِ فَقَدْ رَآنِي، فَإِنَّ الشَّيْطَانَ لا يَتَصَوَّرُ أَوْ قَالَ: لا يَتَشَبَّهُ بِي)).

(407) ..... Əbu Hureyrə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kim yuxuda məni görsə, doğrudan da, məni görmüş olar. Çünki şeytan mənim simama girə bilmir və ya mənə bənzəyə bilmir."[1]

٤٠٨- حَدَّثَنَا قُتَيْبَةُ، قَالَ: حَدَّثَنَا خَلَفُ بْنُ خَلِيفَةَ، عَنْ أَبِي مَالِكٍ الأَشْجَعِيِّ، عَنْ أَبِيهِ، قَالَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((مَنْ رَآنِي فِي الْمَنَامِ فَقَدْ رَآنِي)).

قَالَ أَبُو عِيسَى: وَأَبُو مَالِكٍ هَذَا هُوَ: سَعْدُ بْنُ طَارِقِ بْنِ أَشْيَمَ، وَطَارِقُ بْنُ أَشْيَمَ هُوَ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ، وَقَدْ رَوَى عَنِ النَّبِيِّ ﷺ أَحَادِيثَ سَمِعْتُ عَلِيَّ بْنَ حُجْرٍ، يَقُولُ: قَالَ خَلَفُ بْنُ خَلِيفَةَ: رَأَيْتُ عَمْرَو بْنَ حُرَيْثٍ صَاحِبَ النَّبِيِّ ﷺ، وَأَنَا غُلامٌ صَغِيرٌ.

(408) ..... Əbu Malik əl-Əşcəi atasından ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kim yuxuda məni görsə, həqiqətən də, məni görmüş olar."[2]

---

[1] Bu hədisin bənzərini Buxari (110, 5844), Muslim (2266), Əbu Davud (5023) və Əhməd (1/400) rəvayət etmişdir.

[2] Bu hədisi Əhməd (3/472) rəvayət etmiş və Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində onun "səhih" olduğunu demişdir.

Əbu İsa (ət-Tirmizi) demişdir: "Bu Əbu Malik – Səd ibn Tariq ibn Əşyəmdir. Tariq ibn Əşyəm isə Peyğəmbərin ﷺ səhabələrindəndir. O, Peyğəmbərdən ﷺ neçə-neçə hədislər rəvayət etmişdir. Mən Əli ibn Hucrun[1] belə dediyini eşitmişəm: "Xələf ibn Xəlifə demişdir: "Mən uşaq ikən Peyğəmbərin ﷺ səhabəsi Amr ibn Hureysi gördüm."

٤٠٩- حَدَّثَنَا قُتَيْبَةُ هُوَ ابْنُ سَعِيدٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الْوَاحِدِ بْنُ زِيَادٍ، عَنْ عَاصِمِ بْنِ كُلَيْبٍ، قَالَ: حَدَّثَنِي أَبِي، أَنَّهُ سَمِعَ أَبَا هُرَيْرَةَ، يَقُولُ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((مَنْ رَآنِي فِي الْمَنَامِ فَقَدْ رَآنِي، فَإِنَّ الشَّيْطَانَ لا يَتَمَثَّلُنِي))، قَالَ أَبِي: فَحَدَّثْتُ بِهِ ابْنَ عَبَّاسٍ، فَقُلْتُ: قَدْ رَأَيْتُهُ، فَذَكَرْتُ الْحَسَنَ بْنَ عَلِيٍّ، فَقُلْتُ: شَبَّهْتُهُ بِهِ، فَقَالَ ابْنُ عَبَّاسٍ: إِنَّهُ كَانَ يُشْبِهُهُ.

(409) ..... Kuleyb (ibn Şihab əl-Cərmi) demişdir: "Mən Əbu Hureyrənin belə rəvayət etdiyini eşitmişəm: "Rəsulullah ﷺ demişdir: "Kim yuxuda məni görsə, həqiqətən də, məni görmüş olar. Çünki şeytan mənim simamda görünə bilmir."

Kuleyb dedi: "Mən bu hədisi İbn Abbasa danışdım və (yuxuda) Rəsulullahı ﷺ gördüyümü ona xəbər verdim. Bu vaxt Həsən ibn Əli yadıma düşdü və yuxuda gördüyüm adamın daha çox Həsənə bənzədiyini ona bildirdim.[2] İbn

---

[1] Əli ibn Hucr Tirmizinin şeyxidir.

[2] Hədisdən aydın olur ki, Peyğəmbəri ﷺ yuxuda görən adam həqiqətən də onu görüb-görmədiyini bilməsi üçün Peyğəmbəri ﷺ tanımalıdır. Əks təqdirdə, şeytan onu aldadıb azdıra bilər. Yox, əgər adam iman gətirdiyi Peyğəmbərini ﷺ tanımırsa, onda heç olmazsa, bu yuxunu dəqiqləşdirmək üçün onu tanıyan adamlara müraciət etməli və yuxuda gördüyü adamı onlara vəsf etməlidir. Necə ki, Kuleyb bu

Abbas dedi: “Həqiqətən, Həsən Rəsulullaha ﷺ çox oxşayırdı.”[1]

٤١٠- حَدَّثَنَا مُحَمَّدُ بْنُ بَشَّارٍ، قَالَ: حَدَّثَنَا ابْنُ أَبِي عَدِيٍّ، وَمُحَمَّدُ بْنُ جَعْفَرٍ، قَالا: حَدَّثَنَا عَوْفُ بْنُ أَبِي جَمِيلَةَ، عَنْ يَزِيدَ الْفَارِسِيِّ وَكَانَ يَكْتُبُ الْمَصَاحِفَ، قَالَ: رَأَيْتُ النَّبِيَّ ﷺ فِي الْمَنَامِ زَمَنَ ابْنِ عَبَّاسٍ، قَالَ: فَقُلْتُ لابْنِ عَبَّاسٍ: إِنِّي رَأَيْتُ رَسُولَ اللهِ ﷺ فِي النَّوْمِ، فَقَالَ ابْنُ عَبَّاسٍ: إِنَّ رَسُولَ اللهِ ﷺ كَانَ، يَقُولُ: ((إِنَّ الشَّيْطَانَ لا يَسْتَطِيعُ أَنْ يَتَشَبَّهَ بِي، فَمَنْ رَآنِي فِي النَّوْمِ فَقَدْ رَآنِي))، هَلْ تَسْتَطِيعُ أَنْ تَنْعَتَ هَذَا الرَّجُلَ الَّذِي رَأَيْتَهُ فِي النَّوْمِ؟ قَالَ: نَعَمْ، أَنْعَتُ لَكَ رَجُلا بَيْنَ الرَّجُلَيْنِ، جِسْمُهُ وَلَحْمُهُ أَسْمَرُ إِلَى الْبَيَاضِ، أَكْحَلُ الْعَيْنَيْنِ، حَسَنُ الضَّحِكِ، جَمِيلُ دَوَائِرِ الْوَجْهِ، مَلأَتْ لِحْيَتُهُ مَا بَيْنَ هَذِهِ إِلَى هَذِهِ، قَدْ مَلأَتْ نَحْرَهُ، قَالَ عَوْفٌ: وَلا أَدْرِي مَا كَانَ مَعَ هَذَا النَّعْتِ، فَقَالَ ابْنُ عَبَّاسٍ: لَوْ رَأَيْتَهُ فِي الْيَقَظَةِ مَا اسْتَطَعْتَ أَنْ تَنْعَتَهُ فَوْقَ هَذَا)).

---

hədisdə Həsənin ﷺ Peyğəmbərə ﷺ oxşadığını İbn Abbasa ﷺ xəbər verir. Həsənin ﷺ Peyğəmbərə ﷺ oxşaması barədə rəvayət edilmiş hədisdə Uqbə ibn Haris ﷺ demişdir: “*Bir dəfə* Əbu Bəkr əsr namazını qıldıqdan sonra məsciddən bayıra çıxdı, sonra o, Həsənin uşaqlarla oynadığını gördü və onu çiyninə otuzdurub dedi: “Atam sənə qurban, sən Əlidən çox Peyğəmbərə ﷺ oxşayırsan.” Əli *bu sözü eşidəndə* güldü” (Səhih əl-Buxari, 3542) Əlavə məlumat üçün qeyd edək ki, Həsəndən ﷺ başqa, Peyğəmbərə ﷺ oxşayan başqa səhabələr də olmuşdur. Bu xüsusda İbn Həcər demişdir: “Peyğəmbərə ﷺ oxşayan kimsələr bunlardır: Həsən ibn Əli və qardaşı Hüseyn ibn Əli ﷺ, Cəfər ibn Əbu Talib və oğlu Abdullah ibn Cəfər ﷺ, habelə Qəsəm ibn Abbas ibn Abdul-Müttəlib ﷺ, Əbu Süfyan ibn Haris ibn Abdul-Müttəlib ﷺ, Muslim ibn Əqil ibn Əbu Talib....” (Fəthul-Bari, 3542-ci hədisin şərhi).

[1] Bu hədisi Əhməd (2/232, 432) rəvayət etmişdir.

قَالَ أَبُو عِيسَى: وَيَزِيدُ الْفَارِسِيُّ هُوَ: يَزِيدُ بْنُ هُرْمُزَ، وَهُوَ أَقْدَمُ مِنْ يَزِيدَ الرَّقَاشِيِّ، وَرَوَى يَزِيدُ الْفَارِسِيُّ، عَنِ ابْنِ عَبَّاسٍ أَحَادِيثَ، وَيَزِيدُ الرَّقَاشِيُّ لَمْ يُدْرِكِ ابْنَ عَبَّاسٍ، وَهُوَ يَزِيدُ بْنُ أَبَانَ الرَّقَاشِيُّ، وَهُوَ يَرْوِي عَنْ أَنَسِ بْنِ مَالِكٍ، وَيَزِيدُ الْفَارِسِيُّ، وَيَزِيدُ الرَّقَاشِيُّ كِلاَهُمَا مِنْ أَهْلِ الْبَصْرَةِ، وَعَوْفُ بْنُ أَبِي جَمِيلَةَ هُوَ: عَوْفٌ الأَعْرَابِيُّ.

(410) ..... Quran katiblərindən olmuş[1] Yezid əl-Farisi demişdir: "İbn Abbasın dövründə mən yuxuda Peyğəmbəri ﷺ gördüm. Sonra (gedib) İbn Abbasa: "Mən yuxuda Rəsulullahı ﷺ gördüm"– dedim. İbn Abbas dedi: "Rəsulullah ﷺ: "Şeytan mənim simama girə bilmir. Odur ki, kim məni yuxuda görsə, doğrudan da, məni görmüş olar"– demişdir. Sən yuxuda gördüyün o adamı mənə vəsf edə bilərsənmi?" Yezid dedi: "Bəli, mən (gördüyüm) bu ortaboylu adamı[2] sənə vəsf edərəm: onun bədəninin və dərisinin rəngi əsmər idi, həm də ağa çalırdı.[3] Sürməli gözləri[4] və ürəkaçan gülüşü var idi.[5] Sifəti girdə idi.[6] Bu

[1] Söhbət Qurani Kərimi köçürüb nüsxələrini artırmaqdan gedir.

[2] Bu kitabdakı 1-ci və 2-ci hədislərə və onların qeydlərinə bax.

[3] Peyğəmbər ﷺ nə dümağ dərili, nə də qarayanız idi, onun rəngi ağ idi, lakin qırmızıya çalırdı.

[4] Yəni, kirpiklərinin dibi xilqətcə qara rəngə çalırdı. Bu xüsusda varid olmuş hədisdə Əbu Hureyrə ﷺ demişdir: "Peyğəmbərin ﷺ gözləri *xilqətcə* sürməli idi" (Səhih əl-Cami, 4633).

[5] Bu kitabdakı 227-ci hədisə və onun qeydlərinə bax.

[6] Bu kitabdakı 7-ci hədisə və onun qeydlərinə bax.

qulağından o qulağınadək (üzünü) çulğayan və sinəsinə düşən saqqalı var idi.[1]"

(Hədisi rəvayət edən) Auf ibn Əbu Cəmilə dedi: "Mən onun bununla yanaşı başqa vəsflər dediyini xatırlamıram."

İbn Abbas dedi: "Əgər sən ayıq ikən onu görsəydin, onu bundan artıq vəsf edə bilməzdin.[2]"[3]

Əbu İsa (ət-Tirmizi) demişdir: "Bu, Yezid əl-Farisi – Yezid ibn Hurmuzdur. O, Yezid ər-Rəqqaşidən öncə yaşamışdır. Yezid əl-Farisi İbn Abbasdan neçə-neçə hədislər rəvayət etmişdir. Yezid ər-Rəqqaşi isə İbn Abbasın dövründə yaşamamışdır. Bu, Yezid ibn Əban ər-Rəqqaşidir. O, Ənəs ibn Malikdən hədislər rəvayət etmişdir. Yezid əl-Farisi və Yezid ər-Rəqqaşi – hər ikisi bəsrəlidir. Auf ibn Əbu Cəmilə isə Auf əl-Ərabidir."

---

[1] Burada Yezid, Peyğəmbərin ﷺ saqqalının nə dərəcədə sıx və uzun olduğunu xəbər verir. Bu xüsusda varid olmuş hədisdə rəvayət edilir ki, Xəbbab ibn Əratdan ﷺ: "Peyğəmbər ﷺ zöhr və əsr namazlarında (Quran) oxuyardımı?"– deyə soruşdular. O: "Bəli!"– deyə cavab verdi. Ondan: "Siz bunu nədən bilirdiniz?"– deyə soruşdular. O dedi: "Saqqalının tərpənməsindən" (Səhih əl-Buxari, 746).

[2] Həmçinin, tabiinlər də belə edərdilər. Əyyub əs-Sixtiyani rəvayət edir ki, kimsə Muhəmməd ibn Sirinə, Peyğəmbəri ﷺ yuxuda gördüyünü xəbər versəydi, İbn Sirin həmin adama: "Gördüyün adamı mənə vəsf et"– deyərdi. Əgər adam Peyğəmbərə ﷺ xas olmayan bir xüsusiyyəti qeyd edərdisə, ona: "Sən Peyğəmbəri ﷺ görməmisən"– deyərdi" (Fəth əl-Bari, 12/384).

[3] Bu hədisi Əhməd (1/361-362) rəvayət etmişdir. İsnadında keçən Yezid əl-Farisi "məqbul" ravidir. Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu hədisin "səhih" olduğunu demişdir.

٤١١- حَدَّثَنَا أَبُو دَاوُدَ سُلَيْمَانُ بْنُ سَلْمٍ الْبَلْخِيُّ، قَالَ: حَدَّثَنَا النَّضْرُ بْنُ شُمَيْلٍ قَالَ: قَالَ عَوْفٌ الأَعْرَابِيُّ: أَنَا أَكْبَرُ مِنْ قَتَادَةَ.

(411) Bizə Əbu Davud Suleyman ibn Səlm əl-Bəlxi xəbər verib demişdir: "Bizə Nədr ibn Şumeyl belə rəvayət etmişdir: "Auf əl-Ərabi demişdir: "Mən yaşda Qətadədən böyüyəm."

٤١٢- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ أَبِي زِيَادٍ، قَالَ: حَدَّثَنَا يَعْقُوبُ بْنُ إِبْرَاهِيمَ بْنِ سَعْدٍ، قَالَ: حَدَّثَنَا ابْنُ أَخِي ابْنِ شِهَابٍ الزُّهْرِيُّ، عَنْ عَمِّهِ، قَالَ: قَالَ أَبُو سَلَمَةَ: قَالَ أَبُو قَتَادَةَ: قَالَ رَسُولُ اللهِ ﷺ: ((مَنْ رَآنِي، يَعْنِي فِي النَّوْمِ، فَقَدْ رَأَى الْحَقَّ)).

(412) ..... Əbu Qətadə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kim (yuxuda) məni görsə, həqiqətən də, məni görmüş olar."[1]

٤١٣- حَدَّثَنَا عَبْدُ اللهِ بْنُ عَبْدِ الرَّحْمَنِ الدَّارِمِيُّ، قَالَ: حَدَّثَنَا مُعَلَّى بْنُ أَسَدٍ، قَالَ: حَدَّثَنَا عَبْدُ الْعَزِيزِ بْنُ الْمُخْتَارِ، قَالَ: حَدَّثَنَا ثَابِتٌ، عَنْ أَنَسٍ: أَنَّ رَسُولَ اللهِ ﷺ، قَالَ: ((مَنْ رَآنِي فِي الْمَنَامِ فَقَدْ رَآنِي، فَإِنَّ الشَّيْطَانَ لا يَتَخَيَّلُ بِي)) وَقَالَ: ((وَرُؤْيَا الْمُؤْمِنِ جُزْءٌ مِنْ سِتَّةٍ وَأَرْبَعِينَ جُزْءًا مِنَ النُّبُوَّةِ)).

(413) ..... Ənəs ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: "Kim yuxuda məni görsə, həqiqətən də, məni

[1] Bu hədisi Buxari (6595), Muslim (2267) və Əhməd (5/306) rəvayət etmişdir.

görmüş olar. Çünki şeytan mənim simamda görünə bilmir. Bir də ki, möminin gördüyü yuxu peyğəmbərliyin qırx altı qismindən biridir.[1]"[2]

٤١٤- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَلِيٍّ قَالَ: سَمِعْتُ أَبِي يَقُولُ: قَالَ عَبْدُ اللَّهِ بْنُ الْمُبَارَكِ: ((إِذَا ابْتُلِيتَ بِالْقَضَاءِ فَعَلَيْكَ بِالأَثَرِ)).

(414) ..... Abdullah ibn Mubarək[3] demişdir: "Hökm verdiyin zaman, ancaq (mötəbər) əsərlərə[1] istinad et!"[2]

---

[1] Başqa bir hədisdə Əbu Hureyrə ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ demişdir: "Axır zaman yaxınlaşdıqda müsəlmanın gördüyü yuxular çox vaxt doğru çıxacaq. Ən doğru yuxuları ən doğru danışanlarınız görəcək. Müsəlmanın yuxusu peyğəmbərliyin qırx beş hissəsindən biridir. *Ümumiyyətlə,* yuxu üç cür olur: gözəl yuxu Allahdan gələn bir müjdədir; xoşagəlməz yuxu şeytan tərəfindəndir; və bir də insanın çox fikirləşdiyi bir şeyi yuxuda görməsi. Hərgah, sizdən biriniz xoşagəlməz bir yuxu görmüşdürsə, qalxıb *Allaha* dua etsin və bu yuxunu heç kəsə danışmasın" (Səhih Muslim, 4200); digər hədisdə Əbu Hureyrə ﷺ demişdir: "Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: "Peyğəmbərlikdən yalnız müjdələr qalmışdır." *Səhabələr*: "Müjdələr nədir?"– deyə soruşdular. Peyğəmbər ﷺ: "Gözəl yuxudur!"– deyə cavab verdi" (Səhih əl-Buxari, 6990).

[2] Bu hədisi Buxari (6586), Muslim (2263), Əbu Davud (5018), Tirmizi (2272) və Əhməd (5/316) rəvayət etmişdir. Digər bir hədisdə rəvayət edilir ki, Peyğəmbər ﷺ demişdir: "Qiyamət yaxınlaşdığı zaman möminin yuxuları demək olar ki, həmişə doğru çıxacaq. Çünki möminin yuxusu peyğəmbərliyin qırx altı qismindən biridir. Peyğəmbərliyə aid olan bir şey isə yalan ola bilməz" (Səhih əl-Buxari, 7017); başqa bir hədisdə o demişdir: "Əməlisaleh adamın gördüyü gözəl yuxu peyğəmbərliyin qırx altı qismindən biridir" (Səhih əl-Buxari, 6983).

[3] Əbu Abdur-Rəhman Abdullah ibn Mubarək əl-Hənzəli رحمه الله böyük tabiinlərdəndir. Hicrətin 118-ci ilində dünyaya gəlmişdir. (Siyər Əlam ən-Nubələ, 246-cı tərcümeyi-hal).

٤١٥- حَدَّثَنَا مُحَمَّدُ بْنُ عَلِيٍّ، قَالَ: حَدَّثَنَا النَّضْرُ بْنُ شُمَيْلٍ، قَالَ: أَنْبَأَنَا ابْنُ عَوْفٍ، عَنِ ابْنِ سِيرِينَ قَالَ: ((هَذَا الْحَدِيثُ دِينٌ، فَانْظُرُوا عَمَّنْ تَأْخُذُونَ دِينَكُمْ)).

(415) ..... (Muhəmməd) ibn Sirin[3] demişdir: "Bu hədislər dindir. Elə isə, dininizi kimdən öyrəndiyinizə diqqət edin."[4]

---

[1] Burada "mötəbər əsərlər" deyildikdə, Peyğəmbərdən ﷺ və onun səhabələrindən ﷺ səhih isnadlarla varid olmuş rəvayətlər nəzərdə tutulur.

[2] Muhəmməd Nasirəddin əl-Albani "Muxtəsər əş-Şəmail" əsərində bu rəvayətin "səhih" olduğunu demişdir.

[3] Əbu Bəkr Muhəmməd ibn Sirin əl-Ənsari ﷺ böyük tabiinlərdən, həm də Ənəs ibn Malikin ﷺ azad etdiyi köləsi və onun xidmətçisidir. Bəzi tarixçilər onun Ömərin ﷺ, bəziləri isə Osmanın ﷺ xilafəti dövründə dünyaya gəldiyini xəbər vermişlər. Əbu Hureyrə, İmran ibn Husayn, İbn Abbas, Adiy ibn Hatim, İbn Ömər, Abidə əs-Səlmani, Ənəs ibn Malik və bir çox başqa səhabələrdən hədislər rəvayət etmişdir (Siyər Əlam ən-Nubələ, 246-cı tərcümeyi-hal).

[4] Bu əsəri Muslim öz "Səhih"inin müqəddiməsində (26) rəvayət etmişdir. Hərçənd, bəzi mühəddislər bu əsərin özünü hədis olaraq rəvayət etmişlər, lakin bu zəif isnadla rəvayət edilmiş bir hədisdir. (Bax: Silsilətul-Əhadisis-Səhihə vəl-Movduə, 2481-ci hədis). Digər əsərdə İbn Sirin demişdir: "*Müsəlmanlar* isnad barəsində sual verməzdilər. Ara qarışdıqdan sonra isə onlar: "Ravilərinizin adlarını bizə söyləyin"– deməyə başladılar. Beləcə, sünnə əhlinə diqqət yetirilər və onların hədisləri qəbul edilər, habelə bidət əhlinə diqqət yetirilər və onların hədisləri rədd edilərdi" (Muslimin müqəddiməsi, 27). Bu xüsusda Abdullah ibn Mubarək demişdir: "İsnad dindəndir və əgər isnad olmasaydı, əlbəttə ki, (hər) istəyən istədiyi sözü danışardı" (Muslimin Müqəddiməsi, 32).

Son söz

Əziz müsəlmanlar!

Allahın izni ilə bir neçə ay ərzində ərsəyə gətirdiyimiz bu kitab bir çox məqsədləri əhatə edir. İlk növbədə, məqsəd yer üzərində insanların ən kamili olan Muhəmməd Peyğəmbəri ﷺ yaxından tanımağın vacibliyini hər bir müsəlmana çatdırmaqdır. Allah Muhəmməd Peyğəmbəri ﷺ bütün insanlar arasından seçmiş, ona başqa adamlarda olmayan ali xüsusiyyətlər və yalnız ona xas üstünlüklər bəxş edərək, aləmlərə nümunə olaraq şərəfləndirmişdir. Məgər, biz müsəlmanlar Allahın ən çox sevdiyi və bütün bəşəriyyətə nümunə seçdiyi Muhəmməd Peyğəmbəri ﷺ tanımaqda, onun həyatını ən xırda detalları ilə öyrənməkdə israrlı olmamalıyıq? Uca Allah Onu sevməklə yanaşı, Muhəmməd Peyğəmbəri ﷺ də ən yaxın əzizlərimizdən, valideynlərimizdən, övladlarımızdan, hətta canımızdan belə çox sevməyi tövsiyə edərək buyurur: **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz"** (ət-Tövbə, 24).

Uca Allah həmçinin buyurur: **"Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır"** (əl-Əhzab, 6).

Müqəddəs Kitabımız olan Qurani-Kərimdə buyurulduğu kimi, Muhəmməd ﷺ Peyğəmbərin sözünü öz sözümüzdən, əməlini öz əməlimizdən daim üstün tutmalıyıq.

Məqsədimiz həmçinin imanın şirinliyinin və hər iki dünyada səadətin məhz Muhəmməd Peyğəmbərə ﷺ tam itaətdə olmasını göstərməkdir.

Uca Allah buyurur: **"Allah və Onun Elçisi bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Elçisinə asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür"** (əl-Əhzab, 36).

Deməli, Muhəmməd Peyğəmbərə ﷺ olan həqiqi sevgi ona itaətdir. Muhəmməd Peyğəmbərə ﷺ itaət bütün insanlara və bütün zamanlarda vacibdir. Bu yol heç bir zaman köhnəlmir və əksinə həmişə aktuallığını saxlayaraq yeganə nicat yolu olaraq qalır. Ən əsası da odur ki, Muhəmməd Peyğəmbərin ﷺ bizə qoyduğu sünnəsinə hər hansı bir əlavəyə və ya kimlər tərəfindənsə yenilənməsinə qəti olaraq ehtiyac yoxdur və bunu etməyə çalışanlar da bidət-zəlalət-Cəhənnəm yolundan qorxmalı və ən kamil insandan kamil olmağa can atmağın ağılsızlıq olduğunu bilməlidirlər.

Məqsədimiz, həmçinin, özünü mömin sayan hər bir şəxsin ibadətlərində, həyat tərzində, fiziki və mənəvi xüsusiyyətlərində, əxlaqında, təmizlik məsələlərində, ailə münasibətlərində, dost və düşmənlə necə rəftar etməsində

və başqa həyati məsələlərdə Muhəmməd Peyğəmbəri ﷺ rəhbər tutmasıdır. Biz müsəlmanlar bu gün yalnız əqidə məsələlərinə fikir verib, sevimli Peyğəmbərimizin ﷺ əxlaqından uzaq olsaq, insanlarda özümüzə qarşı nifrət və ən qorxulusu isə dinimizə qarşı qəzəb yaratmış olarıq. Bu səbəbdən, Muhəmməd Peyğəmbərin ﷺ bütün həyatını, xislətlərini, sözlərini, davranışlarını diqqətlə öyrənib, öz həyatımızda tətbiq etməliyik. Kitabda bütün bu məsələlər hədislər vasitəsilə ətraflı qeyd edilmişdir. Sizin Allaha olan məhəbbətinizin göstəricisi Muhəmməd Peyğəmbərə ﷺ nə dərəcədə itaət etməyinizdən bilavasitə asılıdır. Sevimli Peyğəmbərimizin ﷺ yolu iman əhlini Cənnətə aparan, onları Cəhənnəm əzabından qoruyan və heç bir başqa alternativi olmayan bir yoldur. Əgər siz Muhəmməd Peyğəmbərdən ﷺ başqa bir yol ilə Allaha yaxınlaşmağı düşünsəniz, bilin ki, münafiqlərin yolundasınız.

Bu barədə Uca Allah buyurur: **"Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki, onlara tağuta inanmamaq əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir. Onlara: "Allahın nazil etdiyinə və Elçisinə tərəf gəlin!"– deyildikdə, münafiqlərin səndən nifrətlə üz çevirdiklərini görürsən"** (ən-Nisa, 60-61).

Məqsədlərimizdən biri də möminləri küfr, bidət və nifaqdan uzaq edib, onları "yüksək əxlaq sahibi" adlandırılmış Muhəmmədə ﷺ onun özünün öyrətdiyi kimi tabe olmaq və onu bütün işlərində hakim tutmağa dəvətdir. Ümid edirik ki, bu kitabı oxuyan xalqımızın hər bir nümayəndəsi sevimli Muhəmməd Peyğəmbərimizi ﷺ daha da mükəmməl tanıyacaq və onu özünə həyatlarının hər sahəsində nümunə edən müsəlmanlara qəribə nəzərlərlə, qorxu, kin və nifrət hissi ilə deyil, əksinə, dərin hörmət və məhəbbətlə münasibət bəsləyəcəkdir. Axı, əgər bizim gənclərimiz özlərinə örnək olaraq məhz Muhəmməd Peyğəmbəri seçiblərsə, bundan daha gözəl və şərəfli nə ola bilər ki?! Kitabın yazılmasında məqsədlərdən biri də insanlara izah etməkdir ki, "O zaman dində olmayan şeylər bu gün də dində olmamalıdır" fikri qüvvədən düşməyib. Məqsədlərimizdən biri də bütün müsəlmanları məzhəb və təriqətlərdən asılı olmayaraq yalnız Muhəmməd Peyğəmbərin ﷺ bizə öyrətdiyi yolda birləşdirməyə bir cəhddir. Belə ki, Peyğəmbərin ﷺ şərəfli həyatını dərindən öyrənsək, bilərik ki, bu yol insanları qardaş olmağa və fitnədən uzaq olmağa dəvət edir.

"Halbuki qüdrət yalnız Allaha, Onun Elçisinə və möminlərə məxsusdur, lakin bunu münafiqlər bilmirlər..." (əl-Münafiqun, 8).

Rəsulullahın ﷺ vəsfi

Rəsulullah ﷺ nə çox hündürboy, nə də bəstəboy – ortaboylu, enlikürək, başı və ağzı iri, yanaqları nə şiş, nə də batıq – üzündə bir qədər girdəlik olan bir adam idi. Onun üzü bədr gecəsindəki ay kimi parlayırdı. Qaragözlü, uzunkirpikli, qabaq dişləri gözəl, əlləri və ayaqları sərt, əzaları orta ölçülü, özü də cüssəli, gözəl vücudu olan bir adam idi. Gözləri xilqətcə sürməli idi. Lakin buna rəğmən yatmazdan əvvəl gözlərinə tək sayda ismid çəkərdi. Qözlərinin ağlığında qırmızılıq var idi. Saçları da nə tamamilə qıvrım, nə də dümdüz – azacıq dalğavarı idi. Onun saçları bəzən qulaqlarının yarısına, bəzən qulağının mərcəyinə, bəzən mərcəyindən aşağı, bəzən çiyninə yaxın, bəzən də çiyinlərinə çatırdı. Saçlarını tağ ayırar və səbəbsiz olaraq onları qırxmazdı. Daradıqda isə sağ tərəfdən başlayar və saçlarını tağ ayırardı. Saçlarını daramaq xüsusunda isə nə həddi aşar, nə də buna səhlənkar yanaşar – yəni nə dəqiqəbaşı saçını düzəldər, nə də onları baxımsız qoyar, – əksinə, vaxtdan-vaxta onları darayaıb gözəl şəklə salardı. Üstəlik, onları həmişə təmiz saxlayar və vaxtdan-vaxta başına yağ sürtərdi. Saqqalını da habelə. Onun saqqalı sıx idi. Onun saç-saqqalında iyirmiyə yaxın ağ tük var idi. Bu tüklərin bir neçəsi onun hər iki gicgahında, bir neçəsi alt dodaq şırımında, bir neçəsi də tağında idi. Libasını çıxaranda, bədəni nur saçırdı. Sanki dərisinə gümüş örtük çəkilmişdir. Peyğəmbərlik möhürü onun kürəkləri arasında idi. Məfsəlləri böyük, bazuları uzun, əl pəncəsi də iri idi. Dabanları çox ətli deyildi. Qarnı sinəsi ilə bərabər idi. Sinəsinin tükü uzunsov idi. Sinəsin-

də və qarnında bü tüklərdən başqa tük yox idi. Yeridikdə də ləngərlənirdi, vüqarla və iri addımlarla yeriyərdi, sanki hündür bir yerdən enirmiş kimi. Döndüyü zaman tam vücudu ilə dönərdi. Adətən başı aşağı olar və çox vaxt nəzərlərini göyə deyil, yerə yönəldərdi. Baxışları çox vaxt ötəri olardı. Qarşısına çıxan hər kəsə salam verərdi. Başqaları kimi danışanda tələm-tələsik və qatma-qarışıq danışmaz, əksinə, həm aydın, həm də aramla danışardı. Hətta, yanında oturanlar onun dediklərini yadda saxlayardılar. Bir söz söylədiyi zaman söylədiyi başa düşülsün deyə, sözü üç kərə təkrar edərdi. Çox vaxt susar və ancaq lazım gəldikdə danışardı. Nitqini Uca Allahın adı ilə başlayar və Onun adı ilə bitirərdi. Yığcam kəlmələrlə danışar və dediyi sözləri aydın tələffüz edərdi. Bu sözlər nə uzun yorucu, nə də ki qısa faydasız olardı. Özü də nə kobudluq edər, nə də bir kimsənin mənliyinə toxunardı. Allahın verdiyi nemət az olduğu təqdirdə belə, onu dəyərləndirər və onu əsla məzəmmət etməzdi. Yeməyi də nə pisləyər, nə də tərifləyərdi. O, nə söyüşcül, nə kobud, nə də bazarda qışqır-bağır salan bir adam deyildi, həm də pisliyi pisliklə dəf etməz, əksinə, əfv edər və bağışlayardı. O, hücrəsinə çəkilmiş bakirə qızdan daha həyalı idi. Onun nə isə xoşuna gəlmədikdə, bunu onun üzündən anlamaq olardı. Nə bu dünya, nə də dünyaya aid işlər onu əsla qəzəbləndirməzdi. Allahın qoyduğu qanunlar pozulduğu təqdirdə isə, haqqı bərqərar edənədək, heç bir şey onun qəzəbinin qabağını ala bilməzdi. O, əsla öz nəfsinə görə qəzəblənməz və buna görə heç kəsdən intiqam almazdı. Birisinə acığı tutduğu

zaman ondan üz çevirər və narazılığını ona hiss etdirərdi. Hərdən də xoşuna gəlmədiyi bir şeyə narazılığını biruzə verməzdi. Rəsulullah ﷺ çox vaxt adamın nöqsanını üzünə deməzdi.

Peyğəmbər ﷺ yeməyə başladıqda "Bismilləh", onu bitirdikdə isə "Əlhəmdulillah" – deyərdi. Rəsulullah ﷺ yeməyi üç barmağı ilə yeyər və yeməkdən sonra bu barmaqlarını yalayardı.

Çox vaxt təbəssüm edərək gülər və heç vaxt qəh-qəhə çəkib gülməzdi. Bəzən səhabələri ilə zarafatlaşar və deyərdi: "Bəli, mən də zarafat edirəm, lakin mən haqdan başqa bir söz danışmıram!" O, həm daim gülərüzlü, həm həlim xasiyyətli, həm də olduqca lütfkar insan idi. O, nə kobud, nə daş qəlbli, nə eyib tutan, nə də tamahkar adam idi. Habelə, ehtiyacı üzündən ona müraciət edən adam naümid qalmazdı, çünki o, həmin adamın ümidini qırmazdı. Peyğəmbər ﷺ üç yaramaz xislətə yaxın durmazdı: mübahisəyə, dünya malını artırmağa və özünə aid olmayan işlərə qarışmağa. O, yad adamın istər danışığında, istərsə də verdiyi sualda kobudluq etməsinə səbir edərdi. Peyğəmbər ﷺ olduqca təvazökar insan idi.

Peyğəmbər ﷺ ifrata varmayan kimsənin tərifini qəbul edərdi. O, heç kəsin sözünü kəsməz, danışan adam həddini aşdıqda isə, bunu ona qadağan edər və ya durub gedərdi. Habelə, iki şeydən birini seçmək təklif edildikdə, – günah işlər istisna olmaqla, – həmişə daha asan olanını seçərdi. O, peyğəmbərlərin sonuncusu, üstəlik, insanların ən genişürəklisi, ən düzdanışanı, ən mülayimi və

dostluqda onların ən comərdi idi. Peyğəmbər ﷺ ətir vurmağı sevər və heç vaxt ətirdən imtina etməzdi.

Kim onunla yaxından ünsiyyət qurardısa, onu sevərdi. Rəsulullah ﷺ evinə gəldikdə, vaxtını üç qismə bölərdi. Bir qismini Allaha ibadət edər, bir qismini əhli-əyalına həsr edər, bir qismini də özünə sərf edərdi. O, yerinə yetirdiyi ibadətlərin hamısını davamlı yerinə yetirərdi.

Ayaq üstə o qədər ibadət edərdi ki, axırda, ayaqları şişər və ona: "Ya Rəsulullah, niyə belə edirsən?! Axı, Allah sənin keçmiş və gələcək günahlarını bağışlamışdır?!"– deyildikdə o: "Şükür edən bir qul olmayımmı?!"– deyə cavab verərdi. Peyğəmbər ﷺ namazları vaxrlı-vaxtında qılar, üstəlik, ratibə namazlarını, ələlxüsus də gecə namazlarını davamlı yerinə yetirərdi. Hətta, hansısa üzrdən dolayı gecə namazını qılmadıqda, ertəsi gün onun əvəzinə cüt sayda namaz qılardı. Fərz namazlarını məsciddə camaatla birgə, nafilələri isə çox vaxt evində və hərdən də, məsciddə qılardı. Quranı da uzadaraq, ara verə-verə oxuyardı.

O, özünə ayırdığı vaxtın bir qismini yanına gələn adamlara sərf edər, öz buyruqlarını xüsusi adamların vasitəsilə camaata bildirər və heç nəyi onlardan gizlətməzdi. Ümməti üçün ayırdığı vaxt ərzində öz izni ilə fəzilətli insanlara üstünlük verməsi onun xasiyyəti idi. Rəsulullah ﷺ dilini qoruyar və yalnız özünə aid olan sözü danışardı. Habelə, insanlarla ülfət bağlamağa çalışar və onlarda özünə qarşı nifrət oyatmazdı. Üstəlik, hər bir qövmün görkəmli şəxsiyyətlərinə hörmətlə yanaşar və onları öz qövmlərinə başçı təyin edərdi. O, bəzi

insanlardan ehtiyat edər və özünü onlardan gözləyər, lakin gülərüzlülüyünü və gözəl əxlaqını heç birindən gizlətməzdi. O, daim öz səhabələrindən xəbər tutar, eləcə də, camaatdan hal-əhval soruşardı. Habelə, yaxşı işi tərifləyər və onu təsdiqləyər, qəbih əməli isə pisləyər və bunu qadağan edərdi. O, hər bir işdə ədalətli mövqe tutar, düz yol seçərdi. Səhabələrinin Allahı zikr etməkdən xəbərsiz olacaqlarından, yaxud arxayınlaşmağa meyl edəcəklərindən ehtiyat etdiyinə görə onlara qarşı diqqətsiz olmazdı. Onun hər bir vəziyyətə uyğun dəvət üslubu olardı. Nə haqdan yayınar, nə də həddi aşardı. Rəsulullah ﷺ duranda da, oturanda da, ancaq zikr edərdi. Peyğəmbər ﷺ yatağına uzandığı zaman da Allahı zikr edər və sağ əlini sağ yanağının altına qoyub yatardı.

Hər hansı bir camaatın yanına gəldikdə, məclisdə olan boş yerdə oturar, səhabələrinə də belə etməyi buyurardı. Məclisdə iştirak edən hər kəsin haqqını ödəyərdi. Belə ki, məclisdəkilərdən heç biri başqa birisinin, Peyğəmbərin ﷺ yanında özündən hörmətli olduğunu güman etməzdi. Ehtiyac üzündən onun yanına gələn və dərdini onunla bölüşən adam özü çıxıb gedənək səbir edərdi. Kimsə ondan bir şey istədikdə onu əliboş qaytarmaz, istədiyini ona verər, yaxud ona xoş söz deyərdi. O, insanlara xoş üz və gözəl əxlaq göstərər, onlara ata olardı. Ondan bir şey istədikdə o, heç vaxt "yox" deməzdi. O, insanların ən səxavətlisi idi. Ramazan ayını başdan-başa, həmçinin, birinci və dördüncü günlər, Aşura gününü və ondan bir gün əvvəl və ya bir gün sonra, habelə, hər ayın üç gününü və bəzən də bəzi ayların çox hissəsini oruc tutardı.

Ramazan ayında – ayın əvvəlindən axırınadək daha səxavətli olardı. O, sabahı üçün heç nə saxlamazdı. Nədənsə təsirləndikdə, ələlxüsus də Quran oxuduqda və ya onu dinlədikdə, için-için ağlayardı.

Hədiyyəni götürər və əvəzinə onu verən adama bir şey hədiyyə edərdi. Ən çox sevdiyi libas – baş və ayaqlar istisna olmaqla bədənin hər yerini örtən, iki qoldan və yaxalıqdan ibarət köynək idi və bu köynəyinin qolları biləklərinin oynağına çatırdı. Habelə, hibərə (yəni pambıqdan və ya bəzəkli kətandan hazırlanan Yəmən bürüncəyini) geyməyi də xoşlayardı. Ələlxüsus də, ağ rəngli libas geyməyi xoşlayardı. Hərdən yaşıl, hərdən qara, hərdən də rənginə başqa rəng qarışmış qırmızı rəngli libaslar geyərdi. İzarının ətəyi baldırının yarısına çatar və heç vaxt topuqdan aşağı düşməzdi. Ayaqlarına da səndəl, hərdən də məst geyərdi. Peyğəmbər ﷺ üzüyü sağ əlinin barmağına taxardı.

Onun üzüyü gümüşdən, qaşı da həbəş əqiqindən idi və üzərinə: "Muhəmmədun Rəsulullah" sözü həkk edilmişdi.

O, üzü aşılanmış dəridən, içi də xurma liflərindən ibarət döşəyin üstündə yatardı.

Peyğəmbərə ﷺ vəhy nazil olduqdan sonra on üç il Məkkədə, on il də Mədinədə yaşadı və nəhayət, altmış üç yaşında vəfat etdi.

Dualar

Bu kitabı tamamlamağa bizi müvəffəq edən, Öz lütfü ilə bütün gözəl işləri yoluna qoyan Allaha həmd olsun!

Allahım, bütün həmdlər Sənə məxsusdur!

Allahım, Sənin verdiyin nemətlərdən artırdığını azaldan, uzaqlaşdırdığını yaxınlaşdıran, yaxınlaşdırdığını uzaqlaşdıran, mane olduğunu verən, verdiyinə də mane olan bir kimsə yoxdur!

Allahım, bizə verdiyin xeyir-bərəkətini, Öz rəhmətini, lütfünü və ruzini artır!

Allahım, Səndən dəyişməyən və yox olmayan tükənməz nemətlər diləyirik!

Allahım, Səndən çətin gündə nemət və döyüş günündə əmniyyət diləyirik!

Allahım, bizə verdiyin şeylərin pisliyindən və vermədiyin şeylərin şərindən, bunlara görə bəlaya düşməkdən Sənə sığınırıq!

Allahım, bizə imanı sevdir və qəlbimizdə onu gözəlləşdir. Bizdə küfrə, günaha və asiliyə qarşı nifrət oyat. Bizi doğru yolda gedənlərdən et!

Allahım, bizim canımızı müsəlman olaraq al, bizi müsəlman olaraq dirilt və bizi rüsvay etmədən, fitnəyə salmadan əməlisalehlərə qovuşdur!

Allahım, insanları Sənin yolundan döndərən və Sənin elçilərini yalançı sayan kafirləri öldür. Onları cəzalandır və onlara əzab ver!

Allahım! Özlərinə Kitab verilmiş kafirləri də məhv elə! Ey haqq olan İlah!

Allahım, hamıdan çox sevdiyimiz peyğəmbərimiz Muhəmmədi ﷺ doğru-düzgün tanımağı, tanıdıqdan sonra onun bu vəsflərini unutmamağı və nəhayət, bu dünyada heç olmasa bircə dəfə və bundan da çox onu yuxularımızda görməyi bizlərə nəsib et!

Əzəmətli Ərşin Rəbbi olan Qüdrətli Allahdan, Onun gözəl adları və uca sifətləri ilə diləyirəm ki, bizləri Özünün sevdiyi və razı qaldığı saleh əməlləri yerinə yetirməyə və haqqı deməyə müvəffəq etsin, bizim işlərimizi yoluna qoysun, bizi, bizim valideynlərimizi, habelə cəmi müsəlman kişiləri və müsəlman qadınları, mömin kişiləri və mömin qadınları, onlardan həyatda olanları və ölüb gedənləri bağışlasın!

Bəzi hədis terminlərinin izahlı lüğəti

Həsən: Bu kəlmə (حَسَنٌ) lüğətdə yaxşı, çox gözəl və s. mənaları ifadə edir. İstilahi mənada isə İbn Həcərin tərifinə əsaslanıb, belə demək olar: "Həsən hədis, isnadının əvvəlindən axırına qədər (mühafizə, yaxud yazdıqlarını qorumaq baxımından) dəqiqliyi az olan insaflı ravinin aramsız, sapdırmadan (yəni, "şəzz" olmadan) və qüsursuz (yəni, "illə"siz) olaraq, özü kimisindən xəbər verdiyi hədisdir."

Həsən li-ğeyrihi: "Həsən" kəlməsinin lüğəti və istilahi mənası artıq yuxarıda izah olunub. "Li-ğeyrihi" (لِغَيْرِهِ) kəlməsinə gəlincə, bu ərəbcə "li" ön qoşmasından, "ğeyrun" ismindən və "hu" bitişən əvəzliyindən əmələ gəlmiş kəlmədir. Ayrı-ayrılıqda "li" aidiyyət, mənsubiyyət bildirir. "Ğeyrun" kəlməsi özgə, başqa və qeyri mənalarını, "hu" əvəzliyi isə onun, ona və onu mənalarını ifadə edir. İstilahi mənada isə bu, bir çox yollarla (isnadlarla) rəvayət olunmuş "daif" (zəif) hədisdir ki, onun zəifliyinin səbəbi ravinin yalançı və ya fasiq olmasıyla əlaqəli deyildir. Bu növ hədis dərəcə etibarilə "həsən"dən aşağı hesab olunur.

Həsən-Səhih: "Həsən" dərəcə etibarı ilə "səhih"dən aşağı hesab olunur. Elə isə fərqli mənaları olan bu iki istilahi terminləri necə cəm etmək olar? Alimlər Tirmizinin bu ifadəsində olan məqsədini müxtəlif cür izah etmişlər. Bu izahların ən gözəli isə ibn Həcərin izahıdır.

Bunu da Suyuti təqdirəlayiq hesab etmişdir. Xülasəsi budur:

– Əgər hədisin iki və daha çox isnadı varsa, bu ifadə "Bu hədis bir isnadla "həsən", digər isnadla isə "səhih"dir" mənasını ifadə edir;

– Əgər hədisin yalnız bir isnadı varsa, bu ifadə "Bu hədis bir qrup alimin rəyinə görə "həsən", digərlərinə görə isə "səhih"dir" mənasını ifadə edir.

İsnad: bu kəlmə (إِسْنَادٌ) lüğətdə istinad, mənbə, dəlil-sübut, dayaq və s. mənaları ifadə edir. İstilahi mənada isə bu kəlmənin iki mənası var:

– Hədisi istinad olaraq rəvayət edənə aid etmək;

– Hədisin mətninə gətirib çıxaran ravilərin silsiləsi. Bu mənada o, "sənəd"in sinonimi hesab olunur.

Movsul: bu kəlmə ərəbcə "vəsələ" (وَصَلَ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Belə isnada "muttəsil" də deyilir. Bu kəlmə isə ərəbcə "ittəsələ" (اِتَّصَلَ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu iki kəlmə: birləşdirilmiş, bitişdirilmiş, bağlanmış, əlaqədar və s. mənaları ifadə edir. İstilahi mənada isə sənədində bağlılıq olan isnad – "movsul" adlanır.

Muan'ən: bu kəlmə (مُعَنْعَنٌ) ərəbcə "an'ənə" (عَنْعَنَ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir.

İstilahi mənaya gəlincə, "filankəs filankəsdən" deyilərək isnaddakı həmin filankəslərin birinin digərindən rəvayət etdiyi, yaxud xəbər verdiyi, yaxud da eşitdiyi

bəyan edilmədən, onların adından rəvayət olunmuş hədisə muan'ən deyilir.

Muan'in: bu kəlmə (مُعَنْعِنٌ) ərəbcə "an'ənə" (عَنْعَنَ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Hərfi tərcümədə "filankəs filankəsdən" deyərək, bir neçə ravidən rəvayət etmək mənasını ifadə edir və bu üslubla rəvayət edən adama muan'in deyilir

İstilahi mənaya gəlincə, "filankəs filankəsdən" deyərək, isnaddakı həmin filankəslərin birinin digərindən rəvayət etdiyini, yaxud xəbər verdiyini, yaxud da eşitdiyini açıqlamadan, onların adından hədis rəvayət edən adama muan'in deyilir.

Munqəti: bu kəlmə [مَقْطُوعٌ] ərəbcə "məqtu" [قَطَعَ] felinin məlum növündən əmələ gəlmiş feli sifət olub, kəsilmiş, ayrılmış və s. mənaları ifadə edir. İstilahi mənada isə isnadının hər hansı bir yerində – ya əvvəlində, ya ortasında, ya da sonunda bağlılıq olmayan sənəd "munqəti" adlanır.

Mudəllis: buna ərəbcə tədlis (تَدْلِيسٌ), bunu edənə isə mudəllis (مُدَلِّسٌ) deyilir. Mudəllis: ərəbcə "dəlləsə" (دَلَّسَ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu da adamaldadan, yalançı, fırıldaqçı, kələkbaz və s. mənaları ifadə edir.

İstilahi mənada isə – bu, ravinin "tədlis" etməsi deməkdir. "Tədlis" kəlməsi lüğətdə yalan, fırıldaq, kələk və s. mənaları ifadə edir. İstilahi mənada "tədlis" üç növdür:

– tədlis əl-isnad: bu, ravinin başqa bir ravidən eşitmədiyi rəvayəti elə bir formada rəvayət etməsidir ki, həm eşitməsi, həm də eşitməməsi ehtimal edilir;

– tədlis ət-təsviyə: bu, "müdəllis" ravinin öz şeyxindən "eşitdim" deməklə hədis rəvayət etməsidir ki, o, isnadın tərkibində olan, bir-birilə rastlaşmış iki etibarlı ravinin arasında (hədisi birindən eşidib digərinə çatdırmaqda vasitə) olan etibarsız ravinin adını vurğulamır və onlardan birincisi "müdəllis" də deyildir. Odur ki, "müdəllis" ravi (şeyxindən eşitdiyi hədisin isnadını sadaladıqda) elə bir ləfz gətirir ki, o, iki etibarlı ravinin birinin digərindən həmin hədisi eşitməsi ehtimal edilir və beləliklə də, isnadın tərkibi yalnız etibarlı ravilərdən ibarət olur.

– tədlis əş-şuyux: bu, bir ravinin digərindən eşitdiyi hədisi rəvayət etməsidir ki, həmin ravi öz şeyxinin tanınmaması üçün onu ya məşhur olmadığı adı ilə, ya kunyəsi ilə, ya nəsəbi ilə, ya da xassəsi ilə qeyd edir.

Munkər: bu kəlmə (مُنْكَرٌ) ərəbcə "ənkərə" (أَنْكَرَ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir: inkar olunmuş, hamı tərəfindən qəbul edilməmiş və s. mənaları ifadə edir. İstilahi mənada isə etibarsız ravinin etibarlı raviyə müxalif olaraq rəvayət etdiyi hədis "münkər" adlanır.

Mursəl: bu kəlmə (مُرْسَلٌ) ərəbcə "ərsələ" (أَرْسَلَ) felinin məlum növündən əmələ gəlmiş feli sifətdir. Bu söz göndərilmiş, yollanmış və s. mənaları ifadə edir.

İstilahi mənada isə – bu, o hədisdir ki, isnadının sonunda tabiindən sonra gələn, Peyğəmbərlə ﷺ tabiin arasında olan ravi buraxılmışdır.

Səhih: bu kəlmə (صَحِيحٌ) lüğətdə müxtəlif mənalarda istifadə olunur. Məsələn: sağlam, möhkəm, qıvraq, gümrah və s. İstilahi mənada – isnadının əvvəlindən axırına qədər dəqiq olan insaflı ravinin aramsız, sapdırmadan ("şazz" olmadan) və qüsursuz (muəllələsiz) olaraq özü kimisindən xəbər verdiyi hədis.

Bu tərifi beş hissəyə bölüb şərh etmək olar:

a) İsnadın aramsız olması: yəni isnadın əvvəlindən axırına qədər hədisin ravilərindən hər biri, onu özündən əvvəlki ravidən bilavasitə götürmüş (eşitmiş) olsun;

b) Ravinin insaflı olması, yəni hədisin ravilərindən hər biri müəyyən dəyərlərə malik olmalıdır. Belə ki, o, müsəlman, həddi-büluğa çatmış, şüurlu olmalı, fasiq və əxlaqsız olmamalıdır;

c) Ravinin dəqiq olması, yəni hədisin ravilərindən hər biri tam dəqiq olmalıdır. Belə ki, onun ya yaddaşı möhkəm olmalı, ya da yazdıqlarını qorumaqda dəqiq olmalıdır;

e) "Şəzz" olmaması. Hədis "şəzz" olmamalıdır. Belə ki, rəvayəti "məqbul" ("səhih", yaxud "həsən") sayılan ravinin özündən də nüfuzlu raviyə müxalif olması "şəzz" adlanır.

d) "Muəlləl" olmaması. Hədisdə (sənəddə və ya mətndə) "illə" olmamalıdır. "İllə" hədisin mötəbər ol-

masında naqislik əmələ gətirən gizlin, anlaşılmaz səbəbdir.

Şəzz: bu kəlmə (شَاذ) ərəbcə "şəzzə" (شَذ) felinin məlum növündən əmələ gəlmiş feli sifət olub, tək-tənha, yana çəkilmiş mənaları ifadə edir. İstilahi mənada isə rəvayəti məqbul ("səhih", yaxud "həsən") sayılan ravinin özündən də nüfuzlu raviyə müxalif olaraq rəvayət etdiyi hədis "şazz" adlanır.

Zəif: bu kəlmə (ضَعِيفٌ) lüğətdə zəif, gücsüz, qeyri-qənaətbəxş və s. mənaları ifadə edir. İstilahi mənada isə nəql etdiyi hədisə etimad olunmayan etibarsız raviyə «daif» deyilir. Hədislə bağlı terminə gəlincə, onun da özünəməxsus istilahi mənası vardır. Belə ki, hədis alimləri hədisə "daif" dedikdə, həsən hədisdən aşağı dərəcədə yerləşən, yaxud özündə həsən hədisin vəsfini cəm etməyən, hər hansı şərtlərindənəə biri olmayan hədisi qəsd edirlər.

İstifadə olunmuş ədəbiyyat

1. “Aməlul-Yovm vəl-Leylə”, Əbu Abdurrəhman Əhməd ibn Şueyb ibn Əli ən-Nəsai, Muəssəsətur-Risalə, 2-ci nəşr, 1985.
2. “Bidayə vən-Nihayə”, Əbul-Fəda İsmail ibn Ömər ibn Kəsir əl-Qurəşi əd-Dimaşqi, Dar İhyaut-Turas, 1-ci nəşr, 1988.
3. “Cami li Əxlaq ər-Ravi və Ədab əs-Sami”, Xətib əl-Bağdadi.
4. “Camiul-Ulum vəl-Hikəm”, Əbul-Fərəc Abdurrəhman ibn Əhməd ibn Rəcəb əl-Hənbəli, Darul-Mərifə, 1988.
5. “Camiul-Usul fi Əhadisis-Rəsul”, Məcduddin Əbu Sədat Mubarək ibn Muhəmməd ibn Əsir, Məktəbətu Darul-Bəyan, 1-ci nəşr, 1969.
6. “Camul-Vəsail fi Şərhiş-Şəmail”, Əbul-Həsən Əli ibn Muhəmməd əl-Hərəvi əl-Qari, Mətbəətuş-Şərqiyyə.
7. “Cəla əl-Əfham fi Fədlis-Sələti alə Muhəmmədin Xeyril-Ənam”, Muhəmməd ibn Əbu Bəkr ibn Qeyyim əl-Covziyyə, Darul-Urubə, 2-ci nəşr, 1987.
8. “Səhih və Daif əl-Cami”, Muhəmməd Nasirəddin əl-Albani.
9. “Səhih və Daif Sunən ət-Tirmizi”, Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-Məarif.
10. “Dəlailun-Nubuvvə”, Əbu Bəkr Əhməd ibn Əli əl-Beyhəqi, Darul-Kutubul-İlmiyyə, 1-ci nəşr, 1985.
11. “Dəvabitul-Cərh vət-Tədil” Abduləziz ibn Muhəmməd ibn İbrahim.

12. "Dibac alə Muslim", Cəlaləddin əs-Suyuti.
13. "Ədəbul-Mufrəd", Əbu Abdullah Muhəmməd ibn İsmail əl-Buxari, Darul-Bəşairil-İslamiyyə, 3-cü nəşr, 1989.
14. "Ədvaul-Bəyan", Muhəmməd Əmin ibn Muhəmməd əl-Muxtar əş-Şinqiti, Darul-Fikr, 1995.
15. "Fəthul-Bari bi Şərh Səhih əl-Buxari", Şihabuddin Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani, Darul-Fikr, 1996.
16. "Fəthul-Muğis Şərh Əlfiyyətil-Hədis", Şəmsuddin Muhəmməd ibn Abdurrəhman əs-Səxavi, Darul-Kutub-İlmiyyə.
17. "Hilyətul-Övliya və Təbəqatul-Əsfiya", Əbu Nueym Əhməd ibn Abdullah əl-İsbəhani, Darus-Səadə, 1974.
18. "İsabə fi Təmyizis-Səhabə", Şihabud-Din Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani əş-Şafii, Darul-Ceyl, 1-ci nəşr, 1992.
19. "Qaidətu-Cəliyyə fit-Təvəssul vəl-Vəsilə", Şeyxul-İslam Əhməd ibn Abdulhəlim ibn Teymiyyə, Məktəbətul-Furqan, 2001.
20. "Qovl əl-Mufid alə Kitabut-Tovhid", Muhəmməd ibn Saleh əl-Useymin, Dar İbnul-Cövziyyə.
21. "Məcmuəl-Fətəva", Şeyxul-İslam Əhməd ibn Abdulhəlim ibn Teymiyyə, Mucamma Məlik Fəhd, 1995.
22. "Məcmuə Fətavə" Muhəmməd ibn Saleh əl-Useymin, Darul-Vətən.
23. "Məcməuz-Zəvaid və Mənbəul-Fəvaid", Nuruddin Əli ibn Əbu Bəkr əl-Heysəmi, Darul-Fikr, 1992.

24. "Mərifətus-Səhabə", Əbu Nueym əl-İsbəhani.
25. "Mədaric əs-Salikin beynə Mənazili İyyakə Nəbudu və İyyakə Nəstəin", Muhəmməd ibn Əbu Bəkr ibn Qeyyim əl-Covziyyə, Darul-Kutubul-Ərəbi, 1973.
26. "Mişkatul-Məsabih", Muhəmməd ibn Abdullah əl-Xətib ət-Təbrizi, Təhqiq edən: Muhəmməd Nasirəddin əl-Albani, Məktəbul-İslami, 1985.
27. "Mizan əl-İtidal fi Nəqdir-Rical", Şəmsuddin Əbu Abdullah Muhəmməd ibn Əhməd əz-Zəhəbi.
28. "Mocəm əs-Səğir", Əbu Qasim Suleyman ibn Əhməd ət-Təbərani, Muəssəsətul-Kutubus-Səqafiyyə, 1-ci nəşr, 1986.
29. "Mocəm əl-Kəbir", Əbu Qasim Suleyman ibn Əhməd ət-Təbərani, Muəssəsətul-Kutubus-Səqafiyyə, 2-ci nəşr, 1986.
30. "Musnəd Əbu Yəla əl-Movsuli", Əhməd ibn Əli ibn əl-Musənnə ət-Təmimi, Darul-Məmun, 1-ci nəşr, 1984.
31. "Musnəd İmam Əhməd", İmam Əhməd ibn Hənbəl əş-Şeybani, əl-Məktəbul-İslami, 5-ci nəşr, 1985.
32. "Mustədrək aləs-Səhiheyn", Əbu Abdullah əl-Hakim ən-Nisaburi, Darul-Mərifə.
33. "Muvatta", İmam Malik ibn Ənəs, Daru İhyaut-Turas, 1985.
34. "Nihayə fi Ğəribil-Hədis vəl-Əsər", Əbu Səadət əl-Mubarək ibn Muhəmməd əl-Cəzəri, Məktəbətul-İlmiyyə, 1979.

35. "Nukət alə Kitabi İbnus-Səlah", Əbul-Fədl, Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani, İmadətul-Bəhsil-İlmi, 1-ci nəşr, 1984.
36. "Səhih əl-Buxari", Əbu Abdullah Muhəmməd ibn İsmail əl-Buxari, Mətbəətul-Hindi.
37. "Səhih və Daiful-Cami", Muhəmməd Nasirəddin əl-Albani.
38. "Səhih İbn Hibban", Əlauddin Əla ibn Bəlnban əl-Farisi, Muəssəsətur-Risalə.
39. "Səhih İbn Macə", Muhəmməd Nasirəddin əl-Albani.
40. "Səhih Muslim", Əbul-Hüseyn Muslim ibn Həccac əl-Qurəşi ən-Nisaburi, Dar İhyaut-Turas.
41. "Səhih ət-Tərğib vət-Tərhib", Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-Məarif, 5-ci nəşr.
42. "Səhih ət-Tirmizi", Muhəmməd Nasirəddin əl-Albani.
43. "Səhih İbn Xuzeymə", Əbu Bəkr Muhəmməd ibn İshaq ibn Xuzeymə ən-Nisaburi, Məktəbul-İslami, 1970.
44. "Sifətu Sələtun-Nəbi", Muhəmməd Nasirəddin əl-Albani, Məktəbul-Məarif, 1-ci nəşr, 2006.
45. "Silsilətul-Əhadisis-Səhihə", Muhəmməd Nasirəddin əl-Albani, Məktəbətul-Məarif.
46. "Siratun-Nəbəviyyə, İmam Əbul-Fəda İsmail ibn Kəsir, Darul-Mərifə, 1971.
47. "Siyər Əlam ən-Nubələ", Şəmsuddin Əbu Abdullah Muhəmməd ibn Əhməd əz-Zəhəbi.

48. "Sunən Əbu Davud" İmam Əbu Davud Suleyman ibn Əşəs əs-Sicistani əl-Əzdi, Dar İbn Həzm, 1-ci nəşr.
49. "Sunən əl-Beyhəqi əl-Kubra" Əbu Bəkr Əhməd ibn Hüseyn ibn Əli əl-Beyhəqi, Darul-Mərifə.
50. "Sunən əd-Darimi", İmam Əbu Muhəmməd ibn Abdurrəhman ibn Fədl əd-Darimi, Darur-Rəyyan, 1987.
51. "Sunən İbn Macə" İmam Əbu Abdullah Muhəmməd ibn Yezid əl-Qəzvini, Darul-Mərifə, 1-ci nəşr, 1996.
52. "Sunən Nəsai əl-Kubra", İmam Əbu Abdurrəhman Əhməd ibn Şueyb ibn Əli ən-Nəsai, Darul-Kutubul-İlmiyyə, 1-ci nəşr, 1991.
53. "Sunən ən-Nəsai əs-Suğra", İmam Əbu Abdurrəhman Əhməd ibn Şueyb ibn Əli ən-Nəsai, Darul-Bəşairul-İslamiyyə, 2-ci nəşr, 1986.
54. "Sunən ət-Tirmizi", İmam Əbu İsa Muhəmməd ibn İsa ibn Sovrə ət-Tirmizi, Mətbəətul-Vətəniyyə.
55. "Şərh Muşkilul-Əsar" Əbu Cəfər Əhməd ibn Muhəmməd ibn Səlamə ət-Təhavi, Muəssəsətur-Risalə, 1-ci nəşr, 1994.
56. "Şərh ən-Nəvəvi", Muhyiddin Əbu Zəkəriyya Yəhya ibn Şərəf ən-Nəvəvi əş-Şafii, Darul-Qələm.
57. "Şərh Riyadus-Salihin", Muhəmməd ibn Saleh əl-Useymin.
58. "Şərh əs-Sunnə", Hüseyn ibn Məsud əl-Bəğəvi, Məktəbul-İslami, 3-cü nəşr, 1983.
59. "Şərəfu Əshabul-Hədis", Xətib əl-Bəğdadi.

60. "Şoəbul-İman", Əbu Bəkr Əhməd ibn Hüseyn ibn Əli əl-Beyhəqi, Darul-Kutubul-İlmiyyə, 1-ci nəşr, 1990.
61. "Tarix əl-Kəbir", Muhəmməd ibn İsmail əl-Buxari.
62. "Təbəqatul-Kubra", Əbu Abdullah Muhəmməd ibn Səd əl-Bəsri, Dar-Sadir, 1-ci nəşr, 1968.
63. "Təhzib əl-Kəmal", Yusuf ibn Zəki Abdurrəhman Əbul-Həccac əl-Mizzi, Muəssəsətur-Risalə, 1980.
64. "Təhzib ət-Təhzib", Şihabud-Din Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani əş-Şafii, Darul-Mərifə, 1996.
65. "Tədribur-Ravi və Şərh Təqribin-Nəvəvi", Abdurrəhman ibn Əbu Bəkr əs-Suyuti, Məktəbətu-Riyad.
66. "Təqribut-Təhzib", Şihabud-Din Əhməd ibn Əli ibn Həcər əl-Əsqəlani əş-Şafii, Muəssəsətur-Risalə, 1996.
67. "Təysirul-Mustələhəl-Hədis", Məhmud ət-Təhhan, Məktəbətul-Məarif.
68. "Tohvətul-Əhvəzi bi Şərhi Camiut-Tirmizi", Əbul-Əla Muhəmməd ibn Abdurrəhman, Darul-Kutubul-İlmiyyə.
69. "Umdətul-Qari Şərh Səhih əl-Buxari", Bədruddin əl-Ayni əl-Hənəfi, 2006.
70. "Vəfəyatul-Əyan və Ənbau Əbnaiz-Zaman", Əbul-Abbas Şəmsuddin Əhməd ibn Muhəmməd ibn Xəlkan, Dar Sadir, 1994.
71. "Zadul-Məad fi Hədyi Xeyril-İbad", Muhəmməd ibn Əbu Bəkr ibn Qeyyim əl-Covziyyə, Muəssəsətur-Risalə, 27-ci nəşr, 1994.

Mündəricat

Müqəddimə 5
İmam Tirmizinin tərcümeyi-halı 24
1–ci fəsil. Peyğəmbərin ﷺ vəsfi 32
2-ci fəsil. Peyğəmbərlik möhürü barədə varid olanlar.....61
3-cü fəsil. Rəsulullahın ﷺ saçı barədə varid olanlar 81
4-cü fəsil. Rəsulullahın ﷺ saçlarını daramasına dair varid olanlar.....90
5-ci fəsil. Rəsulullahın ﷺ (saç-saqqalındakı) ağ tüklər barədə varid olanlar.....95
6-cı fəsil. Rəsulullahın ﷺ (saçlarını) boyaması barədə varid olanlar.....101
7-ci fəsil. Rəsulullahın ﷺ (gözlərinə) sürmə çəkməsi barədə varid olanlar.....108
8-ci fəsil. Rəsulullahın ﷺ libası barədə varid olanlar.....113
9-cu fəsil. Rəsulullahın ﷺ dolanışığı barədə varid olanlar .131
10-cu fəsil. Rəsulullahın ﷺ məstləri barədə varid olanlar...135
11-ci fəsil. Rəsulullahın ﷺ səndəli barədə varid olanlar..137
12-ci fəsil. Rəsulullahın ﷺ üzüyü barədə varid olanlar...146
13-cü fəsil. Peyğəmbərin ﷺ üzüyü sağ əlinə taxması barədə varid olanlar.....152
14-cü fəsil. Rəsulullahın ﷺ qılıncı 159
15-ci fəsil. Rəsulullahın ﷺ zirehi barədə varid olanlar 163
16-cı fəsil. Rəsulullahın ﷺ dəbilqəsi barədə varid olanlar ..167
17-ci fəsil. Rəsulullahın ﷺ əmmaməsi barədə varid olanlar 170
18-ci fəsil. Rəsulullahın ﷺ izarı barədə varid olanlar 173

19-cu fəsil. Rəsulullahın ﷺ yerişi barədə varid olanlar ...180
20-ci fəsil. Rəsulullahın ﷺ başını örtməsi barədə varid olanlar ...182
21-ci fəsil. Rəsulullahın ﷺ oturuşu barədə varid olanlar ...183
22-ci fəsil. Rəsulullahın ﷺ söykəyi barədə varid olanlar ...186
23-cü fəsil. Rəsulullahın ﷺ söykənməsi ...192
24-cü fəsil. Rəsulullahın ﷺ yemək yeməyinin vəsfi ...194
25-ci fəsil. Rəsulullahın ﷺ çörəyinin vəsfi ...198
26-cı fəsil. Rəsulullahın ﷺ (istifadə etdiyi) qatışığın vəsfi...205
27-ci fəsil. Rəsulullahın ﷺ yeməkdən əvvəl və sonra yuyunmasının vəsfi ...239
28-ci fəsil. Rəsulullahın ﷺ yeməkdən əvvəl və sonra dediyi (dua)... 243
29-cu fəsil. Rəsulullahın ﷺ piyaləsi barədə varid olanlar ...251
30-cu fəsil. Rəsulullahın ﷺ (yediyi) meyvənin vəsfi ...253
31-ci fəsil. Rəsulullahın ﷺ içdiyi (suyun və s.) vəsfi ...259
32-ci fəsil. Rəsulullahın ﷺ (su və s.) içməsi barədə varid olanlar ...265
33-cü fəsil. Rəsulullahın ﷺ ətirlənməsi ...271
34-cü fəsil. Rəsulullahın ﷺ danışıq tərzinin necəliyi barədə...277
35-ci fəsil. Rəsulullahın ﷺ gülməyi barədə varid olanlar ...283
36-cı fəsil. Rəsulullahın ﷺ zarafat etməsinin vəsfi barədə varid olanlar ...294

37-ci fəsil. Rəsulullahın ﷺ şeir xüsusunda dediklərinin vəsfi barədə varid olanlar 303
38-ci fəsil. Rəsulullahın ﷺ gecə söhbəti barədə dediyi 315
39-cu fəsil. Rəsulullahın ﷺ yatmağının vəsfi 326
40-cı fəsil. Rəsulullahın ﷺ ibadəti barədə 336
41-ci fəsil. Duha namazı 373
42-ci fəsil. Nafilə namazının evdə qılınması 381
43-cü fəsil. Rəsulullahın ﷺ orucu barədə varid olanlar ...383
44-cü fəsil. Rəsulullahın ﷺ qiraəti 403
45-ci fəsil. Rəsulullahın ﷺ ağlamağı 409
46-cı fəsil. Rəsulullahın ﷺ yatağı 421
47-ci fəsil. Rəsulullahın ﷺ təvazökarlığı 424
48-ci fəsil. Rəsulullahın ﷺ əxlaqı 452
49-cu fəsil. Rəsulullahın ﷺ həyası 472
50-ci fəsil. Rəsulullahın ﷺ qan aldırması 474
51-ci fəsil. Rəsulullahın ﷺ adları 479
52-ci fəsil. Rəsulullahın ﷺ dolanışığı 483
53-cü fəsil. Rəsulullahın ﷺ yaşı 500
54-cü fəsil. Rəsulullahın ﷺ vəfatı barədə 504
55-ci fəsil. Rəsulullahın ﷺ mirası barədə varid olanlar ...527
56-cı fəsil. Rəsulullahı ﷺ yuxuda görmək barədə 536
Son söz 545
Rəsulullahın ﷺ vəsfi 549
Dualar 555
Bəzi hədis terminlərinin izahlı lüğəti 557
İstifadə olunmuş ədəbiyyat 563